**Şirin Xanım**
**Kərimbəyli Şadiman**

***Haqq dünyasına qovuşmuş, anam,***
***Mənsurə Əlövsət qızına***
***ithaf edirəm***

# ÖTƏNLƏRDƏN
# GƏLƏN SƏSLƏR

**BAKI-2013**

**Kitaba maddi və mənəvi dəstək**
**göstərdiyinə görə həyat yoldaşım**
**Abdullov Əli Əli oğluna minnətdaram.**

**Redaktoru: Abdullov Əli Əli oğlu**

Şirinxanım Kərimbəyli Şadiman
**«Ötənlərdən gələn səslər»**
Qanun Nəşriyyatı, Bakı 2013, 632 səh.

**Qeyd: ünvansız şeirlər Neft Daşlarında yazılıb**

*Bu kitab 1970-90-cı illərdə yazılmış və çap olunmamış şeirlərin toplusudur. Şeirlərin ruhu ilahi, dünyəvi, milli, vətənpərvərlik, təbiət, məhəbbət şeirləri ilə cilalanıb. Dünyanın ağrı-acılarını öz ürəyində daşıyan müəllifə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Sayt: www.shirinxanım-shadiman.net**

$Q\frac{0602010000}{AB022051}$ qrifli nəşr

© Ş.Kərimbəyli Şadiman, 2013
© Qanun Nəşriyyatı, 2013

## MƏN ONU BELƏ TANIDIM

Mən söz adamı deyiləm və bu vaxta qədər nə mətbuatda çıxış etmişəm, nə də ədəbiyyatda bir yazım da olmayıb, peşəm də ki, bədii ədəbiyyatdan çox uzaqdır – ancaq bədii ədəbiyyatın həvəskarıyam. Orta məktəbi 1966-cı ildə qurtarmışam. Demək lazımdır ki, sovet vaxtında təhsil çox yüksək dərəcədə idi və orta məktəbi qurtaran şagird indiki filologiya fakültəsini qurtaran tələbədən geri qalmazdı. O dövür kitab oxunan dövr idi, həmçinin yaxşı kitab dükanların rəflərində çox dayanmazdı.

1985-ci ilin payızı yadıma gəlir, mən onda «Günəşli» yatağında dəstə rəisi işləyirdim, geofizik materallarını təhfil vermək üçün «Neft Daşları» ekspedisiyasına gəldim, interpretasiya şöbəsində təzə işçi gördüm, o Şirin xanım idi. Onun atası da, rəhmətlik Ağabala kişi ekspedisiyada qaldırıcı maşında maşinist işləyirdi. O vaxt Şirin xanım nazik bir qız idi, onun qıvrıq saçlırı, qara parıldayan gözləri, uçaq yerişi diqqəti cəlb edirdi. 1986-cı ilin yazında mən ekspedisyanın baş mühəndisi vəzifəsinə təyin olundum.

«Neft Daşları»na tez-tez yaradıcı adamlar, məşhur artistlər gəlirdi. Yadımdan heç vaxt çıxmaz «Neft Daşları»na Xəlil Rza Ulutürkün və Mikayıl Mirzənin gəlməyi...«Neft Daşları»nın kino-teatrında oturmağa yer yox idi, adamlar ayaq üstə dayanırdılar. Qeyd etmək lazımdır ki, sovet qurluşu hələ dağılmamışdı, amma Ermənistan artıq Azərbaycana qarşı hərbi əməliyyatları aparırdı. Respublikada vəziyyət gərgin idi, vətənpərvərlik hisslər camaatda coşurdu. Belə mühitdə Mikayıl Mirzənin Ulutürkün şeirlərini deməyi «Neft Daşları işçilərinə böyük təsir etmişdi. Mən bu vaxta qədər Mikayıl Mirzədən emosional artist görməmişəm.

Hər şair onda xoşbaxt olur ki, nə vaxt cəmiyyətin onun yazdığına tələbatı var. Xəlil Rza Ulutürk xoşbəxt şair idi. O, öz vətənpərvərlik şeirləriynən fərqlənən yaradıcılığı ilə millətə lazım olduğunu sağ ikən gördü.

1991-ci ildə Şirin xanım Şadimanın «Ürək niyə ağrıyırsan?» adlı birinci kitabı çıxıb. O kiçik həcimli, 56 səhifəlik kitabçada çox mövzulara yer tapılıb – vətənpərvərlik, dünyaya baxış, təbiət, məhəbbət lirikası, amma onun bütün şeirlərindən əsas yaradıcılıq xətti kimi vətən sevgisi keçir. Şirin xanımı tanıyanlar bu birinci kitabı ilk qaranquş təki qəbul etdilər, ondan təzə kitablar, təzə şeirlər, mətbuatda və mediyada tez-tez görünməyi gözləyirdilər, amma təsadüf belə olmadı...

Şirin xanım böyük istedad sahibi – vergili şairdi. O istedad hələ ilk dəfə məktəbdə hiss olunub:

***İlk müəllim, bizə Sabir dayımız,***
***Dərsi bir gün bilməsəydik vayımız,***
***Döyülərdik qalmaz idi hayımız,***
***Dərsdən evə dönməz idik, Tağayım,***
***Necə həlim, dinməz idik, Tağayım.***

***Evə gəldim taxçamıza çıxardım,***
***Tapşırılan dərsliklərə baxardım,***
***Şeir oldu elə bərkdən oxardım,***
***Lap ürəkdən alışardım, Tağayım,***
***Öz səsimlə yarışardım, Tağayım.***

***(«Tağayım» poemasından)***

Şirin xanımın sözüylə, şeir oxunanda, öz səsi ilə yarışanda o qədər uyardı ki, şeir qurtaranda Şirin xanım üçün qurtarmazdı özündən də davamı gəlirdi, onun ilk müəllimi Sabir dayısı buna fikir verib. Bir dəfə saxlayıb onun inprovizasiyasını və Şirin xanımdan soruşub: «Ay qız, sən şeir yazırsan?», yox cavabı eşidəndə deyib: «Bu qız şair olacaq». Balaca qız hələ özü də bilmirdi ki, o onun yaradıcılığıdı, onu yazmaq lazımdır, dediyi misralar, ancaq və ancaq ona məxsusdur. Amma fələk az qalıbdır ki, bu təzə həyata başlayan gəncin bütün arzularını pozsun:

***On dörd yaşlı canım xəstə düşəndə,***
***Ürəyimi yaralayıb deşəndə,***
***Zalım əcəl yatağımı eşəndə,***
***Əzrayılın üzün gördüm, Tağayım,***
***Başım üstə özün gördüm, Tağayım.***

***(«Tağayım» poemasından)***

«Qarayara»ya məruz qalan gənc qız xəstəliyi çox ağır keçirdirdi. Qızın yanında qalan anası Mənsurə xala danışırdı ki, qırx gün huşu gəlmirdi Şirin xanıma, sayıqlamada qalan qız bu qırx günü, ancaq şeirlə danışırdı. Allah bilir, onun gözünün qabağına nə gəlirdi? Mənsurə xala indiyə kimi heyifsilənirdi ki, onun dediyi şeirləri yazmağa maqnitafon olmayıb. Ola bilsin bu xəstəliyi keçirtməknən Allah ona öz vergisin də bəxş edib. Sağalandan sonra arayış almaqçin, Ağabala kişi Siyəzən rayon xəstəxanasına gələndə ona deyiblər ki, qızının adını dünyasını dəyişdiyinə görə siyahıdan pozublar. O rus qadın Şirin xanımı görəndə, özünə xaç qoymağa başlayıb, Allahın möcüzələri böyükdür deyib.

Şirin xanım – xoşbəxt uşaqlıq vaxtında özü də bilmirdi ki, o istedad sahibidir və istedad Allahdan gələn paydır, hamısına verilmir və əsil istedadın aqibəti çox vaxt acınacaqlı, ağır olur. Yaşa girəndə, həyat təcrübəsi yığandan sonra bu misralar yaranıb:

***Niyə şair doğdun məni, ay ana?***
***Bu ağrı-acını çəkə bilmirəm.***
***Vallah həyatımdan doymuşam cana,***
***Sinəmdən məlalı tökə bilmirəm.***

***Məni də ilhamsız doğaydın sən də,***
***Dünyaya hamıtək baxa biləydim,***
***Təbimi beşikdə boğaydın sən də,***
***Hamıtək ağ günə çıxa biləydim.***

«Niyə şair doğdun məni, ay ana» «Çəkənə qəm dünya...» kitabından.

Şirin xanım qapalı şairdir, onu çox nadir halda cəmiyyətin içərisində, hansı isə tədbirdə görmək olar. Onun ən xoşbaxt vaxtı ona ilham gələndə, yaradıcılıq anlarında olur:

***Ah ilham pərisi, bu zülmət gecə,***
***Könlümün evinə gəlmisən necə?***
***Hissim, həyəcanım yenə əlində,***
***İncəlik, lətiflik tuti dilində,***
***Dadlı duyğuların qəlbimi bəzər,***
***Ruhumun bağında mələyə bənzər.***
***Büküb ürəyimi o atəşinə,***
***Dönmüsən bəxtimin sən günəşinə.***

***«Seçmələr-1» səhifə 172***

Şirin xanımın zəngin həyat təcrübəsi var – orta məktəb, üzümçülük savxozu, Volodarski adına tikiş fabriki, Bakı Dövlət Universitetində tələbəlik vaxtı, Gilgilçay kəndində kitabxana müdiri, nəhayət ki, «Neft Daşları» Geofizik ekspedisiyası. Onun çox şeirləri xalqın içərisində olmaqdan, xalqının dərdini, arzularını bilməkdən yaranıb.

Bununla belə qeyd etmək lazımdır ki, allah ona həmişə təklik şəraiti yaratmayıb. Cavan şairin «Neft Daşları»na gəlməmişdən qabaq da heç vaxt yaradıcılıq hücrəsi yox idi. «Neft Daşları»nın yataqxanasında özünə qapanmaq, həyatda birinci dəfə öz ilhamıyla təkbətək qalmaq onun yaradıcılıq üçün böyük imkan yaratdı. Onun çöx şeirləri dəmir dirəklərin üstündə, iş yerində yaranıb:

***Dənizdə uğultu, tufan, sərt külək,***
***İşdəyəm, narahat vaqon otağım.***
***Yenə də üzülür dəhşətdən ürək,***
***Donur əllərimdə qələm-varağım.***

***Dəmir dirəklərin üstündə bu an,***
***Boylanıb baxıram coşan dənizə.***
***Allah, rüzigarı qan tutubdu, qan,***
***Durub dalğalarla yenə üz-üzə.***

Şairin iyirmi iki il ömrü və ən bəhrəli yaradıcılıq illəri:

***Dəmir dirəklərin üstündə keçdi,***
***Ömrümün cavanlıq, gənclik illəri.***
***Taleyim gah nəş'ə, gah kədər içdi,***
***Ağartdı əndişə məhzun telləri.***

«Dənizlə mən» şeiri, «Çəkənə qəm dünya...»

Şairin bu iyirmi iki il ərzində «Ürək niyə ağrıyırsan?», «Çəkənə qəm dünya...», «Kiminə acı dünya...», «Ağıla bəhər dünya...» adlı iri həcimli kitabları çap olunub. Bu çıxan kitabların əsas leytmotivi vətəndaşlıq lirikasıdır.

1980-ci illərin axırı və 1994-ci il də daxil olmaqla Azərbaycan tarixində Azərbaycan-erməni müharibəsi ilə qalacaq. Müharibə vaxtı ölkəmizdə bəzi tanınmış şairlər, yazıçılar deyirdi ki, qoy müharibə qurtarsın, olan hadisələr analiz olunsun, sonra müharibə mövzusunu işləyərik. Amma Şirin xanım o illərin ağrı-acılarını, bizim uğurlarımızı, uğursuzluqlarımızı vətənpərvərlik şeirlərinin misralarına gətirib. Onun yazdığı vətənpərvərlik şeirlərində, poemalarında, dram əsərində Qarabağ müharibəsi tarixinin ağrılı, dəhşətli illəri səhifələnir. Şairin «Ağı-dastan», «Xocalı Soyqırımı», «Burdan bir atlı keçdi», «Ruhların fəğanı», «Qaçqın ana», «Qarabağda hal qalmadı», «Həyatda dost idik, şəhidlikdə də», «Axsıxa elinin didərgin harayı», «Gecədən doğan ölüm» poemaları, «Kahada ölüm hökmü» pyesi insanları fəlakətlərə salan müharibə acılarından bəhs edir. Şirin xanım sayır ki, bu növbəti məğlubiyyətdə, kim özünü Azərbaycan vətəndaşı hesab edirsə, hamısının günahı var, həmçinin özündən də bu günahı götürmür. Çünki Rus İmperiyasının siyəsətini həyata keçirən erməni daşnaklarının qarşısında millət bir yumruq kimi birləşə bilmədi.

***Ey Vətən yolunda canı verənlər,***
***Müqəddəs torpağa ərlər, ərənlər,***
***Ey qana şahidlər, qanı görənlər,***
***Qanlı köynəyini yurda sərənlər...***
***Siz şəhid, biz isə günahkar olduq,***
***Yurdlar haray çəkdi niyə kar olduq?!***

***Qarabağ sızlayır aman içində,***
***Yanır ellərimiz yaman içində,***
***Oxumuz paslanıb kaman içində,***
***Fırlanır bu dünya zaman içində,***
***Məğlubtək tarixdə qaldı adımız,***
***Boğuldu sinədə ah-fəryadımız.***

***«Kiminə acı dünya...», «Vətən fəryadı».***

Qədim Roma İmperiyasında Vətənə təhlükə olanda senat diktatoru seçirdi və altı aya bütün səlahiyyəti onun əlinə verirdi, lazım olanda, yarım il bəs etməyəndə diktatorluğun vaxtını yenə də altı aya uzadırdılar. Çox heyıf ki, bizim siyasətçilər Roma İperatorluğunun təcrübəsindən istifadə etmədilər və partiyaların mənafeylərini Vətənin mənafeyindən üstün saydılar.

***Yerdə qalmamalı bu tökülən qan,***
***Yara qaysaqlanır ötüşdükcə an,***
***Millət bir-birinə can deməli, can!***

***İqtidar, müxalif bir Azərbaycan,***
***Əsir yurd-yuvaya etməsək çarə,***
***Sonra lap dərinə işləyər yarə.***

***«Vətən fəryadı»***

Şirin xanım sayır ki, o nəsil ki, torpağı əldə saxlaya bilməyib qisasla yaşamalıdır:

***Bizə ölmək olmaz, ey soydaşlarım,***
***Analar, bacılar, qan qardaşlarım,***
***Quru gözlərimdən axan yaşlarım,***
***Batıb əsirlikdə olanlar yasa,***
***Qisasa çağırır Vətən, qisasa!***

***Uşaqdan böyüyə ağlamaq, yetər,***
***Özgəyə ümidlər bağlamaq, yetər,***
***Bəsdi sinəmizi dağlamaq, yetər,***
***Son qoyun bu yurddan olanlar yasa,***
***Qisasa çağırır Vətən, qisasa!***

***«Çəkənə qəm dünya...», kitabından «Qisasa çağırır» şeiri.***

Amma Şirin xanım inanır ki, vaxt gələcək və güclənmiş Azərbaycan Ordusu Ali Baş Komandanın – Prezdentin əmriylə hərbi döyüşdə öz bayrağını Xankəndinə sancacaq. Bu da bizim millətə eyhamla baxanlara cavab olacaq:

***Bizə məğlub deyir hər yoldan ötən,***
***Çox meydan oxuyur hər gəda, yetən,***
***İnsana şirindir canından Vətən,***
***Qartal hünərini bilsin yarasa,***
***Qisasa çağırır Vətən, qisasa!***

Biz istəyiriksə dünyada, müstəqil ölkələrin sırasında nufuzumuz olsun qələbə mütləq lazımdır. Sülhnən alınmasa da hərb yoluynan biz torpağı geri qaytarmalıyıq, çünki:

***Ləkəli namusu qanla yuyarlar,***
***Namussuz olanın bağrın oyarlar,***
***Qan alsaq dünyada bizi sayarlar!***
***Qorxağı kim duya, kim qulaq asa?***
***Qisasa çağırır Vətən, qisasa!***

Şirin xanımın vətən mövzusundan yazanda heç cür «Qan-qadalı məmləkətim» şeirindən yan keçmək olmaz. Çox vaxt mətbuatda bu şeiri «Səndən başlar, gözəl Vətən, Allahıma ibadətim» başlığıyla adlandırırlar. Bu fəlsəfə-tarixi şeir çox yanğılı və təsirlidir. Şirin xanım vətən mövzulu şeirlərində dəfələrlə torpağ uğrunda qurban getməyə hazır olduğuna rast gəlmək olur:

***Al canımı birdəfəlik, canım sənə fəda olsun,***
***Başın üstə bu sonuncu itgi olsun, qada olsun,***
***Dur əyilən qəddi düzəlt, get savaşa səda olsun,***
***Ayağının altın qazan, övladların gəda olsun,***
***Düşməninə, satqınına bu mərtəbən əda olsun,***
***Xain çıxsam, quşlarının yemi olsun təndə ətim,***
***Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.***

20-ildən çoxdur ki, torpaqlarımız düşmən tapdağı altındadır. Təzə nəsil doğulur, böyüyür o nəsil ki, artıq öz yaxınlarından, doğmalarından, və kitablardan Qarabağ haqqındakı müsibətləri oxumalı və eşitməli olurlar. Biz gözləsək ki, nə vaxt isə rusların və ermənilərin rəhbərləri bizə qarşı ədalətli olacaqlar, bu heç vaxt baş verməyəcək. Ruslara lazımdır ki, bu torpaq onların nəzarəti altında olsun, biz «avropalı» olub dini dəyişdirək, xaçpərəst olaq və Azərbaycanın hər küçəsində, evində rus dili işlənsin. Azərbaycan qabaqki kimi Rus İmperiyasının müstəmləkəsi olsun. Qarabağın açarını rus, erməni cibində yox, oz cibimizdə axtarmalıyıq:

***Qarabağın qıfılına düşməyirmi heç bir açar?***
***Şəhidimin məzarının goru çatlar, yerim qaçar,***
***Bədənimin əti gedər, vücudumdan dərim qaçar,***
***Eyləmişik özümüzü qul fikirli qəmə düçar,***
***Əri olan bir ölkənin yurdu qalmaz düzdə naçar,***
***Boğulubmu kişi həddim, ərdözümüm, dağcürətim?***
***Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.***

Biz vuruşmasaq, qan tökməsək, canımızı qurban verməsək, bu torpaq heç vaxt qaytarılmayacaq:

***Nədir belə qoruyuruq canımızı tən altında,***
***Kürsülərə aşiq olduq hiss boğuldu mən altında,***
***Ağlımızı ovxalayır iradəmiz çən altında,***
***Sərçələrin sürüləşib, qartalların dən altında…***
***Öz gözümün güzgüsündən sanki mənə ay surətim,***
***Ey qovğadan qurtulmayan qan-qadalı məmləkətim.***

Qarabağın problemi heç vaxt diplomatik yolla prezdentin və prezdent aparatının gördüyü işlərlə həll edilməyəcək, o vaxta qədər ki, ümummilli xalq hərəkatı olmayacaq. Dəfələrlə müsəlman azərbaycanlılara qarşı törədilən soyqırımlar bundan sonra heç vaxt bizim yaddaşımızdan çıxmayacaq:

***Kitablar az yazdı bu cinayəti,***
***Qocalar yaşatdı bu hekayəti,***
***Yaddaşın gətirib imdadlarına,***
***Onlar pıçıldadı övladlarına.***

*Ağıllar hifz etdi qırğını, ahı,*
*Arxivlər gizlətdi haqqdan günahı.*
*Fəqət unuduldu vaxtın sabahı,*
*Aldada bilməyib şeytan Allahı.*

***«Qanlara boyandı Bakı ah ilə» şerindən.***

Çox təəssüf ki, şəhid məzarlarıyla dolu Azərbaycanda bu günə qədər Lenin, Fioletov, Kalinin adlı küçələrə rast gəlmək olur.

Şirin xanımın sovet dövrdə yazdığı şeirlərində özünəməxsus xüsusiyəti var. O Sovet imperyasını heç vaxt özünün böyuk vətəni saymayıb. Onunçun Vətən həmişə onun Azərbaycanı qalırdı. Şirin xanım aydın bilirdi ki, milliyətcə o azərbaycanlıdır, dili – türk, dini də –İslam, o türk dünyasının nümayəndəsidi, islam aləmin nümayəndəsidi. Millətin yaddaşında qalmaqçın mütləq öz millətinin dilində yaratmaq lazımdır, öz millətinin mədəniyyətini inkşaf etdirmək lazımdır. Bu düşüncəsi ilə mən heç vaxt Şirin xanımı milliyətçi də saya bilmərəm, çünki o bütün millətlərin xalq mahnılarını, musiqisini, folklorunu böyük diqqətlə mediada izləyir və onnan feyziyab olur. O görürdü və anlayırdı ki, bir ölkədə o qədər milliyətləri, bir-birindən dil fərqli, din fərqli, mentalitet ayrılıqlarını birləşdirmək imperiya siyasətindən əmələ gəlir. Bizim torpağımızın işğal altında olması «böyük qardaşın» imperiya siyasətindən irəli gəlir. Rusiyanın sabiq prezidentı Medvedev demişdi ki, «Azadlıq azadlıqsızlıqdan yaxşıdır». Deyəsən, bu sözləri qonşular, ancaq özlərinə aid sayırlar.

Yuxarada misal gətirdiyim xüsusiyətlərə görə Şirin xanımı Sovet vaxtda çap eləmirdilər, hələ indi də onun yaradıcılığına münasibət eyni mənalı deyil. Çünki rus mədəniyyəti üstündə bəslənmiş adamlar, rusu özünə türkdən daha da yaxın sayan adamlar, aydındır ki, Şirin xanımın yaradıcılığına nə münasibət göstərər? Bir də çətindir ki, rus düşüncəli müəllimlər azərbaycanları Vətəni sevməyi öyrətsin.

Ümumiyyətlə, Şirin xanım Şadimanın iri həcmli kitablarının mövzusunu müəyyən şərtlə İlahi, Dünya, Vətən, Özümü axtarıram, İlham, Məhəbbət, Təbiət, Xatırlamalar başlıqları ilə hissələrə bölmək olar.

Onnan başqa, onun yaradıcılığında nəzmdə yazılan dramları, poemaları, rəvayətləri, bayatıları, dördlükləri, rübailəri və ancaq Şadimana aid yanğıları xüsusiylə qeyd eləmək lazımdır. Onun məqalələrinin dilini də nəzər-diqqətə çatdırmaq yerinə düşər. Şadimanın nəsirdə yazılan məqalələrini də oxucu nəsirli-şeir kimi mənimsəyir, o qədər mətin axıcılığı var ki, onun publisist yazılarında... Şadiman xanım nəsiri də qafiyəynən yazır, o da, deyəsən məqalələrin şirinliyini artıran bir amildir. Şairə hər şeir növündə yazır. Onun hecada yazdıqları şeirlər dörd hecalıdan başlamış on altı hecalıya qədərdir. Hecadan başqa onun çox şeirləri sərbəstdə və əruzda yazılıb. Bütün bu amillər onun yaradıcılığını rəngbərəng və zəngin edir.

Mən bir qədər də müəllifin dünya şeirləri haqqında fikir söyləmək istəyirəm. Hələ şairənin «Ürək niyə ağrıyırsan?» adlı
ilk toplusundan «Damğalayırlar» şeiri cahanda baş verən haqsız

lıqlardan bəhs edirdi. Onun «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitabından – Dünya sevincdən doldu ya kədərdən gözlərin? Verilir haqqa cəza, Dünya mənə tanış gəlir–«Siyasətdi, siyasət, Dünya susdu, Yalan dünya», «Kiminə acı dünya, kiminin tacı dünya» kitabından, «Daha bu dünyaya səbrim çatmayır, Dünya şeytan içində, Erməni fitvasını dünyaya faş eyləmisən, Hər kəs öz gözüylə baxır dünyaya» - «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» kitabından, «Qara fikirlər olmasa, Ey mağaralar insanı, Dünyanın qəminə qəm kimi baxdım» – «Ay adamlar, mən burdayam» adlı kitabından nümu-nələrdir.

Yuxarda sadaladığım kitablardan misal gətirdiyim bu şeirlərin adlarını çəkməmək qeyri mümkündür, çünki onlar, şairin dünyavi fəlsəfəsini tə‘yin edir, hansı ki, hələ Zərdüşt peyğəmbərdən gələn xeyir-şər davası, ədalət-haqsızlıq mübarizəsi, şeytannan-Allah mübarizəsi daim dünyada öz təsdiqini tapır. Şər, haqsızlıq, kasıbçılıq bu dünyada həmişə var idi və olacaq, ancaq hər adamdan aslıdır ki, o hansı göznən mövcud vəziyyətə baxır:

***Zülm ərşə bülənddi,***
***Həyat feildi, fənddi,***
***Əzrayıl himə bənddi,***
***Ay çəkənə qəm dünya,***
***Çəkməyənə dəm dünya.***

***Kiminin yurdu savaş,***
***Kiminin gözündə yaş,***
***Kiminin ürəyi daş,***
***Ay çəkənə qəm dünya,***
***Çəkməyənə dəm dünyə.***

***Birinin başda tacı,***
***Acın puldur amacı,***
***Yox sabaha əlacı,***
***Ay çəkənə qəm dünya,***
***Çəkməyənə dəm dünya,***

İnsan Yaranandan sonra çox şey insanın əliylə bu dünyanın başına gəlib. Xatirələr səlnamələrdə qalmayıbsa da daşda, sümüklərdə, qədim heykəllərin qalığlarında keçmiş dövrlərin izlərini qoyub və o izlərnən bərpa olunmuş tarix göstərir ki, insanın yaşayışı heç vaxt sakit, sülh vəziyyətdə keçməyib. İnsanın tarixi söküb-tikmək, dağıdıb-yaratmaqdır deyəsən:

***Baxışından min əsrin dərdi-səri tökülür,***
***Gündüzün əliylə min bir zülmət sökülür,***
***Gözlərinə gecənlə, sanki sürmə çəkilir,***
***O göz yaşın deyilmi çayların, dənizlərin?***
***Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?***

Və yaxud:

***Başında min bir qovğa əsirlər yola saldın,***
***Hər günü ötürəndə bir mərhələ qocaldın,***
***Namərd əlində enib, mərd əlində ucaldın,***
***Sinəndə köçün sürdü çirkinin, təmizlərin,***
***Dünya, sevincdən doldu, ya kədərdən gözlərin?***

Bu suala «Dünya sevincdən doldu ya kədərdən gözlərin?» adlı şeirinən şairə cavab verir.

***Dünyanın qəminə qəm kimi baxdım,***
***Dünyanın sevinci güldürdü məni,***
***Bütün ağrıları qəlbə buraxdım,***
***Bu ağrı acılar öldürdü məni.***

Şirin xanımın şeirlərində qəm, kədər çox olduğuna görə dəfələrnən tənqidə məruz qalıb. Burda da şairin yaradıcılığı qəmin filosofu sayılan Şopenqauernən səs-səsə verir. O yazırdı ki, bütün insanların gündəlik həyatı qəmdən, kədərdən ibarətdir. İnsan yaşayır, gəlir ölüm astanasına çatır, ondan soruşanda ki, «həyatının ən parlaq anını de» çox adamlar heç onu yadına sala bilmir. Bu parlaq an üçün böyük alimlər həyatı elmə qurban verir, bu parlaq an üçün əsli yaradıcılar yaşayır və yaradır. «Dünya susdu» şeirində Şirin xanım yazır:

***Qətrə-qətrə qan töküldü, çox talandı məkanımız,***
***İnsanlığa yaxşı bələd ali ədəb, ərkanımız,***
***Haqqımızı anlatmağa az tapıldı imkanımız,***
***Heç olmadı özümüzə, içimizə təkanımız,***
***Hər zülümə, müsibətə, həqarətə dünya susdu,***
***Ağzımıza daş basıldı, ədalətə dünya susdu.***

***Hey çəkildi gözümüzə zaman-zaman yağı mili,***
***Hey kəsildi cəlladların əllərində haqqın dili,***
***Nə bir qansız, nə qovğasız olmadı ki, vətən ili,***
***Ocaqları kor qoydular, quru yurdda qaldı külü,***
***Fitvalarda biz əzildik, biz üzüldük, dünya susdu***
***Kətan təki hey nazildik, hey süzüldük, dünya susdu.***

***Şəhidimiz məzar-məzar çoxaldıqca, adiləşdik,***
***Torpağımız hissə-hissə alındıqca, vadiləşdik,***
***Beynəlmiləl deyildikcə üzümüzə, sadələşdik,***
***Yurdumuzdan pay verməkçin xainlərlə, vədələşdik...***
***Qan töküldü, bel büküldü, yurd söküldü, dünya susdu.***
***Atamızın qəbirinə xaç çəkildi, dünya susdu,***

Mən ona görə bu şeirdən belə çox parça götürdüm ki, çünki bili-rəm Şirin xanımdan yaxşı deməyi bacarmaram. Mənim yeganə arzum budur ki, kimin indi yaşı 40-70 il arasıdır, tutduğu vəzifəyə baxmayaraq, növbəti hərbdə onları ön cəbhəyə çağırsınlar, çünki torpağı əldən verməkdə bu nəsilin böyük günahı var. Bir də dünyadan ədalətlik gözləmək boş şeydir, dünya güclünü sevir.

***Budur, qansız, qadasız***
***Yaşamaq üçün haqqına gedən yol,***
***Haqlı olmaq istəyirsən –***
***Güclü ol,***
***Güclü ol!***

Şirin xanımın İlahi şeirləri haqqında söz deməmək günah olardı. Onun bütün kitabları Allaha müraciətnən açılır, onnan sonra dünyavi şeirlər təbii ki, davamçı kimi gedir. Allahımız yer üzərində öz xalifəsini yaradanda (Quran-2/30) yəqin ki, Şirin xanım kimi sözü düz, niyyəti düz, əməli açıq, əxlaqı təmiz adamı nəzərdə tuturdu. Amma insan şeytannan mübarizəyə dözmədi və onu düz yola dəvət üçün cənnətnən bərabər cəhənnəm də lazım oldu. Bütün dünyanın tarixi göstərir ki, yer kürəsində insanların günahları çoxalır ki, azalmır. Həbsxanalar dustaqlarnan doludur və azadlıqda da hələ nə qədər adam qalır, kimin ki, əsil yeri zindandı! Günahların sayının göstəricisi ölkələrdə olan vəkillərdir. Bütün ölkələrdə ən populyar peşə – vəkildir. Buna baxmayaraq, bu dünyada haqq qazanmaq çox çətindir. Varlı, güclü həmişə kasıbdan, zəifdən haqlıdır. Ona görə də yaşadığımız dünya haqsız dünya kimi adlanır, kasıbın, gücsüzün haqq qazanmaq üçün yeganə imkanı axirət məhkəməsinə qalır.

***Orda rüşvət, orda dayı olmayacaq,***
***Orda kimsə, bir kimsəni vurmayacaq,***
***Orda ciblər haram pulla dolmayacaq,***
***Kimsə kimin arxasında durmayacaq.***

***Orda bəşər öz haqqına çatacaqdı,***
***Fərqi yoxdur hansı dində doğulacaq.***
***Təmiz ruhun təndən ayrı yatacaqdı,***
***Orda hikkə, orda tamah dağılacaq.***

***«Bir tanrı var»***

Şadimanın ilahi şeirlərini «Böyük Yaradana, Qoru Allahım, Rəbbə, Nə ola yetişəm sənə, Allahım, Niyə şairləri yaratdın, Allah» –«Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitabından, «Bir Tanrım var, Yaradanım, Qalib ola bilməz» – «Kiminə acı dünya, kiminin tacı dünya» kitabından, «Quranda şairlər haqqında ayə, Saxla göydə hələ daşı, Allah; Göyu, yeri yaradan, Dualarımda mən səni tutdum» – «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» kitabından , «Səcdə nə gərək hər bütə Allah olan yerdə; İlahi, sən məni oda salmısan, Allah öz sirrini bizə verməyir, Allah bizim yanımızda; Sənə açılıbdı əllər, İlahi» – «Ay adamlar, mən burdayam» kitabından xüsusiylə qeyd eləmək lazımdır. Şirin xanımın ilahi şeirləri içərisində iki dənə dua şeiri var.

Biri hələ onun ilk kitabında, Sovet vaxtda çıxmış «Ürək niyə ağrıyırsan» toplusunda – «Əncam et» adlı şeiridir. Bu dua 1990-cı ildə – Qarabağ müharibəsinin gur vaxtında yazılıb:

***Axıdılan qanlara,***
***Yandırılmış canlara,***
***Köməksiz insanlara,***
***Ay Allah, bir əncam et!***

O vaxtdan 23 il keçib, amma vəziyyət dəyişmir, o zamannan müqayisədə artıq vəziyyət getdikcə pisləşir. İndiki vaxta qədər bizim 20% torpağlarımız hələ də işğaldadır və problem necə var idi belə də qalır.

***Qan ağlayan ellərə,***
***Ağı deyən dillərə,***
***Bu bəlalı illərə,***
***Ay Allah, bir əncam et!***

Ümumiyyətlə, demək lazımdır ki, ilahi, vətən, dünya janrlarda şeir yazmaq şairdən fəlsəfə səmtli ağıl, böyk emosianal enerji və istedad tələb eləyir. Kim ki, bu mövzuda yazmamağa çağırır, deməli yuxarıdaki sadalanan üç cəhətdən, heç olmasa birindən, onun çatmamazlığı var. Bu mövzular ümumbəşər mövzulara aiddi və hər adama onu yazmaq verilməyir.

Xüsusiylə qeyd etmək yerinə düşər ki, kitabların ilham adlı bölməsindən «Tək səni istəyirəm, Mavi yuxularım, Yanacağam, Sazım çal» – «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», «İki damla yaş, Baxa bilmirəm, Dəli ürək, Dolan vaxtı, İlham pərisi, Kimdən öyrəndin, Ürəyimin dolan vaxtı»–«Kiminə acı dünya, Kiminin tacı dünya», «Nə şölələr saçdın yenə? Ürəyimdə diləklərim sellər təki, Dilə gəldi ürəyimdə duyğular, Ağladır könlümü sultan təbim» – «Ağıla bəhər dünya, Ürəyə qəhər dünya» kitablarından seçmələrdir. Mən çapdan çıxmış kitablarda gedən bu bölmələri Şirin xanımın yaradıcılıq labaratoriyası adlandırardım. Çətindir kim isə bu labaratoriyaya girə bilsin. Neft Daşlarında işləyəndə mən bir dəfə belə səhnə gördüm: Qazan elektrik sobada qaynayır, balaca mətbəxtdə tavanın üstündə su damcıları yığılıb və Şirin xanım, əlində qələm nə isə yazır. O yazı «Burdan bir atlı keçdi» poeması olmuşdu. O xörəyin duzu, istiotu necə olub yadıma gəlmir, amma bu poemaya, şair-publisist Əli Rza Xələflinin yazdığı «Axtala əfsanəsi» kitabından belə başa düşmək olar ki, poemanın həm duzu, həm istiotu tam qaydasında olubmuş. İlham bölməsinin şeirlərinin lirikasını məhəbbət şeirləriynən müqayisə etmək olar, yanğı da, atəş də heç vətənpərvərlik şeirlərdən az deyil.

***İçimdə alışan yanan bir odam,***
***Eşqi ərşə büLənd dəli fəryadam,***
***Məndən od alıbdı Həvva və Adam,***
***Min ildi qovuyla közsüz ocağam,***
***Ölsəm də məzarda hey yanacağam!***

***Köksə İlahidən basılıb atəş,***
***Ki, hərarətimdən od alır Günəş,***
***Yer-göy bu alovdan qəş eləyir, qəş!***
***Dünyanın sazağın mən anacağam,***
***Ölsəm də məzarda hey yanacağam!***

Şirin xanımın yaradıcılıq enerjisinin reaktoru o qədər güclüdür ki, onun «hərarətindən od alır günəş», həmçinin laqeyd adamların ürəkləri də onun odunnan alışır.

***Söndürə bilməyir odumu rüzgar,***
***Odur ki, arada qalıbdı ögar,***
***Qovrulur köksümdə ürək, can-cigar,***
***Külümlə alova boyanacağam,***
***Ölsəm də məzarda hey yanacağam!***

***Dad çəkir əlimdən uca fələklər,***
***Yanır atəşimdən odsuz ürəklər,***
***Göydə qanad açır mavi mələklər,***
***Demə ki, ey könül, usanacağam,***
***Ölsəm də məzarda hey yanacağam!***

Yuxarıda yazmışdım ki, Şirin xanımın bütün yarıdıcılığının qırmızı xətti – vətənpərvərlikdir. O vətəndaşlığı həmçinin sevği şeirlərinə də gətirə bilib. Məhəbbət bölgəsinin diqqətimdə iz qoyan bir şeirindən danışmaq istəyirəm. Bu şeirin adı « Yanıq Kərəm»dir, hamı bilir ki, bu dastan erməni Əsli və müsəlman Kərəmin arasında baş vermiş məhəbbət faciəsindən bəhs edir. Azərbaycanda qədim vaxtlardan xaçpərəstləri ermənilər kimi adlandırırdılar. Dağlıq Qarabağda xaçpərəst erməni kəndləri var idi, belə çıxır ki, torpaq da ermənilərin idi. İndi öz-özümüzə sual verək: Canubi Qafqazda ermənilərdən də çox, yerli xalq gürcülər yaşayır, həmçinin Azərbaycanda da onların kəndləri var və Zaqatala və Qax rayonunda müsəlmanlaşmış gürcülər – inqiloylar da yaşayır, niyə Qarabağ xaçpərəstlərini gürcülər yox ermənilər adlandırırlar? Niyə görə ərmən adını daşıyan xalq bizim türk dilimizə çox meyillidir? Niyə görə bizim xalq mahnıları, onlar, əsil öz xalq mahnılar kimi qəbul edirlər? Bununçın da Türkmən və Ərmən sözlərini müqayisə edək. Bu hər iki sözü türk dilinə aid etmək üçün linqvistika üzrə böyük mütəxəssis olmaq lazım deyil. Türkmən – mən türkəm, Ərmən – mən ərəm mənası daşıyır. Deməli bu iki xalq eyni köklüdürlər – türk mənşəlidirlər. Hamımıza aydınca bəllidir ki, ermənilərin arasında ağbəniz, göygöz və qara, tükli olanlar var. Ağbəniz, göy -göz olanlar – ermənilərdi, türk mənşəlidirlər; qara, tüklü – haylardı, kimi ki, ruslar Suriyadan və Türkiyədən cənubi Qafqazı ələ keçirəndə bizim torpaqlara köçürtmüşdülər. XİI-ci əsrdə qıpçaq türklər də (rus ədəbiyyatda Polovtsı) Şimal Qafqaz səhralarından Cənubi Qafqaza köc eləyəndə yerli xalqların arasında əriyiblər. Buna görə də türk mənşəli erməniləri haylardan ayırmaq lazım idi.

Haylar Qafqaza gəlmədilər və onların Qafqaza köçürülməsi Rus İmperiya siyasətiynən bağlı idi. İndi Dağlıq Qarabağın erməniləri özləri də hayların əlində, rusların siyasətinin əlində əsir qalıb. Fikirimcə, bədii ədəbiyyatda Şadiman ola bilsin birinci olub ki, kim bu problemə belə nöqteyi-nəzərdən baxıb.

***«Yanıq Kərəm» –***
***«Əsli, Kərəm» dastanın can fəryadı,***
***Bir millətin iki dində nalə dadı,***
***O xaçpərəst Albanyanın İslam adı,***
***İsa (s) ilə Mühəmmədin (s) Rəbb imdadı!...***

***«Yanıq Kərəm» –***
***Əsrlərin o tayında din savaşı,***
***Bir millətin gözlərindən axan yaşı,***
***İslamını tutan Kərəm dərdə naşı,***
***O xaçpərəst Əsli ilə can sirdaşı.***

***«Yanıq Kərəm» –***
***İki gəncin bir məhəbbət simfonyası,***
***Bir tayfanın iki dində hicran yası,***
***Kərəm deyib, yanan qızın qız həyası,***
***Külə dönən iki gəncə dövran ası.***

«Bir millətin iki dində nalə dadı», «Bir millətin gözlərindən axan yaşı», «Bir tayfanın iki dində hicran yası» deməklə şair oxucusuna hansı mətləbləri çatdırır? Bizim milli akademiklər vaxtıyla şairənin fikrinə gələ bilsəydilər, məsuliyyəti öz boynuna götürə bilsəydilər, vaxtında lazım olan məqalələrnən kütləvi mətbuatda çıxış etsəydilər milləti başa salsaydilar ki, Yuxarı Qarabağda biz iki dində bir millətik, bunu orta məktəblərdə dərsliklərə salsaydılar biz indi nə Qarabağ problemiynən üz-üzə qalmazdıq, nə də o qədər qurban verməzdik. Bu şeir birinci dəfə 2007-ci ildə «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» kitabında çıxıb, 2008-ci ildə «Kredo» qəzetində və 2008-ci ildə «Seçmələr» kitabında çap olunub, internetdə saytlara qoyulub, heyif ki, bu şeir ədəbiyyatnan bağlı heç bir mütəxəssisin diqqətini cəlb etmədi. Yəqın ki, haylar bizimnən aparılan ideoloji müharibədə belə səhflər buraxmazdılar. Baş vermiş bu faciəvi vəziyyətlə bağlı biz, birinci növbədə, özümüzü təqsirləndirməliyik.

Şirin xanımın təbiətnən də bağlı çoxsaylı şeirləri var, onlar o qədər lirikdir ki, adamda bu axıcı bəndləri əzbərləmək istəyi yaranır. Amma mən bu şeirlərin arasında ekoloji şeirləri izhar etmək istəyirəm. Axırıncı 20-30 il dünyada kəskin əhali artmasıynan xarakterizə olunur və onuynan bağlı qida, təmiz hava, içməli su mənbələrinin azalması problemlərini şairə müasir adamın qabağında sual kimi qoyur: «Ya təmizlikdə yaşamaq, ya da çirkdə batmaq?» Şairə buna kənardan müşahidə kimi yanaşmır, özünün fəal bir mövqeyi var, hansı ki, bu onun şeirlərdə təzahür edir.

Hələ onun birinci kitabından bu mövzuya aid şeirlərini qeyd eləmək olar. Onun «Yanan övladam, Xəzər, dərdə döz ağlama», «Ey adamlar, mən burdayam» kitabından – «Fəlakət yürüyür məmləkətlərə və Kim kəsibdi bu ağacın başını» yüksək vətəndaşlıq mövqeyi ilə fərqlənir.

Şadimanı başqa müasir şairlərdən fərqli cəhətlərindən biri də onun satirik şeirlərdir. İndi satiraya üz tutan az qism şairlərə rast gəlmək olar. Müasir zamanda belə şeir növü dəb deyil, deyəsən o heç vaxt şairlərin arasında populyar olmayıb, çünki belə şeilərlə dost qazanmazsan, amma düşməninin sayı artar. Sayca cəmi – 19 dənədir. Bu satiralar – «Çıxar canı yoxsulun, Satıram, Jorjiklər, Bu yazıq xalqa qalan boş quruca zəhmət olur» – «Seçmələr-1», «Ah yazıq məmləkət, ah yazıq Vətən, Müstəqilik, Əcəb yaxşı məkandı, Şeytan özü puldu, pul, İndi hamı varlıya, pulluya təzim edir, Neftçi mühəndisin yuxusu, Rüşvətə pərəstiş, Haram yeyən başdadı, Məddahı» – «Seçmələr-11», «Ay bu könül yoxsulu, Günah edəni, Ucaldaq islamı, Kişidi bu, Tülkü xislətli adam, Ələbaxan» – «Seçmələr-111» də özünə yer alıb. Bu şeirləri sosial, din və məişət satira növlərinə bölmək olar.

Çap olunmuş kitabların Xatırlamalar bölgəsində Məmməd Əmin Rəsulzadəyə həsr olunmuş «İstiqlalın sorağı» (Seçmələr-111), Bəxtiyar Vahabzadəyə əruzda yazılan «Ey böyük şairim» (Seçmələr-11), Dahi Üzeyir Hacıbəylinin unudulmaz xatirəsinə əruzda yazılmış «Üzeyir elimizin dahisidir» (Seçmələr-11), bütün türklərin atası olan «Mustafa Kamal Atatürk» (Seçmələr-111) və həmçinin Şadimanın yarıdıcılığında əməyi olmuş «İlyas Tapdıq», və şəhid olmuş «Azərnəşr»in sabiq direktoru Əjdər Xanbabayevə həsr olunmuş «Ölümdən yüksəkdə duran vətəndaş» şeirlərini xüsusi qeyd etmək yerinə düşərdi.

«Ötənlərdən gələn səslər» kitabıynan Şadimanın çap olmuş şeirlərin sayı 3600-i ötdü. Çox təəcüblidir ki, o qədər yazan vətənpərvər şairə öz ölkəsində geniş tanınmır. Həmçinin ədə-biyyat salnaməçiləri də müasir ədəbiyyatdan yazanda heç onun adını da çəkmirlər. Tanış olan salnaməçilər deyirlər ki, «yadımızdan çıxdın», tanış olmayan da, nə deyəsən – deyir tanımıram belə şairi... Bu mənə qədim dünyada olan işgəncəni xatırladır, latınca onun adı «Domnatsio memori» – mənası xatırlama işgəncəsidir. Vaxtıyla bu işgəncəyə İsa peyğəmbər məruz qalıb. Ona görə də, onnan bir tarixi şəxs kimi, qədim kitablarda, o yaşayan illərdə, heçnə tapmaq olmaz. İndiki zamanda yenə də yaxşı ki, amerika alimləri var, interneti kəşf etdilər, internet verməz ki, yaradıcı adamın adını tam yer üzdən silmək mümkün olsun.

Mən bu icmal məqalədə çalışmışam Şirin xanımın ümumi yaradıcılıq potensialından oxucularda təsəvvür yaradım. Məqsədə və mərama nə qədər çatdım tək Allah bilər.

Məqalənin davamı olaraq Şadimanın təzə kitabından ayrıca danışmaq istəyirəm. Bu kitabın səbəbkarı mən olmuşam.

«Kredo» qazetində 2008-ci ildə şairənin ilk şeirlərindən bir neçə dənə çap olunub, onlardan biri də mart 1970-ci ildə yazılmış və «Kiminə acı dünya...» kitabına salınmış «Bayramım gəlir» şeiridir. Bu şeir şairənin, hələlik ki, birinci kağıza köçürülən əsəridir. Bəzi adamlarda şübhə yaranıb ki, on dörd yaşlı qız, özü də ucqar bir kənddən, belə mükəmməl şeir yaza bilərmi?

Bunu mən Şirin xanıma təhqir kimi saydım və boş vaxtımız olan kimi ondan xahiş elədim ki, arxivi qaldırsın. Arxiv çoxsaylı olduğuna görə onu hamısını araşdırıb, çap eləyə bilmədik. İndiki çıxan kitabların şeirləri əsasən 1970-1980-cı illərdə yazılıb. Bu kitabın üstündə biz ikimiz iki ildən çox işləmişik, nəticədə «Ötənlərdən gələn səslər» adlı iri həcmli orijinal kitab dünyaya gəlib. Kitabın tərkibində olan şeirlər nə heç yerdə çap olunmayıb, nə də səslənməyib. Vaxtıyla müəllif nə qədər cəhd edibsə, çox təəssüf ki, o illərin şeirlərinin çapına nail ola bilməyib. Demək istəyirəm ki, arxivi tam araşdırıb, çap etməyi bacarmadıq. Qalan şeirlər, allah qoysa, bir kitaba bəs eləsə, ayrı kitab kimi çıxacaq, ya da növbəti çap olunacaq kitabda bölmə kimi – «Ötənlərdən gələn səslər 11» adıyla çap olunacaq. Ümidvaram ki, «Ötənlərdən gələn səslər» adlı kitab çapdan çıxandan sonra daha heç kimdə şeirlərin tarixinin saxtalaşması barədə şübhə yaranmayacaq.

Ənənəvi şəkildə kitab bölmələrdən ibarətdir və həmişəki kimi Allaha müraciətnən başlayır. Bu bölmədən iki şeiri qeyd etmək istərdim «Ya Rəbb» və «Tanrı saxlasın». «Ya Rəbb» şeirində şairə yazır:

***İnsana yararsız həyat nə fayda?***
***Dilsizə acizdi bu qanun-qayda,***
***Vicdan haqq itirib, can haya-hayda,***
***Ya Rəbb bu dünyaya mən niyə gəldim?***

Yaqın ki, hər adam belə məqama çatır ki, nə vaxt onun qaba-ğında bu suallar durur. Tarixi şəxlər təsəlli tapır ki, onların adı onlardan sonra da onları yaşadacaq. Bəs mütləqi çoxluqu təşkil eləyən adamlar bu dünyada nə iz qoyacaq? Bu fəlsəfi suala şairə öz şeirində «Qabarlı əllər»lə cavab verir:

***Böyuk şəhərləri, böyuk kəndləri,***
***Dünyaya gətirdin, qabarlı əllər,***
***Sussuz torpaqlarda tikdin bəndləri,***
***Bar-bəhər yetirdin, qabarlı əllər.***

***Ağılla nemətlər süfrəyə doldu,***
***Zəhmətin hamıdan birinci oldu,***
***Fərəhdən gözlərin qürurla doldu,***
***Daşdan gül bitirdin, qabarlı əllər.***

Qabarlı əllərin yiyələri qürurla deyə bilərlər: «Biz dünyanın dayağıyıq, dünyada nə varsa bizim zəhmətimiznən əmələ gəlib, mən də yaradıcıyam, Allahın payı mənim də ruhumda var» İkinci şeir «Tanrı saxlasın», bu da Şirin xanımın ikinci duasıdı. Məncə mükəmməldi, onu bu kitabdan oxumağı oxucullara tövsiyə edirəm.

Dünya bölgəsinə aid şeirlər, əksəriyyəti1980-ci illər-lərə aiddi. Onlardan qeyd eləmək olar: «Şad yaşa insan, Tökün yerə silahları insanlar, Ay əsrin övladları, Dünyam niyə qəmli-sən, Analar sülhə yardır, Qoyun azad uçsun göylərdə quşlar, Bizim dünya adlı vətənimiz var, Uymayaq, Dağıtmayın, amandır, Atomsuz, nüvəsiz dünya olaydı».

Sadalanan şeirlərin adından cavan şairənin sülhə qayğısı hiss olunur. İnsan yer kürəsində yeganə şüurlu canlıdır və bizim planetdə qalmağı onun öz məsuliyyətindən aslıdır. Təbiət də, kainat da, yer kürəsi də o vaxt gözəldir ki, nə qədər bu gözəlliyə qıymət qoyanı var.

***Yer də, göy də, kainat da gözəldir,***
***İnsan varsa, təbiət də gözəldir,***
***Tikir-yıxır, sökür-qurur, düzəldir,***
***Bu bolluğu məhv eləmək, yamandır,***
***Dağıtmayın bu dünyanı, amandır,***

«Uymayaq» adlı – 27.02.1988-ci ildə yazılan şeirdə Şirin xanım xalqımıza tələ quran haylardan bizi ayıq olmağa səsləyirdi. Hələ o vaxt cavan şairə gəlmə hayları «bizim kökdən» olan ermənilərdən ayırırdı.

***İrəvandan ağızları dadlaşıb,***
***Millətimiz öz kökünə yadlaşıb,***
***Sayat Nova haylara övladlaşıb...***
***Gülər bizə düşmən yağı, qoymayaq,***
***Qonşuluqda hər fitnəyə uymayaq.***

Bu şeirnən Vətən bölməsində olan «Qonşu, belə qonşu-luğa ar olsun» şeiri uzlaşır. Şirin xanım, bu şeirdə, qonşuları bir dəfə, o da hay adıynan, səsləndirir. Erməni adı haylara yaddı və onlar onu özğə xalqdan alıblar.

***Ad axtardın özğəsinin adında,***
***Çox isindin bu torpağın odunda,***
***Tarixini pis saxladın yadında,***
***Qonşu, belə qonşuluğa ar olsun.***

***Musiqimi, mənim deyim, almısan,***
***Özğəsinin tar-kəmanın çalmısan,***
***Adın haydı, yurduma göz salmısan,***
***Qonşu bələ qonşuluğa ar olsun.***

***06.12.1988***

Bu mövzunu bu cür yozmaq, hələ sovet gücü olan vaxtda, an-caq vergili şairə qısmət ola bilərdi. Vətən bölməsindən gənc vaxtında yazılan (1970-ci illərin əvvəli) şeirləri qeyd eləmək la-zımdır, Naxçıvana və Neft Daşlarına həsr olunmuş şeirlər çox maraqlıdır.

Şirin xanımı, lap uşaq vaxtlardan, düşündürürdü niyə azəri milləti Sovet Azərbaycanından başqa yerlərdə yaşayır? Niyə dili bir, dini bir olan millət öz razılığı ilə parçalanıb və onun bir qismi yad dili, yad dini, yad ənənəsi, yad tarixi olan Rus İmperiyasına könüllü birləşib? Bu sualları, kənd məktəbində, müəllimlərə verirdi, ancaq onların cavabları, biliyə maraq göstərən uşağı, heç cür razı sala bilmirdi.

O hələ uşaq vaxtlarında başa düşüb ki, rus ordusu Azərbaycana xilaskar ordu kimi yox, işğalçı ordu kimi gəlib. Beləliklə, müəllifin universitetdə oxuduğu tələbə vaxtlarında,1980-cı ildə, «Quzey elin Güney elə məktubu» adıyla yazdığı nəzm-hekayə bu düşüncələrdən yaranıb.

1985-ci ilin yayında Şirin xanımı yüksək qızdırmaya görə, «yatalaq» xəstəliyinin şübhəsiynən, Musa Nağıyev, o vaxt Semaşka adına adlandırılan xəstəxanaya salıblar. Diaqnoz doğrulmayıb, ancaq evə buraxmağa da icazə verməyiblər, onun bir aydan çox kənardan təcrid olunmuş palatada qalması çoxsaylı silsilə şeirlərin yaranmasına səbəb olub. Mövzulara görə müxtəlif bölmələrdə bu şeirlərə rast gəlmək olar. İnsanda ən yuksək hisslər məhəbbət və vətən sevgisi yaradır, onlardan hansının güclü olmasını demək çətindir. Yəqin ki, belə şair tapılmaz ki, kim bu mövzuları işləməsin. Bu kitabda ən böyük bölmə məhəbbət bölməsidir (276 şeirdir). Demək lazımdır ki, Şadimanın yarıdıcılıqda bu ən işlənən mövzulardır. Məhəbbət şeirlərinin arasında ən cazibədar Yasamalıda və xəstəxanada yazılanlardır.

Məqalənin axırında Şirin xanımın bir balaca şeirini nümunə gətirmək istəyirəm, hansı ki, hamısından yaxşı şairin xasiyyətini və həyat mövqeyini göstərə bilir:

### *SƏLAM OLSUN*

***Bu dünyanın hər üzünü***
***Görənlərə səlam olsun.***
***Qatlayanda şər dizini***
***Ərənlərə səlam olsun.***

***Ala zaman çələyini,***
***Döyə şərin diləyini,***
***Hər namərdin biləyini***
***Gərənlərə səlam olsun.***

***Heç dönməyə haqq yolundan,***
***Buxov düşə mərd qolundan,***
***Həqiqəti öz kölundan***
***Dərənlərə səlam olsun.***

*Dərya qopmaz mayağından,*
*Qəlb dönməsin dayağından,*
*Şəri dartıb ayağından*
*Sərənlərə salam olsun.*

*Haqq çıxarda səs-səmrini,*
*Tütyə edən Rəbb əmrini,*
*Halallıqla öz ömrünü*
*Sürənlərə salam olsun.*

Öz adımdan Şirin xanıma onun yaradıcılığını təbliğ edən carçı və yeni uğurlar arzulayıram.

***Noyabr-dekabr 2012.***

***Abdullov Əli.***

## ÖTƏN GÜNLƏRİM

**Yadıma salıram ötən günləri,**
**Ürəyimi alır çənlər, dumanlar,**
**Ünüm günə, aya çatandan bəri,**
**Köksümü dolaşır acı gümanlar.**

**Kaş əlim çataydı keçən günlərə,**
**Qaytara biləydim onları geri,**
**Taleyim düşəndən bəd düyünlərə,**
**İxtiyarsız dönüb baxıram geri.**

**Siz ey taleyimin ötən günləri,**
**Məndən uşaqlığı, gəncliyi aldız.**
**Hər il arxasından gələn ünləri,**
**Niyə bir əsr də geriyə saldız?**

**Amandır, yığılın başıma gəlin,**
**Köksümdə bir rahat yatın, uyuyun.**
**Barı, qəlb içində qalxın, yüksəlin,**
**Bir də ürəyimin yanğısın duyun.**

**Gəlin, ey əlimdən çıxan günlərim,**
**İnan, sinəm üstə bəslərəm sizi.**
**Yoxsunuz, düşünə bilmirəm dərin,**
**Sanki itirmişəm hər yolu, rizi.**

**Gəlin, yolum üstə siz çıxın yenə,**
**Başınıza dönsün daima anım.**
**Siz yada düşəndə odlanır sinə,**
**Coşur ruhum, hissim, cismdə canım.**

**Ay mənim ötüşən günlərim haray,**
**Niyə axıb keçir anlarım, niyə?**
**Sevincdən, kədərdən tikmişəm saray,**
**Zili düşünürəm, bəm deyə-deyə.**

**Bəlkə taleyimdən küsüb getdiniz,**
**Bəlkə də qədərin bir hökmü ilə.**
**Sinəmi qübarlı niyə etdiniz?**
**Qəmimi gətirə bilmirəm dilə.**

**Qayıdın, tənhalıq alıb üstümü,**
**Sellər, sular təki coşur hicranım.**
**Yanıram, özgələr görür tüstümü,**
**Qüssəylə, şadlıqla çırpınır anım.**

**Fəğanım köksümü yandırıb yaxır,**
**Hicrana dözməyə tabım qalmayıb,**
**Uğurlu, uğursuz anlarım axır,**
**Deyin hansı məni dərdə salmayıb?!**

**Gəlin, ey tələsən, qaçan günlərim,**
**Yenə də qanunlar, hökümlər verin,**
**Başıma min bəla açan günlərim,**
**Sizli dəmlərimin nə verər yerin?**

**Gəlin bu sinəmi oda bürüyün,**
**Alovu qoy ərşi-əlaya qalxsın,**
**Qəmimi araya salın sürüyün,**
**Başında ildırım, şimşəklər çaxsın.**

**Anlaya bilmirəm, tələsik gəlib,**
**Tələsik gedirsiz ömürdən niyə?**
**Dərd-qəmlə, şadlıqla qəlbdə yüksəlib,**
**Yaşı qocaldırsız qanundur deyə.**

**Nə sərhəd, nə hökm bilməz gözünüz,**
**Gün doğan, gün batan ömür yolunuz,**
**Taleyə yanğıdır odla közünüz,**
**Varlığa beşikdir dəmir qolunuz.**

**Mənim ayrılığa dözümüm yoxdur,**
**Keçən günlər çəkir köksümə dağlar,**
**Həsrətin yanğısı sinəmə oxdur,**
**Məndən ixtiyarsız gözlərim ağlar.**

**Hər günüm imtahan, hər günüm çətin,**
**Saysız sualların cavabsız qalıb,**
**Onun qarşısında acizdir bətin,**
**Ötən günlərimlə xəyala dalıb.**

**Hər açılan sabah sizi aparır,**
**Qolları üstündə oxşayır necə?**
**Zülfləri pərişan, gözəl sonadır,**
**Alar qucağına sizi şad gecə.**

Mənsə, bu hicrana dözmüb, haylaram,
Könlü tərk eləyən, ey ulu günlər.
O keçən anlarla xəyalən varam,
Sinəmdə sızlayar sirli düyünlər.

Xəyallar baş alıb, köksümdən gedər,
Hər günün ağrısı qəlbi yandırar,
Gah şadlıq, gah ələm etdiyin edər,
Ürəyi ayrılıq hey usandırar.

Düzülər sıraya bir əskər kimi,
Məni tərk eləyər ötüşən günlər.
Dilsiz tərəzitək bilməz çəkimi,
Qayğılı, qayğısız qəmli, şən günlər.

Mənsə haraylaram, qayıt deyərəm,
Ömrü tənha qoyub gedən günlərim.
Sizsiz mən özümü necə öyərəm?
Bumu mükafatım, toy-düyünlərim?

Neylim, əlim çatmır, ünüm yetməyir,
Haylayım, qaytarım sizi geriyə.
Ürək bu sinəmlə yola getməyir,
Sizi itirmişəm ömürlük deyə.

Heçnə unudulmur keçmiş də olsa,
Dərdi-sər saçlara ağ cığır salır.
Şadiman, bir sözün qəlblərdə qalsa,
Hər kəlmə yanğısı sinəyə qalır.

24.04.1985

# AMAN ALLAH, EŞİT MƏNİ

## ALLAH

Sorulur hər yanda məzlumun qanı,
Dünyada hökm edir min suç, min günah.
Sən öz qüdrətinlə bəndən insanı,
İçi boş başlardan uzaq et, Allah.

Baş kəsən yüzdürsə, baş kəsdirən min,
Oyuncaq edilib hər etiqad, din,
Salınır bəxtlərə gündə yüz düyün,
Hardasan, bircə yol dada yet, Allah.

Ürəklər, diləklər yoxsullanıbdı,
Vicdanlar, qeyrətlər lap qullanıbdı,
Dünyanın belinə qəm çullanıbdı,
Qalx, zülmün evinə bir yol get, Allah.

***24-25.11.1990***

## DÖNMÜŞƏM

Ümidli, ümidsiz günlər əlində,
Dəli bir küləyə dönmüşəm, Allah.
Kükrəyib coşuram həyat selində,
Ürkək bir mələyə dönmüşəm, Allah.

Qarşıda günlərim, aylarım mələr,
Arzular neçə min zirvələr dələr,
Ömür gün başına ağ qarın ələr,
Leysanlı fələyə dönmüşəm, Allah.

Kəsilib könlümün taqəti, tabı,
İtirib ürəyim haqqı-hesabı,
Bağlanıb ömrümün tale kitabı,
Bir acı diləyə dönmüşəm, Allah.

***17.11.1990 Qızılqum***

## YA RƏBB

Ömür, dərd, işgəncə, həyatsa oyun,
Nəş'ə arzusunda qəmə yükləndim.
Nə qədər açılar bu qəlbə oyun?
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Qəmimin qəminə hansı qəm çatar?
Birində odlu qəlb, birində yatar,
Bəs nədən taleyim əbədi yatar?
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

İblislər, şeytanlar meydan sulayır,
Haqq deyən kəslər də haqqı bulayır,
Tökülən göz yaşı səhra sulayır,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Keçir ömrüm, günüm xiffət içində,
Könlüm inildəyir niyə, neçində.
İçi heyvan olan adam biçində,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

İnsana yararsız həyat nə fayda?
Dilsizə acizdi bu qanun-qayda,
Vicdan haqq itirib, can haya-hayda,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Hara üz tutdumsa soyuq baxışlar,
Süni aldanışlar, süni alqışlar,
Bəxtlə can arası gedir yarışlar,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Yığıldım boğaza bu sərt gedişdən,
Binəva xalq ilə haqsız gərdişdən,
Hər an, hər dəqiqə çıxır iş-işdən,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Mən dəvəsi ölmüş bəxtsiz ərəbəm,
Öz doğma yurdunda evsiz bir adəm,
Segahda ah çəkən həm zil, həm bəməm,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

Şadiman binadan sərgərdan, tifil,
Öz yurd-yuvasında viranə səfil,
Ölüm arzularkən binadan qəfil,
Ya Rəbb, bu dünyaya mən niyə gəldim?!

***21.09.1990***

## İLAHİ

Yağı bizi qoydu yaman günlərə,
Çarə hanı bu ahlara, ünlərə?
Bağlanıbdı xain əllə bənd, bərə,
Nahaq qanlar selə dönüb, İlahi,
Min bir yerdə ocaq sönüb, İlahi.

Bu əjdaha dünya fitnə, feildi,
Oda düşən, darda qalan yurd, eldi,
Dünən çıxan fərman bu gün veyildi,
Qalıb Vətən yaman odda, İlahi,
Günlərimiz ah-fəryadda, İlahi.

Nələr çəkib məhkumluqda başımız,
Yağılara ağır olub daşımız,
Qara geydi keçənilki qışımız,
Fitnə, fəsad başdan aşıb, İlahi,
Qanunlarla qardaşlaşıb, İlahi.

Yağlı tikə – yurdu yağı qoparır,
Bu işgəncə qəlbdə tufan qoparır,
Sel – haqqsızlıq, leysan – haqqı aparır,
Bilməm nədir günahımıız, İlahi?
Təkcə sənsən pənahımız, İlahi.

Vətənmizin içi dərddən oyuldu,
Od sinəsi tanklar altda soyuldu,
Dərya qanlar gecə ilə yuyuldu...
Şəhid eldə qalmadı hal, İlahi,
Haçan bitər bu qalmaqal, İlahi?

***28.12.1990***

## BİR QƏZANIN EŞQİNƏ

Kül olubdu ürəyim məhəbbətin eşqinə,
Sağ ikən diri-diri oda qarışdım, Allah,
Ağlayıb sızladıqca, saldım canı pis günə,
Məni bəlaya salan dərdlə barışdım, Allah.

Kimsəyə yetmir ünüm, çatmaz fəğanım, bidad,
Bir dəli istək ilə min yol yarışdım, Allah.
Hökmünlə qəlb qalası tikiləcəkdir abad,
Özüm dərddən qaçarkən dərdə alışdım, Allah.

Sabahların işığı canlara nurla gəlir,
Məzarlanmış eşqimə yamanca daşdım, Allah.
İçimdəki acılar asimana yüksəlir,
Buludunun gözünə bir dolu yaşdım, Allah.

***22.08.1991***

## EŞİT MƏNİ

İçimdə dərd, qəm buzlaşıb,
Ağ örtüyüm həyat çəni,
Yalquzaqtək quduzlaşıb,
Aman Allah, eşit məni.

Yerdə Tanrı qoxusu yox,
Gözlərimin yuxusu yox,
Bəşərin heç qorxusu yox,
Aman Allah, eşit məni.

Nə anlayan, nə bir duyan,
Yoxdur haqqa qiymət qoyan,
Çox sirləri eylə bəyan,
Aman Allah, eşit məni.

Mərdüməzar evlər yıxır,
Tökülən qan dizə çıxır,
Məngənətək zülm sıxır,
Aman Allah, eşit məni.

Sinədə can soyuqlaşıb,
Ölümlər də sayıqlaşıb,
Əzrayıl da ayıqlaşıb,
Aman Allah, eşit məni.

Şadiman dərd pərvanəsi,
Düzlüyün mərd divanəsi,
Talanıbdı haqq xanəsi...
Aman Allah, eşit məni.

***29.06.1991***

## AY ALLAH

Ələm qəlbdən asılıbdı daş kimi,
Yalquzaqtək parçaladı bağrı ah.
Heç göz görmüb gözümdəki yaş kimi,
Qəddim əydi qüssə, kədər, ay Allah.

Sinəmizə ox olubdu varımız,
Yağı çıxdı yarımıza yarımız,
Ağlar gözdü kamanımız, tarımız,
Hər haqqı-say oldu hədər, ay Allah.

Nə vaxt yetər fəryadımız dünyaya,
Yolumuzun üstündədir sərt qaya,
Göz yaşımız sığışmayır min çaya,
Bü zülümə yoxmu qədər, ay Allah?!

İmkanlılar imkansızı daşlayır,
Haram tikə paralardan başlayır,
Öz haqqımız özgə boğaz yaşlayır,
Düzlük aran – mərd dərbədər, ay Allah.

Kök arayır yuvamızda hər yetən,
İblis, şeytan əlindədir bu Vətən,
Qan ağlatdı yurdumuza hər ötən,
Əzrayıldan zülmü betər, ay Allah.

Süfrəmizə ortaq olub, of, yadlar!
Şəhid olur öz evində övladlar,
Şadimanı ömrü boyu bu odlar...
Varlığını talan edər, ay Allah.

***29.06.1991 Tağay***

## VERİB BAŞ-BAŞA

İçimdə ağrılar verib baş-başa,
Dönüb taleyimlə bir məsləkdaşa,
Arzular, istəklər çevrilib daşa,
Min bir dərd əlində, vallah, naşıyam,
Yaralı yurdumun sınıq daşıyam.

Ürək də, könül də qəmin köləsi,
Bağrımın odudur – günün şöləsi,
Qaları ruhumdu, cismim öləsi,

Hələ çarpışırıq, ürəkdə can var,
Nə insan əbədi, nə qəlb ona yar.

Şadiman, bağrını sarmasın bulud,
Dünyanın zəhərin şəkər bilib, ud,
Ağılın şərqidir, ürəyinsə ud,
Hələ bülbül təki çox ötəcəklər,
Ün yetməz haqqa da, ah, yetəcəklər!

***08.07.1991 Tağay***

## TANRI

Üzdü bu ömrümü dərdlər, ələmlər,
Bir yol fəryadıma yetmədin, Tanrı.
Kağıza yazanda ağlar qələmlər,
Üstündən qəmləri atmadın, Tanrı.

İçimdə diləklər qaynayır daşır,
Sönük taleyimlə hey pıçıldaşır,
Bir anda neçə min keçilməz aşır,
Bu bəxtsiz könlümü tutmadın, Tanrı.

Dünyanın köksündə aham, amanam,
Dağından didərgin sisəm, dumanam,
Ömürdə itməkçin ünsüz ümmanam,
Məni dəryalara çatmadın, Tanrı.

Duyub anlamaqçın dərdi, ələmi,
Özün gözlərinlə görməkçin qəmi,
Didib-parçalayıb bədbəxt sinəmi,
Könlümdə bircə yol yatmadın, Tanrı.

Salıb dərdlərimi dəmir qəfəsə,
Düşmədin yeni bir köklü həvəsə,
Bu dərd olmamaqçın mənə vərəsə,
Canımı əcələ satmadın, Tanrı.

Şadiman tutulub könül ahına,
Qaldırıb əlləri haqq dərgahına,
Yetmədi harayım qibləgahına,
Məni ölənlərə qatmadın, Tanrı.

***17.07.1991 Tağay***

## OYMA, İLAHİ

Günəşin atəşi sinəmə hopub,
Buludlar, şimşəklər köksümdən qopub,
Adəm hüzurunda varlığın tapıb,
Hər əzaba dözən, bu millət dahi,
Oyma könlümüzü, oyma, İlahi.

Vətən torpağına sarılan Kürəm,
Dünyaya sığmayır bu könül kürəm,
Əsirlikdə sızlar neçə bənd, bərəm,
Hər əzaba dözən, bu millət dahi,
Oyma könlümüzü, oyma, İlahi.

Acılar, fəryadlar dünyanı tutmaz,
Niyə daş qəlbləri fəğan oyatmaz?
Əllər dərgahında səsimiz çatmaz,
Hər əzaba dözən, bu millət dahi,
Oyma könlümüzü, oyma, İlahi.

Dağılıb cah-calal, yurd tikə-tikə,
Yağılar əlində neçə kənd, bölgə,
Üzür qan içində günahsız ölkə,
Hər əzaba dözən, bu millət dahi,
Oyma könlümüzü, oyma, İlahi.

Dünyaya gələli, sail olmuşuq,
Acıya şəkərtək, qail olmuşuq,
Düşməni dost bilib, mail olmuşuq,
Hər əzaba dözən bu millət dahi,
Oyma könlümüzü, oyma, İlahi.

***07.03.1994***

## BİR QƏDƏR SƏBİR VER

Ömrümü zülümə sürükləyirlər,
Dinirəm, dilimi hörükləyirlər,
Qəlbimin içinə qəm yükləyirlər,
Ərşə bülənd olub yenə də ahım,
Bir qədər səbir ver mənə, Allahım.

Bitmir taleyimin ömrə qovğası,
Könül ocağında dərd qovurğası,
Sınıq ürəyimdən olmuşam asi,

Bir duyan, anlayan yox, qibləgahım,
Bir qədər səbir ver mənə, Allahım.

Gərək bu əsrdə doğulmayaydım,
Zaman ağrısıyla qovrulmayaydım,
İndi də çirkabda boğulmayaydım,
Dünyaya gəlməkdir, yalnız günahım,
Bir qədər səbir ver mənə, Allahım.

Leysanlar axıdır qəlb için-için,
Qəmlərim üst-üstə, dərdlərim çin-çin,
Yaxşı görünmədim heç kəsə neçin?...
Heç xoş açılmadı bircə sabahım,
Bir qədər səbir ver mənə, Allahım.

Dörd divar içində edildim dustaq,
Necə qəm təşnəsi bu tənha otaq,
Tikanlar, qanqallar bitirib yataq,
Ünümə yetişən yox, səcdəgahım,
Bir qədər səbir ver mənə, Allahım.

Sən məni püskürən kinimdən saxla,
İçimdə boğulan dinimdən saxla,
Özümə o savaş günümdən saxla,
Bağlı qapımı aç, ey qibləgahım,
Bir qədər səbir ver mənə, Allahım.

Şəkər ovqatıma zəhər qatıldı,
Bəxtimin kitabı oda atıldı,
Dünyanın acısı könlə çatıldı,
Əllərim uzanıb sənə, dərgahım,
Bir qədər səbir ver mənə, Allahım.

***14.02.1994***

# TANRI SAXLASIN

Hər gözəl çöhrədən, hər gözəl üzdən,
Hər qəlbə, ürəyə od salan közdən,
Hər könlü oynadan işvəli sözdən,
Tanrı saxlasın.

Hər addım toxunan hiylə torundan,
Yağı ocağının düşən qorundan,
Qəlbə qış gətirən dostun qarından,
Tanrı saxlasın.

Ağızlar qapadan şərin dilindən,
Hər cür ehtirasdan, hər cür zülümdən,
Düşmənlər əliylə qəfil ölümdən,
Tanrı saxlasın.

İnsanı əskildən hər cürə dərddən,
Yurdlar parçalayan sərhəddən, səddən,
Pis gündə kənarə çəkilən mərddən,
Tanrı saxlasın.

Şadiman bəxtinə düşən düyündən,
Ömrü ovsunlayan hər səsdən, ündən,
Qəlbə vay gətirən hər qara gündən,
Tanrı saxlasın.

***29.04.1990***

# DÜNYAM, NİYƏ QƏMLİSƏN?



## ŞAD YAŞA İNSAN

Bu güllü bağçalar, çiçəkli bağlar,
Deyir ki, ömrünü şad yaşa insan.
Gəl gözəl günləri keçirmə ağlar,
Həyatın illəri deyildir asan.

Hamıya bəllidir, yaşamaq haqdır,
Hər bir dəqiqəni mənalı keçir.
Ömrün mahiyyəti vüqarlı dağdır,
Dirilik suyunu torpaqdan içir.

Şad yaşa, vaxtını kədərə tutma,
Dərd, ələm yaraşmır könlə heç zaman,
Boş saatlar ilə qəlbi ovutma,
Mənalı-məzmunlu gün keçir asan.

Bir dağ parçalanıb dağılsa əgər,
Eybi yox, gövhəri dürr bətinlidir.
Ürək var incidir, ürək var, əgər,
Çoxu dağ cüssəli, dağ mətinlidir.

Xainə, qorxağa yaddır bu dünya,
Sən mərd ol, onsuz da, doluruq yaşa.
Ən ləziz nemətdir, daddır bu dünya,
Ətrafdan zövq alıb nəş'əylə yaşa.

Sənindir bu gözəl həyat aləmi,
Xoş keçən anlarda xoşbəxtliyi an.
Unut birdəfəlik dərdi, ələmi,
Anamız təbiət sənindir, insan.

Bu karvan yolundan çoxları keçib,
İndi də bu yolun yolçusuyuq biz.
Gah ürək çox sevinc, gah kədər içib,
Yadigar qoyubdu bir silinməz iz.

Bədgüman xar olur, düşünən xoşbəxt,
Həyatda vuruşma, çarpışma sonsuz.
Çoxuna sevdalı, çoxuna sərt baxt,
Ürəksə yaşayır, ağrısı donsuz.

Qərinə-qərinə üstündən keçir,
Sona yetən ömür tez vidalaşır.
Saat günlərini sürətlə biçir,
Sevinci, qəmi də lap başdan aşır.

Bir gündə dünyadan mini köçürsə,
Min biri dünyaya təzə atılır.
Fələk taleləri belə biçirsə...
İnsan fikir vermir ömrə satılır.

Beləcə yaranıb, beləcə gedir,
Biri ac yaşayır, biri isə tox.
Qəlbləri ya xoşbəxt, ya bədbəxt edir,
Kiminə şəkərdir, kiminəsə ox!

Bir pis alçaldırsa, yaxşı ucaldır,
Ağılla yaşayır, yaradır insan.
Namərd hər əməldə xeyirdən daldır,
Həyat hər yetənə gəlməsin asan.

Beşikdən zirvəyə ucalanadək,
Ləkəsiz, saf olsun insan nəsili.
Körpəlik çağından qocalanadək,
Bacaran əl olsun, düz danışan dil.

Torpaq hamısını yola salıbdır,
Son anda incimə, ana torpaqdan.
Çox inləyən gözlər yolda qalıbdır,
Vətən həsrətilə yanıb hər bir an...

Sev gözəl Vətəni, qur, yaşa, insan,
İndi xoşbəxt məkan, xoşbəxt zamandır.
Dövranı təmkinlə vur başa, insan,
Yoxsa el inciyər səndən, amandır.

Bil ki, el insanı qəhr elədikcə,
O artıqlıq eylər dünyaya, inan.
Yurd gözündən düşən insanlar isə,
Lazımsız əşyatək qalacaq hər an.

Çalış, dillər sənə min əhsən desin,
El-gün tənəsinə giriftar olma.
Halal zəhmətindən nəsillər yesin,
Həyat axınından kənarda qalma!

Belədir qaydası qoca dünyanın,
Səni yaşadıblar, yaşadacaqsan.
Çörəktək qədrin bil insan hər anın,
Körpəlik çağından günlərini san.

Bu güllü bağçalar, çiçəkli bağlar,
Deyir bu həyatda şad yaşa, insan.
Gəl gözəl günləri keçirmə ağlar,
Sabahkı həyatı düşün, daşın, an.

***08.04.1975 Yasamal***

## TARİX OXUNUR

Tarix qarşısında tarix oxunur,
Üstündən qovlayır dumanı çəni.
Bəd əməl, bəd şüur daşa toxunur,
Zaman vərəqləyir olub keçəni.

Sanki təmizlikdən söhbət açaraq,
Cəsarət diləyir yaranmışlara,
Fitnəkar, mənfurdan kənar qaçaraq,
Ürəklə yanaşır sınanmışlara.

Tarix səhvələyir öz keçmişini,
Mərdanə ömürlər arır, arayır.
Neylək, naxələflər bilir işini,
Xeyirxah ciliddə ömrə yarayır.

Lap ibtidaidən söz açır tarix,
Gəlir insanların atom əsrinə.
Min əsrə pəncərə, göz açır tarix,
Qurluşlar çevrilir onun əsrinə.

Tarix qarşısında diz çökür qurluş,
Söyləyir kimləri yaşatmışdır o.
Faciə dövründə olmub qurtuluş,
Düzlüyü zülmətə uzatmışdı o.

İlk qurluş – bərabər işlə öyünür,
Tarix sorğulara tutmayır onu.
Üç qurluş nəbizi sirlə döyünür,
Geyinib əyninə sehirbaz donu.

Sonuncu qurluşun üsyan təməli,
Dünyanı özünə cəlb edir həmən.
Qana-qırğınlara bağlı əməli,
Hələ də deyir ki, bəxtiyaram mən.

Tarix qurluşlara bir nəzər salır,
Sonuncu qurluşu qəhqəhə çəkir.
Olub-keçmişləri könlünə alır,
Keçən əsrlərə göz yaşı tökür.

Yaddaşdan çıxmayır olub-keçənlər,
Söylə unudarmı tarix bunları?!
Qılıncla heç neyə əsri biçənlər,
Bir vaxt ayaqladı yazıq qulları.

Açıb-ağartmayır olmuşu tarix,
Sonuncu qurluşu qurtuluş əsri.
Ürək boşaltmayır dolmuşu, tarix,
Özün sal məxrəcə neçə min kəsri.

Cürbəcür günlərlə vur ömrü başa,
Başla zamanına söz tarixçəni.
Səadət bəxş eylə hər vətəndaşa,
Qalx qovla üstündən dumanı, çəni.

Milyon cilidlərlə kitablar yarat,
İnam azadlıqda, dürr də bundadır,
Qoy olsun köksünə hər işin barat,
Düzəm deyənlər də bəzən aldadır...

Həqarət – millətlər içində nifaq,
O milyon könülün ölmünə hakim.
Varlığı təmizlər qursun ittifaq,
Olsun yaralara ağıllar həkim.

Ayılt yatmışları qalibiyyətlə,
Ləkəsiz vicdanlar ləkələnməsin.
Gətir bu qurluşa sən xoş niyyətlə,
Vicdanı paklara qəm ələnməsin.

İnsan zəkasına eşqi hakim et,
Qoyma idrakları yenə dəmlənə.
Ağıl savaşında istiqlala yet,
Bu ağsaçlı həyat qoyma qəmlənə.

Çünki nə cəhalət, nə qəm görünsün,
Şadlıq şərbətini kainat içsin.
Bəxtiyar gözlərdə sevinc görünsün,
Ədalət daima hiyləni biçsin.

Tarix, diqqət kəsil duyan qəlbimə,
Sən qəm dəftərini bir kənara at.
Bu atom əsrinə, uyan qəlbimə,
Yenidən sevincli bir tarix yarat.

Qurluşlar çəkişir, gedir deyişmə,
Dur qalx ucalığa həyatı yaşat.
Bəsdir əsrləri yıxdı döyüşmə,
İnsana zaman ver, insanı ucalt.

Qulaq eşitməsin bir el naləsin,
Düzlük qanad açıb yeri dolaşsın.
Qoy şadlıqlar görsün dünya aləsi,
Azadlıq sellərtək könüldə daşsın.

***17.08.1975 Yasamal***

## TÖKÜN YERƏ SİLAHLARI, İNSANLAR

Dünyamızın gözü qəmlə dolubdu,
Hər ölkənin öz ölçüsü, həddi var.
Bəsdir, daha nə olubsa, olubdu,
Tökün yerə silahları, insanlar.

Sadiq yerin üstə ayaq açmışıq,
Min bir kəşflə günəştək nur saçmışıq,
Ulduzlara, pak aya yol açmışıq,
Tökün yerə silahları, insanlar.

Ağıl-zəka şəfəq yaydı dünyaya,
Başdan-başa çıraq oldu gün aya,
Elm dönüb coşğun, dəli gur çaya,
Tökün yerə silahları, insanlar.

Bəsdir, daha səbəb olmun günaha,
Hər naləyə, hər fəğana, hər aha,
Bir qadıntək minnətçiyəm bir daha,
Tökün yerə silahları, insanlar.

Rəhm eləyin qəmdən dolan gözlərə,
Bu narahat çöhrələrə, üzlərə,
Qan tökməyin gül-çiçəkli düzlərə,
Tökün yerə silahları, insanlar.

Yer üzünə biz bir dəfə gəlirik,
Min məramla qüssə-qəmi dəlirik,
Əlçatmayan zirvələri dəlirik,
Tökün yerə silahları, insanlar.

Harayıma gəlin ellər, obalar,
Rahatlıqla tüstülənsin sobalar,
Birlik deyib ağsaqqallar, babalar,
Tökün yerə silahları, insanlar.

Cavabdehik gələcəyə, əhd hanı?
Keçmiş nəsil bizə verib dünyanı,
Unutmayaq vida günü son anı,
Tökün yerə silahları, insanlar.

Göz yaşıyla islatmayın üzləri,
Qopartmayın qaysaqlanmış közləri,
Ağlatmayın yaş görməyən gözləri,
Tökün yerə silahları, insanlar.

Anaların adından hay salıram,
Bu səsimlə deməyin tək qalıram,
Milyonların sədasını alıram,
Tökün yerə silahları, insanlar.

Elmləri xoş növrağa yetirin,
Nüvələri, neytıronu itirin,
Birdəfəlik məzarlarda bitirin,
Tökün yerə silahları, insanlar.

Demin ünüm, səsim-sədam çatmayır,
El harayı əvvəl-axır batmayır,
Gözlərimiz rahatlıqla yatmayır,
Tökün yerə silahları, insanlar.

Könlüm yenə xoş duyğular bəsləyir,
Demin, bircə kəlməsini həsləyir,
Yer üzünün adamların səsləyir,
Tökün yerə silahları, insanlar.

Dünyamızın dərdinə dərd çatarmı?
Zəkasını zəkasıza satarmı?
Haqqın səsi, pak sədası batarmı?
Tökün yerə silahları, insanlar.

Bağışlayın analara dünyanı,
Axıtmayın su yerinə al qanı,
Od içində yaşamağa yol hanı?
Tökün yerə silahları, insanlar.

Xirosima, Naqasaki ağlayır,
Keçmişimiz ürəkləri dağlayır,
Çox ellərin yolun ələm bağlayır,
Tökün yerə silahları, insanlar.

Yaşamağa haqqımız var qədərdən,
Dünya hali saysız gəldi-gedərdən,
Əynimizə don geydirmin kədərdən,
Tökün yerə silahları, insanlar.

Torpaq dözmür bu ələmə, bu dağa,
Siz qoymayın başımıza od yağa,
Toxunmayın xoş-firavan növrağa,
Tökün yerə silahları, insanlar.

Millətlərin tale ilə oynamın,
Xörək təki hər qazanda qaynamın,
Dünyasından bəşər alsın qoy kamın,
Tökün yerə silahları, insanlar.

Bilin, barı, hər əməlin öz yerin,
Ağratmayın baş-gözünü bu yerin,
Kainatın sülh səsinə səs verin,
Tökün yerə silahları, insanlar.

Dünyamıza ölüm saçan dillər var,
Ömrümüzə tələ quran əllər var,
Qan içində çapalayan ellər var,
Tökün yerə silahları, insanlar.

Dünyamızı bağışlayın bizlərə,
Ölüm hökmü oxumayın üzlərə,
Qulaq verin sülh-sülh deyən sözlərə,
Tökün yerə silahları, insanlar.

El-yurd qanı suya dönmüş sellər var,
Göz yaşları dərya olmuş çöllər var,
Qan ağlayan saysız aylar, illər var,
Tökün yerə silahları, insanlar.

Ey Şadiman, kürəmizin qadını,
Yer üzünün səslə yaxın, yadını,
Ürəklərə yazaq sülhün adını...
Tökün yerə silahları, insanlar.

***02.12.1985***

## AY ƏSRİN ÖVLADLARI

Uyuyaq səadətin müqəddəs beşiyində,
Qəhrəmanlıqla duraq pak sülhün keşiyində,
Ömür sürsün insanlar evində, eşiyində,
Tərlantək cövlan etsin şadlığın qanadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Dünyanın qucağında gün keçirək bəxtiyar,
Toy-büsatlar, nəş'ələr günümüzə ixtiyar,
Görməsin aləm, məlal nə bir oba, nə diyar,
Çağırıram haraya yaxınları, yadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Yaşamaq – yaratmaqdır, ömrümüzə pak bəzək,
Hər sinədə döyünsün həyat eşqili ürək,
Sülhün əlindən tutub gəlin elləri gəzək,
Uca tutaq haqq deyən o müqəddəs adları,
Səsimizə səs verin, ay əsrin övladları.

Od qızıyam, gözəllik, məftunluq həyatımdır,
Məhəbbətli bir ömür dastanım, bayatımdır,
Koroğlu Nigarıyam, arzular Qıratımdır,
Çağırıram köməyə mən aqil ustadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Qoy nahaqdan axmasın yer üzünün qanları,
Xatırlayın bir daha olub keçmiş anları,
Parçalayın, yandırın masqaları, donları,
Kürənin köməkdarı – dünya istedadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Qanad açsın nəğmələr, dolaşsın diyar-diyar,
Kim deyər ki, bu ürək altun həyatdan doyar?
Xoşbəxtliyə can atan ürək zirvəyə uyar,
Qovlayın yer üzündən milyonçu həsadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Müqəddəs kainatın igid oğulu, qızı,
Qoy gül açsın dünyanın azad baharı-yazı,
Ağlatmayın günəşi, parlaq ayı, ulduzu,
Təlx etməyin şirincə, şəkərcə ovqatları,
Səsimizə səs verin, ay əsrin övladları.

Vahimə içindədir canlıların torpağı,
Pozmayın güzəranı, pozmayın bu xoş çağı,
Çəkməyin sinələrə çalın-çarpaz qəm dağı,
Dünyamızı dolaşır bu insan səyyadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Gül açsın dodaqlarda bəxtiyar nəş'ə, amal,
Fərəhindən günbəgün gözəlləşsin gül camal,
Dünyanın taleyini həll etsin ağıl, kamal,
Qaldırın, şahə qalxsın ərzin toy-büsatları...
Səsimizə səs verin, ay əsrin övladları.

Qoy təzə arzularla çıxsın dünya sabaha,
Batırmayın yer üzün damğalanmış günaha,

Almayın şər işləri, günahkar şərdən baha,
Götürün kürəmizdən bu çirkin fəsadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Dünya qərar tutandan, kimə qaldı var-dövlət?
Onun qulu olana verdi daima zillət...
Narahatdır kürəmiz, kainat, ölkə, millət,
Gətirin iş başına haqq deyən azadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Deyin, nə vaxtdan olub ölüm həyatdan üstün?
Qanlara bulayırsız bəlalı yerin üstün,
Ucaldın diyar-diyar, müqəddəs sülhün büstün,
Yığışdırın dünyadan beyindən kəsadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Bu dünya çoxlarını düşürüb yüyrək atdan,
Qurub-yaradanları küsdürməyin həyatdan,
Çıxartmayın torpağa dönmüş başları yaddan...
Soldurmayın yenicə gül açmış həyatları,
Səsimizə səs verin, ay əsrin övladları.

Göz yaşına qərq olub əzablar görmüş əsr,
Çox eldə, yurd-yuvada zülüm qapını kəsir,
Zamanın başı üstə ölüm küləyi əsir...
Qalxıb kürreyi-ərzin naleyi-fəryadları,
Səsimizə səs verin, ay əsrin övladları.

Şadimanam, sinəmdə narahatdır bu ürək,
Bircə məmləkətdə də əsməsin tufan, külək,
Gəlin cahangirləri həyatımızdan silək,
Gömrüldək birdəfəlik qəlb üzən təzadları!
Səsimizə səs verin, ay əsrin övladları.
Səsimizə səs verin, ay əsrin övladları.

***03.12.1985***

## İNSANLARIN TALEYİNİ DÜŞÜNÜRƏM

Yer üzünün artır ağrı, acıları,
Gözlər var ki, qurumayır nə yaş, nə nəm.
Narahatdır dünya, ana, bacıları...
İnsanların taleyini düşünürəm.

Böyüyürük bu dünyanın qucağında,
Qızınırıq onun odlu ocağında,
Gah sevinc var, gah qəm var hər bucağında,
İnsanların taleyini düşünürəm.

İllər boyu saysız qanlar olanda da,
Vaxtsız ellər xəzəl olub solanda da,
Ac-yalavac yola-izə dolanda da,
İnsanların taleyini düşünürəm.

Narahatdır sinəmdəki şad ürəyim,
Təmiz səma, sülh, dinclikdir hər diləyim,
Həmdəmimdir gecə-gündüz təb mələyim,
İnsanların taleyini düşünürəm.

Qonaq olduq ulduzlara, nurlu aya,
Zirvəmizdir əl çatmayan şiş dağ, qaya,
Ən bəxtəvər müjdələri saya-saya,
İnsanların taleyini düşünürəm.

Bir ölkədə sıxlaşanda qatı duman,
İnləyəndə, sürünəndə yazıq ümman,
Günahsız dil diləyəndə kömək, aman,
İnsanların taleyini düşünürəm.

Bəzən nahaq hıçqırıqlar iç əzəndə,
O yerdə ki, şirin candan el bezəndə,
Diyar-diyar, oba-oba qəm gəzəndə...
İnsanların taleyini düşünürəm.

Xəyal atım çapır eli, obaları,
Qəfil görsə odu sönmüş sobaları,
Göz görəndə lovğa, fəndgir qabaları,
İnsanların taleyini düşünürəm.

Segah üstə telli tarım söz bəsləyir,
Sinəm içi atəşgahdır köz bəsləyir,
Bir bulaqdır çeşməsi bol göz bəsləyir,
İnsanların taleyini düşünürəm.

Dar cığıra yaraşmayan enim yolsa,
Bircə dildə qəfil üzən dönüm olsa,
Bir ürəkçin pak zirvədən enim olsa,
İnsanların taleyini düşünürəm.

Bir yuvada təzə körpə doğulanda,
Gözlərindən qəfil yuxu dağılanda,
Sülhün səsi bir obada boğulanda
İnsanların taleyini düşünürəm.

Sərt əsəndə yerin çılğın küləkləri,
Yal-ymacda o quranda kələkləri,
Ağladanda o yerləri, fələkləri,
İnsanların taleyini düşünürəm.

Müharibə, deyib dil-dil ötənlər var,
Yer üzündə vaxtsız ölüb, itənlər var,
Yol üstündə tikan təki bitənlər var,
İnsanların taleyini düşünürəm.

Bir obada halal zəhmət getsə hədər,
Bir ömürü dindirəndə qəfil kədər,
Bə'zən gecə yatmayıram sübhə qədər...
İnsanların taleyini düşünürəm.

Dağıdıcı silahlar kəşf olunanda,
Bir günahsız torpaq əsir alınanda,
Beyrut təki üstünə od qalananda,
İnsanların taleyini düşünürəm.

Qəfil ürək riyalara bürünəndə,
Onun-bunun kölgəsində sürünəndə,
Gözlərimə bir əməl pis görünəndə,
İnsanların taleyini düşünürəm.

Yolumuzu həsrət-hicran kəsəndə də,
Sıx buludlar bir-birindən küsəndə də,
Dəli-dolu acı yellər əsəndə də,
İnsanların taleyini düşünürəm.

Dönük çıxsa bir-birinə iki ürək,
Pis əməlçin aşıb-daşsa bircə dilək,
Yer üzünü qamarlasa tufan, külək,
İnsanların taleyini düşünürəm.

Bə'zən gözlər hiylə ilə süzüləndə,
Bir ağacdan zəhmətsiz bar üzüləndə,
Onun-bunun süfrəsinə düzüləndə,
İnsanların taleyini düşünürəm.

Vicdan bizi səsləyəndə pak düzlüyə,
Bağlı yollar açılanda təmizliyə,
Dünyamızı əzizliyə-əzizliyə,
İnsanların taleyini düşünürəm.

İçin-için ağlayıram dərd görəndə.
Yaxşı işi bir çirkin əl, bəd görəndə,
Düzcə yolda keçilməyən səd görəndə,
İnsanların taleyini düşünürəm.

Əl-ayaqlar yığışıb şər qarışanda,
Hər ocaqda od-alovlar alışanda,
Gözlərimiz qaranlıqla barışanda,
İnsanların taleyini düşünürəm.

Aqil yolçu düz yolunu çaşanda da,
Ölçü-çəki artıq olub daşanda da,
Bir naqəfil öz həddini aşanda,
İnsanların taleyini düşünürəm.

Bir alimin kəşfi ölüm gətirəndə,
Ustad bağban gül yox, tikan bitirəndə,
Mürvətsizlər haqqı-sayı itirəndə,
İnsanların taleyini düşünürəm.

Yolum üstə bir hiyləgər göz görəndə,
Odu keçmiş işartısız köz görəndə,
Dünyamızı hədələyən söz görəndə,
İnsanların taleyini düşünürəm.

Yatmayıram duyğularla sübhə qədər,
Başım üstün alır saysız qüssə-kədər,
Hər ölçüdə görmək istər könlüm qədər,
İnsanların taleyini düşünürəm.

Ay adamlar, həyan olun bir-birinə,
Getməyin siz kiçik işdə lap dərinə,
Kölgə görüb, çəkiləndə qəlb dərinə,
İnsanların taleyini düşünürəm.

Bu müqəddəs torpağımda, ürək, yaşa,
Arzuların, əməllərin coşa-coşa,
Uca-uca zirvələri aşa-aşa,
İnsanların taleyini düşünürəm.

Şirin xanım, köklənmisən saz üstündə,
Yolun günəş, ruh oxşayan yaz üstündə.
Döz torpağın fərağına yaz üstündə,
İnsanların taleyini düşünürəm.
İnsanların taleyini düşünürəm.

***06.12.1985 Nasosnu***

## XEYİRLİ OLSUN

Ümidlə dikilib gözlər sabaha,
Gəldiyin yollara nur seli dolsun.
Vaxtına, vədənə az qalıb daha,
Yeni il, gəlişin xeyirli olsun.

Ürəkdə sədaqət, gözdə od-atəş,
Dolaşsın dünyanı hey diyar-diyar.
Aydın səmalarda parlasın günəş,
Olsun mehribanlıq könüllərə yar.

Yeni il, gəlişin xeyirli olsun.
Qucsun kainatı sülh göyərçini.
Xeyrə qanad açsın, qaranlıq solsun,
Ucalsın zəhmətin orağı, çini.

Aşsın sərhədləri xeyir-bərəkət,
Təbiət yerləri təbrikə gəlsin.
Qapısın xeyirə açsın, şəhər, kənd,
Şadlığın, nəş'ənin ünü yüksəlsin.

Şirin nəğmələrə dünya bürünsün,
Ötsün tuti dillər qitəbəqitə.
Hər gün kürəmizdə günəş görünsün,
Baş əyək o böyük ana xilqətə!

Ana məhəbbəti, ata hörməti,
Daim əlimizdən tutub aparsın.
Təmiz sinələrin hər pak niyyəti,
Çirkin ürəklərdə tufan qoparsın.

Yeni il, cəfakeş, əzabkeş həyat,
Nahaq göz yaşları görməsin daha.
Hər kiçik obada qurulsun büsat,
Arzular tuş olsun gələn sabaha.

Müqəddəs torpaqda qan-qan deyənlər,
Bir azca ismətli, həyalı olsun.
Düzlüklə işləsin bütün beyinlər,
Hər elin mehriban, əyalı olsun.

Dolsun keçən ildən qalan kəsirlər.
Qara qüvvələri ver acı yelə.
Elə bir ad çıxar min-min əsrlər,
Bu ağ saçlı dünyam görməsin belə.

Afirka, Amerka, İran, Hindistan,
Şərqdən Avropaya, Asiya qədər.
Olsun qəlb oxşayan güllük, gülüstan,
Bir də pak çöhrələr görməsin kədər.

Sevgilər, eşqilər coşub-çağlasın,
Təzə-tər sevənlər gəlsin dünyaya.
Hərə istəyinə könül bağlasın,
Açılsın sabahlar bahara, yaya.

Nəğməli könüllər, nəğməli dillər,
Alsın öz səsiylə ərzi əlinə.
Tutsun ətəyindən azad nəsillər,
Aparsın dünyanı sülhün elinə.

Yeni il, gəlişin xeyirli olsun.
Əlinlə ucalsın gur haqqın səsi.
Dünyam musiqili, şeirli olsun...
Can olsun hamıya acı kəlməsi.

***28.12.1985. Gəmidə***

## QADINLAR

Əməyiylə, hünəriylə ucalar,
Ün yetmiyən zirvələrdən bac alar,
Övlad bəslər özü isə qocalar,
Kainatın nur beşiyi qadınlar,
Bu dünyanın ev-eşiyi, qadınlar.

Böyütdüyü övladları həyatı,
Hər laylası dastan, qoşma, bayatı,
Nəfəsiylə yatızdırar elatı,
Qara saçın ağa boyar qadınlar,
Körpəsinə canın qoyar, qadınlar.

İşində də, evində də çalışar,
Zəhmətinin bəhrəsinə alışar,
Qəhrəmandır, zəfərlərlə yarışar,
Pak müəllim, həkim, ana, qadınlar,
Evdar oldu yana-yana qadınlar.

Məlahət var o nəğməkar səsində,
Aya bənzər məhəbbətin əksində,
Ana kimi bu dünyanın köksündə,
Arzuları coşub-daşar qadınlar,
Bir ömür də cavanlaşar qadınlar.

***21.02.1987***

## DÜNYAM NİYƏ QƏMLİSƏN?

Yenə azğınlarının artıbdı qeylü-qalı,
Yenə küreyi-ərzin pozulubdu əhvalı,
Bu müqəddəs torpağın pərişan olub halı,
Bu əhli kainatda yenə sən ötkəmlisən,
Söylə, ey məbədgahım, dünyam niyə qəmlisən?

Neçə-neçə qərinə, əsrlər yola saldın,
Namərdlərin əlində yaman günlərə qaldın,
Sənə bac verməyəndən comərdliklə bac aldın,
Belə olan surətdə nə üçün ələmlisən?
Ey mənim qibləgahım, dünyam niyə qəmlisən?

Çoxları sənin üstə at çapdı sağa-sola,
Çoxları zor işlətdi, güc gəldi ələ-qola,
Əsrin dərdi-səriylə pak sinən dola-dola,
Bu ağrı-acılardan məstmi olub, dəlisən?
Başı min bir qovğalı, dünyam niyə qəmlisən?

Yaxşılar da, pislər də sinəndə dövran etdi,
Çörəyinə kəc baxan pak köksündə qan etdi,
Yaman-yaxşı bilmədən borcları belə bitdi,
Sən ki, hər əməlində, hər işində çəmlisən,
Söylə ulu xilqətim, dünyam niyə qəmlisən?

Yoxsa heç bir əsrin belə qorxutmur səni,
Doldurmub qayğılarla, gündən-günə, sinəni,
Tökməyibdi üstünə bu qədər çiskin-çəni,
Zilin olan təqdirdə bəs niyə sən bəmlisən?
Ey mənim səcdəgahım, dünyam niyə qəmlisən?

Qədrini bilməyənlər səni qana bulayır,
Yağıların sinəndə yalquzaqtək ulayır,
Yurd var ki, göz yaşları çöllərini sulayır,
Ona görə buludtək yenə dolub, nəmlisən,
Ey təbibim, loğmanım, dünyam niyə qəmlisən?

Atom, nüvə zərrələr sənə ölüm qorxudu,
Heç bir keçən əsrdə bu faciə yox idi,
Ağılın qulağına bilik gör nə oxudu,
Çıxartdığın qərarda kim deyir ki, kəmlisən?
Ağ saçlı ulum mənim, dünyam niyə qəmlisən?

Əsrin ağıllıların səslə yığ ətrafına,
Qulaq ver amalların, məramların safına,
Sına pak idrakları, pak şüurları sına,
Kök üstə havalanan sən ki, sazlı, simlisən,
Milyardlar yola salan, dünyam niyə qəmlisən?

Köksündə hakim oldu mövhümat dolu dinlər,
İndisə elmlərin kəşfin qulağın dinlər,
İdrak həddin aşanda əzab çəkən ər inlər,
Əzəl gündən Allahlı, loğmanlı, həkimlisən,
Hər dərdin əlacı var, dünyam niyə qəmlisən?

Üzünə ağ oldusa o namərd övladların,
Sən əbədi saxladın adını ustadların,
Vəlvələ salanların sil əbədi adların,
Hər qədərdə, ölçüdə, ağıllım, çəkimlisən,
Ey mənim tacıdarım, dünyam niyə qəmlisən?

Ağıl ver, ağılları beyindən azmışlara,
Cahandarım, hikmət tök şüurlara, başlara,
Sən bir dərman-dəva yaz qəlb əvəzi daşlara,
Qanmaza dadsız oldun, qanana ki, təmlisən,
Ey mənim səltənətim, dünyam niyə qəmlisən?

İmdad etmə zülümün yolun hamarlayana,
Varını, sərvətini yığıb tumarlayana,
«Dünya mənimdi» deyib səni qamarlayana,
Haqsızlığı görəndə sənki çox sitəmlisən,
Söylə, ey taxtı-tacım, dünyam niyə qəmlisən?

Sinən qansız əlində neçə dəfə çapılıb,
Şəninə çox gileylər, çox ağılar yapılıb,
Naşının ağılıyla sinənə ox sapılıb,
Hökmü-adilim mənim zülümdə xitamlısan,
Ey mənim səcdə evim, dünyam niyə qəmlisən?

Bəşəri qan edənin qətlinə fərman oxu,
Düz at, hədəfə dəysin idrakın ağıl oxu,
Bu narahat nəhiri oxşasın rahat yuxu,
Ərzin fəryadlarına əzəldən yetimlisən,
Bəşərin havadarı, dünyam niyə qəmlisən?

Səadət oxunsa da hər düzündə, dağında,
Narahatam doğrusu, bu ana torpağımda,
Nalə çəkən ellər var həm solumda, sağımda,
Yuvasından didərgin nə qədər yetimlisən,
Azmı dərdlər görmüsən, dünyam niyə qəmlisən?

Uçurt sülhün quşunu o pak səmalarına,
Xəbər et vicdanların namusuna, arına,
Son qoy dərdli ellərin zülmətinə, tarına,
Binadan hökm verən əzəldən hətəmlisən,
Mənim havam, torpağım, dünyam niyə qəmlisən?
Ey firavan, xoş çağım, dünyam niyə qəmlisən?

***19-20.01.1986***

## ANALAR SÜLHƏ YARDIR

Çiynində daşıyır övlad dərdi-sərini,
Körpəsinə hər addım tökür alın tərini,
Özünə arxa bilir qardaş, oğul, ərini,
Müqəddəs insanlıqda onun zəhməti vardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Ey cahanın bəxtiyar axşamı, səhərləri,
Analar verir sizə körpəcə bəhərləri,
Gəz bütün oymaq-oymaq kəndləri, şəhərləri,

Onlara təmiz səma hər fəsildə bahardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Qanlı hərb axtaranlar, yandırın silahları,
İldırımtək sinədə çaxdırmayın ahları,
Qan etməyin körpəli, analı sabahları,
Həyata işıq verən şirincə laylalardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Qoymayın bu dünyanın sinəsin dağlatmağa,
Qoymayın bu zamanı, əsri ağlatmağa,
Qoymayın bu yolları, izləri bağlatmağa,
Beyinlərin içində hələ də zülmət vardır,
Dünyanın mələkləri analar sülhə yardır.

Böyüdüb, min əziyyət çəkdilər yolumuzda,
Odu ürəyimizdə, qüvvəti qolumuzda,
Günəş təki nur saçan, bu ömür yolumuzda,
Hər açılan güllələr sızıltıdı, ahardı,
Dünyanın mələkləri, analar sülhə yardır.

Bayılacaq dünyada qan-qırğın törədənlər,
Bayılacaq nəş'əni qüssədə əridənlər,
Bayılacaq, nüvədən ölümü örədənlər,
Dava qızışdıranlar sinəniz buzdur, qardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Düşünün yer üzünün gələcəyin, taleyin,
Oxuyun çöhrələrin, sinələrin gileyin,
Bu sürət əsrində nələr kəşf etdi beyin,
Analı sinəmizdə döyünən vicdan, ardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Narahat ürəyimiz gecələr qan ağlayır,
Ağıllı idraklara gözlər ümid bağlayır,
Beyinlərdə ölüm yox, elm, bilik çağlayır,
Bütün incə mətləblər qanmaz əlində xardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Odur hər körpəsinə bir müqəddəs yol çəkən,
Fəqət, həyat bağında körpə fidanlar əkən,
Pak analıq eşqiylə, başımıza nur tökən,
Körpəcə balaları necə altun nübardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Bəşəriyyət! Bir anlıq sus, dinlə bu harayı,
Yenə də titrəmədə canlıların sarayı,
Artırmayın kürədə çirkin naləni, hayı,
Körpələr evimizə fəsillərsiz bir bardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

Yer üzü, bas düyməni, efirdədir danışan,
Dünyanın taleyinə analardır qarışan,
Hər qitədə, ölkədə ulduz-ulduz sayrışan,
Həyata həyat verən bir nemətdir, bir vardır,
Dünyanın mələkləri, analar sülhə yardır.

İlahi, dərd əhliyəm, dərdi-sərlə yaşaram,
Çılğın yaz selləritək daim coşub-daşaram,
Sülhlə çiyin-çiyinə çox ellər dolaşaram,
Nə olsun ki, kainat namərd başına dardır,
Dünyanın mələkləri, analar sülhə yardır.
Dünyanın mələkləri, analar sülhə yardır.

***20.02.1986***

## DÜNYAYA ƏL VURMAYIN

Ey dünyanı qan içində qoyanlar,
Pak torpağın dərisini soyanlar,
Atom-nüvə xəstəliyin yayanlar,
Kainata qanlı tələ qurmayın,
Amandır, bu dünyaya əl vurmayın.

Yer üzünə çox hiylələr qurulub,
Həyat suyu hey bulanıb-durulub,
Xain yağı sinəsindən vurulub,
Ölüm ilə siz üz-üzə durmayın,
Amandır, bu dünyaya əl vurmayın.

Qanlı hərbi görüb ata-babalar,
Dağıdılıb, yandırılıb obalar,
Od-ocağı bumbuz olan sobalar,
Şahid olub, bunu bizdən sormayın,
Amandır, bu dünyaya əl vurmayın.

Nələr çəkib yer kürəsi dünyada,
Əskik olmur başından heç dərd-qada,
Qulaq verin ah-vaylara, fəryada,
Təbiətin sinəsini yarmayın,
Amandır, bu dünyaya əl vurmayın.

Qansız yağı, hərb atını dayandır,
De, yatıbmı vicdan haqqın? Oyandır.
Top-tüfənglə zilə getmə dayan, dur,
Əsrimizin baş-beyinin yormayın,
Amandır, bu dünyaya əl vurmayın.

Yaşamaqdır canlıların şüarı,
Əzilməsin ədalətin ilqarı,
Sülhdən keçir yer üzünün baharı,
Əl saxlayın, canlıları qırmayın,
Amandır, bu dünyaya əl vurmayın.

***18.04.1986***

## AY DOĞUB

Müqəddəs nuru ilə qatı zülməti boğub,
Gecəykən pəncərədə necə məsum Ay doğub...

Axır gur işıq seli axşamdan otağıma,
Qonaq etdim ayı mən bir gecəlik çağıma,
Təbəssümlər qonubdu çöhrəmə, dodağıma,
Ayrı bir səyyarədən nur dolub ev-eşiyə,
Mən qürurla baxıram bu mərdanə keşiyə.

Düşünürəm, bəs niyə ümidləri qıranlar,
Yeni-yeni sərhədlər qamarlayıb quranlar,
Günahsız torpaqlara, ellərə od vuranlar,
Ayrı bir planet bizə işıq verir gecələr,
Bir xeyirxah əməllə milyon zülmət incələr.

Bu ana kürəmizə niyə ögey baxırsız?
Neçə-neçə duyğunun axırına çıxırsız,
Günahsız sinələrdə ürəkləri sıxırsız,
Adicə bir gecədə Aydan ibrət götürün,
Qəlb ağrıdan işləri ilim-ilim itirin.

İtirin dünyamızdan nüvəni, neytironu,
Öylə xəyal etməyin çatıb cahanın sonu,
Hələ gəlib gedənlər görməyiblər heç onu,
Toxunmayın firavan bu dövrana, bu çağa,
Aytək həssas olun siz dünyanı qorumağa.

***28.04.1986***

## QOYUN AZAD ÜÇSUN GÖYLƏRDƏ QUŞLAR

Gəzir səmalarda çiskin-dumanlar,
Dolaşır dünyanı şübhə, gümanlar,
Dilsiz canlılar da bizi yamanlar,
Tökər üstümüzə min-min qarqışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Səma da, torpaq da, el də bizimdir,
Gah acı, gah şirin dil də bizimdir,
Ömrümüzdən gedən il də bizimdir,
Göydən yağdırmayın nüvə yağışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Ey qafil, yuxudan erkən dur bir gün,
Gör necə parlaqdır səmada al gün,
Salmın bu dünyanın bəxtinə düyün,
Bir də fikirləşin, düşünün, başlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Yerin də, göyün də öz cəfası var,
Hər qarış torpağın öz səfası var,
Dilsiz canlıların öz vəfası var,
İnsanın ağlını qədər alqışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Dağlara, düzlərə gəl diqqət edək,
Buyurub, dünyanın seyrinə gedək,
Mənəm deyənlərin ağzını güdək,
Cahanda yenə də qan-qırğın başlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Gəl seyrinə dalaq pak ormanların,
Dəli şimşəklərin, sis dumanların,
Sabahın düşünək bu ümmanların,
Dünyanın gözünü dərd, ələm yaşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Baxıram fəzada ağ bulud uçur,
Gah dərəyə qaçır, gah düzə qaçır,
Bu altun kainat ürəyi açır,
Gəzsin ölkələri qoy qaranquşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Gözəllik duyuram dağda, aranda,
Göyün seyrinə çıx gün qızaranda,
Dünya ki, dururdu biz yarananda,
Canlı həyat imiş bir zaman daşlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Biz ki, bu dünyaya günahsız gəldik,
İdrakla, ağılla hər gün yüksəldik,
Zirvəni fəth edib, ormanı dəldik,
Atomlar, nüvələr bizə nə aşlar?
Qoyun azad uçsun göylərdə quşlar.

Hər gün ömrümüzə baldı, şəkərdi,
Hər an, hər dəqiqə zaman təkərdi,
Dünyanın dərdini de kim çəkərdi?
Kim bizə yeni bir dünya bağışlar?
Qoyun azad uçsun göylərdə quşlar.

Doldurmun dünyanı acı silahla,
Oynamın gündüzlə, gecə-sabahla,
Kim mərama çatıb naləylə, ahla,
Salmayın raketdən yerə naxışlar,
Qoyun azad uçsun göylərdə quşlar.

Şadiman, dünyaya gəl diqqət elə,
İdraka təbiət yalvarmıb belə,
Qitələr, okyanlar gəlibdir dilə,
Həyat, həyat deyir bütün baxışlar,
Qoyun azad uçsun göylərdə quşlar.
Qoyun azad uçsun göylərdə quşlar.

***17-29.06.1986***

## QARALIB QANI DÜNYANIN

***Müharibə qızışdıranlara***

Qalıbdı arada didərgin, ağlar,
İnsan dərdi-səri sinəsin dağlar,
Qapısın nanəcib bir iblis bağlar,
Sevinci, şadlığı hanı dünyanın?
Yenə də qaralıb qanı dünyanın.

Göydə təyyarələr, yerdə maşınlar,
Artır addım-addım hərbi qoşunlar,
Nə sinədə ürək, nə sifətdə ar,
Necə azad olsun canı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Uçur başı üstə raketlər hər gün,
Atomlar bəxtinə salıbdı düyün,
Özünə bəs necə ağlasın bir gün?
Batır ulu adı, sanı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Hiyləyə əl atır hey hoqqabazlar,
Qanun yazan olub cahanda qazlar,
Dünyanın köksündə yer necə yazlar?
Bəlkə olmub belə anı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Ey qafil, gör necə gözləri dolub,
Hirsdən, hikkədən gül üzü solub,
Ey mənəm deyənlər, nə olub – olub,
Gəlsin ağsaqqalı, canı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Tonla silah düşür hər gün payına,
Min-min vaxtsız ölüm bircə ayına,
Dünyanın gözündən necə yayına?
Axır neçə yerdə qanı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Başımız qarışıb feylə, fitnəyə,
Bilmirəm ağlımız aldanır nəyə?
Qoymayın köksünə bir qəlpə dəyə...
Ey qafil, dəyərin tanı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Ey alim, kəşfinlə öyünüb yenə,
Demə ki, aqildir o ağıl, sinə,
Qoy Prometey nəsli oda isinə,
Dolub silahlarla yanı dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Nüvəli torpaqda daş da yatmayır,
Həkimin, loğmanın əli çatmayır,
Dünya etibarlı, bizi atmayır,
Axırımı çatıb yanı dünyanın?
Yenə də qaralıb qanı dünyanın.

Gözündə böyükdür həyat işığı,
Odur yerin-göyün tək yaraşığı,
Söz-sovu bitməyən sazlı aşığı,
Dəyişib rüzgarı, donu dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

Bu həyat bizlərdən çox yola salıb,
Bu beşgünlük ömür de kimə qalıb?
Bu iyrənc var-dövlət əqlini alıb,
Demə ki, çatıbdı sonu dünyanın,
Yenə də qaralıb qanı dünyanın.

***11.07.1986. Nasosnu***

## TOY-BÜSATLAR GƏRƏKDİR

Həyat yağır körpələrin gözündən,
Nur tökülür qocaların üzündən,
Mən eşitdim bu dünyanın özündən,
Sinələrdə coşub-daşan diləkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Neytironu, nüvəsi var bolluca,
Heç qoyarmı rahat başın balınca?
Raketləri ulduzlara salınca,
Bu ağrıdan yerlə-göyü həlakdır,
Əsrimizə toy-büsatlar gərəkdir.

Gələnlərin gedəndən çox gəlişi,
Mürəkkəbdir idrakların hər işi,
Öz kəşfimiz qıcıyıbdı sərt dişi,
Yalnız ağıl dünyamıza dirəkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Olmuşları heç unutmaq olarmı?
Heç insansız cahan eşqlə dolarmı?
Heç adamsız bu yer üzü qalarmı?
Kürə ki var, bəşər ilə mələkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Qoy çağlasın idrakların bulağı,
Qan-qan deyən tıxamasın qulağı,
Silahların göyü dəlir qalağı,
Hakimlərdən qan ağlayan fələkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Sinəmizin arzuları çiçəklər,
Həyat deyər, boy-boy qalxar ləçəklər.
Dözümsüzlik şahə qalxar gerçəklər,
Həyat bizim dünyamıza ələkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Tamah bizə güc gələndə, uçuruq,
Tox olsaq da, doymaq nədir, acırıq,
Sərvətləri, dövlətləri qucuruq,
Taleyimiz bir qundaqlı bələkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Haqq dedilər, haqqa sadiq haqlara,
Dünya dönüb zülmətə, çıraqlara,
Kainatı salmayın ayaqlara,
Bu yer üzü bir tufanlı küləkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Hər idrakın qədərinə ölçü var,
Hər tamahın bəd səsinə dilçi var,
Hər varlığın daşı üstə elçi var,
Ağlımızdan milyonlarmı zirəkdir?
Əsrimizə toy-büsatlar gərəkdir.

«Mənəm» deyən, gəl bozartma üzünü,
Gövhər, sərvət bağlamasın gözünü,
Hər addımda çəkib durma özünü,
Qol zorlusa, tab etməyən biləkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.

Nəş'ələrlə, sevinclərlə çağlayaq,
Aman deyən dünyaya gün ağlayaq,
Şərin görən gözlərini dağlayaq,
Ey insanlar, hamımızda ürəkdir,
Əsrimizə toy-büsatlar gərəkdir.
Əsrimizə toy-büsatlar gərəkdir.

***19.08.1986***

## QABARLI ƏLLƏR

Böyük şəhərləri, böyük kəndləri,
Dünyaya gətirdin, qabarlı əllər.
Sussuz torpaqlarda tikdin bəndləri,
Bar-bəhər yetirdin, qabarlı əllər.

Ağılla nemətlər süfrəyə doldu,
Zəhmətin hamıdan birinci oldu,
Fərəhdən gözlərin qürurla doldu,
Daşdan gül bitirdin, qabarlı əllər.

Zinətli evlərdən uzaq yaşadın,
Çiynində ən ağır bir yük daşıdın,
Bər-bəzəkli gəzdi sənin yaşıdın,
Seltək tər itirdin, qabarlı əllər.

Sanki bol nemətdir evə-eşiyə,
Hazırdır dunyaya ulu keşiyə,
Körpəli-çağalı məsum beşiyə,
Gülabdır, ətirdir qabarlı əllər.

Yorulmaq bilmədin işdən, əməkdən,
Torpağın yükünü hər an çəkməkdən,
Dil doymaz şəninə dastan deməkdən,
Hər anın sətirdi, qabarlı əllər.

Düzgün yaşayanlar sevər Allahı,
Gücünlə görürəm aydın sabahı,
Məni zəhmətinə bağlayan axı,
İstəkdi, xətirdi, qabarlı əllər.

***24.01.1987***

## İNSAN

Həyatı anlayıb, dərk etmək üçün,
Dərin xəyallara dalandı insan.
Bəzən zəhəri də şəkərtək udub...
Gizli bir həsrətlə dolandı insan.

Duyğusu cahana sığmaz dünyada,
Uyub şan-şöhrətə, gedəndi bada,
Yatağa düşəndə yetəndi dada,
Dolmuş könülləri alandı insan.

Qəzəbi sonsuzdu, dünyanı tutmaz,
Sınsa ürəyini heçnə ovutmaz,
Odlu sinəsini zaman soyutmaz,
Həqiqət yolunda qalandı insan.

İçində nə qədər arzular yaşar,
Ürəyi kükrəsə, sellərtək coşar,
Böyük əməlləri əbədi yaşar,
Ömrün payızında solandı insan.

Min hikmətlə dolu sinəsi vardır,
Odlu yurd-yuvası, binəsi vardır,
Yerdən üzülməyən dənəsi vardır,
Bir əbədi məskən salandı insan.

Bütün küreyi-ərz əlində çıraq,
Toplar qucağına min, milyon yaraq,
Hər gün taleyindən düşsə də varaq,
Qurduğun təmtəraq qalandı, insan.

Tamah, güc gələndə, dünyanı yıxan,
Min-min ölümlərin əlini sıxan,
Doğma kürəsinə ögey də baxan,
İlantək bir-birin çalandı insan.

Gəlib-gedənləri görün nə qədər,
Dəyişər nəsili, zamanı qədər,
Yaxısı aqildir, yamanı hədər,
Yenə də dünyaya qalandı insan.

Bir yağı içindən qənim çıxanda,
Cahanın sinəsin dərdlə sıxanda,
Abad yurd-yuvanı vurub yıxanda,
Kürənin başına dolandı insan.

Pisi də ad qoydu, yaxşısı da ad,
İçindən nə qədər törədi cəllad,
Dünyaya bəxş edib min, milyon ustad,
Qədərdən sirləri alandı insan.

Sahib də özüdü, sahibsiz də ah,
Rahib də özüdü, rahibsiz də ah,
Sonsuz dərinlikdə o dibsiz də ah,
Həyat nəğməsini çalandı insan.

Doymadı tökdüyü günahsız qandan,
Ey dünya, incimə, incimə ondan,
Sənin pis günündə keçəndi candan,
Yenə də istəkli balandı insan.

Özü qurduğunu bərbad edəndə,
Fitnəyə, fəsada, fe'lə gedəndə,
Vəhşitək bir-birin qırıb didəndə,
Dünyanın gözündə talandı insan.

Həyat çeşməsindən içdikcə içdi,
Min bir yoxuşlardan, enişdən keçdi,
İllər taleyindən günləri biçdi,
Gah pis, gah da yaxşı dolandı insan.

Qanunlar yaratdı idrakla ağıl,
Hər anı bir dastan, hər anı nağıl,
Dedikcə, sərvətlər dövrəmə yığıl,
Saf ikən günaha bulandı insan.

Çox meydan oxudu dünyaya dilin,
Anlaya bilmədin zamanın dilin,
Torpağın gözünü kor etdi milin,
Günahlar üst-üstə qalandı insan.

Şadiman, əzəldə son görünsə də,
Bə'zən ayaqlarda baş sürünsə də,
Xeyir-şər örtüyə o bürünsə də,
Zülmətə al günəş olandı insan,
Yenə də dünyaya qalandı insan.

***12.01.1987***

## YUXUM ÇİN OLAYDI KAŞ

Röyada gördüm ki, bu gecə yarı...
Süd gündüz içində dünyanın varı,
Nemətlər hamıya bölünüb yarı,
Yad sözü yox, hamı bacı və qardaş...
Bu gecəki yuxum çin olaydı kaş!

Nə silah, nə sərhəd, nə nüvələr var,
Dünyaya od qoyan nə «güvələr» var,
Babalar, nənələr, gül nəvələr var,
Təmiz, pak sevənlər sevənə sirdaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Röyada gördüm ki, gülür kainat,
Özgə təmtəraqda silahsız həyat,
Kasıbsız, varlısız, günahsız həyat,
Dünyanın evinə dolubdu daş-qaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Çəkilib kürədən əzab, zillətlər,
Bir yerdə süfrəsin açıb millətlər,
Xoşdur hər məramlar, bütün niyyətlər,
Yox olub dünyanın gözündən qan-yaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Ağ, qara, sarıdan, hər irqdən olan,
Hamının köksündə yalnız bir inam,
Röyada olsa da mən necə danam...?
Gözəl arzularla dolub ürək, baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Uçur səmalarda sülh göyərçini,
Parlayır dünyanın orağı-çini,
Çəkir məğrur-məğrur dünya içini,
Asılıb pisliyin sinəsindən daş,
Bu gecəki yuxum çin olaydı kaş!

Sərhədlər yerinə çinar əkilib,
Dünyanın üzünə ağ tül çəkilib,
Həyatdan yamanlıq, pislik əkilib,
Gülür çöhrələrdə bəxtəvər göz-qaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Yoxdur kürəmizə meydan oxuyan,
Yoxdur künc-bucaqda pislik toxuyan,
Hər ləhcədə, dildə nəğmə oxuyan,
Yeri zirvələrin zirvəsində baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Töküb səmalara günəş tellərin,
Keşiyin çəkirdi xoşbəxt ellərin,
Yeri hədələyən yaman dillərin,
Ağzına basılmış qapqara bir daş,
Bu gecəki yuxum çin olaydı kaş!

Yanıb kürəmizdə bütün silahlar,
Yox olub dünyadan, ağrılar, ahlar,
Lap ətir qoxuyur açan sabahlar,
Zillətdən, əzabdan ağrımayır baş,
Bu gecəki yuxum çin olaydı kaş!

Vətən bütövləşib şadlıq içində...
Dərdi baş götürüb qəlbdən köçündə,
Dillər alışmayır niyə-neçində?
Silinib sinədən əbədi təlaş,
Bu gecəki yuxum çin olaydı kaş!

Günahsız qanlara son qoyulubdu,
Yalanlar, hiylələr lap oyulubdu,
Dünya günahlardan tam yuyulubdu...
Bəxtəvər qocalır hər ömür, hər yaş,
Bu gecəki yuxum çin olaydı kaş!
Bu gecəki yuxum çin olaydı kaş!

***24.01.1987***

## BİZİM DÜNYA ADLI VƏTƏNİMİZ VAR

Baxıram hüdudsuz gen ormanlara,
Gümüşü tül geyən asimanlara,
Ağ gəlin libaslı sis-dumanlara,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Şırıltıyla axan dağ çaylarından,
Qızıl payızlardan, odlu yaylardan,
Əfsanə illərdən, şanlı aylardan,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Qara çadrasına bürünən gecə,
Layla nəğməsini çaldı indicə,
O zülmət gözəlin bal dili incə,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Dolaşar yer üzün ılıq küləklər,
Həyat min-min arzu doğar, bələklər,
Qəlblərdən-qəlblərə gəzər diləklər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Bahar, gözəl bahar çadır qurarkən,
Yoluna çıxanı orda yorarkən,
Çiçəyə bürünüb yolda durarkən,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Dağlar, ulu dağlar qürurla baxar,
Arada-bərədə şimşəklər çaxar,
İrmaqlar ilantək qıvrılıb axar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Sığmaz məcrasına gömgöy bulaqlar,
Suyunu göllərin üstə qalaqlar,
Öz bəyaz dumanın yayar yaylaqlar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Qarşıdan üzümə gülmüsər Xəzər,
Tufana, şaxtaya, çovğuna dözər,
Mavi dalğalarda bir mahnı gəzər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Təbiət ortada toy-mağar çalar,
Baharın evinə özünü salar,
Dünyaya bir himn, bir nəğmə dolar,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Təbiət insanı haqqa səsləyər,
Xeyrin sinəsində vicdan bəsləyər,
Şərin hər işini qəlbdən pisləyər,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

Həyat ümidlərlə baxar sabaha,
Düzlük qapıları bağlı günaha,
Üzün insanlara tutar bir daha,
Qulağımı həzin pıçıltı ovar,
Bizim dünya adlı vətənimiz var.

***07.02.1987***

## DÜNYA BİZİM, DÜNYA SİZİN DEYİLMİ?

Silahlanıb lap təpədən dırnağa,
Şüurlara sahib olan şər ağa,
Hünərin var çək, vurulan bu dağa,
Yaxşı-yaman hər iş izin, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Bax səmaya buludları dolubdu,
Günəşinin parlaqlığı solubdu,
Keçən keçib, qan-qadalar olubdu,
Ağlar gözlər sənin gözün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Xalqa dönən insan bir kök, nəsildi,
Qarşı bahar, ötən qış da fəsildi,
Kainata kəc baxanlar haqq sildi,
Bükülən diz sənin dizin, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Çox cahangir köçün sürüb gedibdi,
Çox ağızlar savaş şüar edibdi,
Çox idraklar pisliyi var edibdi,
Fəza, torpaq, günəş özün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Yerin bağrı parçalandı min dəfə,
Gedən varmı heç haqq görən tərəfə?
Atom, nüvə ölmə gedən ərəfə,
Solan torpaq bəyaz üzün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Ağartmayaq olmuşları bir daha,
Batırmayaq özümüzü günaha,
Yurd-yuvamız xoşbəxt çıxsın sabaha,
Elin sözü sənin sözün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Günəşə də, torpağa da dəyməyək,
Bir saralan yarpağa da dəyməyək,
İnsanlıqda qara-ağa dəyməyək,
Əsrin üzü sənin üzün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

Bu Şadiman sülh quşunu qucaqlar,
Alsın ərzi ağzına qoy xoş çağlar,
Əlimizlə sönməsin od-ocaqlar,
Elin gözü sənin gözün, deyilmi?
Dünya bizim, dünya sizin, deyilmi?

***13.11.1987***

## DOLAŞAYDIM BU DÜNYANI

Dolaşaydım bu dünyanı sərhədbilməz buludlartək,
Alışaydım soyuqqanlı od bilməyən ürəklərdə,
Şadlıqları bürüyəydi qucaq-qucaq, ətək-ətək,
Çarpışaydım duyğu bilməz, qayğı bilməz diləklərdə.

Bir ulduzun işığıtək, nur verəydim kor gözlərə,
Bircə damla su olaydım suya həsrət dodaqlara.
Mən bir bahar gətirəydim qışı çatmış bənizlərə,
Yarpaq təki tər olaydım payızında budaqlara.

Dolaşaydım nəhirləri qitə-qitə, ölkə-ölkə,
Süd gündüzə dönəydim kaş o qapqara zülmətlərdə.
Doğrayaydım ələmləri, kədərləri tikə-tikə,
Vicdan səsi mən olaydım qəlbi qara niyyətlərdə.

Alışaydım odu keçmiş bağırlarda ocaq kimi,
Qarışaydım nəhirlərin istisinə, soyuğuna,
İsidəydim yurdsuzları bir körpəli qucaq kimi,
Sərt dözümlü daş olaydım bumbuz qəlbin oyuğuna.

Ləyaqətə dönəydim kaş ləyaqətsiz sinələrdə,
Vicdan olub kölgə kimi sürünəydim beyinlərdə.
Günəş təki nur salaydım işırtısız binələrdə,
Kaş həyadan ipək olub görünəydim əyinlərdə.

Açılaydı hər qitənin arzuları al sabaha,
Çıraq təki alışaydım işıq görməz obalara.
Son qoyaydım bu dünyada hər kədərə, qəmə, aha,
Od olaydım oda həsrət od-od deyən sobalarda.

Yalquzaqtək ov axtaran tamahları azdıraydım,
Hiylələrin, fitnələrin sarayını uçuraydım.
Hər insanın sonu olan ölmə qəbir qazıyaydım,
Bu dünyadan talanları, yalanları qaçıraydım.

Qaçıraydım atomları, nüvələri yer üzündən,
Bu narahat səmalardan çəkiləydi qatı duman.
Nur yağışı töküləydi anaların üz-gözündən,
Ələmlərdən fəryad edib qaçmayaydı bizdən zaman.

Tamahkarlıq, saxtakarlıq tapmayaydı ürəyə yol,
Vicdanların hökmü ilə addımlar da atılaydı.
Nahaq qana, ölümlərə çəkməyəydi bir kimsə qol,
Xeyirxahlıq beyinlərdən qalxan eşqə qatılaydı.

Nə mənsəbə, nə şöhrətə uymayaydı bircə ürək,
Başı üstə ulduzlartək sayrışaydı təmiz adı.
Hər bir hissə, hər duyğuya olaydı kaş ağıl ələk,
Sonradan bu büdrəmələr doğmayaydı ah-fəryadı.

Hər yüksəliş, hər sıçrayış dünyanın al sabahıdır,
Həyat yolu eniş-yoxuş qabaqdadır qoca zaman.
Milyonların göz yaşları bir namərdin günahıdır,
Əcdadı da belə olub, heç bilməyib yaxşı-yaman.

Zəka özü dil olubdu yalvarışla insanlara,
Ağılsızın ucbatından ağıllı da gedir bada.
Ey Şadiman, aman vermə gözdən axan leysanlara
Bizə yaxın sevinc, nəş'ə dərd əlindən çatmır dada.

***28.10.1987 Nasosnu***

## DƏRDLƏRİ VAR DÜNYANIN

Odu keçməz, suyu bitməz torpaqdır,
Keçilməyən sədləri var dünyanın.
Budağından qırılacaq yarpaqdır,
Sinə tutmaz dərdləri var dünyanın.

Nalə, nifrin yağdırılır üstünə,
Min bir yerdən hey dururlar qəsdinə,
Fələstinə od tökənin qəsdi nə?
Zəncirlənmiş mərdləri var dünyanın.

Azərbaycan qan içində boğuldu,
Göz yaşından min-min igid doğuldu,
Haqsızlığa dözənlər də oğuldu,
Yaxşı hələ hədləri var, dünyanın.

Ağırları sağalmayan mərəzdir,
Yağıların hər addımı qərəzdir,
Vay-şivəndən göz yaşları, Arazdır,
Açılmayan qatları var dünyanın.

***13.07.1991***

## UYMAYAQ

***Qafqaz əhlinə***

Qafqaz adlı bir zirvədə doğulduq,
Hər ocağa Vətənsevən oğulduq,
Oba-oba yurd-yuvaya dağıldıq,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Sözə-sova boyamayaq hər rəngi,
Ovulmasın ağlımızın səhəngi,
Pozulmasın el-obanın ahəngi,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Əsrlərlə Qafqaz bizə yar oldu,
Uca-uca zirvələrə bar oldu,
Xain əllər hər addımda xar oldu,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Dəliqanlı mərd ərənlər, igidlər,
Fəna olmub böyüklərdən öyüdlər,
Dava düşsə, artar yurdda meyidlər,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Qafqazımın dağı-düzü gülüstan,
Əkək-biçək yaşıllaşsın bağ-bostan,
Ermənilər yağılara dəmtutan,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Bu hayların nəyi çatmır, ay haray?!
Vicdanları haqqa yatmır, ay haray,
Yatanları vay oyatmır, ay haray,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

İrəvandan ağızları dadlaşıb,
Millətimiz öz kökünə yadlaşıb,
Sayat Nova haylara övladlaşıb...
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Albanyanın var-yoxunu itirdik,
Qurd oğlunun ər oxunu itirdik,
Yurdumuzun lap çoxunu itirdik...
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

Ay erməni, biz can dedik, sən zəhər,
Şər kök atar, amma verməz heç bəhər,
Vicdan canda parıldayan bir gövhər,
Gülər bizə düşmən-yağı, qoymayaq,
Qonşuluqda hər fitnəyə uymayaq.

***27.02.1988***

## ŞƏRQ

Tökülür üstünə hər gün güllələr,
Vurulur üzünə hər gün sillələr,
Dolaşır ərzini fitnə, hiylələr,
O dərdli ürəyin yaralıdır, Şərq,
Sinən başdan-başa paralıdır, Şərq.

Qızmar günəşinə uzanıb əllər,
O od-atəşinə uzanıb əllər,
Gündəlik işinə uzanıb əllər,
Fəryadın fələyə yetişməzdir, Şərq,
Qanlı yaraların bitişməzdir, Şərq.

Hanı müdriklərin, yığıla gələ?
Ala var-yoxunu bir yolluq ələ,
Köksünə qurulan min cürə tələ,
Yağının başında çatlayaydı, Şərq,
Hiyləgər ürəyi partlayaydı, Şərq.

Ağrına, acına dözmək çətindi,
Talanan sərvətin öz xilqətindi,
Döyülmək, əzilmək – müsibətindi,
Qatla yağıların dizlərini, Şərq,
Uyma, aç yumulmuş gözlərini, Şərq.

Bu dünya əzəldən vur-yıx dünyası,
Əzən əzilənin saxlamaz yasın,
Qaldır dərgahına Tanrı duasın,
Uçurt başın üstdən şimşəkləri, Şərq,
Çağır harayına fələkləri, Şərq.

Axı babaların əzilən olmub,
Yağı savaşından üzülən olmub,
Zülümlər binadan dözülən olmub,
Cır hər haqsızlığın yaxasını, Şərq,
Vur yerə namərdin arxasını, Şərq.

Bir zaman at çapıb, qılınc vurandın,
Hər qarış torpağa arxa durandın,
Sanki doğulandan məğrur yarandın,
Tökmə yad ciblərə paraları, Şərq,
Tap, sən tapılmayan, çaraları, Şərq.

Didir, parçalayır sinəni yadlar,
Qalxıb asimana ahlar, fəryadlar,
Sirrini açmamış min illik qatlar,
Saysız əsrləri soraqlayır, Şərq,
Yağı tarixini ayaqlayır, Şərq.

Yığ öz ətrafına millətlərini,
Gömült qaranlığa zillətlərini,
Dağıtma yadlara sərvətlərini,
Öz süfrəndə qalsın bərəkətin, Şərq,
Görk olsun yağıya hərəkətin, Şərq.

Bu gün qan sulayır fitnə İraqda,
Yarası sağalmaz Livan soraqda,
Sən bir ölçü götür Əfqanın haqda,
Qardaşdan qardaşa yağı olmaz, Şərq,
Dünya belə olmub, belə qalmaz, Şərq.

Fələstin yarandır, qanı dayanmır,
Niyə fatehlərin yatıb oyanmır?
Ocağın keçibmi? Bir daha yanmır!
Farsın da ürəyi parçalanır, Şərq,
Türkün də tarixi haçalanır, Şərq.

Bu gün Azərbaycan – savaş ocağı,
Günahsız qanlarla dolu qucağı,
Bilinmir bu döyüş dayanacağı...
Gözümüzün yaşı min Araz, Kür, Şərq,
Şəhid oğullara yas tut, hönkür, Şərq.

Bir gözün şimşəkdi, biri buluddu,
Paranı yeyənlər haqqını uddu,
Şadiman nalənə ağlayan uddu,
Çatdır fəryadını yer üzünə, Şərq,
Qulaq as balanın haqq sözünə, Şərq.
Qulaq as balanın haqq sözünə, Şərq.

***31.07.1991***

## NADANIN

Göz yaşını selə, suya döndərər,
Neçə ulus ocağını söndürər,
Diri qəlbi cisimində öldürər,
Hər əməli, işi zordu nadanın,
Gözlərində ziya kordu nadanın.

Kürsülərdə iyrənc adı hallanar,
Onun, bunun qoltuğunda dallanar,
Cibə girər, əyri yolla yallanar,
Hər əməli üzə xoşdu nadanın,
Məclislərdə sözü tuşdu nadanın.

Parçalayar ürəkləri güllətək,
Hər addımı haqqa dəyər şillətək,
Hər qaradan sivişər min dillə tək,
Çox hiyləsi mərdi yordu nadanın,
Əməlləri – qanlı ordu nadanın.

Bir kəs varmı hiyləsindən ziyada?
Tüstüsündən kor olubdu ziya da,
Bir kimsəna tapılmaz bu həyada...
Zəhərlidi sözü-sovu nadanın,
Ağıllı baş, bəʼzən ovu nadanın.

Şirin xanım, həyat acı yuxudu,
Xəyanəti balalayan – qorxudu,
Qəlbi didən şərin acı oxudu,
Hər addımı min bir zülüm nadanın,
Qərarları haqqa ölüm nadanın.

***21.06.1992***

## DAĞITMAYIN, AMANDIR

Yer də, göy də, kainat da gözəldir,
İnsan varsa, təbiət də, gözəldir,
Tikir-yıxır, sökür-qurur, düzəldir,
Bu bolluğu məhv eləmək yamandır,
Dağıtmayın bu dünyanı, amandır.

Boyamayın yeri-göyü qaraya,
Kini səpib, nifaq salmın araya,
Məhv olanda kim gələcək haraya?
Yenə fəza karvan-karvan dumandır,
Dağıtmayın bu dünyanı, amandır.

Arzu, istək, pak amallar, diləklər,
Hələ işdən yorulmayıb biləklər,
Saf qürurla vurur coşğun ürəklər,
Sürətiylə uçub-qaçan zamandır,
Dağıtmayın bu dünyanı, amandır.

Suyumuz bol, sevgimiz bol, çörək bol,
İşdən-gücdən yorulmayan möhkəm qol,
Gələcəkdən müjdə verir gözəl yol,
Ədaləti haraylayan ümmandır,
Dağıtmayın bu dünyanı, amandır.

Körpələr var yer üzündə nə qədər...
Uzaq olsun gözlərindən qəm, kədər,
Eyləməyin arzuları dərbədər,
Onlar bizdən xoşbəxt həyat umandır,
Dağıtmayın bu dünyanı, amandır.

***06.05.1986***

## AĞLAR QOYMAYIN

Od-alovu töküb yenə üstünə,
Heyran-heyran baxıb gendən tüstünə,
Nə durmusuz bu dünyanın qəsdinə?
Dərdi-sərli sinəsini oymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Sinəsindən ötüb keçən əsrdi,
Öz haqqına özü candan əsirdi,
Milyon-milyon can önündə əsirdi,
Həyat şirin bu həyatdan doymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Nə görmüsüz neytırondan, nüvədən,
Uzaq olun evlər yıxan güvədən,
İnsan doymub heç uşaqdan, nəvədən,
Atomlara, nüvələrə uymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Dünya görüb milyon-milyon bizlərdən,
Çox adlayıb keçidlərdən, izlərdən,
İbrət alın çox bükülmüş dizlərdən,
Pak torpağı belə sayıb durmayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Qalaktika Yaradanın dühası,
Açılıbdı kürəmizə kahası,
Hər yeni kəşf bir ürəyin bahası,
Elmlərlə yerin köksün sormayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Biz gedəri cahan hələ qalası,
Gələnlərə o meylini salası,
Nə var şərdə, ona meyil salası?
Körpələrə, çağalara qıymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Vurdu çıxdı kəllə çarxa elmlər,
Ürəkləri qorxu hissi dilimlər,
Həyat üçün baş sındırır alimlər,
Etdiklərin belə şərə saymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

İdrakımız düşmən oldu nə bizə?
Çıxıb niyə ölüm-qırğın, qan dizə?
Zülmət gəlir hədə-qorxu gündüzə,
Faciəni ölkə-ölkə yaymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Göydən zəka, göydən bilik yağmayır,
Dünya ağil, dünya idrak doğmayır,
Lovğasını yerindəcə boğmayır,
Özünüzü kürsülərə yaymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

Kürəmizi gəl salmayaq heç oda,
Canımızçın dönməyək bir səyyada,
Karvan-karvan köçdü gedir dünyada...
Qapımızı belə bağlar qoymayın,
Bu dünyanı yenə ağlar qoymayın.

***29.05.1986***

## DÜNYAMIZA SÜLH GƏRƏK

Oxuyuram milyon-milyon üzlərdən,
Həyat deyən baxışlardan, gözlərdən,
Haray salan, fəğan edən sözlərdən,
Coşur-daşır sinəmizdə min dilək,
Bu narahat dünyamıza sülh gərək.

Fəzalarda şimşək, bulud ağlayır,
Dəli əsən külək sinə dağlayır,
Sis-dumanlar qapıları bağlayır,
Pıqqıldayır geniş səma, göy, fələk,
Bu narahat dünyamıza sülh gərək.

Yer üzünün çəmənləri düzləri,
Sülh, sülh deyir dərələri, düzləri,
Yenə dolub kainatın gözləri,
Lazım deyil kürəmizə fənd, kələk,
Bu narahat dünyamıza sülh gərək.

Saf torpağın döşlərindən süd əmən,
Haray salır yaşıl bağlar, çöl-çəmən,
Saçın yolur lalə, nərgiz, yasəmən,
Pıçıldayır pak təbiət, o mələk,
Bu narahat dünyamıza sülh gərək.

Qaranlıqlar köçün yığıb sürünür,
Həyat yenə al gündüzə bürünür,
Sübh-səhərdən parlaq günəş görünür,
Deyir, sanki ağ buludlar, meh, külək,
Bu narahat dünyamıza sülh gərək.

Yol üstündən ötüb keçən qadından,
Həyat yağır gözlərinin odundan,
Qucağında yatan körpə adından,
Dedi: Hələ qorxusuzdu bər-bələk...
Bu narahat dünyamıza sülh gərək.

Göz işləyən yamyaşıl yal-yamacda,
Bir qaranquş oturmuşdu ağacda,
Dedi: Balam yuvamızda taxt-tacda
Qan-qan deyən vicdanlara yox ələk,
Bu narahat dünyamıza sülh gərək.

Yolum düşdü bir gün dağlıq obaya,
Yaxınlaşdım bir nurani babaya,
Qəlyanının külün töküb sobaya,
Dedi: Qızım, haqqın evinə gələk,
Bu narahat dünyamıza sülh gərək.

Göz dolusu baxdım ana torpağa,
Bağ-bağçada çiçəkliyə, yarpağa,
Ağaclarda boy götürən saplağa,
Könlüm dedi: Hər nisgili gəl silək,
Bu narahat dünyamıza sülh gərək.

Mən üz tutdum ağıl dolu başlara,
Ahıl-qoca, cavan-yetkin yaşlara,
Dərdi-sərlə çatılmış göz-qaşlara,
Dedilər ki, dəyər-ölçü qoy bilək,
Bu narahat dünyamıza sülh gərək.

Vücudumda tir-tir əsən dirəyə,
Min bir ahla sual etdim ürəyə,
Dedi: Mən də qol qoymışdım bu rəyə,
Ey insanlar, bir ağlayıb, bir gülək,
Bu narahat dünyamıza sülh gərək.

***08.07.1986 Tağay***

## ATOMSUZ, NÜVƏSİZ DÜNYA OLAYDI

Atomsuz nüvəsiz dünya olaydı,
Od saçan silahlar röya olaydı,
Adamın üzündə həya olaydı,
Həyat qayıdaydı öz yuvasına,
İnsan qovuşaydı saf havasına,
Yalan qatmayaydı dil duasına.
Sərhədlər içində yaşasaq da biz,
Savaşa qatlanıb qalmayaydı diz,
Güləydi baxışlar, güləydi hər üz.
Savaşdan, vuruşdan doğmayır həyat,
Niyə fitnələri boğmayır həyat?
Haqqı qucağına sığmayır həyat.
Od saçan silahlar röya olaydı,
Atomsuz, nüvəsiz dünya olaydı...

***09.07.1986 Tağay***

## BU ÖZÜ ÖZÜYNƏN QALAN DÜNYADIR

Əbədi deyildir heç kəs dünyada,
Hərə bir yol ilə gedəcək bada,
Fürsətkən əldən tut, çatginən dada,
Röyadır, xülyadır, yalan dünyadır,
Bu özü özüynən qalan dünyadır.

Əzəldən çəkilib əyrilər başa,
Var üstə düşməndir qardaş qardaşa,
Düzlüyü döndərib tilsimlə daşa,
Namərdi mərd üstə salan dünyadı,
Bu özü özüynən qalan dünyadır.

Çox topdağıtmazlar dağılıb getdi,
Çoxunun nahaqdan yuvası itdi,
Gözlər yaş axıtdı, dada kim yetdi?
İlantək, əqrəbtək çalan dünyadı,
Bu özü özüynən qalan dünyadır.

O bir dəyirmandır üyüdəni çox,
Gələni, gedəni olmayıbdı tox,
Canı tərk edəndən xəbər tutan yox,
Zalımlar əlində talan dünyadır,
Bu özü özüynən qalan dünyadır.

Çox evlər uçurar, arzular sovar,
Yurdda doğulanı yurddundan qovar,
Haqqına danışan ağızlar ovar,
Eli el üstünə salan dünyadır
Bu özü özüynən qalan dünyadır.

Şadiman, həyatdan üzmə əlini,
Qoyma kədər büksün vaxtsız belini,
Ağardır qapqara o gur telini,
Elə hey boşalıb dolan dünyadır,
Bu özü özüynən qalan dünyadır.

***27.11.1988***

## YAŞAMAĞA SƏSLƏYİR

Bulamayaq yeri, göyü silaha,
Batırmışıq kainatı günaha,
Cahan necə çıxar belə sabaha?
Bilmirikmi torpaq bizi bəsləyir?
Dünya axı yaşamağa səsləyir.

Göydə quşlar yer tapmayır uçmağa,
Ceyran, cüyür dərə, düzdə qaçmağa,
Siz tələsin bəxtimizi açmağa,
Silah alıb, silah satır bəndələr,
Ayaq tutub gəzir şərlər, hədələr.

Raketlərdən günəş qorxub gizlənir,
Yer də, göy də addım-addım izlənir,
Hər dəqiqə ölüm, qorxu gözlənir,
Tələ qurur qanla dolu ağıllar,
Oxuyurlar şər qulağa nağıllar.

Yeni-yeni hiyləyə əl atırlar,
Bu aləmi bir-birinə qatırlar,
Min fitnəylə raket alıb satanlar,
Yaxşı-pisi ayırd edir gözümüz,
Düşmən olub canımıza özümüz.

Yerdə, göydə yenə qəmdir, qüssədir,
Təmiz səma tüstüdədir, hisdədir,
Çirkli torpaq can üstədir, xəstədir,
Çalışmayın ölümə yol açmağa,
Qitələrə, okyanlara qaçmağa.

Əlinizdən buludlar dad eyləyir,
Göydə raket yağışları əyləyir,
Gömgöy səma raketləri neyləyir?
Tələsməyək gəlin ara vurmağa,
Kürəmizə yenə tələ qurmağa.

Ey insanlar, cəm eyləyək ağılı,
Tilsimləri qoyaq qalsın bağılı,
Həyat deyil Məlikməmməd nağılı,
Atom, nüvə div deyildir yıxaq biz,
Hiylələrin axırına çıxaq biz.

Qoy ahəstə əssin dəli küləklər,
Qoy çaxdırsın ildırımlar, fələklər,
İdrakları bə'zən tamah bələklər,
Məsəl vardır, «artıq tamah baş yarar»,
Ev uçurar, qanlar tökər, daş yarar.

Çox sınaqdan bu torpağı çıxartdıq,
Köz bağlamış yarasını qopartdıq,
Elmləri ay-ulduza apardıq,
Tələsməyək yeri, göyü yıxmağa,
Bu dünyanın axırına çıxmağa.

Kim cəzana gəlibdir öz canından,
Dərya doldu bu torpağın qanından,
Şadlıq görək ömrümüzün anından,
Dünyamıza bir də ayaq basmarıq,
Dərd görərik, haqqa qulaq asmarıq.

İnsan yoxsa, dövlət nədir, var nədir?
Qalan qalır, bu dünyadan can gedir,
Nadan necə bilsin nemət an nədir?
Kürə bizi öz qoynunda bəsləyir,
Dünyamızı ədalətə səsləyir.

***26.06.1986 Zuğulba***

## İLAHİTƏK SANMAYIN

Yerlərdə bir canlanma, göylərdə bir büsat var,
İlahinin nuruyla pak, müqəddəs həyat var,
Sinəsində bir yığın dərdi-sərli övlad var,
Artıqca artır hələ bəndənin günahları,
İlahitək sanmayın bu insan allahları.

Dalğalanan dənizdir, diqqət etsən axına,
Tısbağatək silkinib çəkilməyir ki, qına,
Riyakar əməlləri buraxmayın yaxına,
Özümüzük kürədə qaraldan sabahları,
İlahitək sanmayın bu insan allahları.

Özümüzük dünyanın sevinci də, qəmi də,
Özümüzük cahanın ən firavan dəmi də,
Özümüzük həsrətin, yalanların cəmi də,
Çoxalanda torpağın, yer üzünün ahları,
İlahitək sanmayın bu insan allahları.
İlahitək sanmayın bu insan allahları.

***26.09.1986***

# VƏTƏN, TORPAĞINA QURBAN

## UCALSIN BAŞI

***Əskərliyə getməyə hazırlaşan qardaşım Fərhada ithaf***

Sözümə qulaq as, sevimli qardaş,
Get namusla qoru ana Vətəni.
Borcu ödəməkçin gəlib çatıb yaş,
Yurdun sərhədləri gözləyir səni.

Gəl ol, alnı açıq, bir yurd əskəri,
Qoy anan sevinsin adınla sənin.
Adını mərd saxla, yapış yüksəkdən,
Qəlbimiz döyünsün odunla sənin.

İftixar hissiylə yaşa dünyada,
Mətanətlə qoru torpağı, daşı.
Vətən alqış desin belə bir ada,
Qoy çağrılsın adın el vətəndaşı!

Qardaşım, ağ günlər qoynunda ucal,
Şad olsun el-oban daim səninlə.
Məğrur ol! Düşməni dərdə, qəmə sal,
Diləyin həyata keçsin əlinlə.

Ana torpağının şanlı oğlu ol,
Həmişə sevinək adınla, qardaş.
Dillərin qəhrəman, şirin nağlı ol,
Qoy çağrılsın adın «uca vətəndaş».

Arzular, amallar köməyin olsun,
Sevindir ruhunla daim Vətəni.
Düşün, düşüncələr dirəyin olsun,
Dost etmə, özünə yoldan ötəni!...

İlham al düzlüyün hər təməlindən,
Çörək ver, yola sal dostu, sirdaşı.
Sevinsin mərdanə hər əməlindən,
Atanın, ananın ucalsın başı!..

***28.10.1972 Tağay***

## MÜƏLLİM

Həyat yollarında sönməz çırağsan,
Sənətin ölməzdir sənin, müəllim.
Nurlu gələcəyə böyük dayaqsan,
Məsləkin dönməzdir sənin, müəllim.

Sən öyrətdin bizə özgə dilləri,
İşıqlı günlərə çatdıq əlinlə.
Nura bəxş elədin bu nəsilləri,
İyrənc cəhaləti atdıq əlinlə.

Həyat yollarında çəksən də əzab,
Sənət zirvəsində döndün ulduza.
Ağartsa saçını fikir, iztirab,
Döndü əməllərin ətirli yaza.

Bilik ver müqəddəs ellərimizə,
Vur gözəl dövranı başa, müəllim.
Böyük həyat yolun öyrətdin bizə,
Ürəkdən deyirik yaşa, müəllim.

Biliyin, savadın – uca qalası,
Sən bizə həm ürək, həm də dirəksən.
Vətən torpağının nəcib balası,
O nəcib yoluna daima əhsən.

Əziz bayramında bir nəğmə olan,
Şəninə alqışlar deyək, müəllim.
Həyatın ən şirin neməti olan,
Cansağlıq diləyək sənə, müəllim!

***15.10.1972 Siyəzən***

## YARADIR İNSAN

Həyatı yaşadır, yaradır insan,
Böyük arzularla boy atır hər an.
Pillə-pillə qalxır ucalır asan,
Həyatdan zövq alır ötdükcə zaman.

İnsanı yaşadır illərdən bəri,
Alçaldır, ucaldır qəribə həyat.
Bu dünya evinin gözəllikləri,
Ürəynin ömrünü uzadır heyhat.

Bir-birindən gözəl vüqarlı illər,
İnsanın ömrünə ömür calayır.
Şövqlə bir-birini ötən fəsillər,
Duyan könüllərə sevinc qalayır.

Ey odlar diyarı, Azərbaycanım,
De, hansı bir ürək zövq almaz səndən?!
Sənin gözəlliyin, ey mənim canım,
Qəlblərə ruh verir, eh günü-gündən.

***12.01.1974 Tağay***

## NEFTÇİLƏR

***Siyəzən neftçilərinə***

Əzəldən qüdrətli şöhrət-şanınız,
Düşdü ağızlara, elə car oldu.
Neftçi qəhrəmanlar, mərd ad-sanınız,
Vətənin dilində bir şuar oldu.

Bürünüb bir qara qızıla diyar,
Qorxutmasın sizi qışın tufanı.
Adınız müqəddəs, ürək bəxtiyar,
Əməklə ucaldın Azərbaycanı!

Boranlı günlərdə, qarlı zamanda,
İşdən soyumayır sizin əliniz.
Yağışda, yağmurda, çiskin, dumanda,
Uğursuz keçmədi bircə iliniz.

Siz qiymətli neftin töhfələrindən,
Dünyaya tonlarla yola saldınız.
Tarixin silinməz səhfələrindən,
Pozulmayacaqdır, sizin adınız.

Göylərə yüksələn neftin şöhrəti,
Neftçinin halalca dirliyindədir.
Doğma Vətənmizin sonsuz qüdrəti,
Bizim mübarizə birliyindədir.

***20.12.1972. Siyəzən***

## BİR ŞƏRQİ TANIYIRAM...

Bir şərqi tanıyıram,
zamanın hökmündən
dilə gəlib titrəmiş.
Bir şərqi tanıyıram,
milyon qəlbin acısın-şirin
nəğmələrilə boğazında itləmiş.
Xalqın acı fəryadın fəryadına qataraq,
qüssələrə bataraq,
zaman- zaman inləmiş.
Qaranlıqlarda itən saysız ürək ahının
fəğanını dinləmiş.
Bir şərqi tanıyıram,
Nənələr vaxtı ilə oxumuş həzin-həzin,
Hər səhər bu şərqinin səsindən ilham alıb,
gözəl-gözəl xalılar toxumuş həzin-həzin.
Bir şərqi tanıyıram,
bu şərqinin səsindən,
şirin qəhqəhəsindən,
dədə-baba ucalmış.
Bu şərqinin səsindən milyon kərə öc almış!
Bu Vətən şərqisidir,
Azəri şərqisidir!
Bu şərqinin səsindən zaman qalxıb ayılmış,
qaranlıqlar bayılmış!
Bu şərqinin səsindən həyat bir soraq almış,
Dağı-daşı bir zaman bu səs lərzəyə salmış!
Bu şərqinin bir zaman səsini dinləyərkən,
eşitmiş vətəndaşı böyük müqəddəs xəbər,
Doğulubdu vətənə Babək təki igid ər.
Eşitmiş ki, Vətəndə vətəndaşı yaşayır,
O qəlbində milyon könlün kədərini daşıyır.
Eşitmiş ki, qoca şərqin
övladların xoş günlərə çağırır,
İnsanları əsarətin caynağından
qoparmaqçın bağırır.
Bir şərqi tanıyıram,
Bu şərqi dinləmişdi Vətənin naləsini,
Qurtum-qurtum içmişdi zəhər piyaləsini!
Çıxartmaqçın ölkəni azadlığa çarpışmış,
Hüriyyətin ağappaq qanadından yapışmış.
Bir zaman bu şərqinin səsindən

çağlamışdı milyon qəlbin qüssəsi,
Bu şərqidən hayqırmış
Vətənin ağlar səsi!..
Bir gün qoşacaq şərqi yeni həyat bəstəsi...
Bir şərqi tanıyıram...
Bu şərqinin səsindən,
Dinləyirəm Vətənin,
səadət carçısının toxunulmaz mərdliyin,
Hələ üzə çıxmamış, yatıb qalmış sərtliyin.
Vaxt gələr ki, bu şərqinin səsindən dinləyərik
şirin-şirin ləhcəni,
incələrdən incəni,
Ay adamlar, dinləyin,
Mən deməyim, siz deyin,
Bu Vətən şərqisidir!
Azəri şərqisidir!
Azərbaycan səsidir!...

***03.10.1974 Tağay***

## NOVRUZ BAYRAMI

Gecə düşür, el-obada çal-çağır,
Üzlərdəki təbəssümdən şad bağır,
Tonqallardan ətrafıma od yağır,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

Əziz gündür, küsüşənlər barışır,
Bol nemətlər bir-birinə qarışır,
Süfrələrdə yanan şamlar alışır,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

Nəvələrin yığıb başa babalar,
Bahar gəlib qarşılayır obalar,
Axşam çağı tüstülənir sobalar,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

Mahnı, nəğmə oba-oba dolaşır,
Məzəli söz söhbətlərlə yollaşır,
Göy səməni qab içindən lap daşır,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

Başdan-başa burda gözəl, şən həyat,
Səma açıq, yaşıllaşır düz heyhat,
Mahnı, nəğmə göydə, yerdə çapır at,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

Bahar gəlib, sübh çağıdır, bəyaz dan,
Novruzgülü baş qaldırıb torpaqdan,
Duyğularım asılıbdı yarpaqdan,
Sevinclərlə deyir-gülür, bax hamı,
Xoş gəlmisən, sən ay Novruz bayramı.

***20.03.1978 Yasamal***

## TORPAQ

Dolandı sevdalı könlüm ormanı,
Gah ormanda qaldı, gah da ki, dağda.
Yazda yaylaqların çiskin, dumanı,
Mənə ilham verdi hər kiçik bağ da.

Yaşıllıq qoynunda dincələn torpaq,
Bir hayqırtı saldı dirlik eşqinə.
Yaşıl don geyinən hər kiçik yarpaq,
Mənə nəğmə deyir birlik eşqinə!

Hansı qadir rəssam öz fırçasını,
Çəkdi bu torpağın bəyaz üstünə.
Gülüstan eylədi dürr bağçasını,
Gör necə heyranlıq verdi köksünə.

Sinəsində elə canlanma qurub,
Riqqətə gətirir duyan ürəyi.
Sanki qaynar, coşğun çeşmədəir durub,
Sirli kainatdır onun dirəyi.

Yaşamaq, yaratmaq həyat şüarı,
Budur hər idrakı, duyğunu gəzən.
Tarixlər qoynundan qopan vüqarı,
Gah xeyirə açılır, gah şərə bə'zən.

Köpürən-kükrəyən dənizə bənzər,
İşığı nurladır qaranlıqları.
Sanki hər qarışı qəlb oxşayan zər,
Bahara döndərər boranlıqları.

Dinclik ətirini yayıb ormana,
Torpaq sinəsini toy-büsat edib.
Namərdlik, xəbislik dönüb dumana,
Lap gözdən-könüldən uzağa gedib.

***16.04.1978 Yasamal***

## HƏR QARIŞDA

Hər qarışda bu yurdumda, yuvamda,
Bir etibar, bir sədaqət, yaşayır.
Baharında, payızında, havamda,
Bir igidlik, bir rəşadət yaşayır.

Eşq timsalı ürəklərin birliyi,
Bu vətəndə xarüqələr yaradıb.
Neçə-neçə qadir əlin dirliyi,
Çətinliyi haqq yolunda aldadıb.

Pak zəhmətin yaratdığı nemətlər,
Tükənməyən bir dəryadır dayanıb.
Xoş məramla yeriyir hər niyyətlər,
Yatan gözlər yuxusundan oyanıb.

***21.04.1978 Yasamal***

## GÖZƏL VƏTƏNİM

Ey gözəl Vətənim, qəlbimdə yenə,
Sənə söz qoşmaqçın ehtiyac duydum.
Vətənim, dühalı söz xəzinənə,
Yeni söz deməkçin xəyala uydum.

Məhəbbət hissiylə coşur ürəyim,
Necə söz deməyim sənin eşqinə?
Qəlbimdə yurd salıb arzu, diləyim,
Vətənim, nələri demim şövqünə?

Kaş bir quş olaydım, uçaydım, Vətən,
Ünyetməz göylərdə qanad açaydım.
Böləydim arzumu bir cənubla tən,
Əlçatmaz zirvəyə mən də qaçaydım.

Əngin səmaların dərinliyində,
Tərlan quşlar təki azad süzəydim.
Yayda yaylaqların sərinliyində
Doyunca çəməndə çiçək üzəydim.

Kaş bir quş olaydım, uçaydım, Vətən,
Şimaltək Cənubu bir seyr edəydim...
Geniş ormalara qaçaydım, Vətən,
Yurda şadlıqlartək qonaq gedəydim.

Yamacdan laləni asta dərəydim,
Sonra dəstə tutub başa səpəydim.
Saçıma güllərdən çələng hörəydim,
Diz çöküb hər qarış düzü öpəydim.

Vətən, anam qədər əzizsən mənə,
Səni xəyallarda aramıram mən.
Köksümdə döyünən ürəyim sənə,
Deyir, bu füsnükar yurduna əhsən.

Azad beyinlərin odlu ölkəsi,
Ay əqlim, zəkalı düşüncəm mənim.
Uzaqdır üstündən qəm-dərd kölgəsi,
Ay böyük sərvətli odlu məskənim.

Qafqazım, Şahdağın sənə yaraşıq,
Kəpəzin, Qoşqarın, Dəlin zinətin.
Olub əzəmətə gözüm də aşıq,
Çünki əzəl başdan düzdür niyyətin.

Xəzərin, Arazın, Kürün nəbizin,
Bakı ürəyindir, neft isə qanın.
Pambıqlı tarlalar coşğun dənizin,
Başı uca edir bu adın, sanın.

Şanlı günlərimin ay xoşbəxt canı,
Ümidlə sabaha düşüb gedirəm.
İnanki heyrətdə qoyan zamanı,
Ətirli torpaqda bax seyr edirəm.

Gözəllər diyarı, ay gülüstanım,
Qəlbimə ruh verən nəğməm olmusan.
Ay mənim həyatım, ürəyim, canım,
Əzəldən əzizim, doğmam olmusan.

Nəğməkar hissiylə coşanda könlüm,
Sevincdən arzular qol-qanad açır.
Hüsnünə nəğmələr qoşanda könlüm,
Ünyetməz göylərdə şəfəqlər saçır.

Babam Dədə Qorqud müdrik diyarı,
Ay Cavanşir, Babək, Koroğlu eli.
Odlu vicdanların nəğməli yarı,
Coşğun ürəklərin gurlayan seli.

Səndən zövq almışdır saysız qəhrəman,
Nigarın, Həcərin qoçaq anası.
Dahilər, şairlər yurdusan hər an,
Fikrin, düşüncənin nazlı sonası.

Alisən, qorxmazsan, mərdsən, ey Vətən,
Əlçatmaz dağların büllur bulağı.
Xainə, namərdə dərdsən, ey Vətən,
Yurdumun, yuvamın qudrət torpağı.

Xoşbəxt bir zamanda, gündə olmuşuq,
Tufandan, borandan könlümüz uzaq.
İllərin hökmüylə yaşa dolmuşuq,
Ətalət, cəhalət qəlblərdən uzaq.

Sən bir qartal kimi məğrursan, Vətən,
Qürurun şahintək vüqarlı olub.
«Hüsnünə heyranam» deyir hər ötən,
Duyan könüllərə şadlıqlar dolub.

Müdrik kəlamlarla doludur sinən,
Nizami, Füzuli yetirmisən sən.
Sənin ilhamından, eşqindən dinən,
Fərhadlar, Şirinlər bitirmisən sən.

Müşfiqin, Cavadın yanan ürəyi,
Cəfərin, Cavidin qaynar həyatı.
Vaqifin, Vahidin könül dirəyi,
Şeirdir, sənətdir o kainatın.

Od yurdum, sinənin üstə doğulduq,
Köksündən dinlədik söz xəzinəsin.
İllər hökm verdi, biz yaşa dolduq,
Öyrəndik torpağın öz xəzinəsin.

Sinəndən yadigar alıb doğrunu,
Ərənlər yaşatmış eli, obanı.
Böyütmüş hər zaman insan oğlunu,
Cavanı hörmətli sanmış babanı.

Xəyala ehtiyac duymadım indi,
Ey mənim hünərli, Odlar diyarım.
Ürəyim eşqinin gücündən dindi,
Ay mənim çiçəkli, güllü baharım.

Silinə qəlblərdən hər dərd, yara da,
Açılan sabahlar azad, bəxtiyar.
Ölmə də düşəydi düşmən, dara da,
Arzular olaydı könüllərə yar.

Xoşbəxt yaşayaydı ağ da, qara da,
Bəşərin üstündən çəkləydi duman.
Şadlıqlar qurula hər gün arada,
Bəxtəvər həyatı sürəydi ümman.

Hər tərəf səadət yurdu olaydı,
Üzlərdən təbəssüm, sevinc yağaydı.
Qəlblərə məhəbbət eşqi dolaydı,
Dərdli kürəmizə günəş doğaydı.

Duyğuma, arzuma həmdəm ol, Vətən,
Belə xəyallarla yaşayıram mən.
Gəl bölək röyamı sənin ilə tən,
İnsan idrakına qovuşur bəʻzən.

***12.03.1974 Siyəzən***

## AY ARAZ

***Araz üstə düşüncələr ...***

Sahilində bədnam sərhəd telləri,
Bir-birindən ayrı salıb elləri,
Susdururlar Vətən deyən dilləri,
Aralıqda saçın yolan, ay Araz,
Bir torpaqda iki olan, ay Araz.

Nədir belə içindəki o fəryad?
Lal baxışın kimdən istər de imdad?
Könlü qırıb eylədilər lap bərbad,
Qız-gəlinin gözü yaşlı, ay Araz,
Yurd içində başı daşlı, ay Araz.

Zaman sənə əcəb sitəm eylədi,
Ayrılığa ünvanını söylədi.
Heç özü də bilmədi ki, neylədi?
Saldı səni dil-ağıza, ay Araz,
Qəfəs oldun oğul, qıza, ay Araz.

Qıpqırmızı sularında bir nalə,
Söylə görüm kim yanacaq bu halə?
De bir haçan qovuşarıq vüsalə?!
Üstbəüstdən sinə dağlı, ay Araz,
Üz-üzəyik, qapı bağlı, ay Araz.

Bu nə qanun, bu nə hököm, bu nə qan?
Bir bədəndə necə dursun iki can?
Kaş dünyaya gəlməyəydi o zaman,
Qəlbimizdə qəhər oldun, ay Araz,
Yağılara kəhər oldun, ay Araz.

Sağın, solun gözü yaşlı, nigaran,
Bir əsirdi buludludu dağ, aran,
Nə vaxt görən bitişəcək bəs yaran?!
Birləşəcək ayrı qollar, ay Araz,
Açılacaq bağlı yollar, ay Araz!

Yıxıb bizi bir əsirdi çək-çevir,
Gurla, hayqır, sərhədləri gər, devir,
Allah özü əzəl gündən haqq sevir,
Gömült suya imzaları, ay Araz,
Möhürlənmiş qəzaları, ay Araz.

Rusun, farsın qardaşlığı talanmış,
Din birliyi bu dünyada yalanmış,
Qolu bağlı qul azəri balanmış,
Tə'nə bizə söz-sovları, ay Araz,
Qır zənciri, buxovları, ay Araz.

Şadiman, kim bu əzaba dözərdi?!
İçimizdə qığılcımlar közərdi,
Kim olsaydı işgəncədən bezərdi,
Sənsə sakit hey axırsan, ay Araz,
Məlul-məlul can yaxırsan, ay Araz.
Məlul-məlul can yaxırsan, ay Araz.

***07-21.05.1981 Naxçıvan-Şahbuz***

## NAXÇIVAN

***Naxçıvandan keçəndə...***

Səpilibdi dağ-düzünə çiçəklər,
Coşur qanda, coşur canda diləklər,
Qoşur həyat nəğməsini ürəklər,
Nə gözəldir sinə yaxan bu ünvan?
Bəzənmisən tovuz təki, Naxçıvan.

Batabatın başdan-başa cahcəlal,
Almasın heç başın-üstün dərd, məlal,
Eylə mənə duz-çörəyi gəl halal,
Pişvazında heyran-heyran gülür can,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Ey Vətənin qədim yurdu, şah diyar,
Olmasın heç səndə kədər, ah, diyar,
Qədəm basan yurdunda bir kam duyar,
Çapdı keçdi el-obandan neçə xan?
Bəzənmisən tovuz təki, Naxçıvan.

Arazının sularında qan izi,
Dağlarının nə məsuddu çən üzü,
Heyrətlərə saldın yaman sən bizi,
Daş-divarın qatlarında yatır qan,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Neçə sultan qılıncları titrədi,
Tarixlərə hər qarışın fitrətdi,
Düşmən qıran uca başın fitrədi,
Dil-dil ötək gəl səninlə bircə an,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Şahbuzundan keçib gəldim evinə,
Bənzəyirsən nağılların divinə,
Ürək açdım sənə könlüm sevinə,
Gəl qəlbimin atəşinə düşüb yan,
Bəzənmisən tovuz təki, Naxçıvan.

Şadiman da bir tələbə baladı.
Dürüst bulsan arzum tala-taladı,
İstəyimi yurd-yuvana caladı,
Görməyəsən nə bir dava, nə də qan,
Bəzənmisən tovuz təki, Naxçıvan.
Bəzənmisən tovuz təki, Naxçıvan.

***07-21.05.1981 Naxçıvan-Şahbuz***

## MÖMÜNƏ XATUN TÜRBƏSİ

***Naxçıvan düşüncələri***

Günəşdən qopur şəfəqi,
Divarda çapır şəfəqi,
Min hilal yapır şəfəqi,
Nurlara qərqdir nəfəsi,
Mömünə Xatun türbəsi.

İnciyə bənzər naxışı,
Boynuna düzür yağışı,
Canları alır baxışı,
Sultan xanımın yar səsi,
Mömünə Xatun türbəsi.

Ərlərin qadın sayğısı,
Ana, bacıya qayğısı,
Bir kişinin pak duyğusu,
Sanıb ilahi Kəbəsi,
Mömünə Xatun türbəsi.

Daşlardan gəlir harayın,
Calallı şahlıq sarayın,
Tarixdə yoxdur heç tayın,
Bəzəmisən al günbəzi,
Mömünə Xatun türbəsi.

Bax üzümdəki heyrətə,
Əyirəm başı sərvətə,
Bəsdir qürurun millətə,
Duyğuyla sevdir hər kəsi,
Mömünə Xatun türbəsi.

Şadiman olub heyranın,
İlhama tutdun sən canın,
Dolu gül-çiçək hər yanın,
Bu da ürəyin bil bəsi,
Mömünə Xatun türbəsi.
Mömünə Xatun türbəsi.

***07-21.05.1981 Naxçıvan-Şahbuz***

## BÖYÜK GƏMİLƏRLƏ

Böyük gəmilərlə yol getməmişdim,
Yalan nə söyləyim, düz sözə nə var.
Özümü heç hazır mən etməmişdim,
Qayıqda balıqçı çəkirdi avar...

Xəzər mışıl-mışıl, sanki yatmışdı,
Yol gedən gəmidən xəbəri yoxtək.
Ancaq yuxusunu deyən qatmışdı,
Yatmış sinəsində təlatüm çoxtək.

Atamla xudmani süfrə qurmuşduq,
Dedilər, görsənir bax Neft Daşları.
Yolun yarısını başa vurmuşduq,
Qaldırdı yatanlar ağır başları...

Sanki bir talaydı uzaqdan bura,
Səf-səf düzülmüşdü buruq meşəsi.
Gəmi saf suları hey yara-yara,
Sürəti artırmaq oldu peşəsi.

Nahayət mənzilə gəmi yan aldı,
Çıxdı göyərtəyə işçilər bir-bir.
Ürək bircə anlıq xəyala daldı,
Taleyin qapısı açdı mənə sirr.

Ləpə pıçıltısı könlə səda, ün,
Fələyin təzə bir üzünü tanı.
Həyatın günləri keçdikcə hər gün,
Yazacaq ömrümə yeni dastanı.

***03.12.1985***

## ƏSRİN KƏŞFİ

Bu necə möcüzə, bu necə hünər?
Dikdir aqillərin uca başları.
Quşlar tamaşana şövq ilə enər,
Salam əsrin kəşfi, ay Neft Daşları.

Görüb-eşidəni heyrətə salan,
Minlərlə adamı qoynuna alan,
Xəzri küləklərə qələbə çalan,
Salam əsrin kəşfi, ay Neft Daşları.

Dəmir körpülər də uzanıb gedir,
Qəlbə heyrət salır, necə cəlb edir?
Bu gömgöy sularda məlahət nədir?
Salam əsrin kəşfi, ay Neft Daşları.

Ürək çaşbaş olur, könül savaşır,
Külək dalğa ilə birgə yarışır,
İşçilər axışır, iş başdan aşır,
Salam əsrin kəşfi, ay Neft Daşları.

Mən də ürəyimlə verdim baş-başa,
Üz tutdum sənintək nəhəng sirdaşa,
Ya mənlə ülfət qur, ya döndər daşa,
Salam əsrin kəşfi, ay Neft Daşları.

***03.12.1985***

## YENİ İLİ QARŞILA

Köhnə ilin yükün daha çatıbdı,
Təzə-təzə arzulara gəl başla.
Gələn qonaq astanaya çatıbdı,
Neft Daşları, yeni ili qarşıla.

Dövlətinlə, sərvətinlə, varınla,
İgidinlə, pak dostunla, yarınla,
Tufanınla, küləyinlə, qarınla,
Neft Daşları, yeni ili qarşıla.

Arxalanıb Xəzərimə çağlarıq,
Tufanların yol-izini bağlarıq,
Çətinliyin sinəsini dağlarıq,
Neft Daşları, yeni ili qarşıla.

Bata bilməz xain düşmən, bəd yağı,
Neçə-neçə cəsurların oylağı,
Qorxmazların dəli-dolu yaylağı,
Neft Daşları, yeni ili qarşıla.

Aç köksünü, qoy sığınım sinənə,
Tuş olmayaq nə dumana, nə çənə,
Gedənini yola salıb sən yenə,
Neft Daşları, yeni ili qarşıla.

Dəli-dolu ürəyinlə coşaraq,
Neçə zirvə fəth eləyib aşaraq,
Sabahına pak nəğmələr qoşaraq,
Neft Daşları, yeni ili qarşıla.

Qanad açıb sübh üstünə çökərkən,
Qaranlığın bağrı-başın sökərkən,
Qış günəşi başına nur tökərkən,
Neft Daşları, yeni ili qarşıla.

Gecələrin sirli ayla oynarkən,
Ulduzların bulaq kimi qaynarkən,
Sənin başın işdən-gücdən aynarkən,
Neft Daşları, yeni ili qarşıla.

O zəhmətkeş oğulunla, qızınla,
Üzübəri baharınla, yazınla,
Neçə dastan, boy bəsləyən sazınla,
Neft Daşları, yeni ili qarşıla.

Son ayını sədaqətlə qucaqla,
Sinəsinə od-alov tök ocaqla,
Çiçəklərdən çələng gətir qucaqla,
Neft Daşları, yeni ili qarşıla.

Oğulların nə qorxmazdı, nə mərddi,
Sinən içi top dağıtmaz bir səddi,
Bu ölçüdü, bu qaydadı, bu həddi,
Neft Daşları, yeni ili qarşıla.

Nəş’ələrin toy-büsatı ucaldı,
Ələmlərin ömrü bitdi, qocaldı,
Möcüzəni dünya səndən bac aldı,
Neft Daşları, yeni ili qarşıla.

Hünərpərvər min-min qızla, qadınla,
Qəlb isidən alovunla, odunla,
Baş əyməli o müqəddəs adınla,
Neft Daşları, yeni ili qarşıla.

Bu zamandır irəliyə səsləyən,
Qorxağından igidliyi həsləyən,
Gələcəyə sinfonyalar bəsləyən,
Neft Daşları, yeni ili qarşıla.

Şadimanı sinəsini təb ovur,
Odlu ölkəm adamından qəm qovur,
Zaman ili, ayı, günü tez sovur,
Neft Daşları, yeni ili qarşıla.

***12.12.1985***

## NEFT DAŞLARINDA GECƏ

Gecədir, qaranlıqlar çəkilib göy üzünə,
Ay buruqlar adası, nə füsunkar olmusan?
Qatar-qatar işıqlar oxşar nurlu gözünə,
Şirin arzular təki ürəyimə dolmusan.

Söylə, hansı diyarda su üstə şəhər yatır,
Hər buruq bir çıraqban ulduzlar meşəsidir.
Bu dəniz ölkəsində ulduzlara əl çatır,
Neft Daşları qəlbimin ən dilbər guşəsidir.

Suların qucağında gəmilər salamlaşır,
Yatırır sinəsində gecə gəlib-gedəni.
Bu payız axşamında xoşbəxtlik başdan aşır,
Yuyunur qaranlığın dənizdə pak bədəni.

Sərin mehlər gecəylə pıçıldaşır aşiqtək,
Sanki sevgi nəğməsi həzin-həzin səslənir.
Bu gecə gözəl Xəzər bir divanə məşuqtək,
Sevgilərin evində odlu-odlu bəslənir.

Gecə ay işığında dəmir körpü uzanır,
Alır işdən gələni ehtiyatla qoynuna.
Ulduzlar da bu axşam bir tamaşa qazanır,
Heyranlıqla baxırlar maşınların oynuna.

Burda göydə, dənizdə topa-topa ulduzdur,
İşıq seli sularda ox təki düşüb qalıb.

Bu gecə gözəl Xəzər, sanki növrəstə qızdır,
Gur qara tellərini zümrüd sulara salıb.

Növbə qurtaran zaman binalar da gurlaşar,
Həyatsevər adamlar gəlirlər dəstə-dəstə.
Ürəklərin atəşi hünər ilə qovlaşar,
Şirin nağıla dönər sərin mehlər ahəstə.

Gündüzün zəhmətini unutdurar gecələr,
Təmiz dəniz havası gözləri yatızdırar.
Tufanların sehiri adamlarla gecələr.
Yuxulara şirinlik, şəkərlik qatızdırar.

Gecə yuxularına gələr su pəriləri,
Necə də baş vurarlar qorxmadan dərinliyə.
Almaz təki bərq vurar gümüşü dəriləri,
O ilahi mələklər öyrəşər sərinliyə.

Oğlan, qız sədaları sularda sınıb qalar,
Dolaşar Neft Daşların pak gecə gülüşləri.
Hər qəlbə, hər ürəyə şadlıq mehrini salar,
Yığar öz ətrafına hey tanış-bilişləri.

İşıq seli altında qaranlıqlar incələr,
Növbədən qayıdanlar yavaş-yavaş yatışar.
Yorğun düşmüş əl-ayaq rahatlıqla dincələr,
Burda halal zəhmətə şirin yuxu qatışar.

Sübhədək qalıb oyaq dəniz də layla çalar,
Mehriban ana kimi oxşayar yatanları.
Coşub-daşan dalğalar qolları üstə alar,
Şərəfli əməyiylə arzuya çatanları.

Yorğunluqdan dincələn ürəklər pərvazlanar,
Sabah görülən işi bugün ölçüb-biçərlər.
Buruqlar ölkəsində həyat necə nazlanar,
Çətin görünən yoldan asanlıqla keçərlər.

Gecə qayğılarına bürünərlər ürəklər,
Xəyallar yığın-yığın alar ağzına bizi.
Sığallar sinəmizi o mələkə diləklər,
Sabaha qarşımızda açar neçə yol-izi.

Ərzin dərdi-səriylə gözlərimiz yuxlayar,
Kiminin eşq yanğısı sinədən ərşə qalxar.

Təzə-tər könülləri bir pak sevgi oxlayar,
Bir divanə məhəbbət qəlbi yandırıb-yaxar.

Buruqlar adasında ay xoş, sevdalı gecə,
Dəniz nəsimi ilə nəvaziş göstər bizə.
Həyat da çiçəklənir, sellər gurlaşır necə.
Mübarək qədəminlə çıxmışıq hər gündüzə.

Yolumuzu gözləyir halal zəhmət, şanlı iş,
Taleyimiz, ömrümüz necə bağlıdır ona.
Bu Odlar ölkəsində baş ucaldan yüksəliş,
Həyatın yollarında olub ağ saçlı ana.

Nələr keçir qəlbimdən elə bu an, bu gecə,
Ürək min bir qürurla vurur sinə içində.
Ey Şadiman, bu dövran, bu şad, firavan busat,
İlhamdan bir qalaça qurur sinə içində.

***16-21.12.1985***

## VƏTƏN TORPAĞINA, DAŞINA QURBAN

Şərəfin, şöhrətin gəzir dillərdə,
Hünər timsalıdır adın ellərdə,
Tarixin dastana dönüb illərdə,
Zirvələrdən uca başına qurban,
Vətən torpağına, daşına qurban.

Yoxdur bərabərin, yoxdur dünyada,
Min yol baş əyirəm hər gün bu ada,
Səndən uzaq olsun hər dərd, hər qada,
Günəşli-gündüzlü düzünə qurban,
Xəncərdən kəsərli sözünə qurban.

Koroğlu güc aldı bir zaman səndən,
Qorxmadı dumandan, çiskindən, çəndən,
Çətinə düşəndə yaxından-gendən,
Göz yaşı axıtdın, yaşına qurban,
Hünərlərlə dolu yaşına qurban.

Bağrıma basıram bu od-közünü,
Görən gözlərimi bildim gözünü,
Mənə ana olan sənin özünün,
Sinəmə od tökən oduna qurban,
Adın müqəddəsdir adına qurban.

Dağların yağıya basılmaz səddi,
Sənə xor baxanın hər işi bəddi,
Ürəyim könüldən könlünə bənddi,
Sənin yalmanına, qaşına qurban,
Vətən ağlılına, naşına qurban.

Mənə səadəti bəxş elədin sən,
Bir mahir rəssamtək nəqş elədin sən,
Qəlbləri şadlığa sən bələdin, sən,
Sənin büsatına, toyuna qurban,
Başı zirvə dələn boyuna qurban.

Nə qədər bəxtiyar qızınam mən də,
Azad dolaşıram çöldə, çəməndə,
Tapdım səadətin yolunu səndə,
Mənə övlad deyən dilinə qurban,
Odlu yurd-yuvana, elinə qurban.

Qəm-qussə boynunu burubdu burda,
Eşq əbədi yuva qurubdu burda,
Sevinclər ələnir hər addım yurda,
Bu azad, firavan çağına qurban,
Vətən aranına, dağına qurban.

Hər evin qapısın açır bərəkət,
Necə ağ günləyir hər şəhər, hər kənd,
Mən başdan, binadan oldum sənə bənd,
Çıraqban, işıqlı yoluna qurban,
İsmətli qızına, oğluna qurban.

Yurdun nə xoş gəlir al gündüzləri,
Seyir, tamaşadır çölü, düzləri,
Meh təki səadət oxşar üzləri,
Min çalar naxışlı xalına qurban,
Vətən ipəyinə, şalına qurban.

Gözlərim doymayır bu mənzərədən,
Xoş rahiyə gəlir dağdan, dərədən,
Sellərin adlayır bənddən, bərədən,
Çoşğun şəlalənə, çayına qurban,
Vətən, baharına, yayına qurban.

Yeddi rəngə çalır düzlərin yenə,
Gah sisə bürünür, gah duman, çənə,
Fərəh bəxş eləyir anların mənə,
Vətən, dəqiqənə, anına qurban,
Damarından axan qanına qurban.

Qışda ağ örtüyə bürünər çöllər,
Ovçuya bac verməz ördəkli göllər,
Dəli xəzrilərin yurdunda çöllər,
Vətən çovğununa, qışına qurban,
Odlu ürəyinin başına qurban.

Yazında bağrını yaşıllıq gəzər,
Süzər gözəlliyi qürurla Xəzər,
Gül-çiçək dağını, düzünü bəzər,
Min bir ətir saçan zövqünə qurban,
Zirvələr fəth edən fövqünə qurban.

Yayında süfrəsin açar Mil-Muğan,
Bərəkət qədəhin içər gündoğan,
Sənsən çətinliyi hünərlə boğan,
Vətən, göylər dələn qalana qurban,
Səni ürəyinə salana qurban.

Şirvanın, Şabranın bir yaraşıqdır,
Sinəm bu sinəndən doymaz aşıqdır,
Sənin zülmətin də mənə işıqdır,
Mənə gündüz olan gecənə qurban,
Sənə yüksəkliyi seçənə qurban.

Qatar qabağına cüyür ceyranı,
Dolaşar küləklər yurdda hər yanı,
Sənin od-alovun isidər canı,
Laylalı sinənin üstünə qurban,
Ocağından qalxan tüstünə qurban.

Gələr fəsillərin şahı qış baba,
Geyinər əyninə, sanki ağ əba,
Örtüyə bürünər hər el, hər oba,
Analar qeyrətli həyana qurban,
Vətən torpağını sayana qurban.

Sinən qonağının gəlişin duyur,
Qış özün arana, dağa toxuyur,
Soyuqdan qorxana meydan oxuyur,
Xəzrili, çovğunlu düzünə qurban,
Şaxtadan buz olan üzünə qurban.

Uçar səmalarda ördəklər, qular,
Düzündə yalquzaq, çaqqallar ular,
Donar, buz bağlayar arxlar, sel-sular,
Göyündə döyüşən buluda qurban,
Bizə arxa olan o ada qurban.

Uğurlu günləri düzdün sıraya,
Ruzi-bərəkətin dönübdü çaya,
Çağır, ellər gəlsin qoy xoş haraya,
Hər günü bir dastan ilinə qurban,
Əlimizdən tutan əlinə qurban.

Yazda yamacların yamyaşıl olar,
Dağlara, düzlərə gül-çiçək dolar,
Arada tikanlar, qanqallar solar,
Acı tikanına, gülünə qurban,
El-obandan qalxan səs-ünə qurban.

Məğrur-məğrur süzər kəklik, turacın,
Ən uca zirvədə parlayır tacın,
Yolumuzda şahid ağarmış saçın,
Vətən, Azərbaycan, canına qurban,
Müqəddəs adına, sanına qurban.

Nə xoş səfalıdır yay-yaz ayların,
İlantək qıvrılar, coşar çayların,
Şanlı qələbənin artır sayların...
Min zəfər soraqlı illərə qurban,
Sənə can-can deyən dillərə qurban.

Bu tarlalar, düzlər hünər gözləyir,
Əmək çətinliyi necə dizləyir,
İlham cuşə gəlib yenə sözləyir,
Bol nemət istəyən kamala qurban,
Müqəddəs ocağım, amala qurban.

Alırsan qoynuna məni hər axşam,
Əbədi ilhamla tüstülənir şam,
İzn ver şəninə nəğmələr qoşam,
Müqəddəs evinə, eşyinə qurban,
Ey qartal diqqətli, keşyinə qurban.

Buludlar toqqaşar baş-başa verər,
Gözlər tək dolanda güc yaşa verər,
Bir günlük ömrünü gün başa verər,
Zəhmət qələbəli əzminə qurban,
Min cəfaya dözən dözmünə qurban.

Şərəfin, şöhrətin gəzir dillərdə,
Hünər timsalıdır adın ellərdə,
Tarixin dastana dönüb illərdə,
Zirvələrdən uca başına qurban,
Vətən, torpağına, daşına qurban.

***30.03.1986***

## GÖZƏLDİR

Doymaq olmur torpağından daşından,
Buludların dumduru göz yaşından,
Nur tökülür zirvələrin başından,
Mərdlərinin düz ilqarı gözəldir,
Əhdə sadiq dostu-yarı gözəldir.

Tamaşadır başdan-başa bu diyar,
Gözəlliyə aşiq olan qəlb doyar,
Qoca Qafqaz gül-çiçəkdən tac qoyar,
Od yurdunun seyrangahı gözəldir,
Min rəng çalan al sabahı gözəldir.

Gözəlliyi bir dastandır yaşından,
Gözüm doymaz qayaların daşından,
Qızlarının ilahi göz-qaşından,
Başı qarlı şiş dağları gözəldir,
Bol nemətli bu çağları gözəldir.

Cəh-cəh vurur bağlarında bülbüllər,
Zəmilərdə aşıb-daşır sünbüllər,
Gəlib keçər hey bəxtəvər bu illər,
Od yurdunun fəsilləri gözəldir,
Qol-budaqlı nəsilləri gözəldir.

Sellər-sular qucaqlaşar yar kimi,
Bulaqların gözü bumbuz qar kimi,
Şəlalələr zilə qalxar tar kimi,
Uçub-qaçan turac-kəklik gözəldir,
Seyrə çıxsan, burda təklik gözəldir.

Xeyirxahlıq yağanda pak üzlərdən,
Mehribanlıq oxunanda gözlərdən,
Məcnun kimi mərdlik keçə düzlərdən,
Güzarı hər elə düşə, gözəldir,
Düz ilqarlı, ürək şüşə, gözəldir.

Maral təki ürək gəzsə dağları,
Könlün olsa gözəlliyin ağları,
Baş əyməli bu müqəddəs çağları,
Qeydə almaq, qiymət qoymaq, gözəldir,
Əldən tutmaq, könül almaq, gözəldir.

Qəlb şüşədir o sınarsa, bitişməz,
Tər tökməsən bağda güllər yetişməz,
Sən pis olsan heç kəs dada yetişməz,
Ata-baba təbiəti gözəldir,
Od yurdunun hər adəti gözəldir.

***15-16.02.1986***

## NEFT DAŞLARI

İlhamların qanadısan əzəldən,
İgidliyin pak adısan əzəldən,
Ustadların ustadısan əzəldən,
Neft Daşları, ey dənizlər sultanı,
Xəzərimin yaxın dostu, ad-sanı.

Nur tökülür fəzaların köksündən,
Min-min parlaq günəş çıxar əksindən,
Yaranmısan metalların çəksindən,
Vətənimin ay istəkli balası,
Gəncliyimin ey igidlik qalası.

Tufanların bəzək verir sinənə,
Qağayılar yaraşıqdır binənə,
Hesabat ver bugünündən dünənə,
Neft Daşları, buruqların aşiyan,
İgidlərdir sinən üstə yaşayan.

Gəl adlayaq qasırğanı qorxmayaq,
Çətinliyin bəd üzünə baxmayaq,
Şimşək təki lovğalanıb çaxmayaq,
Neft Daşları, vətənimə çıraq ol,
Zülmətləri parçalayan yaraq ol.

***16.02.1986***

## VƏTƏNİM

Böyük-böyük amalları bəllidi,
Ömrü-günü nə bəxtiyar illidi,
Əzəl başdan yürd-yuvalı, dillidi,
Od-ocağım, isti evim, sən mənim,
Azərbaycan, ey müqəddəs Vətənim.

Şırıl-şırıl axar dəli çayların,
Gözəl olar o yaz-bahar ayların,
Mükafatdır pak qələbə payların,
İgid-qorxmaz oğulun var, qızın var,
Ürək açan kamanın var, sazın var.

Şəlalənin yurdu, zirvə dağ olar,
Səndən ayrı olmaq mənə dağ olar,
Sənlə olsam, gecəm mənə ağ olar,
Gen sinəndən ayırmaram özümü,
Azərbaycan, sən verdin od-közümü!

Göylərində yenə nə çox bulud var,
Yığışıbdı hara belə buludlar...
Həsrətinlə qalan könül buludlar,
Azərbaycan, yansın odun-ocağın,
Gül-çiçəklə dolu olsun qucağın.

Arzuların sonu yoxdur, bitməyir,
Yolumuzda zəhmətin zay getməyir,
El-obanın düz əməyi itməyir,
Gəlin təki bəzənmisən yenə də,
Bu nə oddu, nə yanğıdı sinədə.

Bulaqların necə qaynar çağıdır,
Küləklərin buludları dağıdır,
Şiş dağların yadlara göz dağıdır,
Qonaq eylə yol-irizdan ötəni,
Azərbaycan, yurdum, Odlar Vətəni!

Böyük anam, doğma dilim, pak elim,
Dərə-düzüm, uca dağım, gen çölüm,
Ən müqəddəs kəşf edilmiş bir elm,
Azərbaycan, yanar odlu nəfəsim,
Ən mötəbər məclislərdə gur səsim.

Qanad açıb, göylərində uçaram,
Lalə olub, dağ-dərəndə açaram,
Qartal təki şiş zirvənə qaçaram...
Azərbaycan, bəxtimizin çırağı,
Adımızın ən müqəddəs dayağı.

Telli sazım Kərəm üstə dinəndə,
Muğamatım zil üstünə enəndə,
Bağrın yenə tar, kamana dönəndə,
Azərbaycan, mən də yanıq ney ollam,
Səhər-axşam el-obana hey dollam.

Ağrıyanda, sinənə baş qoyaram,
Düşməninin bağrın, köksün oyaram,
Ömrüm mənim, səndən necə doyaram?
Azərbaycan, büdrəyəndə yolumsan,
Yorulmayan, bükülməyən qolumsan.

Küləklərin çöllərində əsəndə,
Qapıların kəndarını kəsəndə,
Şimşəklərin bir-birindən küsəndə,
Onda güclü yağışların olaram...
Selə dönüb çaylarına dolaram.

Yaz gələndə sarı bülbül oxuyur,
Dağım-düzüm əlvan xalı toxuyur,
Kəpənəklər özün bağa toxuyur,
Azərbaycan, gəlin təki durginən,
Çəmənzarda bir toy-büsat qurginən.

Çinarların ucu göyə əl atır,
Körpə-körpə fidanların boy atır,
Qartallara zirvələrdə yer çatır,
Azərbaycan, ocağın var, odun var,
Tarixlərə gedib-çıxan adın var.

Uca-uca quşqonmazdan keçərəm,
Şəlaləndən, bulağından içərəm,
Lazım gəlsə öz canımdan keçərəm,
Qafqazımın yaraşıqlı balası,
Azərbaycan, od ürəklər qalası!

Qətrə-qətrə can qoyulub düzündə,
Zəhmət tərin bulaqların gözündə,
Bir tarixin açarı var özündə,
Azərbaycan, dahilərin yurdusan,
Təntənədən yaranan bir ordusan.

Sellər-sular dolu bərə-bəndlərin,
Keçilməzdir, aşılmazdır sədlərin,
Ürək açan şəhərlərin, kəndlərin,
Azərbaycan, ucal oğul-qızınla,
«Yanıq Kərəm» üstə köklən sazınla.

Şah dağından çöl-çəmənə baxaram,
Şimşək olub fəzalarda çaxaram,
Şəlalənəm, zirvələrdən axaram,
Dəli Kürtək dolayları sularam,
Lal Arazla bir qol-boyun olaram.

Küləklərtək dolaşaram düzünü.
Nəğmələrə çevirərəm sözünü,
Sürt üzümə od-alovlu üzünü,
Azərbaycan, od qızına atəş ver,
Titrəməsin ayağımın altda yer.

Sən anamsan, mən də sənin övladın,
Heç gedərmi dil-dodağdan xoş dadın?
Mənim adım, sənin ulu, pak adın,
Azərbaycan, qoç Koroğlu obası,
Nizamilər, Füzulilər babası.

Qoy titrəsin sazın sarı telləri,
Cuşa gəlsin Ələsgərin elləri,
Qoy kükrəsin çaylarının selləri,
Azərbaycan, Siyəzəndən keçərəm,
Qalaltının buz suyundan içərəm.

Ey Rübabə, oxu səsin çağlasın,
Telli tarım segah üstə ağlasın,
Təbrizimin yaraların bağlasın...
Lal Arazın kənarına çıxaram,
Dərdli-dərdli Savalana baxaram.

Şəhriyarım, ey ustadım, güman var,
Əzəl başdan hökmü adil zaman var,
Bu dünyada həm yaxşı var, yaman var,
Azərbaycan, son qoyular ah-vaya,
O tayından yol açılar bu taya.

Sussuz  yerdə mən gur çayın olaram,
Sellər təki dəryalara dolaram,
Od qızınam, boynuna qol salaram,
Azərbaycan, əyilməyən vüqarım,
Tükənməyən ulu sevgim, ilqarım.

Dədəm Qorqud öyüdlüsən, ey Vətən,
Saçlarına kamalından düşüb dən,
Açıq qapı görər burdan hər ötən,
Azərbaycan, şəkər, tuti dilin var,
Süfrələri aşıb-daşan elin var.

Sən ürəksən, səninkidir həyatım,
Arzum, hissim, sevinclərim, qanadım,
Sənsən mənim ucalığım, pak adım,
Azərbaycan, yorulmayan qolumsan,
Gələcəyə addımlayan yolumsan.

Çox təriflər deyilibdi şəninə,
Dağ-düzünə, dumanına, çəninə,
Saysızı da qalıb neçə ay-günə,
Azərbaycan, şeir-sənət ocağı,
Dastanlarla dolu olub qucağın.

Bahar gələr yaşıllaşar düz, meşə,
Torpaq üstə ellər başlar hey işə,
Söz qoşular bu dövrana, gərdişə,
Azərbaycan, quran əllər var olsun,
Qoy təntənə hər sinəyə yar olsun.

El qədrini bilməyənlər xar olsun,
Torpağına göz dikənə ar olsun!
Daim sənə sülh, səadət yar olsun,
Azərbaycan, bəxtimizin ulduzu,
Anam mənim, ey müqəddəs od qızı!

***30.03.1986***

# SƏN MƏNİM SEVGİLİ YARIMSAN, VƏTƏN

Şirin nəğmələrin ağızda, dildə,
Hərarətin vardır hər keçən ildə,
Ətrin məskən salır çiçəkdə, güldə,
Sərvətim, dövlətim, varımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Açılan sabahın seyir, gülüstan,
Sanki qıpqırmızı tonqaldır al dan,
Əsil şeriyyətdir, dastandır bu an,
Zilləri fəth edən tarımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Günəşin nuruna boyanıb Qafqaz,
Nə erkən yuxudan oyanıb Qafqaz?
Səhərlə üz-üzə dayanıb Qafqaz,
İsmətim, qeyrətim, arımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Dalğalar səs verər, boylanar Xəzər,
Sinənə ləpələr mirvari düzər,
Yoluna al günəş şəfəqlər bəzər,
Almaztək işıqlı qarımsan Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Gəl pak səmaların seyrinə dalaq,
Uçan qumruların qadasın alaq,
Dağına, daşına bir mehman qalaq,
Neməti sel olan barımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Odlu torpağında bir hərarət var,
Necə təlatümli, coşğundur sular,
Nəğmələr üstündə coşur kaman, tar,
Yağıya səd olan barımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Zülmətə də nurdur işıqlı gözün,
Bitib-tükənməyir söhbətin, sözün,
Günəştək açıqdır hikmətli üzün,
Zəhmətdən usanmaz arımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Qoluma qüvvətsən, gözümə işıq,
Ay eşqə sevdalım, olmuşam aşiq,
Mənim varlığıma sənsən yaraşıq,
İsti od-ocağım, qorumsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Köksündən ilhama gəlir bu ürək,
Bir anda yaranır yüz min pak dilək,
Gəl dola qolumu boynuna, mələk,
Ümidim, köməyim, karımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

Şadiman gözündən getməz uzağa,
Dözməz sənsiz ürək bir gün sazağa,
Könlümü vermişəm sənə sadağa,
Bu cismi-tənimdə canımsan, Vətən,
Sən mənim sevgili yarımsan, Vətən.

***26.10.1986***

## GÖZƏL VƏTƏN

Gözəl Vətən, dur gur səsin yayılsın,
Süd gündüzlər yuxusundan ayılsın,
Zülmət gecə qoy zəhmindən bayılsın,
Hünər göstər, ürəyimiz şad olsun,
Bu hünərin şan-şöhrətli ad olsun.

Gözəl Vətən, əməyinlə ucal sən,
O şiş tağlı zirvələrdən bac al sən,
İgidlərin oylağına tac ol sən,
Son qoy qəmə, diləklərlə gül daha,
Alnı açıq get bugündən sabaha.

Nə tufandan, nə borandan qorxun yox,
Hünərin bol, zəhmətin bol, gücün çox,
Könlümüzdə istəyin var, gözün tox,
Qorxma, adla yenə çətin yolları,
Yenilməzdir cəsarətin qolları.

Gözəl Vətən, od yurduna dayaq ol,
Gecələrdən, zülmətlərdən iraq ol,
Azadlığın gözlərinə çıraq ol,
Qaranlıqlar gündüz olsun əlinlə,
Ürəyimiz qoy öyünsün səninlə.

***22.01.1987***

## EY BURUQLAR ADASI

Bu qış günü sükunət var üzündə,
Qağayılar, sanki süzür düzündə,
Milyon elin işığı var gözündə,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Qatar-qatar dəmir körpü düzülüb,
Çətinliyin mərd əllərlə üzülüb,
Tufanların əli səndən üzülüb,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Amalların, istəklərin birləşib,
Hünər, zəhmət burda necə dürləşib,
Mərdlik əcəb mətinləşib, sirləşib,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Gəl burada birgə verək əl-ələ,
Bu ucalıq düşsün hər gün qoy dilə,
Şad müjdələr çatsın hər an yurd-elə,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Tufanlardan, boranlardan qorxmayaq,
Dəli-dolu xəzrilərə baxmayaq,
Biz hünərsiz sabahına çıxmayaq,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Sən anamsan, mən də sənin övladın,
Adımızla birgə gəzir pak adın,
Zəhmətlərdən qopdu çıxdı ustadın,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Ulduzmudur, buruqların düzülür?
Kəhkəşanda söylə hansı süzülür?
Nurlarınla zülmət gecə üzülür,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

Neft Daşları, qolun dola boynuma,
Bir hərarət, od-alov tök qoynuma,
Hünərinin donunu biç boyuma,
Vətənimin od-ocağı, odası,
Xəzərimin, ey buruqlar adası.

***22.01.1987***

## NEFÇİ BACIM

Nefçi bacım, gözlərində həyat var,
Öndə şöhrət, öndə şövkət büsat var,
Bu dünyada yaman-yaxşı bir ad var,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Qabarlı əl fantanlarla öcəşir,
Qorxma, tufan salıbsa da hay-həşir,
Sadə əmək təmizliklə birləşir,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Nefçi bacım, mədənlərdir oylağın,
Buruqların şiş ucudur yaylağın,
Qürurludur, şərəflidir bu çağın,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Qara neftə bulanıbdı əllərin,
Sərt Xəzərlə üz-üzədir tellərin,
Balasısan bu qeyrətli ellərin,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Bərbəzəkli şəhərlərdən uzaqda,
Çarpışırsan, döyüşürsən sazaqda,
Qüdrətlidir, şöhrətlidir bu çağ da,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Neftçi bacım, bərbəzəyi seçmədin,
İsti gözəl kabnetlərə keçmədin,
Hər gün dəblə boya geyim biçmədin,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Çox görmüsən sərt Xəzərin üzünü,
Tufanları ağlatmayıb gözünü,
Dəli xəzri qorxutmasın gözünü,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Dirəklərin üstündədir həyatın,
Dənizlədir şadlıq dolu büsatın,
Yol üstəsən yenə igid, ey qadın,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Nefçi bacım, igidliyin mərd ovun,
Yığ əlinə küləklərin cilovun,
Boşa çıxmaz sənin arzu tilovun,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Qasırğanın yollarını kəsərsən,
Hər qarışda neftin üçün əsərsən,
Bu ünyetməz şöhrətinlə bir sirsən...
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Bu əməklə mərdlərdən mərd olmusan,
Dəli Xəzər çaxnaşanda dolmusan,
Gur sulara əcəb mehri salmısan,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Hünərlidir, şərəflidir bu işin,
Qartal təki nə məğrurdur yerişin,
Şadlıq verib Xəzərimə gəlişin,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Bu nə oddur, sən tökmüsən köksünə,
Qağayılar heyran olub əksinə,
Min-min nəğmə azlıq eylər hüsnünə,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Nefçi bacım, yayılsın xoş sorağın,
Əsrlərə düşsün ömür varağın,
Daim yansın sənin tale çırağın,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

Azərbaycan sənin odun, ocağın,
Nə xoşbəxtdir, bəxtiyardır bu çağın,
Zəfərlərlə dolu olsun qucağın,
Sən də ucal zirvələrin başına,
Bir tarix ol torpağına, daşına.

***23.01.1987***

## AZƏRBAYCAN QADINI

Uca-uca zirvələrdə çağla sən,
Hünərinlə çətinliyi bağla sən,
Sevgilinə sadə könül bağla sən,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Batsın dərdin, qəm-kədərin naləsi,
Qalxsın zilə anaların haqq səsi,
Qucağında bəslənsin od ölkəsi,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Bir layla de şəkər dilim, sən özün,
Sinəmizdən əskilməsin od-közün,
Bahar kimi gülmüsəsin ay üzün,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Ağ əllərin gül balalar bəsləsin,
Həyat səndən dərdi-qəmi həsləsin,
Bugün səni xoş sabaha səsləsin,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Ürəyində şadlıq, sevinc bir aləm,
Gözlərində görünməsin qanlı nəm,
Taleyindən uzaq olsun kədər-qəm,
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

Şadimanı dilləndirən sözün var,
Laylalardan qəlbə dolan közün var,
Gələcəyi azad görən gözün var.
Ucalt elin, yurd-yuvanın adını,
Bəxtiyar ol, Azərbaycan qadını.

***18-19.02.1987***

## AY RAHİB

***Əskərlikdə olarkən Gürcüstanın Çaladidi kəndində daşqın vaxtı 28 nəfər sakinin həyatını xilas edib və özü qəhrəmanlıqla həlak olan Ağdamın Mahrızlı kəndinin igid balası Rahib Məmmədovun xatirəsinə***

İgid balasısan Azərbaycanın,
Önündə baş əyir Vətən, ay Rahib.
Ölməzlər canına qovuşdu canın,
Az olub mərdliyə yetən, ay Rahib.

Ananın laylalı dilinə qurban,
Bəxtin səni verən ilinə qurban,
Nəğməli, ozanlı elinə qurban,
Adıyla dillərdə bitən, ay Rahib.

Qara örpək örtmə başa, Mahrızlı,
Ölməz balana bax, yaşa, Mahrızlı,
Qoyma dərdin başdan aşa, Mahrızlı,
Ömrü həzin mehtək ötən, ay Rahib,

Qısa həyatınla tarixə qala,
Gürcüylə azəri xalqına bala,
Yaşı iyirmsəkkiz qəlbə nur ola,
Vəhşi dalğalarda itən, ay Rahib.

Özünü bu qədər sevsə də, ölüm,
Sonsuz qəzəbiylə divsə də ölüm,
Aldığı canlara evsə də ölüm!..
Uca zirvələrlə mərd tən, ay Rahib.

***15.08.1987. Qalaaltı***

## MƏNİM ƏSGƏR OĞLUM

***Əsgər analarının dilindən...***

Mənim əsgər oğlum, məhəbbətinlə
Sənsən od-ocağı, qoru Vətənin.
O təmiz, o ülvi sədaqətinlə
Qoru, igid balam, qoru Vətəni.

Mənim əsgər oğlum, yollarda gözüm,
Uğrunda nə qədər sinəmdə dözüm,
De, nə vaxt üzünə dəyər bu üzüm?
Qoru, igid balam, qoru Vətəni.

İndi həyatında imtahan, sınaq,
Qoy o həsrətinlə alışıb yanaq,
Hicranın əlində candan usanaq,
Qoru, igid balam, qoru Vətəni.

Rahatca yuxuya getsin körpələr,
Qızlar yolunuza pak su səpələr,
Bir sevda eşqiylə məktub öpələr...
Qoru, igid balam, qoru Vətəni.

***18.07.1987 Çıraqqala***

## ÇIRAQQALASI

Əsrlərin sinən üstə yatıbdı,
Yağıların keçilməzdə batıbdı,
Ərənlərin arzu, kama çatıbdı,
Azərbaycan torpağının balası,
Ulum mənim, məğrur Çıraqqalası.

İgid, qorxmaz dağlarıma anasan,
Diş donduran bulaqlara sonasan,
Dərə, düzü sənsiz necə anasan?!
Məhəbbətin ürəyimi alası,
Ulum mənim, məğrur Çıraqqalası.

Bir kitabdır həm torpağın, həm daşın,
Kimlər yola saldı qoca, mərd yaşın?
Ovucuna çox tökülüb göz yaşın,
Duyğularım dər-divara dolası,
Ulum mənim, məğrur Çıraqqalası.

İtib-batmış Şabranını haylarsan,
Dərdi doğan dəryalarsan, çaylarsan,
Olmuşlara, keçmişlərə saylarsan,
İlan təki tarix sinə çalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Uca başın zirvələrin fövqündə,
Çox sınandın əsrlərin zövqündə,
Parlayırdın padişahlar şövqündə,
Zaman durub saçlarını yolası,
Ulum mənim, məğrur Çıraqqalası.

O hikmətli duruşunda nələr var,
Qarışında, addımında ölər var,
Xarabana qonmuş bayquş mələr var,
Dər-divara dəyib burda solası,
Ulum mənim, məğrur Çıraqqalası.

Gilgil səddi Xəzərlə qol-boyundur,
Bahar gəldi, gül-çiçəklə toyundur,
Qartalları şəbnəmində yuyundur,
Harayların yenə sənə qalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Ey ağsaçlım, keşikçisən dağ-düzə,
Ötüb keçən gecələrə, gündüzə,
Dərbəndinin fəryadını de üzə...
Dərdli könül tellərini çalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Xəzərinə gizli yolun bağlımı?
Yağı əllə sinən içi dağlımı?
Aldadırsan tarixinlə ağlımı?
Uçuq binən xəyallara dalası,
Ulum mənim, məğrur Çıraqqalası.

Dumanların çən tutubdu başında,
Şahinlərin uçur hər qarışında,
Doğulmuşam torpağında, daşında,
Ormanların ürəyimin talası,
Ulum mənim, məğrur Çıraqqalası.

Şadimanın bu torpağın qızıdır,
Dərdli könlü elin telli sazıdır,
Biganəlik məzarını qazıdır...
Nə qalıb ki, səndən ilham alası?
Ulum mənim, məğrur Çıraqqalası.

***22.07.1987 Qalaaltı***

## XOŞ GƏLMİSİZ

Bayram olar şad görüşlər, əməllər,
Dost gəlişi qoyar qəlbdə parlaq iz.
Birlikdədir, pozulmayan təməllər,
Bu diyara buyurub, xoş gəlmisiz.

Alnı açıq, pak məramlı, diləkli,
Duz-çörəkli, qəlbi geniş ürəkli,
İgidləri yorulmayan biləkli,
Bu diyara buyurub, xoş gəlmisiz.

Məhəbbəti, dəyanəti pozulmaz,
Qonağının çoxu, azı sorulmaz,
Qəlb titrədən tufanları yozulmaz,
Bu diyara buyurub, xoş gəlmisiz.

Buruqları gözlərinin çırağı,
Oğlu, qızı qəhrəmanlıq sorağı,
Saf sinəsi sabahının varağı,
Bu diyara buyurub, xoş gəlmisiz.

Sular üstə qərar tutan oylağlı,
Göyü gömgöy, köksü mavi yaylaqlı,
Gözü nurlu, qəlbi odlu varaqlı,
Bu diyara buyurub, xoş gəlmisiz.

***24.10.1987***

## QALAALTI

Dərdlərə dərmansan, könüllərə yar,
Sənin saf havadan hansı qəlb doyar?
Gözlər rahatlıqla köksündə uyar,
Ana təbiətə göz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalalatı.

Dupduru bulaqlar hüsnünü bəzər,
Qartallar ən uca zirvədə süzər,
Bülbüllər gülləri həsrətdə üzər,
Edərsən özün də naz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

Üzülən canlara canı verənsən,
Köç edən ömürə anı verənsən,
Dağların başında ərsən, ərənsən,

Götür çal ruhuma saz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalalatı.

Həkimin, loğmanın necə şəfalı,
Burda sıx meşələr məlhəm, səfalı,
Qoynuna gələnin pozulmaz halı,
Sönən talelərə yaz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

Şəfqət bacıların ellər gözəli,
Sözü-söhbətləri necə məzəli,
Şaqraq gülüşləri könül qəzəli,
Nəgmələr içində az, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

Köksünə sığınan gəlib-gedən çox,
Qapına gələnə söyləmədin yox,
Bu yerdən əlacsız gedənlərin yox,
Sönən ürəklərə köz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

Şəfalı suların ömrə pasiban,
Ölən ümidləri etdin çıraqban,
Sən necə ülfətli, necə mehriban,
Gülər fərəhlərlə üz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

Şadiman sinəndə coşduqca coşar,
Hüsnünə min nəğmə, min şeir qoşar,
Bura ayaq qoyan dərmansız yaşar,
Könlümü duyğuyla üz, Qalaaltı,
Tapa bilməyirəm söz, Qalaaltı.

***23.07.1987 Qalaaltı***

## BELƏ ŞƏHƏR HARDA VAR?

Qucaqlayıb Xəzəri,
Sanki sevgili bir yar.
Kürədə yox bənzəri,
Belə şəhər harda var?

Altı polad dirəkli,
Qoynu xəzri küləkli,
Oğulları ürəkli,
Belə şəhər harda var?

Neft Daşları adıdır,
Zəkalar ustadıdır,
Tufanlar övladıdır,
Belə şəhər harda var?

Çox mərtəbə binası,
Əsrimizin mənası,
Dəryaların anası,
Belə şəhər harda var?

Hünəri nur heykəli,
Günəşə çatır əli,
Millətlərin məşəli,
Belə şəhər harda var?

Küləklərinə batan,
Möcüzəsinə çatan,
Sular içində yatan,
Belə şəhər harda var?

Şirin xanım heyrətli,
Oğlu, qızı cürətli,
Addımı əzəmətli,
Belə şəhər harda var?

***25.10.1987***

## AY NEFT DAŞLARI

Yatarsan ahəstə sular qoynunda,
Buruqlar mirvari olar boynunda,
Elin ağır yükü vardır boynunda,
Gecəsi pak aylı, ay Neft Daşları,
Sinəsi yaz-yaylı, ay Neft Daşları.

Dəli küləklərin bəstəkar olar,
Dalğalar gecənə laylalar çalar,
Gəmilər boynuna qolunu salar,
Pak zəhmət ətirli, ay Neft Daşları,
Ellərdə xətirli, ay Neft Daşları.

Qolları dəmirli igidlərin var,
Əməkdən dəm vuran öyüdlərin var,
Dəmirlər üstündə söyüdlərin var,
Buruqlar pənahın, ay Neft Daşları,
Parlaqdır sabahın, ay Neft Daşları.

Lalələr, nərgizlər açar sinəndə,
Bir sazlı aşıqdır könlün dinəndə,
Başına göylərdən duman enəndə,
Ağ donu geyindin, ay Neft Daşları,
Gəlintək öyündün, ay Neft Daşları.

Buruqlar Xəzərin üstünə çıraq,
Mayaklar suların köksündə yaraq,
Hər günün tarixə bir şanlı varaq,
Əsrin möcüzəsi, ay Neft Daşları,
Zəhmətin gur səsi, ay Neft Daşları.

Ulduzlar zülmətin bağrını üzər,
Nurlu ay yoluna mirvari düzər,
Dalğalar köksünü qürurla süzər,
Yurdun damarısan, ay Neft Daşları,
Bir neft anbarısan, ay Neft Daşları.

***13.09.1987***

## SIĞINMIŞAM QUCAĞINA

Göz açmışam dünyaya bir obadan,
Od qaladım ürəyə can sobadan,
İgidliyin yadigardır babadan,
Sığınmışam qucağına, ey Vətən,
İsinmişəm ocağına, ey Vətən.

Al yanaqlı lalələrin üzündür,
O pak büllur bulaqların gözündür,
Lalə, nərgiz düzdə düzüm-düzümdür,
Sünbüllərin tellərindi, ey Vətən,
Azərbaycan ellərindi, ey Vətən.

Qara gözlü, qara saçlı gözəllər,
İgidlərin ürəyində gəzərlər,
Həsrət ilə sinələrin üzərlər,
Pak qızların sabah ana, ey Vətən,
Layla çalar yana-yana, ey Vətən.

Əməyinlə övladların ucalar,
Yaxşılıqlar zirvələrdən bac alar,
Ələm-kədər burda vaxtsız qocalar,
Firavanlıq ağ üzündü, ey Vətən,
Bol nemətli dağ-düzündü, ey Vətən.

Pak süfrəndən əskik olmaz duz-çörək,
Hər igidin sənə sığmaz bir zirək,
Bu birliklə ağrıyarmı de ürək?
Şirvan, Şabran, Muğam-Milsən, ey Vətən,
Sən anama doğma dilsən, ey Vətən.

Həzin yellər sağa-sola at çapar,
Al Günəşin göylərində yurd tapar,
Bir gün məni o tayına gəl apar...
Orda qərib ellərin var, ey Vətən,
Qan ağlayan dillərin var, ey Vətən.

Yanaqlardan o süzülən yaşlara,
Dərd əlindən düyünlənmiş qaşlara,
İmdad eylə o əyilən başlara,
O tayın da sənə eldi, ey Vətən,
Arazında qanlı seldi, ey Vətən.

Gur sellərin çaxnaşanda, daşanda,
Çöldən, dağdan, dərə-düzdən aşanda
Cuşa gəlib şəlalələr coşanda,
Əl eylərsən küləklərə, ey Vətən,
Ruh verərsən ürəklərə, ey Vətən.

İztirabın könlü yaxıb-yandırar,
Buz bulaqlar əli vursan dondurar,
Hər qəlpə daş tarixini andırar,
Tarixləri aracaqsan, ey Vətən,
Qərinələr soracaqsan, ey Vətən.

Aç köksünü, uyuyum o sinəndə,
Doğmalıq var yurd-yuvanda, binəndə,
Al sabahın muğam üstə dinəndə,
Ud üstündə hay salırsan, ey Vətən,
Bəmdən zilə ucalırsan, ey Vətən.

Şadimanın bağrı yatmaz yad yurda,
Yad torpaqda könül darda, qəlb darda,
O köksündən harda vardır, de harda?
Ucalardan ucam mənim, ey Vətən,
Ulum mənim, qocam mənim, ey Vətən.

***4-5.11.1987. Nasosnu***

## GÖZLƏRİNƏ ÇIRAQDIR

Od yurdunun gözlərinə çıraqdır,
Yazılmamış min dastana varaqdır,
Hərəsi bir igidlikdən soraqdır,
Zəhməti bol, sinəsi mərd neftçilər,
Çətinliyə çəkdilər səd neftçilər.

Xəzri gəldi, tufan qalxdı nə qorxu?
Mehlər əsər, gəzər suda xoş qoxu,
Gözlərinə yaddır rahat bir yuxu,
Gözü nurlu, qəlbi dəniz neftçilər,
Çətinliyi çökdürdü diz neftçilər.

Dəyanətdə, cəsarətdə sınandı,
Zəhmət ilə el yolunda yanandı,
Mərdliyinə hər el, oba inandı,
Tufanlara sinə gərdi neftçilər,
Zirvələrdən hünər dərdi neftçilər.

Xəzər təki sinələri çağlayır,
Əllərində dəli xəzri ağlayır,
Zəhmət ilə əhdü-peyman bağlayır,
İşıq verər günə, aya neftçilər,
Hünəriylə gəlməz saya neftçilər.

Möcüzəli Neft Daşları məkanı,
Belə yurdu, oğlu olan el hanı?
Cəsarətdən yoğrulubdu al qanı,
Təslim edir küləkləri neftçilər,
Heyran edər ürəkləri neftçilər.

Əl qabarlı, üstü mazut, könlü tox,
İgidliyi min, milyondur sayı yox,
Mərdlərinin yer üzündə tayı yox,
Od-ocağın ehtiyacı neftçilər,
Ün yetməyən şöhrət tacı neftçilər.

Dağ qüruru baxışında, gözündə,
Bir mətinlik oxuyarsan üzündə,
Qətiyyətlik, dönməzlik var sözündə,
Buruqlarla baş-başadır neftçilər,
Hünəriylə tamaşadır neftçilər.

Buruqları – saf döyünən ürəkdir,
Yurdumuza polad, dəmir dirəkdir,
Əsrimizə dəyəriylə gərəkdir,
Ocaqlara od-atəşdir neftçilər,
Vətənimə al günəşdir neftçilər.

Soyuq, isti qorxutmayır onları,
Qəhrəmanlıq, cəsarətlik anları,
Vətən ilə birgə vurur canları,
Gur sulara bir dayaqdır neftçilər,
Daim yanan al mayakdır nefçilər.

Xəzər üstə şəhər saldı əlləri,
Möcüzəylə ovsunladı illəri,
Hər addımda heç dönməzdir dilləri,
Əyilməyən dəmir qollu neftçilər,
Ey müqəddəs, mətin yollu neftçilər.

Halal əlin sabahınla yarışır,
Taleyində ulduzların sayrışır,
Zəhmətinə el alqışı qarışır,
Tufanlara qardaş olan neftçilər,
Göy Xəzərə sirdaş olan neftçilər.

Məhəbbətdə, sədaqətdə təmizdir,
Duyğuları, məramları dənizdir,
Şıltaq Xəzər əllərində kənizdir,
Dalğalarla birgə durar neftçilər,
Sular üstə süfrə qurar neftçilər.

Ay Şadiman, elləri var qeyrətli,
Ağır, mətin əməkləri heyrətli,
Addımları xoş məramlı, niyyətli,
Zirvələrin fövqündədir neftçilər,
Yaşamağın zövqündədir neftçilər.

***13.11.1987***

## TORPAĞIM

Fələkdənmi yetdi qəzavü-qədər?
Zaman basdı bizi daşa, torpağım.
Diddi, parçaladı ölkəni kədər,
Yetmədi məramlar başa, torpağım.

Gecəykən yağılar yurda bağlaşdı,
Sitəmlər o cansız dağ-daşı aşdı,
Əzablı ölümlər həddini aşdı,
Əcəl balta çaldı yaşa, torpağım.

Sənə göz dikənlər şərə dayandı,
Qəfil fəlakətdən dünya oyandı,
Daş-divar günahsız qana boyandı,
Çıxdı min bir duyğu boşa, torpağım.

Daim yağıların oldun gözdağı,
Yaman gözün dikib yuvana yağı,
Kəsib qapımzı bu qürub çağı,
Şər bizlə döyüşür qoşa, torpağım.

***26-27.06.1990***

## VƏTƏNDİR

Kol dibində kəklikləri gəzərlər,
Çöllərini lalələri bəzərlər,
Göllərində ördəkləri üzərlər,
Göylərində durnaları süzərlər,
Bərəkətli Tovuz, Qazax, Vətəndir,
Bu torpaqda yaxın-uzaq, Vətəndir.

Dağı orman, düzü Xəzər deyərlər,
İgidləri düşmənlərin əyərlər,
Şahdağıyla yamacları öyərlər,
Varlığıyla hər bir şeyə dəyərlər,
Çıraqqala, Şabran, Quba, Vətəndir,
Bu torpaqda hər el, oba, Vətəndir.

Batabatı o tayına göz eylər,
Dərdli Araz sinə için köz eylər,
Heydərbaba dərd çevirər, üz eylər,
Sinəsini bu tayına düz eylər,

Pak Naxçıvan, Culfa, Təbriz, Vətəndir,
Bu torpaqda hər cığır-iz, Vətəndir.

Cıdır düzü tarixlərin yarağı,
Göz yaşıtək duru Şuşa bulağı,
Ürəklərə cövhər Laçın yaylağı,
Natəvanın haqdan gəlir sorağı,
Ceyran gözlü Qarabağım, Vətəndir,
Bu yerlərdə solum-sağım, Vətəndir.

Şamaxının dağı, düzü yaraşıq,
Bas sinənə telli sazı, ay aşıq,
Aç pətəyi baldan dadaq bir qaşıq,
Günəş çıxıb, aləm görür gur işıq,
Şəki, Şirvan, Bakı. Gəncə, Vətəndir,
Dillən, könül, incə-incə, Vətəndir!

***17.07.1988 Nasosnu***

## NOVRUZ GƏLDİ

Nə gözəldir möcüzələr adası,
Bürünübdü bağ-bağata yaşıla.
Bahar gəlib od-ocağı, odası,
Neft Daşları, Novruz gəldi, qarşıla.

İgid-qorxmaz oğulunla, qızınla,
O bağrına basdığın el sazınla,
Gül-çiçəkli, hər mübarək yazınla,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Çiçəklərdən çələng gətir qucaqla,
Aç qolunu göy Xəzəri qucaqla,
Şamlarınla, tonqalınla, ocaqla,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Səmənilər gül süfrənə yaraşıq,
Telli sazı bas bağrına, ay aşıq,
Qoy parlasın adamızda gur işıq,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Yaşıllaşsın lumu, çinar, söyüdlər,
Yallı gedin tonqal üstə igidlər,
Ululardan belə qalıb öyüdlər,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Bata bilməz xain düşmən, şər yağı,
Neçə-neçə cəsurların oylağı,
Qorxmazların dəli-dolu yaylağı,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Göy Xəzərə bahar gəldi yenə də,
Qoy baş alsın şadlıq, sevinc sinədə,
Ulu bayram yaz gətirib sənə də,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Dəli-dolu igidlərin var olsun,
Xain baxan düşməninə ar olsun,
Gözəl bahar Xəzərinə yar olsun,
Neft Daşları, Novruz gəldi, qarşıla.

Boranlı qış öz yükünü çatıbdı,
Qış köçünü quzeylərə atıbdı,
Bahar gəlib astanaya çatıbdı,
Neft Daşları, Novruz gəldi, qarşıla.

***22.03.1989***

## İGİDLƏR

Yurd-yuvanı əlimizdən alırlar,
Xain əllə məngənəyə salırlar,
Gürzə təki sinəmizdən çalırlar,
Dar məqamdı, dürləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Taleyimiz bircə tükdən asılıb,
Od deyənin ağzına kül basılıb,
Ərlər ilə min-min yağı basılıb,
Koroğlutək sirləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Yazıq Vətən neçə yerdən qəfəsdə,
Neçə oba qalıb axır nəfəsdə,
Yağıların var hiyləsi, nəfsi də,
Sellər təki gurlaşın ey, igidlər,
Bir yumruqtək birləşin, ey igidlər.

Düşmən bizə yaxşı tələ qurubdu,
Yurd-yuvanın qollarını burubdu,
Haqq savaşa qız-gəlin də durubdu,
El-obada yerləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Zaman bizi çox sınağa çəkibdi,
Yolumuza neçə min səd çökübdü,
Ana Vətən çox belə qan tökübdü,
Araz olmun, Kürləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Tanrı bilir, zaman həmən zamandı,
Saman həmən samanlıqda samandı,
İçimizə nifaq salan, yamandı,
Bulaq təki durlaşın ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Qəhrəmanlıq nağıllaşar boy günü,
Pisimiz də ağıllaşar say günü,
Qız-gəlin də oğullaşar vay günü!
Təmizlikdə pirləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Tarix boyu çox çarpışdı babalar...
Seyrəlibdi gur görünən obalar,
Yağı əllə söndürülüb sobalar,
Dəmirləşin, tirləşin ey, igidlər,
Bir yumruqtək birləşin ey, igidlər.

Evimizdə yağı olub bir ağa,
Şirin xanım, nə dözürsən bu dağa?
El-obaya daraşıbdı mığmığa...
Təmizlikdə ərləşin ey, igidlər,
Dar məqamdı, birləşin ey, igidlər.

***15.01.1990. Nasosnu***

## İNQİLABINA QURBAN

Azərbaycan! Ürəyin çox yerə parçalandı,
Odları ərşə bülənd bağrına su calandı,
Tikanlı məftillərin yolunda haçalandı,
Al qanlarla yoğrulan inqilabına qurban,
Beşiyində boğulan inqilabına qurban.

Haqların talan oldu yağı məhkəməsində,
Susdurdular azadlıq şərqini gur səsində,
İgidlərin can dedi sənə hər kəlməsində!
Ey Vətən, damğalanan inqilabına qurban,
Şər əllə yağmalanan inqilabına qurban.

Sərvətin iblislərin iştah mənbəyi olub,
Dostam deyib, süfrənə qarışqa kimi dolub,
Gülzarın özgələrin xain əlində solub,
Yetmiş il səsi batan inqilabına qurban,
Bəxti, taleyi yatan inqilabına qurban.

Ey şəhidlər beşiyim, ey qazilər məkanım,
Səndən keçir mənliyə, ləyaqətə təkanım,
Səni bağrıma basmaq, qucmaqdır tək imkanım,
Ürəyimdə od saçan inqilabına qurban,
Şərəfə qapı açan inqilabına qurban.

Bu Şadiman dərdini bilmir kimə söyləsin,
Ya durub loğman tapıb, ya həkimə söyləsin,
Bədənimdə çırpınan can çəkimə söyləsin,
Qalx dağıt zülm evin inqilabına qurban,
Canı şüşədə divin, inqilabına qurban!
Canı şüşədə divin, inqilabına qurban!

***28.05.1990***

## ƏBƏDİ YAŞA

Vətən, sənin başın üstən qara yellər çox əsdi,
Qurd ağızlı cəlladların ağ yollarını kəsdi.

İşğalların caynaqları cırmaqladı köksünü,
Əllərindən alıb cırdı azadlığın əksini.

Səadətin qara üzü qara bəxtinə düşdü,
Min bir amal, min bir duyğu tilsimlərdə ilişdi.

Nə bir duyan oldu səni, nə də ki, bir anlayan,
Yad əllərdə parçalandı düzün, torpağın, qayan.

Ərzin ahı ərşə qalxdı, sənin ahın boğuldu,
Fəryadından hamilə dərd öz sinəndə doğuldu.

Dil yadlaşdı, kök yadlaşdı, içimiz talan oldu,
İmperyalar zülümüylə tarixin yalan oldu.

Torpağını hissə-hissə qopartdılar əlindən,
Türk sözünü, türk adını çıxartdılar dilindən.

Övladların yad dillərdə cəh-cəh vurdu bülbültək,
Öz doğmaca ana dilin biçildi bir sünbültək.

Öz dilində danışana yad baxdı öz doğması,
Yaman olur öz əlinin öz köksünü boğması.

Aşıb-daşdı yad sözləri dilimizdə sel kimi,
Heç ayağa düşən olmub bu bəlalı el kimi.

Bağrımızın üstündəcə təpik döydü özgələr,
Bu torpaqda ayaq açdı, at oynatdı təkələr.

Müti oldu övladların yad ayağı dəyəndən,
Taleyinin kəhər atı belə getdi yüyəndən.

Ana Vətən, səadətin əlçatmaz nağıl oldu,
Səni səndə parçalayan birləşməz ağıl oldu.

İndi bütün yer kürəsi öz haqqını səsləyir,
Qucağında istiqbalı çocuq kimi bəsləyir.

Sən də hayqır gur səsinlə varlığını soraqla,
Taleyinin yazılmayan səhfələrin varaqla.

İçindəki möhnətini at ayaqlar altına,
Yüyənini əldən vermə, min azadlıq atına.

Qoy yenidən paramparça yurdlar versin baş-başa,
Şirin xanım gəldi-gedər, Sənsə əbədi yaşa.

***07.06.1991***

## ANALAR

Əriyər şam kimi beşik başında,
Alışar, qor olub, yanar analar.
Əzabı isinər hər göz yaşında,
Hər cür soyuqluqdan donar analar.

Daşıyar dünyanın ağır yükünü,
Bir şirin layladır sədası, ünü,
Açar dözümüylə min bir düyünü,
İsti yuvasına qonar analar.

Evinə arxadır, dayaqdır, səddi,
Nigartək, Həcərtək həmişə mərddi,
Hər bir çətinlikdən əyilməz qəddi,
Fəqət, dönüklükdən sınar analar.

Oğullar böyüdər elinə arxa,
Dar gündə yağıyla hər cəngə çıxa,
Qəzəbi bir anlıq, ürəyi yuxa,
İnciməz, özünü qınar analar.

Ağardar dərdi-sər qara telləri,
Övladı yolunda verər illəri,
Zəhmətdən yorulmaz işlək əlləri,
Bala böyütməklə sınar analar.

Bu gün el savaşda yağır güllələr,
Düşmənlə üz-üzə hər oğul, hər ər,
Balası Vətənin yolunda ölər...
Yurdunun sabahın sanar analar.

Atılsa, yamandır ahı, qarğışı,
Unutsan, dondurar boranı, qışı,
Uçmaz yuvasından könlünün quşu,
Öz isti ocağın anar analar.

***05.03.1991***

## HAQQ İŞİNƏ QURBAN OLUM

Nərəsiylə min-min yağı, kafir qıran,
Parçalayan qurd dişinə qurban olum.
Taleləri hürriyətlə ulaşdıran,
Yoxuşlarda yerişinə qurban olum.

Həyat oldun haqqa məzar cəbirlərə,
O üçrəngli bayraq şahid, qəbirlərə,
Verdin düşmən məqsədini xəlbirlərə,
Yağı üstə yürüşünə qurban olum.

Dağ-daşından cəngi gəlir qulağına,
Türk yurdusan, dunya çıxıb sorağına,
Lap az qalıb düşmən düşər ayağına,
Aslanlartək döyüşünə qurban olum!..

İgidlərin səngərləri yataq edib,
Satqınları, qorxaqlığı yaltaq edib,
Yağı üstə qızğın, dəli, şirtək gedib,
Cəbhələrdən dönüşünə qurban olum.

Şirin xanım qoç igiddi, pərvazlanıb,
Eşqi-hissi cəngi ilə avazlanıb,
Cismi-canın min illərdi haqqa yanıb...
VƏTƏN, VƏTƏN, Haqq işinə qurban olum!...

***19.09.1992***

# ELOĞLU

***Şəhid vətən oğlu Oktay Vəliyevin ruhuna***

Ey laydivar, mərd baxışlı igid ər,
Tarixlərə yazılacaq bu hünər,
Bir gün yağı qılıncları da enər...
Tanrı şərə qəbir qazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Savaşlarda şimşəklərtək alışdın,
Döyüşlərdə qurğuşunla yarışdın,
Al qanınla Qarabağa qarışdın,
Əzrayıl da yolun azar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Torpağımız, vallah, bölmü-bölümdü,
Ər igidlər itirmək də zülümdü,
Şəhidlik ki, ən şərəfli ölümdü,
Bunu Allah mərdə yazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Künc-bucaqda gizlənəndən nə kişi?
Qorxaqların döyüşlərdə nə işi?
Bu imtahan, bu ki, tanrı gərdişi,
Şərəfsizin adın pozar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Bir tərəfdə qaçqın düşmüş el-elat,
Bir tərəfdə bər-bəzəkli bir həyat,
Bir tərəfdə savaş, səngər, dəmir at,
Çoxlarına Vətən bazar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Son gedişin oldu o gün savaşa,
Gəlin ərə, bacı həsrət qardaşa...
Dəydi ana, ata kamı da daşa,
Qana dönmüş qəlb qan sızar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

Aman fələk, sinəmiz dərd qalası,
Şəhid düşmüş min-min vətən balası,
Vay-şivəndən dünya özü də asi,
Bu savaşı haqqa yozar, eloğlu,
Zirvələrdə şəhid məzar, eloğlu.

***07.03.1994***

## AĞLAMA, AY ANAM

***Füzuli torpağında şəhid olmuş laçınlı***
***Aslanov Vüqar Qənbər oğlunun ruhuna***

Ağla, əsir düşmüş Laçın torpağı,
Ağla, Füzulinin partlayan bağrı,
Pozuldu lay-divar igid növrağı,
Tuş oldu minaya, alışdı, Vüqar,
Müqəddəs məkana qarışdı Vüqar,

Bir ana ürəyi yara bağladı,
Bir qız sevgisinə qara bağladı...
Ağladı eşidən, bilən ağladı,
Ağladı vətənin gözləri, Vüqar,
Qanına bələnmiş düzləri, Vüqar.

Üzüyün mücrüdə qopardı ah-vay,
Uçdu ucaldılmış kökündən saray,
Haray, ey allahım, fələyim haray,
Necə əzrayıla tuş oldu Vüqar,
Amansız məzara nuş oldu Vüqar.

Yurdun səcdəgahı şəhid oğullar,
Ulu məmləkətçin igid doğular,
Vətən də qanlara saçını yolar,
Sənin yoxluğuna ağlayır, Vüqar,
Şəhidlər sinələr dağlayır, Vüqar.

Yarası sağalmaz sözlə ananın,
Hara ismarlayım o ölüm anın?
Bu müdhiş zamanın töküm al qanın,
Bir də igidlərə qıymasın, Vüqar,
Oymasın sinələr, oymasın, Vüqar.

Sancılıb doqqaza o pak izlərin,
Laçın keçidində qalıb gözlərin,
Bir gün çökəcəkdir yağı dizləri,
Şəhidlik – kişilik qeyrəti, Vüqar,
Fələyin mərdlərə neməti, Vüqar.

Tökmə gözlərindən o qanlı yaşı,
Uca tut hər zaman o məğrur başı,
Şəhidlər Vətənin mərd vətəndaşı,
Ağlama, ay anam, şəhiddi Vüqar,
Tanrı dərgəhına pak yetdi Vüqar.

Şadiman qan sızan qəbrinə həmdəm,
Ruhunun səcdənə gələrəm hər dəm,
Gözüm bir çeşmədi, quruyubdu nəm,
Ağlayır alışan varaqlar, Vüqar,
Şəhid məzarları soraqlar, Vüqar.

***23.06.1994***

## GƏTİRMƏ QIŞI PAYIZ

Dərd, aləmə batıbdı,
Könlümün başı, payız.
Kor bəxtimiz yatıbdı,
Gətirmə qışı, payız.

Dağda-daşda yağı var,
Min cürə yarağı var,
Min şeytan çırağı var,
Gətirmə qışı, payız.

Qayalarda yatırlar,
Kol dibindən atırlar,
Din-imanı atırlar,
Gətirmə qışı, payız.

Tanrı bilməz qabalar,
Viran edib sobalar,
Dağılır el-obalar,
Gətirmə qışı, payız.

Haçalanıb diləklər,
Yaralanıb ürəklər,
De, rəhm etsin fələklər,
Gətirmə qışı, payız.

Dağılıb xanimanlar,
Tökülüb yurda qanlar,
Düşüb torpağa canlar,
Gətirmə qışı, payız.

İçimiz onsuz boran,
Savaşdadı dağ-aran,
Sazaqda min ev quran,
Gətirmə qışı payız.

Fələk göydən yaş tökür,
Azğın yağı daş tökür,

Yurduma zülmət çökür,
Gətirmə qışı, payız.

Körpə var, ocağı yox,
Bir isti bucağı yox,
Bir ana qucağı yox,
Gətirmə qışı, payız.

Bu savaş qəfil oldu,
Düşmən fəndi fil oldu,
Çox ellər səfil oldu,
Gətirmə qışı, payız.

Çoxunun parası yox,
Ocaqda qarası yox,
Hiylənin çarası yox,
Gətirmə qışı, payız.

Yurdlular yurdsuz qalıb,
Bu el ordusuz qalıb,
Ormanlar qurdsuz qalıb,
Gətirmə qışı, payız.

Sabaha güman hanı?
Bu elə aman hanı?
Çıxıbdı haqqın canı...
Gətirmə qışı, payız.

Tülkülər dağlarda şah,
İşlədirlər suç, günah,
Qanla gəlir hər sabah,
Gətirmə qışı, payız.

Eldə-obada talan,
Fərman verəndi yalan,
Kimdi bu yurda qalan,
Gətirmə qışı, payız.

Bu yurdun silahı yox,
Bir suçu, günahı yox,
Xoş gələn sabahı yox,
Gətirmə qışı, payız.

Şirin xanım, qəlbdə dağ,
Yoxdu bir diləyin sağ,
Gecəli-gündüzlü yağ...
Gətirmə qışı payız.

***11.11.1991***

## VƏTƏN OĞLU

***Torpağımızın bütövlüyü uğrunda vuruşan igidlərə***

Azərbaycan qan içində, dağ-daşı duman,
Yaman bizi imtahana çəkdi bu zaman,
Qədirbilməz övladlara vermə heç aman,
Ellər yağı tapdağında get, Vətən oğlu,
Yerin-göyün imdadına yet, Vətən oğlu.

Toxunulmaz namus, qeyrət, ismət eşqinə,
Min-min tale yazısına, qismət eşqinə,
Tapşırıram səni böyük Qurana, dinə,
Ər gözləyən el dadına çat, Vətən oğlu,
Qurğuşunu yağı köksə, at Vətən oğlu.

Şimşəklərdən ehtiraslı hər dəli nərən,
Dar məqamda bu torpağı qurtarar ərən,
Düşmənlərin qollarını arxaya gərən,
Qorxu bilməz xislətindi, ay Vətən oğlu,
Hay ver, bozqurd igidlərə, hay, Vətən oğlu.

Yurdun min-min toy-mağarı ağıya dönüb,
Qurğuşunlu göyümüzdə ay-günəş sönüb,
Süfrəmizdən yeyən itlər yağıya dönüb...
Darda qalan el-ulusu al, Vətən oğlu,
Kişiliyin zirvəsində qal, Vətən oğlu.

Tapdalanan namus ki var, bu yurda dərddi,
Əsir düşmüş qız-gəlinlər əydi çox qəddi,
Çoxdan keçib tülkü yağı neçə min səddi,
Yıx hiyləgər sərhədləri keç, Vətən oğlu,
Eylə düşmən məqsədini, heç, Vətən oğlu.

Demə, yanan Xocalının yarası közdü,
Yağı əldə qalan Göyçə bu yurda gözdü,
Bəsdir, daha haqsızlığa türk oğlu dözdü!...
Öndə gedər savaşlarda ər, Vətən oğlu,
Yağıları ayağına sər, Vətən oğlu.

Perik düşüb qız-gəlinlər isti ocaqdan,
Gəlin ərdən ayrılıbdı, bala qucaqdan...
Allah özü bizə pənah min belə dağdan,
Şəhid ruhu gecəmizə, Ay, Vətən oğlu,
Dəli nərən yağılara, vay, Vətən oğlu.

Buludlaşıb yanan sinəm, hönkürür ürək,
Qəzəbiylə bir haya bənd köksümüz, fələk,
Könlüntutan yollarını gözləyən mələk...
Güllə keçməz polad sinən, gön, Vətən oğlu,
Qurtar əsir yurd-yuvanı, dön, Vətən oğlu.

Şirin xanım qara telin ağ hörüb durar,
Asi düşməz tənhalıqdan, illəri yorar,
Şəhid olsan, ölənədək eşqi məzarlar...
Canım həsrət, ruhum sənə, yar, Vətən oğlu,
Səninkidir bu eşq, namus, ar, Vətən oğlu.

***11.09.1992***

## QUZEY ELİN GÜNEY ELƏ MƏKTUBU

***NƏZM HEKAYƏ***

Bir məktub var, yollayıram elinə,
Ey Təbrizim, dilim doğma dilinə,
Sən bir hə de, qoşularam yelinə,
O tikanlı sərhədləri keçərəm,
Bu həsrəti ürəyimdən biçərəm.

Ərdəbildə, Urmiyada harayım,
Qalxıb ərşə qəlbimdən qəm sarayım,
Savalandan, Ərkdən keçir can hayım,
Bir biləsiz nə çəkirik bu yanda,
Siz də deyin nə var, nə yox o yanda?!

Bizi niyə ayrı saldı cəlladlar?
Yurd sevgisin hardan qanar, de yadlar?
O tay, bu tay haray çəkir övladlar,
Ocağımız ayrı yanır nə vaxtdı,
Bizi əsir salanımız xoşbaxtdı.

Bu tərəfdə Rübabənin segahı,
Ağlar qoyub həm gecəni, sabahı,
Bu ayrılıq heç oyatmır Allahı,
Yaraları könlümüzdən qopara,
Bu nisgili sinəmizdən apara.

Diləkçəmin sətri qəmlə doludu,
Haqq yolunda Babəklərin uludu,
Dibdən düşən Nəsiminin qoludu,
Səttərxanın, Pişəvərin hardadı?
De olara, Vətən yenə dardadı!..

Xərcləyirlər bizi çirkli pul təki,
Ağladırlar qolu bağlı qul təki,
Bir ağrı var keçir gedir yol təki,
Şəhriyarın misrasından boylanır,
Ey Güneyim, canda nə var, oylanır!..

Heydərbaba Şəhriyara gəl dedi,
Qırılıbdı əlimizdən əl dedi,
Ayrılıbdı bir Arazla el dedi,
Mən də onun səsinə səs qatıram,
Demə, Vətən, başı atıb, yatıram!...

Ağrın heç vaxt itib getmir sinəmdən,
Gözlərimdə sel azalmır heç nəmdən,
Baş çıxarmır kağız, qələm aləmdən,
Hansı əllər bizə imza atıbdı?
Başımızı qardaşlıqla qatıbdı...

Mən istərəm Təbrizimdə dolaşım,
Külək əssin, toz-torpağa bulaşım,
Əlim yetməz yurdlar ilə ulaşım,
Vətən eşqi çox şirindi ürəkdə,
Asılıbdı şanı təki diləkdə!

Dərbəndimdən qolun açıb gəlir qış,
Nə zamandı yurd-yuvada gülür qış,
Bizim üçün niyə belə ölür qış?!
Donduracaq ayrılığın sazağı,
Görməyirik burnumuzdan uzağı.

Hələ gəncəm, arzularım böyükdür,
Həsrətlərin ürəyimə lap yükdür,
Tükənibdi səbirimiz, bir tükdür,
Çəkə bilmir ağılımız bu dağı,
Kəsiləydi yurddan yağı ayağı...

Deyirlər ki, xoşbəxt olub yurdumuz,
Deyirlər ki, vardır şanlı ordumuz,
Harda itib, harda batıb Qurdumuz?!
Məmləkəti çək-çevirə salıblar,
Əlimizdən nəyimiz var alıblar.

Vətən dərdi ürəyimdə yaradı,
Kağızlarda yazılanlar qaradı,
Niyə bizim yolumuz ah-zaradı?!
Bir biləsən nə çəkirik, Güneyim,
Bədənimdə sızıldayır can neyim.

Bardaş qurub içimizdə ayrılıq,
Yoldaş olub köçümüzdə ayrılıq,
Durub baxır suçumuzda ayrılıq,
Yurd neyləsin, qoruyanı olmasa?
Ürəyinə sarıyanı olmasa?

Şah Xətayi, gorun yaman çatlayır,
Cavad xanın qəbirində partlayır,
Yağı yaman dizimizi qatlayır,
O yan, bu yan deyib haray salırıq,
Cavabını məktublardan alırıq.

«İrəvanda xal qalmadı», deyirlər,
Xalq mahnısı deyib adın öyürlər,
Bu söz ilə xalqın adın əyirlər,
İrəvanın xanı gəlib yuxuma,
Deyir xanı xal eyləyib, oxuma.

Bir göyərçin bəsləmişəm nə vaxtdı,
Onu qəmdən həsləmişəm nə vaxtdı,
Nisgilini süsləmişəm nə vaxtdı,
Ayağına diləkçəmi bağlaram,
Yetirməsə o tayıma, ağlaram.

Deyirlər ki, Ərkqalası dumandı,
Üzün tutub buludlar nə zamandı,
Təbim coşub misralarım ümmandı,
Sətir-sətir hüzuruna yollaram,
Hər sətirin sonun ahla qollaram.

O tayımda Şəhriyarım var olsun,
Gözəl günlər taleyinə yar olsun,
Sərhəndinə mənim dərdim car olsun,
Deyin, qızı Vətən deyib, ağlayır,
Sinəsində Azərbaycan çağlayır.

Bütövləşə bilməriksə, ölərik,
Bütövləşsək, ömrü boyu gülərik,
O nisgilli gözlərdən nəm silərik,
Arazımız ayrılığa görk oldu,
Döyüşlərin nişangahı Ərk oldu!

Bura gözü yaşlıların Vətəni,
Bura bağrı daşlıların Vətəni,
Yar deyərək, basdıq bağra yetəni...
Əhvalımız gündən-günə qaradı,
Ürəyimdə sağ yerim de, haradı?!

Arazının gur suları qırmızı,
Yağı yaxdı böhtan bizə qırmızı,
Yad edirlər könlümüzə yarmızı,
Bu talanan-Vətəndən bir yurd edək,
Ağlımızın dovşanların – Qurd edək.

Özüm billəm nə çəkirəm sinəmdə,
Bu ağrıya dözmür daha sinəm də,
Bu yurd təki tapmaz kimsə aləmdə,
Ağrıların daşıyırıq yük təki,
Asılıbdı könlümüzdən tük təki.

Bir simim var ürəyimdə sızlayır,
Dərdi qalxıb Şahdağına, nazlayır,
Ocağında min bir nisgil yazlayır,
Əgər düzsəm misralara, ağlarsan,
Hönkürtünlə ürəkləri dağlarsan.

Deyirlər ki, Təbriz üstü buluddu,
Ayrılığı kökün atan palıddı,
Səsi batmış Vətən, sanki bir uddu,
Hıçqırtısı mizrab üstə köklənib,
Niyə mənim yurdum, elim təklənib?

O tikanlı sərhədlərdən hay gəlir,
Bəbəklərdən axan yaşlar çay gəlir,
Qulağıma nisgil dolu vay gəlir,
Bu vayımı Şəhriyara söyləyin,
Ayrılığın ürəyin qan eyləyin.

Quzeyliyəm, dərdim daşdan ələnir,
Gözdə qəmim keçib yaşdan ələnir,
Ürəklərə ağrı başdan ələnir,
Əhvalımın sorun halın bədəndən,
Bu başımı gəlin alın bədəndən.

Çünki mənə ondan gəlir ağrılar,
Vətən eşqli candan gəlir ağrılar,
Bilən bilir qandan gəlir ağrılar,
Qanımızda gəl coşduraq qeyrəti,
Salaq bütün küllü-ərzə heyrəti.

Aşıqların saz götürüb çalsınlar,
O tay, bu tay səslərini salsınlar,
Ürəymizi qoy bir qədər alsınlar,
Bilmək olmaz, dünya özü bir boxça,
Boxçasından qəm çıxara, dərd aça.

Güney elim, şad sorağın şirindi,
Dağ-düyünlər köksündədir, sirindi,
Pöhrə güllər, yal-yamaclar dirindi,
Dəvasıdır, çünki şır-şır bulaqlar,
Çox söz alıb, söz eşidib qulaqlar.

Nakam gedib sənə neçə mərd, ər də,
Başlar qalıb neçə qanlı yəhərdə,
Ay Güneyim, yaxşı dözdün hər dərdə,
Göz yaşların gülab təki əl yuyub,
Pak qoynunda bir həsrətli yurd uyub.

De ovunsun ürək necə bu qəmlə,
Qara günlü, qara ünlü ələmlə,
Çılğın ürək hesablaşmır bu dəmlə,
Sən halisən hər cür dağdan, düyündən,
Dağlar çəkən o nalədən, o ündən.

Hər ikimiz boğuluruq hicranda,
Qalmayıbdı daha taqət heç canda,
Tanınırıq kölə təki hər yanda,
Uçurt-dağıt sərhədləri uç da, gəl,
Könlüm istər yubanmadan qaç da, gəl.

Ərk qalanda Babəkindən nişan var,
Keçmişlərdən gələn ulu bir şan var,
İki yerə parçalanan bir can var,
Götür canı tellərini bağla gəl,
Hönkür-hönkür halımıza ağla gəl.

İnsan oğlu dözməz heç vaxt qandala,
İşlərimiz gedir hər gün lap dala,
Xırdalanıb, döndük qəpik bir pula,
İmperyalar hər dövürdə beləydi,
Özlərin də haqqın özü böləydi.

Ana yurdum, bu köksümdə dərd böyük,
Ürəyimdən qəm asılan ağır yük,
Könül, sanki qırılacaq nazik tük,
Kömək elə həsrətləri biz sökək,
Pak vüsala bir imarət, yurd tikək.

Ozanların, aşıqların boyladı,
Əhdü-peyman deyib səni hayladı,
Qış qışladı, yayında da yayladı,
İgidlərdir sənə neçə söz qoşan,
Pak qoynunda yüz keçilməz səd aşan.

Ey Güneyim, qurban olum daşına,
Sərt şaxtana, sazağına, qışına,
Gilə-gilə axan gözün yaşına,
Dönə-dönə mən qurbanlar kəsərdim,
Vüsal mehi olub eldə əsərdim.

Çiçəkləri göz yaşlarım sulayır,
Qanlı həsrət çöllərində ulayır,
Ələm səni çirkabına bulayır,
Bir deyən yox bu nə qüssə, bu nə ah,
Niyə sənə qəmlər verir hər sabah?

Ey Güneyim, düzlərində gözüm var,
Həsrətini tək çəkməyə dözüm var,
Görməsəm də deyiləsi sözüm var,
İçin-için yanan ürək çağlayır,
Gözlər sənin hicranından ağlayır.

Babəklərin at çapıbdı düzündə,
Ov ovlayıb, quş quşlayıb düzündə,
Çox ərənlər şahidisən özün də,
Neçin indi susub dinmir daşların?
Sakit-səssiz çatılıbdı qaşların.

Neçə igid at kişnədib dağında?
Neçə gözəl seyrə çıxıb bağında?
Tufan, boran qondu yetkin çağında,
Ey Ərkqalam, sirli dünyam ayılıb,
Gözün aydın, qorxünc yağın bayılıb.

Qanad açıb, quş oluban uçardım,
Ayaqyalın yamaclıqda qaçardım,
Şahin təki qanadımı açardım,
Qucaqlardım qarışını, düzünü,
Kaş doyunca bir görəydim üzünü.

Aman Güney, xəyalamı dalıbsan?
Qan tökülür, aradamı qalıbsan?
Varlığına üşütməmi salıbsan?
Mən bilirəm, gözüm ordan uzaqdır,
Aramızda çiskin, duman, sazaqdır.

Ağır-ağır qəmlər qalxır obamdan,
Bu dərd mənə yadigardır babamdan.
Sevin yurdum, tüstü çıxır sobamdan,
Bura Odlar ölkəsinin parası,
Yavaş-yavaş sağalacaq yarası.

Dağ-daşıma həsrət necə dağ çəkir,
Gecə-gündüz iztirabdan qəlb bükür,
Səhər-axşam göz yaşını hey tökür,
Səbəb həsrət, möhnət qəmi olubdu,
Düz-dərəmə mülkü-hicran dolubdu.

Obam yatır, qucağında dərdlərin,
Qubarı var, nisgili var kəndlərin,
Aşılmazlar oylağıdır sədlərin,
Aşrımlarda səba yeli nəsim var,
Aman Güney, könüllərdə səsim var...

Dünya hali, qəmlər sonsuz, gün qara,
Həyat şirin, həsrət donsuz, qəlb yara,
Ellər hara, qüssə hara, qəm hara?
İnan Güney, ələm bizim deyildir,
Bu hicrandan gələn acı meyildir.

Mən yanıram için-için qəmlərə,
Ağrı-acı çəkdiyim o dəmlərə,
Göz yaşımın boyadığı nəmlərə,
Neçə dərya yığılıbsa çatmayıb,
Gözlər bir gün arxayınca yatmayıb.

Ulu Hörmüz sənə arxa olardı,
Könlü-gözü bir dünya nur alardı,
Şadlıq odla nəğməsini qalardı,
Qitə-qitə dolaşardı can yalnız,
Sabiq həsrət bir qalaydı tək, yalqız.

Aman Güney, bir sevda var ürəkdə,
İstəyirəm bircə azad diləkdə,
Gəlib düşüm yamacına küləkdə,
İlim-ilim itim sərin yaylaqda,
Sədam gəlsin neçə düzdə, oylaqda.

Şeh düşəndə otlarının üstünə,
Səba yeli qoy qarışsın al günə,
Mən də baxım ocağına, tüstünə,
Fərəhlənsin qəlb rübabım, qoy dinsin,
Saf varlığım od-alovda isinsin.

Ey Güneyim, sənə mənim sözüm var,
Belə xəyal olacaqmı mənə yar?!
Bir təsəllin bu dünyaya altun, var,
Aman Güney, bu köksümün harayı,
Gəl uçurma könlümdəki sarayı.

Düşmən bağlar qollarımı qandalla,
Qapanmışam dağ-düyünə bu halla,
Kim deyər ki, bu dərdləri dur dalla,
Bağlanıbdı yaraların qapısı,
Qurulubdur, artıq ona qəm yası.

Narahatdır köksü qübar ellərim,
Zəhmətindən əli qabar ellərim,
Əməyindən almayıb bar ellərim,
Heydər babam, qızın dərddən halidir,
Həyat dərin, böyük insan alidir.

Bu zülümü, əzabı mən çəkmişəm,
El dərdini ürəyimə tökmüşəm,
Səhər-axşam göz yaşımı tökmüşəm,
Həsrət məni aparıb öz qoynuna,
Qonaq edib çıxartdığı oynuna.

Öz-özümə dərdlər çəkən olmuşam,
Bu qəmləri qəlbə tökən olmuşam,
Şitillərin bir-bir əkən olmuşam,
İnan Güney, mənim dərdim böyükdür,
Həyat dibsiz, dərdlər ona bir yükdür.

Qubarlıdır, nisgillidir ellərim,
Çox mənasız gəlib keçir illərim,
Oylağımda ilan təki sellərim,
Hər daşımda, torpağımda qan izi,
Çalxalayıb nehrə təki dənizi.

Arazım da həzin-həzin ağlayır,
Pıçıltısı ürəyimi dağlayır,
Nisgilləri dəstə gültək bağlayır,
Kürdən Xəzər sularına yollayır,
Ahlarını dalğaları qollayır.

Bu Vətənə yad dillilər qor olub,
Cəh-cəhləri ruhumuza zor olub,
Haqqı deyən indi gözdən kor olub,
Bəxtimizdə əsir hicran yelləri,
Batırıbdı nisgillərdə elləri.

Əsillərin qara geyib, bəlalı,
Nəsillərin dağ möhnətli, məlalı,
Bütöv olsa artar yurdun calalı!
Bizim yerlər dərd üstündə doğulub,
Şadlıq burda qəm əlində boğulub.

Bulaqların gecə-gündüz qaynayır,
Düzlərində ceyran, cüyür oynayır,
Azərbaycan, dost-düşməni gəl ayır...
Həsrət məni çöllərində sürüyür,
Şad könlümü agrılara bürüyür.

Parçalanmış yurdlarımız ağlayır,
Simə dönüb, qəlbi tel-tel bağlayır,
Ürəyimdə bir dərdim var, çağlayır,
Xan Arazın selləritək gurlaşıb,
Səbrim qalmıb, çünki zaman darlaşıb.

Şəhriyartək şairimin qəmi var,
Vərəqlərdə yazılmamış dəmi var,
Gözlərində həsrət dolu nəmi var,
Bu həsrətin şəbnəmləri qurusun,
Vüsalımız canbir olub yarısın...

Biz də bir gün birləşərik, ey Vətən,
Bir bayraqda dürləşərik, ey Vətən,
Bu amalla sirləşərik, ey Vətən,
Bunu sənə dərdli qızın söyləyir,
Paramparça bədəndə can neyləyir?!

O üzdən də kağızları üzürəm,
Sətir-sətir dərdə çarə gəzirəm,
Fərəhim yox, qolu bağlı əsirəm,
Əsirliyin tikanların qıraydıq,
Qolumuzu bir-birinə saraydıq.

Kaş o günün bizə qismət olaydı,
Bizim üçün əziz nemət olaydı,
Bu ayrılıq tarixlərdə qalaydı,
Xan Arazın üstə körpü tikəydik,
Ətrafına gül-çiçəklər əkəydik.

Bu eşq ilə misraları çözürəm,
Qələm tutub beyitlərdə gəzirəm,
Demə, Vətən, ayrılığa dözürəm,
Bu dözümün əlacına duam yox,
Birləşməsək, bir sakitcə yuvam yox.

Ağrıları misralara yetirdim,
Sapa düzüb xan Araza ötürdüm,
Bu məramla dastanımı bitirdim,
Sağlıq olsa, görüşərik, Güneyim,
Yurd-yuvanla birləşərik, Güneyim...

***19.03.1980. Yasamal***

## POLAD KÖRPÜLƏR

Siz polad qəfəsi Neft Daşlarının,
Keçir sinənizdən neftin dəyəri.
Xəzərin mirvari göz yaşlarının,
Ruhuna köklənmiş vuran ürəyi...

Qulaq eşidəndən, gözlər görəndən,
Nə qədər möcüzə var yer üzündə.
Tarix xəbərdardır igid, ərəndən,
Hamı da yüksəkdir onun gözündə.

Dolaşır hey ərzi sədası, ünü,
Səbirlə hörülmüş dəmir körpülər.
Küləklər adamtək üzünə gülər,
Xəzərin bağrını əmir körpülər.

Elə bil igidin polad qolları,
Ən sərt tufanları susdurur yaman,
Zəhmətə suvanmış möhkəm yolları,
Necə sinə gərir dalğaya, aman?

Boranlar, şaxtalar, qarlar, yağışlar,
Döyüb sinənizi, polad körpülər.
Heyrətdən sancılıb qalır baxışlar,
Dənizin içində abad körpülər.

Əyilən tufanlar dərddən yaslıdır,
Saldız çətinliyi bataqlığına.
Minlərin taleyi sizdən aslıdır,
Dözün fəsillərin şıltaqlığına.

Üstündə şütüyür ağır maşınlar,
İşgüzar əllərin sirli düyünü.
Burada bir birlik, bir qələbə var,
Uğurla salırsan yola hər günü.

Ekskavatorun gur səsi yüksəlir,
Titrəyir necə də polad dirəklər.
Burada əzablar zirvələr dəlir,
Tufanlar qopanda titrər ürəklər.

Döyür çiyinləri min bir zəhmətə,
Sözlü qərinədir, polad körpülər.
Adamın bənzəri var əmanətə,
Bəxtləri oxşayar abad körpülər.

Nə qədər fırtına görür sinəsi,
Dözür hər bəlaya titrək dirəklər.
Qalxır əzəmətlə boğuq nəfəsi,
Boğuq nəfəsindən doğur diləklər.

Polad dirəklərdən aslı maşınlar,
Necə ehtiyatla şütüyür, aman.
Dolaşır dünyanı neçə qış, bahar,
Haqqı irəliyə aparır zaman.

Dəmirdən biləkli polad körpülər,
Dözümün dirilik suyundan içir.
Ürək bu mərdliyi necə sadalar?
Burda halal zəhmət canından keçir.

Ləpələr üstündə narahat diyar,
Dəli küləklərlə titrəyər, əsər.
Adam mətanətin gücündən doyar,
Ürəklər qazancçın işə tələsər.

Düşüb qonaq olsan burda bircə gün,
Dəmir dirəklərdə titrər ayaqlar.
Salar gah kədərə, gah sevincə gün,
Dalğa gurultusu tufan soraqlar...

Hər addım hekayət, hər addım əsər,
Dastanlı, boyludur işgüzar həyat.
Deməyin nisgili ümidi kəsər,
Şaqraq duyğuların laylasına yat.

Əsir sərin mehlər, acı küləklər,
Əsla təsiri yox burdakı işə.
O qurub-yaradan abad diləklər,
Nizamlı karvandır pak yüksəlişə!

Gecədir, ürəyim dincəlir bir az,
Dəmir diləklər də, sanki yuxlayır.
Könüldən göylərə dikəlir avaz,
Qismətim gələcək sabah qoxlayır.

***27.12.1985 Nasosnu***

## TƏBRİZ AĞRILARI

Müddətdi yoluna dikilib gözlər,
İntizar içində saralır üzlər,
İşıqdan bir yaylıq bağlar gündüzlər,
Qovlayar üstündən dumanı, Təbriz,
Dəyişər dövranı, zamanı, Təbriz.

Qınama, üzünü görməmişəm, ah,
Məndəmi, yoxsamı babamda günah?
Bir gün sənin üçün açılar sabah,
Aparar dərdini küləklər, Təbriz,
Coşar min duyğular, diləklər Təbriz.

Bir tarix yaratdın öz dərdlərinlə,
Araza bələnən sərhədlərinlə,
Dur, məşvərətçi ol öz mərdlərinlə,
Dağıt ikiləşən sədləri, Təbriz,
Qolunu bağlayan hədləri, Təbriz.

Dilini alanın dili bağlansın,
Elə sənin təki qəlbi dağlansın,
Qoyma o ürəkdə dərdlər çağlansın,
Kor olsun həsrətin sarvanı, Təbriz,
İtsin ayrılığın karvanı, Təbriz.

Dağılsın başından qara buludlar,
Qoy şərqi söyləsin kamanlar, udlar,
Bu tay o tayından ayrı buludlar,
Çəkmə gözümüzdən gözünü, Təbriz,
Alışdır ocaqda közünü, Təbriz.

Mənə xəbər söylə Heydərbabadan,
Min bir elatından, min bir obadan,
Azadlıq tüstüsü qalxır sobadan,
Birləşər ayrılan qolların, Təbriz,
Açılar bağlanmış yolların, Təbriz.

O Savalanmıdır dərddən qocalan?
Bu tayı görməkçin göyə ucalan,
Hürriyyət bayrağın sancar Ərk qalan,
Ağ günlə qol-boyun olarsan, Təbriz,
Yolunu bu taya salarsan, Təbriz.

Qalanıb sinənə qat-qat intizar,
Həzər, ayrılığın əlindən həzər,
Mərdlərin şirlərtək yenə də qızar,
Dişləriylə açar qolunu, Təbriz,
Şimşəklərin tökər dolunu, Təbriz.

Kəsilməsin qəlbin taqəti, heyi,
Al sabah şehlərin azadlıq meyi,
Kölə olmamaqçın artıraq səyi,
Ümidsiz gözlərə çıraqsan, Təbriz,
Sən özün silahsan, yaraqsan, Təbriz.

Şəhriyar oğluna özüm qurbanam,
Qoyma həsrətinlə alışıb yanam,
Sənə qolu bağlı hazır qurbanam!
Qoy olum tökülən son qanın, Təbriz,
Qurtarsın zillətdən pak canın, Təbriz.

Zaman siləcəkdir acı-ağrını,
Səndə gecələyim aç bir bağrını,
Nə vaxt görəcəkdir gözüm doğrunu,
Həsrətin evini uçurtdun, Təbriz,
Başdan dərd-bəlanı qaçırtdın, Təbriz.

Gəl tutaq əl-ələ gedək sabaha,
Bəsdir sinən batdı dərdlə günaha,
Sənə yalvarıram eşit bir daha,
Bir Vətən adını daşıyaq, Təbriz,
Birlikdə əbədi yaşayaq, Təbriz.

Bu tayda intizar, o tayda həsrət,
Arazmı eylədi sinəni qürbət?
Sussuz dodağıma vüsalın şərbət,
O dəli sevginlə alışaq, Təbriz,
Bir can bir bədənə qarışaq, Təbriz.

***27.01.1987***

## NEÇƏ-NEÇƏ QƏRİNƏ

Ana torpaq, neçə-neçə qərinə,
Salıb səni dərinlərdən-dərinə,
Qəssabında söylə ürək yerinə
Sinəsində o döyünən nə imiş?
Cəlladların ürəyini nə yemiş?!

İki qurluş bir sinədə at çapır,
Hər ikimiz qolu bağlı – yad çapır,
Əməlindən, gərdişindən dad çapır,
Ana torpaq qulaq ver ah-vaylara,
Qan-yaş ilə axıb dolan çaylara.

Uzun olub ayrılığın ömürü,
De haçandan yazılıbdı əmiri,
İtginmidir, gəlməyir səs-səmiri,
Araz saçın yola-yola ağlayır,
Yollarını tikanlı səd bağlayır.

Bu tayında matəm tutub dünyanı,
O tayında ələm satıb dünyanı,
Dərdlilərə dərdin qatıb dünyanı,
Bu çəkilməz qəmin yalan olaydı,
Bu tayından o taya nur dolaydı.

Yollarını qucaqlayıb durmuşam,
Azadlıqçın haqq tərəfdə durmuşam,
Basılmayan sülhə qala qurmuşam,
Gəl mənimlə əl-ələ tut o tayım,
Arazıma deyilməsin qəm çayım.

Mən də sənin bir nəğməkar qızınam,
Butalanmış, ləçəklənmiş yazınam,
Kərəm üstə haray çəkən sazınam,
Bu sədama sən də bir hay verəydin,
Ürəyimi sularına sərəydim.

Xoşbəxtliyi yadlar bayraq ediblər,
Ədalətin bağrın yaman didiblər,
Bu amalla harayacan gediblər,
Demə, bizdə nəş'ə, şadlıq çağlayır,
Zalım ürək hönkür-hönkür ağlayır.

Gəl qucaqla ağlar gözüm yaşını,
Deyim sənə ayrılığın yaşını,
Bəsdi əydin dərdə enən başını!
Mən görürəm o alışan sinəni,
Göylərində o çiskini, o çəni.

Ana torpaq, Savalanın başında
Duman gəzir, dərd-ələm var daşında,
Güneyinin, Quzeyinin qaşında,
Karvan-karvan qara bulud oynaşır,
Dağlarında, düzlərində qaynaşır.

Heydər baba qan-yaş tökür gözündən,
Od tökülür Şəhriyarın sözündən,
İnanmırsan, barı, soruş özündən,
Çıx Kəpəzə boylan bir yol Təbrizə,
O ki, hər gün əl eləyir hey bizə...

Ana torpaq, könlüm gəzir düzləri,
Babəkinin durur ayaq izləri...
Səttar xanın bükülməzdir dizləri,
Ürəyimin bir parçası ordadır,
Mənim anam, mənim bacım dardadır.

Deməyin ki, görməmişəm o tayı,
Deməyin ki, gözüm görmür ah-vayı,
Könlüm istər heç olmasa bir yayı,
Üzüm tutam gedəm Təbriz elinə,
Saçlarımı hörük edəm yelinə.

Çəmənlikdə birgə bardaş quraydıq,
Təbrizimlə bir üz-üzə duraydıq,
Yal-yamaca güllü naxış vuraydıq,
Savalanın zirvəsində qalaydım,
Heydərbaba, özüm qadan alaydım.

Zülümlərdə qalan oğul, qızına,
Qan ağlayan kamanına, sazına,
Qüssə saçan gül-çiçəkli yazına,
Qəfil qapı döyən qonaq olaydım,
O həsrətli boynuna qol salaydım.

Naxçıvana düşdü bir gün güzarım,
Sərhəd boyu artdı dərdim, ah-zarım,

Ana torpaq, Araz oldu dost-yarım,
Elə sakit, elə səssiz axırdı,
Sükutuyla ürəyimi yaxırdı.

Bu tərəfdə neçə gözəl kənd, şəhər,
Aşıb-daşır naz-nemətlər bar-bəhər,
O tayında palçıq damlar bir qəhər,
Torpaq evli kəndlərini görəndə,
Qan ağladı mənə düzün, dərən də.

O tayında maşın yolda dayanıb,
Bir xanımsa dərd, ələmə boyanıb,
Yana-yana bizə sarı boylanıb,
Aram ilə qatara əl edirdi,
Sinəm altdan ürəyimi didirdi.

Ana torpaq onda yandım alışdım,
Leysan təki Arazına qarışdım,
Demirəm ki, qədər ilə barışdım,
Ayrılığın qalxır alov dilləri,
Bəlkə gələ bir gün vüsal illəri...

***24.05.1986 Gəmidə***

## AY TAĞAYIN YOLLARI

Ömrümə cığır saldın,
Açdın ərzə qolları.
Qəlbdə duyğutək qaldın,
Ay Tağayın yolları.

Həyatımdan getmədin,
Bir saniyə itmədin,
Ömrüm təki ötmədin,
Ay Tağayın yolları.

Uşağlığımdan soraq,
Xatirələrə çıraq,
Könlümdən getmə iraq,
Ay Tağayın yolları.

Yurdun cığırı, izi,
Aparıb-gətir bizi,
Ocağa yetir bizi,
Ay Tağayın yolları.

Kolun-kosun əzizdi,
Qucaq açan dənizdi,
Atəşin hələ közdü,
Ay Tağayın yolları.

Aç mənə qucağını,
Görmüm həsrət dağını,
Gəzim bahar çağını,
Ay Tağayın yolları.

Şadimanın izisən,
Qəlbdə sönməz közüsən,
Həyatımın özüsən,
Ay Tağayın yolları.

***06.06.1986 Tağay***

## QONŞU, BELƏ QONŞULUĞA AR OLSUN

Hiylə toru toxuyursan gecələr,
Şeytan, iblis, şər qulağın kar olsun!
Ağılına ağılsızlıq güc eylər,
Qonşu, belə qonşuluğa ar olsun!

Çörək kəsdin bir süfrədə xeyli vaxt,
Evimizdə əcəb qurdun, yağı, taxt,
Hiylələrlə millət olmaz heç xoşbaxt,
Qonşu, belə qonşuluğa ar olsun!

Torpağımı azaltmağa çalışdın,
Özgə eldə pis duyğuya alışdın,
Yuva qurdun işimizə qarışdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Köz bağlamış yaraları qanatdın,
Yatanları yuxusundan ayıltdın,
Öz xalqını qan-qırğına sən atdın,
Qonşu, belə qonşuluğa ar olsun!

Ad axtardın özgəsinin adında,
Çox isindin bu torpağın odunda,
Tarixini pis saxladın yadında,
Qonşu, belə qonşuluğa ar olsun!

Musiqimi, mənim deyim, çalmısan,
Özgəsinin tar-kamanın çalmısan,
Adın haydı, yurduma göz salmısan,
Qonşu belə qonşuluğa ar olsun!

Sən xalqsansa özgə yurdda nə gözün,
Barışmağa su qoymayır o üzün,
Ara qatıb, qan salmağa nə sözün?
Qonşu, belə qonşuluğa ar olsun!

Millət deyib, səhər-axşam ağladın,
Albanın da sinəsini dağladın,
Günahsızın qapısını bağladın,
Qonşu, belə qonşuluğa ar olsun!

Türk şər deyib, gecə-gündüz yazırsan,
Öz xalqına yaman quyu qazırsan,
Düz olmayan yolundan da azırsan,
Qonşu, belə qonşuluğa ar olsun!

Böhtan dedin türk millətin adına,
Gətirmirsən tarixləri yadına,
Dönüb dilin qeybətçil bir qadına,
Qonşu, belə qonşuluğa ar olsun!

Yoxdur, görən, aranızda mərd ata,
İçirtdiyin zəhər suya bal qata,
Millətçilər nə verdi bu həyata?
Qonşu, belə qonşuluğa ar olsun!

Şirin xanım Nigar, Həcər övladı,
Müqəddəsdir ana yurdun pak adı,
Boşa getməz, yağı, bu el fəryadı,
Qonşu, belə qonşuluğa ar olsun!
Qonşu, belə qonşuluğa ar olsun!

***06.12.1988***

## ÇÖKMƏYƏYDİ CALALIN

Vurulmuşam torpağına, daşına,
Güneyinin, Quzeyinin qaşına,
Min bir bəla çəkmiş müdrik yaşına,
Firavanlıq, bəxtəvərlik halalın,
Bitməyəydi, çökməyəydi calalın.

Gül-çiçəkdən tutub başa çətiri,
Əzizlərsən, əzizlərəm xətiri,
Burnumuzdan ötməz Vətən ətiri,
Məsüm-məsum göz oxşayar şux halın,
Bitməyəydi, çökməyəydi calalın.

Yuvamızda ocağımız sönməsin,
Yurddaşların üzü yurddan dönməsin,
Dik tut başı, ayaqlara enməsin,
Bilirəm ki, dünya qədər məlalın,
Bitməyəydi, çökməyəydi calalın.

Vətən, sənin aşiqinəm, dur dikəl,
Bayrağını ucalara vursun əl,
Təmtərağı yurd-yuvanda qursun əl,
Torpağına səcdə etsin hər alın,
Bitməyəydi, çökməyəydi calalın.

***18.07.1986***

## DOĞMA TAĞAYIM

Uşaqlıq çağımın böyük dünyası,
Kədərim olanda sən tutdun yası,
Bə’zən də kəsildin sinəmdən asi,
Hərdən toy-büsatım, hərdənsə vayım,
Ey Xəzər sahili doğma Tağayım.

Nələr pıçıldadın sən qulağıma,
İlk sevincim oldun xoşbəxt çağıma,
Sinəmi döndərdin dastan, ağıma,
Səndə keçdi-getdi neçə il, ayım,
Ey Xəzər sahili doğma Tağayım.

Hərdən xəzrilərin at oynadarlar,
Yerləri, göyləri tez qaynadarlar,
İlhamı yerindən lap oynadarlar,
Gündüz salamlayar səni qağayım,
Ey Xəzər sahili doğma Tağayım.

Sinəni dalğalar tumarlayırlar,
Olan qumlarını qamarlayırlar,
O gen çöllərini hamarlayırlar,
Bir əlində yazım, birində yayım,
Ey Xəzər sahili doğma Tağayım.

Yazda yağışların gur şəlalədir,
Yaşıl düzlərinin qızı lalədir,
Çiçəklərin sanki bir pak ailədir,
Hansı yarpızını, nanəni sayım?
Ey Xəzər sahili doğma Tağayım.

Qərbində dağlardır, şərqində dəniz,
Günəş parlayanda nur saçır bəniz,
Nazlı ləpələrə qumların kəniz,
Necə də coşğundur o Gilgilçayım,
Ey Xəzər sahili doğma Tağayım.

Yaşıl yamacların göy qurşağıdır,
Rəngə meydan deyən güllər bağıdır,
Meh vurub üzündən ətri dağıdır,
Götürər sinəni zil ünüm, hayım,
Ey Xəzər sahili doğma Tağayım.

Uçar düzlərində ördəklər, qazlar,
Qovar günlərini sərt qışlar, yazlar,
Könlüm ruha gəlib qoynunda yazlar,
Gəzər qayalarda çil torağayım,
Ey Xəzər sahili doğma Tağayım.

Keşiyini çəkər Çıraqqalası,
Müqəddəs tarixin sirli balası,
Bə'zən xəzirindən kəsildim asi,
Yığıb üm-küsümü boğma, Tağayım,
Ey Xəzər sahili doğma Tağayım.

Səhərlər dənizin səsləyər bizi,
Öpər, salamlayar yolları, izi,
Günlərin qaçışar, bükülməz dizi,
Kükrəmə, dolutək yağma, Tağayım,
Ey Xəzər sahili doğma Tağayım.

Səndə bil zilim var, səndə bəmim var,
Səndə sevincim var, səndə qəmim var,
Bir dolu ürəkli şair dəmim var,
Yenə ərşə qalxıb dəli harayım,
Ey Xəzər sahili doğma Tağayım.

Böyük Vətənimin kiçik külçəsi,
Könlümün, ruhumun divanə səsi,
Körpəlik çağımın ulu ölkəsi,
Dəniz tufanına dözən sarayım,
Ey Xəzər sahili doğma Tağayım.

Aşıq, gətir sazı basım sinəmə,
Min zəngulə vurum çağlayan dəmə,
Həsrətin gözlərdə dönməsin nəmə,
Yolunda telimi mən ağ darayım,
Ey Xəzər sahili doğma Tağayım.

Köksünü aç mənə doyunca yatım,
Gün çıxanda çıxım, batanda batım,
Qoynunda amala, arzuya çatım,
Şirin vüsalında səni arayım,
Ey Xəzər sahili doğma Tağayım.

Sıx buludlarına baxan gözümsən,
Bağrıma sığmayan odum, közümsən,
Yaşıl düzlərində mənim özümsən,
Qoy səni dastanda, boyda arayım,
Ey Xəzər sahili doğma Tağayım.

Yaşıl üzümlüklər çətir salıbdı,
İllər zəhmətinə sətir salıbdı,
Eşqin ürəyimə xətir salıbdı,
Sənin bir gününə mən də yarayım,
Ey Xəzər sahili doğma Tağayım.

Ucal zəhmətinlə, şöhrətinlə sən,
Halallığdan doğan qüdrətinlə sən,
Könlümə iz saldın izzətinlə sən,
Ulu hörmətini ellərə yayım,
Ey Xəzər sahili doğma Tağayım.

Duyğular yüksəlir sinəmdə yenə,
Sənin tufanların köksümə dönə,
Başıma ildırım, şimşəklər enə,
Mən bir kamanınam, sənsən ox, yayım,
Ey Xəzər sahili doğma Tağayım.

Tufanlı, küləkli havan bəsimdir,
Sinəm bir mizraba bənd olan simdir,
Xəzrin, gilavarın odlu səsimdir,
Gəl səni misralar içində sayım,
Ey Xəzər sahili doğma Tağayım.
Ey Xəzər sahili doğma Tağayım.

***28.01.1986***

## MƏRDƏKAN

Səmalarda maviliyi bir ümman,
Kəsər bə'zən başın üstün çən, duman,
Ürəklərdir havasından pay uman,
Könül sevən pak havalı Mərdəkan,
Sinələrə dərd-dəvalı Mərdəkan.

Nə parlaqdır səhərləri, gündüzü,
Al günəşi qarşılayır pak üzü,
Yaşıllığa bürünübdu ağ üzü,
Əsər sərin küləklərin Mərdəkan,
Heyran edər ürəkləri Mərdəkan.

Saf, şəfalı havasından doyulmaz,
İnsanlara şəfa əli yorulmaz,
Qonağının çoxu, azı sorulmaz,
Oxşar könlü, oxşar gözü Mərdəkan,
Gələnlərə paylar közü Mərdəkan.

Uçan quşlar qanad çalar burada,
Şimşəklər də haray salar burada,
Yerə, göyə heyran qalar burada,
Açar geniş qollarını Mərdəkan,
Gözlər qonaq yollarını Mərdəkan.

Gözəl Xəzər erkən özün öyəndə,
Ləpələri sahilləri döyəndə,
Qağayının xatirinə dəyəndə,
Bürüyər çən üz-gözünü Mərdəkan,
Deyər könlə öz sözünü Mərdəkan.

Pak sinədə dəva-dərman ocağın,
Gül-çiçəklə doludur şad qucağın,
Bülbüllərlə doludur hər bucağın,
Ömürləri uzadırsan Mərdəkan,
Dərdi-səri azaldırsan Mərdəkan.

Sinən çəkər min bir ürək cəfası,
Dənizinin tükənməzdir səfası,
Köksündədir loğman, təbib vəfası,
Dava-dərman oylağısan Mərdəkan,
Xəzərimin yaylağısan Mərdəkan.

Sərin mehlər incə, zərif əsirlər,
Ay-ulduzun zülmətləri kəsirlər,
Keçmişindən soraq verir qəsirlər,
Müsafirli, dost-tanışlı Mərdəkan,
Üzümüzə xoş baxışlı Mərdəkan.

Gül sinənə qaranlıqlar çökəndə,
Ay-ulduzu göylərinə tökəndə,
Qayalıqlar keşiyini çəkəndə,
Uyuyarsan arxayınca Mərdəkan,
Yuxulardan bir doyunca Mərdəkan.

O Mir Mövsüm ağanın pak məzarı,
Şüvəlanda andırar bir gülzarı,
Məzarına gələn atar azarı,
İnam evi bir məlhəmdi Mərdəkan,
Ruhumuza pak aləmdi Mərdəkan.

Zeynalabdin Tağıyevin bağında,
Quşlar vurur cəh-cəh bahar çağında,
Hər ağacın çiçək var sol, sağında,
Tarixini bəsləyərsən Mərdəkan,
Qərinələr səsləyərsən Mərdəkan.

İsti qumu döyəcləyir ləpələr,
Qayalıqdan sonra gələr təpələr,
Günəş hər gün bura alov səpələr,
Ləpələrdə izlərin var Mərdəkan,
Dalğa yuyan dizlərin var Mərdəkan.

Qara şanı, sarı əncir dərmandı,
Bağlarında nə səliqə, səhmandı,
Gilavarın ləpə qovan zamandı,
Şağanına aç qucağı Mərdəkan,
Gələr ordan yaz sorağı Mərdəkan.

Karvan-karvan buludların uçarlar,
Gündoğandan günbatana qaçarlar,
Dalğaların qollarını açarlar,
Zümzüməsi bağrı gəzər Mərdəkan,
Uzaq olsun səndən nəzər Mərdəkan.

Gövhəri bol, sinəm doymaz bu yerdən,
Tamaşa et gözəlliyə gəl hərdən,
Hey axışar gələnlərin hər yerdən,
Çal-çağırlı, toy-büsatlı Mərdəkan,
Yay gələndə gur həyatlı Mərdəkan.

***03-04.07.1986 Zağulba***

# ÖZÜMDƏN KEÇƏ BİLMİRƏM



## KÖNÜLLƏR ŞADLANSIN

Ey duyan ürəyim, yazan qələmim,
Başla bu qəlbimin söz dastanından.
Nə qədər ki, yoxdur qəmim, ələmim,
Könüllər şadlansın gülüstanımdan.

Yaz qəlbimdən keçən xatiratları,
Ayır cümlə-cümlə, öt sətir-sətir.
Dolsun ürəklərə sevinc notları,
Bu gözəl cahana qoy saçsın ətir.

Şeirim körpələrtək qoy pərvazlansın,
Yaz günü açılan qönçəyə dönsün.
Sonra gəlin təki bir az nazlansın,
Nəğməyə çevrilsin hər səda, hər ün.

O zaman bu könlüm xoşbəxtlik tapar,
Sevincdən ürəyim ilhama gələr.
Təbim də könlümə sevinclər yapar,
Həmin an həyatım sevincdən gülər.

***25.01.1974 Siyəzən***

## EY HƏYAT ALƏMİ

Ey həyat aləmi, milyon ürəyə
Gah şadlıq verirsən, gah ağladırsan.
Qoyma qəddimizi qəm, qüssə əyə,
Ürək kədər yesə, solar həmin an.

Milyon vicdanların qəhqəhəsinə,
Daha da şadlıq ver, şadlıq çoxalsın,
Qoyma dərd əlindən ürək əsinə,
Yalnız sevinc, şadlıq insanı alsın.

Hər addım yayılsın istiqbal səsi,
Həyat, sevinclərlə güldür cahanı.
Qəlbləri yaşadar duymaq həvəsi,
Gəl bəxtəvərliklə isindir canı.

Ey həyat aləmi, bil ki, bunu sən,
Könlüm arzularla sevincə qaçır.
İnsan olmamalı yeməkçin əsən,
Varlıq yaşamaqçın yol-cığır açır.

Duyan da bizlərik, düşünən də biz,
Görüm, namərdlərdən heç iz qalmasın.
Onlar insanlıqdan olsa da, hərgiz,
Çirkin ürəkləri bir şad olmasın.

Harama dadanan müftəxor qoçaq,
Sənin torpağına bir yükdür həyat.
Xain ürəklərə zəhərli bıçaq,
Onların əməli köhnədir, boyat.

Qoy olsun günümüz bir coşğun büsat,
Şirinəm, eşqimlə bağlıyam sənə.
Yerin də, göyün də qüdrəti həyat,
Şadlığı, sevinci eylə ənənə.

***02. 02.1974 Tağay***

## XATİRƏLƏR

Yer üzündə yaşayırıq, yaradırıq, ey insanlar,
Öyrənirik xalqımızın keçmişinin tarixçəsin.
Çeviririk varaq-varaq olmuşları...eh zamanlar,
Xatirəyə düşən günün eşidirik odlu səsin.

Xatirələr karvanına düşürəm mən bircə anlıq,
Gəlir-keçir xəyalımdan gənc ömrümün xoş günləri.
Bir iz qoyub yaddaşımda, dönüb olub lap viranlıq,
Keçmişimdə qalan anlar, sirlə dolu düyünləri.

İdrakıma düşən avaz yaşadacaq daim məni,
Həyatımda çəkdiklərim acı-şirin istəklərim.
Ağılımı boyadıqca yığın-yığın hər çiskin, çən,
Sətir-sətir cövlan edir sinə içrə diləklərim.

Tarixlərdən varaq-varaq keçmişləri xəbər alsan,
Xatirələr aləminə aparacaq illər səni.
Xatirinə dəyən sözü ürəyinə bir an salsan,
Titrədəcək qəlb içində qəfil əsən yellər səni.

Qərinələr qarşısında sən xəyala bir an dalsan,
Xatirəyə dönəcəkdir dünən olan əhvalatlar.
Min bir tarix qarşısında ötənlərlə düşüb qalsan,
Xatirələr olar duman, tarixəsə gələcək ar...

***14.02.1974 Tağay***

## ÜRƏK, QINAMA SƏN MƏNİ

Könlə yağanda yağışlar,
Yuyar qəlbimdən sis, çəni.
Ömürdən keçər baxışlar...
Ürək, qınama sən məni.

Mən gizli-gizli dolanda,
Hərdən saralıb solanda,
Qəlb intizarda qalanda,
Ürək, qınama sən məni.

Göydə buludlar coşarsa,
Şimşəklər sərhəd aşarsa,
Təb buna nəğmə qoşarsa,
Ürək, qınama sən məni.

Əslitək yanar od olsam,
Leylitək çölə yol salsam,
Şirintək dərdlə tək qalsam,
Ürək, qınama sən məni.

Gözlərimlə yaş tökərəm,
Bu yaşdan hicran əkərəm,
Dərdi ortaya tökərəm,
Ürək, qınama sən məni.

İstəkli gözlər bu gözüm,
Alışar qəlbdə od-közüm,
Bağrımda partlar bir dözüm...
Ürək, qınama sən məni.

Dolaşıq işə düşəndə,
Ağlamaqdan qəlb şişəndə,
Ruhumdan ayrı bişəndə,
Ürək, qınama sən məni.

Gözdə yağışlar yağanda,
Qüssəni, qəmi boğanda,
Ruhumda ilham doğanda,
Ürək, qınama sən məni.

Meh qovlayanda dumanı,
Gözüm gəzəndə ümmanı,
Coşanda hissin al qanı,
Ürək, qınama sən məni.

Azalar ikən dərd-acı,
Şöhrətə ensə baş tacı,
Çoxalsa qardaş, həm bacı,
Ürək, qınama sən məni.

Könlümdür sevgi adası,
İçində yanar odası,
Keç günahımdan, qadası,
Ürək, qınama sən məni.

Ovqatım qəfil tutulsa,
Ahdan çıxıb bir qurtulsa,
Ağlım sevgiyə satılsa,
Ürək, qınama sən məni.

Var Şadimanın aləmi,
Çıxmaz seyirdən qələmi,
Eşitsən içdən naləmi…
Ürək, qınama sən məni.

***25.07.1985. Xəstəxana***

## TƏNHALIQ

Acı bir sitəmdir tənhalıq yaman,
Qara kölgələrə salar ürəyi.
Verməz heç şadlığa, sevincə aman,
İlantək fürsətlə çalar ürəyi.

Min bir xəyallarla gələr üstünə,
Fikirlər qılınctək alar ağılı.
Sakitcə qəm, kədər ələr üstünə,
Başlayar ürəyin ağrı nağılı.

Evə girdin, səni cənginə alar,
Qoymaz rahat nəfəs alasan bir az.
Qovub fikirini, tələyə salar,
Bir an üzün gülməz, könlün açılmaz.

Yerbəyerdən qəmlər tökülüb gələr,
Qəfil duman təki alar üstünü.
Canda bir mərəkə, haray yüksələr,
Ucaldar ağrıdan kədər büstünü.

Tənhalıq – acı bir dərmandır yaman,
Kimin taleyinə yazılıbsa, heç.
Ruhun titrəməsi bitməz heç zaman,
Edər sevincini bir andaca puç.

Evində bir sükut görərsən hər gün,
Halına divarlar göz yaşı tökər.
Görünər hər küncdə bir boşluq, düyün,
Hər an qəlb evindən bir kərpic sökər...

Yaddan çıxararsan tamam özünü,
Zahiri gözəllik baş alıb gedər.
Söndürər sükutlar qəlbin közünü,
Arada təkliyin sənə eşq edər.

Tənhalıq elə bir yağıdır ki, ah,
Səni dost, düşmənə möhtac eyləyər.
Hər işdə üstünə tökülər günah,
Harda əleyhinə çatdı söyləyər.

Şadiman, deyirəm mən dönə-dönə,
Bir evə tənhalıq ayaq basmasın.
Ağılla, idrakla döyünsün sinə,
Tənhalıq deyənə qulaq asmasın.

***29.07.1985. Xəstəxana***

## HƏZİN LAYLALARLA

Həzin laylalarla beşik başında,
Gecələr könlümü aldın, ay ana.
Ömrün çiçəklənən kövrək yaşında,
Yaxşı-yaman gündə qaldın, ay ana,

Körpə çağlarımda yuxumu aldın,
Əlinlə torpağa izimi saldın,
Sən şamtək əridin, mənsə ucaldım,
Nazlı gəncliyindən oldun, ay ana.

Ömrünün baharı başlayan zaman,
Dərdi-sər könlünə çökdürdü duman,
Qapqara saçların ağardı yaman,
Çətin anlarımda soldun, ay ana.

Başım ağrıyanda, başımı tutdun,
Bə'zən sən özünü tamam unutdun,
Sığınıb balana qəlbi ovutdun,
Gözlərim dolanda, doldun, ay ana.

O bəyaz əllərin nə tez qırışdı?
Hər çətin anınla qəlbin yarışdı,
Hər şıltaqlığımla könlün barışdı,
Gecəmə bir çıraq oldun, ay ana.

Qızın Şadimana pak ürək verdin,
Min arzu, min istək, min dilək verdin,
İçində fırtına, sərt külək verdin,
Təntiyən ruhuma yoldun, ay ana.

***06.09.1987***

## AYRILIQLAR OLMAYAYDI

Hər könüldən, qəlbdən aman,
Qopmayaydı acı duman,
Yer üzündə zaman-zaman,
Heç bir sevgi solmayaydı.
Ayrılıqlar olmayaydı.

Ürəkdə eşq bəslənəydi,
Duyğularda səslənəydi,
Nə bir sevən pislənəydi,
Nə də gözlər dolmayaydı,
Ayrılıqlar olmayaydı.

Şadlıq dolub yer üzünə,
Nur tökəydi pak gözünə,
Düz çıxaydı dil sözünə,
Qəlbi qubar almayaydı,
Ayrılıqlar olmayaydı.

Hissdən doğan əhdü-peyman,
Sınaqlardan çıxa aman,
Həsrətləri yıxa aman,
Dərd qəlblərdə coşmayaydı,
Ayrılıqlar olmayaydı.

Min bir duyğu nəğmə çalıb,
Sevgilərə mehr salıb,
Ömürlərə həmdəm qalıb,
Xəyallara dolmayaydı,
Ayrılıqlar olmayaydı.

Ömrümüzə külək əsib,
Bəxtimizin yolun kəsib,
Sevgilərə qəlb tələsib,
Ürək naçar qalmayaydı,
Ayrılıqlar olmayaydı.

Düz yazaydı qədər yazı,
Eşqimizin bahar-yazı,
Bizlə dövran sürsün azı,
Hər açan gül solmayadı,
Ayrılıqlar olmayaydı.
Ayrılıqlar olmayaydı.

***01.08.1985. Xəstəxana***

## EHTİYAC

Ehtiyac – çox qəfil oyunların var,
Kəslər mərtəbədən endirmisən sən.
Sənin o boşluğun çox canlar udar,
Çoxunu yoxluqla dindirmisən sən.

Kimini tox edib, kimin ac etdin,
Çox qapı açılmıb sənin üzündən.
Yoxluğu şöhrəttək başa tac etdin,
Az adam yayınar iti gözündən.

Ümidi alaraq qəfil ağzına,
İti dişlərinlə didib çeynərsən.
Bə‘zən də sakitcə çəkilib qına,
Ağrı timsalında qəlbə dönərsən.

Çox aqil başları alçaldaraq sən,
Yerinə, yurduna həsrət qoyarsan.
Salaraq saçlara alatoran dən,
Vaxtsız ürəkləri dərdlə oyarsan.

Ehtiyac əlindən nə gəlməz daha,
İnsan iradəsin əldən alarsan,
Satarsan tamaha qiymətdə baha,
Özünü tülkütək dona salarsan.

Güclü tufan təki, qəfil başlarsan,
Açıq qapıları çırparsan üzə.
Ağlamayan gözü dərdlə yaşlarsan,
Sənin qəddarlığın tez çıxar üzə.

Dolu bulaqların gözü quruyar,
Çaylar öz səmtini dəyişər tamam.
Ürək hər tərəfdən köməyə uyar,
Yoxluğun üzündən qəlb bişər tamam.

Nə yaxşı, nə yaman aramaz gözün,
O qapı qalmaz ki, daş atmayasan.
Yoxluq anlayışın bilərək özün,
O adam olmaz ki, alçatmayasan.

Bə‘zən dolu evi boşa qoyarsan,
İçində sərsəri küləklər oynar.
Bir küt bıçaq təki qəlbi oyarsan,
Başında acılı xülyalar qaynar.

Əlinlə ən aqil başlar alçalar,
Düzlüyü yolundan sən azdırarsan.
Düşmənlər sevinər, xain əl çalar,
Namərdin adını düz yazdırarsan.

Sütunlu evləri sütunsuz etdin,
Rəzil qanununun tutub ucundan.
Hər elə, obaya, qapıya getdin,
İnsan çox cəfalar çəkib ucundan.

Çox adlar alçalıb əllərin ilə,
Ehtiyac – çoxların sən susdurmusan.
Gözlərdən tökülüb yaş gilə-gilə,
Sən çox yurdsuzlara qan qusdurmusan.

Zaman bəlaların söyləyərsə ah,
Etdiyin pisliklər dünyanı tutmaz.
Şadiman gerçəyi söyləsə hərgah,
Sənin əməlinə bir əməl çatmaz.

***29.07.1985. Xəstəxana***

## QOCALDIN, ANA

Baxıram yorğunluq bürüyüb səni,
Qocalıq gözünə çökdürüb çəni,
Sənsə hər addımda gözlədin məni,
Məni yaşatmaqçın güc aldın, ana,
Mənim ucbatımdan qocaldın, ana.

Qırışlar alnında şırımlar açdı,
Cavanlıq əlindən sivrişib qaçdı,
Dərdi-sər başına bəlalar açdı,
Bəxtiyar anımda ucaldın, ana,
Mənim ucbatımdan qocaldın, ana.

Dərdli günlərimin həmdəmi oldun,
Gözlərim dolanda buludtək doldun,
Rəngim saralanda payıztək soldun,
Başımın üstünü sən aldın, ana,
Mənim ucbatımdan qocaldın, ana.

Qədər iki ömür versəydi, hərgah,
Borcundan qurtarmaq çox müşküldü, ah,
Bu müqəddəs hissi gəl eylə agah,
Şadimana yenə sən qaldın, ana,
Mənim ucbatımdan qocaldın, ana.

***06.10.1987 Nasosnu***

## TƏKLİYİM MƏNİM

Qoparıb sinəmdə min ağrı-acı,
Mənim qəlb ağrıdan tənha günlərim.
Ürəyi qocaldır, ağardır saçı,
Qəlbdə baş qaldıran min dərdi-sərim.

Məyusluq könlümə qənim kəsilib,
Üzür gündən-günə bu təklik məni.
Gəlib-gedənimin yolu kəsilib,
Edir tarlasına bir ləklik məni.

Dayanıb pəncərə qarşısında mən,
Sükutla baxıram gedib-gələnə.
Gələr səs-sədalar hardasa pəstən,
Maraq kəsilərəm söhbət edənə...

Şüurum, düşüncəm lap düşüb əldən,
Ürəyim qübarlı dağa dönübdü.
Düşmüşəm qüvvədən, qalmışam dildən,
Bəxtmin çırağı, sanki sönübdü.

Təklik əziz-xələf, güllü-çiçəkli,
Otağımın sadiq qonağı olub.
Ömrümün tufanı min bir küləkli,
Ağac yarpağıtək xəzansız solub.

Bu başı bəlalı təkliyim məni,
Cılız təmənnaya boynumu əyir.
Tale dəryasından qopub yelkəni,
Bərəsi dəryanın dibinə dəyir.

Girirəm otağa, divarlar ölgün,
Baxıram, ətrafda əşyalar laldır,
Laqeydliklə məni süzürlər üzgün,
Bu necə ömürdir, bu necə haldır?

Gözlərimin yaşı düşür yanağa,
Saatın sədası sükutu pozur.
Bu dilsiz otaqdan oxunur giley,
Təkliyin günahın min yerə yozur.

Məndən soruşsalar deyərdim, vallah,
Ən ağır bəladır təklik dünyada.
Şadiman, nə ölüm, nə şivən, nə ah,
Onuntək insanı verməyib bada.

***29.07.1985. Xəstəxana***

## SƏADƏTİM

Bir zamanlar hey qapımı döyərdin,
Xoş avazla mənə nəğmə deyərdin,
Sabahımla çox özünü öyərdin,
Səadətim, gələcəyi səslədin,
Ürəyimdə xoş duyğular bəslədin.

İndi hara getdi bəs o vədlərin?
Keçilməzdir, aşılmazdır sədlərin,
Açılmayır, bağlanıbdı bəndlərin,
Axar suyu kəsilibdi bəs hara?!
Səadətim, çəkmə məni gəl dara.

Yollarını haçanadək gözləyim,
Hara çatdım elə səni izləyim,
Boşa çıxsın arzum, duyğum, hər səyim,
Səadətim, nə qədər bəs yanım mən?
Lap usandım öz-özümdən, canım, mən.

İldırımı, şimşəkləri çaxdırdın,
Bu sinəmi od-alova yaxdırdın,
Şadlığımı suya verdim, axdırdın,
Adın qaldı, axdın getdin sellərdə,
Bu qəzamız dastan oldu dillərdə.

Gözləyirəm qayıdasan, gələsən,
İntizarı taleyimdən siləsən,
Hər ağrımı, acımı da biləsən,
Qollarını dolayasan boynuma,
Səadətim, od tökəsən qoynuma.

Yollarına baxmaqdan göz yorulub,
O ünvanın hər obadan sorulub,
Ürək dərddən için-için qovrulub,
Səadətim, itginliyin ağrımdır,
Əzablarda batıb qalan bağrımdır.

Nə müddətdi fərağından naçaram,
Həsrətindən öz yurdumdan qaçaram,
Sənsiz necə şadlığa yol açaram?
Dərd əlindən qolu bağlı qalmışam,
Tənhalığa yaman mehr salmışam.

Səadətim, harayıma ver haray,
Həsrətindən mən tikmişəm daş saray,
Ağır olub sənsiz mənə bu il, ay,
Minnətçinəm, aç qapını, gələrəm,
Üz-gözünə ruhumdan nur ələrəm.

***29.07.1985. Xəstəxana***

## AĞLARAM

Dünya zindan, həyat qılınc, ömür kəm,
Fələk döyür qismətimi dəmadəm,
Mən Həvvayam, taleyimsə bir Adəm,
Biyabanlar pənahımız, ağlaram,
Bilməm nədir günahımız, ağlaram.

Həyatımın qarası çox, ağı az,
Dərdli könlün əriyibdi, yağı az,
Şadlığının bostanında tağı az,
Arzu-kamım yellərdədi, ağlaram,
Ömrüm-günüm əllərdədi, ağlaram.

Sabahımla dünənimi aldatdım,
Həyat – zəhər, içdim, sanki bal daddım,
Ürəyimi duyğularla oynatdım,
Zaman dönük, sinə nalan, ağlaram,
Mən sadəlövh, ömrüm talan, ağlaram.

Göz açandan döyüşdəyəm, aram nə,
Dərdiyim nə, satdığım nə, param nə,
Doğulmuşam, dözməliyəm, çaram nə,
Bəxtə doğan tar gecəyə, ağlaram,
Bu sitəmə, işgəncəyə, ağlaram.

Ey Şadiman, zaman səni sındırdı.
Diri ikən gor odunda yandırdı,
Çox mətləbi, çox sualı qandırdı,
Ömür düşüb qəfəslərə, ağlaram,
Tuş olub pis nəfəslərə, ağlaram.

***03-04.12.1990***

## BİR ZAMANLAR DÜNYA SƏNƏ DAR İDİ

Bir zamanlar dünya sənə dar idi,
Sirli-sirli oyunların var idi,
Çəmənliklər, düzlər altun yar idi,
Uşaqlara qoşulardın lap erkən,
Günəş göydə səhər cövlan edərkən.

Quzuları çıxardardız düzlərə,
Sevinc, şadlıq yağardı ay üzlərə,
Bəxtiyarlıq qonardı şux gözlərə,
Hay-küy ilə, qışqırıqla oynardız,
Bir tərəfdə dayanmazdız, qaynardız.

Ayaqyalın, başıaçıq gəzərdiz,
Çınqılları tikanlığa düzərdiz,
Bu daşların üstündəcə süzərdiz,
Bilməzdiz heç soyuq, isti nədir ah,
Sanki sizə açılardı hər sabah.

Kənd yoluyla dənizə üz tutardız,
Çiyninizə kiçik torba atardız,
Yeməkləri bir-birinə qatardız,
Üz qoyardız ayaqyalın dənizə,
Səadətlər nur saçardı bənizə.

Çatardınız Xəzərin göy qoynuna,
Baxardınız ləpələrin oynuna,
Sarılardız dalğaların boynuna,
Qaş qaralar, siz də evə dönərdiz,
Qum yolundan kənd yoluna enərdiz.

Uşaqlığım, bax beləcə keçərdiz,
Xəlvətliyi oyun yeri seçərdiz,
Dizi atıb bulaqdan su içərdiz,
Mehribanlıq əlinizdən tutardı,
Çocuqluğun çağlarına qatardı.

Kədər nədi, qüssə nədi bilməzdiz,
Dalaşanda bir araya gəlməzdiz,
Aradakı iltifatı silməzdiz,
Məsxərəylə yaxşı-pisə gülməzdiz,
Uşağlığın beşiyində yatardız,
Oyunları yuxunuzda qatardız.

Keçmişimə o günlər yol salıbdı,
Çox uzaqda xəyallara dalıbdı,
Nağıllaşıb nağıllarda qalıbdı,
Dərdsiz, qəmsiz əziz-xələf günlərim,
Səsim-sədam, hay-harayım, ünlərim.

Mümkün olsa, qayıdardım bir də mən,
Olmuşammış altun da mən, dürr də mən,
Ayaqyalın düşüb qalan sirr də mən,
O yerlərin xiffətiylə yaşardım,
Tikanlığı, qum təpəni aşardım.

Qayalardan Gilgilçaya baxardım,
Selə dönüb çay aşağı axardım,
Göylərində şimşəklərtək çaxardım,
Göyərçintək əldən getdi neyləyim?
Əlçatmayan yerdə bitdi neyləyim?

Uşaqlığım bir sehrbaz dağ olub,
Qonaq kimi gəlib-gedən çağ olub,
Qapıları bir açılmaz bağ olub,
Ey Şadiman, haraylama sən onu,
Hər qaydanın həm əzəli, həm sonu.

***30.07.1985. Xəstəxana***

## ADDIMLAR

Dan yeri sökülür, səhər açılır,
Başlayır dünyada gediş-gəlişlər.
Qapı üzümüzə çətin açılır...
Başlanır bir günlük görülən işlər.

Küçənin sükutun pozur addımlar...
Ayaq səsi alır ərzi ağzına.
Hər addımın sirri, hekayəti var,
Bağlıdır ürəyin öz dünyasına.

Biri çox nazlıdır, biri təmkinli,
Bir addım əsrtək sürət götürüb.
Biri çox ötkəmdir, birisə kinli,
Qeyrisi yerişin tamam itirib.

Bu ədalı addım, görəsən, hansı
Vəzifə sahibin idarə edir?

Bəlkə kimə isə kəsilib asi,
Kiminsə məhvinə fərmançın gedir?!

Aman qarşıdakı addım yiyəsi,
Necə nur tökülür sənin çöhrədən.
Torpağa qoyduğun hər ayaq səsi,
Alır ixtiyarı, əqli də əldən...

Ey aqil torpağın sükutun pozan
Addımlar, necə də öz ahəngin var.
Dünyanın işlərin min yerə yozan,
Səndə muğamım var, səndə Cəngim var.

Beyin fikirləşir, ürək döyünür,
Addımlar həyata keçirir onu.
Addım var cəmiyyət onla öyünür,
Addım var anlamır nə olduğunu...

Addım var bir elə ölüm gətirir,
Tufanı dünyanı buza döndərir.
Addım var yollarda çiçək bitirir,
Hər keçən yolçu da bir baş endirir.

Qatı açılmamış kitab addımlar,
Sizdə Babəkim var, siz də Koroğlum.
Sizin qayənizlə həyat verər bar,
Sizlə ovsunlanar bu hissim, ağlım.

Hər səhər küçədə axın başlanır,
Ağıllı ürəyi addım gəzdirir.
Bə‘zən ağlınızla həyat daşlanır,
Bircə təkanınız minin bezdirir.

Əsrin sizin ilə bir ağ günləyir,
Alqış ey yaradan, quran addımlar.
Sizin səsinizi zaman dinləyir,
Dünyanın qəlbiylə vuran addımlar.

Bütün qitələrdə kəndlər, şəhərlər,
Addımlarla vurur gününü başa.
Dünyanın ürəyi yerlər, nəhirlər,
Addımla çatıbdı bilinməz yaşa!..

Addımla çıxmışıq ulduza, aya,
Səyahət edirik bir an içində.

Onunla əriyir öncə daş-qaya,
Addımla üzülür qəlb can içində.

Ey könül, gəl seyr et bu mənzərəni,
Uğurlu, uğursuz addımlar axır.
Biri zirvə tutur, biri dərəni,
Gözlər ustadına ümidlə baxır.

Hər atılan addım dünyaya şirin,
Laylalar çalaydı həyat boyunca.
Səhvin sarsıtmaya tərkini yerin,
Rahat nəfəs alsın yer-göy doyunca.

Fəqət, səhv addımlar xislətinizdən,
Torpaq nalə çəkib, dağlar yaranıb.
Hər çirkin, bəd rəftar niyyətinizdən,
Bağrı şırımlanıb, hey parçalanıb.

Addımlar ömrün ilkin təməli,
Səhvi sönən ocaq, düzü bulaqdır.
Min illər, əfsus pis, yaxşı əməli,
Tarixin evində qalaq-qalaqdır.

Addımlar saf-çürük edilir, yaman,
Pisi beyinlərdən pozulacaqdır.
Yaxşısı, yaxşısı, yaxşısı aman,
Əsrin yaddaşına yazılacaqdır.

***15-18.02.1986***

## GÜNBATAN

Gözlərimi dikmişəm ünyetməz səmalara,
Fikrim qaçır qabağa buludu yara-yara,
Əngin üfüqlər tutqun, yenə qarışıb ara,
Yalnız nəzərə çapır uzaqlarda günbatan,
Aləmmiş soyuqlarda, sazaqlarda günbatan.

Əsir yenə bayırda dəli xəzri küləklər,
Soyuqdan qan ağlayır, həm göylər, həm fələklər,
Sanki sərsəri yellər yeri, göyü ələklər,
Ağ gündüzü gecəyə aparır lal günbatan,
Qaranlıqçın bir haray qoparır hal günbatan.

Səhərin axşamını onla təyin edərik,
Bir günlük ömrümüzün pilləsinə yetərik,
Onunla cavanlığa, qocalığa yetərik,
Yaşımızın üstünə yaş gətirir günbatan,
Gözə qəmdən, sevincdən yaş gətirir günbatan.

Gün batdısa, deməli günümüz də bitibdi,
Kiminçin zirvə olub, kiminçinsə itibdi,
Kiminçinsə ömrünün xoş həyatı bitibdi,
Hər gün taleyimizlə düşər izə günbatan,
Gecəni əllərində verər bizə günbatan.

Hara yol alıb gedir günlə uçan ömrümüz?
Qəmimiz, kədərimiz, toyumuz, düyünümüz,
Harayımız, səsimiz, hər sədamız, ünümüz,
Sən hara aparırsan de bunları, günbatan?
Ömrü necə ram edər ovsunların, günbatan?

Lap saatsız, zamansız düşsən qərib məkana,
Üfüqün arxasından, səf boylana-boylana,
Ünyetməz səmaları tez haylana-haylana,
Qütübdən asta-asta əl eylərsən, günbatan,
Axşamın gəlməsini nə söylərsən, günbatan.

Baxmazsan yaza-yaya, payıza, qarlı qışa,
Üfüqün bir küncündən dönərsən zər qumaşa,
Vurarsan günlərimi qaça-qaçla sən başa,
Satarsan yaşımızı qocalığa, günbatan,
Apararsan aqili ucalığa, günbatan.

Artırarsan ömürə, zamanıma sayları,
Saldırarsan tarixə ötüb keçən ayları,
Bir qaranlıq, sis gecə sənin dövlətin, varın,
Aç, sən allah, sehirlə düyünləri, günbatan.
Niyə toran edirsən ağ günləri, günbatan?

Bəlkə uzun yollarda gecikib qalan oldu?
Gecənin xislətindən bağrı qan olan oldu?
Oyanmış duyğulardan yenə gözlərim doldu,
Aparma gündüzümü gecələrə, günbatan,
Salma könlü sərgərdan küçələrə, günbatan.

Mən günəşi xoşlaram, parlasın göy səmada,
Baş əyərəm bir gündə milyon kərə o ada,
Gəl müqəddəs günümü, amandır, vermə bada,
Atma məni gecənin cəhənginə, günbatan,
Qulaq ver sabahların ahənginə, günbatan.

Karvantək günlərimiz hara baş alıb gedir?
Aralıqda tək qalan vüsal sinəsin didir,
Qəlbi yeni amalla arzuya salıb gedir,
Şəkərcə duyğuları salma tora, günbatan,
Mavi donlu üfüqü etmə qara, günbatan.

Bəlkə səhərim oğlan, gecəm pərişan qızdır,
Qaranlıqda çarpışan əsrarəngiz ulduzdur,
Gündüzlərin bağrında parlayan telli sazdır,
Sevgilisi gecəyə boy bəsləyir, günbatan,
Onu şərdən, bəladan o həsləyər, günbatan.

Bəlkə iki sevənə sən görüş nöqtəsisən?
Bəlkə sevgililərin düz gediş nöqtəsisən?
Ayırırsan onları bir-birindən necə sən?
Gündüzü başqa səmtə aparırsan, günbatan,
Sinələrdə tufanlar qoparırsan, günbatan.

Ay Şadiman, tutqunluq əzəldən yaddır mənə,
Dözməyir sinəm içi nə dumana, nə çənə,
Günü bizdən almağı eyləmisən ənənə,
Çapırsan an atını sağa-sola, günbatan,
Gündüzü zülmət edib düşmə yola günbatan.

***20.01.1986***

# BƏXTİM SƏNİ ÇOX GÖZLƏDİM

Yollarında canı üzdüm,
Heç bilmədim necə dözdüm,
Nə usandım, nə də bezdim,
Kölgə kimi hey izlədim,
Bəxtim, səni çox gözlədim.

Gözlərimlə qan ağladım,
Xəyalına bel bağladım,
Ürəyimdən tel bağladım,
Yollarını əzizlədim,
Bəxtim, səni çox gözlədim.

Məhəbbətim yalan olub,
Hissim, eşqim talan olub,
Arzum yolda qalan olub,
Yağıştək toz təmizlədim,
Bəxtim, səni çox gözlədim.

Çəkə bilməm bu fərağı,
Nə ağırmış hicran dağı,
Gün batarkən qürub çağı,
Alışqantək od közlədim,
Bəxtim, səni çox gözlədim.

Məni kədər tapacaqmış,
Sevgimə qəm hopacaqmış,
Qəlbdən fəryad qopacaqmış,
Misra-misra mən sözlədim,
Bəxtim, səni çox gözlədim.

Hanı yolun bəs gələni?
Yox itəni, yox öləni,
Gəlmədin heç mən biləni,
Gecə-gündüz qəm düzlədim,
Bəxtim, səni çox gözlədim.

Kəsilibdi ah-amanım,
Yollarına var gümanım,
Ay qəlbimdən eşq umanım,
Çuval tutub dərd üzlədim,
Bəxtim, səni çox gözlədim.

***02.08.1985. Xəstəxana***

## VİCDAN İTGİSİ

Hər əzaba dözmək olar dünyada,
Can, sərvət itirmək deyildir qada,
Özgələr yollayan fənaya, bada,
İnsanı ovlayan vicdan itgisi,
Haqqı cilovlayan vicdan itgisi.

Öləri yaratdı Tanrı bizləri,
Məzarımız etdi geniş düzləri,
Döndü bəndələrin dönük üzləri,
Bəşəri oynatdı vicdan itgisi,
Kürəni qaynatdı vicdan itgisi.

Biri parasıyla eldə öyündü,
Biri sabahıyçın günlə döyündü,
Biri əsilindən, soyundan döndü.
Gözləri ağlatdı vicdan itgisi,
Qapılar bağlatdı vicdan itgisi.

Min illər dünyanın sinəsinə dağ,
Pozuldu ölkələr, fələklər, növraq,
Ürək parçaladı hər qanlı soraq,
Könlə sipər oldu vicdan itgisi,
Ağla çəpər oldu vicdan itgisi.

Kiminin üzündə qanlı göz yaşı,
Kiminin qırılan ömrə başdaşı,
Doğuldu bətindən ağıllar naşı,
Bəşəri oxladı vicdan itgisi,
Yolundan saxladı vicdan itgisi.

Tanrı elçilərin göndərdi bizə,
Ölüm bəxşiş etdi gül ömrümüzə,
Bu arsız bəndələr hey durdu üzə,
Haqqı oğurladı vicdan itgisi,
Dünyanı zorladı vicdan itgisi.

Altunlar, almazlar ram etdi ağlı,
Ömür savaşlarda, ellər yaraqlı,
Tarixin yazısı qara varaqlı,
Əcəli aldatdı vicdan itgisi,
Əzrayılla yatdı vicdan itgisi.

Ötdü gözümüzü para dünyası,
Quruldu idrakın min illik yası,
Qananlar canından, ömründən ası,
Nə böyük zülümdü vicdan itgisi,
Bəşərə ölümdü vicdan itgisi.

***15.11.1992***

## HƏSRƏTİM

Ürək qutarmaz zillətdən,
Bu bəladırmı xilqətdən?
Səndən çəkdiyim minnətdən,
De hara gedim, həsrətim?
Harda ömür edim, həsrətim?

Qəmindən köksüm talandı,
Yanında ölüm yalandı,
Məhəbbət oda qalandı,
Çəkdim min dağlar həsrətim,
Gözlərim ağlar həsrətim.

O uzun yolun azalmaz,
Ürək əlindən kam almaz,
Zülm sənə də heç qalmaz,
Bu köksü oyma, həsrətim,
Ağlar göz qoyma, həsrətim.

Yox dərya eşqin sahili,
Danışmaz, laldır pak dili,
Ovsunlayıbdır ay, ili,
Sən ona dəymə, həsrətim,
Qəddimi əymə, həsrətim.

Sevginin yolu keçilməz,
Eniş-yoxuşu seçilməz,
Qəmi, kədəri biçilməz,
Giribdir dona həsrətim.
Dərd verir ona həsrətim.

Necə əzabsan könlümə,
Don vuran sevda gülümə,
Soyuq yağışlar aləmə,
Fərəhim gələr, həsrətim,
Üzümə gülər həsrətim.

***01.08.1985. Xəstəxana***

## XOŞ BAXIŞLAR

Ürək açan seyrəngahdır necə də,
Sanki aytək rövnəqlənib gecə də,
Qəlboxşayan ulduzlartək gecədə,
Tutulanda naləmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

Gecə-gündüz ovsunlayar, gülməzsən,
Tilsimləri dəf eləyə bilməzsən,
Od-közünü ürəyindən silməzsən,
İncidəndə ələmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

Yandıranda alovuna dözməzsən,
Cəfasından ağrıtsa da bezməzsən,
Yaxşı-pisi dünyasında sezməzsən,
Gah sevincdir, gah qəmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

Gözlər ilə toqquşanda od tökər,
Düşər cana sinə didər, qəlb sökər,
Tutulanda qaranlıqtək tez çökər,
İncidəndə sitəmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

Hər ürəyə çaxnaşmalar salacaq,
Titrək-titrək qəlb içində qalacaq,
Kirpikləri bir ox təki çalacaq,
Sevgilərdən sərsəmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

Şad mülkündən kəsilməz can xəracı,
Fərəhləri könül oxşar baş tacı,
Tutub eşqə oxşamaqdır əlacı,
Bəxtə gülən şad dəmdir xoş baxışlar,
Bir füsünkar aləmdir xoş baxışlar.

***02.08.1985. Xəstəxana***

## YOLUN AZANDAN

İnsafını atıb, yolun azandan,
Ey könül, dünyada imdad gözləmə.
Gözün baxa-baxa quyu qazandan,
Ahu-fəryadına heç dad gözləmə.

Çoxların çeynədi, yedi bu zaman,
Vüsalı şirindi, hiyləsi yaman,
Kimsədən dünyada diləməz aman,
Sən onun adından bir ad gözləmə.

Şadiman, hər oda yanıb alışma,
Qəmin əli uzun, onla yarışma,
Qədir bilməzlərlə böylə barışma,
Uçulmuş könlündən abad gözləmə.

***25.08.1989***

## YAXŞILIQ QALAN DEYİLMİ?

Nə bir qəlb sındırma, nə pislik elə,
Gəl yaxşılıqla düş dillərdən-dilə,
Vermə pak ömrünü yellərdən yelə,
Bu öz həyatına talan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Qaldır yüksəklərə haqqın səsini,
Gözləmə heç kimin sən kölgəsini,
Söylə hər bir kəsə öz ölkəsini,
Ucaltmaq, yaşatmaq qalan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Əbədi kim gəldi bu yer üzünə,
Hiylə pərdəsini tutma üzünə,
Hər gün imtahan ver özü-özünə,
Özünü aldatmaq yalan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Birbaşa yüyürmə uca pilləyə,
Tez hədəf olarsan qəfil silləyə,
Qoyma ömrü tutsun qədər gülləyə,
O vaxtı, zamanı alan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Ürəyi oda tut, tez işlət başı,
Dünyaya gəlirik onsuz da naşı,

İllər qocaldacaq bir zaman yaşı,
Payızdək əbədi solan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Dağıt ətrafından çiskin, dumanı,
Özün irəliyə apar zamanı,
Bir vaxt kəsiləndə ömrün amanı,
Dərin xəyallara dalan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Kimsə darda qalıb, əlini uzat,
Nöqtəsi qoyulan ömrünü uzat,
Qəfil bəlaları dünyadan azalt,
Qəlbin bircə qəlbi alan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Bağban olan kəsə bağlıq yaraşar,
Gülliyə-çiçəyə arı daraşar,
Ürək hər anıyla, sanki yarışar,
Neməti süfrəyə dolan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Tutaq ki, ən uca zirvəni tutdun,
Əlindən tutanı bir vaxt unutdun,
Necə lazımdırsa özünü tutdun,
Bir vaxt başqasının olan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Cahanda çətinə salma hər kəsi,
Səndən ali olsun vicdanın səsi,
Bir pak iş ömürün bəsidir, bəsi,
Cahana məskənin salan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Kimsənin ömrünə balta çalmısan,
Ən yüksək mərtəbə sonra almısan,
Birisin ilantək qəfil çalmısan,
Sabahkı sınaqda balan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

Şadiman, özünü salma dərinə,
Günəşdən gizlənən getdi sərinə,
Namərdlər keçəndə mərdin yerinə,
İxtiyar gözlərin dolan deyilmi?
Dünyaya yaxşılıq qalan deyilmi?

***27.01.1987***

## QƏRİB BİR HƏSRƏT

İçimdə dolaşır qərib bir həsrət,
Mən bu müsibətlə qala bilmirəm.
Qəlbimlə qol-boyun olub sədaqət,
Kimsəyə bir meyil sala bilmirəm.

Tutubdu sinəmə zaman divanlar,
Nə haraya çatar, nə də dil anlar,
Arada bitibdi vəhşi tikanlar,
Necə çıxmaq olar yola, bilmirəm?

Ürək bağışladım təmizdən-təmiz,
Yoluna saralır bu yazıq bəniz,
Yoxuşa düşmüşəm tapılmayır iz,
Ağıl mıxa döyür nala, bilmirəm.

Şadiman könlüylə hər an vuruşda,
Ürək tapılarmı belə qurluşda,
Ey zaman, gedişin çox bəd duruşda...
Bəs mən necə gedim, yola bilmirəm?!

***16.12.1989. Nasosnu***

## NİYƏ GƏRƏKDİR?

Bağa gəlir bülbül gülün xətrinə,
Hər budaqda gəzmək niyə gərəkdir?
Yaxşılıq et yaxşıların xətrinə,
Könlü, qəlbi üzmək niyə gərəkdir?

Zaman aqil, ömür qısa, gün yarı,
Elə qalar eldən gələn el varı,
Dar ayaqda atıb qaçıb dost yarı...
Daş torpağı əzmək niyə gərəkdir?

Dünyaya bax, əllərində tərəzi,
Biri vardır, biri namərd, şər gözü,
Əzizləyir o gecəni-gündüzü,
Varı küncə düzmək niyə gərəkdir?

Başın açıb, pislik edən bir şərə,
Yamanlamaq, qarğışlamaq min kərə,
Əyri-oğru nə verdi bu bəşərə?
Haqsızlığa dözmək niyə gərəkdir?

Yol üstündə yaman-yaxşı çıxanda,
Bir nahaq dil min bir bağır sıxanda,
Naxələflər sənə əyri baxanda,
Həyatından bezmək niyə gərəkdir?

Baş ağardı, diş töküldü, yaşa nə?
Qəlb yanırsa, gözdən gələn yaşa nə?
Sonu çatıb, bu payızın qışa nə?
Hər yerişi sezmək niyə gərəkdir?

Könül uysa bir sevginin oduna,
Biri getsə bir nakəsin badına,
Əməlləri yaraşırsa adına,
Onu pis-pis süzmək niyə gərəkdir?

Bulaq gözdən bulanaraq çıxırsa,
Şəffaflığı, duruluğu axırsa,
Gözün ona bir su kimi baxırsa,
Daha onu süzmək niyə gərəkdir?

Şirin xanım, yaman gözü el görər,
Ağ cığırı min bəlalı tel görər,
Eniş-yoxuş, dərə-təpə sel görər,
Hər çamurda üzmək niyə gərəkdir?

***25.10.1987***

## HARDAYDIN

Uca-uca zirvələrə baxırdım,
Ünüm çatmaz həqiqətim, hardaydın?
Arzularla bir sel olub axırdım,
Həyat adlı sədaqətim, hardaydın?

Şadlığımı qəm salmışdı taxtından,
Narazıydım taleyimdən, baxtımdan,
Dad edirdim ömür-günün vaxtından,
Od-alovlu səadətim, hardaydın?

Bir-birini tanımadan yol getdik,
Ün yetməyən fəzalara bir yetdik,
Duyğuları, amalları bir etdik,
Top dağıtmaz məhəbbətim, hardaydın?

Könlümüzün harayına alışdım,
Hisslər ilə can bir olub qarışdım,
Amallarla, məramlarla yarışdım,
Həyat adlı ülviyyətim, hardaydın?

Bağır yatmaz, sinə uymaz harayam,
Eşqi coşğun, sözü dərya sarayam,
Köz bağlamış sağalmayan yarayam,
Sabah adlı pak niyyətim, hardaydın?

Şadimanın ürəyi çox duyğulu,
Həyat özü dərdi-sərli, qayğılı,
Arzuların sonu bitməz, uyğulu,
Həyat adlı təbiətim, hardaydın?

***25.10.1987***

## DÜZLÜYÜ AXTARMIŞAM

Düzlüyü axtarmışam dünyada ömrüm boyu,
İxtiyarım olsaydı qurardım şərə toyu,
Çalışardım hər oba düzlüklə nəş'ələnsin,
Göylərdən yağış təki yerə düzlük ələnsin.
Riya, yalan önündə heç kəs boyun əyməsin,
Dünyada bir acı dil bir ürəyə dəyməsin.
Sözündə bütöv olsun hər dilin öz sahibi,
Duru olan bulağın aydın görünər dibi!
Yalan dalınca qaçan özünü aldadacaq,

Hər gözdə bir şölədi, tezcə alışar ocaq.
Ev yıxıb, ara vurmaq bu dünyada şər işi,
Yıxılanı qaldırmaq ta adəmdən ər işi.
Şirin xanım, könlünü sıxmasın ələm, kədər,
Hər addımda köməyə gələcək ölçü, qədər.

***25.08.1989***

## NİYƏ VAXTSIZ AĞARIRSAN SAÇLARIM?

Cavanlığım hələ mənim yol gedir,
Hələ ömrün yetkin çağı əldədir,
Dəli könlün nəğmələri teldədir,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ömür gözəl, həyat gözəl, el gözəl,
Vətən gözəl, torpaq gözəl, dil gözəl,
Zil üstündə haray salan tel gözəl,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Mən ki, hələ doymamışam həyatdan,
Dünyamızdan, kainatdan, büsatdan,
Gəl tələsib salma məni yel atdan,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Yer üzünün sabahları pak nurdur,
Addımımız, hər günümüz uğurdur,
Vətənimin gözlərində qürurdur,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ələmlərdən, kədərlərdən qaçıram,
Bəxtimizə altun bir yol açıram,
Bulud kimi üfüqlərdə uçuram,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Gözəlliyin gedir əldən. Əlacı?
Cavanlığın məhəbbətin şah tacı,
Tələsməyək, günü edir şər acı,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Qara telə bəyaz qarlar yaraşmaz,
Sənə görə ürək mənlə barışmaz,
Həyat verən nemət dərdə qarışmaz,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Biz ki, hələ yetginliyin çağında,
Cavanlığın bir növrəstə bağında,
Sabah üçün gün ucalıq dağında,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Ürəyimi bəxşiş bulma qəm, dərdə,
Könlümüzü gülüş etmə namərdə,
Yaraşmayır qara telə ağ pərdə,
Niyə vaxtsız ağarırsan, saçlarım?

Üstbəüstdən sınıq könlü əyərək,
Qocalığın qapısını döyərək,
Şadimanın xətirinə dəyərək,
Niyə vaxtsız ağarırsan, saçlarım?

***13.11.1987***

## QURASAN GƏRƏK

Hər kəs öz könlündə bir kainatdı,
Gah acı, gah şirin qaynar həyatdı,
Gah zirvəyə qalxan, gah enən addı,
Bu ad kölgəsində durasan gərək,
Özünə saf yuva qurasan gərək.

Çıxıb özlüyündən getmə uzağa,
Bələdçi nə lüzum görünən dağa?
Salıb ürəyini dərdə, sazağa,
Keçilməz sədləri yarasan gərək,
Özünə saf yuva qurasan gərək.

Keçib rüzgarının sınaqlarından,
Axıtma kədəri yanaqlarından,
Üzülmə hərcayi qınaqlarından,
Qınağın özünü vurasan gərək,
Özünə saf yuva qurasan gərək.

Bəndə olan yerdə kədər, qəm də var,
Sevgiyə bürünmüş bu aləm də var,
Zilə qalxan ömrə hərdən bəm də var,
Bəmini zillərdə qırasan gərək,
Özünə saf yuva qurasan gərək.

Heçdən yaranmayıb bil ki, bu bəşər,
Onunla çarpışır xeyir ilə şər,

Ah olan ürəyə sevinc də düşər,
Kədərin qoşunun qırasan gərək,
Özünə saf yuva qurasan gərək.

Saflıq olan yerdən düzlük görünər,
Şər düşüb ayağın altda sürünər,
Dünyadan baş açmaq sayılır hünər!
Hünəri ağıla sarasan gərək,
Özünə saf yuva qurasan gərək.

***28.05.1990***

## DÜNYAYA GƏLMƏK YAMAN

Keçib gedən illərin əzabıyla qovruldum,
Acı küləklər əsdi, ocağımda sovruldum,
Coşdu tale selləri, çay daşıtək ovuldum,
Həyatın zülümü çox, üzüldüm, Tanrım, aman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İllər ömür yolumda bir qanadlı quş oldu,
Ürək, ağıl çarpışdı, çox qanlı döyüş oldu,
Həyat-ölüm yolunda min bir anlayış oldu,
Kəsdi cığırlarımı gözəgörünməz duman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

İçi dolu qanlı kin, çox-çox gülər üz gördüm,
Ömrün hər dolayında min bir dərə, düz gördüm,
Çox quduzu, qatili pak cilddə «düz» gördüm,
Görənlər bunu bilir, fələyin çərxi həmən,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Ölənlərə nə var ki, ölüb borcun ödədi,
Qonubdu çiynimizə sağ ikən ölüm dərdi,
Bu həyat bağçasından gedəndə kim nə dərdi?
Hər gün iradəmizi sınağa çəkir zaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Əldən gedən keçmişim gələcəklə davada,
Tükdən asılı bəxtim doğulandan havada,
Dünən sənə can deyən bu gün özgə havada,
Əsəblərim tarımda, sanki köklənmiş kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

Şirin xanım, həyatın köhlənində çox çapdın,
Getdi ömrünün çoxu, eyvah, özünü tapdın,
Acı-şirin taleyin yoluna ümid yapdın,
Bağırıma tuşlanan dərd – rəhm bilməz ox, kaman,
Dünyaya gəlmək yaman, dünyadan getmək yaman.

***10.04.1992***

## ÖLDÜRDÜ MƏNİ

Gözümdən tökülən yaş oldu ağrım,
Öldürdü, ay allah, öldürdü məni.
Bütün ağrılardan baş oldu ağrım,
Öldürdü, ay allah, öldürdü məni.

Yurdu parçalayan haqsız bölmələr,
Boğazdan yuxarı gələn kəlmələr,
Dirikən, sağikən içdən ölmələr,
Öldürdü, ay allah, öldürdü məni.

Zamanın sitəmi belimi qırdı,
Zalımın zülümü elimi qırdı,
Qanunun zərbəsi dilimi qırdı,
Öldürdü, ay allah, öldürdü məni.

Qapılar dalında qaldı diləyim,
Yağı tələsinə düşdü biləyim,
İstəyi gözümdə qalan ürəyim,
Öldürdü, ay allah, öldürdü məni.

Gözümdə çırpınan yaş-yaşa durub,
Əcayib qəmimlə göz-qaşa durub,
Cahan fəğanıma tamaşa durub,
Öldürdü, ay allah, öldürdü məni.

Kökümə kökündən dəyən baltalar,
Qanımı yad edən qansız atalar,
Özgə qoltuğunda gəzən namus, ar,
Öldürdü, ay allah, öldürdü məni.

Çarəsiz dərdin də öz əlacı var,
Başların bəlası şöhrət tacı var,
Bu qədər dünyada zülüm, acı var,
Öldürdü, ay allah, öldürdü məni.

Min cür qurğuların «qayğıkeşliyi»,
Qanunun əcayib sayğıkeşliyi,
Millətlər üstündə ayıqkeşliyi,
Öldürdü, ay allah, öldürdü məni.

Kölgələr izləyir fitnə-feillər,
İlantək qapımda, bacamda mələr,
Gözündən qan daman bu ağlar illər,
Öldürdü, ay allah, öldürdü məni.

Bir gözüm buludu, biri yaş dərdi,
Hər cürə sitəmlər qolumu gərdi,
Şam kimi əriyən Şadiman dərdi...
Öldürdü, ay allah, öldürdü məni.

***25.07.1991***

## GÜNAHDIR

Ocaq təki tüstülənib alışma,
Gücdən xaric hər əmələ qarışma,
Əyriliklə, oğruluqla barışma,
Haramlıqla yığılan mal, günahdır,
Evlər yıxan hər qeylü-qal, günahdır.

Məhəbbətin könlündə yox, dildəsə,
Bir sinədə qoyma hicran, yel əsə,
Başın üstün qüssə, kədər, qəm kəsə,
Ürək alıb, ürək satmaq, günahdır,
Qəlbə girib, qəlbi atmaq, günahdır.

Lənətləmə pak zamanın gedişin,
Əlindədir dövran ilə gərdişin,
Düz yaşasan çətin olmaz heç işin,
Haqqı danmaq hər vicdana, günahdır,
Şər əlində ürək yana, günahdır.

Şirin xanım haqq evində alışdı,
Sinəsində tutqun göylər qarışdı,
Odu keçmiş soyuq külə qarışdı,
Onun könlün oda atmaq, günahdır,
Qəm əlində qəmə batmaq, günahdır.

***13.12.1988 Tağay***

## MÖHTACAM

Bu bağrımı min bir əzab paralar,
Şirin sözə, şirin dilə möhtacam.
Qəlb evində ocaq açar yaralar,
Xoşbəxt aya, xoşbəxt ilə möhtacam.

İsmarladı tale kamı ürəkdə,
Bu halımdan zarə gəlib fələk də,
Bir kəs varmı görən məni ürəkdə?
Harayımı sala dilə, möhtacam.

Arzuların qəsir evi uçuldu,
Min bir yerdən qəlbdə yara açıldı,
Şimşəklərdən üstümə od saçıldı,
Bir diləyim gəlməz ələ, möhtacam.

Dörd divarın sükutunda boğuldum,
Zülm üçün, ələm üçün doğuldum,
Bəxt əlində qolu bağlı bir quldum,
Bu sitəmi aləm bilə, möhtacam.

Zalım zaman qanımda dərd qaynatdı,
Tora saldı, qəfəsində oynatdı,
Pünhan-pünhan qəm göndərdi, baş qatdı,
Səadətə sevgim ilə möhtacam.

Dərdi-sərim sinəmdə qövr eyləyir,
Günüm, ayım aləmlə dövr eyləyir,
Şadimandan ürək də tövr eyləyir,
Bağrımdakı açan gülə möhtacam.

***15.07.1991 Tağay***

## TALEYİM GEDİBDİ QƏFİL YUXUYA

Taleyim gedibdi qəfil yuxuya,
Gecəli-gündüzlü yathayatdadı.
Bütün vücudumu üzən qorxuya
Bəlalı ürəyi sathasatdadı.

Düşəydi ortaya hicranın nə'şi,
Yandıraydı onu könül atəşi,
Ömrümün göyündə qürub günəşi,
Saralıb şəfəqi, bathabatdadı.

Ayrılıq üstümü alıb qarıyla,
Qonub çiyinimə dağ vüqarıyla,
Yığışıb gəlməyə olan varıyla,
Qapımın ağzına çathaçatdadı.

Ağrılı sevgimə tuş olub qürbət,
İçdim zəhərini, sanki bir şərbət,
Dedim: Qovuşarıq, inşallah, əlbət,
Başımı cəfaya qathaqatdadı.

Gözü görə-görə soyuqluğunu,
Ürək aralıqda qoyub duyğunu,
Atıb ortalığa könlü, uyğunu,
Onu tutmayanı tuthatutdadı.

Ey Şirin, dünyada bu möhnət neçin?
Alışdı qovundan, köz oldu için,
Səni bu tərs ürək bir sevgi üçün,
Şahmar yuvasına athaatdadı.

***27.07.1991***

## SON ZAMANLAR

Mürəkkəb yollarım dolaşıqdı,
Rəngbərəng uyğularım qarışıqdı,
İçimə sığınmış sevgim aşıqdı,
Son zamanlar.

Ümidsizlik ağrısı könlümü
Qılıncıyla doğrayır,
Diləklərim yerində sayır,
Ürək iztirabdan ağrıyır,
Son zamanlar.

Nə bir kimsə dadıma yetməz,
Nə də hicran, həsrət bitməz,
Verdiyin işgəncələr könlünü göynətməz,
Son zamanlar.

Qəlbim qəlbinə yetmək üçün çırpınar,
Əzablardan nə fələk, nə də hicran qırpınar,
Naçar Şirinxanım yenə də ümidə tapınar,
Son zamanlar.

***09.10.1991***

## DARIXIRAM

Yalqızlıq könlü parçaladı
tikə-tikə,
İqtidarım qalmadı
həsrətin yükünü çəkə,
Ürəklə ağıl arasında hər gün mərəkə,
Nə ağıla əyildim,
nə də ürəyə.
İsmarladı taleyimi fələyə,
Dedim, bir gün tilsimi sındırıb gələrsən,
Könlümüzü talan edən
həsrəti yerindəcə güllələrsən.
Nə sən gəldin, nə də
həsrət güllələndi...
Kimsəsiz taleyimə hər gün qəm ələndi.
O gündən yollara baxıram,
Təkcə sənin üçün darıxıram,
Darıxıram.

***26.08.1992***

## GÖZ YAŞINA BULADI

Tale məni göz yaşına buladı,
Yalquzaqtək qapbacamda uladı,
Sussuz könlü qanım necə suladı?
Harayıma çatan kimdi, gələn kim?
Dərdü-qəmi bircə anlıq bölən kim?

Könlüm tutan qəlbə yağı olubdu,
El içində bir göz dağı olubdu,
Məhəbbətim içdə ağı olubdu,
Can deyən çox, canda ahı bölən kim?
İçə axan göz yaşımı silən kim?

Şirin xanım, qul olmuşam düzlüyə,
Həyat beşdaş hər addımda üzlüyə,
Çox vicdanlar qurban getdi yüzlüyə,
Xoş çağımda cani-dildən gülən kim?
Əcəl gəlsə sənin ilə ölən kim?!

***04.09.1992***

## ACILAR

Acılar ömrümü parçaladılar,
Taleyin yolların haçaladılar
Sındırıb ürəyi hey caladılar,
Buna dözmək çətin, dözməmək ölüm,
Allah, haçan yetər, söylə bu zülüm?

***10.10.1991***

## PƏJMÜRDƏ

Yandı içimdəki hər arzu, kamım,
Ürəyim pəjmürdə, canım pəjmürdə.
Uçdu eşq sarayım, titrədi damım,
Dəqiqəm pəjmürdə, anım pəjmürdə.

Yenə qəm buludu gəlir üstümə,
Öz könlüm, öz qəlbim durub qəsdimə,
Dərddən ocaq çatıb, deyir qəsd demə,
Damarda dövr edən qanım pəjmürdə.

İli qova-qova, yaş axtarmışam,
Göz yaşı quruyub, yaş axtarmışam,
Başıma ən ağır daş axtarmışam,
Qurtulum canımdan, danım pəjmürdə.

Şadiman dünyadan gedəsi oldu,
Öz-özünə zülüm edəsi oldu,
Əzrayıl da onu güdəsi oldu...
Bu ərzi halıma yanım pəjmürdə.

***07.06.1993***

## ALOV

Alov – sən öz yanğınla
soyuq ocaqlara atəş,
Evlərin içində günəş,
Dünyanın köksündə çıraq,
Həyatın əlində yaraq.

Alov – Sənin odunda bəşər yaşar,
Əli qılınclı, şaxtalı-ayazlı
qış nağıllaşar,
Hamı sənin dərgahına əl açar,
Bütün fəsillərdə belə dalınca qaçar.

Alov – soyuqda titrəyən
canlara istilik,
Baş əyməli tarixin insanlara istilik,
Od istəyən ocaqlara,
Ömür adlı dayanacaqlara,
Körpəli sinələrə
sığınmış qucaqlara imdad,
Sənin sayəndə sobalar abad.
Bütün bunlar yetərmi,
Dünya ilə birlikdə şirin xatirəmi?
Alov, bu sənin varlığının görünən üzü,
Ətəyindən yapışmış bu yer üzü!

Alov, sənin görünməyən üzünsə,
könlümdə çatdığın ocaq.
Elə bu dünya, elə o dünyada da
Ruhumun başı üstə duracaq alov,
Yaman yandırırsan ürəyimi,
Tükənib taqətim, kəsmisən kələyimi.
Yandırıb kül etdikcə məni diri-diri,
Gizlədərək sirri aləmdən,
Yumşalmayaraq naləmdən
alov, alışırsan
kor olmuş istəklərimə qarışırsan.
Önündə səcdədəyəm,
Budur son qayəm.
Beyinlərin havasından,
İnsanların qovğasından
Təkcə odu xilas yolun.
Yanıb təmizlən,
Odla əzizlən,
Burax qəlbimə atdığın tilovu,
Könlümün alovu...

***11.02.1994***

## HƏSRƏT YAĞIŞI YAĞIR

Acılar ürəyimi parçalayır qurd təki,
Keçir ömür karvanı necə də ağır-ağır.
Qəlbin içi əsirdi yağı almış yurd təki,
Yenə könlüm evinə həsrət yağışı yağır.

Bir görüş müjdəsiylə alışır yanır sinəm,
Suçsuz kirpiklərimi yasa batırır, ah nəm,
Qapımın kəndarını kəsib dayanıbdı qəm,
Yenə könlüm evinə həsrət yağışı yağır.

Pünhan xəyallarımın röyasına dalmışam,
Hicranın ən ünyetməz zirvəsini almışam,
Tənhalıq qismətimlə mən əbədi qalmışam,
Yenə könlüm evinə həsrət yağışı yağır.

Şirin xanım dünyanın hər üzündən halidir,
Doğulmaq da, ölmək də fələk qeylü-qalıdır,
Bu sevginin nisgili hər bəladan alidir,
Yenə könlüm evinə həsrət yağışı yağır.

***08.06.1993***

## KİM YETİŞƏR SORAĞIMA?

Tanrı bəxtin qarasını,
Yazdı alın varağıma.
Tapmaz könül çarasını,
Kim yetişər sorağıma?

Dərdlərimin ölçüsü yox,
Şəlalətək çağlar keçər.
Ölümün heç elçisi yox,
Yanan könlüm ağlar keçər.

Gözlərimin yaşı çeşmə,
Sularında boğularam.
Qulp qoyular hər işimə,
Hər gün ölüb doğularam.

Yazıq ürək, qəm təşnəsi,
Ovutmayır onu zaman.
Min illərdən gələr səsi,
Ölsə də bir gün Şadiman.

***24.02.1994***

## DEYƏCƏM

Könlüm qul olmadı dünyada şərə,
Bağlansa bəxtimdə min bir bənd-bərə,
Madam ki, doğulan yaşar bir kərə,
Paklığı getsəm də hara öyəcəm,
Çəksələr dilimdən dara deyəcəm.

Zaman qəndilləri gözümə işıq,
Mümkünmü haramla, Rəbbim, barışıq?!
Versələr halalı zəhərqarışıq,
Açılsa könlümdə yara, yeyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Bir kəs düşünməyir bəndənin halın,
Parasız ciblərin sormun əhvalın,
Dünya əyləncəli, gün gönüqalın,
Gəlməyir kürsülər kara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Güzəran eşqiylə başlar yel olur,
Qürbətdə beyinlər axar sel olur,
Qəriblik ağzına düşən el olur,
Gəlibdi məmləkət zara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Ah, bulanıq sular durular haçan?!
Yağı köksünə dağ vurular haçan?
Millətin məlalı sorular haçan?
Yaxılır çoxuna qara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Dağılan ocaqlar, yurdlar yağıda,
Gəzdirmək olarmı bu fərağı da?
Əsir qız-gəlinin yox sorağı da,
Namus ayaqlarda qara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Millət ac-yalavac, millət quldu, qul,
Oynadır zavallı məmləkəti pul,
Neyləsin təknəsi boşalan yoxsul?!
Yoxmu bu dərdlərə çara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

Məni qınamasın ağzı göyçəklər,
Bu dərdlər sinədə necə çəkilər?
Bağrıma dağ basır hey səksəkələr...
Vallah, bu yol gedir hara, deyəcəm,
Çəksələr dilimdən dara, deyəcəm.

***24.02.1995. Pirallahı***

## İNSANIN ZAMAN- HƏYAT HEKAYƏSİ

Uzanır ömür boyu həyatın sərt yolları,
Əbədilik yapışıb qolumuzdan qolları.

Qarşımızda dünya var, onun öz sınaqları,
Elə hey gəlib-gedir bir yandan qonaqları...

Əvvəli-sonu yoxdur qaynayır qazan kimi,
Büdrəyib yıxılırsan yolunu azan kimi.

Çox müdriklər, aqillər bu yoldan gəldi keçdi,
Onun açıq, sərt üzlü həyat suyundan içdi.

Əslini dananlara bu yol meydan oxudu,
Qanan da, qanmayan da özün ora toxudu.

Bu həyatın yolları çovğunlu, boranlıdır,
Bə'zən al gündüzü də gecətək toranlıdır.

Səhər, axşam yol getdik maşınlarla, qatarla,
Özümüzdən də ağır daş-qaş ilə yatarla.

Yerlər az etdi bizə qalxdıq təyyarələrə,
Əl elədik günəşə, aya, səyyarələrə.

Bu həyatın yolları çəkdi apardı bizi,
Qopartdı əlimizdən neçə gecə-gündüzü.

Ağıl güclü olanda, qalxdıq zirvə fövqünə,
Heyran olduq idrakın əsrarəngiz zövqünə.

Zaman saldı insanı bir gün çətin yollara,
Düşürtdü ürəyini acı-şirin hallara.

Hər uşaqlıq şərqisi çaldı öz havasını,
Qurtardı qismətiylə yaxşı, pis davasını.

Sonra gənclik, cavanlıq, sərt qocalıq şərqisi,
Gah səadət, gah ölüm, gah ucalıq şərqisi.

Aman Allah, necə də düzgün bölünüb yarı,
Budur bizə taleyin acı-şirin baharı.

Bir gün gənclik başlayır qaynamağa, daşmağa,
Məhəbbətlə qol-boyun olub pıçıldaşmağa.

Bə’zən lovğalıq onu güclə çıxartdı yoldan,
Sağla əl-qol atdıqca ürəyi vurdu soldan...

Hamıdan irəliyə qaçmaq istədi gənclik,
Ün yetməyən zirvəyə uçmaq istədi gənclik.

O qədrini bilmədi heç günün, ayın, ilin,
Niyə bu ilahənin insan bilmədi dilin?!

Bir vaxt ayıldı gördü zaman gedir irəli,
Amma gənclik susubdu, yorulub vuran əli.

Ömür qaçdı irəli, həyatın yolları çox,
İnsansa doymaq bilmir fani dünyadan yox, yox!

Dedi: «Ey zaman, niyə gəncliyimi apardın?
Mənim şad məkanımda necə tufan qopardın?

Eybi yoxdur qabaqda hələ cavanlığım var,
Bu qat-qarış dünyaya mənim həyanlığım var.

Gəl sən alma əlimdən illərimi sürətlə,
Biz yol yoldaşı olaq xoşca, təmiz niyyətlə.»

Zaman güldü, başını tərpətdi üzdə qürur,
O varlı bir kainat həyat fövqündə durur.

Dedi: « Mən tələsmirəm, bu fələk gərdişidir,
Təbiətin əbədi bir ölməz vərdişidir.

Hərəkətdə olmasam mənasız keçər günüm,
Sizin üçün mükafat xoşbəxt toyum, düyünüm.

Hərəkətdədir ağac, hərəkətdədir çaylar,
Yer üzü hərəkətdə, əsrlər, illər, aylar.

Sən qorxma ki, gəncliyi mən almışam əlindən,
Gələcəyin aslıdır sənin hər əməlindən.»

Gəncliyin yerin tutdu qadir cavanlıq halı,
Bunula da qutardı insanın qeylü-qalı.

Yeni gündüz başladı, pak cavanlıq gündüzü,
Neçə odla, atəşlə yandırdı baxan gözü.

O, cavanlıq saatın qoymurdu fırlanmağa,
İnsanısa göndərdi başına haylanmağa.

Artıq qara saçlara ağ cığırlar düşürdü,
O od-alovlu insan indi bir az üşürdü.

Toxuyurdu özünü oda, alova, közə,
Bə'zən elə olurdu heç baxmayırdı sözə.

Tamah almışdı onu öz çirkin caynağına,
Aparmışdı insanı o daş-qaşlar dağına.

Tez insan bir tamaha, bir də özünə baxdı,
Şimşək təki dağların gen sinəsinə qalxdı.

Özünə lazım olan hər şeyi kəşf elədi,
Həyatı idrakının örpəyinə bələdi.

O kəşf etdi atomu, o kəşf etdi nüvəni,
Unutdu təbiəti onu candan sevəni

Bir gün gözünü açıb gördü başının üstə,
Zaman çalı quşutək, sanki səkir ahəstə.

İnsanın gözü doldu, dedi: «Yenə gəlmisən,
Sənin bu diqqətinə, sənin zövqünə əhsən.»

Ağ saçlı zaman güldü, dedi: «Gəl sən qəm yemə,
Sürətimlə gedirəm, mənə tələsdin demə.

Hələ qarşıda səni necə günlər gözləyir,
Yaxşını da, pisi də həyat özü izləyir.

İnsan, o nadir bir kəşf, o xəzinə tapıntı,
Sinəsində daima bir kişnərti, çırpıntı.»

Onun daha saçları dümağ qara dönmüşdü,
Gözlərində əvvəlki o parıltı sönmüşdü.

Zamanın əllərində qocalığın dərd valı,
Sərt ömürlə ölümə bir sınıq sərhəd valı.

Zaman baxdı insana, dedi: «Son gərdişindir,
Bu dünyaya qalacaq yaxşı-yaman işindir.»

O fırlatdı astaca qocalığın valını,
Bir nəzərə almadı heç insanın halını.

İnsan artıq qaçmaqdan, yüyürməkdən qalmışdı,
Meylini içindəki gümanlara salmışdı.

O, xəyallar içində gəzirdi asta-asta,
Kövrək bir uşaq idi, həyat çoxbilmiş usta.

Qamətini əymişdi zamanın sürətinə,
O, ayaqdan qalmışdı sədəlövh niyyətinə.

Bir gün zaman insanın başının üstün kəsdi,
Qocalığın valını susdurmağa tələsdi.

İnsan gülmüsəyərək üzün tutdu zamana,
Dedi: «Qaçışın sənin heç gəlməzdi gümana.

Qurub-yaratdıqlarım qalacaq nəsillərə,
Əməllərim düşəcək hey dillərdən-dillərə.

Məni ölmün əlinə verdinsə də sən bu gün,
Onsuz da bu dünyadan kəsilməzdir toy-düyün.»

Zaman öz sürətilə dillərdən-dilə düşdü,
İnsansa hikmətilə yenə əbədiləşdi.

***09.02.1987***

## MƏNSİZ GÜNLƏRİM

Hanı ömür sarayımdan
Qopub düşən xoş günlərim?
Çox uzaqsız harayımdan
Ey sədalı səs-ünlərim.

Könlüm gəzib oba-oba,
Hey beləcə arar sizi.
Qəlb evində sönər oba,
Gözlərimdən itər izi.

Bir zamanlar mənlə olan,
İndi mənsiz ötən vaxtım.
Ürəyimə qəmlə dolan
Ey boş qalan zaman taxtım.

Mənim könül sarayımdan
düşüb bir-bir yol gedirsiz.
Ayrılırsız gün ayımdan,
Şad bağrımı qan edirsiz.

Zərrə-zərrə birləşmişdiz
Ömrün cavan növrağında.
Altun olub dürləşmişdiz,
Bəxt kitabın varağında.

Köksün için yara-yara,
Ay tələsən, ötən anım,
De, qaçırsız məndən hara?
Sizsiz qalıb yazıq canım.

Hey gedirsiz karvan-karvan,
Sərt taleyin yollarında.
Qovuşdurur sizi sarvan,
Qədərimin qollarında.

De beləcə hey birləşib
Hər doğulan bir taleyə.
Yar olursuz sehirləşib,
Çevrilirsiz yanıq neyə.

Zaman keçir, ömür keçir,
Əqlin köhlən atı çapır,
Günlər yeni tale seçir,
Bir ömürdə özün tapır.

Neçin ürək qəmə yetir?
Belə imiş bəxt əzəldən.
Ey Şadiman, yaşın ötür...
Altun gənclik gedir əldən.

***17.04.1985***

## YOLLARA DİKİLİB GÖZLƏRİM

Yollara dikilib gözlərim aman,
Gedənin, gələnin həsrətindəyəm,
Xəstəxana qəlbi kövrəldir yaman,
Sanki unudulmuş sınıq bir neyəm.

Köhnə dost-tanışlar düşür yadıma,
Quru gəlişlərin könlüm arzular,
Bir nəzər salıram yaxın, yadıma,
Deyirəm xəyaltək bir həyanım var.

Gözlərim qan-yaşla dolur boşalır,
Fikirlər ah çəkir, nələr söyləyir,
Könlüm harayını göylərə salır,
Xiffət acıları ürəyə dəyir.

Necə darıxdıcı keçir günlərim,
Mən özüm sükuta düçar olmuşam,
Ağrının şərabın içir günlərim,
Sərxoş saatlarda düşüb qalmışam.

Tökülən göz yaşım dəryaya bənzər,
Nə sahili vardır, nə də axarı,
Kimsəsiz ruhumu tənhalıq əzər,
Görən nə vaxt gələr ömrün baharı.

***15.07.1985. Xəstəxana***

## HALAL ZƏHMƏT

Halal zəhmət, necə də füsnikar səslənirsən,
Duyğulu sinələrin dərmanı, dəvasısan,
Sən mərdlərin könlündə uşaqtək bəslənirsən,
Döyünən ürəklərin ən büllur havasısan.

De, nə çatar dünyada sənin təmizliyinə?
Ay dizlərin taqəti, pak gözlərin işığı,
Qoca dünya baş əyir bir sənin düzlüyünə,
Əyinlərin bəzəyi, evlərin yaraşığı.

Halal zəhmət, önündə nə iyrəncdir daş-qaşlar,
Çox milyonlar bir anda ayağına tökülər.
Əyriliklə gələn var, bir vaxt gözləri yaşlar,
Qurulan bir yurd-yuva binasından sökülər.

Halal zəhmət, yolunda çox başlar ucalıbdı,
Çoxları zirvələri fəth eləyib əlinlə,
Səni duymayanların duyğusu qocalıbdı,
Müqəddəs məbədgahsan pozulmaz təməlinlə.

Ey zirvələr qartalı, yüksəklikdir ormanın,
Yığ qanadın altına minləri, milyonları,
Baş əyməli düzlükdür – sənin dəva, dərmanın,
Coşdur təmizlik ilə damarlarda qanları.

Sən bir şəlaləsən ki, yüksəklikdir məkanın,
Onuntək xoşlayırsan ünyetməz dərinliyi,
Kəşf edilməz bir sirdir sənin güclü təkanın,
Xoşlamazsan dünyada kölgəni, sərinliyi.

Dünyaya pak nur verən sən bir işıq selisən,
Qaranlığı gündüzə çevirirsən bir anda,
Sən ayrı bir planet, müqəddəslik elisən,
Alnı açıq, üzü ağ dolaşırsan hər yanda.

Halal zəhmət önündə əyriliklər alçalar,
Yerlə-yeksan edərsən sənə xor baxanları,
Sənin ulu hikmətin daim qələbə çalar,
Sonda məğlub edərsən şimşəktək çaxanları.

Ulu bərəkətinə ucalan baş ağrımaz,
Səninçin nə hökm var, nə qanun, nə məhkəmə,
Səni uca tutanın sinəsin dərd doğramaz,
Söylə uca xilqətim kömək olmadın kimə?

Sərt daşlardan hörülmüş elə bir qalasan ki,
Ən güclü tufan belə bir daşını qoparmaz,
Göylərdə fırtınalı küləklər əssə, sanki
Dəli-dolu yağışlar səni heç cür aparmaz.

Müqəddəs qanunların necə düz yazılıbdı,
Sənə xor baxanların üzü dünyada gülməz,
Öz əliylə məzarı dirikən qazılıbdı,
Qədrini bilməyənlər heç öz qədrini bilməz.

Sən dirilik suyusan, ölüm nədir qarşında,
Ey təbibim, dərmanın, dəvan necə şirindi.
Milyonlar qardaşlaşır yüksəliş yarışında,
Halal zəhmət, bu birlik, bu ucalıq sirindi.

Mən bütün qitələri dolaşsam diyar-diyar,
Görərəm ki, dünyada sənsən hakimi-mütləq,
Sənin abı-havadan oxay, deyib can doyar!
Sənə səcdə eyləmək canı olana mütləq!

Halal zəhmət, dünyada yalnız sənsən pənahım,
Başqa ümid evini tanımıram dünyada,
Yer üzünə gələndən varsa əgər günahım,
Əskik etmə başımdan, qibləgahım, dərd, qada.

Halal zəhmət, Şadiman ürəkdən sənə qurban,
Alçatmazsan başımı heç düşmənə, heç yada.
Yolundan çıxmışamsa, de kənarə bircə an,
Bundan sonra ömrümü gəl çəkinmə ver bada.

***20- 21.12.1985. Nasosnu***

## SƏNDƏN ÖTRÜ

Səndən ötrü dünyamız gözəlləşir, ey insan,
Mirvari şəlalələr zirvələrdən tökülür,
Bəxtəvər təbiətlə can dilləşir, ey insan,
Viranə ələmlərin bağrı-başı sökülür.

Səndən ötrü həyata sevdalı bahar gəlir,
Dünyanın qucağında səadətlər bəslənir,
Səndən ötrü sevginin altun səsi yüksəlir,
Cahanın başı üstə həqiqətlər bəslənir.

Bundan gözəl, duyğulu, söylə, nədir həyatda?!
Bülbültək cəh-cəh vurub bəmdən zilə qaçırsan,
Sənin öz ocağın var bu ucsuz kainatda,
Odur ki, yerdə, göydə quştək qanad açırsan.

***27.11.1985. Gəmidə***

## BƏXTİMƏ MƏKTUB

Dünən biz üz-üzə gəldik yenə də,
Sən xəzri bir külək, mən çiskin, duman.
Acı təəssüflə dolu sinədə
Qəm qalıb, ay məndən şadlıqlar uman.

Gizlincə baxırsan çiynində ilim,
O baxış, o gözlər nələr söyləyir?
Biganəliyinə lal olub dilim,
Kədərin günbəgün könlümə dəyir.

Əhdimə yetmişəm xəyallarımla,
Həsrətinsə saldı dərbədər məni.
Edirsən gileyi ahu-zarımla,
Bəxtiyar etməsən, kim edər məni?

Fələk belə yazmış yazımı mənim,
Sənin iztirabın əyib qəddimi.
Gəmimdən qopubdu həyat yelkənim,
Həsrətin uçurtdu sevgi qəddimi.

Belə giley-güzar niyə lazımdı?
Kimi xoşbəxt edər bu ahu-aman?
Bir mizrab həsrətli könül, sazımdı,
Elə hey inləyər, sızlar hər zaman.

Sənin vüsalına qovuşmaq çətin,
Niyə eşq üzəngin onda-bundadır?
Röyamda toy qurur pak səadətin,
Ötən ağrıların hələ candadır.

Sərincə mehlərə aldanan ürək,
Qorx ki, həyatında tufan çox olar,
Sökük evə qoyar çoxu min dirək,
Su axdığı yerə hey axıb dolar.

Ancaq nə faydası bütün bunların?
Tale öz günlərin axtarıb tapar,
Soyunar saatlar hicran donların,
Hər anın içindən bir ömür qopar.

***17.05.1985. Yasamal***

## ATAMA DİLƏKÇƏM

Nə mənə tənələr vurursan, ata?
Nə giley-güzarın böyükdür sənin?
Sanma ki, yük gəldim mən bu həyata,
Ram etmək olmayır həyatın çənin.

Qəfildən düşmüşəm xəstəxanaya,
Kim belə arzuda olar bir söylə?
Ürəyi salıbdı ağrılar vaya,
Gəl mənə ağrıyla bağlı sirr söylə.

Gəlib-gəlməyəli bu yer üzünə,
Özümlə min cürə ələm gətirdim,
Fəğanım ah olur dolur gözümə,
İnan gəncliyimi vaxtsız itirdim.

Qıymaram əhvalın qarışsın, vallah,
Üzündə gəzməsin kədərlər, qəmlər,
Qopmasın köksündən heç bir zaman ah,
Sənin varlığındır mənə aləmlər.

İnciklik gəzməsin üzündə, ata,
Bilirəm üstümdə əzabın çoxdur,
Yaşamaqçın gəldim mən bu həyata,
Əfsus qəmlərimin axırı yoxdur.

Könlümün həyanı bir sənsən ata,
Qurbandır bu xəstə ürəyim sənə,
Sonsuz ələmlərə mən bata-bata,
Qəm yemə, çataram arzuma yenə.

***17.08.1985. Xəstəxana***

## ÇƏTİNLİYƏ DÜŞƏNDƏ

Qəfil çətinliyə düşəndə ürək,
Geniş qollarını açırsan, ümid.
Pis gündə hamına min arxa, dirək,
Həmişə qabaqda qaçırsan, ümid.

Ən ağır faciə baş verən zaman,
Alanda başını qatı çən, duman,
Sevinc bəxş edərsən bizə bir ümman,
İdrakın göyündə uçursan, ümid.

Ən çətin məqamda gözlər dolanda,
Ürək bir haraya möhtac olanda,
İnsan yar-yoldaşdan ayrı qalanda,
Sən ona bağlı yol açırsan, ümid.

Uçruma gedəndə yolumuz oldun,
Çarpışa-çarpışa halımız oldun,
Bizimlə boşalıb, bizimlə doldun,
Günəştək atəşlər saçırsan, ümid.

***18.07.1986***

## OXUSUN XOŞBƏXTLİK

Oxusun xoşbəxtlik şən nəğməsini,
Çiçəyə aç desin, yaza gəl desin.
Səadət qaldırsın ərşə səsini,
Ürəyə qaç desin, naza gəl desin.

Həsrətli yollardan gözlər yığılsın,
Sevənlər bir-birin tapsın, arasın.
Başlardan hirslər, kinlər dağılsın,
Hər könül yiyəsi eşqlə yarısın.

Dəlitək sevənlər əl-ələ versin,
Diləklər şahintək qanadın çalsın.
Səadət bağından hamı bar dərsin,
Kədərlər özünü quyuya salsın.

Doğulan, həyata baxmasın yadtək,
Onun şirinliyin bal təki dadsın.
Dərdə güc verməsən nə eyləyər tək?!
Ona ağıl açan başından atsın.

Hər gələn dünyanı şadlığa büksün,
Qəmin əzabından qurtulsun ürək,
Gözlər şəfəq saçsın, dodaqlar gülsün,
Səadət evinə atılsın ürək.

***18.07.1985. Xəstəxana***

## QARALTMAYAQ BİR-BİRİNİN QANINI

Düşsün gülüş dodaqlara, dillərə,
Haray salsın zaman güdən illərə,
Yalnız çiçək qismət olsun əllərə,
Batırmayaq insanlıq ad-sanını,
Qaraltmayaq bir-birinin qanını.

Tülkü təki, hiyləyə can atmayaq,
Adımızı vara, şana satmayaq,
Onun, bunun kölgəsində yatmayaq,
Pak saxlayaq damarların qanını,
Qaraltmayaq bir-birinin qanını.

Görən gözdü, hökm verən ürəkdi,
Tez həyata keçirən əl zirəkdi,
Bircə ümid ömrə necə dirəkdi,
Yada salaq qoca, düşgün anını,
Qaraltmayaq bir-birinin qanını.

Gedənlərdən gələnlər çox dünyada,
Əskik olmaz can əhlindən qan, qada,
Sabahına günü vermə gəl bada,
Uca tutaq ömrün şirin canını,
Qaraltmayaq bir-birinin qanını.

Zalım ömür əldən gedir su kimi,
Yaxşı oba neylər loğman, həkimi,
Xoş danışıq başımıza sərkimi?
Deyək, dilim, kəsib durma yanını,
Qaraltmayaq bir-birinin qanını.

Xatırlayın bir günəşsiz havanı,
Göydə kimdir buludların qovanı?
Yol üstədir ömür sürür karvanı,
Dəyişməyək üzümüzün donunu,
Qaraltmayaq bir-birinin qanını.

Qayıtmayır bu dünyaydan gedənlər,
Ya yaxşılıq, ya da pislik edənlər,
Haqlı, haqsız sinə, bağır didənlər,
Həyat alıb yaşın neçə onunu,
Qaraltmayaq bir-birinin qanını.

Ey Şadiman, gözüm dolu kam allam,
Acı sözdən hey saralıb, hey sollam,
Kim deyər ki, bir də həyat, mən ollam,
Gözləməyək ömrümüzün sonunu,
Qaraltmayaq bir-birinin qanını.

***08.07.1986 Nasosnu***

## BELƏ YAZDI YAZIMI

Yaradanım ömrü verdi hey bada,
Tikələdi taleyimin sazını.
Çıxdı yalnız qismətimə dərd-qada,
Yazı yazan belə yazdı yazımı.

Başim üstə əsdi bəxtin küləyi,
Viran etdi mım-min arzu, diləyi,
Döyəclədi məni qəmin fələyi,
Yazı yazan belə yazdı yazımı.

Mən hər kimə üz tutdumsa, ağlatdı,
Bu çarəsiz sinəm için dağlatdı,
Bağlanmayan bəxt qapımı bağlatdı,
Yazı yazan belə yazdı yazımı.

Neylədim ki, bu vəfasız dünyaya,
Saldı məni üstbəüstdən ah-vaya,
Yolum üstə keçilməyən sərt qaya,
Yazı yazan belə yazdı yazımı.

Yaxınlarım mənə düşmən kəsildi,
Dadım yetən yerdən yolum kəsildi,
Ocaq çatdım, odum-közüm kəsildi,
Yazı yazan belə yazdı yazımı.

Haçan kimə bel bağladım, qan dedi,
Hicranlarla, həsrətlərlə yan dedi,
Ürək çılğın harayıma can dedi,
Yazı yazan belə yazdı yazımı.

Ümid etdim, niyə bacı, qardaşa?
Bir dərd imiş onlar yazıq bu başa,
Hara getdim, basdı məni qəm daşa,
Yazı yazan belə yazdı yazımı.

Canım qaldı təbib, loğman əlində,
Ömür keçdi bu nasaz can əlində,
Boğuluram acıların selində,
Yazı yazan belə yazdı yazımı.

***07.04.1989***

## QAÇ QURTAR

Bu dünyada qorumaqçın özünü,
Kələkbazın kələyindən qaç qurtar.
Çətinliklər qatlamasın dizini,
Dilbilməzin küləyindən qaç qurtar.

Çirkinliyi içəridən ararlar,
Çox hürilər ürəyini vurarlar,
Pünhan-pünhan sənə tələ qurarlar,
Bu dünyanın mələyindən qaç qurtar.

Zaman necə saat təki qurulub,
Hər ömürə bir tərəzi qurulub,
Şər əllərdə düzlüyə toy qurulub,
Zamanənin ələyindən qaç qurtar.

Çoxu durdu bu dünyanın üzünə,
Çox günahsız qanlar tökdü düzünə,
Xaliq özü pərdə çəkib üzünə,
Əzrayılın hənəyindən qaç qurtar.

Ey Şadiman, sinəndə nə həvəsdi?
Duyğularla necə nəfəs-nəfəsdi,
Ürəyimə sirli dünya qəfəsdi,
Hər havada diləyindən qaç qurtar.

***20.10.1989***

## ƏLDƏN GEDƏN CAVANLIĞIM

Əldən gedən cavanlığım,
Qayıt geri, sən hardasan?!
Od-atəşlə ünvanlığım,
Leysan, dolu, çən hardasan?!

Misqal-misqal gün üyütdün,
Sevinc alıb, qəmi ütdün,
Buxar təki yaman itdin,
Ürəyimlə tən hardasan?

Çəmənlərim bir-bir solur,
Uşaqlığım saçın yolur,
Demə mənə olan olur,
Saça düşür dən hardasan?!

Zarafatı buraxıb gəl,
Sellər təki coş axıb gəl,
Bənd-bərəni dur yıxıb gəl,
Təşnəndəyəm mən, hardasan?!

***18.07.1086***

## ANA LAYLASI

Körpə gözlərinə sığal çəkərsən,
Üstünə bir aləm yuxu tökərsən,
Çağa dünyasında quştək səkərsən,
Qadınlığın adı, ana laylası,
Analığın dadı, ana laylası.

Ən həzin bir səslə çağlarsan hər gün,
Kədərin yolunu bağlarsan hər gün,
Segahın özünü bağlarsan hər gün,
Ən zərif duyğulu, ana laylası,
Şipşirin uyğulu, ana laylası.

Həzin sədaların altında yatan,
Sehirli dəryanın selində batan,
Səsinlə ucalıb, artıb boy atan,
Heç nisgil bilərmi, ana laylası?
Sənsiz göz gülərmi, ana laylası?

Qoy səsin yayılsın obaya, elə,
Dolasan ürəyə, dolasan dilə,

Körpə göz yaşını harayın silə,
Sənsiz ah, amandır, ana laylası,
Can sızlar kamandır, ana laylası.

Uç, uç səmalarda dolaş yer üzün,
Bitib tükənməsin laylalı sözün,
Ələnir qəlblərə hey odun, közün,
Şad hayın, harayın, ana laylası,
Qur könül sarayın, ana laylası.

Ey gözəl bəstəkar, ey şair qadın,
Şirin bayatıyla süslənir adın,
Misradan-misraya çağlar övladın,
Söylə sehirmisən, ana laylası?
İstək mehirmisən, ana laylası?

De bir nə hikmətdir ulu səsində,
Bir dastan, bayatı var nəfəsində,
Odlu duyğuların təntənəsində,
Xoş şaqraq avazsan, ana laylası,
Ətirli bir yazsan, ana laylası.

Sənin harayından günəş alışar,
Dolmuş buludlardan göylər barışar,
Səsinə fələyin səsi qarışar,
Titrət vücudumu, ana laylası?
Bu könül udumu, ana laylası.

Söylə bu «Zabul»mu, ya da «Şikəstə»?
Gah zildə gedirsən, gah da kı pəstə,
Gəl məndən Muğamı növbənöv istə,
Birləşək gur səslə ana laylası,
Bir yeni həvəslə, ana laylası.

Mənim çeşmələrtək sinəm qaynayır,
Dadlı duyğularla çalıb oynayır,
Səni can içində tutyatək sayır,
Gir coşan könlümə ana laylası,
Ona dəli demə, ana laylası.

***12.07.1986. Nasosnu***

## İNTİZAR İÇİNDƏ

İntizar içində qalan gözləri,
Hicran küləkləri mehə çəkməsin,
Yollar ayrıcında dolan gözləri,
Gecələr çiskinə, şehə çəkməsin.

Ağrılar gəzməsin ürəkdə nalan,
Arzular könüldə çiçəktək açsın,
Əhdinə, sözünə, özünə yalan,
İzinə çıxmasın, izindən qaçsın.

Qəfil əhvalına duman çökəndə,
Əssin həyat mehi, alıb aparsın,
Qəmlərin içində can görünəndə,
Tezcə səadəti qəmdən qoparsın.

Halından xəbərsiz qalanlar bilir,
Girəndə həyəcan qəfil köksünə,
Dərdiylə qol-boyun olanlar bilir,
Ona da çox dözə bilməyir sinə.

Həyat tufanları gəzməsin qapı,
Ona yer verənə könlünü açır,
Tənhalıq içində bezməsin qapı,
O da təkliyə yox, hay-küyə qaçır.

Rəhm etsin Yaradan varsa da səhvlər,
Nöqsansız bir adam tapılarmı heç?
Səhvlərin içindən doğulur əfvlər...
Açara düşməyən qapılarmı heç?

***18.07.1985 Yasamal***

## MƏNƏM, MƏN

Gecə-gündüz pünhan-pünhan alışan,
Sinəsində fəğan, fəryad mənəm, mən.
Cismi-canı haqq evinə qarışan,
Zamanından uman imdad mənəm, mən.

İçindəki ağrıları sovuşmaz,
Ürəyi də hər ürəyə yovuşmaz,
Qərib düşmüş diləklərə qovuşmaz,
Gecə-gündüz eyləyən dad mənəm, mən.

Nalələri zilə qalxan kamanam,
Arzuları tükənməyən ümmanam,
Endirməyin, dağ başında dumanam,
Can dediyim canıma yad mənəm, mən.

Bitişməyir sinəmdəki yaralar,
Zaman qəlbi üstbəüstdən yaralar,
Sevgim, eşqim cılızlıqdan saralar,
Eşqə sadiq, könlü abad mənəm, mən.

İstəkləri dəryaları tutmayan,
Duyğuları gecə-gündüz yatmayan,
Neçə-neçə amallara çatmayan,
Bəxti dönük, qəlbi bərbad mənəm, mən.

Ey Şadiman anlamaq da bir dərddi,
Ömür gedir, xəstə ürək namərddi,
Hər əzaba dözənlər nə cömərddi,
Dili bağlı, dərdi azad mənəm, mən.

***21.08.1989***

## ALDATMA

Vəfasızın vəfasıyla əylənib,
Yaş üstünə gələn yaşı aldatma.
Gecə-gündüz qarasına söylənib,
Ürəyinə olma naşı, aldatma.

Dastan olub söylətmə heç elləri,
Hər bədxahçın yelə vermə illəri,
Söz-sovunla coşdurma gəl dilləri,
Gözlərindən töküb yaşı aldatma.

Zaman səni sınaqlarla yoxlayar,
Yerli-yersiz sinə için oxlayar,
Sədəlövhü düz yolundan saxlayar,
Yorğun könlü, yorğun başı aldatma.

Ey Şadiman, sanma boşa taleyi,
Demə hər gün dəydi daşa taleyi,
Ömür özü tikir yaşa taleyi,
Bəxt yoluna atıb daşı, aldatma.

***19.10.1989***

## AÇILMAZ

Müddətdi bağlanıb bəxtimin yolu,
Yığıla min mahal gələ, açılmaz.
Yağdırır başıma dərd leysan, dolu,
Əğyar yaman qurub, tələ açılmaz.

Düyünə düşübdü bu ömrüm, günüm,
Mən belə taleylə necə öyünüm?
Yetə fəzalara harayım, ünüm
Bəxtimin sinəsin dələ, açılmaz.

Duman örpəyini çəkib üstümə,
Yandım, ocaq güldü göynək tüstümə,
Öz bəxtim, ürəyim durub qəsdimə,
Başım bəlalardan hələ açılmaz.

İlahi, əzabmış dünyaya gəlmək,
Gəl indi taleyin qəm yükünü çək,
Ömrün bağçasında bəxtin gülün ək,
Sən nə qədər bəslə belə, açılmaz.

***18.10.1989***

## HƏYATDIR

Nemətləri, sərvətləri itməyir,
Arzuları tükənməyir, bitməyir,
Bir anı da hədər yerə getməyir,
Aqillərə, qorxmazlara qanaddır,
Endirən də, qaldıran da həyatdır.

Gedənləri yola salır dözümlə,
Sınaqlardan çox çıxıbdı əzimlə,
O xaliqdir saç ağardır bizimlə,
Biz şagirdik, o müqəddəs ustaddır,
Canlıların qibləgahı həyatdır.

Bəxtəvərdir, firavandır, gözəldir,
O hakimdir, əyriliyi düzəldir,
Hər taleyə oxunacaq qəzəldir,
Ta əzəldən təbiətə övladdır,
Milyonların səcdəgahı həyatdır.

İdrakları, ürəkləri yoxlayır,
Tələsəni yolundaca saxlayır,
Nadanları, namərdləri oxlayır,
Ölçüsiylə, çəkisiylə azaddır,
Sinələrə loğman olan həyatdır.

Nə çəkinməz, nə yaşınmaz, nə daşmaz.
Loğvalanmaz, qürrələnməz, hədd aşmaz,
Mənəmliklə qamarlamaz, sədd aşmaz,
Çirkinlərə, naqislərə o yaddır,
Gahdan şirin, gahdan acı həyatdır.

Büdrəməyən, yıxılmayan, coşmayan,
Məcrasına sığmasa da daşmayan,
Aqil təki zirvələri aşmayan,
Şan-şöhrəti dünya tutmaz büsatdır,
Can verən də, can alan da həyatdır.

Doymaq olmur ömür boyu özündən,
Müdriklərə işıq verir gözündən,
Heç olarmı çıxmaq onun sözündən?
O ki, hər bir addımında səyyaddır,
Sərrast atan, sərrast vuran həyatdır.

Göz açandan hey çarpışdıq, vuruşduq,
Sərvət üstə bir-biriylə yarışdıq,
Pak qədərin yazısıyla barışdıq,
Ucaldan da o ləzətdir, o daddır,
Vaxtlı vaxtsız qocaldan da həyatdır.

Uşaqlıqdan doymaq olmur dadından,
Heç nə çıxmaz yaddaşından, yadından,
Qocalanda isinərsən odundan,
Beyinlərdən silinməyən xoş addır,
Qəbul edən, yola salan həyatdır.

Gücdən düşməz, yorulmazdır qolları,
Satılandır, satılmazdır malları,
Kimə bağlı, kimə açıq yolları,
Qanunları gah təzə, gah bayatdır,
Güldürən də, ağladan da həyatdır.

Yola salıb saf, hiyləgər üzləri,
Çox görübdü qəmli, qəmsiz gözləri,
Yorulmazdır, bükülməzdir düzləri,
O atəşdir, o alovdur, o oddur,
İsidən də, donduran da həyatdır.

Heç bir kimsə baş çıxarmaz işindən,
Süd əmibdir nadan, aqil döşündən,
Çox canları keçiribdi dişindən,
Qanunları yorulmayan qıratdır,
Yerin, göyün tək Allahı həyatdır.

***14-15.06.1986***

## MƏNİ TƏKLİYƏ ATDIN

Doxsan üçüncü ilin son gecəsi, son anı,
Dəqiqələr ovlayır tələsən bu zamanı.

Dolaşır sükutların içində ev-eşiyim,
Yenə də duyğularla çarpışır ev beşiyim.

Sarılıb qələmimə yazıram qəmli-qəmli,
Könlüm, hissim, taleyim sitəmlərdən ələmli.

Tənha gecəmin özü sükutlara əsirdi,
Məni təkliyə atdın, İlahi, bu nə sirdi?!

***31.12.1993. Pirallahı***

## YAŞAMAQ İSTƏYİRƏM

Baxdıqca doymur gözüm bu hüdudsuz göylərdən,
Deyin segah ucalsın kamanlardan, neylərdən,
Uzağam şikayətlərdən, uzağam gileylərdən,
Nahayətsiz düzlərdə yaşamaq istəyirəm,
Təbəssümlü üzlərdə yaşamaq istəyirəm.

Dolaşmaq istəyirəm bu əngin səmaları,
Mən qucmaq istəyirəm zirvədə bumbuz qarı,
Dünyanın dərdi-sərin bölərək hər gün yarı,
Bulaqtək şəffaf gözlə yaşamaq istəyirəm,
Təmiz müqəddəs sözlə yaşamaq istəyirəm.

Düzlük görmək istərəm hər qəlbdə, hər ürəkdə,
Qoy coşsun istəyirsə, güclü əssin külək də,
Görməyib bir sinədə nə bir fitnə, kələk də,
Qərarlı sinələrdə yaşamaq istəyirəm,
Pak, sadə binələrdə yaşamaq istəyirəm.

Son olaydı dünyada hər ağrı-acılara,
İnsaf, mürvət qonaydı bərbəzəkli taclara,
Şərik olaraq hər gün köməyə möhtaclara,
Bu ucsuz nəhrlərdə yaşamaq istəyirəm,
Ən təzə bəhrlərdə yaşamaq istəyirəm.

Yandıraraq, yaxaraq ən çirkin niyyətləri,
Adlayaraq, keçərək ən uzaq sərhədləri,
İdrakımla yararaq topdağıtmaz sədləri,
Yıxılana əl tutub yaşamaq istəyirəm,
Həyatın nəbzin tutub yaşamaq istəyirəm.

Ucalmaq istəyirəm kamiliyin bağında,
Öz evi, dili olsun hər kiçik torpağın da,
Dağtək vüqarı olmaz bir qartalsız dağın da,
Ağlın sükanı ilə yaşamaq istəyirəm,
Hissin təkanı ilə yaşamaq istəyirəm.

Sinəm içi sahilsiz bir ummana bənzəyir,
Fikrim, duyğum sürətli bu zamana bənzəyir,
Qərarsız düşüncələr lap gümana bənzəyir,
Bənzərsiz diləklərdə yaşamaq istəyirəm,
Ağrılı ürəklərdə yaşamaq istəyirəm.

Kaş düzgün atılaydı dünyada hər bir addım,
Səadət dolaşaydı dünyanı addım-addım,
Yalan deməsin bizə mən ki, sizi aldatdım...
Təmizlik havasıyla yaşamaq istəyirəm,
İlahi duasıyla yaşamaq istəyirəm.

Ürəyə qonmayan söz heç gəlməyəydi dilə,
Dünyam qanad açaydı yalnız təmizlik ilə,
Qapılar əl açmasın nə açara, nə dilə,
Düzlüyün qucağında yaşamaq istəyirəm,
Odunda, ocağında yaşamaq istəyirəm.

Şərikəm pak qayəmlə hər əməlin düzünə,
Hər kəs yerin tapaydı, vallah düzü-düzünə,
Pərdə çəkilməyəydi namərdliyin üzünə,
Şüurun hikmətiylə yaşamaq istəyirəm,
Həyatı bilə-bilə yaşamaq istəyirəm.

Bir şirin gülüş olub qonardım dodaqlara,
Qışda yarpaq olardım çılçılpaq budaqlara,
Bir yaşıl yamac təki sarılaraq dağlara,
Təbiətin köksündə yaşamaq istəyirəm,
Duyğunun öz əksində yaşamaq istəyirəm.

Mən zirvə axtarmıram layiqsiz ucalmağa,
Tələsmirəm hər kiçik məramdan bac almağa,
Mən qocalıq demirəm məqsədsiz qocalmağa,
Saf, müqəddəs amalla yaşamaq istəyirəm,
Pak idrakla, kamalla yaşamaq istəyirəm.

Sahib olmaq istərəm neyə layiqəm ona,
Geyim kimi baxmadım yaraşmayan bir dona,
Sənin sorağındayam, ey düzlük yana-yana,
Sənin bayrağın altda yaşamaq istəyirəm,
Bu müqəddəs məramı daşımaq istəyirəm.

Ehtiyacı olanın pasibanı olaraq,
Duyğusuz sinələrə xoş məramla dolaraq,
Təsəlliyə möhtacın boynuna qol salaraq,
Yaxşı-yaman dəmində yaşamaq istəyirəm,
Sevincində, qəmində yaşamaq istəyirəm.

Addım-addım gəzərək daşımı, torpağımı,
Gen bağrıma basaraq aranımı, dağımı,
Nəgmələrə çevirib acı-şirin çağımı,
Yurdun od-ocağında yaşamaq istəyirəm,
Pak isti qucağında yaşamaq istəyirəm.

İlhamımın evində yanıram xoş avazla,
İlimiz, ay, günümüz yarışa girib yazla,
Od-atəş övladıyam köklənmişəm ud-sazla,
Bir narahat ürəklə yaşamaq istəyirəm,
Xoş məramla, diləklə yaşamaq istəyirəm.

Mən günəşdən də qabaq oyanmaq istəyirəm,
Dünyanın dərdlərinə boyanmaq istəyirəm,
Ünyetməz fəza üstə dayanmaq istəyirəm,
Bax belə çarpışmada yaşamaq istəyirəm,
Qayəmlə yarışmada yaşamaq istəyirəm.

***21.01.1986***

# TALEYİN KÜLƏKLƏRİ

## TALEYƏ ŞİKAYƏT

Tale necə salıb dərbədər məni,
Qoyub öz gününə qəm, kədər məni,
Tuş edib cəfaya lap qədər məni,
Bu nə müsibətdir, bu nə fəğandır?
Ey dəli taleyim, məndən uzaq dur.

Daha dözümüm yox, ürək ağlayır,
Ulu şadlığımın yolun bağlayır
Sitəmin, zülümün köksü dağlayır,
Bu necə zamandır, bu necə andır?
Ey dəli taleyim, məndən uzaq dur.

Könlüm həzər edir sənin əlindən,
Bir xeyir görmədim heç qələmindən,
Doymuşam mən daha dərd, ələmindən,
Sönmüş ocağımı yenidən yandır,
Ey dəli taleyim, məndən uzaq dur.

Gözümü açandan min ağrı, əzab,
Ürək dözmür daha, can eyləmir tab,
Son dəfə edirəm mən sənə xitab,
Bu necə savaşdır, bu necə qandır?
Ey dəli taleyim, məndən uzaq dur.

Nə qədər qarışıq ömrün günləri,
Açan olacaqmı bu düyünləri?!
Ürəyin sədası, qəlbin ünləri,
Açan sabahımdan verən nişandır,
Ey dəli taleyim, məndən uzaq dur.

Mənim səbrim çoxdur, gözlərəm sonu,
Hər yerdə, hər zaman izlərəm sonu,
Geydirdin əynimə həsrətdən donu,
Alışan ürəkdir, ağrıyan candır,
Ey dəli taleyim, məndən uzaq dur.

Şadiman acıya satdı dözümü,
Yorulub ayaqdan düşüb əzimi,
Min bir ağrıların büküb dizimi,
Nədir etdiklərin bir mənə qandır,
Ey dəli taleyim, məndən uzaq dur.

***28.07.1985. Xəstəxana***

## ÜRƏYƏ MƏSLƏHƏT

Çırpınma, sızlama hər səsə, ünə,
Ey könül, qəmləri az yığ köksünə.
Böyük şadlıqla bax hər gələn günə,
Yolunun üstündə əzablar vardır,
Neyləsən də ürək ağrıya yardır.

Əfsus sənin eşqin, məhəbbətin bol,
Sinənə sevgidən çəkilibdi yol,
Nə qədər özünlə mərəkədə ol,
Yenə də acılar yanan canladır.
Həyat əvvəlinlə, həm sonunladır.

Ağlama, ürəyim, fərəhlə çağla,
Ümidini yenə taleyə bağla,
Sən allah, qəmlərin köksünü dağla,
Onsuz o hər yerdə səni izləyir,
Özü öz eşqini səndən gizləyir.

Yaşa məhəbbətlə, vur ömrü başa,
Dəyməsin nə arzu, nə əməl daşa,
Qəfil diləklərin çıxsa da boşa,
Təbinlə, eşqinlə, amalınla coş,
Məhəbbətə yeni, pak nəğmələr qoş.

Şadimanın köksün ağrıtma daha,
Dərdlər bu ürəyə çox gəlir baha,
Son qoy könüldəki naləyə, aha,
Firavan gəncliklə gün keçir bir az,
Al köksün üstünə sevincdən bir saz.

***24.07.1985. Xəstəxana***

## HƏYAT HAQQINDA NƏĞMƏM

Həyat, ucadan-uca.
Kim deyib sənə qoca?
Bölündün toxa-aca,
Suyun gah şirin-acı,
Aqil başların tacı.

Ölüm kəsəndə yolu,
Yağanda ömrə dolu,
Gücdən salarsan qolu,
Düşərsən dildən-dilə,
Qonarsan güldən-gülə.

Bir ürəyin pak yazı,
Birinin sınıq sazı,
Ömrə rəngarəng yazı,
Həyat taleyə açar,
Hey bağdan-bağa uçar.

Çox başlar çəkdi nələr,
Ömrü ələklə ələr,
Yolunda ürək mələr,
Birinə bəxt gur işıq,
Birinə qaşıq-qaşıq.

Həyat, hardan od-ocaq?
Qəm-şadlıq qucaq-qucaq,
Biri baş, biri bucaq,
Həyat, dərindən-dərin
Qutarmaz dərdi-sərin.

Yarıyanlara gözəl,
Yarımazlara gözəl,
Bizə yaxınsan əzəl,
Suyundan içən çoxdur,
Razı qalanı yoxdur.

Bol çəmənlərin qaynar,
Başın de nə vaxt aynar,
Kim ki, yerindən oynar,
Həyat, sən ona dərdsən,
Sən ki, həmişə mərdsən.

Qurubsan əcəb bardaş,
Gəlib gedənə qardaş,
Yolunda ağır bir daş,
Götürənin çağlayır,
Götürməyən ağlayır.

Min sirlə dolu qəlbin,
Vardır ilhamın, təbin,
Dərdlərə dərman həbin,
Kəşf olunmamış sirsən,
Minə, milyona birsən.

Həyat, möhlətin çoxdur,
Sənin ki, gözün toxdur,
Hayına qalan yoxdur,
Sağalmaz dərdə dəva,
Ay, su, pak torpaq, hava.

Həyat – gülüstan, gülşən,
Qəlbi ram edər nəş'ən,
Ovsunlamaqdır peşən,
Ey min-min insan baxtı,
Qurmusan uca taxtı.

***06.06.1986. Tağay***

## HƏRDƏMXƏYAL

Ürək atəşlərə bir dəfə yanar,
Bir dəfə alova, oda qalanar,
Məhəbbətli könül birini anar,
Bu sevgi deyildir, ay hərdəmxəyal,
Sadəcə meyildir, ay hərdəmxəyal.

Məhəbbət səninçin dəbdir deyəsən,
Hər fəsilə uyğun paltar geyəsən,
Dadlı yeməklərmi yoxsa yeyəsən?
Bir sönməz diləkdir, ay hərdəmxəyal,
Mənzili ürəkdir, ay hərdəmxəyal.

Onun öz qanunu, öz hökümü var,
Qədirbilməzləri evindən qovar,
Nadanın qəlbini hey satar, sovar,
Rüsvay-cahan edər, ay hərdəmxəyal,
Varlığını didər, ay hərdəmxəyal.

Yüngül bir hiss kimi baxma sevgiyə,
Eşqi anlamadın eşq deyə-deyə,
Min sevda salasan ürəyə niyə?
Hamsı da baş olsun, ay hərdəmxəyal,
Ömrü, günü solsun, ay hərdəmxəyal.

Musiqi deyil ki, düymə basasan,
Cürbəcür nəğməyə qulaq asasan,
Olmayır ürəyin sevdası asan,
O çağlar bulaqdır, ay hərdəmxəyal,
Duymayan qonaqdır, ay hərdəmxəyal.

Ürəkdə bir dəfə saf sevgi olar,
Coşqun sellər təki hey axıb dolar,
Qədrini bilməsən saralıb solar,
Eşqə bir dəfə uy, ay hərdəmxəyal,
Saf varlığınla duy, ay hərdəmxəyal.

Sevənin sinəsi onsuz da qəmdir,
Vrlıqda çağlayan bir ağlar dəmdir,
Sevinclər, şadlıqlar ürəkdən kəmdir,
Gəl onu ağlatma, ay hərdəmxəyal,
Yolların bağlatma, ay hərdəmxəyal.

***05.08.1985. Xəstəxana***

## PAYIZLARIM BELƏ BAŞLAR

Ürək bəxti sora-sora,
Həsrət qəlbi salar tora,
Qarışanda yenə ara,
Gözlər tökər acı yaşlar,
Payızlarım belə başlar.

Bir mərhəmət umar gözlər,
Qəlb ağrıdar acı sözlər,
O keçdiyim cığır, izlər,
Köksə vurar qara daşlar,
Payızlarım belə başlar.

Ürəyimə ağrı dolar,
Göylərini bulud alar,
Qəm üstümə kölgə salar,
Hey çatılar dərdə qaşlar,
Payızlarım belə başlar.

Yanan qəlbin odu sönər,
Yol-irizdən günüm dönər,
Karvan-karvan dərdlər enər,
Ağırlaşar qəmli başlar,
Payızlarım belə başlar.

Tufanlarla açar səhər,
Duyğularım olar zəhər,
Gün keçirər qəlb bir təhər,
Tale mənə bunu aşlar,
Payızlarım belə başlar.

Ürəyimdə eşqin odu,
Pak sevginin təmiz adı,
Gözüm arar yaxın-yadı,
Cana yovuq yox sirdaşlar,
Payızlarım belə başlar.

***05.08.1985. Xəstəxana***

## BU YOLLARIN GƏLƏNİ YOX

Hey uzanıb yollar gedir,
Ürəyimdə həsrəti çox.
Tənhalıqlar lap hökm edir,
Bu yolların gələni yox.

Xəyallarım yolun açır,
Ruhum, hissim quştək uçur,
Gözlərimdən yuxum qaçır,
Bu yolların gələni yox.

Gedib-gələn necə oldu,
Məram, arzu becə oldu,
Axşam düşdü, gecə oldu,
Bu yolların gələni yox.

Neçə kərə çıxdım yola,
Dedim, bəlkə gələn ola,
Gözlər qaldı dola-dola,
Bu yolların gələni yox.

Nə çətinmiş vaxt izləmək,
Ümidləri əzizləmək,
Pəncərədən yol gözləmək,
Bu yolların gələni yox.

Ürək dolur, dərd baş alır,
Qəmi könlə sirdaş alır,
Gözlərimi qan-yaş alır,
Bu yolların gələni yox.

Həsrət hücum çəkir mənə,
Qəm acığın tökür mənə,
Qaranlıqlar çökür mənə,
Bu yolların gələni yox.

Ümid başın alıb gedir,
Duyğularım özün didir,
Həsrətlərim bayram edir,
Bu yolların gələni yox.

Sübhün gözü açılıbdı,
Zülmətləri qaçılıbdı,
Göydə şəfəq saçılıbdı,
Bu yolların gələni yox.

Həsrət bağım saçır ətir,
Duyğum, eşqim gözdən itir,
Günüm keçir, ömür bitir,
Bu yolların gələni yox.

***05.08.1985. Xəstəxana***

## ÇƏTİN GÜNDƏ YAMAN-YAXŞI SINANAR

Yaxşı gündə dostlar gəlib cəm olar,
Ürəyindən dərdin, qəmin kəm olar,
Kef damağın başdan-başa dəm olar,
Düşünərsən səndən xoşbəxt yoxdu heç,
Oğulsansa, bu illərdən qəmsiz keç.

Başın üstün qəfildən dərd alanda,
Ömrə neçə ələm kölgə salanda,
Pünhan-pünhan mərəz qəlbə dolanda,
De sailəm, yıxılmışam, gəl ey dost,
Yataqdayam, indi söylə mənə tost.

Yaxşı günüm onsuz mənə yaxşıdır,
Dost-tanışın yığın-yığın axşıdır,
Əsl kəsin yaman günə baxşıdır...
Onda bil ki, adamın var, elin var,
Bülbül kimi ötən tuti dilin var.

Eniş-yoxuş olmayan bir yol varmı?
Gücdən düşməz söylə bir əl, qol varmı?
Dost-düşmənsiz heç sağ varmı, sol varmı?
Çətin gündə yaman-yaxşı sınanar,
Şüurunda çox mətləblər qınanar.

Ələm səni girdabına salanda,
Bağrın-başın xəstəliklər alanda,
Tənhalıqdan qəfil gözün dolanda,
Onda gör ki, gəlib-gedən varmı heç?
Qohum, yadı onda yoxla, onda seç.

Şadimanın köksüm dolu, yox aram,
Üzə gülən, sənin ilə yox aram,
Təmiz qəlbli, səni gəzim, mən aram,
Bu duyğudur, bu istəkdir, diləkdir,
Pak yolunda qurban olan ürəkdir.

***20.07.1985. Xəstəxana***

## AY KÖNÜL

Yenə dolub kükrəyirsən, coşursan,
Bircə anda min bir dağı aşırsan,
Taleyimə nədir, nəğmə qoşursan?
Susmaz dilə qurban olum, ay könül,
Səma təki qoyma dolum, ay könül.

Pak qəlbimdə şimşəkləri gəl çaxdır,
Bu qəlbimi od-atəşlə vur, yaxdır,
Doldur şadlıq badəsini, dur, vaxtdır,
Nəş'ələnək bir doyunca, ay könül,
Belə fürsət olmaz bunca, ay könül.

Cuşə gəlsin yenə bu hiss, həyəcan,
İnciməsin zehn, şüur, nə də can,
Fasiləsiz vursun nəbzin, coşsun qan,
Yanaq eşqin ədasından, ay könül,
Bu ürəyin sədasından, ay könül.

Bir sevgim var, çeşməsində suyu bol,
Bu bulağa çəkmişəm bir cığır-yol,
İstəyirsən sən də ora qonaq ol,
Məhəbbətlə tut əl-ələ, ay könül,
Düşsün altun sevda dilə, ay könül.

Gah şadlanan, gah qəmlənən gözüm var,
Deyilməyən neçə-neçə sözüm var,
Ürəyimdə ağrı dolu dözüm var,
Gəl ellərə nəğmə qoşaq, ay könül,
Keçilməzlər, sədlər aşaq, ay könül.

Ələmindən, qəmindən yox dünyada,
Dönmüşəm mən ov itirən səyyada,
Nə müddətdi tor qurmuşam qayada,
Əldən gedən gənclik üçün, ay könül,
Ağlar gözüm için-için, ay könül.

Bulanıqdır taleyimin selləri,
Solduracaq bəxt bağında gülləri,
Gedir bir-bir qızıl ömrün illəri,
Bu qanundur neyləyəsən, ay könül?
Nə şikayət eyləyəsən, ay könül?!

Tellərimi bəxt küləyi darayır,
Bircə anım güntək mənə yarayır,
Şadimanın səadəti arayır...
Gəl onunla qol-boyun ol, ay könül,
Onla gedək bir sonsuz yol, ay könül.

***26.07.1985. Xəstəxana***

## BU YOLLAR NƏ SÖYLƏR MƏNƏ

Mən yollara baxdıqca hey,
Oxuyuram ondan giley,
Elə bil ki, sınıq bir ney,
Şikayətin eylər mənə,
Bu yollar nə söylər mənə.

Tunc əsrlər arxasından,
Öz elindən, arxasından,
Sökülməmiş hələ heç dan,
Xısın-xısın pıçıldayar,
Keçmişini bir-bir sayar.

Neçə karvan yola salan,
Hər yolçudan bir bac alan,
Koroğluya demib yalan,
Başı min bir cəfalıdır,
Yollar necə vəfalıdır.

Cavanşirlər, ər Babəklər,
Əsdirib çox can küləklər,
Bacarmayıb heç fələklər,
Yox eyləyib sirli yollar,
Neçə milyon başlar, qollar.

Çox igidlər, çox ərənlər,
Bu yollarda köç sərənlər,
Acı-şirin gün görənlər,
Sirindən baş açmaz onun,
Hələ bilən yoxdur sonun.

Ulu ozan Dədəm Qorqud,
Yol üstündə çaldı çox ud,
Oğullara deyib qan ud,
Nahaq qarğış tökmün düzə,
Qan ağlatmın cığır, izə.

Bu yolların dərdi böyük,
Hey çəkibdi çox ağır yük,
Əskik olmaz başından tük,
Çox qərinə yola salıb,
Neçəsi də hələ qalıb.

Yanıq Kərəm düşüb yola,
Bağrı qanla dola-dola,
Xəzan təki sola-sola,
Xan Əslini haraylayıb,
Yollar səsin ərşə yayıb.

Eşq şərbətin Şirin içib,
Bu yollardan gəlib keçib,
Yad ellərdə həmdəm seçib,
Yana-yana nalə çəkib,
Göz yaşını yola töküb.

Çox Napolyon, Hitler gəlib,
Bu yolların bağrın dəlib,
Səs-küyləri çox yüksəlib,
Boşa çıxıb fəsad işi,
Hara gedib başı, leşi?!

Neçə milyon qansız yağı,
Çəkib yola sinə dağı,
İgid aşiq qürub çağı,
Bu yollarda yar səsləyib,
Eşqə dastan, boy bəsləyib.

Bu yollarda dərya ağıl,
Hər günü bir, sanki nağıl,
Bir sən su ol yola dağıl,
Gör nə hikmət sinəsində,
«Yetim segah» var səsində.

Oğlu itgin düşən ana,
Düşüb yola yana-yana,
Bir il olub bir an ona,
Saçın yolub fəryad edib,
Dırnaq ilə köksün didib.

Vətənsizə Vətən olub,
Qərib, yurdsuz ötən olub,
Çox xaqanlar itən olub,
Bu yolların keçmişində,
Dadı qalıb dil-dişində.

Oxunmazdır sirr dünyası,
Min bir namərd qurub yası,
Dağılmazdır yurd-yuvası,
Bu ellərin əli ilə,
Səs-sədası düşüb dilə.

Karvan-karvan duman keçər,
İl dolanar, zaman keçər,
Milyon yaxşı, yaman keçər,
Sinəsindən dönə-dönə,
Yollar nağıl söylər mənə.

Mən yollara baxdıqca hey,
Oxuyuram acı giley,
Elə bil ki, sınıq bir ney,
Şikayətin eylər mənə,
Yollar nələr söylər mənə?!..

***27.07.1985. Xəstəxana***

## ÜRƏYİMİN HƏSRƏTİ VAR

Nə vaxtdır ki, yenə dolur,
Gah saralır, gah da solur.
Bə'zən ələm, kədər olur,
Başlayıbdır çovğunlu qar,
Ürəyimin həsrəti var.

Sadəlövhlik düşmən mənə,
Hicran verdi dönə-dönə,
Günlər bir-bir sönə-sönə,
Çıxdı getdi necə uzaq,
Ürəyimin həsrəti var.

Ayrılıqdan nalə çəkdi,
Yenə tənha, yenə təkdi,
Qəfil güclü bir küləkdi,
Gecə-gündüz edər ah-zar,
Ürəyimin həsrəti var.

Çılğın-çılğın hey coşacaq,
Çox qaynayıb, çox daşacaq,
Neçə milyon dərd aşacaq,
Yanacaqdır yaxşı nə var,
Ürəyimin həsrəti var.

Şikayətin eyləyəcək,
Dastan təki söyləyəcək,
Çarəsinə, neyləyəcək?
Şadimana dərd qış-bahar,
Ürəyimin həsrəti var.

***27.07.1985. Xəstəxana***

## ALƏMİ VAR TALEYİN

Hey dolaşar fəsilləri qış, bahar,
Sirli-sirli aləmi var taleyin.
Hər günə öz qanunu axşam-nahar,
Gah sevinci, gah qəmi var taleyin.

Yollarında eniş də çox, yoxuş da,
Qəlb ağrıdan, ürək üzən baxış da,
İllər vurub neçə çalar, naxış da,
Əzəl toyu, yas dəmi var taleyin.

Yorulanda, kəsiləndə amanı,
Başın üstün alar kədər dumanı,
Hesabında arar yaxşı-yamanı,
Acı-şirin bir təmi var taleyin.

Düşündürür, qəlb oxşayır səs-ünü,
Varaq-varaq bir dastandır hər günü,
Çalışsan da açılmazdır düyünü...
Qurumayan göz nəmi var taleyin.

Hekayəti gah zəhərdir, gah acı,
Hey bərq vurur zirvəsində baş tacı,
Göylərində min cür sevgi turacı,
Eşqə yanan Kərəmi var taleyin.

Hey çırpınar çılğın xəyal-fikirlə,
Duyğuları çıraq olar ay, illə,
Azı-çoxu heç gətirməz o dilə,
Gah artığı, gah kəmi var taleyin.

Çəkisində nə artırar, nə kəsməz,
Külək təki o hər səmtə heç əsməz,
Nə qanunda, nə qaydada tələsməz,
Hər işinin bir çəmi var taleyin.

Bir dəryadır, zümrüd suyu qurumaz,
Sədəfində mirvarisi yarımaz,
Tufan, boran deyə-deyə heç durmaz,
Dəryasında sərt gəmi var taleyin.

Fəlsəfəsi oxunmayıb heç hələ,
Gəl sən onun sorğusundan keç hələ,
Həyat sazı bəstələmib bax belə,
Kök üstündə «Dilqəmi» var taleyin.

Yazar-pozar ömrün saysız ilini,
İşə salar acı-şirin dilini,
Şirin yormaz heç boş yerə əlini,
Necə duzlu qələmi var taleyin...?

***26.07.1985. Xəstəxana.***

## ATAM QOCALIR

Mənə deməyin ki, atan qocalır,
Yaxını-uzağı seçə bilməyir.
Əzəlki yerişdən-yürüşdən qalıb,
Keçdiyi körpünü keçə bilməyir.

Mənə deməyin ki, atan qocalır,
Dediyi sözləri yanılır hərdən.
Başının üstünü yorğunluq alır,
Tərpənə bilməyir durduğu yerdən.

Mənə deməyin ki, atan qocalır,
Saçları qar kimi ağarır yaman.
Meylini ocağa, kürsüyə salır,
Atam qoca deyil, mən inanmıram!...

***15.01.1985***

## ƏZİZ DOST

Əziz dostum, könlüm səni bəyənər,
Varlığında pak bir sinə döyünər,
Sənin qəlbin mərdlik ilə öyünər,
Məhəbbətdə təmiz olub çağlarsan,
Sevdiyinə təkcə könül bağlarsan.

Yaşamaq da, yaratmaq da çətindir,
Büdrəməyən bu yollarda mətindir,
Min əzaba dözən sadiq bətindir,
Saf müqəddəs əməllərlə yaşarsan,
Onun çətin dağlarını aşarsan.

Sevgin, eşqin ürəyinə od olsun,
Qəm, kədərin gözlərinə qan dolsun,
Həsrətlərin payız təki qoy solsun,
Köksün daim xoşbəxtliyin özəyi,
Versin ömrə bir zinətli bəzəyi.

Unutma ki, eşqə dönük çıxan var,
Yüngül hissdir deyib ona baxan var,
Şimşək təki hər ömürdə çaxan var,
Yolun üstə belə namərd çıxmasın,
Ürəyini od-atəşə yaxmasın.

Sevgilərin havasına dözərsən,
Nə yorulub, nə inciyib bezərsən,
Həsrətlərin özün eşqlə üzərsən,
Dostum, sənə bəxtiyarlıq yar olsun,
Ömrün, könlün, pak həyatın var olsun.

Hər bir cana ömür həyat naxşıdır,
Əziz dostum, rəfiqəlik yaxşıdır,
Hər bir kəsin ona bir cür baxşıdır,
Həyat min bir naxışların içində,
Azmayasan baxışların içində.

***08-09.08.1985.***

## A TALEYİMİZ

Keçdin neçə eniş, neçə yoxuşdan,
Çətin-asan yollu, a taleyimiz.
Tənəli-tənəsiz yüz-yüz baxışdan,
Çətin-asan yollu, a taleyimiz.

Hər günü imtahan, hər günü sınaq,
Qoymaz ki, şaxtadan, sazaqdan sınaq,
Hər anın atəşin, nəş'əsin sanaq,
Çətin-asan yollu, a taleyimiz.

Zirvəsi qarlıdır, dərəsi isti,
Haqlı da, haqsız da yolunu kəsdi,
Başında ilğımlar, küləklər əsdi...
Çətin-asan yollu, a taleyimiz.

Büdrəyən anların məğlubiyyətin,
Daim saf olaydı sənin niyyətin,
Ucaldaydın adın xalqın, millətin,
Çətin-asan yollu, a taleyimiz.

Üzündən həmişə müdriklik yağa,
Gözün düz baxaydı soluna-sağa,
Qara deməyədin qarşında ağa...
Çətin-asan yollu, a taleyimiz.

Ömrün tufanları yıxmaya səni,
Tökməyə üstünə dumanı, çəni,
Çaşbaş etməyəydi qərarın məni,
Çətin-asan yollu, a taleyimiz.

Gözümüz dolanda gəl imdada çat,
Qatı zülmətləri yolumuzdan at,
Yoruldun, baş qoyub, sinəmizdə yat,
Çətin-asan yollu, a taleyimiz.

Şadiman, məlhəmin qoya yaraya,
Yoxuşa düşəndə, gələ haraya,
Həyat tellərini xoşbəxt daraya,
Çətin-asan yollu, a taleyimiz.
Çətin-asan yollu, a taleyimiz.

***18.08.1986***

## OCAQTƏK ALIŞAR NECƏ ANALAR

Bu dünyaya xoşbəxt sabah diləyər,
Kövrək sinələri, incə analar.
Bir körpə ömrünə həyat çiləyər,
Əriyər şam kimi gecə analar.

Övlad böyütdükcə qayğısı artar,
Günəşlə oyanar, ulduzla batar,
Yorğun sinəsində körpəsi yatar,
Dağtək arxalanar gücə analar.

Oynaq nəğmələri dünyanı gəzər,
Nə bir yol inciyər, nə bir yol bezər.
Bala tufanın qışını sezər,
Ocaqtək alışar necə analar.

***21.02.1987***

## DAŞA DƏYİBDİ

Eşqim, məhəbbətim daşa dəyibdi,
Qəddimi intizar, həsrət əyibdi,
Gün-gündən könlümdə qəm yüksəlibdi,
Ömrümün bağında tikanlar bitib,
Sanki həyatımın sonudur bitib.

Tale qarğışına tutulmuşam mən,
Qara saçlarıma düşüb vaxtsız dən,
İllərim sivişib çıxıb əlimdən,
Nə dərdli, ələmli həyatım varmış,
Neyləyim ki, mənə qüssələr yarmış.

Mən niyə talesiz gəldim həyata,
Əğyara yar dedim, can dedim yada,
Fələyim çevrildi mənə cəllada,
Ötən illərimi necə qaytarım?!
Bəlkə sən deyəsən, cansız ah-zarım?

Kölgənə bürünüb izlədim səni,
Yaman xoşbəxt etdin, yamanca məni,
Bu imiş taleyin vəfası yəni?
Sonum kədər oldu, intizar oldu,
Soldu cavanlığım, diləyim soldu.

Şirinin ürəyi kədərlə dolu,
Qopardıb fırtına, yağdırıb dolu,
Sıldırımdan keçdi ömrümün yolu,
Dönüb keçmişimə baxıb yanıram,
Mən özüm-özümdən lap usanıram.

***25.05.1987***

## AĞLA, GÖZLƏRİM

Tale zərbə vurdu üst-üstdən sənə,
Düşdü ömür yolun dumana, çənə,
Qəhərlə, kədərlə gəl baxma mənə,
Ələm sinəsini dağla, gözlərim,
Dolanda göylərtək ağla, gözlərim.

Enişli-yoxuşlu həyatın yolu,
Ələndi başıma çox leysan, dolu,
Sınsın bədnəzərin biinsaf qolu,
Ələm sinəsini dağla, gözlərim,
Dolanda göylərtək ağla, gözlərim.

Şadiman, dərd-qəmdən alışdı bağrım,
Hayıma, önümə kimimi çağrım?
İçimin ahından necə bağırım?
Ələm sinəsini dağla, gözlərim,
Dolanda göylərtək ağla, gözlərim.

***02.07.1988***

## TƏMİZLİYİ QORUYAQ

Ey insanlar, ürəyə qoymayaq düşsün ləkə,
Daxil olmasın bizim günümüzə səksəkə,
Niyə lazım şad, xoşbəxt güzaranda mərəkə,
İdrakın görən gözü təmizliyi qoruyaq,
Aydın səmanın özü təmizliyi qoruyaq.

Seltək insan axını sirdaş oldu bu yerə,
Biri qol qoydu düzə, biri qol qoydu şərə,
Dağıldı dünyamızın güzarını min kərə,
Uymayaq yalanlara, təmizliyi qoruyaq,
Cahanda qalanlara, təmizliyi qoruyaq.

Həyata gələn varlıq, həyatından gəl kam al,
Ləkə nədir bilməsin məram, istək, saf amal,
İnsana sahib olsun idrak, pak ağıl, kamal,
Qaldıraq ucalığı, təmizliyi qoruyaq,
Anaraq qocalığı, təmizliyi qoruyaq.

Cahanın başı üstə ölüm nədir, bilməyək,
Gözümüzün yaşını dərd əlindən silməyək,
Düzdə olaq, enişdə yıxılana gülməyək,
Ürəyin asimanı, təmizliyi qoruyaq,
Kürənin pasibanı, təmizliyi qoruyaq.

Yazın öz gözəlliyi, qışınsa sərtliyi var,
Düz atılmaz addımın sonradan pərtliyi var,
Amansız ölümün də hərdən bir mərdliyi var,
Açılmaz düyünlərdən təmizliyi qoruyaq,
Sirli-hallı günlərdən təmizliyi qoruyaq.

Ey Şadiman, hər varlıq dünyaya bar yetirməz,
Hər bağça-bağ sahibi əkdiyini bitirməz,
Cahandan gedənləri həyat bir də gətirməz,
Yaxşıların xətrinə təmizliyi qoruyaq,
Gül həyatın ətrinə təmizliyi qoruyaq.

***09.10.1987 Nasosnu***

## YAŞA ÜRƏYİM, YAŞA

Yığın-yığın qəm ilə,
Gözdə acı nəm ilə,
Yaxşı-yaman dəm ilə,
Mərd ömrünü vur başa,
Yaşa ürəyim, yaşa.

Sellər tutmaz çaylarla,
Qərar tutmaz aylarla,
Gah toyla, gah vaylarla,
Bu yolu gedək qoşa,
Yaşa ürəyim, yaşa.

Mənalı günlərinlə,
Sədalı ünlərinlə,
Sirli düyünlərinlə,
Ağlın getməsin boşa,
Yaşa ürəyim, yaşa.

Enişin, yoxuşunla,
Sehirli naxışınla,
Mərdanə baxışınla,
Ağrı vermə gəl başa,
Yaşa ürəyim, yaşa.

Varlığımın qardaşı,
Sinəmin vətəndaşı,
Səni incitsə naşı...
Özünü üzmə, haşa,
Yaşa ürəyim, yaşa.

Şirin xanım, qəlb incə,
Ona vermə işgəncə,
Qoy var olsun düşüncə!
Duyğu dəyməsin daşa,
Yaşa ürəyim, yaşa.

***26.12.1988 Tağay***

## HƏZİN LAYLALARIN

Həzin laylaların nağıla bənzər,
Müqəddəs ürəyin mənimlə gəzər,
Qəmin, iztirabın könlümü üzər,
Sən bağrım, ürəyim, qanımsan, ana,
Açan sabahlarım, anımsan, ana.

Gözlərin işığı gözümə verdi,
Üzün yaraşığı üzümə verdi,
Sinən ocağını közümə verdi,
Xurmayi tellərin telimdə, ana,
Şirin ləhcələrin dilimdə, ana.

Narahat sinəndə həyatım yaşar,
Mənim şadlığımla sevinib coşar,
Ürəyim könlünlə hey pıçıldaşar,
Dastanım, bayatım, nağılım, ana,
Varlığım, idrakım, ağılım, ana.

Bu cismi-canımda sənin canın var,
Damarım içində sənin qanın var,
Hər xoş addımımda sənin anın var,
Ünyetməz zirvəmin çırağı, ana,
Məlalı ömrümün dayağı, ana.

Büllur baxışınla könlüm dincələr,
Ələmim, kədərim, qəmim incələr,
Hər sözün, söhbətin nadir incilər,
Bəxtimə, günümə tökülər, ana,
Zülmətin bağırı sökülər, ana.

O titrək əllərin nağıl, sehirmi?
Müqəddəs sinəndə ürək, nəhirmi?
Dolan zamanımın qəmi, qəhirmi?
Sevincim, şadlığım, ələmim, ana,
Coşğun vücudumda qələmim, ana.

Ağaran tellərin qarlı dağımdı,
Bəxtiyar anların ən xoş çağımdı,
Həsrətin sinəmdə yaman yağımdı,
Dözmürəm hicrana dünyada, ana,
Yetdin hər imdada, fəryada, ana.

Şadiman səninlə coşub-çağlayar,
Ümidsiz anların yolun bağlayar,
Sənsiz olan zaman gözüm ağlayar...
Zəif vücuduma dirəksən, ana,
Dərdli ürəyimə ürəksən, ana.

***10.11.1987***

# AY İLLƏR

Aldız əllərimdən cavanlığımı,
Ağ cığırlar düşdü telə, ay illər.
Döydüz dolu təki insanlığımı,
Saldız ilhamımı dilə, ay illər.

Körpəlik çağımdan həmdəmim olduz,
Gah dərdli, gah da ki, xoş dəmim olduz,
Ömür dəryasında bir gəmim olduz,
Verdiz həyatımı selə, ay illər.

Gecə-gündüz oldu kəhər atınız,
Ömürlər yetirən külliyatınız,
Qocalıq kəşfi də ən son qatınız,
Belə tilsimlisiz, belə ay illər.

Gedibdi aradan neçə baharım,
Tükənib gəncliyim, tükənib varım,
Məni hədələyir boranlı qarım,
Gəlməz ötən illər ələ, ay illər.

Müqqəsir görürəm indi özümü,
Hərdən danlayıram titrək dizimi,
Könlümdən bir ocaq çatan sözümü,
Salmısız obaya, elə, ay illər.

Qapqara saçlarım ağarır dən-dən,
Axır bir su kimi hər günüm əldən,
Hərdən də yorulub düşürəm dildən,
Yaşı düşünmürəm hələ, ay illər.

Ötüşən aylarım, sanki bir külək,
Eyləyir ömrümü hey ələk-vələk,
Dizini bükdüyün neçə ömürtək...
Elə qocalaydız, elə, ay illər.

Bu sinəm baharı azmış buluddu,
Onun dünənini ağzınız uddu,
Bəxtsiz arzularım sizə umuddu,
Mən necə gətirim dilə, ay illər?

Qəlbdən birdəfəlik gəncliyim getdi
Ömrümün payızın mənə yar etdi,
Saatlar çay təki nə iti ötdü?
Qoyma qocalığı gələ, ay illər.

***15.07.1991***

## ANAM, ACIMA MƏNƏ

Yandırıb ürəyimi qara taleyim ilə,
Anam, acıma mənə.
Gözlərindən tökmə gəl yaşları gilə-gilə,
Anam, acıma mənə.

Hər insanın öz bəxti, öz alın yazısı var,
Ömrün dolaylarında o baş, bu başa qovar,
Taleyin acı yeli bəxtləri satar-sovar,
Anam, acıma mənə.

O gur yaşlar gözündə yer tapmasın özünə,
Ağ saçlarına qurban, özünə bax, özünə,
Şükür eylə yenə də Tanrı yazan bu günə,
Anam, acıma mənə.

Mənimki murad atım körpəlikdən yıxılıb,
Gəncliyim qara bəxtin əllərində sıxılıb,
O qara div mərəzlə axırıma çıxılıb.
Anam, acıma mənə.

Sənə qurban olum mən, tökmə gözdən yaşını,
Mən ki, sənə oğulam, uca tut dik başını,
Tök ətəkdən, sən allah, birdəfəlik daşını,
Anam, acıma mənə.

Sən mənim təkliyimə daralıb-sıxılma, gəl,
Xudam mənə bəxş edib ürək, qələm, bir də əl,
İlhamımın oduyla yaratmışam pak təməl,
Anam, acıma mənə.

Xiffət edib könlünü salma qüssəyə, dərdə,
Fələk ağır günləri, neyləyək, verir mərdə,
Ucuz tutsa özünü ayağa düşər ər də,
Anam, acıma mənə.

Bu könül ki, məndə var, sellərtək daşacağam,
Hələ neçə zirvəni fəth edib aşacağam,
Dodağımda şərqilər, şölənən ocağam...
Anam, acıma mənə.

Qurban olum üzündə yol salan qırışlara,
Bənizində günbəgün zəfər çalan qışlara,
Qurban olum mənimçin axıtdığın yaşlara,
Anam, acıma mənə.

Mən bir hirsi, hikkəsi dolulaşan fələyəm,
Dağı-daşı haylayan dəli-dolu küləyəm,
Nəğmələr ormanında qanad çalan mələyəm,
Anam, acıma mənə.

Kimsənin taleyinə oxşamayır taleyim,
Birgün tutmasam qələm özümdəndir gileyim,
Yerin, göyün ahına ağlayır könül neyim,
Anam, acıma mənə.

Yorulmaz əllərinin qırışına qurbanam,
İllərin üzündəki naxışına qurbanam,
Hərdən də incik-incik baxışına qurbanam,
Anam, acıma mənə.

Sənin söz aləmində parlayan ulduzunam,
Dərdi köksünə sığmaz haray çəkən sazınam,
Bağrını dolu vurmuş boynu bükük yazınam,
Anam, acıma mənə.

Unudaq incikliyi, alışaq bir şam kimi,
Bürüməsin könlünü kədərim axşam kimi,
Bu qarışıq zamanə kimi şad edib, kimi?
Anam, acıma mənə.

Şirin xanım dünyanın başı üstə mələyi,
Ələyir illərini fələyin cod ələyi,
Yalnız sənə borcludur, ocaq çatmış ürəyi!
Anam, acıma mənə.

***14.07.1991***

## ASİMANA DÜŞÜBDÜ

Nə müddətdi kəsilibdi qərarım,
Ünüm, hayım asimana düşübdü.
Göylər tutmaz, yerlər tutmaz baharım,
Bəxt yolunda çən-dumana düşübdü.

Həyat çəkib qəlb içinə dağları,
Gülsüz qoyub bağçaları, bağları,
Hara atdı o bəxtiyar çağları?
Ağrılarım ah-amana düşübüdü.

Tale mənim heç üzümə gülmədi,
Ürək tutan haqq-hesaba gəlmədi,
Axan yaşı gözlərimdən silmədi,
Yazım-pozum pis fərmana düşübdü.

***12.07.1988***

## UŞAĞLIĞIM

Bir köməksiz tifiltək əsdi başımda qada,
Əfsus, insafsız tale bir yetmədi fəryada,
Həzin bir xatirətək hərdən düşürsən yada,
Gəl bu ömür bağımda bir yol əs, uşaqlığım,
O acılı-şirinli müqəddəs uşaqlığım.

Palçıq kərpic evimiz, meyvəsi bol bağçamız,
Divar içində rəflər, divar boyu taxçamız,
Anamın əlləriylə yığılardı boğçamız,
Körpə fidanlar təki boy atan uşaqlığım,
Dəli-dolu ömrümə od çatan uşaqlığım.

İsti qumlar üstündə gəzərdik səhər, axşam,
Anam nağıl söylərdi, hər süfrə başı, hər şam,
Nöyütsüz olan vaxtı kara gələrdi bir şam,
Arzusu dünya tutmaz nəfəsli uşağlığım,
Bayatıyla, nağılla həvəsli uşaqlığım.

Ötdü getdi o anlar, ömür yarı, gün yarı,
Ömründən keçən an insana dünya varı,
Şirin xanım, səsləsən nə qədər dostu-yarı,
Heç nə ilə ölçülməz həyalı uşaqlığım,
Bu günümün keçmişə xəyalı uşaqlığım.

***07.02.1989***

## HİSSLƏR İLƏ OYNAMA

Hisslər ilə oynama, ey dəliqanlı ürək,
Onun əsiri olub, düşərsən ayaqlara.
O elə bir hiyləgər, qamətli nazik mələk,
Dastan olub həyatın yazılar varaqlara.

İradənin köksündə alış gur ocaq kimi,
Qoyma hisslər ağıldan üstün olsun dünyada.
Yoxsa olar həyatın əldə oyuncaq kimi,
Gedər sönük taleyin acı yellərə bada.

Edilən səhv içində silinməyən bir ləkə,
Vicdanın vay-vay ilə yiyəcək səni hər gün.
Qoparacaq sinədə bir qışqırtı, mərəkə,
Həyat olacaq sənə açılmayan bir düyün.

Hisslər ilə oynama, iradəni çək başa,
O səni qoymaz düşsün əlindən haqq qaşığı,
Ağrı verməz ruha, əskiklik olmaz başa,
Nə qədər həyatın var olar ömrün işığı.

Ey Şadiman, hisslərə əsir olmadın heç vaxt,
Sığındın iradənin yumyumşaq qucağına.
Hamı etdikləriçin günahkardır deyir baxt,
Sən isə isinirsən ağlının ocağına...!

***08.09.1989***

## NEYLƏSİN?

Yazdı ağ bəxtimi qara qələmlər,
Gözlərim ağlayır, gülən neyləsin?
Könlümün bağını həsrət qələmlər,
Bu dərdi anlayıb, bilən neyləsin?

İçimdə cəlladdı bu işgəncələr,
Yolunda dözümlü ürək incələr,
Qorxunc sükutuyla inlər gecələr,
Çılğın harayına gələn neyləsin?

Qəmin bulaq təki qaynayıb-daşdı,
Səndəki o ürək, ürək yox – daşdı,
Göz yaşım sel olub min bir dağ aşdı,
Gözümün yaşını silən neyləsin?

Yetərmi əhdindən dönən imdada?
Dərd çəkən başlardan əskilməz qada,
Bir ömrüm var idi vermisən bada,
Dərdə şərik çıxıb, bölən neyləsin?

Şadiman ürəyin vermişdi sənə,
Onu parçalayıb, qaytardın mənə,
Əhd-peyman bağlayan əhdindən dönə,
Yolunda can verən, ölən neyləsin?

***13.12.1989***

## TALEYİMİN AĞILARI

Taleyimin ağıları könlümdə ağrı,
İçimdəki əzabları cücərtdi bir-bir.
Fırtınalar, fəlakətlər partlatdı bağrı,
Fəth olunmaz qala oldu candakı səbir.

Duyğularım qolu bağlı zindana düşdü,
Əsir təki qəfəslərdə çırpındı ürək.
Arzularla xəyallarda ömür görüşdü,
Ünyetməyən fəğanlara ağladı ürək.

Şadimanın ömrü keçdi ümidə möhtac,
Bircə dəfə məramına yetmədi, Allah.
Mən ki hər bir amalıma çatmaq üçün ac,
Müsibətlər, bədbəxtliklər bitmədi, Allah.

***10.08.1991***

## YANAR ŞAM KİMİ

İnsan öz içindən yanar şam kimi,
Daim vuruşmağda özüylə ürək.
Min-min duyğulardır qəlbin həkimi,
Min biri gücsüzdür, min biri zirək.

Hardasa arzuya yetməyən vaxtı,
Hərə öz bəxtini yaman danlayır.
Elə ki, quranda qocalıq taxtı,
İnsan səhvlərini onda anlayır.

Zaman məhvərindən çıxıb bircə an,
Bir gündə min bəxtin qırır sapını.
İnsan aqilliyə yetişən zaman,
Ömrün son illəri döyür qapını...

Şadiman, ürəklə vuruşmaq neçin?
Can dəryanda çəkir həyat qayığın.
Tale boğçasının arama için,
İtirmə ağılın ayıq-sayığın.

***23.05.1990***

## KÖNÜL

Əsər bəxtimizdə qəm küləkləri,
Vaxt olar puç edər gül diləkləri,
Dərdi-sər incidər hey ürəkləri,
Tuş etmə sinəni fərağa, könül.

Bu sirli həyatda il köçəri quş,
Birinə sevincdi, birinə qarqış,
Kiminə xoşbəxtlik, kiminə alqış,
Qoyma şadlığına dərd yağa, könül.

Zamanın vurduğu yaraları çox,
Taleyin yolunda qaraları çox,
Birinə şirindi, birinəsə ox,
Sığmayır kitaba, varağa, könül.

İlahi bəxş edib incəlik sənə,
Vaxtsız salmayasan dumana, çənə,
Ölüm də, qalım da olub ənənə,
Yetməyir naləyə, sorağa, könül.

Şadiman bir şamdır hər axşam yanır,
İçinin qəmləri oda boylanır,
Yatmış duyğuları yenə oyanır...
Dönüb od həsrətli çırağa, könül.

***14.12.1989***

## YIXMAĞA NƏ VAR

Bir qəlbi, ürəyi tikmək çətindir,
Min könül evini yıxmağa nə var?
Bir zirvə fəth etmək müşküldən müşkül...
Min təpə adlayıb çıxmağa nə var.

Zaman qanad açıb, uçur yel kimi,
Arzular məcraya sığmır sel kimi,
Ömrə zülmət çökür qara tel kimi,
Yoxsa bəxt evinə baxmağa nə var.

Dolanır yabançı şərə həsadlar,
Dövrana od qoyur qəlbi kəsadlar,
Əgər gözləsəydi fitnə-fəsadlar,
Əcəli yandırıb yaxmağa nə var.

Qan töküb, ev yıxıb, tələ qurmasa,
Şər ilə ulaşıb üzə durmasa,
Hər qəlbi oynadıb ara vurmasa,
Dərdi məngənətək sıxmağa nə var.

Əyrilik, oğruluq dolaşmasaydı,
Ürək çirkinliklə bulaşmasaydı,
Yamanlıq insanla ulaşmasaydı,
Sel olub, bir arxda, axmağa nə var.

Əgər aldatmasa insan insanı,
Araya bilsəydik yaxşı-yamanı,
Hər kəsin olsaydı dini-imanı,
Tanrının bayrağın taxmağa nə var.

Şadiman, yoldaşlıq etsə etibar,
Qəlbin şahı olsa namus, qeyrət, ar,
Ürəyi etməsə yamanlıqlar xar,
Ölümün əlindən çıxmağa nə var.

***19.04.1990***

## BƏNDDİ GÜNLƏRİM

İlıq bir şəfəqə bənddi günlərim,
Qar kimi əriyir, dönüb sel olur.
Ömrün yollarına fənddi günlərim,
Bir göz qırpımında neçə il olur.

Ürəyi incidir hər nalə, hər ah,
Gah qəmdir, gah sevinc hər qarşı sabah,
Nə qədər səvab var, nə qədər günah,
Bu dərdlə ağaran qara tel olur.

Yanır gilə-gilə ürək şam kimi,
Daralır gəncliyim bir axşam kimi,
Bəxtəvərdir kimi, bədbəxtdir kimi?
Bu yolda sərgərdan, nalan dil olur.

Şadiman, qəmlərlə olma qol-boyun,
Həyat bir şahmatdır, ömürsə oyun,
Sel olmuş günlərin suyunda yuyun...
Bir ev ağrı-acın bir gün sel olur.

***07.06.1990***

## VARMI DÜNYADA?

Tökülür üstümə günlərlə ələm,
Kədər yaşlarının qulu olub nəm,
Qəmdən yaranmışam mən taleyi kəm,
Getdi ömrüm-günüm nahaqdan bada,
Mənimtək taleysiz, varmı dünyada?!

Hara üz tutdumsa sitəm, müsibət,
Deyirdim xoş günüm gələcək əlbət,
Ömrümə qismətmiş belə aqibət,
Bir an əskilmədi başımdan qada,
Mənimtək taleysiz, varmı dünyada?!

Həyat işgəncədi, dövran zülümdü,
Paralanmış ürək dilim-dilimdi,
Ürəyin ağrısın deyən dilimdi,
Bəxtim ömrümdən uzaq bir ada...
Mənimtək taleysiz, varmı dünyada?!

***14.06.1990***

## ƏLİM ÇATMIR

Niyə əlim çatmır, ünüm yetməyir,
Haqqın sarayına, haqqın özünə.
Ah-naləm, şivənim, vayım bitməyir,
Bunu kim vuracaq haqqın üzünə?!

Mən ki, içəridən alışan şamam,
Qaraya bürünmüş bəxtsiz axşamam,
Dərdi öz içinə sığmayan damam,
Şişir dağlar kimi özü-özünə.

Hər yanda dəhşətli divanəliklər,
Soyuq ürəklərdə viranəliklər,
Meydanın sulayır heyvanəliklər,
Küllər üfürdülür haqqın gözünə.

Ad-san arayırlar ağlı dayazlar,
Hökmü verən olub könlü avazlar,
Satırlar idrakın özünə nazlar,
Qanunlar afərin deyir sözünə.

***09.10.1990***

## GƏZDİRİRƏM MƏN

Sinəmdə bir ürək gəzdirirəm mən,
Ağrısı, acısı tutmayır eli.
Bürüyüb göylərin çiskin, duman, çən,
Zalım rüzgarlarla qovğası yaman.

Hey dolub-boşalır, sanki fələkdi,
Niyə qərarsızdı, niyə ovunmaz?
Qanadlı duyğular sirli mələkdi,
Hər həyat istəkli suda yuyunmaz.

Başından xətalar əskik olmayır,
Fəqət, yanan eşqi içində çağlar.
Niyə varlığımla birgə qalmayır?
Uçur ənginlikdə didərgin, ağlar.

***25.03.1991***

# ANA, AY ANA

Gözlərim dolanda bahar yağışı,
Ana, ay ana.
Dolaşır arxamca mələk baxışı,
Ana, ay ana.

Narahat könlümün odu-ocağı,
Şeirli dünyamın isti qucağı,
Son ümid evimin dayanacağı,
Ana, ay ana.

Başımın üstünü kəsəndə bulud,
Ürəyin yolumda yanıqlı bir ud,
Tufanım yetəndə əyilməz palıd,
Ana, ay ana.

Ağarmış saçların ağ gündüzlərim,
Şirin laylaların qaynar sözlərim,
Sənsiz qara geyər görən gözlərim,
Ana, ay ana.

Titrək baxışınla könlümü ovut,
Dərdlərdən alışan qəlbimi sovut,
Həmişə körpənəm, əllərimdən tut,
Ana, ay ana.

Dünya ölüm-itim, dünya qanlıdır,
Ömrün çox yarısı ah-amanlıdır,
Sənli saatlarım necə canlıdır?
Ana, ay ana.

Şadiman qalıbdı tamarzı sənə,
Üşüyür, qəlbinə qar yağır yenə,
Sığınım köksünə layla çal mənə,
Ana, ay ana.

***07.04.1991***

## ÖMÜR ADLI GƏMİYƏ

Tuş olmuşam ömür adlı gəmiyə,
Dəryasında coşğun sular bayılmaz.
Bəxtim yatıb, Allah bilməm bəs niyə?
Min bir nalə, min bir səda ayıltmaz.

Çox qopartdım haray-həşir dünyada,
İçimdəki duyğularım alışdı.
Qismətimsə əlçatmayan bir ada,
Gur sellərin sədasına qarışdı.

Saçın yolan tale qaldı arada,
Nalə, nifrin çəkdim ona min kərə,
Atdım ömrü haqq uğrunda hər oda,
Bəxtin yolu eniş-yoxuş, dağ-dərə.

Həyat məni qayalıqdan keçirtdi,
Gah büdrədim, gah yıxıldım, gah durdum.
Su yerinə öz tərimi içirtdi,
Ürəyimi yuva etdi, ah qurdu.

***29.06.1991 Tağay***

## YARPAQ TƏKİ İLLƏRİM

Qopdu düşdü yarpaq təki illərim,
Qara saçlar acı yelə tuş oldu.
Zəncirləndi bəxt evində əllərim,
Cavanlığım bir köçəri quş oldu.

Səbri kəsdi ömrün eniş-yoxuşu,
Puç eylədi kimlərin bəd baxışı,
Tutdu məni yaman dillər qarğışı,
Kabab olmuş bəxtim dərdə nuş oldu.

Kim deyər ki, zaman məni güldürdü?
İçimdəki yaram gildir-gildirdi,
Bu bəxt məni diri gözlü öldürdü,
Yaxşı işim yaman dildə faş oldu.

Əzəl gündən murad atım yıxıldı,
Köksüm dərddən min yol yanıb-yaxıldı,
Talesizlik yazıq başa çaxıldı,
Acılarım ürəyimdə daş oldu.

Nə etdim ki, ələm mənlə çarpışdı,
Çocuq təki ətəyimdən yapışdı,
İtgin düşmüş dərdlər qəlbdə tapışdı,
Gözlərimdə giləlthėnib yaş oldu.

Əcəl atım bəxt evinə yollandı,
Taleyimi qırx quyuya tulladı,
Ağ bəxtimi min qarayla qolladı,
Dünya tutmaz dərddən-qəmdən baş oldu.

Şadimanın içi ələm yuvası,
Öldürübən nəʻşini qəm yuvası,
Zərgər könlüm tapmaz sevinc qəvvası,
Ömrüm yaman ağızlarda tuş oldu.

***12.07.1991***

## GÜLMƏYİR Kİ, GÜLMƏYİR

Tüğyan edir dil anlamaz ürəyim,
Vardı-yoxdu bilməyir ki, bilməyir.
Keşməkeşdə dərin-dayaz ürəyim,
Göz yaşımı silməyir ki, silməyir.

Ağlar qalıb zamanın hər işinə,
Çox vurubdu bu dünyanı dişinə,
Ölüb qalmış məramların nəʻşinə,
Qəh-qəh çəkib gülməyir ki, gülməyir.

Sinəsinə dağ çəkibdi duyğular,
Cümləsinə cahanından sayğılar,
Çölün-için bürüyübdü qayğılar,
Bir kimsəylə bölməyir ki, bölməyir.

Çox incidir Şadimanı özündən,
Dəli olub düşüb Tanrı gözündən,
Qurtarmayır heç dünyanın üzündən,
Bircə yolluq ölməyir ki, ölməyir.

***27.07.1991***

## KƏSDİ YOLLARIMI

Kəsdi yollarımı hicran qəfildən,
Nə istəyə, nə də diləyə baxdı.
Yorğun məramları salaraq dildən,
Nə zamana, nə də ələyə baxdı.

Yığdı baxışını hər yoldan, izdən,
Saldı istəyimi anbaan gözdən,
Bağrıma bir yanğı düşdü bu közdən,
Nə tufana, nə də küləyə baxdı.

Oğrun-oğrun süzdüm qarşı sabahı,
Ərşə qalxdı qəlbin naləsi, ahı,
Əl açdım göylərə, umdum Allahı…
Nə Tanrıya, nə də fələyə baxdı.

Sevgimi könlümdən qopartdı getdi,
Aldı əllərimdən, apardı getdi,
Ömrümün nağılı əliylə bitdi,
Nə qismətə, nə də taleyə baxdı.

Döydü bəxt qapımı soyuq əliylə,
Aldı varlığımı ələ diliylə,
Ayrılıq gətirdi hicran iliylə,
Nə fəryada, nə də gileyə baxdı.

Hicran can evimdə oldu bir ağa,
Yazdı saf eşqimi min bir varağa,
Bu nəcib sevgimi verdi ayağa,
Nə paklığa, nə də mələyə baxdı.

Bu pünhan sirrini hey saldı səsə,
Beş günlük ömrümə oldu vərəsə,
Çıxarıb köksümü, atdı qəfəsə,
Nə sevgiyə, nə də ürəyə baxdı.

***31.07.1991***

## MƏNƏ DƏ HƏYAT

Keçirtdim həyatı sərgərdan, səfil,
Özgə qapılarda qaldım mən tifil,
Dərdimi götürməz nə dəvə, nə fil,
Yandı dil açmaqla aləmlərə dil,
Düşdü ürəyimə min bir yerdən çat,
Ay Allah, ay Tanrı, mənə də həyat.

Parasız, imkansız, çarəsiz bəndən,
Ağardı saçlarım qüssədən dən-dən,
İmdad diləyirəm, İlahi, səndən
Qurtara bilmirəm ömrümü çəndən,
Yatmış taleyimi yuxudan oyat,
Ay Allah, ay Tanrı, mənə də həyat.

Könlümün odunu tökməyə yer yox,
İlhamın önündə çökməyə yer yox,
Bağında çiçəklər əkməyə yer yox,
Tənha xəyallarla səkməyə yer yox,
Tənəli baxışlar gözümdə min qat,
Ay Allah, ay Tanrı, mənə də həyat.

Canım yığılıbdı boğaza daha,
Könlümü öldürüb salam günaha,
Ümidim qalmayıb gələn sabaha,
Sabah da açanda batırır aha,
Deyir, ağrıların içindəcə yat,
Ay Allah, ay Tanrı, mənə də həyat.

Şadiman əyilməz heç vaxt gədaya,
Düşübdü taleyi səsə, sədaya,
Dözümü qalmayıb gələn qadaya,
Dözmür zamanları daha ədaya,
Ürəyə dəyən söz qıcqırmış, boyat,
Ay Allah, ay Tanrı, mənə də həyat.

***03.08.1991***

## GİLƏLƏNDİ ÜZÜMTƏK

Dərd içimdə gilələndi üzümtək,
Şirəsindən zəhər daddım, qəm yedim.
Bir göz deyin yaş görübdü gözümtək,
Bu zülümdən haram var ki, mən gedim?

Əsir qəlbdə bəxtin acı küləyi,
Fəğanından dəli edib ürəyi,
Düşdüyüm gün ağlatmadı fələyi,
Bu taleylə nə yaradım, nə edim?

Zamanın qəm qazanında çox bişdim,
Min yol əcəl quyusuna mən düşdüm,
Əzrayılla neçə dəfə görüşdüm,
Aparmayır o dünyaya nə edim?

Şadimana qəlb ağlayır, gün qara,
Ağ yoluma yaxılıbdı zil qara,
Qara saçdan qalmayıbdı dən qara,
Bu gün matam, dünən isə şah idim.

***01.08.1991***

## HƏSRƏT YAĞIŞI

Alışır qüssədən, alışır sinə,
Pozulur ömrümün əlvan naxışı.
Könlümün göyləri tutulub yenə,
Yağır taleyimə həsrət yağışı.

Buludlar cəlladtək baş-başa durub,
Hicran yolum üstə tamaşa qurub,
Ələm nəş'ə ilə aramı vurub...
Yağır taleyimə həsrət yağışı.

Ömrüm cığırlarda izin itirib,
Yollara baxmaqdan gözün itirib,
Yaşının ağ-qara izin itirib,
Yağır taleyimə həsrət yağışı.

Bütün ümidlərim cəm olubdu, ah,
Gözlər acılara nəm olubdu, ah,
Ömrün çox yarısı qəm olubdu, ah,
Yağır taleyimə həsrət yağışı.

Boş görünür mənə küylü kainat,
Əzəlki bənzərin itirib həyat,
Nə qədər gec deyil, haqq, imdada çat,
Yağır taleyimə həsrət yağışı.

Qoy dəli sevgimi sellər aparsın,
Ömrün hamısını illər aparsın,
Səsimi səsinə dillər aparsın.
Yağır taleyimə həsrət yağışı.

Şadiman hicranın əlində naçar,
İçimdə o başa, bu başa qaçar,
Haqqımın əlindən düşübdü açar...
Yağır taleyimə həsrət yağışı.

***09.04.1992***

## NİLUFƏR

Tanrı boğdu gözündə səkkizaylıq vüsalı,
Tökdü bahar ömrünə bu acı qeylü-qalı,
Qırdı qəza əliylə üç ev əhli-əyalı,
Açılan bəxt qapını, kim bağladı, Nilufər?
Allah nə tez əcəli yaraqladı, Nilufər.

Ağlar gözün sinəmə tuşlanıb bir ox kimi,
Əldən gedən sevgini qəza sandı yox kimi,
Qələmi sınmış fələk kimi şad edib, kimi?!
Çarə bulmaz sızlamaq bu ölümə, Nilufər,
Tale özü qol qoyub bu zülümə, Nilufər.

Yarsız qalan otağın, boynubükük bənövşə,
Gəlinlik yatağını əzrayıl çəkdi dişə,
Tanrı özü mat qalıb, kim bilir, bu gərdişə...
Bəlkə də imtahandır yar möhnəti, Nilufər,
Dünyanın ölüm adlı müsibəti, Nilufər.

Həyatın yollarında nə çoxdur eniş-yoxuş,
Nə çoxdur yollarına dikilən min bir baxış,
Bilməm hansı qurdağız arxanca tökdü qarğış...
Bəzəkli ev-eşiyin ərsiz qaldı, Nilufər,
Səkkizaylıq bu yazı bir xəyaldı, Nilufər.

Ağlamağı Tanrı da sevməyir, Quran deyir,
Dərdinə yananların yerbəyerdən can deyir,
Yazını yazan yazıb, bunu zaman, an deyir,
Səbrini bas, dərdə döz, bu sınağdı, Nilufər,
Fələyin basdığı köz getməz dağdı, Nilufər.

İllər keçər, unutmaz könlün qəmi-möhləti,
Taleyinin püşkinə düşən zülmü, zilləti,
Şirin xanım, bu imiş əzrayılın niyyəti,
Alsın gülüzlü yarı öz yarından, Nilufər,
Qara bir yuva yapsın məzarından, Nilufər.

***12.07.1992***

## YARIMÇIQ ÖMÜRLƏR

Açılmayan bir sirdi,
Göydən gələn əmirlər.
Bəxtdə, taledə birdi,
Bu yarımçıq ömürlər.

Fələk yazan yazımı?
Baharın payızımı?
Bəxtin qırıq sazımı?
Bu yarımçıq ömürlər.

Arzuları bələkdə,
Qismətləri ürəkdə,
Tamarzı hər diləkdə,
Bu yarımçıq ömürlər.

Əzizləri dağlayır,
Dalınca el ağlayır,
Qapıları bağlayır,
Bu yarımçıq ömürlər.

Qopar qəlbdən fəryadlar,
Keçmişə köçər adlar,
Öləncən qəlbi odlar,
Bu yarımçıq ömürlər.

Arzu, dilək, bitməmiş,
Heç kamına yetməmiş,
Bir mənzil yol getməmiş,
Bu yarımçıq ömürlər.

İstəkləri gözündə,
Həyat eşqi üzündə,
Köçər bir qəfil gündə,
Bu yarımçıq ömürlər.

Bəlkə tanrı sevgisi,
Ölərlərin itgisi,
Ruhun cana yetgisi,
Bu yarımçıq ömürlər.

Kimi yağıya sipər,
Kimi zülümə təpər,
Dərd çiləyər, qəm səpər,
Bu yarımçıq ömürlər.

Haqsızlığa üsyandır,
Təşnə kamı üryandır,
Ocağında büryandır,
Bu yarımçıq ömürlər.

Müşfiq, Cavid, Hamletdi,
Üşüyən həqiqətdi,
Didilən məmləkətdi,
Bu yarımçıq ömürlər.

Əcəlin bəyanatı,
Minlərin xəyanəti,
İblisin dəyanəti,
Bu yarımçıq ömürlər.

Hafiz, Fərman ölümü,
Yağıların zülümü,
Yandıracaq könlümü,
Bu yarımçıq ömürlər.

Əzrayılın yuxusu,
Adam üzən qorxusu,
Altun həyat qoxusu,
Bu yarımçıq ömürlər.

Min Alı, İsmət qəmi,
Bu dağ əydi ölkəmi,
Üşüdəcək aləmi,
Bu yarımçıq ömürlər.

Salatın, Aydın dağı,
Əcəl də bizə yağı,
Taleyin ağ varağı,
Bu yarımçıq ömürlər.

Sonu bitməz sitəmdir,
Yanar qəlbə matəmdir,
Çox amala xitamdır,
Bu yarımçıq ömürlər.

Şirin xanıma dərddi,
Əyər əyilməz qəddi,
Ruha qovuşan mərddi,
Bu yarımçıq ömürlər.

***10.10.1991***

## TALEYİMİZ VAR

Bu eşq aləmində əzablı gediş,
Ağladıbdı bizi neçə qış, bahar.
Tanrıdan beləymiş bu yazı, gərdiş,
Bizim də qəribə taleyimiz var.

Gözümüzdə leysan balalayıbdı,
Dərd də üstümüzü halalayıbdı,
Qəlbə həsrət odun çox calayıbdı,
Bizim də qəribə taleyimiz var.

Zaman bağçasında zəif fərdlərik,
Qəm tüğyan etdikcə min yol dərdlərik,
Sevginin köksünü yaxan dərdlərik,
Bizim də qəribə taleyimiz var.

Ürəklər qovuşmaq həsrətindədir,
Yaşımız zamanın xislətindədir,
Sevgimiz hicranın surətindədir,
Bizim də qəribə taleyimiz var.

***12.12.1991***

## DÜŞDÜ

Acılar könlümdə açdı gül-çiçək,
Vüsalın baharı xəzana düşdü.
Sevgi yalan oldu, ayrılıq gerçək,
Günah eşqi bəxtə yazana düşdü.

Çılğın çocuq kimi ağladı ürək,
Yolunda özünü eylədi həlak,
Tanrı hüzurunda məhəbbətim pak,
Sevgim ona quyu qazana düşdü.

Bəxtimin baharın oğurladı qəm,
Gözümdə boy atdı çinar oldu nəm,
İnandım əğyara mən taleyi kəm,
Qış aldı ömrümü, yaza nə düşdü?

İlantək yolumda yatdı ayrılıq,
Bəxtim, səadətim dəryada balıq,
Bəlkə də neçə yol yolladı xaliq,
Qismətim qanıma susana düşdü,

Böylə, Şirin xanım, sızladın yetər,
Bu beşgünlük ömrün bir səhər bitər,
İblislər əlində allandı qədər...
Xoşbəxtlik yolunu azana düşdü.

***23.01.1992***

## AĞLA MƏHƏBBƏTİM

İllərlə oduna yandım ocaqtək,
Qaldı gözlərimdə arzu, diləyim.
İnandın, atıldın bir oyuncaqtək,
Ağla məhəbbətim, ağla ürəyim.

Güdaza verdikcə ayları bir-bir,
Ömrümü ələyən zamanın xəlbir,
Oldu əhdi danan aşiqlə əlbir,
Ağla məhəbbətim, ağla ürəyim.

Dolandı içini bir nigaranlıq,
Bu gen dünya oldu sənə viranlıq,
Dönüklükdə inlər yazıq insanlıq,
Ağla məhəbbətim, ağla ürəyim.

Candan Şadimanı bezar etdilər,
O Məcnun eşqindən həzar etdilər,
Kamının üstündən kama yetdilər...
Ağla məhəbbətim, ağla ürəyim.

***25.01.1992***

## KÖNÜL GİLEYİ

Şirinli-acılı günlərimin
dumanına büründüm,
Ağappaq yolara dönüb,
hörüldüm xalıtək
ömrümün ağlı-qaralı naxışına,
Döndüm pak sevginin
odlu-atəşli naxışına.
Səpildim gözlərinə,
Günəştək od tökdüm
bumbuz izlərinə.
Odumdan od aldın,
Könlümdə yurd saldın,
Uçdun bir quştək qürbətə,
Apardın özümdən xəbərsiz
ürəyimi saldın zillətə.
Qaçdım yel qanadlı
diləklərtək dalınca.
Sorağını alınca,
yaş da ötdü, zaman da.
Mən isə hələ də ah-amanda.
Nə sən gəldin, nə sevgi, nə ürək,
Yazıq Şadimansa yollarında həlak.

***23.02.1992***

## ANAMDI

Xəyalı önümdə titrək bir mələk,
Yuxumda könlümü alan, anamdı.
Hərdən də hökümlü hikkəli mələk,
Buludtək boşalıb dolan, anamdı.

Tənha anlarımda qəlbdə dolaşan,
Ağrıyla, acıyla, qəmlə yollaşan,
Bir qırıq qismətlə hey halallaşan,
Paklığın zirvəsin alan, anamdı.

Allah dərgahında titrək əlləri,
Verdi yolumuzda yelə illəri,
Tökdü gilə-gilə hey alın təri,
Qolunu boynuma salan, anamdı.

Şirin xanım, sənə ümid çırağı,
Düşsə də ömürdən hər gün varağı,
Könlümün ən tutqun boranlı çağı,
Yolunda ürəyi talan, anamdı.

***09.04.1992***

## QAYTAR İLLƏRİ GERİ

Saçıma zamanın qarı ələnib,
Necə alım qara telləri geri?
Ömrün payızına könlüm bələnib,
Qaytara bilmirəm illəri geri.

Düşüb ovqatından neçə arzu-kam,
Kəsib yollarımı sonsuzluqda tam,
Bu eşqin bağrıma versə də ilham,
Qaytara bilmirəm illəri geri.

Demə, gəncliyimin bahar çağıdır,
Könlüm, diləklərin fidan bağıdır,
Qocalıq qapımı döyən yağıdır,
Qaytara bilmirəm illəri geri.

Sevgidən söz açıb, köksümü ovma,
Bu yolda sən məni günahkar qoyma,
Alıb ürəyimi heçliyə qovma,
Qaytara bilmirəm illəri geri.

Ömür son zəngini çalır qarşımda,
Heç sevmək-sevilmək yoxdu başımda,
Eşqidən söz açma sən bu yaşımda,
Qaytara bilmirəm illəri geri.

Sanma gileyliyəm həyatdan azı,
Coşar Şadimanın qəlbinin sazı,
Nə sözüm, Tanrıdan gəlibsə yazı?
Bacarırsan, qaytar illəri geri.

***24.09.1992***

## BƏXTİ GƏZDİ GÖZÜM

Bəxti gəzdi gözüm eli, ölkəni,
Həsrətindən günüm dönüb ay oldu.
Dəryalarda batdı sevda yelkəni,
Eşqim, sevgim, məhəbbətim vay oldu.

Nələr çəkdi başım dərdi görəli,
Hicranının bağından qəm dərəli,
Kəsdi yolu ayrılığın bəd əli,
Gözlərimdən axan yaşlar çay oldu.

Bu nə tale yazısıymış fələkdən?
Hey keçirdir qəm anımı ələkdən,
Çətin imiş gəzdirmək də ürəkdə,
Gizli eşqim el içinə hay oldu.

Mən çəkəni bir kimsələr çəkəmməz,
Buludlanmış könlümdə sis çökəmməz,
Qəm sarayın əsən yellər sökəmməz,
Acı ömrüm min bir əsrə tay oldu.

Hər addımda hicran bəxti bəklədi,
Ələmini ürəyimdə köklədi,
Zalım kədər taleyimi təklədi...
Sevincimi biçdi tökdü, tay oldu.

Sinəm tutmur ömrün qeylü-qalını,
Allah özü xeyir etsin dalını,
Sormun, dostlar, Şadimanın halını,
Pünhan dərdi vərəqlərə say oldu.

***14.11.1992***

## AYRILIQ NƏ UZUN ÇƏKDİ

Günlər-günə qovuşduqca,
Dərd üstümə qəmin tökdü.
An ömrümdən sovuşduqca,
Ayrılıq nə uzun çəkdi?

Əsəblərim bağlı simə,
Göz dolmaqçın bənddi himə,
Bəs dərdimi deyim kimə?!
Ayrılıq nə uzun çəkdi?

Saatlarım ilə dönüb,
Könül, yaşım selə dönüb,
Ürək ağlar dilə dönüb...
Ayrılıq nə uzun çəkdi.

Şadimanı qəm ovunda,
Alışdırır çox qovunda,
Yandırır od-alovunda,
Ayrılıq nə uzun çəkdi?

***07.06.1993***

## AYRILIQ NƏ VAXT BİTƏR

Gəlişinə həsrətəm,
Günüm ölümdən betər.
Yoxluğun qəlbə sitəm,
Ayrılıq nə vaxt bitər?

Yolunda çinar oldum,
Bu dərddən sınar oldum,
Özümü qınar oldum,
Ayrılıq nə vaxt bitər?

Könlün içi buludlar,
Səhər-axşam buludlar,
Sinəm sızlayan udlar,
Ayrılıq nə vaxt bitər?

Ömrü-günüm qəm oldu,
Nəş'əmi satdı-sovdu,
Şadiman dərdə ovdu,
Ayrılıq nə vaxt bitər?

***08.06.1993***

## QARA BƏXTİM, SƏN YAT HƏLƏ

Acılarım dünya tutmaz,
Saldı ömrü dildən-dilə.
Dünya dolu bəxtlər yatmaz...
Qara bəxtim, sən yat hələ.

Durmağına gümanım yox,
İllər keçib zamanım yox,
Gənclik ötüb amanım yox,
Qara bəxtim, sən yat hələ.

Dəyişibdi orman şehi,
Talanıbdı könlün mehi,
Ürək xoşca gün valehi,
Qara bəxtim, sən yat hələ.

Ömür keçdi qalmaqalda,
Mən nə halda, sən nə halda,
Bax hər kəsdən qaldım dalda,
Qara bəxtim, sən yat hələ.

Üzülübdü əldən-əlim
Qalmaq, ölmək cana zülüm,
Canla edir savaş ölüm...
Qara bəxtim, sən yat hələ.

***13.11.1992***

## QAYIT ÜMİDGAHIM

Buraxıb sevgini başlı-başına,
Tapşırdın sevdanı yenə allaha.
Son qoy ayrılığın qəm savaşına,
Qayıt ümidgahım, qayıt sən daha.

Hicran nisgilləri qonub çiynimə,
Sanki taleyimin quşudur deyən.
Zaman da donunu biçib əynimə,
Ağlayan könlümün yaşıdır deyən.

Evimdə körpəyə dönüb acılar,
Ağlar süd həvəsli dodaqlar kimi.
Axı hər əzabın bir əlacı var,
Sındırma ümidi budaqlar kimi.

Sevgimiz rüzgardan titrəyən yarpaq,
Qopub düşməyinin qorxusu zülüm.
Sabah cismimizdən doğacaq torpaq,
Ömürün sonuncu yuxusu kimi..!

Ataq müşküllərin daşın boşluğa,
Qayıt, diləkləri sən çin-çin eylə.
Tutulub anlarım lap naxoşluğa,
Pozuq yuxuları bir yol çin eylə.

Dilsiz gecələrin sönüb çırağı,
Əriyir Şadiman yenə şam kimi.
Qayıt, tərsinədir tale varağı,
Qaralıb bəxtim də bir axşam kimi.

***04.03.1995***

## QAPI AÇARDIM

Könlümün içində acı bir həsrət,
Bu həsrət yandırır qov kimi məni.
Sağalmaz vurduğu qəfil xəsarət,
Salıbdı tələyə ov kimi məni.

Göynəyir aldığım yarə nə çarə,
Əlacın təbiblər tapa bilməyib,
Gəzirəm hicrində hey qanı qarə,
Heç kəsi qəm məntək tapa bilməyib.

Əlində əlacsız ağlar bir neyəm,
Zəbanım dünyanın bağrın yandırır.
Bir dərd anlayan yox ağrımı deyəm,
Anbaan könlümü iztirab sarır.

Şadiman, gözümdə bu dünya acı,
Mən bu səyyarədən mehtək qaçardım.
Olsaydı əlimdə hər sirr əlacı,
Yatmış taleyimə qapı açardım.

***07.08.1993***

## QAYITMAZ

Köpürüb sellərtək daşıb da getdi,
İçimdən hayqıran aha qayıtmaz.
Ömür zamanlarda aşıb da getdi...
Getdi əllərimdən daha qayıtmaz.

Dən düşmüş saçlarım yolunda dən-dən,
Ürək bu müşgüldən olub pərişan,
Hanı, o illərdən verən yox nişan?
Getdi əllərimdən daha qayıtmaz.

Diləklər xış altda bağrı para şum,
Rüzgarlar üyüdən xıncım-xıncım qum,
Əllərim fələyin əllərində mum,
Getdi əllərimdən daha qayıtmaz.

Şadiman, misranı ürəkdən soruş,
Anların fəğanın diləkdən soruş,
Dünənin ömrünü fələkdən soruş,
Getdi əllərimdən daha qayıtmaz.

***15.09.1995***

## HƏKİM

İsti baxışınla qəlbləri oxşa,
Məlhəm et imdadsız canlara, həkim.
Nurunla ürək ver ağrılı baxşa,
Ol şəfa çeşməsi anlara, həkim.

O şəfa ünvanın başların tacı,
Müddətdi qaralıb zamanım acı,
Dəva-dərmanınla eylə əlacı,
Donmuş damarlarda qanlara, həkim.

Dəbdədi gözlərdən axıdılan yaş,
Cibi zənginlərin sinəsində daş,
Bir dərman bulunub tapılaydı kaş,
Maskalı üzlərə, donlara, həkim.

Mərəzdən Şadiman düşüb zülümə,
Şəfalı əlləri uzat əlimə,
Versə də əzrayıl rəvac ölümə...
Ümid ol həyatı sonlara, həkim.

***28.01.1996***

## GÖRDÜM

Çox bəxtin səadət qapısı bağlı,
Çox könlün içini yaralı gördüm.
Bir sinə varmı ki, olmasın dağlı,
Nəş'əni ürəkdən aralı gördüm.

Elə təmizlikdən dəm vurdu hamı,
Elə göz olmayıb qalmasın kamı,
Çökərkən ömürün o həyat damı,
Vicdanı ortada qaralı gördüm.

Düşəndə işlərin yeddi düyünə,
Ağıl əzab verər yazıq beyinə,
Sarı don geyinib güllər əyninə,
Həyat bağçasını saralı gördüm.

Tanrı imtahana çəkir hey bizi,
Qurub qəm üstündə can taxtımızı,
Bizə yar olmayan o baxtımızı,
Tale çöllərinin maralı gördüm.

Çirkin ürəkliyə şöhrət, şan asan,
Şöhrətin yolunda külüng vurur can,
Son anda enəndə məzara insan...
Harada gəzirdi, haralı gördüm?!..

***28.12.1999***

## KÖRPƏLƏR

Asta-asta yerişiniz bir aləm,
Şirin-şəkər gülüşünüz bir aləm,
Gəzsin tale vərəqində pak qələm,
Qələm qaşlı, qara gözlü körpələr,
Bülbül dilli, bülbül sözlü körpələr.

Bükülübdü bələklərə boynunuz,
Uşaq dillə ürək alan oynunuz,
Gül-çiçəktək gül qoxuyar qoynunuz,
Lalə üzlü, al yanaqlı körpələr,
Süd dodaqlı, ay qabaqlı körpələr.

Yanağınız gül-çiçəkdən gözəldi,
Varlığınız hər diləkdən gözəldi,
Qığıltınız hər bələkdə gözəldi,
Arzularla coşub-daşan körpələr,
Sabahlarla pıçıldaşan körpələr.

Baxşınızla ürəklərə od düşür,
Sizlə günlər fərəhlərlə ötüşür,
Hər açılan sabahlarla öpüşür,
Yurd-yuvaya bala olan körpələr,
Gələcəyə qala olan körpələr.

***19.09.1987***

## GÖZLƏYİRƏM MƏN

***Anası tərəfindən uşaq evinə atılan körpənin dilindən...***

Atmısan nə zaman uşaq evinə,
Sən gedən yolları izləyirəm mən.
Həsrətin qoymayır könlü sevinə,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Bir söylə nədir ki, mənim günahım?
Dünyanı tutmayır fəğanım, ahım,
Sənsiz qara gəlir hər gün sabahım,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Gülüşüm dodaqda buza dönübdü,
Şadlığım, sevincim, nəş'əm sönübdü,
Bəlkə ana haqqın sənin dönübdü,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Mən deyiləmi de, doğmaca balan?
Xəyalən qolumu qoynuna salan,
Ana deyib, səni yadıma salan,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Bir qızın anası gəldi, apardı!
Onu yetimlikdən alıb qopartdı,
Deyirəm məni də anam tapardı...
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Bahar gəlir yenə, çiçəklər açır,
Quşlar yem dalınca uzağa qaçır,
Sonra balasının yanına uçur,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Pəncərədən səhər baxıram yola,
Gözlərim boşalıb hey dola-dola,
Deyirəm, bu gələn kaş anam ola...!
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Sıxır buradakı daş-divar məni,
Ana da atarmı balasın yəni?
Röyana gələydim, qucaydım səni...
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

İçimdə ağrılar baş-başa durub,
Həsrətin içimdə toy-büsat qurub,
Yuxumdan hər səhər ümidlə durub,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Bir körpə tutubdu ana əlindən,
«Bax ana» kəlməsi düşmür dilindən,
Anası lent vurub qara telindən,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Burda dil açsam da, çəkdim adını,
Əfsus, görməsəm də ana dadını,
Saçımı darayır özgə qadını...
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

Gəl, gələn yoluna mən qurban olum,
Qoyma yad qucaqda saralım, solum,
Qoyma yad ocaqda mən yaşa dolum,
Sənin atəşinlə közləyirəm mən,
Ay ana, yolunu gözləyirəm mən.

***19.09.1987***

## ANAMIZ

Körpəsini sinəsində bəsləyən,
Səhər-axşam yolda-izdə səsləyən,
Dərd bəlanı balasından həsləyən,
Bəxtimizin aynasıdır anamız,
Evimizin sonasıdır anamız.

Ağrıyanda yanımızdan getməyən,
İsti qanı qanımızdan getməyən,
Od-atəşi canımızdan getməyən,
Talelərin çırağıdır anamız,
Ömrümüzün varağıdır anamız.

Baş ağrısa, başın qurban verəndi,
Diş ağrısa, dişin qurban verəndi,
İşimizə işin qurban verəndi,
Hər əzaba dözən oldu anamız,
Nə həyatdan bezən oldu anamız.

Gözlərində mehribanlıq bir aləm,
Heyran olur addımına bu aləm,
Ey Şadiman, qoy çağlasın bu qələm,
Dilimizin anasıdır anamız,
Ömrümüzün mənasıdır anamız.

***19.09.1987***

## BİR ANANIN HEKAYƏTİ

### *Qocalar evindən...*

Qocalar evinə düşmüşdü yolum,
Gördüm qocalardır çox sağım, solum,
Tutuldu gözlərim, boşaldı qolum,
Qarşımda durmuşdu ağbirçək ana,
Ona yaxınlaşdım mən yana-yana.

Dedim: «Ağ saçların Şahdağım, ana,
Hansı oğul, qızdı düşübdü qana?
Biinsaf övladı gətirib cana,
Qocalar evinə düşüb güzarın,
Torpaq da soyutmaz bu ahu-zarı».

Dedi: «Bu sözlərin dinlədir məni,
Sızlayan kamantək inlədir məni,
O övlad kəlməsi cinlədir məni,
Qızım, beş oğulun anasıyam mən,
Qəbir evinədək yanasıyam mən.

Gözlərim görməsin qəm yaşı, bala,
Onlar naşıdırlar, eh naşı, bala,
İndikilər sevmir bu yaşı, bala,
İndi onlara mən artıq bir yükəm.
Hər an qırılacaq zərif bir tükəm».

Dedin bu sözləri qənd, şəkər, ana,
Göylər başımıza daş tökər, ana,
Buludlar ağlayar, yaş tökər, ana,
Beş oğuldan biri kişi çıxmadı,
Niyə ürəklərin vicdan sıxmadı?!

Dedi: «Bu qocalıq, qızım, namərddi,
Qocayam, qocalıq onlara dərddi,
Eybi yox sağ olsun hökümət mərddi,
Mənə çörək verib, isti ev, otaq,
Bir də ağlamaqçın pünhani-yataq.

Beş oğul yad qızlar əllərindədir,
Vicdan, ədalət də dillərindədir,
Qocalıq çox uzaq illərindədir,
Elə ərləridək övladlar görsün,
O zaman mənimtək onlar öyünsün...

İndisə təkliyim qübardır mənə,
Hər övlad bir meyvə, nübardır mənə,
Görünür taleydən bu bardır mənə.
Tək sağlıqlı olsun onlara həyat,
Nə edim, ay qızım, şirindir övlad!

İkisi Tümendə, biri Yaltada,
Bir ildə bir dəfə çatmazlar dada,
Ağzım onlardan çatmadı dada,
Eh, təki canların sağ etsin allah,
Onlarsız mənimçin açılmaz sabah.

İkisi yanımdadır Bakıda, qızım,
Onlar başım üstə çıraq, ulduzum,
Onlarsız ləzətsiz çörəyim, duzum,
Deyirlər, yerimiz çatmayır sənə,
Gəlinin ürəyi yatmayır sənə.

Bala baldan şirin, deyib atalar,
Bu sözlə övladı öyüb atalar,
Bəlkə sonra başa döyüb atalar...
Necə ki, indi mən başa döyürəm,
Başımı ən ağır daşa döyürəm.

Ərim cavan vaxtı həyatdan köçdü,
Ölüm qədəhindən zəhəri içdi,
O öldü, taleyim qəhəri içdi...
Bucaqdan-bucağa atıldım qaldım,
Qocalar evinə çatıldım qaldım...

Gözlərim tor görür, əlimdə əsa,
Övlad ola-ola, batmışam yasa,
Oğlun olan yerdə səni dərd basa»,
(Ölümə gedən yol deyilmiş qısa...)
Günahlar içində ən böyük günah,
Ana yad ocağa aparır pənah!..

Ana sözlərini tükədib susdu,
Sanki taleyi də onla qan qusdu,
Dikəlib içindən ölümü pusdu,
Bu ölüm gözündən axan yaş idi,
Anaya yanmayan övlad daş idi...

Hanı, ey Şadiman, bundan böyük dərd?!
Mərd namərd çağrılır, namərd olub mərd,
Ananın üzünə övlad çəkib səd,
Oğul çağıranda səsi gəlməsin,
Qulaq eşitməsin ana kəlməsin!..

***26.09.1987 Müşfiq qəsəbəsi***

## SƏN MƏNİM SƏSİMİ EŞİDƏCƏKSƏN

Olub keçənləri sağaltmaz il də,
Tökülüb gəlsə də dadıma el də,
Qaynayıb daşmışam gur axan seldə,
Məni də, ey bəxtim, şad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

Gözümün önündən çıxıb getsən də.
Başqa bir çəməndə gültək bitsən də,
İndi ilim-ilim qəfil itsən də,
Məni də özüntək yad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

Bilmirəm bədbəxtsən, ya da ki, xoşbaxt,
Ya uca zirvədə çağlarsan, ey baxt,
İllər ötüb keçsə axır ki, bir vaxt,
Ahu-fəğanıma dad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

Arzum ürəyimə düşüb yatsa da,
Hər ünüm, harayım qəfil batsa da,
Köz tutmuş yaramı dərd qanatsa da,
Gəlib can evinə ad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

Bütün qitələri dolaşsan bir-bir,
Dünyada açılmaz bu dolaşıq sir,
Gündə milyon kərə, nə iki, nə bir?
Ağrımı, acımı bad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

Rahatlıq nədir ki, bilməzsən daha,
Bircə yol ürəkdən gülməzsən daha,
Axır ki, dözməyib qüssəyə, aha,
Məni də, ey bəxtim, şad edəcəksən,
Sən mənim səsimi eşidəcəksən.

***20-21.12.1985 Nasosnu***

## BAŞIMIZIN ÜSTÜN GİZLİ ALIR DƏRD

Başımızın üstün gizli alır dərd,
O vaxtsız, vədəsiz gəlir hər cana,
Çəkir qarşımıza neçə-neçə sədd,
Özbaşına gəlib o keçir qana.

Bu gizli dərdlərə çarə həkimdir,
O saralıb-solan ömrə açardır,
Həkimsiz, dərmansız adam heç kimdir,
Onsuz dərd əlindən ürək naçardır.

Mərəz pünhan gələr qəlbə, ürəyə,
Alar yalquzaqtək canı ağzına,
Çağrılmaz qonaqdır o hər diləyə,
Qoymaz öz oduyla ürək qızına.

Xəstə bədənlərin köməyi həkim,
Səndən əlacsızlar şəfasın tapır.
Ya alim, ya çoban, söylə daha kim?
Əlindən ömrünə neçə gün tapır.

Naqəfil dərdlərə ay əlac həkim,
Əlinin şəfası məlhəmdir bizə.
Sənsiz dərd yükünə dözməz qəlb çəkim,
İşıqtək dolursan can evimizə.

Ümidsiz qalanda adam yataqda,
Ona həyat eşqi verir sözlərin.
Dəva-dərmanlara möhtac otaqda,
Gəzər təbəssümlə müdrik gözlərin.

Payızlar başlanar qəfil ömürdə,
Xəstəlik baxmaz ki, qoca, cavana,
Xəzanı gələndə dözmür dəmir də,
Dərd qəfil yollanır hər bir ünvana.

Anasız uşağa dönür hər xəstə,
Gündə min yol gözü dolur, boşalır,
Dərd yuva axtarır canların üstə,
Yuva salan yerə qələbə çalır.

Həkim, köməyinə möhtacdır adam,
Onun ağrısına gəl əlac eylə,
Hamımız yanmağa başlayan bir şam,
Onun atəşini könlə tac eylə.

Həyatda sevdayla döyünən sinə,
Yaşamaq eşqiylə çırpınır, həkim,
Qoyma dərd yaxına gəlsin köksünə,
Ürək məlhəminə tapınır, həkim.

***16.07.1985. Xəstəxana***

## EY BƏXT

Hər çiçəyə, gülə qonmaz olmuşdun,
De, bəs niyə gəlib çıxmırsan, ey bəxt?
Hər könlün oduna yanmaz olmuşdun,
Niyə qəm evimi yıxmırsan, ey bəxt?

Gözlədim yolunu axşama qədər,
Pəncərəm mənimçin göz dağı oldu,
Hər səs eşidəndə dinlədim hədər,
Küçənin hay-küyü bir yağı oldu.

Gözlər baxdı yola məndən izinsiz,
Taqətim kəsildi, heç usanmadım,
Həsrətin çökdürdü, əfsus mənə diz,
Verdiyin vədini niyə anmadın?

Səhhətim yol vermir düşüm ardınca,
Gəzim addım-addım səni aləmdə,
Sənin izlərini bulub varınca,
Boylanıb baxırsan yanan naləmdə.

Neylim, dəqiqlikdir mənim allahım,
Səni saniyələrdə gəzirəm, ey bəxt,
Lap taxta çıxmısan amansız şahım,
Sənin fərmanına dözürəm, ey bəxt.

Bəlkə səndən gəlib coşub-daşmağım,
Bunu bircə dəfə bəyan edəydin,
Ruhun ağrısına hicran qoşmağım,
Hicranı vüsaltək həyan edəydin.

***20.07.1985. Xəstəxana***

## XƏSTƏNİN ÜMİDLƏRİ

Balaca otaqda dəmir çarpayı,
Bir də gur işıqlı bir pəncərə var...
Ona qismət olub bu iki ayı
Ağrıyla keçirsin o və dörd divar.

Baxdıqca yollara bilmir ki, niyə
Ürəyi kimisə arayır, arır?
Gözləri yaş tökür silmir ki, niyə
Köksünü dumanlar, çiskinlər sarır?

Dost-tanış axtarır ürəyi, aman,
Sabaha ümidlə baxır gileyli.
Xəstə qəlbi kövrək, olmuşlar yaman,
Uzaq qohumları istəyir meyli.

Pəncərədən baxır yollara hər gün,
Yollar ümidinə ümid calamır.
Qəlbinə məlhəmdir hər səda, hər ün,
Xəyallar könlünə ocaq qalamır.

Pəncərə altından hər səs gələndə
Elə bil kim isə onu çağırır.
Ani danışanda, ani güləndə,
Sanki qulağında aləm bağırır.

O ümidlə baxır tək pəncərədən,
Uzağa dikilir gözləri yenə.
Hər gələn, hər gedən ara-bərədən,
Ötəri baxışdan döyünür sinə.

Hamının yanına gedib-gələn var,
Onun qapısını açanı yoxdur.
Üzünə ələnir, sanki bəyaz qar,
Yaralı bağrını qucanı yoxdur.

Bu minvalla keçir saatlar, anlar,
Tənhalıq alovu qəlbini qarsır.
Tutur ürəyinə qüssə divanlar,
Bəlkə hər dəqiqə qəlbini asır!

Xəstəlik atıbdı qoca yaşında
Onu xəstəxana küncünə qəfil.
Dolanır keçmişi ahla başında,
Fikirlər haçalı, fikirlər səfil.

Qapıdan çəkilmir kədərli gözü,
Xəstə çarpayısı onuntək naçar.
Saralıb ağrının ahından üzü,
Bəlkə can üzülüb bədəndən uçar...

Səhərin gözləri yuxulu ikən,
Qoca qadın dikib baxışın yola.
Ömrü xəstəliktək qorxulu ikən,
Sanki dərdi əkib baxışın yola.

Suzsuzluqdan quru dodaqlar çat-çat,
Əlləri dolabça üstündə gəzir.
Heykənir sanyələr, titrəyir həyat,
İnləyən xəstəlik canını əzir.

Yollardan çəkilmir gözləri yenə,
O və tək palata, dəmir çarpayı.
Balaca güzgüdən baxır əksinə,
Kəsilib könlünün hayı-harayı.

Dörd uşaq anası Səlimə nənə,
İndi övladlara lazım deyilmiş.
Ətsiz qollarına vurulan iynə,
Dərmanın özütək ahdan üyülmüş.

Xəstəxana sakit, ürəkdə incik,
O baxır boz şüşə arxasına çox.
Ölən arzular da, dilək də incik,
Bəbəklər yaş tökür yaxasına çox.

Gəzir boş otağı tibb bacıları,
Yenə də iynələr dərmanla dolur.
Ananın bitməyir can acıları,
Dərmanlar artıqca çöhrəsi solur.

Birdən tibb bacılar durur üz-üzə,
Ana qüssəsinə dözə bilməyir,
Dilə şəkər qatıb başlayır sözə,
Qocanın həsrətin dərman silməyir.

İynənin acısı dolur bədənə,
Ana pıçıltıyla bala arayır.
Baxır intizarla gəlib-gedənə,
Ötüşən anları kədərlə sayır.

Yenə ümidləri dikilib yola,
Deyir, bəlkə qapı açanı oldu.
Baxanlar dözməyir bu miskin hala,
Dünya nankorlarla bəs niyə boldu?!

Ana can tapşırdı xəstəxanada,
Dördcə övladından biri gəlmədi.
Yetmədi dərmandan kömək cana da,
Yadlar göz bağladı, doğma bilmədi.

Ananın göz yaşı könlümdən keçir,
Yandırır qəlbimin tellərin bir-bir.
Kim doğumdan öncə övladı seçir?...
Həyat imtahandır, zamansa xəlbir.

***16.07.1985. Xəstəxana***

## MƏN SƏNƏ DOST DEDİM...

Mən sənə dost dedim, elə bildim ki,
Bu dostluq göylərə qaldırdı məni.
Sinədən, ürəkdən elə güldüm ki,
Dağıldı başımın dumanı, çəni.

Axı nə biləydim bu ad altında,
Tozdan seçilməyən koramalmışsan.
Min sirli, hikmətli yerin altında,
Həm parlaq qızıl var, həm ölü insan.

Mən sənə dost dedim, güman etdim ah,
Arxamı bir dağa söykəmişəm mən.
Bilmədim atdığın addımın günah,
Bilməzdim büdrərsən kiçik zərbədən.

Ən böyük cəsarət dünyada yalnız,
Üzə söyləməkdir, üzə vurmaqdır.
Faciə deyilmi yaşamaq yalqız?
Tənhalıq ömürə tələ qurmaqdır.

Sənə dost dedimsə, anladımda ki,
Bu addım altında hikmətlər yatır.
Yüzcə yol özümü danladımda ki,
Səsim, ünüm, əlim sənə az çatır.

Mən sənə dost deim, pakmı min əfsus?
Ayrı zil üstündə köklənmisənmiş.
Sinən içindəki ürəyin bumbuz,
Böyük insanlıqda təklənmisənmiş.

Mən sənə dost dedim, dilim qurusun,
Bu güclü istəyim bəlkə günahkar.
Kaş bütün ürəklər düzlüklə vursun,
Diriykən olmasın duyğular qoy kar.

Əsrin, zamanənin önündə neylim,
Sən bir müttəhimsən, bunu bilirəm.
Bu dərdi de necə söyləsin dilim?
Sənə yox, özümə indi gülürəm.

Üzə gülən dostdan düşmən yaxşıdır,
Özünə bir ölçü, meyar ararsan.
Görərsən bu yolun indi yoxşudur,
Tək əllə min belə qoşun yararsan.

Mən sənə dost dedim, bilmədin hərgah,
Bu yolda çox böyük imtahan, sınaq.
Səcdə edilməli inam məbədgah,
Gizlicə həmlədən biz niyə sınaq?

Söylə bu hikməti, bu etibarı,
Ürəkdə bircə yol yaşatmadınmı?
Tanrının insana verdiyi barı,
Yüngül hiss eylədin atdın addımı.

Söylə, necə baxsın gözüm gözünə?
Özündən razılıq dəhşət deyilmi?
Vermədin imtahan özün özünə,
Bu böyük hikmətə yüngül meyilmi?

Mən sənə dost dedim, allandım müdam,
Bununçın özümü bağışlamaram.
İnsan olmaq üçün gərək ki, adam,
Bircə an ömründə tapmasın aram.

Çalışsın, vuruşsun ömrü uzunu,
Böyük amalları coşub çağlasın.
Yalquzaq ağzından alsın quzunu,
Toylarda oynasın, yasda ağlasın.

Mən sənə dost dedim, əfsus, min əfsus,
Mənəmlik amalın oldu həyatda.
Sənə ləzzət verdi muğamat dəfsiz,
Səninçin bir oldu yaxın da, yad da.

Mən səni sən kimi kəşf edən gündən,
Özümə, qəlbimə düşmən olmuşam.
Kələfə min yerdən düşən düyündən,
Əl ağrısın çəkər hər səhər, axşam.

Mənim dərya əhdim tükənən deyil,
Özündən sonraya qalacaq odu.
Sənin duyğuların didərgin veyil,
Yaddaşdan siləcək həyat bu odu.

Mən sənə dost dedim dost adı altda,
Söylə, hara qədər alçalmadın sən?
Mən piyada oldum, sən isə atda,
Bu yolda ildırım, şimşək, duman, çən.

Dostluq xəyanətə qələbə çalıb,
Küləklər, fələklər susdura bilməz.
İlan ilandırsa üz-üzə qalıb,
Qalib ki, məğluba iç çəkib gülməz.

Mən də gülməyəcəm sənə heç zaman,
Ürəksə sinəyə verir əziyyət.
İnsan oxunmazsa güzgüdür zaman,
Yaxşını, yamanı göstərir əlbət.

Mən sənə dost dedim, əfsus, min əfsus,
Dostluğun adına xələl gətirdin.
Bu ad çəkiləndə dinmə daha, sus,
Üstünə bir dünya yalan götürdün.

İndi yerlər, göylər, quşlar, fələklər,
Hamsı bir ağızla güləcək bizə.
Şirin ömürləri həyat ələklər,
Qəlb ülfət bağlayır gecə, gündüzə.

Dünyaya gələndən axıra qədər,
Dost deyir yaranan bu kainata.
Addımın hesabın çəkər hədd, qədər,
Ağıl hey baş vurar hey dərin qata.

İdrak ilə varlıq çəkişər hər gün,
Hansı qalib olsa toy-bayram edir.
Batili çirkinə həyat verməz gün,
Bir ağlın felinə min naqis gedir.

Mən sənə dost dedim, el, oba bilir,
Min düşmən fitnəsi əlində heçdir.
Onsuz da əl gözün yaşını silir,
Gəl yaxşını, pisi sən gözə seçdir.

Odur bax, vicdanın qaşını çatıb,
Sənin əməlinə üsyan eyləyir.
Belinə varlığın yükünü çatıb,
Həyat buna dözür, lap gülmüsəyir.

Yaxşını, pisi də acı, toxu da,
Hamsını, hamını görür o özü.
Hər an hədəfdədir nişan oxu da,
Budur insanlığa onun son sözü.

Mən sənə dost dedim, get-get uzaqlaş,
Bunu söyləməyə dilim vararmı?
Hamıda ağılla hesablaşmır baş,
Vicdan hər sinədə yuva qurarmı?

Dostluğun önündə qılınclar susur,
Sən bu adı necə gəzdirəydin ah.
Səni ağılın yox, tamahın pusur,
Vicdanın tamaha aparıb pənah.

Sönük təbəssümlər, sönük ədalar,
Hüsnünə gör necə yaraşıq imiş.
Zirvəni nə qədər qucsa gədalar,
Sonda zaman ona sözünü demiş.

İnsan kəşf olunmaz bir kainatdır,
Yer-göy baş açmayır onun sirindən.
Okyana baş vuran vicdan qanaddır,
Mirvari axtarır ağıl dərindən...

Günəşdən qaçırıq isti olanda,
Yaxşıdır od, atəş ani kölgədən.
Tamahın əlində dustaq qalanda,
Baş alıb çıxırıq eldən, ölkədən.

Mən sənə dost dedim, neyləyim müdam,
Əqlin bu xilqəti dərk eləmədi.
Bu böyük hikməti duymaz hər adam,
İlan da çöllərdə tək mələmədi.

Heyvanın vəhşisi aslanlar belə,
Tənha keçinməyir öz oylağında.
Ağacla yaşayan balaca dələ,
Qədrini çox bilir hər yarpağın da!

Sevinmə o çirkin əməllərinlə,
Sənlər çox azcadır dünya üzündə.
Zamanın səsinə qulaq ver dinlə,
Yüksəlir, alçalır insan gözündə.

Vəhşi cəngəlliyə pənah aparır,
Qamışlıq axtarır güclü pələnglər.
Ömür bağımızdan yaş, gün qoparır,
Sonda boynumuza salır çələnglər.

Öyünmə dünyada yalnız özünlə.
Minin, milyonların taleyin düşün.
Baxma, kainata sən öz gözünlə,
O pozmaz heç zaman ali gərdişin.

Əl tut, əltutanlıq qalar dünyada,
Vaxt olar düşərsən əldən, ayaqdan.
Hər addım düşünmə mənə nə fayda,
Yıxılsan qaldıran olmaz ayaqdan...

Demə, dünya şahmat, oyundur oyun,
Heç kəs baş açmayır bircə işindən.
Burmayır heç kəsin önündə boyun,
Pisə əl çəkdirir pis vərdişindən.

Dərin dəryalara baş vur ürəklə,
Ağılla ucalıb mərd el gözündə.
Namərd bacarmayıb başdan zirəklə,
Təmizlik hazırla daim özündə.

Dünyaya gələndə pak gəlir insan,
İradə sonralar enir, yüksəlir.
Günlə ayaqlaşmaq deyildir asan,
Sərhədsiz duyğular zirvələr dəlir.

Səhvini anlayan qədərsiz xoşbəxt,
O öz pak yoluyla gedər həmişə.

Xudbinə neyləsin yazıq tale, bəxt?
O özü, özünü salar dil-dişə.

Mən sənə dost dedim, neyləyim indi?
İtirdim ömürlük səni həyatda.
Ocaqdan həm namərd, həm mərd isindi,
Vicdanlar qalsa da ahda, fəryadda.

***09.01.1986***

## BU DÜNYAYA GƏLƏNDƏ

Körpə olan bilmədi ki, dünyada,
Həm sevinc var, həm kədər var, həm can var.
Uzaq deyil insanlıqdan dərd, qada,
Ürəkləri min cür dərdi-sər qovar.

Doğulanda özü ilə söylə kim
Həm doğrunu, həm yalanı gətirir?
Ömür günə, sanki bağlı sarı sim,
Bəm üstündə kəlmə-kəlmə ötürür.

Yaxşılıqlar, yamanlıqlar, xəyanət,
Bir-birinə qarışarlar elə hey.
Vicdan, şərəf, namus, qeyrət, dəyanət,
Birində saf, birindəsə dərd, giley.

Bu dünyaya gələndə nə bilirdik,
Mürəkkəbdir tamam insan həyatı.
Bir ananın qucağında gül idik,
Laylaları şirin, şəkər bayatı.

İnsan safdır bu dünyaya gələndə,
Onun körpə dünyası var laylalı.
Biri qəfil gül üzünə güləndə,
Artar, sanki gül dodağdan, gül balı.

Bilmirdik ki, dərdli, qəmli gözlərin,
Göz yaşları dönüb çaya, dənizə.
Haqsız, haqqın qatdalayıb dizlərin,
Ellər var ki, dönüb qula, kənizə.

Bu naləni, bu fəğanı, bu ahı,
Hansı beyin kəşf elədi həyatda.
El içində üzüqara günahı,
Kim qoydu ki, at oynatsın büsatda?

Doğulanda təmiz olur ürəklər,
Riyakarlıq, pislik nədir bilməyir.
Bəlkə sonra baş alır sərt diləklər,
Ya ucaldır, ya qədd bükür, bel əyir.

Astanaya qədəmimiz ilk, naşı,
Min bir həyat sirlərini seçmirik.
Süfrəsində yaxşı qurub bardaşı,
Bu dünyanın pak suyundan içmirik.

Yaşamağın anlayışı zərurət,
Doğulanlar həyat üçün doğulur.
De niyə bəs təmiz olmur hər niyyət?
Haqqın səsi yuvasında boğulur.

Axı sizsiz həyat nədir söyləyin?
Özünüzə niyə qənim olursuz?
Tamahlara barı sitəm eyləyin,
Ey insanlar, vaxtsız axı solursuz.

İnsan pakdır bu dünyaya gələndə,
Bütün çirkin anlayışlar sonra var.
Məram, duyğu zirvələri dələndə,
Olur zəif ağıllara fitnə yar.

Bu dünyanı alçaldan da özümüz,
Ucalığa qaldıran da bizik biz.
Canlılardan bizim keçir sözümüz,
Qanunları çökdürürük öndə diz.

Kainatda ərzi-kürə oyuncaq,
Oynadırıq həm axşamlar, həm səhər.
Düşünmürük, dünya içi bir bucaq
Tapılmayır sonda bizə bir təhər.

Bir-birinə düşmən olub niyə bəs?
Sərhədlərlə parçaladıq torpağı.
Cahil sonu düşünməyir heç əbəs,
Bir-birinə olur adam, el yağı.

Pak gəlirik bu dünyaya ilk əzəl,
Körpəlikdə dərk etmirik heç nəyi.
Payız çatdı, ömrü alır tez xəzəl,
Boşa çıxır zehnimizin zay səyi.

Düşünmürik hər insanın həyatı,
Sonsuz deyil haradasa nöqtə var.
Vaxt çağırır hey irəli saatı,
Zaman qatıb qabağına can qovar.

Nüvələri, neytıronu kəşf etdik,
Sevinirik qalibiyyət olanda.
Tamah üçün nəfs evinə çox getdik,
Nəş'ələndik qədər daşıb dolanda.

Bu dünyanı ikiəlli tuturuq,
At oynadıb qaçırıq çox sağ-sola.
Gah ağılı, gah ürəyi satırıq,
Zor işlədib güc gəlirik əl-qola.

Bu dünyaya beşgünlükdü deyən biz,
Arzuların buraxırıq yüyənin.
Düşünmürük dünya vahid, insan iz,
Deyil heç vaxt o nə mənim, nə sənin.

Yalnız onun zərrəsiyik, qəlpəsi,
Haqqımız yox dağıtmağa, yıxmağa.
Biz gəlmişik amalların pak səsi,
Kömək olsun zirvələrə çıxmağa.

Bu dünyanın özülü var dözümlü,
Təməlinə bir daş qoyur hər gələn.
Yaxşıların qoyduğu daş əzimli,
Şiş ucları zirvə-zirvə dağ dələn.

Axı qurub yaradanda əlimiz,
Bu dünyanın yaraşığı insanlar.
Şər felinə qoy uymasın dilimiz,
Hər ürəyin bu dünyada dadı var.

Nəfsimizi alçatmayaq söz ilə,
Aciz olduq güc gəlməyək silaha.
Mübarizə aparmayaq özüllə,
Bu dünyada qoşa gedək sabaha.

İnsan pakdır bu dünyaya gələndə,
Qoy saf olsun sona qədər qəlb belə.
Xeyir işdən yorulmasın heç bəndə,
Arxa olsun, kömək olsun yurd, elə.

***14.01.1986***

# İLHAM QANADLARINDA

## XƏYALIM

Eldən qüvvət alıb uçan xəyalım,
Yamyaşıl düzlərdən keçdin-keçmədin?
Mənim ilham adlı gözəl vüsalım,
Qaynar bulaqlardan içdin-içmədin?

O bəyaz çöllərdə qonaq olanda,
Lalələr, nərgizlər dərdin-dərmədin?
Yurduma baharın ətri dolanda,
Şadlıq süfrəsini sərdin-sərmədin?

Eşqin həvəsiylə, vəchlə coşanda,
İlhamın qaynayıb daşdı-daşmadı?
Təbin tərəvətlə nəğmə qoşanda,
Keçilməz dağlardan aşdı-aşmadı?

Kəkliklər, turaclar koldan səkəndə,
Şiş qayalıqlara qondu-qonmadı?
Günəşli günlərdə yağış tökəndə,
Heyrətdən bir anlıq dondun-donmadın?

Səma buludları çox çaxnaşanda,
Xəyalım, tutuldun, tutulmadınmı?
Ürəyə qüssələr, qəm axnaşanda,
Bəladan qurtuldun, qurtulmadınmı?

Saf çöllərdən qazlar, qular köçəndə,
Baharın səfasın duydun-duymadın?
Köçkün qaranquşlar yurda uçanda,
Sən təbiiliyə uydun-uymadın?

Xəzər İtil ilə qoşa coşanda,
Dünyalara səda düşdü-düşmədi?
Ürəklər istəklə qoşalaşanda,
Qəmlərin bağırı bişdi-bişmədi?

Gənclik sabahlara səslər elləri,
Bu qüdrətdən de pay aldın-almadın?
Əllər coşduranda geniş çölləri,
Sən də öz nəğməni çaldın-çalmadın?

Çöllü-biyabana həyat gələndə,
Heyrətindən nağıl oldu-olmadı?
Ellər şadlığından deyib-güləndə,
Könlə həyat eşqi doldu-dolmadı?

Vicdanla əməyə söz birləşəndə,
Göydən ilham pərin endi-enmədi?
Ölkəmizdə hər şey yeniləşəndə,
Diləklər zövq alıb dindi-dinmədi?

Sözlə əməl işlə ayaqlaşanda,
Dastan olub elə yayılmadımı?
Hünərlə vicdanlar sayıqlaşanda,
Çətinliklər düşüb bayılmadımı?

Çiçəkdən don geyən yurdun sevinci,
Tarda-kamançada səslənmədimi?
Ana torpağımdır ömrə dürr, inci,
Düşüb ürəklərə bəslənmədimi?

Qafqaz duyğumuzun uca sərvəti,
Könüldə ehtişam oldu-olmadı?
Ürəkdə sevginin zinət izzəti,
El xəzinəsinə doldu-dolmadı?

Haqqın məramıyla dolan ürəklər,
Birlik obasını qurdu-qurmadı?
Açıb qanadını uçan küləklər,
Erkən yuxulardan durdu-durmadı?

***05.04.1978***

## SEVİRƏM – BU SÖZDƏ HƏZİN BİR LAYLA ...

Sevirəm – bu sözdə həzin bir layla...
Bu sözdə ən nəcib ləyaqət vardır.
Təmiz məhəbbəti susdurar ayla,
Vüqarı dağ kimi bəmbəyaz qardır.

Əyilməz bir kəsin qarşısında heç,
Safa təmiz olar, çirkinə kirli.
Deyər ki, sevgini gözlərindən seç,
Baxma ki, kəlamı sirlidir, sirli.

O, dünya evində açan qönçədir,
Hər gələn qoxlayar, hər gedən dadar.
Bir günəştək pakdır, qəlbtək incidir,
Yalanı, röyanı, fitnəni udar.

O, çağlayan çeşmə, qaynayan bulaq,
Coşğun şəlalətək kükrəyib daşar,
Ordakı dil dedi, eşitdi qulaq,
Oranı əbədi ev edib yaşar.

Sevirəm, özüldür əhdü-peymana,
Təmiz məhəbbətin qülləsi olar.
Bir kəlmə altında kirləşən dona,
Çirkli yağışlarla ləpələr dolar.

Sevirəm, hər qəlbə ayaq açsa da,
Hər ürək saxlamır onu əbədi.
Pətəkdən-pətəyə arı qonsa da,
O da öz balına sevirəm dedi.

Çiçəkdən-çiçəyə qonan bülbüllər,
Hər gülə sevgisin izah etməyir.
Saxlayır köksündə eşqini illər,
O da ətir üçün bağa getməyir.

Sarmaşıq dolanar bağçada gülün,
Çəməndə lalənin altun qoynuna.
Bülbül işə salar öz şirin dilin,
Güllər ətir saçar onun oynuna.

Quşlar deməsə də sevirəm dillə,
Onların quş dili sevda söyləyir.
Sədaqət andını göndərir çöllə,
Dilsiz sədaları aman eyləyir.

Sevirəm, köksündə qövr edən hər kəs,
Onu asanlıqla diliylə deməz.
Əgər lap dərindən gələrsə o səs,
O səsin harayı sevəni əyməz.

Sevirəm, həyatda ən uca çinar,
Hər kəs o çinarı adlaya bilməz.
Sədaqət olmasa, sevgi də qınar,
Hər axan göz yaşın əliylə silməz.

Sevirəm, dünyanı odlayıb bir-bir,
Bütün kainata eşqin paylayır.
Paklıq qarşısında olaraq əsir,
Yatanı yuxudan, sanki haylayır.

Sevirəm, bu sözün altında əzəl,
Məhəbbət bir neçə dona bürünər.
Dildə deyilsə də tez olar xəzəl,
Yalan çöhrəsində aydın görünər.

Təmiz məhəbbətin önündə bə‘zən,
Yalan ilan təki sürünsədə ah.
Asanca qəlblərdə olsa da gəzən,
Bir süfrə başında açılar günah.

Çəmənlər çiçəyə bürünsə də hey,
Hər çiçək şirəsi bal ki, deyildir?
Hər dilə, dodağa dəyən sərxoş mey,
Bir yurdsuz, yuvasız səfil veyildir.

Dənizdə qağayı ömrü uzunu,
Fırlanar başına pak dalğaların.
Qurd tutsa qəflətən çöldə quzunu,
Kim ondan soracaq namusun, arın?

Sevirəm, dəyanət istər ürəkdən,
O taybatay açmaz qapısın bağın.
Qorxmaz nə tufandan, nə də küləkdən,
Başında qar olar dözümlü dağın.

Sevirəm sözünü dil asan deyər,
Ürəkdə gəzdirmək lazımdır onu.
Sevənlər hicranın libasın geyər,
Qəmli hekayətin qurtarmaz sonu.

Sevirəm, hər dilə yatsa da, ancaq
hər ürək saxlamaz onu bakirə.
Deyildir yaxaya sancılan sancaq,
Atılsa ayağa batacaq kirə.

Sevirəm sözünün arxasında bil,
Diqqət et, ey deyən, nələr səslənir.
Bu sözdə gizlənib bir müqəddəs sirr,
Yadı yaxın edən sevgi bəslənir.

Sevirəm, bu sözdən qılınclar susar,
Dağlar parçalanar durduğu yerdə.
Onun naləsindən göylər qan qusar,
Bahar xəzan olar, dözməz bu dərdə.

Sevirəm, dünyanı dolaşıb bir-bir,
Hər danışan dildən dodağa qonar.
Onun qarşısında qəlb olar əsir,
O sussa, insanlıq əbədi donar.

Nə zahirə baxar, nə də daxilə,
O qəlbdə yurd salıb gözlərdə yanar.
Bir müddət keçməyib axacaq dilə,
Odlu dodaqlara şeh təki qonar.

Sevirəm, bu kəlmə yanar ürəyin
təmiz məhəbbətin aləmə yayar.
İki nəcib qəlbin birlikdə rəyin,
Önünə öz sadiq imzasın qoyar.

Sevirəm, həyatın altun beşiyi,
Eşqin damarlarda sel olan qanı.
Böyük kainata çəkir keşiyi,
Odur məhəbbətin mənzil ünvanı.

Sevirəm, dünyanın düşünən beyni,
Onsuz cahanımız qara geyinər.
Odlu məhəbbətin açılmaz eyni,
Onsuz necə eşqin qəlbi döyünər?!..

***27.09.1979***

## DƏRDLİ ÜRƏYİM

Ay mənim bəlalı, dərdli ürəyim,
Dolub-boşalmağı kimdən öyrəndin?
Mirvari sütunlu, qızıl dirəyim,
Qartaltək zirvələr üstünə endin.

Susma, sükutunla necə yanmayım?
Necə başa vurum bu illəri mən?
Sədana bürünsün hər ötən ayım,
Deməyim bu gündən pis keçdi dünən.

Sənin kədərinə şərikəm, ürək,
Sevincinlə mənə açılan qapım.
Əsərsə köksündə dəhşətli külək,
Qoy sənin qoynunda mən yuva tapım.

Əgər bircə kərə azsan yolunu,
Onda sus, bununla tərk eylə məni.
Gəzən ayağımı, vuran qolumu,
Sındır ki, ayağa salmayım səni.

Ya da bircə dəfə lovğa-lovğa mən,
Görsənki gəzirəm o baş, bu başa,
Ey ürək, ehtiyat etmə o gündən,
Tərk eylə dünyanı vurmayım başa.

Tutaq ki, bir dəfə səhv etdim əgər,
Keçmə günahımdan, peşman olarsan.
Bu səhvlər yığışıb qəddimi əyər,
Bahardan payıza dönüb solarsan.

Bir gün səadətdən tutub zirvə sən,
Tale nişanıtək taxsan sinəmə.
Vaxtsız saçlarıma salmayaraq dən,
Nə dərdə yol ver sən, nədə ki, qəmə.

Onda gəl bükgünən qəddimi, ürək,
Yandır bu köksümü, odlara qala.
Bir tufan qopar ki, əsdikcə külək,
Məni fırtınalar qoynuna sala.

Başına dolanım, başına dönüm,
Bir müqəssir kimi izlə sən məni.
Sənə dönə-dönə çatsa da ünüm,
Ayıq ol, odlara salmayım səni.

Fəqət çaxan şimşək, qopan tufan ol,
Qoy hayın-harayın dünyaya yetsin.
Əzabın olsa da nə qədər bol-bol,
Çalış ki, iradən dalınca getsin.

***19.03.1980. Yasamal***

## ÜRƏK DÖYÜNTÜM

Nə sakitcə səsin gəlir sinəmdən,
Kükrəyirsən, çağlayırsan binəmdən,
Kirpiyimə xalı döşər qəm nəmdən,
Ay dalğalı, çılğın ürək döyüntüm,
Taleyimtək dalğın ürək döyüntüm.

Qəlb evimdə gah sərsəri küləksən,
Coşub daşan şəlaləli diləksən,
Acı-şirin ayırd edən ələksən,
Ayım, günüm, ilim ürək döyüntüm,
Mənim susmaz dilim ürək döyüntüm.

Hər ağrına, hər acına dözərəm,
Qəm-qüssədən deməginən bezərəm,
Sükutunla söylə, necə gəzərəm?
Ələm səndən iraq, ürək döyüntüm,
Bu ömrümə çıraq, ürək döyüntüm.

Sızlayanda sinəm, oda bürünər,
Fikrim, duyğum duman təki sürünər,
Əqlim çaşar, üzüm dərdli görünər,
Açılmaz ki, sabah ürək döyüntüm,
Gəl inlətmə günah, ürək döyüntüm.

Yorulanda səsin-sədan azalar,
Gah sevincim, gah kədərim sozalar,
Dərdi-sərdən könül simli saz olar,
Hey sızladar teli, ürək döyüntüm,
Gəl ağlatma dili, ürək döyüntüm.

***24.10.1985.Qum adası***

## SƏNİ ARZULADIM

Bəlkə də bu yanğı, bəlkə də giley,
Səni arzuladım, sərin bir gecə.
Sanki yazıq sinəm sızlayan bir ney.
Ahəstə segahı çalır indicə.

Səni arzuladım, bu həzin bir eşq,
Çağlar bulaq kimi gözü görünməz.
Səninçin bəlkə də sevgiyə bir məşq,
Mənimçin ayaqda, izdə sürünməz.

Səni arzuladım, bu bahar çağı,
Üstümə dünyanın odu töküldü.
Ürək fəryad çəkdi, dil dedi ağı,
Gözümün qəm yaşı, nəmi töküldü.

Səni arzuladım, arada uçrum,
Nə deyim, nə deyim mən bu ürəyə.
Sinəmdən sevgini hara qaçırım?
Niyə dəyər bu eşq, söylə de niyə?

Nələr çəkdi başım yolunda, nələr?
Şadiman, etibar hər kəsdə olmaz.
Bir sözümüz də var, uludan gələr,
Sındırılan qabda heç vaxt su qalmaz.

***30.04.1986***

## TÜKƏNMƏZDİR BULAĞI

Məhəbbətin sinədə tükənməzdir bulağı,
Coşanda sellər təki aparır bağça-bağı,
Bardaş qurub mənzildə ömrün növrəstə çağı,
Hey yandırır köksümü od ilə, atəş ilə,
Bu pünhani əzabı heç gətirməyir dilə.

Əlçatmayan zirvələr məskənidir əzəldən,
Doymayır könlün gözü şeirlərdən, qəzəldən,
Qışından, baharından, yayından xəzəlindən,
Uçan pənbə buludlar yatmağa yatağıdır,
Sis dağlar, sıx meşələr eşqimin otağıdır.

İstər qarlı qış olsun, istər yamyaşıl bahar,
Təlatümlü ürəyim odundan olub ahar,
Düzlərdə, yaylaqlarda istər şam, istər nahar,
Məhəbbətim tökəcək ortaya xəzinəsin,
Arı təki hər gülə batıracaq iynəsin.

Xan çinarın başında özünə yuva qurar,
Yorulsa əgər ürək onunla ara vurar,
Qoşulub arzulara yol ayrıcında durar,
İsindirər uzağı, yaxını öz oduyla,
Ən yüksək zirvələrdə parlayar öz adıyla.

***17.08.1986 Müşfiq qəsəbəsi***

## MƏNİM DUYĞULARIM

Mənim duyğularım zirvəsi uca,
Başı min bəlalı sis dağlarımdır.
Mənim duyğularım dünya durduqca,
Bəxtiyar, firavan, xoş çağlarımdır.

Mənim duyğularım idrak əlində,
Coşğun dənizlərtək köpürəcəkdir.
İçində bir yanğı, həyat dilində,
İllərə, aylara ötürəcəkdir.

Qismətim enişli, yoxuşlu yollar,
Keçməyi çətindir, keçilməyi də.
Boşalsa gücündən, qalsa da qollar,
Biçməyi çətindir, biçilməyi də.

Mənim duyğularım mərамı sonsuz,
Min-min dənizlərdən, dağdan keçəcək.
Yüz cür qiyafəsiz, naləsiz, donsuz,
Özünə bir sifət, bir üz seçəcək.

Mənim duyğularım köklü ağacdır,
Onu heç bir tufan qopara bilməz.
Əzəldən könlümə, qəlbimə tacdır,
Qəm əlindən alıb apara bilməz.

Mənim duyğularım – sürət qatarı,
Sərhəddən sərhədə adlayacaqdır.
Əridib yox edib zülməti, tarı,
Min bir çətinliyi odlayacaqdır.

Mənim duyğularım bir ayna, güzgü,
İçində nə vardır göstərəcəkdir.
Həyat axınında mükəmməl üzgü,
Qorxunc dalğaları hey gərəcəkdir.

Rakettək səmanı yarıb ikiyə,
Əngin səmalarda o süzəcəkdir.
Ağrını, acını salmıb çəkiyə,
Dözümün belini o üzəcəkdir.

Mənim duyğularım gözündə giley,
Çayları tutmayan sel olacaqdır.
Sinəsi susmayan nəğməli bir ney,
Qəfil qulaqlara çox dolacaqdır.

Mənim duyğularım çöldə didərgin,
Yüyənsiz, yəhərsiz atlara bənzər.
Hər günü imtahan, hər günü gərgin,
Sinəmdən sivrilib dünyanı gəzər.

Mənim duyğularım – könül nəş'əsi,
Sığmaz zehinimə gecəbəgündüz.
Hər gün çiçəkləyər tər bənövşəsi,
Qoymaz ürəyimdə nə dərə, nə düz.

Mənim duyğularım – tufana dözən,
Tikibdi bəxtimə daş üzlü saray.
Bir şahlıq quşudur zirvədə gəzən,
Şadiman, sənsiz də çəkəcək haray.

***19.08.1986***

## ÜRƏK ÇIRPINTILARIM

Könlümün bağında açar çiçəklər,
Bu ki, başdan-başa sədaqətimdir.
Yenə min ismətli arzum ləçəklər,
Əbədi idraka həqiqətimdir.

Sinəmdə alışır şanlı duyğular,
Baş alar yüyənsiz, başsız uyğular,
Bağrıma sığmayan min bir qayğılar,
Əzəldən könlümə ibadətimdir.

Min nəğmə söyləyər dilim bir anda,
Köz olmuş şərqilər alışar canda,
Gur səsim, harayım gələr cahanda,
Könlümdən dünyaya sədaqətimdir.

Yayılar canıma xoş mahnı dadı,
Dolaşar dilimdə vüsalın adı,
Mənəm səadətin sadiq övladı,
Haqqa, ədalətə pak niyyətimdir.

Sarı bülbüllərtək cəh-cəh vuraram,
Ələmlə, qüssəylə ara vuraram,
Qartalam, zirvədə yuva quraram,
Bu da məğrurluqla ülviyyətimdir.

Sərhədsiz könlümdə göylər qarışar,
Xoşca çırpıntılar hər an alışar,
Qədərin hökmüylə ruhum yarışar,
Çox məğrur sinəmlə ədavətimdir.

Şadiman, bu zaman qaçır irəli,
Qəmin yorulmadı heç vuran əli,
Çılğın arzuların əlində dəli,
Əbədi pozulmaz hekayətimdir.

***20-27.08.1986. Müşfiq qəsəbəsi***

## OXUNMAYAN ŞEİRLƏR

Şeirim oxunmayır deyən şairlər,
Sinədən gəlməyən şeir oxunmaz.
Qalar dükanlarda o qalaq-qalaq,
Ona düşünənin əli toxunmaz.

Şeriyyət yanğıdır, şeirsə ocaq,
Alışan ürəkdən o gəlir, ancaq,
O, həm həyalıdır, həm də utancaq,
Hər könül bağında budağa qonmaz.

İndi yazan çoxdur deyirlər hələ,
Siz allah, bu sözü gətirmin dilə,
Həqiqi yazanlar qalıbdır elə,
Hər düşünən kəsdə qəlb, sinə yanmaz.

O bir bulaqdır ki, dupduru gözü,
O bir ocaqdır ki, alovu, közü,
Toyda da, yasda da, qaynayar sözü,
Od tutub yanmayan qəlbdə oyanmaz.

İndi yazan çoxdur deyən «istedad»,
Həqiqi yazandan xalqa qalır ad,
Hər qələm götürən olmadı ustad,
Bunu nə bir əsr, nə zaman danmaz.

Dünən bir yazar da hey söylənirdi,
«İndi yazan çoxdur», qəmli deyirdi,
Xalqın sabahıyla o əylənirdi,
Şair kəs ötəri hisslərə yanmaz.

Şadiman, alışma, yanma bu adla,
Öyünmə «yazıram» deyən hər adla,
Əsrlər görüşür, çünki ustadla,
Hər qələm götürən bu adı qanmaz.

***28.10.1987. Gəmidə***

## GƏLMİSƏN

Nə bildin ki, çətinlikdə qalan var,
Yaxşı ki, sən çatıb dada gəlmisən.
Çən içində boşalan var, dolan var,
Ünüm yetib ah, fəryada gəlmisən.

Bağrım başı yaralardır, yaralar,
Üstbəüstdən həyat məni yaralar,
Əlacsızlıq könlün için paralar,
Ünüm yetib ah, fəryada gəlmisən.

Duyğularım sinə tutmaz çaylardır,
Bağrım, köksüm nalələrdir, vaylardır,
Ömrümüzü alıb gedən aylardır,
Qonaq olub, bu səyyada gəlmisən.

Cümlə-cahan bilir sinəm doludur,
Şeir, sənət qədərin haqq yoludur,
Gözlərimdən axan leysan, doludur,
Divanəni salıb yada gəlmisən.

İçi dolu, qəlbi ağlar bülbüləm,
Bağ həsrətli, yolu bağlar bülbüləm,
Soya, kökə könül bağlar bülbüləm,
Baxmıb dosta, şərə, yada gəlmisən.

Bu köksümün alışar od-ocağı,
Qəlb evimin aləmdir hər bucağı,
Şeriyyətdir, vallah dolu qucağı,
Var başımda bilib qada, gəlmisən.

Dəli-dolu sellər təki coşaram,
Sərhədləri, ölkələri aşaram,
Min il belə ürəklərdə yaşaram,
Harayımı dada-dada gəlmisən.

Şadimanın könlü yatmaz hər kəsə,
Oynamaram hər haraya, hər kəsə,
Məramımı, sənə deyim mən kəsə...
Bəxtim varmış, sən bu ada gəlmisən.

***25.10.1987***

## SİNƏ DOLU, GÖZÜ AĞLAR ŞAİRƏM

Sinə dolu, gözü ağlar şairəm,
Sabah üçün pak işinə, qurbanam.
Bulaq təki qaynar, çağlar şairəm,
Təbim, qəfil gəlişinə, qurbanam.

Bir səyyadam, səhraların qonağı,
Yazılmayıb qəlbin min bir varağı,
Sabahımın xoş məramı, çırağı,
Təbim, qəfil gəlişinə, qurbanam.

Zaman deyir, onsuz gec-tez sözünü,
Çoxlarının şöhrət örtüb gözünü,
Bir danışdır ürəyimin özünü,
Təbim, qəfil gəlişinə, qurbanam.

İçimdəki məramlarım cilalı,
Atdım daha qəm-qüssəni, məlalı,
Taleyimin sabahının calalı,
Təbim, qəfil gəlişinə, qurbanam.

Çox quruyub gözlərimdə qəm yaşım,
Dərdi-sərlə keçdi cavan, mərd yaşım,
Qurtarmazdır, cəfalardan heç başım,
Təbim, qəfil gəlişinə, qurbanam.

Hər ömürə canlı bir gün yazılar,
Rəngarəgdir talelərdə yazılar,
Şər əliylə mərdə quyu qazılar,
Təbim, qəfil gəlişinə, qurbanam.

Şadimana namərd dağlar çəkibdi,
Sıx ormanam, başıma çən çökübdü,
Haqq yolunda gözüm çox yaş tökübdü,
Təbim, qəfil gəlişinə, qurbanam.

***25.10.1987***

## HƏYAT BİZƏ LAYLA ÇALAR

Yolu görən gözü ilə,
O mehriban üzü ilə,
Şirin-şəkər sözü ilə,
Boynumuza qolun salar,
Həyat bizə layla çalar.

Başımızdan başı uca,
Körpə, uşaq, cavan, qoca,
Məramları haqqa baca,
Qəmli olsaq könül alar,
Həyat bizə layla çalar.

Hər addımda gərəyimiz,
Həzin vuran ürəyimiz,
Sına bilməz dirəyimiz,
Toyda, yasda bizlə olar,
Həyat bizə layla çalar.

Çətinliyə dözən mərddi,
Gah sevincdi, gah da dərddi,
Əyri yolda o namərddi,
Bir gün açar, bir gün solar,
Həyat bizə layla çalar.

Zirvələri əlçatmaz dağ,
Ağrıları sinəyə dağ,
Əgər vursa ürəyə dağ,
Əqrəb təki qəlbi çalar,
Həyat bizə layla çalar.

İdrakların dayağıdır,
Əyrilərə bayağıdır,
Bərkdə ölüm ayağıdır,
Biz dolanda o da dolar,
Həyat bizə layla çalar.

Ey Şadiman, qəmli olsan,
Səadətdən dəmli olsan,
Könlün-gözün nəmli olsa,
Ürək alar, könül alar,
Həyat bizə layla çalar.

***05.11.1987***

## YAXŞILIĞIN ÜNVANI

Yaxşılığın ünvanına düşərək,
Yaxşıları ara, axtar dünyada.
Yoxuşlarda, enişlərdə bişərək,
Yıxılana əl tutmağa çat dada.

Şadlıq da var, sevinc də var, qəm də var,
Firavan da, gözü-könlü dəm də var,
Ağıl içrə ağılından kəm də var,
Pak vicdanı, ləyaqəti sal yada.

Bir evdəyik bölünürük ürəklə,
Tikiləni saxlayırlar dirəklə,
Əyri əldən gələn gedər kələklə,
Haram gözdən əskik olmaz qan-qada.

Təmiz insan neylər ellər malını?
Tamahkarın sonda gördük halını,
Bir meyvənin dəymişini, kalını,
Birdən yeyən ağız gəlməz heç dada.

Çox mətləblər idraklarda sınandı,
Addımıyçın yazıq ürək qınandı,
Yaman gündə yenə də o yanandı,
Çatar elə ah-naləyə, fəryada.

Arzu, amal sinələrdə çiçəklər,
Yüzü fəna, yüzü isə gerçəklər,
Gülzarlıqda qanad açsa böcəklər,
Yetər böyük dəvə ada, fil ada.

Yaxşı olsa, yamanlara nə qalar?
Göy göy olsa, dumanlara nə qalar?
Əl əyrisə, yamanlara nə qalar?
Gedər yuva, gedər oba, el bada.

Ay Şadiman, könül – düzlük möhtacı,
Söylə, neylər uca aqil, baş tacı?
Düzlükdədir al sabahın əlacı,
Birgə yanaq, qoy qarışsın od oda.

***05.11.1987***

## AÇIQ MƏKTUB

Ey əlinə qələm götürüb
millət adından yazıb-pozan,
Heyhat, yeri gələndə
millətinə quyu qazan.
Bir balaca şan-şöhrət,
zirvəsinə çatan kimi yolunu azan,
məgər arxasız-köməksizlərin
istedadı yoxmu?
Yoxsa fitri istedad sinənə oxmu?
İstedad sinənə ox ola bilər,
Vətənin yox,
Sənin gözlərində yox ola bilər,
Vətənin yox.
Sən allah, sən də cızma-qara elə,
Sal çiy sözlərini dildən-dilə.
Ancaq qarşıya səd çəkmə bilə-bilə.
Tutduğun yerə güvənib üzümə qapı bağlama,
Vaxtsız-vədəsiz dilәkləri
sinəmizlə hesablaşmayan köksümüzü dağlama.
Nə arxam, köməyim var mənim,
Nə də istisinə, sərininə sığındığım.
Tufana, borana dözən ürəyim...
O mənəm deyən gözlərinlə
bağlama qapını üzümə...
Laqeyd olma sən
sinəmi dəlib keçən sözümə.
Qoy mən də yazım, sən də yaz,
Bir zaman gələr...
Xalq özü deyər kim dərindir, kim dayaz...

***22.07.1990***

## ÖMÜR

Ömür – dərdli talelərdən keçən bir yoldu,
Keçmişinə ağı deyən ağlayan dildi.
Ondan qaçan ürəyimə anlarım quldu,
Gəncliyimi əldən alan əzazil ildi.

O bəxtmin qapısında duran div, tilsim,
Onun adı hər ağızda hallanan isim.

Didir canlı günlərimi yalquzaq kimi,
Dolanıbdı əl qoluma göy qurşaq kimi,
Yapışıbdı ətəyimdən bir uşaq kimi,
Nə sevinci, nə kədəri, nə dərdi bildi.

Hər gününə dartılaraq qırılan bir sim,
Onun adı hər ağızda hallanan isim.

Ömür çağlar bir çeşmədir içdi gözündən,
Bir doğulduq körpə kimi öpdük üzündən,
Hər bəlaya dözdük, allah, onun üzündən,
Budaqlarda yellər döyən saralan güldü.

Bədən içrə can titrəyir hey əsim-əsim,
Onun adı hər ağızda hallanan isim.

Şirin xanım qəm yükünü sürüyə bilmir,
Gücdən düşüb, əldən düşüb yeriyə bilmir,
Ötən günlər qayıdarmı geriyə, bilmir?!
O ruhların təkanıdı, bədənlər öldü.

Qaçan vaxtın yollarını mən necə kəsim?!
Onun adı hər ağızda hallanan isim.

***21.06.1991***

## KÖNLÜMƏ MƏKTUB

Dünyanın əzab və əziyyətlərini uda-uda,
Verdim öləri ömrü bada.
Doğularkən, bir günahsız çocuq idim,
Bütün gördüklərimə həqiqət dedim.
Fəqət, yanıldığımı bilmədim ömrüm boyu,
Quruldu gözəl-gözəl duyğularımın toyu.
Çox istəyim, çox diləyim qanadlanıb, uçdu getdi,
Ürəyimdə min bir yara açdı getdi,
Xatiratı can yandırır,
Qəlbə düşüb həyəcan yandırır.
Dünya bomboş səhra,
Diləklərim ilğımlara tuş olmuş sussuz dəvə,
Neçə kərə yol verdi səhvə.
Anlarım yazılmamış ağ səhifə,
Mürəkkəbi düşəndə pozulmaz,
Hekayəti yozulmaz.
Nə çox, nə az,
Yarı qış, yarı yaz,
Yaşadım günlərimin avazında,
Əridim yağ kimi bəxtimin nazında.
Getdikcə qurtarmaz,
Çalışsan da, vuruşsan da,
səni mənzil başına aparmaz,
Sonu görünməz, dünyanın ağrı-acıları çox,
Nə imdad edəni, nə fəryadına yetəni yox.
Elə ağrılar içində çalışırıq,
Öz ömrümüzə alışırıq.
Sən məndən çəkirsən, mən səndən,
Baxa bilmirik bir-birimizə gendən.
Hər ömür bir tamaşa,
Bəxtimiz dəyməsin daşa,
Dəyməsin daşa.

***28.06.1991 Tağay***

## HƏSRƏT QALMIŞAM KƏNDƏ

Duyğular pərakəndə,
Bəxtin bağlı qolları.
Həsrət qalmışam kəndə,
Ay Tağayın yolları.

Apar məni ocağa,
Girim ana qucağa,
Olum yenidən çağa,
Ay Tağayın yolları.

Zamanım ordan keçdi,
Qullasından su içdi,
Yanan bağırdı, içdi,
Ay Tağayın yolları.

Ömrümün yollarıtək,
Tilsimə düşmüsən bərk,
Başıma olmusan sərk,
Ay Tağayın yolları.

Ol bəxtimə bir çapar,
Qanadlanıb toz qopar,
Məni anama apar,
Ay Tağayın yolları.

Ürək amadə sənsiz,
Şeh neyləyər çəmənsiz?
Sən də darıx, gəl mənsiz,
Ay Tağayın yolları.
Ay Tağayın yolları.

***28.06.1991 Tağay***

## KÖNLÜMƏ YAĞIŞ YAĞIR

İçimdəki buludlar,
Yol alır ağır-ağır.
Saçın yolur şimşəklər,
Könlümə yağış yağır.

Leysanlar qəlbi yuyur,
Dolmuş ürək uyuyur,
Od-ocağım soyuyur,
Könlümə yağış yağır.

At oynadır küləklər,
Lərzə gəlir fələklər,
Sellər içi ələklər,
Könlümə yağış yağır.

Dolmuş ürək boşalır,
Dərd sinədən baş alır,
Əsəblərim yumşalır,
Könlümə yağış yağır.

Şadiman, ovun bir az,
Olmaz bəxtdə daim yaz,
Qəmlərinə qəbir qaz,
Könlümə yağış yağır.

***08.09.1991***

## PAYIZ AXŞAMI

Qəlbimi, ruhumu alıb əlimdən,
Tufan qoparırsan, payız axşamı.
Bu coşğun təbimi o pak elindən,
Hara aparırsan, payız axşamı?

Yandırma ürəyi, atıb qoynuna,
Qoymursan könlümü odda qoruna,
Çılğın diləkləri salıb toruna,
Hara aparırsan, payız axşamı?

Sükut içindədir gecənin bağrı,
Silinib qəlbimdən hər acı-ağrı,
Hicrində alışan ürəyi, bağrı,
Hara aparırsan, payız axşamı?

Köksümdə alışan ulduzlar səf-səf,
Hüsnünü oxşayan hilalın sədəf,
Qara şallı gecə uyğuma kələf,
Hara aparırsan, payız axşamı?

Şadiman bir şərqi oxuyur pəstə,
Sevgiylə alışan ürəyi xəstə,
Durmusan təbimlə yenə də qəsdə,
Hara aparırsan, payız axşamı?

***11.11.1991***

## BU GECƏ YUXUM QAÇIB

Gecənin uzunluğu çəkib məni aparır,
Qərib-qərib duyğular qəlbdə tufan qoparır,
Göz zillənib tavana fikir fikiri arır,
Kainatın içinə ürəyim bir yol açıb,
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Ulduzların üstündə qaçışan diləklərim,
Durnalartək səf tutub uçuşan diləklərim,
Sonsuz ağrı-acıma acışan diləklərim,
Bəs necə yerdə, göydə ruhum təki qol açıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Belə həsrət, iztirab nə vaxtadək çəkəcək?
Nə vaxtadək üstümə dərddən min dərd tökəcək?
Abad olmuş könlümü viran edib sökəcək,
Ünlü xəyal şahpərim yenə haraya uçub?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Yumşaq, isti yatağım tikanlı çöldür mənə,
Üzümə tənə edən alışan dildir mənə,
İstəyirsən, ey gecə, zülməti güldür mənə,
Qəlbim könül süfrəsin bilmirəm harda açıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Fikirlərim gəzişir ətrafda divanətək,
Hey tökülür başıma bir uçuq viranətək,
Ürək tufan qoparır, can titrəyir nanətək,
Yenə də xəyallarım qəlb bağımda gül açıb,
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

Şadimanı tanısan dərdlərinə tay hanı?
Həsrətli ürəyində qəmsiz keçən ay hanı?
Könlümün dünyasında gəz şadlığı, say hanı?
Çoxdan sevinc sarayım viranələrtək uçub,
Gəl şərik ol, ey fələk, bəs necə yuxum qaçıb?
Gözlərimin içindən bu gecə yuxum qaçıb.

***14.11.1985***

## ƏKSİMİ KAĞIZA KÖÇÜRƏN OĞLAN

Əksimi kağıza köçürən oğlan,
Ürək ilhamından oda bələndi.
Çizgiyə boyalar içirən oğlan,
Köksümə bir qəfil ilğım ələndi.

Ən böyük mükafat çəkdiyin şəkil,
Ətirli güllərdən min çələng, əkil,
Ürək məftun oldu, əfsunlandı dil,
Ofsununa düşüb qəlb sehirləndi.

Bir sənət əsəri yarandı o gün,
Qələmin könlümə saldı səda, ün,
Təb məğlub, sən isə rəsminlə öyün,
Ayıldı uyğudan ürək telləndi.

Könül duyğuları barmaqlarında,
Rənglərin ətirli yarpaqlarında,
Şair aciz imiş rəssam yanında,
Cizgilər içində könül dilləndi.

Daima narahat dəqiqəm, anım,
Çılğın ilhamımla qaynayır qanım,
Sənin incidiyin bu Şirin xanım,
Sənət qarşısında, vallah öləndi.

***12.08.1992***

## BAHAR SORAQLI

Ötən günlərimə xəyallar çətir,
Yaşıl ətəkləri bahar soraqlı,
Könüldən getməyir heç istək, xətir,
Haldan-hala salır ürəyi, ağlı.

Həyatı gah şirin, gah acı sandım,
Bəzən yerlə-yeksan oldu istəklər,
Yandım, ağrıların içində, yandım,
Qovruldu sac üstə düşən diləklər.

Odlara qalanıb yanır bu sinəm,
Asimana qalxıb tüstüsü neylim?
Açır əjdahatək ağzını hər dəm,
Bunları söyləyə bilməyir dilim.

Qarışıq şübhələr can üstə gəzir,
Çalır təb rübabım ömür nəğməmi,
Həyat yollarımı iztirab üzür,
Bəxt rəsmimi çəkir gözümün nəmi...

***21.07.1985. Xəstəxana***

## MƏN NECƏ YAŞAYIM

Ürəyin göylərin duman alanda,
Sinəmin içini qüssə çalanda,
Xəyalın könlümə qonaq olanda,
Mən necə yaşayım, bəxtim, mən necə?
Yoxluğun gündüzü eyləyir gecə.

Sənsizlik heçlikdir, boşluqdur hərgah,
Bilməm sinəmdəmi, ya gözdə günah?
Şirin röyaların köksümə pənah,
Olmuşam yenə də təkliyə möhtac,
Ayrılıq necə də alır məndən bac.

Səni axtarıram otaqlarımda,
Göz yaşım leysandır yanaqlarımda,
Donub təbəssümüm dodaqlarımda,
Uçuq xanimanlar yuvası bəxtim,
Ruhumun can adlı havası bəxtim.

Könüldən nəfəsin hələ getməyib,
Heç qulaqlarımdan səsin ötməyib,
Can yiyəsi səntək zülüm etməyib,
Mən yazı masamda donub qalmışam,
Mehrimi ilhama, təbə salmışam.

Gedişin dumana bürüyüb məni,
Göndərib üstümə bir yığın çəni,
Göydəmi, yerdəmi arayım səni?!..
Ömrün küləkləri uçurdur ağlı,
Kainat içinə qaçırdır ağlı.

Vaxtıma tökdüyün dərdə çarə yox,
Dünyada mənimtək günü qarə yox,
Səni çox axtardım, bu aləmdə çox...
Odur ki, ey bəxtim, uçuq kahayam,
Sən gəldiyin səmtə açıq kahayam.

***18.11.1985. İş otağında***

## İLHAMLA ADDIMLAR QOŞA ÜRƏYİM

Oxunsa illərlə qurtarmaz hələ,
Gələr anlar ilə cuşa ürəyim,
Sanki nalə çəkən bir neydir elə,
İlhamla addımlar qoşa ürəyim.

Heç kitab görməyib bu cür hekayət,
Edər əzabından hər gün şikayət,
Könül ağrısını sanar cinayət,
Vurar əzabını başa ürəyim.

Gileyi aləmi yandırıb yaxar,
Dəli şimşəklərtək qəfildən çaxar,
Coşğun sellər təki kükrəyib axar,
Sanar göz yaşıyla daşa ürəyim.

Bir tənha çinardır yol üstə durub,
Qərib qaranquştək boynunu burub,
Elə bil, min illik yuxudan durub,
Təbimi calayar yaşa ürəyim.

Həsrəti içində közə dönübdü,
Ələmdən ağrılı sözə dönübdü,
Qəfil sellər yuyan düzə dönübdü,
Çıxıb istəkləri boşa ürəyim.

Hərdənbir soyunar ələm donunu,
Keçirər ilhamla xoşbəxt anını,
Döyər qapısını, kəsər yanını,
Yazından adlayar qışa ürəyim.

Dolanda buludtək qəfildən dolar,
Üstünü bir aləm çiskinlər alar,
Dumanlar içində lap naçar qalar,
Dönər çaş-baş qalmış quşa ürəyim.

Əlçatmaz, ünyetməz yollu olubdu,
Yük altında qalan qollu olubdu,
Çaxnaşan buludtək lapdan dolubdu,
Dolub bəbəklərə daşa ürəyim.

***30.10.1985***

## ÇADIR QURMUŞAM

İzlərinə gül-çiçəklər düzərəm,
Sənsiz bil ki, həyatımdan bezərəm,
Səhər-axşam səni deyib gəzərəm,
Ey ilhamım, gəlişinə durmuşam,
Yollarında bəyaz çadır qurmuşam.

Pak ürəklə cığırına çıxaram,
Gəlişinlə qəmin evin yıxaram,
Sənsiz necə yola, izə baxaram?
Qayıt, mənim ayım, günüm qaradır,
İztirabdan könlün içi yaradır.

Mənim qəmim selə, suya dönübdü,
Hicranınla üstümə qəm enibdi,
Bəxtim dönüb, çil-çırağım sönübdü,
Tükənibdi olan səbrim, neyləyim?
Sənsiz necə sübhü-nahar eyləyim?

Həsrət ilə gözlər səni yollarım,
Yazmağıma kömək olmur qollarım,
Dəyişməyir ağrı verən hallarım,

Kağızlarım ah-uf edir mən ilə,
Çarpışıram duman ilə, çən ilə.

Qayıt könlə, qayıtmağın yaxşıdır,
Sinəmdəki qəmlərin qar naxşıdır,
Həsrətlərin bir nizamsız axşıdır,
Gecəm edir ulduzlara dildarlıq,
Sənin ilə nəfəs alır bu varlıq.

Ey ilhamım, Şadimandan can gedir,
Can olmayan bədənlərə an nədir?
Səcdələri ürək telə sim edir,
Simlərimin bəmi, zili hay salıb,
İdrakımın yuvasına vay salıb.

***04.10.1985 Gəmidə***

## XƏYALLAR SİNƏNİ DİDİR

Uğursuz, uğurlu günlərlə qalıb,
Xəyallar sinəni yamanca didir.
Gah könlü ağladıb, gah da ki alıb,
Özünü səninlə halbahal edir.

Gəzir beyinlərdə bir tufan təki,
Şığıyır ömürə qopan an təki,
Ürəyin içinə girir can təki,
Hərdən də sinədən yığışıb gedir.

Çəkdiyi rəsmlər naxışlarıdır,
Ağılın ürəyə baxışlarıdır,
Bəbəkdə parlayan göz yaşlarıdır,
Dərd ilə birlikdə ağlaşıb gedir.

Ağrını, əzabı döndərib gücə,
Sızlayır, göynəyir hər gündüz, gecə,
Qısılar ürəyin içində küncə,
Xəyallar ömürə bağlaşıb gedir.

***30.10.1985***

## MƏN SƏNDƏN ÖTRÜ

Könül duyğularım sığmır dünyaya,
Dönüb bircə ayım ən uzun aya,
Gözümün yaşları bir coşğun çaya,
Saf havamdan gəlir mürəkkəb ətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Sənsizlik dağ-düyün çəkir sinəmə,
Gözlərim dözməyir bu yaşa, nəmə,
Gəl, incə mələyim, dönək o dəmə,
Əzizdir köksümdə kağızın xətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Möhlətə, məlala tuş olub ürək,
Puç olub min amal, min arzu, dilək,
Qopartma sinəmdə sən xəzri külək,
Gəl, gəl yollarına düzüm gül çətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

Könül nalə çəkir sızlayır yaman,
Yenə də bürüyüb məni çən, duman,
Gəl ey Şadimandan səadət uman,
Açılmır təbimin sənsiz bir sətri,
Darıxdım, qələmim, mən səndən ötrü.

***27.11.1985. səhər saat 11, gəmi***

## YAXA QURTARA BİLMƏZ

Dərdi-sərdən yaxa qurtara bilməz,
Düşəndə qəfildən acıya günlər.
Durub gözlərimin yaşını silməz,
Özü-öz ağrısın ah ilə dinlər.

Ömrünün baharı asandca gəlmir,
Əngin üfüqlərə şadlıq yüksəlmir,
Üstümüzü alan qəmləri dəlmir,
Bizimlə baş-başa ağrıya inlər.

Əzablara tuşdur, haradan aman,
Başından çəkilməz heç çiskin, duman,
Ürəyə necə də ağrıdır, yaman,
Salar min bir yerdən ana düyünlər.

Nəş'əsi, sevinci tükənən deyil,
Sevgisi qalıbdı didərgin veyil,
Niyə çətinliyə salıbdı meyil?
Ağrıyar əlində yorğun beyinlər.

Ömrünün baharı nə vaxt gələcək?
Bir yol sevinəcək, bir yol güləcək,
Üstündən kədəri, qəmi siləcək,
Salacaq ruhuma eşq dolu ünlər.

Nisgilli səhranın Məcnunu olub,
Yorğunca yollarda Kərəmdir dolub,
Külüngü kütləşən Fərhaddı solub,
Tökülər vaxtıma zalımtək kinlər.

***30.10.1985***

## UÇAN RÖYALAR

Gəlişin, gedişin qəfil olsa da,
Rəngin avazıyıb, üzün solsa da,
Mavi gecələrim sənsiz dolsa da,
Gəl könül qapımı döy dönə-dönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Həsrət kəməndinə salarsa səni,
Üstünə qovlasa dumanı, çəni,
Ey uçan röyalar, unutma məni,
Zamanın təkəri geriyə dönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Uyğulu göylərdə şimşəklər çaxa,
Köksümü həsrətlər alova yaxa,
Gözlərim yoluna hey baxa-baxa,
Dərdimə yüklənib dolsa da sinə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Başımın üstündə yellər əsərsə,
Dilim incəyərsə, ruhum küsərsə,
Qapımın ağzını həsrət kəsərsə,
Bəxtimin çırağı lap qəfil sönə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Gözümdən yaşlar yox, sel axıb gedə,
Min çalarlı yuxum zülümlər edə,
Həsrətlər vəhşitək köksümü didə,
Ünyetməz göylərdən bəlalar enə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Rəngli röyalara aləm gülsə də,
Külli-ixtiyarsan cahan bilsə də,
Həsrət yaşlarını aləm silsə də,
Zülmətin gözləri tuş olsun çənə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Gecəmin xəyalı daş-qalaq olub,
Ahımı dinləyən kar qulaq olub,
Gözüm yaş axıdır, can bulaq olub...
Anlat ötənləri yuxumda mənə,
Söylə pıçıltıyla gəlirəm yenə.

Uçan röyalarım, sızlama hər gün,
Anların kələfi açılmaz düyün,
Ürək döyüntüsü can deyir, öyün,
Budur son qərarım, tövsiyyəm sənə,
Söylə pıçıltıyla gəlirəm yenə.
Söylə pıçıltıyla gəlirəm yenə.

***03.11.1985***

## GƏZİR DUYĞULARIM

Gəzir duyğularım yenə dağ, daşı,
Yenə aman vermir gözümün yaşı,
Tutulub ürəyim, salıb çaş-başı,
Uçur dəli könlüm ənginliklərdə,
Keçir ömür-günüm gərginliklərdə.

Dolmağı yamanmış dəli ürəyin,
Anlaya bilmirəm heç bircə rəyin,
Köksümə sığmayan min bir istəyin,
Əsiri olmuşam mən ki, nə vaxtdan,
Bircə diləyim də düşməyir taxtdan.

Quşlar qanad açır hay-harayımdan,
Buludlar çaxnaşır ahu-vayımdan,
Sinəmdə ucalan təb sarayımdan,
Qəlbim qitələri gəzib dolaşır,
Duyğusuz könlümdə dünya bulaşır.

Mənim duyğularım cahanı tutmaz,
Bu çılğın bağrımı heçnə ovutmaz,
Oddan yaranmışam, tufan soyutmaz,
Gəzər məramlarım aranı, dağı,
Yığışmaz sinəmə heç qürub çağı.

Odlu diləklərim dolaşır düzü,
Adlayır neçə min gecə-gündüzü,
Mən aciz qalmışam özüm də, düzü,
Göydə qanad açan duyğularıma,
Sinəmə sığmayan qayğılarıma.

Çarpışan duyğular, gəlin sinəmə,
Heç aman verməyin qüssəyə, qəmə.
Siz də şərik olun bu çılğın dəmə,
Mən bağrı alışan yanıqlı neyəm,
Özümdən narazı acı gileyəm.

***12.06.1986***

## AY ÜRƏYİM, GƏL DİLLƏŞƏK

Gözəl bahar gələn vaxtı,
Qonaq gülə, yeniləşək.
Ömrümüzün gülsün baxtı,
Ay ürəyim, gəl dilləşək.

Şaxtasında, ağ qarında,
Gül-çiçəkli baharında,
Məhəbbətin yollarında,
Ay ürəyim, gəl dilləşək.

Qəlb bağında pakdır çiçək,
Açılıbdır ləçək-ləçək,
Güllərindən dəstə biçək,
Ay ürəyim, gəl dilləşək.

Eniş-yoxuş bilmib keçək,
Özümüzə düz yol seçək,
Eşqinlə bir şərbət içək,
Ay ürəyim, gəl dilləşək.

Nə sən mənə biganə ol,
Nə hissimlə divanə ol,
Səndən keçir peymanə yol,
Ay ürəyim, gəl dilləşək.

Ömrün bəxtəvər çağında,
Cavanlığın növrağında,
Ağlım qalıb sorağında,
Ay ürəyim, gəl dilləşək.

Qaranquşlar köç edəndə,
Uzaq-uzaq yol gedəndə,
Bilməm, nədir coşur məndə?
Ay ürəyim, gəl dilləşək.

Duman köçün sürən vaxtı,
Şeh yorğanın sərən vaxtı,
Hissim səni görən vaxtı,
Ay ürəyim, gəl dilləşək.

Gözüm yaşı gilələnər,
Yanağa nəm, sis ələnər,
Əhvalıma gün bələnər,
Ay ürəyim, gəl dilləşək.
Yadtək məni sorma gendən,
Yandı bağrım oldu dən-dən,
Cavanlığım gedir əldən...
Ay ürəyim, gəl dilləşək.

Nisgillərlə qoyma məni,
Xəncər təki oyma məni,
Sən vəfasız sayma məni,
Ay ürəyim, gəl dilləşək.

Təbim zövqlə gəzər olar,
Şadimandan bezar olar,
Sənsiz bağım, bağçam solar,
Ay ürəyim, gəl dilləşək.
Ay ürəyim, gəl dilləşək.

***18.11.1985***

## YAZMA DEYİRLƏR MƏNƏ

Bilmirəm nədir belə,
Düşmüşəm dildən-dilə,
Hər işim qalxır zilə,
Hay salıb dönə-dönə,
Yazma deyirlər mənə.

Hey həvəsdən salırlar,
Sevincimi alırlar,
Gül sinəmi çalırlar,
Hay salıb dönə-dönə,
Yazma deyirlər mənə.

Nədir mənim günahım?
Şeriyyətdir sabahım,
Göylərə qalxır ahım,
Hay salıb dönə-dönə,
Yazma deyirlər mənə.

Arxam, köməyim qələm,
Başımda çoxdur ələm,
Bülbül ləhcəli diləm,
Hay salıb dönə-dönə,
Yazma deyirlər mənə.

Şirin xanım, nə çağdır,
Haqqının yolu dağdır,
Hələ ürəyim sağdır,
Hay salıb dönə-dönə,
Yazma deyirlər mənə.

***07.04.1989***

## BAHAR GƏLİB DÜZÜNƏ

Ey ürəyim, bahar gəlib düzünə,
Al günəşi sutək vur üz-gözünə,
Gəl sığal ver ağrı dolu özünə,
Yenə şadlıq, yenə büsat dəmidir,
Amalların sular yaran gəmidir.

Düyğuların əsər kimi düzlənər,
Tufanların hamarlanar, düzlənər,
Eşqlə dolu amalların üzlənər,
Poladlaşan, dəmirləşən qolun var,
Zirvələri fəth eyləyən yolun var.

Baharını min harayla soraqla,
Diləkləri kitab-kitab varaqla,
Qəmə qarşı hiddətini yaraqla,
Çox cəfalar gəlib sənin başına,
Gül-çiçəkdən xonça bəzə başına.

Ağrıların cilidlərə sığışmaz,
Bir dünyasan, min dünyaya sığışmaz,
Cərgə-cərgə istəklərin dağlışmaz,
Gəl ey ürək, yaz ruhunla dilləşək,
Misraların içindəcə əlləşək.

İstəklərin ucu dəlir göyləri,
Kəsilibdi taqətləri, heyləri,
Sərxoş edir qəlbdən axan meyləri,
Ey ürəyim, cilvələnsin diləklər,
Ovundursun sərin mehlər, küləklər.

Ocağının od-alovlar allahı,
Qov uzağa nisgilləri, bəd ahı,
Ümidlərin həyatının pənahı,
Duyğu dolu baharını soraqla,
Saatlardan keçən anı soraqla.

Göylər içrə bulud, çisək gələndə,
Şimşəklər də al günəşə güləndə,
Ormanları, talaları dələndə,
Ey ürəyim, sən də aşıb-daşarsan,
İstək dolu xəyallarla yaşarsan.

Hər səhərim salamlayar dənizi,
Öpər yellər kədərlənmiş bənizi,
Qoyar könlə məram dolu bir izi...
Sanaram ki, bu ruhuma bir sərvət,
Tərk etməsin məni bu şux təravət.

***13.04.1986***

## OD-ATƏŞ SIĞMAYIR

Od-atəş sığmayır sinəmə mənim,
Qabarır, köpürür həyat dənizim.
Dağılır başımdan çiskinim, çənim,
Hər addım yollarda ağarar izim.

Məğrur qartallartək qanad çalaram,
Ən uca zirvələr olar məkanım,
Həyatdan doyunca bir kam alaram,
Şadlıqla, sevinclə keçər hər anım.

Od-atəş sığmayır sinəmə mənim,
Mən ki, bu torpağın odlar qızıyam.
Dəryadan çıxmayır xəyal yelkənim,
Odlu ilhamımla ona arzuyam.

***28.02.1986***

## SƏNİN YADİGARIN MƏNDƏ QALIBDI

Sinəmi göynədir hər ağrı, möhnət,
Ey fələk, üstümü duman alıbdı.
Bu ki səndən mənə dönük xəyanət,
Sənin yadigarın məndə qalıbdı.

Bu bir bəxşişmidir vermisən mənə?
Halallıq etmisən hey dönə-dönə,
Ağrılı sinədən silinmir yenə,
Sənin yadigarın məndə qalıbdı.

Gəl apar, dinclik ver mənə bir qədər,
Tökmə bu köksümə, qəlbimə kədər,
Məni əzablarda yandırma hədər,
Sənin yadigarın məndə qalıbdı.

Gəl bu ağrıları çıxar sinəmdən,
Qurtar gözlərimi leysandan, nəmdən,
Qoparım ömrümü həsrətdən, qəmdən,
Sənin yadigarın məndə qalıbdı.

Bacara bilmirəm mən heç ürəklə,
Uçurtdun könlümü qəfil küləklə,
Gəl apar canımı bir yolluq ərklə,
Sənin yadigarın məndə qalıbdı.

Şadiman qapında minnətçi olub,
Həsrət ağrısından gözləri dolub,
Gəl apar, demə ki, saralıb-solub,
Sənin yadigarın məndə qalıbdı.

***20.01.1986***

## GECƏM, XOŞ GƏLDİN

Ey mənim mübarək gecəm, xoş gəldin,
Gəl, yenə sarılım o pak qoynuna.
Könlümdə kamanla, tarla yüksəldin,
Şahid ol ilhamın səssiz oynuna.

Gəl tənha, sığınım köksünə yenə,
Qapılım ürəyin duyğularına.
Yol açım, ey gecəm, mən dönə-dönə,
Ulu sabahımın qayğılarına.

Səni yuxum üçün səsləmirəm mən,
Yanğılı sinəyə nə gecə-gündüz.
Gözləri yuxuyla bəsləmirəm mən,
Dolanbac yollardan keçmək üçün düz.

Ey mübarək gecə, gəl incə-incə,
Qopart bu könlümdə min həşir-haray.
Oxşa tellərimi, çəkilmə küncə,
Yaradım eşq ilə ən uca saray.

Gəl cır köynəyini sinəm üstündə,
Mənə də bir parça yer ayır barı.
Yanım od-alovla sənin üstündə,
Necə yandırırsan yarını, yarı.

Gəl mübarək gecə, qaranlıq ilə
Aldadıb könlünü, qınama məni.
Sənin hökmün ilə bəlkə çəkilə,
Yanğılı sinəmdi çiskini, çəni.

Dadlı sükutunla ruhumu oxşa,
Ruhum gəzir məni can sorağımda.
Salma ürəyimi zülmətdə yoxşa,
Bu coşub-çağlayan, daşan çağımda.

***14.02.1986***

## OD-ATƏŞƏ ATIRSAN, KÖNÜL

Bu nə narahatlıq, bu nə çılğınlıq,
Məni od-atəşə atırsan, könül.
Fikrin oylağında dolaşmaq üçün,
Zamanın köksündə yatırsan, könül.

Alışır içində min, milyon dilək,
İşindən baş aça bilməyir fələk,
Götürüb əlinə bir narın ələk,
Arzumu arzuna qatırsan könül.

Sevincdən, qüssədən göz yaşın boğub,
O parlaq günəştək bəxtimə doğub,
Buludlu anında dolutək yağıb,
Bulanıq sellərdə batırsan, könül.

Alışmaq həvəsli bir şamtək yanıb,
Sevincə, şadlığa, qəmə boylanıb,
Sıldırım xəyalla birgə dayanıb,
Zirvədən zirvəyə çatırsan, könül.

Səni titrətdikcə ömrün yelləri,
Tökürsən içinə hey dərdi-səri,
Axıdıb yollarda çox alın təri,
Ələmi nəş'əyə satırsan, könül.

Yüyənsiz duyğunun cilovun yığan,
Min bir duyğuları başına sığan,
Gah gülər olursan, gah da ağlağan,
Üstündən dərdi-qəm atırsan, könül.

Şadiman əlində əsir olanda,
Dəli-doluluğun bir sirr olanda,
Qəfil buludlartək gözün dolanda,
Min hissi xəyala çatırsan, könül.

***02.06.1987***

## BU AXŞAM

Ey təbim, ürəyimi doldurmusan bu axşam,
Talan olmuş arzular kükrədi, coşdu, daşdı.
Odu keçmiş sinəmdə yandırdın işıqlı şam,
Sərhəd bilmədi könlüm neçə keçilməz aşdı.

Misralarla mənimçin pak səadət gətirdin,
Bəxtəvər nəş'ələri əllərinlə yetirdin,
Mənim ələmlərimə nöqtə qoydun, bitirdin,
Gözümdə bütün aləm bir boyda ucalaşdı.

Xeyirxahlığa möhtac sinəm sənə minnətdar,
Sığışmayır köksümə arzular, sinəyə dar,
Əridi bu könlümdə qışı keçmiş sazaq, qar,
Bu axşam qüssə, qəmim, məlalım qocalaşdı.

Kainatı yenidən həyatıma bəxş etdin,
Uluca arzuları yollarıma nəqş etdin,
Duyğuma qanad verib, əzizim, hara getdin?
Məramın qüdrətindən qəm kədərə bulaşdı.

Bu axşam gözlərimə şirin yuxu tökmüsən,
İnamsızlıq evimi bərbad edib sökmüsən,
Acı xəyallarımın sinəsinə çökmüsən,
Sən gəldin qüssə, qəmim düz yolunda dolaşdı.

Səni mükafat kimi Tanrım veribmiş mənə,
Hardasa əzizləmiş o səni dönə-dönə,
O əlçatmaz zirvənə qaldırdın məni yenə,
Ruhum məndən xəbərsiz neçə keçilməz aşdı.

Dünyada gözəl əməl səadətmiş, xeyirmiş,
Bu mənim taleyimdə həqiqətmiş, seyirmiş,
Ürəyinə hikməti ağıl, idrak deyirmiş,
Bizi yıxan, qaldıran idrakla dolu başdı.

***17.02.1988***

## AĞLIN, DÜŞÜNCƏNİN DƏRİNLİYİNDƏ

Ağlın, düşüncənin dərinliyində,
Min kama, arzuya çatmaq istərəm.
Nazlı duyğuların sərinliyində,
Dincəlmək istərəm, yatmaq istərəm.

Ömrümü salsa da acılar dərdə,
Yalvaran deyiləm namərdə, mərdə.
Yaxından, uzaqdan hər an, hər yerdə,
Duyğumu duyğuma qatmaq istərəm.

Uçan buludlara qoşullam hər gün,
Başımın üstündə qurram toy-düyün,
Gedəri gəncliklə çox öyündüyüm,
Hünəri başımdan atmaq istərəm.

Min bir xəyallara düşdükcə ürək,
Qəlbdə doğulsa da min, milyon dilək,
Həyatda ümidlər olsa da dirək,
Könlümü sevincə qatmaq istərəm.

Ağlımın içinə qaranlıq salan,
Dəli şimşəklərtək boşalıb dolan,
Kimdir bu dünyada əbədi qalan?
Haqqın göylərində batmaq istərəm.

***07.07.1986 Zağulba***

# MƏHƏBBƏTİN İŞIĞINDA

## MƏNİ MƏFTUN EYLƏYƏN

Ey sevgilim, məni məftun eyləyən,
Dik baxışlı şəhla gözlərin oldu.
Sevirəm sözünü dilsiz söyləyən,
Ürəkdə deyilmiş sözlərin oldu.

Varsa məhəbbətin, varsa ilqarın,
Eşqinə sadiq ol vəfalı yarın,
Qorxma əzabından boranın, qarın,
Həyatda qələbə düzlərin oldu.

Məndən əsirgəmə baxışlarını,
Keçək biz bu yolun yoxuşlarını,
Qəlbimin min dürlü naxışlarını,
Pozan sənin ilkin izlərin oldu.

Madam ki, eşqimiz olubdu bəlli,
Quru vədlərinlə vermə təsəlli,
Gəl titrək əlimdən tut ikiəlli...
Bəlkə bu səadət bizlərin oldu.

***02.02.1978. Yasamal***

## QOVLA BU ÇİSKİNİ

Dikilib üzümə odlu gözlərin,
Əridir şam kimi məni, ey gülüm.
Həsrət ocağında qalıb közlərim,
Söylə yadigarmı qəlbə, sevgilim?

Oğrun baxışların toqquşan zaman,
Gözlərim önünü alır çən, duman,
Ani təbəssümün mənə bir ümman,
Həyatım bilmişəm səni, sevgilim.

Yanır bu ürəyim gizli oduna,
Məndən icazəsiz gedir badına,
Həsrətin damğasın vurma adına,
Üzülər eşqimin dəni, sevgilim.

Hicranın köksümü yandırıb-yaxır,
Sevgimin göyündə şimşəklər çaxır,
Könlümün evinə dumanlar axır,
Qovla bu çiskini, çəni, sevgilim.

***03.02.1978 Yasamal***

## LALLIĞA QAPILMA

Ürəyim od tutub alışır-yanır,
Sanki gecə-gündüz hey alovlanır,
Bə'zən elə olur özünü danır,
Gəl vüsal oduna qarış, sevgilim,
Lallığa qapılma, danış, sevgilim.

Baxışın demirmi, «sevirəm» sözün?
Təbəssümün eşqin qaynadar gözün,
Dilin deməyəni söyləyir gözün,
Gəl vüsal oduna qarış, sevgilim,
Lallığa qapılma, danış, sevgilim.

Hicran küləkləri əsir qapımda,
Xalılar toxuyur könül sapımdan,
Kilidə düşməyir sevda qapım da,
Gəl vüsal oduna qarış, sevgilim,
Lallığa qapılma, danış, sevgilim.

***01.11.1978 Yasamal***

## VURĞUN OLMUŞAM

Qara qaşlarının altından baxan,
Qara gözlərinə vurğun olmuşam.
Köksümün içini yandırıb-yaxan,
Sənlə alışmışam, sənlə solmuşam.

Min bir məna dolu o baxışların,
Oğrun baxmağının əsiriyəm mən.
Qəlbdə cövlan edən soyuq qışların
Əlindən qurtarsın köksümü sinən.

Hər gün səhər-axşam yolumun üstə,
Ucalan bir çinar deyilmisənmi?
Şirin röyalarda qolumun üstə,
Baş qoyub, bəxtəvər yatanda sənmi?!

Bəxtiyar xəyallar qoynunda sənli
Yaşayır hələ də bu yalqız sinəm?
Mənsiz nigaransan, xoşbəxtsən mənli?
O məhzun gözlərdən quruyubmu nəm?!

Eşqim gecə-gündüz olub ah-vayım,
Bürüyər cahanı odsuz odlanar.
Günəşli gündüzüm, gecəli ayım,
Vüsal həsrətiylə alışıb yanar.

***10. 09.1979 Yasamal***

## DİLSİZ SEVGİ

Eşqim nələr çəkdi sənin əlindən,
Bir bunu mən bildim, bir də ürəyim.
Köksə atəş tökən od əməlindən,
Məcnuntək sərgərdan qaldı diləyim.

Dilsiz hekayətə nə vaxtacan mən
Giriftar edəcəm yazıq sinəmi?
Nə qədər lal gəzsən uzaqlarda sən,
Qurumaz gözümün çiskini, nəmi.

Sən ürək etmirsən bircə kəlməyə,
Bəs mənim könlümü neçin qəm ala?
Necə qıyırsan ki, qəddimi əyə,
Həsrətin könlümü çöllərə sala.

Şirin təbəssümlər, odlu baxışlar,
Söylə nə vaxtacan üzəcək məni?
Köksündən köksümə süzən yağışlar
Sevgiyə dəryamı olacaq yəni?

Saysız qüssələrin, saysız qəmlərin
Əlində kimsəsiz naçar qalmışam.
Mənə həyat verən xoşbəxt dəmlərin
Çoxdan sorağını gözdən almışam.

Dinlə, sevdiciyim, ürəkdən gələn,
Odlu kəlmələrin səsin, sədasın.
Odu pərdə-pərdə qalxıb yüksələn,
Özüm o gözlərin alım qadasın.

***11.09.1979 Yasamal***

## HƏSRƏTLİ GÖZLƏR

Yoluna dikilib həsrətli gözlər,
İzləyir gündüzü, gecəni, gülüm.
Lallığa qapılan məhəbbət neylər?
Həsrətə bürünüb neçə ay, ilim.

Bir səhər tapmışdım, sevgilim səni,
Mərhəmət etmədin dilsiz yarına.
Bu necə eşqidir salıbdır məni,
Hicranın sıldırım qayalarına.

Amandır, sevgilim, dikmə üzümə,
Oddan qidalanan lal baxışları.
Eşqin alovunu tökmə gözümə,
Salma ürəyimə qəm naxışları.

Yaman ayrılığa dözməzdir ürək,
O vüsal oduyla çoxdan alışıb.
Sevgimiz, eşqimiz tərpənib zirək,
Amansız həsrətlə demə barışıb.

Sevgilim, həsrətli od baxışını,
Fəqət, tökmə yanan qəlbin içinə.
Yağdır başa eşqin gur yağışını,
Naxələf hicrana getmə keçinə.

***07.09.1979. Yasamal***

## HARDASAN

Üzünün təbəssümü tükənməyən varımdı,
Könlünün təmizliyi mənim pak vüqarımdı,
O ülvü səadətin dağlarda ilk qarımdı,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Bu həyat yollarında gözlədikcə yolunu,
Tökdü tale başına çox leysanı, dolunu,
Söylə, nə vaxt salarsan sən boynuma qolunu?
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Bəxtinin soyuq əli döyəcləyir başıma,
Çox eniş-yoxuş çıxır hər gün, hər an qarşıma,
Bürünübdü həyatım bu acı göz yaşıma,
İxtiyarım, dayağım, həqiqətim hardasan?
Özümdən əziz sevgim, məhəbbətim hardasan?

Dikmişəm gözlərimi yoluna nə zamandı?
Çəkmə əlini məndən, səndən ayrı, yamandı,
Dönüklüyə dözümüm, taqətim yox, amandı,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

İçimdə buzlaşıbdı duyğuların selləri,
Hey verir mənhus yelə pərakəndə illəri,
Soldurma könlümdəki açılan pak gülləri,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

Şadimanın çöhrəsi gülməz sənsiz dünyada,
Sənsiz mənasızlaşır bu ünyetməz dünya da,
Səsim göyləri tutur, bir çatginən fəryada,
İxtiyarım, dayağım, həqiqətim, hardasan?
Özümdən əziz sevgim, məhəbbətim, hardasan?

***08.08.1988***

## HİCRİNDƏ YANIR

Baxışlar toqqaşır, gözlər odlanır,
Ürək için-için hicrində yanır.
İnan ki, odundan özünü danır,
Bu necə intizar, bu necə həsrət?
Açığı könlümə vurur xəsarət.

Özümü atmışam sönməz oduna,
Qəlbim bilə-bilə gedir badına,
Heç çata bilərmi sükut dadına?
Niyə dinməyirsən, niyə, sevgilim?
Gəl qayıt könlümə sevdalı gülüm.

Dillər danışmasa gözlər gülərmi?
Eşqin alışmasa sevda bilərmi?
Acı göz yaşımı əllər silərmi?
Sən sükut evində biganə qalsan,
Günahsız eşqimi bəlaya salsan.

Aman, salma məni od-alovuna,
Çıxıbdı ayrılıq könül ovuna,
Ürək dilsiz eşqlə necə ovuna?
Din-danış harayın gurlasın, daşsın,
Könlüm ayrılığın səddini aşsın.

***07.09.1979. Yasamal***

## BELƏ İSTƏYİRƏM

Mən sənin eşqinlə qalım isinim,
Gül bilib ətirli köksünə sinim,
Bircə kəlmən ilə hay çəkim, dinim,
Düşüm sonalartək gölə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Lapdan qulağıma gələndə səsin,
Həsrəti üzəndə dürlü nəfəsin,
Mənə göy olanda hicran qəfəsin,
Atım hicranları çölə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Yandırıb-yaxanda alovun məni,
Qovlayım üstündən dumanı, çəni,
Qoymayım köksümdən uzağa səni,
Düşsün bu sevdamız dilə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hicran öz evinə salanda başı,
Acı qüssələrdən çatanda qaşı,
O qara gözlərdən tökəndə yaşı,
Əllərim gözünü silə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hərdən qəmgin-qəmgin tənha qalanda,
Başımın üstünü hicran alanda,
Könlümə iztirab, fərağ dolanda,
Harayım yayıla elə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Qarşımdan gülərək ötüb keçəndə,
Gözüm gözlərinin odun biçəndə,
Qəlbin ürəyimdən sevgi içəndə,
Sığınım köksünə elə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Hərdən xumar-xumar gizli baxanda,
Qəlbimi atəşə, oda yaxanda,
Arada ildırım, şimşək çaxanda,
Dolansın şeh dolu yelə, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

Gözün gözlərimə alov tökəndə,
Könlümün evini hicran sökəndə,
Arada rəqiblər nifaq əkəndə,
Olsun dərd müntəzir hələ, sevgilim,
Belə istəyirəm, belə, sevgilim.

***07.04.1979***

## QARA GÖZLƏR

Mənə həyat verən, ey qara gözlər,
Həsrətlə baxmağı kimdən öyrəndin?
Nə qədər bu ürək sükutu gözlər,
Kirpikdən ayrıldın, baxışdan döndün.

Qəlbimi yandırır bu iztirabın,
Könül ocağından keçir alovun.
Möhnətin ürəyin kəsibdi tabın,
Tutur şadlığımı hicran tilovun.

Udur zamanımı lal sükutların,
Dönür əyləncənə düşüncələrim.
Ötür ağır-ağır can saatlarım,
Asılır röyadan hey gecələrim.

***14.09.1979 Yasamal***

## SOYUQ PAYIZLARIM

Soyuq payızlarım başlayır yenə,
Hərə çəkiləcək öz yuvasına.
Başımın üstünə dərd enə-enə,
Qulaq asacağam qəm duasına.

Həsrətli qalacam yenə gözlərə,
Hər payız gecəsi nisgil olacaq.
Odlu köksündəki sirli izlərə
Sazaq ələnəcək, qırov dolacaq.

Soyuq payızlarım başlayır sabah,
Könlüm o gözlərə həsrət qalacaq.
Baxışın çinarın yarpağıtək ah,
Saralıb, torpaqda izi qalacaq.

Uzaqdan-uzağa dilsiz baxışa,
Səssiz danışığa həsrət qalacaq.
O qara gözlərdən yağan yağışa,
Dözməyib könlümdə ümid solacaq.

Soyuq payızlarım başlayır yenə,
Ayrılıq qoynuna salacaq bizi.
Həsrət səhrasında alışır sinə,
İtirib bulağa gedən yol izi.

Soyuq payızlarım başlayır sonsuz,
Eşqimiz yazacaq qəm hekayətin.
Məsum nanə təki varlığım donsuz,
Həsrətdən baharı görəcək çətin.

Soyuq payızlarım başlayır demək,
Birgünlük sənsizlik bir il olacaq.
Köksümə qalacaq sonsuz qəm yemək,
Payız yarpağıtək çöhrəm solacaq.

Soyuq payızlarım başlayır mənim,
Eşqimin baharı xəzan olacaq.
İntizar bəlalı köksümə qənim,
Mənimlə birlikdə həmdəm qalacaq.

***11.09.1979 Yasamal***

## GÖNDƏRSƏN EVİMƏ KARVANLA QƏMİ

Göndərsən evimə karvanla qəmi,
Töksən də üstümə, səsə aləmi,
Bil ki, unutmaram təkcə o dəmi,
Baxışdan-baxışa gizli yol açdın,
Könüldən-könülə izinsiz qaçdın.

Səni kim çağırdı eşq mənzilinə?
Könlüm necə dözsün qəmin zilinə?
Qəlb yaman allandı hicran dilinə,
Ürək tab gətirmir, darır köksümü,
Qırılır qəlbimin gündə min simi.

Amandır, uzaq gəz məndən, ey hicran,
Onsuz bir zindandır mənə bircə an,
Qapqara don geyər al qırmızı dan,
İnan, gündüzlərim gecəyə dönər,
Odlu gözlərinin çırağı sönər.

Onsuz həsrətliyəm, onlu bəxtiyar,
Mənim taleyimə odur ixtiyar,
Sevgim dilə düşsə, hey diyar-diyar,
Mən dönə bilmərəm əhdimdən onsuz,
Bir eşqə düşmüşəm axırı sonsuz.

Çəkdirmə köksümə düyünlü dağlar,
Onsuz için-için gözlərim ağlar,
Qoyma qəm qapımı kilidlər, bağlar,
Yörəmdən duyuram hicran havasın,
Məndən sevməyimin alma qisasın.

Ürəkdə ülfətim sonsuz ümmandır,
Fəqət, yolum üstü çiskin-dumandır,
Səndən yazıq könlüm imdad umandır,
Ağlatma gözləri günahsız yerə,
Döndərmə ömrümü, ey yar, zəhərə.

***11.09.1979 Yasamal***

## BU GÖRÜŞ OXŞAMIR

Bu görüş oxşamır başqa görüşə,
Bu gülüş oxşamır başqa gülüşə,
O yandan bu yana od düşə-düşə,
Sükütlü gözlərlə boylanıb yenə,
Oğrun baxışlarla nə dedin mənə?

Yüz dəfə adladın o baş, bu başa,
Sanki sıldırımdan sən aşa-aşa,
Yorğun dağ selitək hey daşa-daşa,
Çılğın təbəssümlə boylanmadınmı?
Eşqin alovuna sən yanmadınmı?

Gecələr yuxunda hər xəyal bir ov,
Eşqin dəryasına salanda tilov,
Köksündən aləmə nur saçan alov,
Qəlbini atəşə heç salmadımı?
Könül nəğməsini qəlb çalmadımı?

***19.03.1980***

## HƏSRƏT QALMIŞAM

Mənə məhəbbəti hava, su edən,
Ala gözlərinə həsrət qalmışam.
Köksümin içini oduyla didən,
Acı həsrətinə mehr salmışam.

Bahanə var, söylə, görünməməkçin?
Məndən gen gəzməyə səbəb nə olmuş?
Yoxsul hicranlara bürünməməkçin,
Gözlər ümidlərin oduyla dolmuş.

Yoxluğun könlümə qəsd edir, gülüm,
Gecələr yuxumu əlimdən alır.
Varlığın mənimçin ağzımda dilim,
Gah kaman, gah da ki, dərdi ud çalır.

O isti yatağım soyuq məzartək,
Üşüdür köksümü səhərə kimi.
Qəmin qulağımda hey çalır tütək,
Qırılır sevgimin o sarı simi.

Sənsiz ayım batar, günəşim solar,
Eşqimin göyünü duman bürüyər.
Həsrət yalquzaqtək qapımda ular,
Qəmin aralıqda məni sürüyər.

Olum gözlərinin qurbanı ki, mən,
Gizlində saxlayır öz məhəbbətin.
Vaxtsız saçlarıma sevgi salsa dən,
Yazar ürəyimə eşq hekayətin.

Ay mənim eşqimin sevgili yarı,
Səni sevən gözlər yolda qalıbdı.
Nəcib eşqimizin solmaz dildarı,
Sevgin qanadına məni alıbdı.

Aləm eşqimizi səcdəgah sanıb,
Səhər də, axşam da ziyarət edir.
Sənsə həsrətlərin oduna yanıb,
Alova qovuşdun şövqiylə nədir?

İndi tab eləmir ruhum qəminə,
Dərdin qabağına qovlayır məni.
Mehlərin ilğımı vuran dəminə,
Yollayır ayrılıq çiskini, çəni.

***27.09.1979 Yasamal***

## DİNLƏYƏN ÜRƏK

Min cür hekayəti dinləyən ürək,
Bircə hicranına dözə bilməyir.
Axır göz yaşlarım, könül yalqıztək,
Bu əllər gözləri niyə silməyir?

Qüssələr asılıb qəlbin telindən,
Harayım dünyanı başına alıb.
İstəyim, sevincim gedib əlimdən,
Ayrılığın məni oduna salıb.

İsti göz yaşlarım çeşmətək duru,
Axır ürəyimin od bulağına.
Baxışların yorğun, diləklər quru,
Bilməm nə pıçıldar qəm qulağına.

Baxışın alovdur, duruşun atəş,
Gör neçə müddətdir əridir məni.
Bəbək od ələyən bir nurlu günəş,
Aparır könlümdən çiskini, çəni.

Qəmin səyahəti belə başlayıb,
Deyən çox üzücək bizi bu illər.
Hicran çiyinində qəmi daşıyıb,
O üzdən uzalı qalıbdı əllər.

Sevgin ürəyinə məhəbbətimi
Eşq ilə yazanda gələrsən bizə.
Güllərə deyəndə hekayətimi,
Bahar çiçəyitək çıxarsan düzə.

***20.09.1979. Yasamal***

## ŞİRİN KƏLMƏLƏRİN

Şirin kəlmələrin dodaqlarından
Həzin musiqitək axdı töküldü.
Vüsal göylərində açıldı al dan,
Həsrət buludunun bağrı söküldü.

Odlu pıçıltılar qulaqlarından
Köksümə yol aldı duyğular ilə.
Duruldu könlümün bulaqlarından,
Qarışdı sinəmə qayğılar ilə.

Gözlərim sevincdən qaynayıb daşdı,
Yoluna dikildi səhərə qədər.
Fərəhim, şadlığım keçilməz aşdı,
Ayağıma düşdü neçə min kədər.

Dünən pərvazlanan saf məhəbbətim,
Ruhumdan boylanan bir səcdəgahdır.
Ya röyası olsun, ya həqiqəti,
Sənsiz qara üzlü nalədir, ahdır.

Səninçin yaşayan sevdalı ömrüm,
Yolunda yorğundur axıra qədər.
Köksündə qövr edən səsim, səmirim,
Anban bağrımı oduyla didər.

***21.09.1979 Yasamal***

## HƏSRƏT QALIBDI

Gözüm gözlərinə həsrət qalıbdı,
Bircə gün hicran da ağırdır, ağır.
Sinəmdə qüssədən dağ ucaldıbdı,
Oraya həsrətli yağışlar yağır...

Sükutun könlümə hicran calayır,
Həsrətdən peyvəndli bir bağ salıbdı.
Alovun qəlbimə odlar qalayır,
Köksüm şimşəklərin adın alıbdı.

İntizar körpüsü salır köksümə,
Gözüm o yollarda ilişib qalıb.
Qəlbim köklü tardır bənddir bir simə,
«Yetim Segah» təki xəyala dalıb.

Əzizim, intizar anları sonsuz,
Ayrılıq arada qala ucaldıb.
Həsrətim min cürə hiyləsiz, donsuz,
Günahsız ürəyi dərddən qocaldıb.

***18.09.1980 Yasamal***

## DÜNƏN QARŞILAŞDIQ

Dünən qarşılaşdıq yadlar içində,
Baxışdan baxışa alov töküldü.
Həsrət köks evində biçə-biçində,
Bircə baxmağınla ürək söküldü.

O dalğın gözlərin həsrətiylə mən,
Yandım bir od çıxdı yazıq sinədən.
Bilmirəm haradan gəlirdinki sən,
Alova bürünüb köksüm dünəndən.

Bəs niyə alışıb, niyə yanmayım?
Yanmağı sən mənə öyrətmədinmi?
Ürəkdə ağrını necə danmayım?
Danmağı sən mənə söylətmədinmi?

Necə də görünməz oldun bu gün də,
Yoxsa günəş kimi yaz-yaydı evin.
Sənsiz necə deyim köksüm içində
Könlümün gülləri açıbdı, sevin.

***19.03.1980 Yasamal***

## GÖZƏL QIZ

Gözəl qız, yaraşır təbəssüm sənə,
Gülüşün, yerişin, baxışın incə.
O gül dodaqlarla bir də gülsənə,
Olsun gülüşlərin qoy ürəyincə.

Aləm gözlərinin vurğunudur bil,
Bunu deyə bilmir bil ki, dodaq-dil,
Gəlib, keçib-getsə neçə-neçə il,
Ötüşən anları say ürəyincə.

Mənasız keçirmə gəl ayı-günü,
Unutma bəxtəvər toyu-düyünü,
Səni şad eləyən sədanı-ünü,
Yada sal, xatırla, say ürəyincə.

Şadlığı əlindən buraxma heç vaxt,
Ən uca zirvədə qur özünə taxt,
Vəfasız çıxmasın heç bir zaman baxt,
Gülsün neçə bahar, yay ürəyincə.

Gündüzlər günəş də parlasın, yansın,
Gül çöhrən daima nura boyansın,
Qəlbində bəxtəvər duyğu oyansın,
Gülsün gecələrdə ay ürəyincə.

Qəlbin məhəbbətə könül bağlasın,
Qüssənin, kədərin köksün dağlasın,
Arzun zirvə aşsın, eşqin çağlasın,
Coşsun diləklərin qoy ürəyincə.

***06.02.1985. Yasamal***

## O GÖZLƏR KİMİ

Uzun kirpikləri sinəmə oxdu,
Kəsibdi qarşımı igid ər kimi.
Axtarsan dünyanı dünyada yoxdu,
Gözlər görməmişəm o gözlər kimi.

Hissimdə həsrəti çalar lal udu,
Tökülüb köksümə alovun odu,
Məni bəlalara salan da odu,
Gözlər görməmişəm o gözlər kimi.

Yandırıb-yaxmağı bir yana qalsın,
Durubdu qəsdimə könlə qəm salsın,
Öldürüb-dirildib lap qisas alsın,
Gözlər görməmişəm o gözlər kimi.

Qəfil baxışıyla könlümü ovlar,
Tökər köks içinə odlar, alovlar,
Eşqin göylərindən dumanı qovlar,
Gözlər görməmişəm o gözlər kimi.

Oduna yanıram neçə müddətdi,
Onsuz hər addımı, hər işi bəddi,
Onsuz yollarımda keçilməz səddi,
Gözlər görməmişəm o gözlər kimi.

Qəfil can almağı könlümə bəlli,
Odlu məhəbbəti möhkəm təməlli,
Oğrun baxışları mələk əməlli,
Gözlər görməmişəm o gözlər kimi.

Belə can alanı görməyib zaman,
Kəsibdi yolumu yenə ah-aman,
Oynaşır sinəmdə çən, çiskin, duman,
Gözlər görməmişəm o gözlər kimi.

Kəsilər ixtiyar, can gedər əldən,
Ürək fəğan edər lap cani-dildən,
İstəyirsən soruş hər aydan, ildən,
Gözlər görməmişəm o gözlər kimi.

Yollayıb həsrəti qul olum, əylim,
Necə əsir olub hiss dolu meylim,
Dərdinə düşmüşəm, bilmirəm neylim?
Gözlər görməmişəm o gözlər kimi.

Eşq yolunda çəkən qəmü-cəfalar,
Sevgiylə doğulur əhdə-vəfalar,
Ürək bula bilməz daha şəfalar,
Gözlər görməmişəm o gözlər kimi.

Baxanda diləyin, qəlbin oynayar,
İçində yüz şirin xülya qaynayar,
Verdiyi ağrıdan başmı aynayar?
Gözlər görməmişəm o gözlər kimi.

Məni həm güldürən, həm də ağladan,
Köksümü həsrətlə, qəmlə dağladan,
Çılğın ilhamımı coşub-çağladan,
Gözlər görməmişəm o gözlər kimi.

Yolunda canımı fəda eyləyən,
Müqəddəs eşqini dilsiz söyləyən,
Gedəni-gələni necə əyləyən,
Gözlər görməmişəm o gözlər kimi.

Odlu fəğanına dözəndi ürək,
Saf könül evində əyilməz dirək,
Gah sakit, mülayim, gah xəzri külək,
Gözlər görməmişəm o gözlər kimi.

Dəli həsrət ilə yanar qəlb, sinə,
Dönüb istəklərə könlümə sinə,
Günəşdən ələnir od binəsinə,
Gözlər görməmişəm o gözlər kimi.

Mən ki, baxışlara arzuyam, kamam,
Alıbdı gecəmdən yuxumu tamam,
Gecənin yatdığı bir ağır damam,
Gözlər görməmişəm o gözlər kimi.

Həsrətdən könlümü qəm, qüssə oyar,
Oğrun baxışlardan qəlb necə doyar?
Dolanıb dünyanı hey diyar-diyar,
Gözlər görməmişəm o gözlər kimi.

Sevgidən, eşqidən divanə olan,
Kükrəyib buludtək boşalıb dolan,
Payız xəzanıtək saralıb solan,
Gözlər görməmişəm o gözlər kimi.

***22.08.1983. Yasamal***

## MEHRİBAN BAXIŞLARIN

Ömür dərddən qaçardır,
Qərarsız qəlb naçardır.
Sevincə lap açardır,
Mehriban baxışların.

Xəstə könlümə dərman,
Can üstə köksümə can,
Xoş keçən dəqiqə, an,
Mehriban baxışların.

Sevinclə dolur sinə,
Həyandır necə mənə,
İlhamdır, təbdir yenə,
Mehriban baxışların.

Qəlbimi dərd almışdı,
Xəyala nə dalmışdı,
Harada de qalmışdı?
Mehriban baxışların.

Ay insafsız, köksü yar,
Orada gör nələr var,
Qoy olsun könlümə yar,
Mehriban baxışların.

***17.07.1985. Xəstəxana***

## YOLUNU GÖZLƏYİRƏM

Niyə mən biqəraram?
Gözümlə hey araram,
Bir an yox məndə aram,
Yolunu gözləyirəm.

Vüsalım aşıb dağ-düz,
Keçibdi neçə gündüz,
Ümidlə gecə-gündüz,
Yolunu gözləyirəm.

Ürək eşqə sarına,
Vəfalı ol yarına,
Əhdinə, ilqarına,
Yolunu gözləyirəm.

Gəl xoşbəxtlik çağıma,
Səs gəlir qulağıma,
Baxıram sol-sağıma,
Yolunu gözləyirəm.

Dəqiqəm hey uzanır,
Qəlb od içində yanır,
Anbaan səni anır,
Yolunu gözləyirəm.

Bu külək necə əsir,
Olubdu könlüm əsir.
Qapımı hicran kəsir,
Yolunu gözləyirəm.

Əhdimə sadiq ol yar,
Bu ürək olmasın xar,
Bilirsən, dost-düşmən var,
Yolunu gözləyirəm.

Taleyim qəmə batıb,
Elə bil bəxti yatıb,
Yuxuma haram qatıb,
Yolunu gözləyirəm.

Gecəm-gündüzüm mənim,
Həsrətin duman, çənim,
Dəqiqəm olub qənim,
Yolunu gözləyirəm.

Xəyalım sizə qaçıb,
Gözlərim sübhü açıb,
Bax günəş şəfəq saçıb,
Yolunu gözləyirəm.

Günlərim sənsiz neylər?
Şikayət kimə eylər?
Min kərə dilim söylər,
Yolunu gözləyirəm.

Son qoy qüssəyə, qəmə,
Dözmür axı göz qəmə,
Köç ömürlük qəlbimə,
Yolunu gözləyirəm.

***19.07.1985. Xəstəxana.***

## HARALARDA QALMISAN?

Eşqimin yaz-baharı,
Ay küllü-ixtiyarı,
Narahat könlün yarı,
Haralarda qalmısan?

Sabahım pak elində,
Ötən o xoş dilində,
Bəxtəvər ay-ilində,
Haralarda qalmısan?

Günlərim hey darıxır,
Ürəyi dərdlə sıxır,
Evimi həsrət yıxır,
Haralarda qalmısan?

Hər gecəm göz yaşında,
Min fəlakət başında,
Günlə mən yol başında,
Haralarda qalmısan?

Səbirim var, böyükdür,
Dərdlərin mənə yükdür,
Bəxt sənə bağlı tükdür,
Haralarda qalmısan?

Könlümü qubarladın,
İnsafsız qaldı adın,
Görmədim eşqin dadın,
Haralarda qalmısan?

Asılar qəlbdən daşlar,
Ömrün payızı başlar,
Gözlərim tökər yaşlar,
Haralarda qalmısan?

Hicranın qəlbdə yatıb,
Məni dərdlərə satıb,
Günəşim sənsiz yatıb,
Haralarda qalmısan?

Gözümdə yaş dəryası,
Kəsildim daha asi,
Həsrətə gəl qur yası,
Haralarda qalmısan?

Səadət bizi gözlər,
Yolu-irızı izlər,
Nə qədər ağlar gözlər,
Haralarda qalmısan?

Səadət nə şirindi,
Bu ürək ki, dirindi,
Həsrətinə döz indi...
Haralarda qalmısan?

***20.07.1985. Xəstəxana***

## AY GÖZÜMÜN İŞIĞI

Taxt qurmusan sözümdə,
Könlümün yaraşığı.
Anlamıram özüm də,
Ay gözümün işığı.

Gecə gördüm pis yuxu,
Daşa dəyib qəlb oxu,
Bu ürəyi gəl oxu,
Ay gözümün işığı.

Heç rahatlıq yox mənə,
Əzab verdin çox mənə,
İnsaf eylə bax mənə,
Ay gözümün işığı.

Buna sevgi deməzlər,
Qəlbi qəmlə yeməzlər,
Eşqi bada verməzlər,
Ay gözümün işığı.

***23.08.1985 Yasamal***

## SƏNSİZ GÜNLƏRİM

Tutur əllərimdən aparır məni,
Dərdli bir aləmə sənsiz günlərim.
Bəxtəvər dövrandan qoparır məni,
Tuş eyləyir qəmə sənsiz günlərim.

Nə daşlı, çınqıllı oldu yolumuz?
Kədərlə, ələmlə doldu yolumuz,
Əlçatmaz keçidlə boldu yolumuz.
Həsrətdi o dəmə sənsiz günlərim.

Əllərim bəs niyə çatmır əlinə?
İncə duyğuları düz xoş dilinə,
Sal könül nəğməmi ürək telinə,
Düşüb zildən bəmə, sənsiz günlərim.

***05.04.1985 Yasamal***

## YARIM GƏLİB ÇIXMADI

Səhər-axşam gözlədim,
Yollarımı izlədim,
Sizdən mən nə gizlədim,
Yarım gəlib çıxmadı.

Dünyam qəmə büründü,
Eşqim əldə süründü,
Bu mənə dağ göründü,
Yarım gəlib çıxmadı.

Xiffət etdi ürəyim,
Uçdu könül dirəyim,
Boşa çıxdı diləyim,
Yarım gəlib çıxmadı.

Tale məni qınadı,
Yollarında sınadı,
Qəlbimdə eşqin dadı,
Yarım gəlib çıxmadı.

Almışam qəmindən saz,
Hey çalıram payız, yaz,
Başlandı qış, sərt ayaz,
Yarım gəlib çıxmadı.

Bəxtim batıb dəryada,
Uzaq olmaz dərd, qada,
Bu ömrüm getdi bada,
Yarım gəlib çıxmadı.

Qəmdən tikdim bir qala,
Gözlər baxır hey yola,
Çox boylandım sağ-sola,
Yarım gəlib çıxmadı.

Demirəm ki, möhtacam,
Ya sussuzam, ya acam,
Əlimdə bir sevda cam...
Yarım gəlib çıxmadı.

***21.07.1985. Xəstəxana***

## QƏMİMNƏN YOX HEÇ KƏSDƏ

Qəmimnən yox heç kəsdə,
Qəmimi dəlməz oldun.
Qaldı qulağım səsdə,
Sən niyə gəlməz oldun?

Quş təki qanad taxdım,
Göydən yoluna baxdım,
Dərdi qəlbə buraxdım,
Sən niyə gəlməz oldun?

Həsrət qışın başladı,
Dərd qapımı daşladı,
Gözüm hələ yaşladı,
Sən niyə gəlməz oldun?

Qəlb deyil səndən bezar,
Demə, yollarda azar,
Eşqinə dastan yazar,
Sən niyə gəlməz oldun.

***22.07.1985. Xəstəxana***

## SEVGİ DEMƏ

Sevda yolun düşüb ayrı,
Nahaq qıydın bu sevgimə.
Eyləyirsən əhdə seyri,
Daha buna sevgi demə.

İllər, aylar dolansa da,
Gözdə yaşım bulansa da,
Həsrət buzu qalansa da,
Daha buna sevgi demə.

Neçə payız ötüşəcək,
Yaralarım bitişəcək,
Fərəh günüm yetişəcək...
Daha buna sevgi demə.

***31.07.1985. Xəstəxana***

## NƏ GƏLMƏZ OLDUN?

Gözümü ağladıb, güldürdün yaman,
Əridi qəm dağım, nə gəlməz oldun.
Ötür durna təki ömrümdən zaman,
Olmayır xoş çağım, nə gəlməz oldun.

Başımdan getməyir sevginin dəmi,
Xəyalım səninlə gəzdi aləmi,
Bu dəli taleyin sınsın qələmi,
Pozuldu növrağım, nə gəlməz oldun.

Qurmuşam sinəmdə alışan ocaq,
O, odsuz-alosız elə yanacaq,
Nə qədər bu sinəm səni anacaq,
Ay mənim baharım, nə gəlməz oldunn.

***25.10.1987***

## İNDİ YOLA BAXIRAM

Bəbəkdən ah süzülür,
Bərə-bəndin yıxıram.
Kirpiklərim üzülür,
İndi yola baxıram.

Gözüm məndən xəbərsiz,
Axtarır yol, cığır, iz,
Əhd bağladıq niyə biz?
İndi yola baxıram.

Sözü verdin söz hanı?
Mənə baxan göz hanı?
Deyirdin ki, döz, hanı?
İndi yola baxıram.

Pəncərəm bir dağ mənə,
Həsrət salıb bağ mənə,
Mükafat bu çağ mənə,
İndi yola baxıram.

Uzun yollar uzanır,
Sinəmdə ürək yanır,
Gözlərim nə qazanır?
İndi yola baxıram.

Belə də vəd olarmı?
Vədə də həd olarmı?
Qəlbə sərhəd olarmı?
İndi yola baxıram.

Kim səpib tikan yola?
Qandal vurub bərk qola,
Hicranın yalan ola,
İndi yola baxıram?

Ürəyimi çək tova,
Eylə könlünü yuva,
Getmisən sözə-sova,
İndi yola baxıram.
İndi yola baxıram.

***25.07.1985 Xəstəxana***

## İNCİYƏN YAR

Bulud küsəndə dolar,
Dolmağında həyat var.
İncik qəlb qəmli olar,
Ay məndən inciyən yar.

Ağız da dişdən küsər?
Hirsindən dodaq əsər,
Göz tutdu könül kəsər,
Ay məndən inciyən yar.

De, nə vaxt olar xoş gün,
Açılar bəxtdən düyün,
Qurular bir toy-düyün?
Ay məndən inciyən yar.

Hisslərim sözə bağlı,
Ürəkdə közə bağlı,
Ömür həyat nağılı…
Ay məndən inciyən yar.

***25.07.1985. Xəstəxana***

## AY ÜRƏYİMİN SİRDAŞI

Canımdan canı səslərəm,
Sənsiz qurumaz göz yaşım.
Qəlbtək sinəmdə bəslərəm,
Ay ürəyimin sirdaşı.

Görər gözlərim intizar,
Gecələr yuxum çox azar,
Oldum özümdən mən bezar,
Ay ürəyimin sirdaşı.

Sevginin yolu sonsuzdur,
Uzanan qolu sonsuzdur,
Könül əzəldən donsuzdur,
Ay ürəyimin sirdaşı.

Qəlbim həsrətə bürünər,
Dumanlar təki sürünər,
Xəyalın gözdə görünər,
Ay ürəyimin sirdaşı.

Gələrsən, sevinc yeyərəm,
Sevgidən libas geyərəm,
Könlümü qurban deyərəm,
Ay ürəyimin sirdaşı.

Uzun yoluna heyranam,
Qoyma həsrətdə mən yanam,
Sənsiz ağrılı bir canam,
Ay ürəyimin sirdaşı.

***30.07.1985. Xəstəxana***

## HƏRDƏMXƏYAL SEVƏN

Sükutuna bir səbəbmi olacaq?
Yoxsa könlü tufanamı salacaq?
Yazıq ömrüm nigaranmı qalacaq?
Kim öyrədib kimə qulaq asırsan?
Hərdəmxəyal, söylə niyə susursan?

Çox kəsibdi amanları bilməzlik,
Yolumuzda qaşqabaqlıq, gülməzlik,
Məhəbbətdə bir qanundur ölməzlik,
Sənin sevgin niyə dinməz olubdu,
Belə erkən saralıbdı, solubdu.

Ürəyində sevgi odu yoxdursa,
İdrakında heç bir adı yoxdursa,
Xəyallarım zamanına çoxdursa,
Mürgüləsin tez ötüşən anlarım,
Həsrət ilə bir bitişən anlarım.

Məhəbbətdə göz birinə baxmalı,
Bir ürəyi atəşlərə yaxmalı,
Bir ürəyə sel-su olub axmalı,
Hərdəmxəyal ömür olmaz, gün olmaz,
Altun sevgi hər könüldə yurd salmaz.

Danış gülüm, bu susmağın nə lazım?
Cəh-cəh vursun bülbüllərtək qəlb sazım,
Getsin xəzan, gəlsin gözəl, xoş yazım,
Səhər-axşam nəğmə desin sinəmiz,
Qoşalaşaq yaz-baharda yenə biz.

İtək sevgi dünyasının selində,
Gəl baş-başa verək sevgi elində,
Mahnı olaq sevənlərin dilində,
İstəyimiz, amalımız bir olsun,
Fərəhimiz ürəklərə qoy dolsun.

Şahid olsun xoşluqlara küləklər,
Ərşə qalxsın, cövlan etsin diləklər.
Peşimanlıq görməsin heç ürəklər,
Dil çağlasın ülfətimiz car olsun,
Bir məhəbbət, bir də sevgi var olsun!

Bağrımızı sinə dağlı etmə, gəl,
Köks içinə alov töküb getmə, gəl.
Hər könüldə bənövşətək bitmə, gəl.
Danış eşqim, danışmağın yaxşıdır,
Göz aynasa, dil ürəyin baxşıdır.

***31.07.1985. Xəstəxana***

## SƏNƏ NƏ DEYİM?

Həsrətlə çıxıram yollara yenə,
Döyünür əzabla narahat sinə,
Ümidlə baxıram mən dönə-dönə,
Səndən xəbər yoxdur, bilmirəm niyə?
Ürək fəğan edir ah deyə-deyə.

Səhra yanğısını selə söylədi,
Məcnun ağrısını çölə söylədi,
Ürək həsrətini dilə söylədi,
Bəs mən kimə deyim nalə-ahımı,
Sənsiz açılmayan al sabahımı?!

Göylər tutulanda buludu qınar,
Tufan öz gücüylə küləyi sınar,
Uman yerdən deyir, ürək də sınar,
Bəs sınan ürəyi necə calayım?
Sənə məğlub olub ordum, alayım.

Şimşək yağış üçün bahanə olur,
Şəlalə zirvədən dərəyə dolur,
Xəzanı yetəndə hər varlıq solur,
Sevginin özünə çox da güvənmə,
Nə yüksəyə qalxma, nə yerə enmə.

Çəmənlikdə açar min bir çiçəklər,
Hər çiçək adına yaşıl ləçəklər,
Hər kəsin xitabı adla çəkilər,
Mən səni bəs necə çağırım, söylə?
Qəm necə daşısın bağırım, söylə?

Könül inciyəndə – göz yaşla dolar,
Dillərin qiybəti sözlərə qalar,
Hər qəlb öz evinə bir həmdəm salar,
Bəs sənə nə desin narahat ürək?
Başımda əsdirdin min acı külək.

Eşqimin çağlayan bir dəryası var,
Hələ hey coşacaq neçə qış, bahar,
Bir səyyad quşuyam, gəl sinəmi yar,
Gör ora neçənci dağlar çəkmisən?
Tarlasın şumlayıb həsrət əkmisən.

***24.07.1985. Xəstəxana.***

## KÖLGƏ SALMISAN

Söz-sovda qalan aradır,
Sinəmi niyə çalmısan?
Dərdindən günüm qaradır,
Ömrümə kölgə salmısan.

Qəlbdən su içən günləri,
Sevgimi biçən günləri,
Qaytar o keçən günləri,
Ömrümə kölgə salmısan.

Ötən günüm, anım səndə,
Qəlbdən uçan canım səndə,
Dərd adlı ünvanım səndə,
Ömrümə kölgə salmısan.

Yerdən göyə ah edirəm,
Uçub yuxuna gedirəm,
Röyanla sabah edirəm,
Ömrümə kölgə salmısan.

***31.07.1985. Xəstəxana***

## SEVGİ OLSAYDI...

Yağdırardı qəlbə odu,
Baxışın atəş salsaydı,
Tutmaz idi gözün yadı,
Bu əgər sevgi olsaydı.

Diləklərin öcəşərdi,
Qəlbimizə hay düşərdi,
Həsrətlərə vay düşərdi,
Bu əgər sevgi olsaydı.

Saldın cığır ürəyimə,
Girdin fağır ürəyimə,
Gəlməz ağır ürəyimə,
Bu əgər sevgi olsaydı.

Sal könlümü ahdan-aha,
Götür qəlbi sal günaha,
Müjdə uçardı sabaha,
Bu əgər sevgi olsaydı.

***31.07.1985. Xəstəxana***

## NİYƏ QIYDIN

Qəlb eşqə sərraf idisə,
Baxmaz idi göz heç kimə,
Məhəbbətin saf idisə,
Niyə qıydın sən sevgimə?

Ayrılsaydıq biz günlərlə,
Gözlər yada baxardımı?
Çalın-çarpaz düyünlərlə,
Onu qədər sıxardımı?

Duyğularla ürək vursa,
Əhd-ilqara heç qıyarmı?
Səadətlə yuva qursa,
Xoşbəxtlikdən heç doyarmı?

Gəl ömrünü vermə bada,
Hər qəlbdə eşq doğularmı?
Sevgi baxmaz yaxın, yada,
Təmiz qəlbdə boğularmı?

***31.07.1985. Xəstəxana***

## SONALAR

Deyin, cüt sonalar, hardan gəlirsiz?
Nə şux, nə şaqraqdır xoş gülüş, xoş naz,
Sanki qönçələrsiz gül bağında siz,
Gəlib gülzarlara sevda üzlü yaz.

Bəstə qamətiniz, sanki bir boyda,
İlahi, de, cütmü yaradıb sizi?
Gözəllər görmüşəm nişanda, toyda,
Sizintək şahanə olmayıb düzü.

Sizdə, ay sonalar, şaqraq gülüşlər,
Dağda kəklik, turac zümzüməsidir.
Sədəfin aşiqi mirvari dişlər,
O gül çöhrənizin vallah bəsidir.

Gülüş gözəllikdir, gülüş büsatdır,
Hər gülüş ürəyə ilhamla dolmaz.
Ürəyin dərmanı, gülüş həyatdır,
Dünyada gülüşsiz yaşamaq olmaz.

***12.07.1985. Xəstəxana***

## AY ETİBARSIZ

Yandım gizli-gizli oduna yaman,
Sinəm nalə çəkən sızlar bir kaman.
Ürək batdı qəmə hey zaman-zaman,
Bu necə eşq idi, ay etibarsız?
Sözümə söz verdi, ay etibarsız.

Sevginin yolları bir qəmim oldu,
Vaxtsız ayrılıqdan saralıb-soldu,
Ora günbəgündən dərd, ələm doldu,
Bunu sən eylədin, ay etibarsız,
Bilmədin neylədin, ay etibarsız.

Uzun hicranlara dözümün yoxmuş,
Səndə vəfasızlıq nə qədər çoxmuş,
Bəxtsiz məhəbbətim ömrümə oxmuş,
Sinəmə dağ çəkdin, ay etibarsız,
Könlümə dərd tökdün, ay etibarsız.

Vüsal həsrətiylə yanıram hələ,
De, hansı sinədə sevgi var belə?
Nakam eşqimizi salaraq dilə,
Sən aləmə yaydın, ay etibarsız,
Eşqi necə saydın, ay etibarsız?

Sevginin qiyməti ucuz oldu ah,
Götürdün üstünə nə qədər günah,
Sənsiz nalə çəkir hər gələn sabah,
Ömür necə keçsin, ay etibarsız?
Dərdi necə biçsin, ay etibarsız?

Günlərim həsrətli əlində naçar,
Sevgilim, qapımı sənsiz kim açar?
Səadət quşumuz əlimdən uçar,
Bu dərdə əlac et, ay etibarsız,
Gəl ürəyimdə bit, ay etibarsız.

Fəğanım gözümdə yaşa dönübdü,
Şadlığım, sevincim, nəş‘əm sönübdü,
Üstümə həsrətin tozu enibdi,
Buna səbəb sənsən, ay etibarsız.
Çiskin, duman, çənsən, ay etibarsız.

Bir ürək ağlatdın ömrü uzunu,
Qədər nə pis yazdı bizə yazını,
İnlətdi, ağlatdı könül sazını,
Qəlbim yanır neçin, ay etibarsız,
Sızlar için-için, ay etibarsız.

Tilsimli yollarda qaldı eşqimiz,
Acı xəyallara daldı eşqimiz,
Hicranı haradan aldı eşqimiz?
Yandı gilə-gilə, ay etibarsız,
Ürək gəldi dilə, ay etibarsız.

Bəlkə günün gözəl, xoşbəxtdir çağın,
Ətirli gülzardır məhəbbət bağın,
Mənə ki, çəkmisən sən həsrət dağın,
Necə bəxtiyarsan, ay etibarsız?
Söylə kimə yarsan, ay etibarsız?!

***01.08.1985. Xəstəxana***

## KİM YOLUNDAN ETDİ SƏNİ?

Həsrət mənə dodaq büzür,
Qəm şivəylə hələ süzür,
Fikir daha qəlbi üzür,
Nə fəlakət oldu yəni,
Kim yolundan etdi səni?

Çox hayladım, çox səslədim,
Ürəyimdə eşq bəslədim,
Qəlbi ahdan çox həslədim,
Qəfil gəldi həsrət çəni,
Kim yolundan etdi səni?

Buna sevgi heç deməzlər,
Hər sözü söz eləməzlər,
Cana hicran diləməzlər,
Gözü yolda qoydun məni,
Kim yolundan etdi səni?

Qoşun çəkib, gəlir kədər,
Duyğum hədər, sevgim hədər,
Eşqi belə yazmıb qədər,
Üzdü qüssə bağrı, təni,
Kim yolundan etdi səni?

İtirmisən dürüst sözü,
Ayrılığın soyuq üzü,
Nə hikmətdir, bilməm düzü,
Hicran tapdı könlü yeni,
Kim yolundan etdi səni?

***28.07.1985 Xəstəxana***

## MƏN DAHA GÖZLƏMİRƏM

Yollara düşüb qaldım,
Cığırın izləmirəm,
Ürəyi dərdə saldım,
Mən daha gözləmirəm.

Uçrumlar dərinləşib,
İstəklər sərinləşib,
Məsafələr enləşib,
Mən daha gözləmirəm.

Sevda yolu ayazdı,
Bu ağlım düşüb azdı,
Ürəyimə dərd sızdı,
Mən daha gözləmirəm.

Könül həsrət əsiri,
Qurub qəlbdə qəsiri,
Canın qəmin həsiri,
Mən daha gözləmirəm.

Gözlədiyim xəyaldı,
Gəlib yuxumu aldı,
Düşüb röyamda qaldı,
Mən daha gözləmirəm.

***23.07 1985. Xəstəxana***

## MƏHƏBBƏTDƏ SÖZ OLARMI?

Ay sevgilim, qəlb yanarsa,
Ayrılıqlar hey donarsa,
Ürək birin tək anarsa,
Heç bir ömür də solarmı?
Məhəbbətdə söz olarmı?

Sevgi bizi qınayanda,
Yollarında sınayanda,
Məlhəm olaq həmin anda,
Bir nisgilli könül qalmaz,
Məhəbbətdə söz də olmaz.

Altun ömrün süfrəsi bol,
Asan tapar hər qəlbə yol,
Alışmayan olmaz bir yol,
Hər ürəkdə yuva qurmaz,
Hər sinədə daim vurmaz.

Onun hökmü çox böyükdür,
Ürəksizlər ona yükdür,
Sanki saçda zərif tükdür,
Kobud olsan qırılacaq,
Bir gün başa vurulacaq.

Uşaq kimi qulluq göstər,
Mehribanlıq azca istər,
Daim sinən altda bitər,
Sənlə olar səhər-axşam,
Elə bil ki, pərvanə-şam.

Yolçu olar yollarına,
Qüvvət verər qollarına,
Həm özünə, həm varına,
Sevgi sadiq sirdaş olar,
Hər gününə qardaş olar.

Ay sevgilim, qəlb yanarsa,
Ayrılıqlar hey donarsa,
Ürək birin tək anarsa...
Payız təki eşq solarmı?
Məhəbbətdə söz olarmı?

***27.07.1985. Xəstəxana***

## MƏNİ HƏSRƏT SƏSLƏYİR

İtirəndən mən səni,
Aldı könlü qəm çəni.
Sitəmə saldın məni,
Aləmi eşq bəsləyir,
Məni həsrət səsləyir.

Belə xoşbəxt hardadır?
Dilin zəhər, bal dadır,
Qəlbin qəlbi aldadır,
Candan sevinc həsləyir,
Məni həsrət səsləyir.

Səadət hər yerdə var,
Hamına bəxti dildar,
Təkcə mənə dünya dar,
Könlümü qəfəsləyir,
Məni həsrət səsləyir.

Eşqim nura bürünür,
Bəxt yolunda sürünür,
Üzdə sevinc görünür,
Dərd sevinci üstləyir,
Məni həsrət səsləyir.

***28.07.1985. Xəstəxana***

## DUMANLAR ALAR

Könlümün göylərin dumanlar alar,
Sənsiz üfüqləri büsbütün batar.
Üstümə gecələr qaranlıq salar,
Bu bəxtim, taleyim ömürlük yatar.

Unudar əbədi nəş'ələr məni,
Qoynuna tökülər həsrətin qəmi.
Həsrətdən o yana ölümmü yəni?
İnan ki, ələmlər könlümü satar.

Küləkli, xəzanlı payızım başlar,
Tökər bu gözlərim acı qan-yaşlar,
Açılmaz eyinim, çatılar qaşlar,
Könlün odu sönər, qəlb məni atar.

Sənsiz ömür bağım saralıb-solar,
Başımın üstünü tufanlar alar,
Həyat gedişindən usanıb qalar,
Bu dilsiz sevgimin axırı çatar.

Sənsiz göylərimin ulduzu sönər,
Pak ayın üzünə buludlar enər,
Tale gərdişindən, yolundan dönər,
Kədər bəxş eyləyər mənə bir qatar.

Sənsiz gecələrim göz yaşı tökər,
Qüssədən, kədərdən bir qəsr tikər,
Xəyallar köksümü çox yıxıb-sökər,
Gəl məni həsrətin əlindən qurtar.

Əlçatmaz xəyala dönər yuxular,
Sənsiz, gecəm təki, sönər yuxular,
Varlığım idrakım, sanki yuxular,
Həsrət qəm yükünü köksümə çatar.

Gəl şadlığı çağlat, ürəyi oynat,
Köksümü alovlar içində qaynat,
O odlu eşqini bu sinəmə qat,
Olsun, sərvət kimi, ömürə yatar.

Gəl istəklərimin oduna qarış,
Pak məhəbbətimin gözüylə alış,
Kinli olma, gülüm, gülmüsə, barış,
Yoxsa fələk məni dərdliyə qatar.

***03.08.1985. Xəstəxana***

## SƏNSİZ GECƏM UZANIR

Saat səssiz hökm edir,
Dəqiqəm haqq qazanır,
Sinəmi həsrət didir,
Sənsiz gecəm uzanır.

Gözlərimi yumuram,
Açılmayır sabahım,
Şirin yuxu umuram,
Gəlmir, nədir günahım?

Bəbəklərin içində,
Yuxum ərşə çəkilir.
Ağıl ağrı biçində,
Üstümə qəm tökülür.

Uzun gecəm yollartək,
Haçalanıb qalıbdı,
Dərd həsrətli qollartək,
Boynuma qol salıbdı.

Kirpiklərim ox olub,
Sancılıbdı köksümə,
Köklü sazdır qəlb, dolub,
Toxunmayın heç simə.

Göz zillənib tavana,
Od tökülür üstümə,
Gəl fikir ver sən ana,
Qəmlər baxır tüstümə.

Qurtarmayır könlümdə
Ağır anlar, saatlar.
Ağrıya həyat demə
Qəmlərindən qəlb çatlar.

Sənsiz gecəm uzanır,
Ağır-ağır an keçir,
Eşq alışır, qəlb yanır,
Həsrətlərdə can keçir.

***02.08.1985. Xəstəxana***

## ÇÖKÜB SİNƏMƏ

Tənhalıq nə qəfil çöküb sinəmə,
Şadlıq gətrəydin, ey gül, hər dəmə,
Salıb yenə təklik könlümü qəmə,
Tək sən anlarıma həmdəm olaydın,
Narahat könlümlə birgə qalaydın.

Sükut bıçaq kimi qəlbimi kəsir,
Ürək tənhalığın xofundan əsir,
Dəqiqə fırlanır, an gəzir qüsur,
Əqrəblər fırlanır hey ağır-ağır,
Otaqdan üstümə dərdi-sər yağır.

Kəsilib könlümə həsrət ixtiyar,
Qoymayır ki, sinəm olsun bəxtiyar,
Heç sevən sevənə beləmi qıyar?
Pəncərə önündən baxıram yola,
Günahsız gözlərə yaş dola-dola.

Xəyalın buludtək alır üstümü,
Edir soyuqluğun əsir istimi,
Həsrətin qaldırır ərşə tüstümü,
Otaqda təkliyim dövran eyləyir,
Dərdimi divara-daşa söyləyir.

Heç sevənin könlü eşqdən doyarmı?
Heç yar da yarını tənha qoyarmı?
Sevən də sevənin qəlbin oyarmı?
Birləşək ayrılmaz möhkəm qollarla,
Qoşa addımlayaq, gülüm, yollarla.

***13.12.1985***

## HƏSRƏT YANDIRIR MƏNİ

Sənin yoxluğuna dözmək olardı,
Könlüm xəyalınla birgə qalardı,
Qəmlərin üstünə kölgə salardı,
Neyləyim ki, həsrət yandırır məni,
Unutdura bilmir qəlbimə səni.

Gecə-gündüzümün bağlı yolları,
Salır ürəyimə min bir halları,
Açıla qalıbdı bəxtin qolları,
Günlərim həsrətin əlində qalıb,
Hakimtək könlümü qanuna salıb.

Elə hey ağrılar verdin ürəyə,
Sanki qənim oldun arzu-diləyə,
Həsrətlər yığışıb, durub qədd əyə,
Necə baxmaq olar, İlahi, buna,
Gəl belə taleyi dur indi qına.

Neçə yol sinədə alışar həsrət,
Acı qüssə, qəmlə yarışar həsrət,
Bu könlümlə nə vaxt barışar həsrət,
Yandırır min cürə aman sevgini,
Yaman ağladırıq, yaman sevgini.

Qəminnən bilmirəm mən hara gedim?
Yoxsa səndən-sənə şikayət edim?
Sən yoxdun, əcəbcə, mən xoşbəxt idim,
Yaman sipər etdin məni həsrətə,
Ayrılıq sevinir belə niyyətə.

Günlərim ağlayır, köksüm alışır,
Yenə də başımda dövran qarışır,
Qəmlər ulduz-ulduz necə sayrışır,
Həsrətə tuş oldum, heyim qalmadı,
Bu həyat olmadı, bu gün olmadı.

Gəl, gəl, möhnətinə daha tabım yox,
Vallah həsrətlərlə haqq-hesabım yox,
Qəmlərlə çəkilən bir hesabım yox,
Ah, necə sipərdir sinəm hicrana,
Acımdan qüssələr dolur cahana.

***04.08.1985. Xəstəxana***

## ÜRƏK SƏNİ GÖZLƏYİR

Gözlərim yol arayır,
Harayları izləyir.
Könlüm ahla yarıyır,
Ürək səni gözləyir.

Sakitlik yox heç anda,
Soraqdadır hər yanda,
Ağrı-acı var canda,
Ürək səni gözləyir.

Dərdli günü çox onun,
Rahatlığı yox onun,
Soyunmayır qəm donun,
Ürək səni gözləyir.

Köçəri quştək oldun,
Hansı eldə yurd saldın?
Azıb yollarda qaldın,
Ürək səni gözləyir.

***29.07. 1985. Xəstəxana***

## GÖZLƏRİNƏ BAXAYDI

Oğrun baxışların oxtək süzdürüb,
Sevgi bağçamızdan güllər üzdürüb,
Ömrün yollarına çələng düzdürüb,
Yalnız sən olaydın köksümə sirdaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Daima gözlərin məni güdəydi,
Yenə duyğularım bayram edəydi,
Sevgim pak eşqinə qonaq gedəydi,
Heç yorulmayaydı nə ürək, nə baş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Sərin bahar çağı, güllər açanda,
Könlünün göyünə könlüm uçanda,
Sevgi pərvazlanıb qəlbə qaçanda,
Həsrətinlə gözə dolmayaydı yaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Mən qartal deyiləm zirvəni tutam,
Füsnükar xəyallar köksündə yatam,
Hələ açılmayıb könüldə butam,
Barı, asılmaya sinəmizdən daş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Səhər ağ örtüyün çəkəndə düzə,
Gur işıq verəndə gözəl gündüzə,
Biz də oturaydıq hər gün üz-üzə,
Heç çatılmayaydı həsrətinlə qaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Birgünlük həsrətə dözməyəydik biz,
Yenə birləşəydi, gülüm, əlimiz,
Yalan deməyəydi eşqə dilimiz,
Günəş qürb edəndə, qaralanda qaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

Ömrün tufanına dözən olaydın,
Yalnız ürəyimə mehr salaydın,
Təkliyə düşəndə mənsiz dolaydın,
Qədərin hökmüylə qocalanda yaş,
Gözüm gözlərinə baxaydı, ey kaş.

İkimiz yanaydıq oda, atəşə,
Artıb çoxalaydı sinədə nəş'ə,
Ürəyim güləydi qəfil gəlişə,
Bütün diləklərdən eşq olaydı baş,
Gözüm gözlərinə baxaydı, ey kaş.
Gözüm gözlərinə baxaydı, ey kaş.

***13.05.1986***

## SƏNİNLƏDİR ÜRƏYİM

Məhəbbətin bir aləm,
Sənsən səmam, fələyim.
Sənsiz artar ah, naləm,
Səninlədir ürəyim.

Ayrılsa da qəlbimiz,
Sevgin ora salıb iz,
Qoru eşqi pak, təmiz,
Səninlədir ürəyim.

Gəlməzdi heç gümana,
Tuş edə dərd zamana,
Gəl insafa, imana,
Səninlədir ürəyim.

Gəl təşnəyəm, bax həsrət
Aramıza çəkib səd,
Sənsiz iş gətirir bəd,
Səninlədir ürəyim.

Artır qəlbin fərağı,
Mənə çəkmə qəm dağı,
Sənsiz deyir dil ağı...
Səninlədir ürəyim.

Möhtacam göz-qaşına,
Könlümün sirdaşına,
Köç könlümün başına,
Səninlədir ürəyim.

Gəl eşqimin bağına,
Çıx məhəbbət dağına,
Qoyma gözüm dağına,
Səninlədir ürəyim.

Bir sevgim var düyünsüz,
Günümü etmə günsüz,
Ağılımdan izinsiz,
Səninlədir ürəyim.

***20.02.1986***

## KAŞ YANIMDA OLAYDIN

Məhəbbətim çağlayır,
Qəmin yolun bağlayır,
Həsrətlərim ağlayır,
Bu günümlə qalaydın,
Kaş yanımda olaydın.

Haylayıram elimdən,
Adın düşməz dilimdən,
Yol çəkmişəm telimdən,
Bir yolunu salaydın,
Kaş yanımda olaydın.

Bir qulaq ver sözümə,
Yuxu getmir gözümə,
Ürək məhkum dözümə,
Həsrətimlə dolaydın,
Kaş yanımda olaydın.

Ömrüm sənə bağlıdır,
Xoş növrağı çağlıdır,
Yolun bəlkə bağlıdır,
Röyalara dolaydın,
Kaş yanımda olaydın.

Oynamayaq gəl oyun,
Həsrətin donun soyun,
Vüsalımla qol-boyun,
Könül telin çalaydın,
Kaş yanımda olaydın.

Fərəh verən bəxtəvər,
Ürək səni tək sevər,
Ürək ovar qəmpərvər,
Həsrətimdən solaydın,
Kaş yanımda olaydın.

***03.12.1985***

## MƏN VURULMUŞAM

Sinəm həsrətinə yenə qalandı,
Bir dünya dərdiylə qəlbim talandı,
Çılğın yaz selitək könlüm bulandı,
Yoxsan, işdən-gücdən lap yorulmuşam.
Demə, gülüm, sənə mən vurulmuşam.

Mən sənsiz olanda günəş qaralır,
Bağrımı dərd alır, rəngim saralır,
Önümdə gen-geniş həyat daralır,
Varsan, zamanınam bax, qurulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Sən sarı bülbülsən, mən gözəl bahar,
Ömrün yolu üstə eyləyək nahar,
Qalandı odlara, qəlb oldu ahar,
Sən günəş, odunla mən yoğrulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Çeşmənin gözündən bulaq su içər,
Bulud şimşəklərçin canından keçər,
Bu da bir zamandı dolanıb keçər,
Bulağın gözütək tam durulmuşam,
Demə, gülüm, sənə mən vurulmuşam.

Yoxluğun car çəkdi bunu aləmə,
Saldı varlığımı həsrətə, qəmə,
Gəl ürəyim adlı sevgi ölkəmə,
Eşqinin köksünə lap sarılmışam,
Demə, gülüm, sənə mən vurulmuşam.

***21.04.1987***

## SOYUQ KÜLƏKLƏR ƏSİR

Qarşımızı yenə də,
Çiskin, duman, çən kəsir.
Tufan qalxıb sinədə
Soyuq küləklər əsir.

Yağır güclü yağışlar,
Başlayıb payız, qışlar,
Ağlım necə bağışlar?
Soyuq küləklər əsir.

Qəm qoşunla durubdu,
Hicran ara vurubdu,
Qəlb boynunu burubdu,
Soyuq küləklər əsir.

Həsrət qara ilandı,
Girdiyi yer talandı,
Çaldı məni, can yandı,
Soyuq küləklər əsir.

***29.07.1985. Xəstəxana***

## GƏLİŞİNLƏ

Həyat ucaldı,
Ömür bac aldı,
Ələm qocaldı,
Bu gərdişinlə,
Pak gəlişinlə.

Bahar da gəldi,
Sevinc yüksəldi,
Birləşən əldi,
Qəlbimiz dəniz,
Güləcək bəniz.

Gün mənalaşdı,
Arzu dağ aşdı,
Sevgiyə yaşdı,
Qəlb dirliyimiz,
Bu birliyimiz.

Ömrümüz cavan,
Safdır eşq havan,

Həsrəti qovan,
Bu sevgimizdi,
Əsrə yol-izdi.

Gəl tut əl-ələ,
Səs düşsün elə,
Gün sürək belə,
Arzu istək ol,
Bu qəlbimə dol.

Mən şirin canam,
Vəfalı yaram,
Səninlə varam,
Ömür durduqca,
Ürək vurduqca.

***13.04.1986***

## GÖZLƏRİMİN ODUNA

Qoyma ürək hər talelə barışıb,
Könlün getsin gözəllərin badına.
Baxışıma, duruşuma qarışıb,
Nə düşmüsən gözlərimin oduna.

Sinəm oddu, atəşimlə yanarsan,
Cana doyub lap özünü danarsan,
Bu günləri həsrət ilə anarsan,
Nə düşmüsən gözlərimin oduna.

Mən ki, sənə bircə dəfə baxmadım,
Şimşək olub hər sinədə çaxmadım,
Şərbət təki piyalənə axmadım,
Nə düşmüsən gözlərimin oduna.

Bağrım, köksüm onsuz sızlar kamandır,
Hər çiçəyə, gülə qonmaq, yamandır,
Dəli könlü alma məndən, amandır,
Nə düşmüsən gözlərimin oduna.

Həyatıma qonub düşdün quş təki,
Dondurursan ürəyimi qış təki,
Baxışların hay salan alqış təki,
Nə düşmüsən gözlərimin oduna.
Nə düşmüsən gözlərimin oduna.

***19.06.1986***

## BƏXTƏVƏR ELƏ

Sevgilim, əbədi əl-ələ tutaq,
Müdrik arzuların köksündə yataq,
İstəyi, məramı bir yerə qataq,
Düşsün Məcnun sevda qoy dildən-dilə,
Məni bəxtəvərdən-bəxtəvər elə.

Kədəri, ələmi ömürlük danaq,
Ulu sevgimizi hər addım anaq,
Günəştək dünyanın üstündə yanaq,
Həsrəti, hicranı gəl verək yelə,
Məni bəxtəvərdən-bəxtəvər elə.

Sevgilim, gəl duraq bir də üz-üzə,
Baxışlar tuşlansın yenə göz-gözə,
Məhəbbət yol getsin bizlə üz-üzə,
Sinədə duyğular qoy dönsün selə,
Məni bəxtəvərdən-bəxtəvər elə.

Həsrət paxıllıqdan cırsın sinəsin,
Göylərə qaldıraq vüsalın səsin,
Qisməti olmasın hicran heç kəsin,
Gecələr ay-ulduz olaq bu elə,
Məni bəxtəvərdən-bəxtəvər elə.

Ürəyim səninlə gün sürər yüz il,
Nə dodaq inciyər, nə susardı dil,
Gəl nəmli gözümü öz əlinlə sil,
Görməsin bir ürək sevgini belə,
Məni bəxtəvərdən-bəxtəvər elə.

***13.01.1987***

## YENƏ GİRDİ ARAMIZA AYRILIQ

Yenə girdi aramıza ayrılıq,
Saldı bizi dağa, daşa, sevgilim.
Çox söylənir qaramıza ayrılıq,
Gəlməz oldu vüsal başa, sevgilim.

Hicranından, həsrətindən can gedər,
Nə pis yazıb yazımızı bəxt, qədər,
Söylə kimə zülüm oldu bu qədər,
İstəyimiz dəydi daşa, sevgilim.

Göydə bulud ahımdan qan ağlayır,
Selə dönür, gözüm yaşı çağlayır,
Səhər-axşam yolu-rizi bağlayır,
Kaş səadət aşıb-daşa, sevgilim.

Sevgin mənim gözümün ilk ovudu,
İnciklikləր ara sözü-sovudu,
Sənsizlikdən odum-közüm soyudu,
Həsrət qaldım gözə-qaşa, sevgilim.

Əsər yenə qəlbdə dəli küləklər,
Sənsiz, gülüm, ağlar qalar diləklər,
Həyat ki, var ömrü, günü ələklər,
Heç bir zaman baxmaz yaşa, sevgilim.

Günəş kimi səmalarda çıxaram,
Ayrılığı atəşimlə yaxaram,
Sən gəlincə yollarına baxaram,
Sənsiz ağıl gəlməz başa, sevgilim.

Göyərçintək qanadlanıb uçaram,
Sərin mehtək pəncərəni açaram,
Ürəyimi ürəyinə açaram.
Gəl ömürlük gəzək qoşa, sevgilim.

***01.07.1986. Zuğulba***

## YUXU OLDU XƏYALIN

Müqəddəs vüsalının başına çox dolandım,
Dəli yaz selləritək gah duruldum, bulandım,
Üstbəüstdən həsrətin atəşinə qalandım,
Hər gün məndən düz bir il uzaqlaşdı vüsalın,
Gözlərimdə bir şirin yuxu oldu xəyalın.

Doğdu gözüm önündə bir ömrün dərdi-səri,
Sadəlövhcə taleyimin axıtdı alın təri,
Qorudu pak eşqini uzun illərdən bəri,
Sevgim sənin qarşında üzü ağ, açıq alın,
Gözlərimdə bir şirin yuxu oldu xəyalın.

Bu qədər iztirablar, bu qədər işgəncələr,
Söylə ürək bununla necə yatıb dincələr?
Dеməmişkən, sevgi də qəm əlində incələr.
İndi hardasan? Mənsiz, yaman olsa da halın,
Gözlərimdə bir şirin yuxu oldu xəyalın.

Tək ürəyim bilir ki, sənsiz könlüm açılmır,
Hər divanə hissimin şad qapısı açılmır,
Ömürün yaz çağında gül-çiçəklər açılmır,
Bilməm niyə bitmədi bu hicran qeylü-qalın?!
Gözlərimdə bir şirin yuxu oldu xəyalın.

***16.08.1986 Müşfiq qəsəbəsi***

## DÖZMƏYƏN, GÜLÜM

Bir günlük həsrətə dözməyən, gülüm,
Ömürlük ayrılıq kəsdi qapımı.
Həsrətin gəlişin sezməyən, gülüm,
Hicran yaman qırdı könül sapımı.

İndi nə mə'nası əssin küləklər,
Götürsün aləmi yağışlar, gülüm.
İndi nə faydası coşsun diləklər,
Toqqaşsın uzaqdan baxışlar, gülüm.

İndi nə mə'nası bahar da gəlsin,
Qoxlasın bülbüllər çəməni, gülüm.
Sənsiz otağında sevinc yüksəlsin,
Düzülsün süfrəyə səməni, gülüm.
Eşit, sevdiciyim, gizli məramı,
Ürəkmi günahkar, yaşmı günahkar?
Tapmayır günlərim sənsiz aramı,
Söylə cavanlıqmı, yaşmı günahkar?

Bir günlük həsrətə dözməyən, gülüm,
Bir günlük həsrətim il oldu mənim.
Həsrətdən, hicrandan bezməyən, gülüm,
Aləmə nisgilim dil oldu mənim.

***19.08.1986***

## AYRILIĞI DANAYDIN

Bir od olub, sevgilim,
Alovumla yanaydın.
Mənsiz dolub, sevgilim,
Məni hər an anaydın.

Keçib dağdan, dərədən,
Enib bağdan, bərədən,
Sorub ara-bərədən
Gəlişimi sanaydın.

Qanadlanıb uçaydın,
Buluda yol açaydın,
Vüsala əl açaydın,
Həsrətimlə sınaydın.

Hicran buzda donaydı,
Başına qar enəydi,
Vüsal yenə dönəydi,
Mənsizlikdən donaydın.

Ürək dolu, eşqi bol,
Həyat eniş, yoxuş yol,
Bu könlümə salıb yol,
Ayrılığı danaydın.

***19.08.1986***

## GETDİYİN YOLA

Gözlərim dikilib getdiyin yola,
Bağrıma, köksümə qəm dola-dola,
Məhəbbət dünyamda sən ola-ola,
Qalmışam yenə də gözlərə həsrət,
Mənə can-can deyən sözlərə həsrət.

Gözlərimin yaşı dönüb çaylara,
Gəlişin oxşayır ilə, aylara,
Səndən uzaq olan ahu-vaylara,
Deyərəm bir yolluq sən son qoyaydın,
Mənə dərd verməkdən, gülüm, doyaydın.

Parlayan günəşə bir diqqət elə,
O mənim köksümdən od alıb elə.
Sinəsi atəşli olmayıb belə,
Mən odlar qızıyam, od pərisiyəm,
Şaxtanın, soyuğun, qışın tərsiyəm.

***01.09.1986***

## GÖZLƏRİNİN HEKAYƏTİ

Əsir oldum ağlım getdi əlimdən,
Ruhum sazdı, qalxır nalə telimdən,
Sənsiz acı dastan yağan dilimdən,
Dəqiqəsi, anı ahmış, yamanmış,
Gözlərinin hekayəti yamanmış.

Fəryad edər qəlbdə acı küləklər,
Qədər yenə ömür-günü ələklər,
Duman bağlar ünsüz göylər, fələklər,
Baxışının od-alovu ümmanmış,
Gözlərinin hekayəti yamanmış.

Kirpik çalmaq bir de mənə nə söylər?
Səssiz hissim, duyğum, ruhum nə söylər?
Biz bir olsaq qəlb evində dərd neylər?
Səndən əvvəl zehnim, əqlim dumanmış,
Gözlərinin hekayəti yamanmış.

Addımını baxışların izləyər,
Odu keçmiş ürək ahla közləyər,
Gözüm yenə yollarını gözləyər,
Ürək səndən, demə, bir pay umanmış,
Gözlərinin hekayəti yamanmış.

Susmuş könlü insafa gəl, dindirmə,
Qəlb səmama duman, çiskin endirmə,
Yurd-yuvanı barı, mənə güldürmə,
Baxışların tuş sinəmə kamanmış,
Gözlərinin hekayəti yamanmış.

Şadimanam, qəlbi dolu bülbüləm,
Segah üstə zilə qalxan bir diləm,
Ləçəklərin dolu vurmuş xoş güləm,
Niyə qoymaz o gözlərin mən güləm?
Dolu eşqin əsr tutmaz zamanmış,
Gözlərinin hekayəti yamanmış.

***27.08.1986 Tağay***

## KÖNLÜMƏ OD QALADI

Məhəbbətdən könlümə od qalandı,
Sənsiz ürək, sənsiz sinə talandı,
Həsrətindən bağrım içi talandı,
Yandım eşqin alovuna, neyləyim?
Düşdüm eşqin tilovuna, neyləyim?

***26.08.1988***

## QƏLBLƏRİ ATƏŞƏ SALANDI SEVGİ

Uludur, tanrıdır həyat beşiyi,
Qəlbləri atəşə salandı sevgi.
Bu dünya sevginin evi-eşiyi,
Hər könlə, bağıra dolandı sevgi.

Bir coşğun dənizdir fırtınası bol,
Enişdir, yoxuşdur anladığı yol,
İnsafa gəldiyin görmədik bir yol,
Ocaqtək sinəyə qalandı sevgi.

İçində coşduqca coşdu diləklər,
Üstündə at çapdı fitnə-kələklər,
Baş açmaz sirrindən göylər, fələklər,
Ürəyi əlinə alandı sevgi.

Çıxar öz yolundan ağıl bir zaman,
Uyar o fələyin fe‘linə yaman,
Ağılı, idrakı eyləyib kaman,
Rastda, çahargahda çalandı sevgi.

Beləcə qəfildən girdi ürəyə,
Necə hakim oldu arzu-diləyə?
Necə aldanmayaq gözəl mələyə?
Min yol başımıza dolandı sevgi.

***17.03.1987***

## SƏN BAX ÖZÜNƏ

Deyirsən qəzəbin sellərdək coşur,
Ürəyin sərhədi, sədləri aşır,
Başladı, qurtarmaz elə hey daşır,
Demə, inanmıram sənin sözünə,
Mənim gözlərimlə sən bax özünə.

Deyirsən qəlbimdən yoxdur xəbərin,
Onu başa düşmək, anlamaq dərin,
İsti yay günündə kölgə də sərin,
Dedin, alışmazdır heç kəs közünə,
Mənim gözlərimlə sən bax özünə.

Söylədin gülüşün lap yalan, hiylə,
Qəlbini aldatma, uduzma fe'lə,
Yer də əhd bağladı gizlicə göylə,
Mən şübhə etmirəm yanlış-düzünə,
Mənim gözlərimlə sən bax özünə.

Deyirsən, yaxşılıq tapmazsan məndə.
Günəş fəğan edir şehli çəməndə,
Gülü salmaq üçün hər an kəməndə,
Qəlbimi güzgütək tutub üzünə,
Mənim gözlərimlə sən bax özünə.

Dedin ki, qəlbinin tufanı boldur,
Ora gedib çıxmaq çox çətin yoldur,
Xeyri yox, eşqinlə sinəm doludur,
Bunca aldanmayım ala gözünə,
Mənim gözlərimlə sən bax özünə.

Məndə olan ürək səndə də vardır,
Məndə qarlı qışdır, səndə bahardır,
Taleyimə sənsiz cahanım dardır,
Bəlalı sevgimin düşüb izinə,
Mənim gözlərimlə sən bax özünə.

***20.04.1987***

## DEYİRSƏN Kİ, SEVMİRƏM

Alışıram ürəklə,
Bunu dildə demirəm.
Eşqim çağlar diləklə,
Deyirsən ki, sevmirəm.

Mən ki, atəş olmuşam,
O sinənə dolmuşam,
Həsrətinlə solmuşam,
Deyirsən ki, sevmirəm.

Gözlərimdə gözüm var,
Qəlbdə odum, közüm var,
Məndə hələ dözüm var,
Deyirsən ki, sevmirəm.

Hicrində axşam oldu,
Oda yanan şam oldu,
Bağrım başı dam oldu,
Deyirsən ki, sevmirəm.

Dərdindən sinəm dağlı,
Almısan məndən ağlı,
Ürəyim sənə bağlı,
Deyirsən ki, sevmirəm.

***25.05.1987***

## ÇATA BİLMİRƏM

Həsrətin içimdə gileyə dönüb,
Zildə haray salan bir neyə dönüb,
Vüsalın dəli bir küləyə dönüb,
Tutmaq istəyirəm, tuta bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm.

Qaladın könlümə, sanki, bir ocaq,
Tökdün od-atəşi hey qucaq-qucaq,
Ürək aralıqda oldu oyuncaq,
Hicrana, həsrətə bata bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm!

Daş kimi asılıb sinədən ürək,
Ayrılıq başına açır min kələk,
Başımın üstünü kəsdirib fələk,
Sevgini köksümdən ata bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm.

Taleyin qəsdimi, yoxsa oyunu?
Narahat könlümün qurub toyunu,
Həsrət görsədəydi mənə boyunu,
Onun kölgəsində yata bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm.

Qaralır gözümdə altun sabahlar,
Sinəmi bürüyür nalələr, ahlar,
Bu eşqin başına açdın günahlar,
Sevgini sevgimə qata bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm.

Hisslərim əvvəlki çılğın dənizdir,
Ağrıyan ürəkdir, gülən bənizdir,
Sevgimin önündə sevgin kənizdir,
Onu hicranlara sata bilmirəm,
Mən sənə yaxınkən çata bilmirəm.

***26.05.1987***

## GƏLİB ÇIXMIRSAN

Durub dayanmışam yolların üstə,
Yolun gözlədiyim, gəlib çıxmırsan.
Fərağdan ürəyim müddətdi xəstə,
Uzanan əlimi niyə sıxmırsan?!
Həyat çox qısadır, ömür döyüşkən,
Onların fövqündən yüksəkdə dayan,
Zirvəyə qalxmayır fikri dəyişkən,
Yatdığın yuxunun sehrindən oyan.

***05.03.1991***

## DAĞLI GÖZƏLİ

Gözlərində həzin gecə yatıbdı,
Yuxuları bir-birinə qatıbdı,
Ay-ulduzun yenə yükün çatıbdı,
Süzgün-süzgün baxma, dağlı gözəli,
Baxanları yaxma, dağlı gözəli.

Dodaqların gülüşləri səpələr,
Ürəkləri dəryalartək ləpələr,
Sevinclərin dağa qalxan təpələr,
Şimşəklərtək çaxma, dağlı gözəli,
Baxanları yaxma, dağlı gözəli.

Yanaqların çiyələkdir, alışar,
Qıpqırmızı lalələrlə yarışar,
Ətir saçan gül-çiçəyə qarışar,
Dağ başına qalxma, dağlı gözəli,
Baxanları yaxma, dağlı gözəli.

Allah səni göz-nəzərdən qorusun,
Ömrün gülsün, bəxtin daim yarısın,
Kimin isə qaragözlü yarısan...
Yad gözlərə baxma, dağlı gözəli,
Baxanları yaxma, dağlı gözəli.

***24.07.1987. Qalaaltı***

## GÖZLƏRİN

Yenə tökdü qəlb içinə atəşi,
Saldı məni dağa, daşa gözlərin.
Sanki doğdu eşqin qızmar günəşi,
Neylim, dönüb can sirdaşa gözlərin.

Min bir həsrət dağlarını aşıbdı,
Çılğın çaydı məcrasından daşıbdı,
Qəlb tutulub, əqlim haçan çaşıbdı?
Qoymaz əqli gedə başa gözlərin.

Mən dolanda bir üzümə gülməyir,
Zalım ovçu ovun dilin bilməyir,
Göz yaşımı baxışıyla silməyir,
Qoymur könlü aşıb-daşa gözlərin.

Niyə mənim üzüm gülmür dünyada?
Gün gələydi yetişəydin bir dada,
Ay insafsız, ömür gedər bax bada,
Mənlə ola bir baş-başa gözlərin.

***02.09.1987***

## ÜRƏYİM OLDU

İnandım mən şəkər, tuti dilinə,
Verdim taleyimi sənin əlinə,
Hər addım toxundun könül telinə,
Mizraba vurduqca o haray saldı,
Gözlərim əbədi yolunda qaldı.

Ömrümün baharın zay etdin, əfsus,
Mənə toy-büsatı vay etdin, əfsus,
Gözümün yaşını çay etdin, əfsus,
Gözü yolda qalan ürəyim oldu,
Könlündən dil alan ürəyim oldu.

Ömür-gün alışır yad tənəsində,
Köksüm nalə çəkir odlu səsində,
Günəştək təşnəyəm od ölkəsində,
Elə yana-yana yaman olmuşam,
Yanıqlı sızlayan kaman olmuşam.

***12.09.1987***

## ALA GÖZLƏRİN

Alıb ixtiyarımı,
Qurub qala gözlərin.
Pozub əhd ilqarımı,
Sənin ala gözlərin.

Baxanda canım alır,
Könlü tələyə salır,
Bağrımı incə çalır,
Sənin ala gözlərin.

Nə vaxt insafa gələr,
Bircə yol üzə gülər,
Sinəmin dərdin bilər,
Sənin ala gözlərin.

Həsrətin əlin sıxır,
Bilərək evim yıxır,
Şimşəktək gözdə çaxır,
Sənin ala gözlərin.

Gözlərim qan-yaş tökür,
Üstünə duman çökür,
Min yol bağrını sökür,
Sənin ala gözlərin.

***18.09.1987***

## ƏLİNİ ÜZMƏRƏM SƏNDƏN

Sən dedin, əlini üzmərəm səndən,
Üstümə tökülsə dünya boyda qəm.
Nə qədər can məndə bezmərəm səndən,
Eşqin, atəşinlə doludur sinəm.

Sən dedin, aləmdə tək sənsən gülüm,
Sevgimsən, yarımsan, sən mənsən, gülüm.
Çırpınar ağzımda alışan dilim,
Ruhunla açılar sabahım hər dəm.

Əhdinə naxələf çıxan sən oldun,
Yolumda hər səhər duman, çən oldun,
Ağrımın özüylə elə tən oldun,
Səndən yadigardır gözlərimdə nəm.

Mənsə o illərdən uzaq olsam da,
Bəlalı eşqinlə hər an dolsam da,
Ömür gethagetdə tənha qalsam da,
Olmadı ürəkdən məhəbbətim kəm.

***18.09.1987***

## GİLEYLİYƏM

Eşq əlində yananlar,
Cəfadan usananlar,
Ay eşqə inananlar,
Oda düşmüş Leyliyəm,
Yarımdan gileyliyəm.

Gözüm doldu boşaldı,
Həsrət, hicran baş aldı,
Məni kəməndə saldı,
Oda düşmüş Leyliyəm,
Yarımdan gileyliyəm.

Bu dərd qəlbdə neyləyir?
Hey sinədə göynəyir,
Bir sirri qoy söyləyim,
Oda düşmüş Leyliyəm,
Yarımdan gileyliyəm.

Bir könlüm var sazıdır,
Özündən çox razıdır,
Məndənsə narazıdır,
Oda düşmüş Leyliyəm,
Yarımdan gileyliyəm.

***25.10.1987***

## SƏN OLA-OLA

İşığa, nura həsrət gözlərim fəğan eylər,
Könlümə atlı kimi qoşar gələr gileylər,
Çılğın ürəyim, sinəm bilməm qəmi neyləyər?
Qalmışam dərd içində buludtək dola-dola,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

Yalvarıram günəşə alışsın başım üstdə,
Həsrətin üstün gəlir anbaan qalxır üstə,
Sən bəxtəvər, fərəhli mən isə könlü xəstə,
Bülbül kimi ağlaram, gül deyib sola-sola,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

Zaman dilbilməz uşaq tələsir, bilmir hara?
Qarşımızda işıqmı, yoxsa qaranlıq, qara?
Dözmür yazıq ürəyim fəryadıma, ah-zara,
Qalmışam gecə-gündüz xəyalla dola-dola,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

Yer-göy də fəğan edir mənim acı naləmə,
Gözlərim dözmür daha gah leysana, gah qəmə,
Sənsiz həyatım mənə quru əzabmış demə,
Ağartdım tellərimi könlümü ala-ala,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

İztirabın ağırmış, həsrətinsə uzunmuş,
Mənim çılğın ürəyim sənin telli sazınmış,
Aşiqinə zülm etmək çoxdankı avazınmış,
Zəhərli ilan təki qəm qaldı tala-tala,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

Təkcə sənsən nədənsə taleyimin əlacı,
Narahat varlığımın dəli bir ehtiyacı,
Sənsiz keçən günlərin hər günü, anı acı,
Bir sehirli udunam, al könlü çala-çala,
Qəlbimin guşəsində sevgim sən ola-ola.

***16.11.1987***

## HƏYATIMA GƏLƏNDƏN

Həyatıma gələndən sən mənə qəm gətirdin,
O müdhiş aləminlə sinəm için taladın.
İtirdin təmizliyi, sədaqəti itirdin,
Könlümə üstbəüstdən yanar odlar qaladın.

Sən düzlükdən danışdın hər gələndə üz-üzə,
Lakin özün düzlükdən neçə mil aralandın.
Ey həqiqət carçısı, bunları vurma üzə,
Mən səndən yaralandım arada öldü andın.

***25.06.1989***

## KÖNLÜ DİDİB-PARÇALAR

İztirabın könlü didib-parçalar,
Qəm, qüssələr nalələrə əl çalar,
Xoş günlərim qəm önündə alçalar,
Çatmayırsan imdadıma nədəndi?

Ağlayıram için-için ürəkdə,
Göz yaşıma yas saxlayır fələk də,
Günlər untək ələndikcə ələkdə,
Yetməyirsən imdadıma nədəndi?

Yollar uzun, ömür yüyrək, il qaçar,
Günbatanda günümüzdən gün uçar,
Ucbatından ürək naçar, dil naçar,
Gəlməyirsən fəryadıma nədəndi?

Yazıq dilim haray salar ellərə,
Saldın məni ağızlara, dillərə,
Nə deyirsən ötüb keçən illərə?
Yanmayırsan heç oduma nədəndi?

***10.11.1987***

## MƏNDƏN UZAQ DOLAN DUR

Nə havalı dolanırsan bu yerdə,
Gah durulub-bulanırsan bu yerdə,
Pərvanətək odlanırsan bu yerdə,
Sevirsənsə, eşq oduna qalan dur,
Gəl sən allah, məndən uzaq dolan dur.

Əskik olmur qəlbdən dəli küləklər,
Çoxdan məni qarğıyıbdı fələklər,
Aman vermir özbaşına diləklər,
Sevirsənsə, eşq oduna qalan dur,
Gəl sən allah, məndən uzaq dolan dur.

Həyat məni çox sınadı oduyla,
O bir sirdi acı-şirin dadıyla,
Kim öyünməz öz pakanə adıyla,
Sevirsənsə, eşq oduna qalan dur,
Gəl sən allah, məndən uzaq dolan dur.

Həyat mənə başdan-başa gileydir,
Səhər-axşam ağlar-sızlar bir neydir,
Ömür yolu gah güney, gah qüzeydir,
Sevirsənsə, eşq oduna qalan dur,
Gəl sən allah, məndən uzaq dolan dur.

***08.08.1988***

## KEÇƏ BİLMİRƏM

Yaxınlardan, uzaqlardan inciklikmi olubdu?
Dəli könül səhər-axşam milyon dəfə dolubdu,
Yalnız sənin eşqin ilə ovsunlanıb solubdu,
Bir ayrıca könlə yatan həmdəm seçə bilmirəm,
Həyatımdan keçsəm belə, səndən keçə bilmirəm.

Donub qalıb baxışlarım baxışında, gözündə,
Pak məhəbbət axtarıram müəmalı üzündə,
Necə olsa başa düşüb görəcəksən özün də,
Bir ayrıca könlə yatan həmdəm seçə bilmirəm,
Həyatımdan keçsəm belə, səndən keçə bilmirəm.

İllər, aylar ötür keçir ömür ilə yarışda,
Taleyimin üfüqündə ulduzlar bir qarışda,
Ürəyim ki, ürəyinlə sevda dolu barışda,
Bir ayrıca könlə yatan həmdəm seçə bilmirəm,
Həyatımdan keçsəm belə, səndən keçə bilmirəm.

Yenə məsum baxışlarla süzdün aldın ağlımı,
Eşqim dolu həyatıma gələn yollar bağlımı?
Sənindəmi sinən içi sevdiyindən dağlımı?
Bir ayrıca könlə yatan həmdəm seçə bilmirəm,
Həyatımdan keçsəm belə, səndən keçə bilmirəm.

Bahar ötüb, xəzan almış payızlaram, qışlaram,
Buludların gözlərində dolub-daşan yaşlaram,
Şimşəklərin doğradığı xıncım-xıncım daşlaram,
Bir ayrıca könlə yatan həmdəm seçə bilmirəm,
Həyatımdan keçsəm belə, səndən keçə bilmirəm.

***04.11.1987***

## İZTİRABDA QOYMA MƏNİ

Könlü alıb gülə-gülə,
Həsrətinlə oyma məni.
Sən dərdimi bilə-bilə,
İztirabda qoyma məni.

Salıb eşqi dildən-dilə,
Əzab verdin ildən-ilə,
Keçdi cığır teldən-telə,
İztirabda qoyma məni.

Xəyalınla ola-ola,
Qaldım qəlbi ala-ala,
Gözüm, könlüm dola-dola,
İztirabda qoyma məni.

Arzularım neçə-neçə,
Zirvələrdən içə-içə,
Könlüm səni seçə-seçə,
İztirabda qoyma məni.

Duyğularım ümman-ümman,
Hey dolaşır zaman-zaman,
Həsrətimdi aman-aman,
İztirabda qoyma məni.

Bu sevdamı ildən-ilə,
Saldın niyə dildən-dilə,
Gözüm yaşın silə-silə,
İztirabda qoyma məni.

***16.11.1987***

## USANMIŞAM MƏN DAHA

Yorulmuşam, usanmışam mən daha,
Necə çıxım sənsiz söylə sabaha?
Parçalanan ürək olur tuş aha,
Tufan gəldi, sazaq gəldi, gəlmədin.
Yaxın gəldi, uzaq gəldi, gəlmədin.

Könlüm, ruhum oldu sənə bir əsir,
Məram, istək, duyğu, arzu tələsir,
Qəlb evində hicran yeli sərt əsir,
Qapıma dərd, ələm gəldi, gəlmədin.
Söylə, niyə aləm gəldi, gəlmədin?

Eşq dediyin dərdə dustaq olmuşam,
Qərarsızam, mükəddərəm, dolmuşam,
Ümidlərlə ürəyimi almışam,
Şövqlə qaçan zaman gəldi, gəlmədin,
Gözlərimə duman gəldi, gəlmədin.

Başım üstə əsir ömrün yelləri,
İztirabdan susub qəlbin telləri,
Qədər alır əlimizdən illəri,
Həyatıma xəzan gəldi, gəlmədin.
Qocalığı yazan gəldi, gəlmədin.

Vurulmuşam, sinəm səndən gileyli,
Mən ki, sənə sadiq qalan bir Leyli,
Niyə saldın özgələrə sən meyli?
Min həvəsli dilək gəldi, gəlmədin,
Fəryadıma ürək gəldi, gəlmədin.

***10.11.1987***

## QADAN ALIM

Ürək sənsizləşir yalqız qalanda,
Duyğunun köksündə yat, qadan alım.
Həsrətin çiskini üstün alanda,
Al duman örtüyün, at, qadan alım.

Qandalla, hicranın tut əl-qolunu,
Bağla, bizə sarı açıq yolunu,
Sübut et könlümlə bir olduğunu,
Həsrətin yükünü çat, qadan alım.

Xəyallar, duyğular başsız küləkdir,
Sənsiz şirin dünyam niyə gərəkdir?
Sənə, mənə qalan yalnız ürəkdir...
Könlümü könlünə qat, qadan alım.

Qoyma baş aparsın hicran ürəkdə,
Ondan baş açmayıb yalnız fələk də,
Kim çata bildi ki, ona kələkdə?
Həsrəti vüsala sat, qadan alım.

Ürəyim kükrəyən dağ şəlaləsi,
Üşüyən quzeyin zərif laləsi,
Dünyanı ağladır onun naləsi,
Sən onun dadına çat, qadan alım.

***23.10.1988***

## SÖNMƏZ İŞIĞI

Qoyma başımızda əssin küləklər,
Ağlatsın gözümü göylər, fələklər,
Baş alsın içində çılğın diləklər,
Qəmli taleyimin sönməz işığı,
Ömrümün, günümün tək yaraşığı.

Sevgim qanad çalsın eşqin göyündə,
Ömrüm həvəsdədi soraqda, ündə,
Həyatım min yerdən sirli düyündə,
Qəmli taleyimin sönməz işığı,
Ömrümün, günümün tək yaraşığı.

***24.01.1989***

## İNSAF EYLƏ

Yağır qəlbə leysan, dolu,
Bəlalıdır ömür yolu,
Gəl bağlama əli-qolu,
İnsaf eylə, sevdiciyim.

Başımızın möhnəti çox,
Dərd sinədə zəhərli ox,
Məhəbbətin sərhədi yox,
İnsaf eylə, sevdiciyim.

Şair könlü salma oda,
O aldanmıb şərə, yada,
Aşiqsənsə, yet fəryada,
İnsaf eylə, sevdiciyim.

Əhdə sadiq çıxar aşiq,
Nurtək könlə axar aşiq,
Çox vaxt ev də yıxar aşiq...
İnsaf eylə, sevdiciyim.

Şadimanın könlü dağlı,
Taleyinin yolu bağlı,
Alma məndən o pak ağlı,
İnsaf eylə, sevdiciyim.

***27.08.1988***

## QALADI KEÇDİ

Yar mənim sinəm için,
Yaman taladı keçdi.
Bilmirəm qəlbi neçin
Oda qaladı keçdi?

Dönük çıxdı əhdinə,
Yetmədi səsə, ünə,
Qalmışam qara günə,
Qəmə buladı keçdi.

***28.08.1989***

## HİCRAN BULAĞINDAN İÇİRTMƏ, GÜLÜM

Bağrımın başını eyləyib qübar,
Doğrayıb xəncərdən keçirmə, gülüm.
Gecəli-gündüzlü yanan sinəmi,
Hicran bulağından içirtmə, gülüm.

Mənim taleyimdən aradın ah-zar,
Yolunda ah, naləm, min fəryadım var,
Dost, düşmən içində təmiz adım var,
Sünbültək oraqla biçirmə, gülüm.

***11.05.1990***

## AYRILMALIYIQ

Yenidən qaytarmaqçın ilahi təmizliyi,
Ruhuma sevinc verən o müqəddəs düzlüyü,
Bir qayğısız çocuqtək şahanə dinməzliyi,
Elə bu gün, bu saat daha ayrılmalıyıq,
Baxmayıb qəlbimizdə aha ayrılmalıyıq.

Nə qədər ki, könlümdə başsız qalmıb diləklər,
Nə qədər ki, gülməyir mənə yerlər, fələklər,
Nə qədər eşq mülkümü viran etmib küləklər,
Gülüş olmamışam mən yada, ayrılmalıyıq,
Hələ almıb başımı qada, ayrılmalıyıq.

Bilirəm ki, arada dəhşətli uçurum var,
Ürək döyüş meydanı, ağlım hissimi qovar,
Bəlalaı sevdamızı tufan süpürüb-sovar,
Ona şahid olmayım, indi ayrılmalıyıq,
Bu taledə bir yazı gündü, ayrılmalıyıq.

Sinəndəki duyğular ənginlikdə dolaşır,
Parakəndə məramlar köksündə aşıb-daşır,
Sən elə fəzadasan, hissin min-min dağ aşır...
Ömrümü verməmisən bada, ayrılmalıyıq,
Hələ ki, yanmamışam oda, ayrılmalıyıq.

Bu ürəyim müddətdi gileylidir həyatdan,
Məramlarla yol gedir gəl onu salma atdan,
Əbədi əl götürdüm mən sənli bu büsatdan,
Bu ötəri həvəsdi yetər, ayrılmalıyıq,
İki tale nağılı bitər, ayrılmalıyıq.

***28.08.1989***

## DÜŞƏCƏKSƏN YADIMA...

Şirin bir xatirətək düşəcəksən yadıma...
Od saçacaq könlümdə xəyalın günəş təki.
Hərgah ki, heç bir zaman yetməsən fəryadıma,
Dağıdacaq sinəmi bir qəfil atəş kimi.

Sovura bilməyəcək olmuşları fələk də,
İçindəki tufanı çözə bilməz həyat da.
Gəlsə qəfil hissimə, fəqət min yol kələk də,
Könlümə munis olub qalacaq dərin qatda.

İkimizdə qarışıq fikirlər ümmanında,
Çarpışıb döyüşəcək xatirələr ər kimi.
Ürəyim, heyrət edər xəyala zamanında,
Parlaqlığın itirməz məhəbbətin zər kimi.

***08.09.1989***

## MƏNİM MƏHƏBBƏTİM

Çətinə düşməyin sarsıdır məni,
Niyə ünüm yetmir, çatmayır gücüm?
Qurtara bilmirəm heç dardan səni,
Mənim məhəbbətim, mənim sevincim.

Ağlayır gözlərim sənsiz nə vaxtdı,
Hicranın önümdə necə xoşbaxtdı,
Həyat sevgimizə çox ögey baxdı,
Mənim məhəbbətim, mənim sevincim.

Baxıram göylərə, yerlərə qəmli,
Ürəyim ağrayır, gözlərim nəmli,
Ömrümüz qısadır, qanunlar dəmli,
Mənim məhəbbətim, mənim sevincim.

Dərdli duyğularım səni haraylar,
Niyə sənə yetmir ünlər, haraylar?
Tikildi sinəmdə qəmdən saraylar,
Mənim məhəbbətim, mənim sevincim.

***23.11.1989***

## HEÇ ZAMAN OVUNMAYACAQ

Gedişin sinəmdə tufan, qar edir,
Bir də qayıtmağı heç ummayacaq,
Ayrılılıq yamanca bağrımı didir,
Bu könlüm heç zaman ovunmayacaq.

Dolacaq ürəyim gecəbəgündüz,
Payız bağlarıtək saralacaq üz,
Ürəyim küləklər susduran çöl, düz,
Bu könlüm heç zaman ovunmayacaq.

Ötəri sandığın ürək barışmaz,
Dönük sevgilərlə daha yarışmaz,
İstər ülfətini taleyinə yaz,
Bu könlüm heç zaman ovunmayacaq.

Şadiman meşəsi qırılan torpaq,
Ağacdan budağı vurulan yarpaq,
Sağalmaz sinədən nə nisgil, nə dağ,
Bu könlüm heç zaman ovunmayacaq.

***28.04.1990***

## NECƏ GEDİRSƏN?

Salıb həyatımı möhnətə, qəmə,
Baxmayıb heç ünsüz, səssiz nələmə,
Yaxşıca güldürüb məni aləmə,
Əhdi tapdalayıb necə gedirsən?

Ülvü sadəlikdən doğan ülfətə,
Bəşərin anası saf məhəbbətə,
Dünyanın sonası saf sədaqətə,
Qəfil od qalayıb necə gedirsən?

Ey ürək, dönükdən sınmaq nə lazım?
Hönkürür qəhərdən könül avazım,
Yenicə açıbdı baharım, yazım,
Gülzarın talayıb necə gedirsən?

***29.04.1990***

## ZALIM

Bağrım başı qubarlıdır,
Gəl yandırıb yaxma, zalım.
Bu şah könlüm vüqarlıdır,
Tacı-taxtın yıxma, zalım.

Həyatından doymaz könlüm,
Hər yetəni saymaz könlüm,
Neylim sənə qıymaz könlüm,
Şimşək təki çaxma, zalım.

Məhəbbətdən yandı sinəm,
Gözlərimdə qurumaz nəm,
Tökmə qəlbə gəl qüssə, qəm,
Axırıma çıxma, zalım.

Ayrılıqdan naçar ollam,
Öz-özümdən qaçar ollam,
Bəxt qapısın açar ollam,
Könlü belə sıxma, zalım.

Şair könlüm coşub-çağlar,
Xəyanətdən qübar bağlar,
Həsrətlərdən hər gün ağlar,
Yolum üstə çıxma, zalım.

Gözəllərlə dünya çoxdu,
Güman etmə peyman yoxdu,
Demə dünya selə arxdı,
Hər dərəyə axma, zalım.

Ürəyimin dərdi bitməz,
Həsrət girən başdan ötməz,
Dəli sevgin qəlbdən getməz,
Gəldi-gedər baxma, zalım.

***02.05.1990***

## PÜNHAN GETMƏ

Gedirsənsə pünhan getmə,
Gedişini əyan eylə.
Mənə belə sitəm etmə,
Pünhan sirri bəyan eylə.

Hanı bəs o əhdi-peyman,
Öz sevgindən qaçan zaman,
Gecə-gündüz yandı bu can,
Birdəfəlik büryan eylə.

Bağlayıb əl-qolu qəmim,
Sənsiz eylər qan aləmim,
Qurumayır gözdən nəmim,
Ağlat qəlbi giryan eylə.

***02.05.1990***

## DÖZMÜRƏM SƏNSİZLİYƏ

Xeyli vaxtdır dəyişib həyat öz ahəngini,
İtiribdi səmalar, yerlər də öz rəngini,
Mənə bəxşişmi verdin həsrətin çələngini?
Cılızlaşıb kainat, dözmürəm sənsizliyə,
Sönüb gözümdə həyat, dözmürəm sənsizliyə.

Doğrayır sinəm için, cəllad kimi qəm, kədər,
Bu amansız ayrılıq ölümdən də lap betər,
Göz yaşımın selindən min lalə bir an bitər,
Su çilə dağ köksümə, dözmürəm sənsizliyə,
Çıxma belə əksimə, dözmürəm sənsizliyə.

Taleyimin üzünə heç gülmədi bu həyat,
Dad onun qanunundan, hökmü-qərarından dad,
Belə amansız olma bir rüzgartək, ey səyyad,
Gəl, yandı könlüm-gözüm, dözmürəm sənsizliyə,
Sənsiz ağlayır dözüm, dözmürəm sənsizliyə.

***16.05.1990***

## ÜZÜLÜB ƏLLƏRİM

Üzülüb əllərim əlindən yenə,
Mən müsibətinlə yolyoldaşıyam.
Ağlayır hicrinlə, hönkürür sinə,
Sən usta bir ovçu, mən də naşıyam.

Saldı bəlalara ürək, can məni,
Dəryada qərq olub bəxtin yelkəni.
Tükəndi yolunda ömrümün dəni,
Dolan gözlərinin həsrət yaşıyam.

Əzizim, gəl mənə sitəm eyləmə,
Sevgimə, eşqimə xitam eyləmə,
Bu yolda, vəfalım, sən qəm eyləmə,
Tale üzüyünün vüsal qaşıyam.

Yolunda, vəfalım, ürəkdir bidar,
Beşgünlük dünyanı gəl eyləmə dar,
Həsrətəm, başıma yağır çovğun qar,
Hər ovsuna dözən ağrı daşıyam.

Ürəyim yerindən çəkilsə şişə,
Səninlə olduğum gün sevinc, nəş'ə,
Məhəbbət könlümə ən gözəl guşə,
Mən də o diyarın vətəndaşıyam.

***16.05.1990***

## TÜKƏNƏN DEYİL

Yelkənsiz qayığam sahildən uzaq,
Qoy əssin xəzrilər didərgin, veyil.
Yolunda sinəmə çəkilsə min dağ,
Sənə sevgilərim tükənən deyil.

Kəssə də yolumu müsibət, zillət,
Bil ki, kəsərindən düşməz saf niyyət,
Elə ovsunlayıb məni bu halət,
Sənə sevgilərim tükənən deyil.

Közərib içindən yanan bir qoram,
Sənsiz ah-fəryadam, naleyi-zaram,
Seltək çağlayacaq qəlb aram-aram,
Sənə sevgilərim tükənən deyil.

Arxa çevirməsin heç kəs vəfaya,
Güllər çəmənlərdə gələr səfaya,
Həyatım uğrunda dözər cəfaya,
Sənə sevgilərim tükənən deyil.

***25.05.1990***

## NİYƏ DƏYMƏYİR GÖZƏ?

Yenə qəm çöküb üzə,
Bəxtin qaralıb qanı.
Niyə dəyməyir gözə?
Könül ümmanım hanı?

Onsuz həyat işgəncə,
Ağlar ürək hər gecə,
Qəm, ələm verər necə,
Könül ümmanım hanı?

Dözmürəm bu gərdişə,
Salıbdı dilə-dişə,
Sozalıb sevinc, nəş'ə,
Könül ümmanım hanı?

Gəlməyir bircə yola,
Ürəyim dola-dola,
Çıxıram hər gün yola,
Könül ümmanım hanı?

İlahi, biqəraram,
Ürəyim tapmaz aram,
Bilməm heç kimdən soram,
Könül ümmanım hanı?

***16.05.1990***

## GƏLƏSƏN BU GÜN

Sənsiz zülmət dolu duyğularıma,
Qəfil gəlişinlə kaş doğaydı gün.
Yaman sarılmışam sayğılarıma,
Elə istəyirəm gələsən bu gün.

Könlüm diləkləri yoluna sərib,
Vüsal arayarkən hicranı dərib,
Sanki gen dünyada qəribəm, qərib,
Elə istəyirəm gələsən bu gün.

Yenə fəryad çəkir eşqimin sazı,
Olubdu taledən, bəxtdən narazı,
Edir ürəyimə bir kövrək nazı,
Elə istəyirəm gələsən bu gün.

***08.06.1990***

## SEVGİNİN ODUYLA

İkimiz də yanırdıq bu sevginin oduyla,
Sən özündən razı, mən özümdən razı.
Bəzən hesablaşmadın qəlbin fəryadlarıyla,
Ömrün bahar vaxtına tuş elədin payızı.

Beləcə ötdü zaman, verdik anları bada,
Əsdi başımız üstə neçə yol qəfil ilğım.
Elə bil iki ömür sürəcəkdik dünyada,
Həyatımız, canımız, ürəklərimiz çılğın.

Əfsus, illərim daha bir də qayıtmaz geri,
Yaş ötdü, şən gənclikdən qalmadı daha əsər.
Ağırlaşan bədənlə, hərgah, yol yoxdur geri,
O dəli sevdamıza yazılsa min bir əsər...

Səni arzulayıram keçən illər donunda,
Nə illər geri dönür, nə də ötən yaşımız.
Hər ikimiz günahkar ömrümüzün yanında,
Ağaran saçlar ilə qocalıqdı qarşımız.

Ürəyim yanan çıraq gecəsi, gündüzü yox,
Onun can gileyləri yandırmasın heç səni.
Ömür bir tələsən çay qala bilməz bizlə çox,
Gənclikdə duymadığım hissim yandırır məni.

***23.05.1990***

## ÖZÜN GƏLMƏSƏN

Taleyim leysanlar tökər başıma,
Gülməz bu dünyada üzüm, gəlməsən.
Bir daha səadət çıxmaz qarşına,
Dolar buludlartək gözüm, gəlməsən.

İtirər şərqilər öz ahəngini,
Dəyişər bağçamda güllər rəngini,
Sən allah, sındırma eşq səhəngini,
Tükənər ilhamım, sözüm, gəlməsən.

İçimdə boğular bütün diləklər,
Həsrət tufanıyla könlü ələklər,
Bir qovğa min fitnə doğar, bələklər,
Özümə düşmənəm özüm, gəlməsən.

Ürəyim saralır bir payız kimi,
Kimi xoşbəxt edir, de həsrət, kimi?!
Yaralı bəxtimin sənsən həkimi,
Günüm odu keçmiş közüm, gəlməsən.

***11.06.1990***

## KÖNLÜMÜN ASİMANINDA

Gizlənib könlümün asimanında,
Başıma çovğunlar, qarlar ələdin.
Ürək səhər-axaşam ah-amanında,
Sənsə qəm üstündən qüssə bələdin.

Sinəmdə alışır odum-ocağım,
Yanır gizli-gizli didərgin ürək.
Elə intizarla keçir bu çağım,
Acımdan baş açmaz nə yer, nə fələk.

Bu necə sevgidir söylə bir mənə?
İçindən ayrılıq yolları keçir.
Gözümü dikmişəm sabaha yenə,
Könlümdən ağrımın halları keçir.

***30.06.1990***

## ƏLÇATMAZ ASİMAN

Sevginin əlçatmaz asimanın
əyilməz qüruruyla min yol əyildin.
Mənim cəfakeş pasibanım,
Taleyin ilə min yol döyüldün.
İçimdə kükrəyib coşduqca ürək,
Başıma bəla endirdi fələk,
Bitdi bəxt yolunun üstündəcə kələk.
İdrak əlindən qaçan ürəyim,
Dəli hisslərimi qovan küləyim,
Dilimdə haqqım tapmaca,
Kim gələ, kim aça.
Əlçatmaz asimandan qopan
zərrə yuxusu kimiyəm,
Özüm-öz ağrılarımın həkimiyəm.
Çıxıram gecədən sabaha,
Qovuşuram sinəmdə qopan aha.
Sevgi asimanımın gözləri gürşadlı,
Ağrısı həsrət adlı!
Yağışları batıracaq istəklərimi,
İlahi, harda yatırım diləklərimi.
Ağıldan ürəyə ibadətdi.
Onun adı məhəbbətdi,
Məhəbbətdi…

***21.09.1990***

## VİDA

Sənin baxışlarının odunda
alışıb yanıram neçə müddətdi,
Məndə alışıb yanmaq,
səndə isə, buz kimi soyuqluq, adətdi.
Sənin soyuqluğun sinəmdən
qopan fəryada hiddətdi.
Sən öz arzularınla qol-boyun,
Mənsə dəli, küskün ürəyimlə təmasda,
Görəsən bitəcəkmi oyun?!
Hər ikimiz qana dönmüş
ürəyimizin qurduğu vayda, yasda.
İkimizdə qaranlıq həyat
yollarında dolaşırıq,
Puç olmuş sevgimizin divanə
cəngisi ilə vidalaşırıq.

***21.09.1991***

## NƏ TEZ BELƏ UNUTDUN ?

Danıb eşqi, ilqarını mərhaba,
Ürəyində neçə-neçə əhd tutdun.
Vüsalımla alışdığın günləri,
Üzü dönmüş, nə tez belə unutdun.

Taleyimin sevincini qəm etdin,
Müjdə nədir, onu məndən kəm etdin,
Dərdlərimi, sanki bir aləm etdin,
Üzü dönmüş, nə tez belə unutdun.

Onsuz mənim dərdimə heç dərd çatmaz,
Yatmış bəxti heç bir kimsə oyatmaz,
Deyirdin ki, yar yarını heç atmaz,
Üzü dönmüş, nə tez belə unutdun.

Külək təki əsib keçən illəri,
Hicranımla ağartdığın telləri,
Yollarıma uzatdığın əlləri,
Üzü dönmüş, nə tez belə unutdun.

Taleyimdən uzaq eylə feili,
Onsuz da mən həyatımdan gileyli,
Deyirdin ki, Məcnunam, sən Leyli,
Üzü dönmüş, nə tez belə unutdun.

***11.11.1990. Qızılqum***

## ÜRƏYİM QULAQDADI

Gəlişinə tamarzı ürəyim qulaqdadı,
Yoxluğun ümidimi parçaladı qurd təki.
Gülüşüm, səsim, sədam getməyib, qulaqdadı.
İlahi məhəbbətin bağra doğma yurd təki.

Nədir belə yoxuşu acı rüzgarmı kəsdi?
Nə uzandı bu gediş, sonu yoxmu, ay allah?
Çəkdiyim cövrü-cəfa, ey dildarım, əbəsdi.
Bəlkə xoş müjdəlidir, hər gələn qarşı sabah.

***08.11.1990. Qızılqum***

## GETMİSƏN

Ürəyimi salıb dərdə, fərağa,
Od içində oda atıb, getmisən.
Yetişməyib heç naləyə, sorağa,
Günlərimə qüssə çatıb, getmisən

Əcəb məlal toy-büsatın qurubdu,
Fərəhlərim boyununu burubdu,
Canım qaçıb yol üstündə durubdu,
Sənsə onu aha satıb, getmisən.

Baxışlarım səhər-axşam müntəzir,
Həsrət, hicran könlün için lap əzir,
Aramızda ayrılıqlar çox gəzir,
Ocağıma hicran atıb, getmisən.

***08.11.1990. Qızılqum***

## TALAYIB MƏHƏBBƏTİN

Tufan təki könlümü talayıb məhəbbətin,
Vücudumu titrədib qəfil zəlzələ kimi.
Sənli olmaq günahım, sənsiz olmaqsa çətin,
Həsrət, hicran dünyada kimi şad edib, kimi?

Birinin dadlı nemət sevinc qisməti oldu,
Birinin bu dövranla üsyan oldu gərdişi.
Birinin bəxt meyvəsi vaxtsız saraldı-soldu,
Birininsə həyatda gülmək oldu vərdişi.

Mənimsə qismətimdə nigarançılıq, hicran,
Bağrımı paraladı bu sadəlövh ürəyim.
Şadiman aralıqda üzü gülür, bağrı qan,
Sevgili qələmimdən uçur incə diləyim.

***22.11.1990. Qızılqum***

## OVUNMAZ GÜLÜM

Yanar giryan-giryan yolunda bağrım,
Qor olar təzədən soyumuş külüm.
Dikələr sinəmdən aləmə ağrım,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Həsrətin başımda dəli bir külək,
Eyləyər könlümü dərd ələk-vələk,
Sənsiz səadətlər yollasa fələk,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Başıma tökülsə dünyanın varı,
Süfrəmə düzülsə neməti, barı,
Silməsən qəlbimdən qəmini, barı,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

Ürəyim çəməndə solan lalədir,
İnsafsız əlində qəlb piyalədir,
İçi dünya tutmaz dərddir, nalədir,
Ovunmaz ürəyim, ovunmaz gülüm.

***12.11.1990. Qızılqum***

## QAPIMI DÖYÜR XƏYALIN

Küləktək qapımı döyür xəyalın,
Soyuq otağımın qonağı olur.
Könlümdə çırpınır eşqi-əyalın,
Acı taleyimin sınağı olur.

Arzular, duyğular, uyğular ağlar,
Sığına bilməyir öz yuvasına.
Şirin bir xatirə o keçən çağlar,
İsinir ürəyim eşq duasına.

Səndə insafsızlıq hardan doğuldu?
Bağrımı tufantək silib-süpürdü.
Əlinlə ovunan eşqimi boğdu,
Demə ümidlərin hicran səpirdi...

Ürəyim çırpınan yaralı quşdu,
Köksümü qan edib oda yandığım.
Tanrısı əliylə qəlb vurulmuşdu,
Yağı çıxdı ona mələk sandığım.

***12.01.1991***

## SƏNSİZLİK

Necə amansız divan tutdu
mənə sənsizlik,
Özümü, sözümü unutdurdu
mənə sənsizlik,
Gözlərim dolan bulud oldu,
Bütün vücudum, varlığım,
səhrada tək qalmış kimsəsiz
çiçək təki soldu.
Hər şey mənə mənasız göründü,
Göz yaşım boğuldu.
Məni qoruyan ağıldı,
Hisslərdən qopan nağıldı.
Xəyalının ardınca süründü,
Hər yerdən, hər yerdə əksin göründü.
Həyatın bütün şirinlikləri
sənsizliyə məğlub oldu,
Əksin geriyə dönməyən yoldu.
Bütün dünyanın səadəti,
varı önündə qul ola,
Könlüm giryan-giryan yaş tökər,
ovunmaz əsla.
Məni milyon kərə dara çəkir sənsizlik,
Açılan sabahıma qara çəkir sənsizlik.
Gəl qurtar cəfadan,
Yoruldum sevginə vəfadan.
Gözlərimi göz yaşıyla yuyur sənsizlik,
Yorulub könlümdə uyur sənsizlik.
Sənsizlik...

***12.11.1990. Qızılqum***

## ÜRƏK SEVƏ-SEVƏ

Ürək sevə-sevə, qəlb sevə-sevə,
Niyə ayrı düşdük biri-birindən?
Biz zəfər çalmadıq, qəm adlı divə,
Baş aça bilmədik onun sirindən.

Atdı dalğaların qoynuna bizi,
Soyuq küləklərlə üşüdük hər gün.
Hicrana bürüdü gecə-gündüzü,
Talelər, ürəklər, qəlblər didərgin.

Ürək sevə-sevə yollar dəyişdi,
Ağlımız hisslərin fövqündə durdu.
Bəxtimiz günlərlə hər gün döyüşdü,
Yollarda ayrılıq toy-büsat qurdu.

***21.11.1990 Qızılqum***

## BƏLALI MƏHƏBBƏTİM

Bu bağrım divanədir
Başdan aşır xiffətim
Dilsiz bir pərvanədir,
Bəlalı məhəbbətim.

Xəyalda kama çatar,
Min yol yuxusun qatar.
Yenə də səni tutar,
Bəlalı məhəbbətim.

Başımda tufan əsdi,
Hər an yolunu kəsdi,
Vüsalına tələsdi,
Bəlalı məhəbbətim.

Zülümdən doymasan da,
Asudə qoymasan da,
Səninlədir hər anda,
Bəlalı məhəbbətim.

Bir köməksiz tifildi,
Aralıqda səfildi,
Səni çağıran dildi,
Bəlalı məhəbbətim.

***05.12.1990***

## GƏL İSİT

Gəl isit sızlayan bu ürəyimi,
Alışım oduna kül altda qortək.
Gülüm, yerə salma sən istəyimi,
Müqəddəs eşqində vəfalı yartək.

Nə mənə qalacaq, nə sənə həyat,
Dolaşır könlümdə çılpaq fikirlər.
Hicranlar, həsrətlər yorulmaz səyyad,
Sinəmə sağalmaz dağlar çəkilər.

Harada gecikdin, ay pasibanım?
Necə də uğursuz keçdi çox aylar.
Kəsilib taqətim, gəl, mehribanım,
Ürəyim yenə də səni haraylar.

Əğyar gözlərinə sipər olsan da,
Əzəlki eşq ilə könlümə qayıt.
Səni arayaram, gülüm, hər yanda,
Yatmış xəyalımı yenidən ayılt.

Bir özgə yuvası könlü ovutmaz,
İçimdə buzlaşan şadlığı ərit.
Ölsə də bədənim, ruhum unutmaz,
Gəl ölmüş qəlbimi, ürəyi dirilt.

***11.01.1991***

## KÖNLÜMÜ OVLADI, NEYLİM?

Baxışın könlümü ovladı, neylim?
Bağrımda bir ocaq qaladı getdi.
Yatmış duyğuları tovladı, neylim?
Tufantək könlümü taladı keçdi.

Bilmirəm, İlahi, nə qeylü-qaldı?
Acı sözləri də sinəmə baldı,
Anlamaq olmayır bu necə haldı?
Könlümü ağrıyla buladı getdi.

Ürəyim dəryada kimsəsiz ada,
Çox zərbələr yedi dönük dünyada,
Açdı qucağını can dedi yada,
Həsrəti quduztək uladı keçdi.

***26.03.1991***

## DİKMƏSİN YOLLARA

Büküb ürəyimin xatirəsinə,
Səni qoruyuram xəyallarımda.
Divanə könlümün titrəməsinə,
Yığışıb gəlirlər xəyallarım da.

Mən gücsüz oluram bu çarpışmada,
Lal əksin həqiqət olub boylanır.
Qəlb döyüş meydanı, eşq vuruşmada,
Başımda kürətək hər an fırlanır.

Qurtara bilmirəm mən qalmaqaldan,
Amansızlığına bağrımda üsyan.
Dönüklük könlümü çıxarır haldan,
Qan tökür gözümdən hər dəqiqə an.

Vəfasızlığını eyləyib səfər,
Tök qəmim üstünə alqışlarını.
Səndən ürəyimə gəlmədi zəfər,
Dikmişəm yollara baxışlarımı.

***23.01.1991***

## SALDI GUR İŞIQ

Eşqin taleyimə saldı gur işıq,
Bütün qaranlıqlar sozaldı, getdi.
Sandım, göylərdəyəm sevginqarışıq,
Bütün ümidlərim azaldı, getdi.

Arxamca süründü bütün ələmlər,
Sanki yar deyilmiş əzəlki dəmlər,
Ürəyim bir palıd hicran qələmlər,
Hər arzu-istəyim qocaldı, getdi.

Niyə bir-birinə yad olduq daha?
Üst-üstdən tuş olduq naləyə, aha,
Biz ki, bilə-bilə batdıq günaha,
Qüssədən bir saray ucaldı, getdi.

Ürəyim içindən alışan çıraq,
Sonsuz diləkləri hələ ağ vərəq,
De hardan yetişdi bu müdhiş soraq,
Həsrət sevgimizdən bac aldı, getdi.

***11.03.1991***

## SƏNSİZLƏMİŞƏM

Dağılıb könlümün sevinc alayı,
Əlçatmaz fələyim, sənsizləmişəm.
Qəlbdə yallı gedir qüssə alayı,
Ərköyün mələyim, sənsizləmişəm.

Qaldı ürəyimdə saysız arzu, kam,
Heç olan pəjmürdə illərim nakam.
Mən ki, bu sevgidən almamışam kam,
Puç olub diləyim, sənsizləmişəm.

Arayır, axtarır gözlərim səni,
Qırılıb könlümün ümid yelkəni.
Fəğanım bürüyüb eli, ölkəni,
Sınıbdı dirəyim, sənsizləşmişəm.

Hönkürür buludtək qəlbimin gözü,
Sellərə bürüyüb gecə-gündüzü,
Üzmüşəm dünyadan əlimi düzü,
Ölübdü ürəyim, sənsizləşmişəm.

***23.03.1991***

## HƏSRƏT MƏNİMDİ

İndi başqalaşıb əvvəlki gediş,
Ürəyin özgənin, həsrət mənimdi.
Könlümlə etdiyin əvvəlki gərdiş,
Dünyanı tutmayan xiffət mənimdi.

Duyğusuz çocuqtək oynadın baxtla,
Köksümdə qurduğun şahanə taxtla,
Dönük xatiratı əmanət saxla,
Bəxşiş elədiyin nifrət mənimdi.

Özgənin eşqini oxşa zövq ilə,
Alış duyğu ilə, parla şövq ilə,
Nə qədər ömrün var, qon güldən-gülə,
Qovhaqov gedişdə heyrət mənimdi.

Zamanın ağrısı, acısı yükdü,
Dünya da hər dərdə dözən müdrikdi,
Həyatım əlində bir zərif tükdü,
Arzusu qəfəsdə, qeyrət mənimdi.

Ey qəmdən danışan, eyləmə nalə,
Al dodağa həsrət qəm bir piyalə,
Dözmüsən, dözgünən miskincə hala,
Dərdinlə öcəşən afət mənimdi.

***25.03.1991***

## KƏSİLİB YOLLARIN

Kəsilib yolların, bağlanıb daha,
Bu gediş, o gediş deyil, bilirəm.
Batırdın könlümü aha, günaha,
Saldın özgələrə meyil, bilirəm.

Dərddən dolmuş gözəm – yaşa həsrətli,
Şiş zirvədə qaram – qışa həsrətli,
Bir nakam ürəyəm – başa həsrətli,
Sevgim aralıqda veyil, bilirəm.

Ağlım zamanımın zirvə dağıdır,
Sinəmdə fırlanan dərdi, dağıdır,
İndi xatiratın könlə ağıdı,
Deyirsən önündə əyil, bilirəm.

***19.05.1991***

## SORDUM SƏNİ

Getdiyin yollardan çox sordum səni,
Susdular lal kimi heç dinmədilər.
Özüntək, izin də unutdu məni,
Dilləşib geriyə bir dönmədilər.

Gözlərim ağladı, könlüm qərarsız,
Bəlkə də siz məni mənsiz ararsız.
Sevginlə birləşib yolda durarsız,
Bəlkə də arada nahaq dedilər.

Səni necə sorum qardaş, bacıdan?!
Hönkürdüm buludtək ahla ucadan,
İslanıb kirpiyim nəmdən, acıdan,
O mələk xəyallar bir enmədilər.

Ah, necə şirinmiş ötən zamanlar!
Saatlar ah ilə günü yamanlar,
Sevginlə sevgimin bir ocağı var...
Tuş olub dəryaya heç sönmədilər.

***25.03.1991***

## GÜLÜZLÜ SEVGİLİM

Gülüzlü sevgilim, yenə həsrətin,
Könlümün evində ocaq çatıbdı.
İtibdi əvvəlki səmimiyyətin,
Sevdanı hicrana yaman qatıbdı.

Bu gediş əbədi oldu arada,
Eşqimiz bir yolluq qaldı qarada,
Hicran üstümüzə yaxıb qara da,
Sevgili günlərin adı batıbdı.

Gəl, qutar ömrümü sən keşməkeşdən,
Sönüb həyat eşqim, əl qalıb işdən,
Əl çək amansızca müdhiş gərdişdən,
Ömrümün, günümün bəxti yatıbdı.

***03.04.1991***

## QIRIB ƏHDİ HAQDAN QAÇAN

Qırıb əhdi, haqdan qaçan namərdtək,
Zirvələrdən enən yara nə deyim?
Dağ görmədim mən dönüklük dağıtək,
Peymanından dönən yara nə deyim?

Hanı ilqar, hanı istək, hanı qəlb?
Niyə sevgin qismətimə çıxdı qəlp?
Kərpic təki bəxti kəsən zaman qəlb,
Bu sınaqda sınan yara nə deyim?

Ürək şüşə, onunla nə əyləncə?
Eşq canımız, bəs cana nə işgəncə?
Unudulmaz laqeydilik ölüncə,
Qismətini danan yara nə deyim?

Bir bilsəydin dərd içimdə nəhirdi,
Həsrət qəlbə nisgil basan möhürdü,
Təmiz sevgim qibləm, səcdəm, möhürdü,
Özgələrə canan yara nə deyim?!

***08-10.04.1991***

## NALAN QALAN ÜRƏYİ

Həsrətinlə nalan qalan ürəyi,
Alıb qanadına xəyal yelkəni.
Fəryadım ağladır göyü, fələyi,
Necə gözləyirəm, necə mən səni.

Azalıb zərifcə həyatın ətri,
Sanki heçə dönüb dünyanın xətri,
Qələmim sitəmlə yazır hər sətri,
Necə gözləyirəm, necə mən səni.

Sənsiz havasızam, sussuzam, müdam,
Sənsiz öz oduna alışan odam,
Sənsiz ürəyimə, özümə yadam,
Necə gözləyirəm, necə mən səni.

Unudub dünyada bütün hər şeyi,
Məzara qoymuşam dərdi, gileyi,
Sızlar gecə-gündüz qəlbin gileyi,
Necə gözləyirəm, necə mən səni.

Ürəyim hicrinlə yanar gizlicə,
Sənə şərqi yazar, hey incə-incə,
Çıxmışam yollara elə indicə,
Necə gözləyirəm, necə mən səni.

***10.04.1991***

## GÜCSÜZ BƏNDƏYİK

Biz ki, haqq əlində gücsüz bəndəyik,
Tanrının verdiyi hər hökmə duçar,
Elə ikimiz də yaman gündəyik,
Bəxt quşu göyərçin, tez əldən qaçar.

Əsir ömrümüzdə tale küləyi,
Bir anda heç edir neçə diləyi.
Ağladır, güldürür yazıq ürəyi,
Əlləri qoynunda qalırıq naçar.

Sən də imkansızsan, mən də imkansız,
Qalmışıq dəryada əllər sükansız.
Qəmimiz od saçır zaman, məkansız,
Qapımı gah nəş'ə, gah ələm açar.

Ürəyim ocağı sovrulmuş küldü,
Nə bir yol sevindi, nə bir yol güldü,
Əgər bir gün sənə desələr öldü...
Ruhum duyğularla yanına uçar.

***10.04.1991***

## MƏKTUBU GÖZÜMÜN YAŞIYLA YUDUM

Məktubu gözümün yaşıyla yudum,
Yalançı sevgini anladım duydum,
Aldana-aldana mən sənə uydum,
Əlimdən aldığın illəri qaytar,
Vaxtsız ağartdığın telləri qaytar.

Yatdım, yuxularda pünhan sirdaşım,
Tənha otağımda isti göz yaşım,
Təbiblər sağaltmaz ağrılı başım,
Köksümdən didərgin ürəyi qaytar,
Eşqinlə alışan diləyi qaytar.

Ömrüm gilə-gilə əridi şamtək,
Taleyim qara don geydi axşamtək,
Qaldım uyğularda yalqız, tənha, tək,
Qəlbi min çalarlı nəfəsi qaytar,
Həyata sevgini, həvəsi qaytar.

Varlığım gül kimi saralıb-soldu,
Eniş də, yoxuş da danılmaz oldu,
Sənsiz duyğularım saçını yoldu...
Göz yaşımdan doğan çayları qaytar,
Yoluna səpilmiş ayları qaytar.

***04.05.1991***

## EŞİTDİM GƏLMİSƏN

Eşitdim gəlmisən, sən bu gəlişlə,
Döndərdin həsrətin yolunu çənə.
Könlümə şahanə, köklü dönüşlə,
Yenidən həyatı qaytardın mənə.

Ömrümə səadət verən nəş'əni,
Tanrımtək əlçatmaz o pak gülşəni,
Könlümdən qaçırtdın sən əndişəni,
Yenidən həyatı qaytardın mənə.

Sənsiz yuvasına gəlməz ürəyi,
Sənsiz hər gün bir mil uçan dirəyi,
Oldun ürəyimin min bir diləyi,
Yenidən həyatı qaytardın mənə.

Sənsiz yas bağlamış qəlbi varaqla,
Ölmüş duyğuları bir də soraqla,
Bəxtimə yazdığın min bir növrağla,
Yenidən həyatı qaytardın mənə.

Kim olmur həsrətdən dünyada bezar?
Dəlsə də sinəmi oxtək intizar,
Əriyib bağrımdan gedib ahu-zar,
Yenidən həyatı qaytardın mənə.

***04.05.1991***

## TALAN EYLƏMƏ

Əqrəbtək sinənin başından vurub,
Könlünün içini talan eyləmə.
Yolumun üstündə yağıtək durub,
Olan istəkləri yalan eyləmə.

Hər bir əzabına dözən ürəyi,
Hicrində özünü üzən ürəyi,
Səni uyğularda gəzən ürəyi,
Dərdinin əlində nalan eyləmə.

Həsrətdən tikdirib ən uca qəsir,
Bağrımı içində etmisən əsir,
Könül görüşünə yenə tələsir...
Onu əlçatmayan qalan eyləmə.

Ürəyim həsrətlə çox çıxdı cəngə,
Hər addım yolunda keçilməz döngə,
Ürək dastan yazır xoşca ahəngə,
Onu ayrılıqda qalan eyləmə.

***10.05.1991***

## BİR DAHA

Ruhu köhləninə çatıb gecələr,
Səni yuxularda görəm bir daha.
Eşqin dəryasında sevgim incilər,
Onları yoluna sərəm bir daha.

Əlin nə vaxt çatar titrək əlimə?
Dilin nə vaxt yetər ağlar dilimə?
Könlümdə son qoyub qəmə, ələmə,
Eşqinə çələnglər hörəm bir daha.

Qırıb qanadını quzğun həsrətin,
Bağlayam qapısın hər pis xislətin,
Bizi yadlaşdıran kirli niyyətin,
Tutub qollarını gərəm bir daha.

Qəlbdən qopan hava bir şərqi türkü,
Ötüşə izimdən hər qorxu, hürkü,
Atıb çiyinimdən mən ağır yükü,
Ömürlük qəlbinə girəm bir daha.

***11.05.1991***

## DÜNYAYA İŞIQ DOĞDU

Sevgilim, qəfil görüş
Həsrəti, qəmi boğdu.
Odlu hərarətinlə
Dünyaya işıq doğdu.

Açıldı göyün üzü,
Al geydirdi gündüzü,
Salamladı gün bizi,
Dünyaya işıq doğdu.

Qucaqlaşdı diləklər,
Ağ tül geydi fələklər,
Can bir oldu ürəklər,
Dünyaya işıq doğdu.

Gözümün nuru artdı,
Vüsal könüldə yatdı,
Həyatım kama çatdı,
Dünyaya işıq doğdu.

***26.05.1991***

## SƏN BELƏ

Bağrım ağlar qaldı hər bir duyğuya,
Könlümün evini yıxdın sən belə.
Tənha gecələrdə gəldin uyğuya,
Mənim axırıma çıxdın sən belə.

Bulud arxasınca düşdüm küləktək,
Ağladım, sızladım ünsüz fələktək,
Murazı tufana düşmüş dilək tək,
Mənim taleyimə çıxdın sən belə.

Puç etdi ömrümü min ağrı-acı,
Bu batmış bəxtimin nə imiş suçu?
Sol əllə atdığın oxunun ucu,
Sağ əllə könlümə taxdın sən belə.

Dodaqdan dodağa qondun ney təki,
İçimdə sızladın bir giley təki,
Qədəhdən-qədəhə gəzdin mey təki,
Hər kəsin qəlbinə axdın sən belə.

Ürəyim ağrıdan ağlar bir gözdü.
Tanrının verdiyi dərdlərə dözdü,
Sevib-sevilmək də bir quru sözdü,
Şimşəktək bəxtimda çaxdın sən belə.

***11.06.1991***

## AÇDI QƏLBDƏ HƏSRƏT

Açdı qəlbdə həsrət, hicran yaralar,
Sağalmazdır sən vurduğun yaralar,
Nisgillərin həyatımı yaralar,
Dönməz ürək heç vəfadan, hardasan?
Hər əzabdan, hər cəfadan, hardasan?

Üstbəüstdən zülm oduna yanmışam,
Atəşini, alovunu anmışam,
Qəhr olunmuş varlığımı danmışam,
Kəsilibdi ixtiyarım, hardasan?
Bu həyata taxtı-yarım, hardasan?

Müddətdir ki, bağrım dərddən xəstədir,
Üzülübdü, taqətsiz can üstədir,
Pünhan qəmi gah zildə, gah pəstədir,
Qurtar könlü gəl zindandan, hardasan?
Zülmü sonsuz sərt cahandan, hardasan?

***11.07.1991. Tağay***

## KÖNLÜMÜN DİLİN BİLİB

Könlümün dilin bilib çaldırmadın saz kimi,
Elə məndən aralı qanad açan ley oldun.
Sən ki, meydan oxudun dəli-dolu yaz kimi,
Dərdimi dastan edən sızlar-ağlar ney oldun.

Mən sənə bağlı oldum, sən məndən qaçar oldun,
Qara bəxtli ürəklə xısın-xısın oynadın.
Bəxtimin bağçasından yad bağa uçar oldun,
Elə kor bulaq təki içəridən qaynadın.

Acı yellər əsdikcə ömrümün illərində,
Sən məndən üz çevirib yadlara dildar oldun.
Məhəbbətin bəxtimin ağardı tellərində,
Gözlərim baxa-baxa özgələrə yar oldun.

Fəqət, sızlar kamantək ağlaram zarı-zarı,
Nə sızıltı, nə ahlar könlünə əsər etməz.
Taleyimin bir qələm, bir də könüldü yarı,
Ünümə aləm gələr, əlim əlinə yetməz.

***14.07.1991. Tağay***

## ÜRƏYİMDƏ SEL KİMİ

Ürəyimdə təb-təvanım coşub-daşır sel kimi,
İllər ötür, insaf bilməz qanadlı bir yel kimi,
İçimdə qəm oylaq qurub köçün salan el kimi,
Çarpışmada, vuruşmada dil anlamaz diləklər,
Hələ neçə amallarım körpə təki iməklər.

Yerlə göyün arasında qanadlı bir quşam mən,
Şimşəklərin gözlərində buludlanan yaşam mən,
Fırtınadan, fəlakətdən qopub gələn daşam mən,
Zəncirlənmiş qollarımla aşacağam sədləri,
Poladlanmış dişlərimlə didəcəyəm dərdləri.

İçimdəki qəm təşnəsin ocağıma atacam,
Ürəyimi diləklərin köhləninə çatacam,
Mən dişimlə, dırnağımla hər əzaba batacam,
Uçub-gedən illərimin qanadına minəcəm,
Ünüm yetməz xəyalların dünyasına enəcəm.

Bağrımdakı qəm yükünü çatacağam taylara,
Toy quracam dərdim ilə məni qucan aylara,
Saçın yolan, bağrı didən, qara geyən vaylara,
Küləklərdən qanad alıb uçacağam ormanda,
Axtaracaq məni dünya min yol ahda, amanda.

Biyabana düşən könlü tapmaq üçün azacam,
Qara bəxtə öz əlimlə özüm qəbir qazacam,
Şadimanın dərdlərini kağızlara yazacam,
Bir yaraşıq verəcəyəm ulu sözə dil təki,
Bir gün qopub ayrılacam bədənimdən yel təki.

***17.07.1991 Tağay***

## GÜLƏ-GÜLƏ

Tikanlı baxışı götür üzümdən,
Ömürlük könlümdə qal gülə-gülə.
Salma bu sevgini, salma gözümdən,
Canımı bir yolluq al, gülə-gülə.

Soyuq diləkləri gözünlə odla,
Oynama atəşlə, oynama odla,
Keçilməz yoxuşlar, enişlər adla,
Zirvədən yolunu sal, gülə-gülə.

Duyğumu, sevgimi atma qəfəsə,
Baxma hərcayiyə, baxma nakəsə,
Ölüm tozu səpmə bu şad nəfəsə,
Könlümü kamantək çal, gülə-gülə.

Tulla ürəyindən hiyləni, kini,
Unutma Tanrının verdiyi dini,
Dedim, məramlarla köklə köksünü,
Geyin öz paranla al, gülə-gülə.

Könlümün barından dər sənin olsun,
Ürək atəşinə sər, sənin olsun,
Bu yolda tökdüyün tər sənin olsun,
Gəlsin bəxtəvərlik hal gülə-gülə.

Həyatım hər zaman könlünə möhtac,
Bir xoş danışığa, davranışa ac,
O xoşbəxt sevgidən qur şərəfli tac,
Hər dərdə qələbə çal, gülə-gülə.

***13.07.1991***

## MÜDHİŞ ƏLƏM

İçimdə dolaşır bir müdhiş ələm,
Dünyanı qaraya boyayır naləm,
Çox haray qoparır əlimdə qələm,
Tək otaq, ruhuma pasiban ürək,
Bir də başım üstə müqəddəs fələk.

***07.03.1991***

## QARŞIDAN KEÇİRSƏN

Qarşıdan keçirsən yenə yad kimi,
Baxışın aləmə güldürdü məni.
Sevgin tə'nə edən başa sərkimi?
Gözün baxa-baxa öldürdü məni.

İçimin ağrısı dünyanı tutub,
Bağrımda min cürə yaralar açıb.
Öz bəxtim, qismətim məni unudub,
Ayrı xanimana, məkana qaçıb.

Birlikdə unudaq hər bir ağrını,
Qoy diləklərimi udmasın fələk.
Doldur məhəbbətlə eşqli bağrımı,
Ömrüm aralıqda olmasın həlak.

***15.07.1991. Tağay***

## HƏYATIM VAR

Gözümdən salmısan baharı, qışı,
Ağlayıb-sızlaram gecəbəgündüz.
Eşqidə mən oldum hamıdan naşı,
Qarşıma çıxmadı nə eniş, nə düz.

Şimşəklər kişnədi hay-harayıma,
Buludlar ağladı can fəryadıma,
Qəmlər daldalandı dərd sarayıma,
Bir kimsə yetmədi nədən dadıma?

Mən külü sovrulmuş bir boş ocağam,
Közümdən alışıb yanacam hələ.
Ən yüksək zirvədə dayanacağam,
Ordan bircə zərrə düşməmiş ələ...

Dumanı dağılmış bir Şahdağıyam,
Mənə əsər etməz nə boran, nə qar.
Sənlə Şadimanam, sənsiz ağıyam,
Çox-çox yazılmamış ağ vərəqim var.

***15.07.1991. Tağay***

## QƏLBDƏ DAĞLAR QALIBDI

Diləklərim ümidləri haçalar,
Qəlb içində eşqi çağlar qalıbdı.
Dərd bağrımı min bir yerdən parçalar,
Çalın-çarpaz qəlbdə dağlar qalıbdı.

Arzularım saçın yolur qəfəsdə,
Kor bəxtimə tale verməz qəfəs də,
Kəsilibdi can gəzdirən nəfəs də,
Yolum üstə qarlı dağlar qalıbdı.

Yıxdı fələk diləklərin atını,
Yeddi yerə parçaladı çatını,
Kəsdi zaman ömrün yeddi qatını,
Kimsə açmaz, qapım bağlar qalıbdı.

Bağçam vardı çiçəyindən tapılmaz,
Sinəsinə atəş dəysə çapılmaz,
Ormanına şimşək düşsə sapılmaz,
Güllər solub, xəzan bağlar qalıbdı.

Alın yazım kor bəxtimlə pozuldu,
Qara dərdim min bir yerə yozuldu,
Qismətimə yaman günlər yazıldı,
Yaş bilməyən gözüm ağlar qalıbdı.

Ürəyimin içindəki qəm naçar,
Gözlərimdən qurumayan nəm naçar,
Ələmləri yamanlayan dəm naçar,
Bir-birindən yaman çağlar qalıbdı.

***19.07.1991. Tağay***

## YOLLARINDA ŞAM KİMİ

Əridi baxışlarım yollarında şam kimi,
Olan-qalan ümidin bir cam suyunu içdim.
Qaraldı gözlərimdə gedişin axşam kimi,
Qəlbi nigaran qoyub niyə uzaqdan keçdin?

Gedişin ürəyimdə ocaq çatdı al səhər,
Ala gözlü gündüzü qəfil eylədi zəhər.
Boğdu yenə bağrımı acılı müdhiş qəhər,
Sən qəlbə bələd ikən niyə bu yolu seçdin?

Addığın səhv addımlar ürəyimi taladı,
Bölünməz duyğuları ikiyə parçaladı,
Ayrılıq sevgimizin yolunu haçaladı,
Bahar məhəbbətimi nə becərdim, nə biçdim.

***02.08.1991***

## ÜRƏK BAXMAYIR SÖZƏ

Bu yalançı sevgini,
Çoxdan vuraraq üzə,
Unudardım o günü,
Ürək baxmayır sözə.

Dağıdıb duman, çəni,
Can ağlatmaz sevəni,
Atardım qəlbdən səni,
Ürək baxmayır sözə.

Çox vaxt məndən xəbərsiz,
Ələmdə ağlayır göz,
Elə yalvarır ki, döz,
Ürək baxmayır sözə.

Bu gizlənpaç oyunu,
Qurub bəxtin toyunu,
Unudub kök-soyunu,
Ürək baxmayır sözə.

Eşqə xəyalda yetdim,
Min dəfə üsyan etdim,
Mən dedim, mən eşitdim,
Ürək baxmayır sözə.

Ağladım için-için,
Dedim: həsrətlər neçin?
Qəlbdə qar əlçim-əlçim,
Ürək baxmayır sözə.

Hər işimiz bəlalı,
Bir keçilməz qalalı,
Hey salır qalmaqalı,
Ürək baxmayır sözə.

Yeri-göyü ağladır,
Sevgisiylə dağladır,
Qapısını bağladır,
Ürək baxmayır sözə.

***21.07.1991***

## GİZLƏTMİSƏN GÖZÜMDƏ

Dəli istək ürəyimdən yol salıb,
Bu sevgiyə mat qalmışam özüm də.
Baxışımdan gizli-gizli çağ alıb,
Gözlərini gizlətmisən gözümdə.

Yarı hicran, yarı vüsal bölgəsi,
Bir zülümdür, bir sitəmdir ölkəsi,
Düşür yola, düşür izə kölgəsi,
Gözlərini gizlətmisən gözümdə.

Yanmamaqçın zaman-zaman oduma,
Yetmək üçün hər dəqiqə dadıma,
Getməməkçin hicran, həsrət badına,
Gözlərini gizlətmisən gözümdə.

Bir fələktək fəth etmisən gözümü,
Qaldırmaqçın zirvələrə dözümü,
Yandırmaqçın atəş ilə közümü,
Gözlərini gizlətmisən gözümdə.

Aparmısan qəlbi uyğu elinə,
Dən salmısan o qapqara telinə,
Gül adımı salıb yadlar dilinə.
Gözlərimi gizlətmisən gözümdə.

***23-25.07.1991***

## CIRAR YAXASINI

Alışır içimdə həsrət müddətdi,
Cırır yaxasını ürək, telefon.
Bu dəli sevginin əyilib qəddi,
Ağlayır çocuqtək dilək, telefon.

Qovuşdur könlümü öz vüsalına,
Məcnuntək könlümün yet bir halına,
Uçan ümidlərin qalmaqalına,
Ol tufana dözən dirək, telefon.

Ayrılıb ürəklər, yetibdi sazaq,
Düşüb bir-birindən sevgilər uzaq,
Həsrətə birlikdə gəl qəbir qazaq,
Bu yolda ol sən də zirək, telefon.

Ürəyim imkansız bir əsir, kölə,
Calışır dərdimi ikiyə bölə,
Gözlərdən axan yaş dönübdü gölə…
Eyləmir heç əlac fələk, telefon.

***01.08.1991***

## ÜZÜLDÜ ƏLİM ƏLİNDƏN

Gözümdə yaşım boğuldu,
Məktub da gəlməz elindən.
Qəlbimdə həsrət doğuldu,
Üzüldü əlim əlindən.

Yetişmir sənə haraylar,
Qəmindən uca saraylar,
Diddi içimi ah-vaylar,
Üzüldü əlim əlindən.

Qəlbimi oda çatıram,
Könlümü oda atıram,
İçinə düşüb batıram,
Üzüldü əlim əlindən.

Olmuşam qəmə mübtəla,
Keçilməz eşqin bir qala,
Dözə bilmirəm bu hala,
Üzüldü əlim əlindən.

***01.08.1991***

## YARALADI SİNƏMİ

Məhəbbətin yaraladı sinəmi,
Yağı vuran çalın-çarpaz dağ nədi?
Dünya tutmur mən gəzdirən dərd-qəmi,
Əriyibdi, qəlbdə zərrə yağ nədir?

Pozulubdu ölər ömrün naxışı,
Öldürübdü məni elin baxışı,
Bulud təki tökür gözüm yağışı,
Sel olmayan bağça nədir, bağ nədir?

Sadəliyim çəkiş oldu başımda,
İblis təki bulundu hey qarşımda,
Yazı ötmüş, payız almış yaşım da,
Məcnun eşqdə qara nədir, ağ nədir?

Zalım sevgin onsuz qəlbi taladı,
İç evimdə yalquzaqtək uladı,
Hicranıyla pak sevgimi buladı,
Qara gündə bir bəxtiyar çağ nədir?

Yarpaq təki qopdu düşdü hey günlər,
Tilsimindən açılmazdır düyünlər,
Səadətim əllərində çox inlər,
Səhrasında dərə nədir, dağ nədir?

Dərdlərimin ahı üzə güləndir,
Sevgimizin hər üzünü biləndir,
Gedən yatır, gələnlər də öləndir,
Ay biinsaf, ölən qəlbdə sağ nədir?

***01.08.1991***

## İNCİMƏ

Ürək ki, var hər yetənə vurulmaz,
Yalan satmaq günah işdir, incimə.
Hər istəylə polad həyat qurulmaz,
Bu ömürlə bir gərdişdir, incimə.

Sınanılmış, bəyənilmiş tarı seç,
Əhdə möhkəm namusu seç, arı seç,
Qəlb sevməsə, tanrı sevməz bu bir suç,
Desələr də bir vərdişdir, incimə.

Altun deyil gücün çatan seçəsən,
Yol deyildir sıldırımdan keçəsən,
Hər suyu da qorxuludur içəsən,
Çörəyi də əzən dişdir, incimə.

Mən atmaram könlü yetən əlinə,
Məhəbbəti salmaram yad dilinə,
Tanrı qoysun, çatsın bülbül gülünə,
Həyat özü ağır işdir, incimə.

***01.08.1991***

## NİYƏ BELƏ

Zəncirindən qırılaraq qolları,
Yağı təki qılınc çalır həsrətlər.
Nə sonsuzdur gəlib-gedən yolları,
Niyə belə uzun olur həsrətlər?

Sevənləri bir-birindən ayırır,
Cəllad təki xəncərini sıyırır,
Köz bağlamış yaramızı sıyırır,
Niyə belə uzun olur həsrətlər?

Ürəyimi düzdə qoyub lap ahlar,
Bürüyübdü çol-bayırın günahlar,
Nəhslə açır qapımı da sabahlar,
Niyə belə uzun olur həsrətlər?

***12.08.1991***

## BAXA-BAXA

Sən getdin, içimdə doğrandı ürək,
Qapıldı yollara göz, baxa-baxa.
Əyildi qəddim də qüssədən, fələk,
Sındı əhd bağlamış söz, baxa-baxa.

İndi həsrət, hicran dayanacağım,
Dərdi tutmaz oldu dərddən qucağım,
Keçdi tufanından odum, ocağım,
Söndü incik-incik köz, baxa-baxa.

Düşdü yollarına yorğun baxışlar,
Xəzanı gətirdi payızlar, qışlar,
Axdı gözlərimdən acı yağışlar,
Leysana büründü üz, baxa-baxa.

Xəyal dolu təki köksümü əzər,
Hələ dastan olub dillərdə gəzər,
Əzablı günlərim dəryaya bənzər,
Dəli sellərində üz, baxa-baxa.

Qovuşmaq eşqiylə yandı ürəklər,
Ağladı, saçını yoldu fələklər,
Çatdırar sevgimi ötən küləklər,
Uzaqdan həsrətlə süz, baxa-baxa.

Dolan uyğuların isti köksünə,
Çıxma sədaqətin, eşqin əksinə,
Yuxular yozular bir gün tərsinə,
Yalçın röyalarda gəz, baxa-baxa.

Ürəyim, tələsmə, gələr şanlı gün,
Açılar bəxtinə çalınmış düyün,
Bir səadət uçar bağrında göyün,
Ağrılı ömrünlə döz, baxa-baxa.

***02.08.1991***

## AĞLA, GÖZLƏRİM, AĞLA

Uçubdu səadətim yaydan çıxan ox kimi,
Tanrım, neylim bu dağla?
Cəfasını çəkdiyim sevgim indi yox kimi,
Ağla gözlərim, ağla.

Gecələr məhəbbətin uyğusuna qaçmışam,
Çocuq təki ovudum, od köksümə qucmuşam,
Xəyalıyla günlərin qanadında uçmuşam,
Ağla gözlərim, ağla.

Məhəbbət könlün ilə hər mərama çatardı,
Yuvarlanıb gecənin qucağında yatardı,
O keçilmiş yollarda indi keçilməz qardı,
Ağla gözlərim, ağla.

Məlakə istəklərim, diləklərim puç oldu,
İllərlə bəslədiyim ümidlərim heç oldu,
Eşqim ürəkdən qopan bir divanə suç oldu,
Ağla gözlərim, ağla.

Dərdin mənim qəddimi əyəcək illə belə,
Salacaq Məcnun eşqi hələ çox dildən-dilə,
Verəcəkdir bəxtimi acı tufana, yelə,
Ağla gözlərim, ağla.

Hələ çox xəyalımın qolları gəriləcək,
Bir inam işığıyla yollara səriləcək,
Həsrətin əlləriylə vüsalı dəriləcək,
Ağla gözlərim, ağla.

İçimdə bir inama dönəcəkdir istəyim,
Aləmlərdə səadət gəzəcəkdir diləyim,
Diri ikən neçə yol öləcəkdir ürəyim,
Ağla, gözlərim, ağla.

***02.08.1991***

## SEVGİLƏR KÖRPÜ SALANDAN

Arada sevgilər körpü salandan,
Min yerdən dikilən baxışlar yanlış.
Bu dəli könlünü könlüm alandan,
Pünhan eşqimizə naxışlar yanlış.

Günü qara edən haqsız tə‘nələr,
Acı sitəm ilə köksümü dələr,
Gözümün evini buludlar bələr,
Leysantək ağlayan yağışlar yanlış.

Bəxtin yollarını dumanlayaraq,
Ürəyi, diləyi çox danlayaraq,
Dilsiz məhəbbəti yamanlayaraq,
Dilinin tökdüyü qarqışlar yanlış.

Arada gəzən söz qəlb söküb gedər,
Girib bəbəklərə yaş töküb gedər,
Diləyi ağladar, can büküb gedər,
Hicranın şəninə alqışlar yanlış.

***02.08.1991***

## GƏLMƏ BU YERƏ

Tənəli baxışlar gəzir üzümdə,
Yamanlar söyləyir ağzından hərə.
Sədaqət görmədim bircə sözündə,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Bu çılğın ürəyim qüssədən naçar,
Mən qürbət quşuyam, bağım kim açar?!
Uçar bir gün eşqim, başımdan uçar,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Gözüm gözlərindən ayrı olsa da,
Əqrəbtək köksümü həsrət çalsa da,
Sınıq ürəyimdə nisgil qalsa da,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Mən öz mənliyimi ucuz tutmaram,
Eşqimi zirvədən düzə atmaram,
Dünyada ağılı qəlbə satmaram,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Ayrılıq qəlbimdə saçsa da ocaq,
Dözüb ağrılara çox dayanacaq,
Olsa da qəlbimə son dayanacaq,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

Heç kəs səni kimi qəlbə yatmadı,
Mən səni atsam da ürək atmadı,
Onsuz ömür-günüm kama çatmadı,
Sən allah, sən tanrı, gəlmə bu yerə.

***04.08.1991***

## SƏN ALLAH

Ağrımaz könlümü ağrıdan naşı,
Onu boranlara salma, sən allah.
Qurumur həsrətdən gözümün yaşı,
Buludtək üstümü alma, sən allah.

Olub keçənləri sadalamağa,
Cəhd etmə günahı daldalamağa,
Könlü hər yetənə vermə sadağa,
İki qəlb yolunda qalma, sən allah.

Dağılıb ümidin həsrət dağları,
Döyür zindanında ötən çağları,
Unudub verdiyin əhdi-ilqarı,
Qəlbi hər havada çalma, sən allah.

Günlərim içindən qovrulur, yanır,
Ömrün əqrəbləri getmir, dayanır,
Yatmış duyğularım yenə oyanır,
Sən ondan bədguman olma, sən allah.

***08.08.1991***

## YETƏR BU AYRILIQ

Yetər bu ayrılıq,
Yetər bu hicran,
Gəl barış süfrəsi açaq birlikdə,
Uçaq ənginlikdə, uçaq birlikdə

Yetər bu ayrılıq,
Yetər bu hicran,
Gəl uçaq kainat səmasında biz,
Yerimiz, göyümüz qəlbimiz əziz.

Yetər bu ayrılıq,
Yetər bu hicran,
Qovuşaq əbədi bir səadətə,
Tanrım alqış desin xoşca niyyətə.

***04.11.1991***

## DİLİM DİLİNƏ ÇATA

Vüsal can bazarında,
Həsrəti bir yol sata.
Eşqimin gülzarında
Dilim dilinə çata.

Dindirib bu möhnəti,
Qısaldasan möhləti,
Qurasan səadəti,
Dilim dilinə çata.

Ağlayan günlər keçə,
Dərdi, ələmi biçə,
Sevgi şərbətin içə,
Dilim dilinə çata.

Ağrılarım dağıla,
Min bir müjdə yığıla,
Bir toy qura ağıla,
Dilim dilinə çata.

Duyğularım pəjmürdə,
Eşq qalib çıxa dərdə,
Yol açmaya namərdə,
Dilim dilinə çata.

***22.08.1991***

## GƏL ƏZİZİM

İçimizin istəkləri ayrı düşüb nə vaxtdı,
Məcnun kimi biyabana salıbdı yazıq baxtı,
Eyləmisən həsrətləri xoşbaxtların xoşbaxtı,
Gəl, əzizim, ayrılığın sinəsin parçalayaq,
Üstümüzə gələn qəmin yolların haçalayaq.

Dağın, düzün küləkləri qəm ələyər üstümə,
Cırır köksü dəli hicran, durur hər an qəsdimə,
Yanır ürək dərd qovunda, kimsə gəlməz üstünə,
Gəl, əzizim, alışdıraq sonu yetmiş şamları,
Alovuyla ram eləyək çadralı axşamları.

Bağrın içi atəşinin alovuna tamarzı,
Bir gecəlik gözüm yaşı doydurar min Arazı,
Bas köksünə dinsin, susmuş eşqin tilsimli sazı,
Gəl, əzizim, dəli könül tək könlünün ögarı,
Nəğməsiylə qoy ayıltsın mürgüləyən rüzgarı.

Bu ürəyim öz bağrına yabançı bir çiçəkdi,
Onun qəmin sənnən qeyri söylə kim çəkəcəkdi?
Eşqimiz də, ruhumuz da Tanrı bilir, gerçəkdi,
Gəl, əzizim, həsrət ilə savaş etsin ürəklər,
Mağar qurub, qol götürüb yallı getsin ürəklər.

***23.08.1991***

## MAT QALIB

Sən könlü əzabların içinə tullayaraq,
Getmisən yabançıtək.
Ürək də öz səsinə qulaq asmaz,
Öz canından bezən üsyançıtək.
O məhkümdu, mən hakim,
bilinməyir haqlı kim?
Bu savaş meydanında çəkişərik, o zaman,
sən qəlbə dönəcəksən,
qartal təki zirvədən köksümə enəcəksən.
Hələlik bunlar xəyal,
Pəjmürdədir yazıq hal.
Arayır gözlərim yollarda hər gün səni,
Yeddi gecə yarsı, uyğularımın
qapısına salır məni.
Yuxularım sərgərdan,
Yuxularım didərgin,
Bəlalı gedişdə hər gün,
hər saat gərgin.
Ruhum şahmat oynunda aldanıb,
Piyada gedişlə min dəfə əfsus yanıb.
Dövranın hər işinə,
Zamanın gərdişinə,
Vallah, billah mat qalıb.
Mat qalıb.

***23.08.1991***

## UNUDA BİLMİRƏM

Unuda bilmirəm, unutmaq çətin,
Olub keçənləri bir yuxu kimi.
Hər an, hər dəqiqə dönük surətin,
Doğrayır könlümü bir qorxu kimi.

Uçur gözlərimdən məzhun xəyalın,
Qonur diləklərim mələk köksünə.
Bilmirəm necədir halın, əhvalın?
Şükür eləyirəm yenə bu günə.

Mən bağrı min ocaq odlar kürəsi,
Alovum dünyanı qarsıyıb tamam.
Bürüyüb fəryadım bu geniş ərzi,
Hələ çeşməsində çağlar ilhamam.

Dondura bilməzsən soyuqluğunla
Özü öz qovunda yanan diləyi.
Aldatdın könlümü yovuqluğunla,
Eşqin qapısına saldın ürəyi.

***23.08.1991***

## ÖZÜN BİL

Bas bağrına diləkləri saz təki,
Çal ruhunu bəmdə, zildə özün bil.
Gəl uyğuma bahar təki, yaz təki,
İnsafa bax ayda, ildə özün bil.

Duyğuları çək ortaya süfrətək,
Suçun ara hakim kimi təkbətək,
Bu mən, bu sən, bu sevgimiz, əl-ətək,
Peymana bax qəlbdə, dildə özün bil.

Can içindən getməz duman, getməz sis,
Taxtdan düşməz təmiz dilək, təmiz hiss,
Qismətimə düşüb ürək yaxşı, pis,
Ver özgəyə, saxla əldə özün bil.

Bağrı üzən həsrət başa bəladır,
Aramıza düşən nifaq qaladır,
Könül ki var, göy dəryada, taladır,
Dur qurğu qur axar seldə, özün bil.

Ağlım, hissim yaxşılara yaxşıdır,
Ömür ki var, bir taleyin naxşıdır,
Yaxşını da yaxşı ara, yaxşıdır!..
Ucalt-alçalt yurdda, eldə, özün bil.

***08.09.1991***

## DARIXIRAM

Yalqızlıq könlü parçaladı tikə-tikə,
İqtidarım qalmadı həsrətin yükünü çəkə.
Ürəklə ağıl arasında hər gün mərəkə,
Nə ağıla əyildim, nə də ürəyə,
İsmarladım taleyimi fələyə.
Dedim, bir gün tilsimi sındırıb,
nağıllarda olduğu kimi gələrsən,
Könlümüzü talan edən,
        həsrəti yerindəcə güllələrsən.
Nə sən gəldin, nə də həsrət güllələndi,
Bu kimsəsiz taleyimə,
        hər gün qəm ələndi.
O gündən yollara baxıram...
Təkcə sənin üçün darıxıram,
Darıxıram.

***26.08.1992***

## QƏFİL AYRILIQ

Bir qəfil ayrılıq, divanə həsrət,
Bu yanan könlümü soyutmayacaq.
Sevgin başım üstə bir tanrı, xilqət,
Sənli günlərini unutmayacaq.

Kamına qovuşsa bütün diləklər,
Hicran xəlbirində ömrü ələklər,
Hələ ki, ayrıdır yanan ürəklər,
Heç müjdə bağrımı ovutmayacaq.

Min rəngli uyğular gecə qonağım,
Dadlı xəyalların şamım, çırağım,
Sönsə işıqları, ərisə yağım,
Gözüm bəbəkləri uyutmayacaq.

Gümanım ağrımda, acımda üzür,
Hər qara əzabın kamına dözür,
Demə ki, ürəyim özünü üzür,
Yatan duyğuları ayıltmayacaq.

***24.08.1991***

## ƏLİMİZ YETSİN

Yenə ayrılıqlar gəlir üstümə,
Mehmanı olduğum gecəyə həsrət.
Sənsizlik cəlladtək durub qəsdimə,
Döyür qəlb qapısın acı bir xislət.

Bəlkə İlahidən gəlibdir sevgi,
Yatmış duyğuları oyatmaq üçün.
Bu bəxtsiz taleyim vururdu mürgü,
Gəldin alışdırdın könlümün için.

Gəl dəli sevdayla alışıb yanaq,
Səni də, məni də bəxtiyar etsin.
Ülfətin yolunda eşqlə dayanaq,
Bəlkə səadətə əlimiz yetsin.

***22.05.1993***

## GƏLSƏN DƏ, GƏLMƏSƏN DƏ

Bitəcəm yollarında qırmızı çiçək kimi,
Bilsən də, bilməsən də.
Həsrətdən ağlayacam usanmış fələk kimi,
Gəlsən də, gəlməsən də.

Saçlarımı yolacaq hicranın küləkəri,
Aradakı soyuqluq üşüdəcək anları,
Əhd edib, and içdiyim unutmam zamanları,
Gəlsən də, gəlməsən də.

Günəş təki səhərlər doğacağam fəzada,
Mən müdhiş ayrılığı axtaracam qəzada,
Nəhrlərin içində könlüm kimsəsiz ada...
Gəlsən də, gəlməsən də.

Məhəbbətim kimsəni könlümə yaxın qoymaz,
Alışan ürəyimi həsrətlərdən soyutmaz,
Eşqimin gülzarında könlüm ətirli bir yaz,
Gəlsən də, gəlməsən də.

***23.09.1991***

## SƏN OLDUN

Könlümü köpürən dəli sellərə,
Bir göz qırpımında atan, sən oldun.
Min bir qəm gətirən qəmsiz illərə,
Məni dərdlilərə qatan, sən oldun.

O lal gecələri uyğusuz edən,
Pak məhəbbətimi sayğısız edən,
Özgə yuvasına eşq üçün gedən,
Beşgünlük sevgilər tutan sən oldun.

Sevdanı Məcnuntək düzlərə salıb,
Ağlımı, huşumu əlimdən alıb,
Bağrımın başından ilantək çalıb,
Çiynimə həsrəti çatan, sən oldun.

Qırğıtək bir dünya nəş'əmi didib,
Özgə qapısına əhd üçün gedib,
Bu yazıq bəxtimi qərarsız edib,
Ömürlük könlündə yatan, sən oldun.

***12.08.1991***

## NƏDİR SÖZÜN

Mən səni sevə-sevə illəri yelə verdim,
Bunu görmədi gözün?
Pünhan eşqlə alışan dilləri yelə verdim,
Bəs buna nədir sözün?

Mən səni sevə-sevə özümü unutmuşam,
Bağrımda sevgilərdən gizli ocaq çatmışam,
Sənsiz keçən günləri sənli günə qatmışam,
Bəs buna nədir sözün?

Mən səni sevə-sevə gecəmi gündüz etdim,
Sıldırım yoxuşları iradəmlə düz etdim,
Dərd bilməyən könlümü işgəncəsin yüz etdim,
Bəs buna nədir sözün?

Yuxusuz gecələrə bağrımla layla çaldım,
Hər tənəli baxışı suçsuz ürəyə saldım,
Mən vüsalın eşqində, həsrət ilə qocaldım,
Bəs buna nədir sözün?

Mən səni sevə-sevə hər əzaba qatlaşdım,
İlham ilə alışan ürəyimə yadlaşdım,
Özüm dərdə dağ ikən, dərd içində daşlaşdım,
Bəs buna nədir sözün?

Əyləşib o insafsız köksünü dindirsənə,
Bu ağrını-acını ürəyinə desənə,
Ürək daha çıxarıb atıb qəlbdən sevgini...
Dərd çəkməz innən sənə!
Əsla günahkar özün,
Bəs buna nədir sözün?!

***27.08.1991***

## YAZILA HÜNƏRİMİZ

Yenə də alışaydıq eşqidən gizli-gizli,
Yenə də birləşəydi ayrılan əllərimiz.
Yığışaydı istəklər bir yerə sizli-bizli,
Tənələr tökməyəydi bilmədən dillərimiz.

Narahat ürəyimiz qəfəsindən uçaydı,
Ayrılan sevgimizi atəşilə qucaydı,
Dinə gəlib həsrətlər vüsala yol açaydı,
Nisgilli keçməyəydi öləri illərimiz.

Sən də, mən də gileyi gur sellərə ataydıq,
Ən çətin anda belə bir-birini tutaydıq,
Fəth edib əzabları məramlara çataydıq,
Solmayaydı vüsalın bağında güllərimiz.

Həyatımız işgəncə qarşısında bükülməz,
İçdən gəlməyən sevgi qəlb içinə tökülməz,
Nə qədər ki, eşqimiz dodaq bilməz, diş bilməz,
Məhəbbət zirvəsinə yazıla hünərimiz.

***27.08.1991***

## HARDAN YOL TAPMISAN?

Möhlətin könlümdə ocağın çatıb,
Qara don geydirib hər diləyimə.
Ağrını, acını köksümə çatıb,
Hardan yol tapmısan sən ürəyimə?

Heç kəs iradəmi gərə bilməzdi,
Eşqimin çiçəyin dərə bilməzdi,
Gizlicə sevgimi görə bilməzdi,
Hardan yol tapmısan sən ürəyimə?

Mən ki, bir tilsimli daş saray idim,
İçimdə boğulan hay-haray idim,
Qəmə çıraq tutan hüzn, vay idim,
Hardan yol tapmısan sən ürəyimə?

***26.12.1991***

## SƏN GƏLMƏSƏN

Dərd içimdə gileyə dönəcək,
Bu ağrı-acı sızlayan neyə dönəcək,
Ömür dünyamda tale günəşim sönəcək,
Sən gəlməsən.

Sıxacaq ovcunda ürəyimi həsrət,
Bir qul kimi köksümü qucacaq əsarət,
Vuracaq üstbəüstdən könlümə xəsarət,
Sən gəlməsən.

Bulud dan yeritək doğacaq,
şimşək təki sıxacaq gözlərini...
Daşqın sellər alacaq eşqimin düzlərini,
Dərd qara çarşaba
bürüyəcək könlümün gündüzlərini,
Sən gəlməsən.

Bütün diləklərim puç olacaq,
Fəğanım Tanrı dərgahında suç olacaq,
Ürəyim səhər-axşam yollarında qalacaq,
Sən gəlməsən.

Ağaracaq qapqara tellərim,
Ağ qar təki döşənəcək yollarına,
Tanrı özü ağlayacaq könlümün ahu-zarına,
Kimsələr yetişiməyəcək sevgimin karına,
Sən gəlməsən.

Eşqim səba yellərindən karvan tutacaq,
Gecəni gündüzə qatacaq,
Fəqət ən uzaq qütbdə olsan belə sənə çatacaq,
Sən gəlməsən.

Ürəyim ölənəcən nisgili
sinədən silməyəcək,
Hissin, eşqin kimsə ilə bölməyəcək,
Hətta ölüm gəlsə belə ölməyəcək,
Sən gəlməsən.

***27.08.1991***

## KÖNLÜMƏ GƏLMƏ YAXIN

Parçala sinəndəki mənə olan sevgini,
Başqa ürək zirvəsin dələcəksə eşq oxun.
Salma qara bəxtimə, sən allah, qara günü,
Könlümə gəlmə yaxın.

Dodaqların özgəyə sevgilər deyəcəksə,
Dilin bir başqasının qamətin öyəcəksə,
Həsrətin qara əli başıma döyəcəksə,
Könlümə gəlmə yaxın.

Qoy mən olum, birdə ki tənha evim-eşiyim,
Acı xatirələrlə yuxlayan qəlb beşiyim,
Yabançı duyğuların qanadında üşüyüm,
Könlümə gəlmə yaxın.

Sitəm etsin, əcabə, tənhalığım qoy mənə,
Xəyalın ilğımları bağrımı salsın çənə,
Mərdanə addımınçın suçdu demərəm sənə,
Könlümə gəlmə yaxın.

Haçalanan möhnətlər içində yalquzaqsa,
Məsafə yaxın ikən qəlb-qəlbinə uzaqsa,
Ulaşan sevgimizin yol-rzi sazaqsa,
Könlümə gəlmə yaxın.

Mən hər gün intizarın dəryasında boğullam,
Həsrətin sitəmiylə min yol ölüb-doğullam,
Bir bulud parçasıyam dolu təki dağıllam,
Könlümə gəlmə yaxın.

Tək həyatım sükutun qoynunda öləcəksə,
İllərlə bəslədiyi eşqi yad böləcəksə,
Qəlbimin sevdasına dost-düşmən güləcəksə...
Könlümə gəlmə yaxın.

***08.10.1991***

## MÖHNƏTİNLƏ QALMIŞAM

Gecə-gündüz qərarsız,
Dərddən cığır salmışam.
Ay əhdsiz, ay ilqarsız,
Möhnətinlə qalmışam.

Həsrətin uca qaya,
Çırpıb məni sel-suya,
Qəmimi qəlbin duya...
Möhnətinlə qalmışam.

Qəlb-qəlbi belə üzməz,
Buna heç dağ da dözməz,
Sevgi ayaqda gəzməz,
Möhnətinlə qalmışam.

Bir mən, bir şam işığı,
Qəm evim yaraşığı,
Salma dağa aşiqi,
Möhnətinlə qalmışam.

Təmiz sevgim keçilməz,
Hər bulaqdan içilməz,
Heç ölümdən seçilməz,
Möhnətinlə qalmışam.

Qəlbdən nahaqdı yürüş,
Gəl ürəyimlə döyüş,
Hara gedir səhv yeriş?
Möhnətinlə qalmışam.

***10.10.1991***

## ÜZDÜ ÜRƏYİMİ, ÜZDÜ BU HƏSRƏT

Qəfil tufan kimi xəbərsiz gəldi,
Yoluma fəlakət düzdü bu həsrət.
Acı oxlarıyla qəlbimi dəldi,
Üzdü ürəyimi, üzdü bu həsrət.

Ömrün təlatümlü qaynar çağında,
Soldu tər çiçəyim, gülüm bağında,
Gözlər səhər-axşam yar sorağında,
Üzdü ürəyimi, üzdü bu həsrət.

Fərağım artıqca dərd pillələndi,
Hələ beşiyində eşq güllələndi,
Bağrıma, könlümə ələm bələndi,
Üzdü ürəyimi, üzdü bu həsrət.

Ayımı, ilimi dustaq eylədi,
Yerişi, duruşu, vallah, hiylədi,
Arzumu, kamımı yoldan eylədi,
Üzdü ürəyimi, üzdü bu həsrət.

Hisslərin sirrindən kimsə baş açmaz,
Ürəyə girəndə qovmasan qaçmaz,
Tanrım rəhmə gəlib bir qapı açmaz,
Üzdü ürəyimi, üzdü bu həsrət.

***13.10.1991***

## ƏLİM ƏLİNƏ YETƏ

Sına həsrətin beli,
İtə, bu ələm itə.
Kaş eşidə dil dili,
Əlim əlinə yetə.

Hicran çəkilməz dərddi,
Bir yol bükülməz qəddi,
Keçəm səddi, sərhəddi,
Əlim əlinə yetə.

Dolur ələmdən gözüm,
Qaralır al gündüzüm,
Bunca olarmı dözüm?
Əlim əlinə yetə.

Elim elindən uzaq,
Arada həsrət sazaq,
Dönüb qəlb sınıq saza,
Əlim əlinə yetə.

Tanrım yıxa qəfəsi,
İsidə pak nəfəsi,
Çata qəlbimin səsi,
Əlim əlinə yetə.

Qəlb qovuşsun sovqata,
Şəkər qatsın ovqata,
Çatam sənli həyata,
Əlim əlinə yetə.

Könül həsrət müjdəyə,
Bəxt gülməz pəjmürdəyə,
Sabah xoş xəbər deyə,
Əlim əlinə yetə.

***15.10.1991***

## BİR SƏHƏR

Ayrıldı əllərimiz,
Ömür, gün, zaman zəhər.
Qovuşmaz dillərimiz,
Bir səhər.

Hicran qəddimi əydi,
Möhnət özünü öydü,
Kədər başıma döydü,
Bir səhər.

Yol əlçatmaz Kəbədi,
Bu son gediş əbədi,
Uçuldu eşq məbədi,
Bir səhər.

Yox sorağın alınca,
Dərddən hali olunca,
Könül uçdu dalınca,
Bir səhər.

Qəmin qəlbə qəm yapar,
Gəlməsən hicran tapar,
Uğursuz eşqi apar,
Bir səhər.

Sevda evimə gələ,
Bu dərdi yarı bölə,
Göz yaşım dönüb gölə,
Bir səhər.

***27.10.1991***

## GƏLMƏDİN

Arzularım daşa dəydi, puç oldu,
Gəlmədin.
Aldanışlar kor bəxtimə suç oldu,
Gəlmədin.

Məhəbbətim ürəyimdə sel oldu,
Günlər ötdü hicran, həsrət il oldu,
Ürək, könül özü sənə dil oldu...
Gəlmədin.

Gözlər pünhan fələk kimi buludlar,
Dözüm ki var, köks içində palıdlar,
Eşqimizə tə‘nə etdi çox yadlar,
Gəlmədin.

Mən nə deyim öz əhdindən dönənə,
Əlçatmayan zirvələrdən enənə,
Alışdırıb könlü, hissi sönənə,
Gəlmədin.

Sevənlərin yanar qəlbi amadə,
Harda qaldın, vəfadarım, yet dadə?
Verdin altun ümidləri sən badə,
Gəlmədin.

***10.11.1991***

## SƏNDƏN KEÇƏ BİLMİRƏM

Həsrət qoşunu durub,
Yarıb, keçə bilmirəm.
Könlümə tələ qurub,
Səndən keçə bilmirəm.

Ömrün qaralıb qanı,
Dərddən üzülüb canı,
Unuduram sevdanı,
Səndən keçə bilmirəm.

Acılarım zəhərdi,
Ürəyimə qəhərdi,
Günlərim bir təhərdi,
Səndən keçə bilmirəm.

Silərdim qəlbdən izi,
Uğursuz sevgimizi,
Bağlardım yolu-izi,
Səndən keçə bilmirəm.

Gecəyə uyğum qənim,
Tutar yolunu qəmim,
Qəlb, məgər daşdı mənim,
Səndən keçə bilmirəm.

Məhəbbətim ulduzdu,
Eşq aldı, can uduzdu,
Ayrılığın quduzdu,
Səndən keçə bilmirəm.

***27.10.1991***

## KEÇMİŞ OLA O GÜNLƏR

Keçmiş ola o günlər...
Daha geri qayıtmaz.
Nə də ürəyimdəki duyğuları oyatmaz,
Nə də ruhum, düşüncəm məhəbbətlə öyünməz,
İndən belə ürəyim eşqin ilə döyünməz.
Keçmiş ola o günlər.

Ayrılıqdan gözümdən bir damcı yaş tökülməz,
Xəyalların evində dan yeri də sökülməz,
Bir də sinəm içinə qüssə, kədər çökülməz,
Keçmiş ola o günlər.

Qəlbə gətirsəm səni zamanım dayanacaq,
İçimdə coşub-daşan nifrətlər oyanacaq,
Dünya da ələmimdən qüssəyə boyanacaq,
Keçmiş ola o günlər.

Daş bağlayıb könlümə, qəlbdən atacam səni,
Dünyada ən vəfasız adla tutacam səni,
Taleyi məndən uzaq yada qatacam səni,
Keçmiş ola o günlər.

Ayrılığın buzları sevgini dondaracaq,
Coşğun hissim, xəyalım həsrəti yandıracaq,
Bu sayğısız eşq ki var, ahlarımdan sınacaq,
Keçmiş ola o günlər.

Səni atıb bir kərə demə ki, ağlayacam,
Eşqindən vəcdə gələn könlümü dağlayacam,
Bu ürək ilhamımla min illər çağlayacam,
Keçmiş ola o günlər.

***27.10.1991***

## APARDI

Yenə qarşılaşdı baxışlar o gün,
Gözümün yaşını sellər apardı.
Yağdı ürəyimə yağışlar o gün,
Acımı-ağrımı göllər apardı.

Yenə oğrun-oğrun gözlər oxudu,
Şimşəklər özünü göyə toxudu,
Səadət anları xalı toxudu,
Min bir çalarların çöllər apardı.

Uzaqdan-uzağa ürəklər coşdu,
Könül havasına bir şərqi qoşdu,
Neçə zirvə uçdu, neçə dağ aşdı,
Odlu nəğməsini ellər apardı.

Zaman həyat boyu qovdu taleyi,
Yoruldu yollarda, kəsildi heyi,
Nəğmələri qoşdu könlümün neyi,
Onun şərqisini dillər apardı.

Ürəklər yabançı deyilmiş demə,
Ağıl sayəsində yetər xoş dəmə,
Həyatım alüdə olduqca qəmə,
Ömrün yaxşısını illər apardı.

***02-05.11.1991***

## BU GÖRÜŞ

Könlü diləklərə cala bu görüş,
İçimdə bir ocaq qala bu görüş,
Hicranı, həsrəti tala bu görüş,
Əbədi.

Səadət marşını çaldı bu görüş,
Könlümü ömürlük aldı bu görüş,
Tale səhfəsində qaldı bu görüş,
Əbədi.

Bir payız səhəri gəldi bu görüş,
Dərdimi-bəlamı böldü bu görüş,
Bir vüsal eşqiylə öldü bu görüş,
Əbədi.

Həsrətin dumanın yardı bu görüş,
İçimi şadlığa sardı bu görüş,
Könüldən-könülə cardı bu görüş,
Əbədi.

Dünyaya sığmayan sayğı bu görüş,
Sakit gecələrə uyğu bu görüş,
Qəlbimi bürüyən qayğı bu görüş,
Əbədi.

Eşqin şərbətini içdi bu görüş,
Ömrün acısını biçdi bu görüş,
Tanrı dərgahına uçdu bu görüş,
Əbədi.

Həsrətlə arada səddi bu görüş,
Mürəkkəb gedişdə mərddi bu görüş,
Dikəltdi əyilən qəddi bu görüş,
Əbədi.

Yenə həyatıma dilək bu görüş,
Ümid sarayına dirək bu görüş,
Pərilər pərisi mələk bu görüş,
Əbədi.

***05.11.1991***

## BAXIŞLAR

Salma taleyimi dumana, çənə,
Vurma yara üstdən yara, baxışlar.
Varlığın sabahçın həyatdı mənə,
Dəyər milyon mülkə, vara, baxışlar.

Başımın üstünü kəsəndə hicran,
O vüsal evimdə min büsat quran,
Ölüm ayağında qəlb verəndə can,
Gələr Tanrım təki kara, baxışlar.

Kəssə dönüklüyü qapımı hər gün,
Salsa can evimə min qara düyün,
Ağlayan ürəkdir, çağlayan beyin,
Axtarar, arayar çara, baxışlar.

Hərdən ürəyimi yandırıb yaxar,
Hərdən də hicrantək başımda çaxar,
Dolan bulud təki gözünü sıxar,
Yaxar qara üstən qara, baxışlar.

İzləyər kölgətək gecə-gündüzü,
Bir an, bir dəqiqə tərk etməz gözü,
Varlığı xəyaldır, gerçəkdir özü,
Qəfil küsüb gedər hara, baxışlar?

Gəzib dolaşsa da könlüm hər yanı,
Yenə də ayrılmaz canımdan canı,
Gözəllər tutsa da vallah dünyanı,
Satmaz büsatımı xara, baxışlar.

***05.11.1991***

## KÖNÜL GİLEYİ

Şirinli-acılı günlərimin
dumanına büründüm,
Ağappaq yollara dönüb,
Hörüldüm xalıtək,
ömrümün ağlı-qaralı naxışına.
Döndüm pak sevginin
odlu-atəşli baxışına,
Səpildim gözlərinə.
Günəştək od tökdüm bumbuz izlərinə,

Odumdan od aldın,
Könlümdə yurd saldın.
Uçdun bir quştək qürbətə,
Apardın, özümdən xəbərsiz,
Ürəyimi saldın zillətə.
Uçdum yel qanadlı diləklərtək dalınca,
sorağını alınca,
Yaş da ötdü, zaman da,
Mən isə hələ də ah-amanda.
Nə sən gəldin, nə sevgi, nə ürək,
Yazıq xəyallarım yollarda həlak.

***23.02.1992***

## BACARMADIM

Sən mənim könlümdən
bir an belə çıxmadın,
Divanə yaddaşımda əbədi yurd saldı
tilsimli adın.
Qovmaq istədim səni uzaqlara,
Salmaq istədim içimdən,
daş olub asılmış eşqini, sazaqlara.
Üsyana qalxdı ürəyim
mənə bəxş etdiyin xəyalımla,
Çırpındım ovçu gülləsinə tuş quşcağaztək,
Fəqət, qurtulmadım, qaldım beləcə fəna halımla.
Bütün çətinliklərdən qalib çıxmaq
asan oldu mənə,
Hökm etdim könlümə dönə-dönə
unutsun səni, qurtulsun fəlakətdən,
Salsın ayrılıqları hərəkətdən,
Bacarmadım.
Hər şeyi zalım həsrət təki unutmağa çalışdım,
Sinəmdə üsyan edən arzularla yarışdım,
Ürəyimdən xəbərsiz hər gün zərrə-zərrə alışdım,
Unutdum qədərimin yazdığı bütün dərdləri,
Keçdim arzularını eşqinlə calaşdıran sədləri.
Hər gün, hər an səni unutmağa,
Sevgini könlümdən atmağa çalışdım,
Amallarla yarışdım,
Bacarmadım...
Bacarmadım...

***06.06.1992***

## SƏNİ UNUTMAQ ÇƏTİN

Yandırardım eşqinlə çağlayan diləkləri,
Çıxardım axırına yabançı həqiqətin.
Unuda bilməyirəm saf, köklü dirəkləri,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Ağrılı ürəyimdən eşqi verərdim yelə,
Salmazdım mən sevgini yad ağıza, yad dilə,
Tuş olmazdı düşüncəm boş aylara, boş ilə,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Acılar taleyimdə bahartək çiçəklədi,
Sevgi daşqın sel olub elə hey diləklədi,
Neyləyim ki, əbədi ürək o ürəklədi...
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Tanrı yazan yazını, gücüm çatsa, pozardım,
Amansızca gedişlə güman etmə azardım,
Ağrılı sevgilərə özüm qəbir qazardım,
Səni unutmaq çətin, unutmamaq lap çətin.

Ürəyimə min kərə hər gün tənə edərdim,
Dəlisov duyğuları parçalayıb didərdim,
Məhəbbətin əlindən baş götürüb gedərdim...
Səni unutmaq çətin, unutmamaq lap çətin.

***10.11.1991***

## SƏNSİZ BU HƏYAT

Dünya öz donunu dəyişər necə?
Hər baxış, hər gülüş ürəyimə yad,
Çökür gözlərimə qaranlıq gecə,
Əzizim, mənasız sənsiz bu həyat.

Küləklər tərsinə əsir elə bil,
Dəvə karvanı tək uzanır hər il,
Üfüqlər, buludlar, şimşəklər veyil,
Əzizim, mənasız sənsiz bu həyat.

İynə ucu boyda kiçilir dünya,
İçimdə dolaşır bir acı xülya,
Üzür gözlərimi hər qorxunc röya,
Əzizim, mənasız sənsiz bu həyat.

Sönür dünya eşqim, zaman sevincim,
Solur ömürümtək könüldə incim,
Alışır qüssədən, od alır içim,
Əzizim, mənasız sənsiz bu həyat.

Öldüm uyğu adlı əyləncələrdən,
İçimi ovlayan işgəncələrdən,
Qurtar taleyimi sən gecələrdən,
Əzizim, mənasız sənsiz bu həyat.

Könlüm ocaq olub aha, amana,
Sanki sükut çöküb bütün cahana,
Həsrətdən, hicrandan doymuşam cana...
Əzizim, mənasız sənsiz bu həyat.

***19.12.1991***

## UNUDAN DEYİL

Ürək qalıb yolunda,
Necə didərgin, veyil.
Könül dilsiz könlünə
Dilsə, unudan deyil.

Yazılsa qəlb varağım,
Dəyişsə bəxt növrağım,
Ayrı eldən sorağın
Gəlsə, unudan deyil.

Eşqim keçilməz qala,
Məni tələyə sala,
Könlü Allah-taala
Bölsə, unudan deyil.

Ağartdı qəm başımı,
Sel etdi göz yaşımı,
Əllərin göz yaşımı
Silsə, unudan deyil.

Sevgin qəlb əmanəti,
Qaranlıq hər niyyəti,
Ürəyim bu möhnəti...
Ölsə, unudan deyil.

***12.07.1992***

## KÖNLÜMƏ MUNİS

Odlu baxışlarla isit sinəmi,
Atəşin könlümdə qalasın ocaq,
Qurusun könlümdə hicranın nəmi,
Sən tanrı, eşqimi etmə oyuncaq.

Bir sənin oduna alışıb yannam,
Məni unutsan da, unutmasan da,
Çinartək yolunda bitib dayannam,
Atıb sevdamızı qayıtmasan da.

Gəl gizli eşqimi açıb-ağartma,
Dəli sevgimizdən dönən deyiləm.
Getsən bir yolluq get, daha qayıtma,
Məcnun istəyimdən, vallah, veyiləm.

Ürəyim illərlə yolunu gözlər,
Səni vəsf eləyir kağız, qələm də.
Gəlməsəm, göz yaşım çağlar dənizlər...
Sənsən ürəyimə munis aləmdə.

***16.02.1993***

## ÜRƏK, O ÜRƏK DEYİL

Düşüb dilsiz yollara ağlasa da ürəyin,
Təkcə mənim eşqimlə coşub-daşsa diləyin,
Tək sənin qismətinə məni yazsa fələyin,
Ürək, o ürək deyil.

Soyuyubdu gördüyün o çağlayan sevgilər,
Bir görüş həsrətiylə o ağlayan sevgilər,
Pak vüsalın şəninə könül oyan sevgilər,
Ürək, o ürək deyil.

Anla pak məhəbbəti, qəlbim qul deyil sənə,
Əvvəlki istək ilə coşub-daşmayır sinə,
Müqəddəs məhəbbətim qapına bir gün dönə...
Ürək, o ürək deyil.

Gözlərimin yaşları dönsə dəli sellərə,
Düşsə saf məhəbbətin ağızlara, dillərə,
Fəğanı dünya tutmaz tez ötüşən illərə,
Ürək, o ürək deyil.

Həyatım dikməyəcək gözünü yollarına,
Həsrətin zəncir vurub uzanmış qollarına,
Məni günahkar bilib ya qınama, ya qına,
Ürək, o ürək deyil.

***23.09.1991***

## QAYITMAZ DAHA

Artıq mən səninçin dünyada yoxam,
Nahaq dikilməsin gözün sabaha,
Könlün ömrün boyu yoluma baxa,
O günlər geriyə qayıtmaz daha.

Peymanı məzarla qara torpağa,
Eşqi-məhəbbəti salma ayağa,
Gözümdən leysanlar, çiskinlər yağa,
O günlər geriyə qayıtmaz daha.

Üzəcək içini fikir, düşüncə,
Yabançı eşqinlə çəkilib küncə,
Ağı desən belə eşqə hər gecə...
O günlər geriyə qayıtmaz daha.

Həyatın dolusu döydü başıma,
Tale zəhər qatdı isti aşıma,
Şükür ki, ağılım gəldi başıma,
O günlər geriyə qayıtmaz daha.

Tufanlı həyatı əzablar əyə,
Bəxtinin əliylə bəxtimi döyə,
Dəyirman daşıtək eşqimi üyə,
O günlər geriyə qayıtmaz daha.

***25.01.1992***

## AYRILDIQ

İçimizdə diləklər sızladıqca,
Həsrət qəmi, kədəri nazladıqca,
Bağrımızda ümidsizlik yazladıqca,
Ürəklərimiz bir-birimizdə,
Möhtəşəm sayğılar dilimizdə,
Ayrıldıq.

İkimiz də nisgilli yalqızlıq içində,
Qəm qığılcımları közərdi
ürək atəşinin içində,
Müqəddəs sevgiləri
pak saxlamaq üçün də,
Ayrıldıq.

Bəlkə qorxduq ki, birləşək,
biz də bir çox sevənlərtək
ayağa düşək,
Adiləşdirək məhəbbətimizi,
Bayağı sevgilərlə bulanmasın
eşq dənizi deyə,
Sevgiyə mərhaba dedik, ucaldıq,
Şahanə duyğular bağrımızda
tənha qaldıq.
Bu nisgilə dözə-dözə,
Qəmimizlə zəhər qatdıq
neçə gecə-gündüzə,
Bircə an belə ovunmadan,
Sitəmdən yana-yana qəm çıxdı dizə,
Heç can söyləmədi bizə,
Ayrıldıq.

Sevgilərimiz könlümüzdə tənha çinar,
İllər boyu yolların ağına qonar,
Sona qədər bu istəklə yanar,
Bizsə bunu duya-duya,
Vüqarımıza uya-uya,
Ürəklərdən xəlvəti,
Ağlımızla məhv etdik məhəbbəti,
Ayrıldıq.

***23.01.1992***

## O SEVGİNİN KÖLGƏSİ

Gəldin, getdin yuxulara yad təki,
Qaldın qəlbdə qəfil düşən od təki,
Həsrət olub zəhər verən dad təki,
İçdə ilğım, ümidlərin bəlkəsi,
Gözlərimdə o sevginin kölgəsi.

Hayqırmağa taqət hanı, hal hanı?
Müjdələrtək şəkər dadan bal hanı?
Demirəm ki, əzrayıltək al canı,
Əzabından yandı könül ölkəsi,
Gözlərimdə o sevginin kölgəsi.

Ürək sənə yandırmaqçın şam imiş,
Könlün, bağrın min qıfıllı dam imiş,
Dəli sevgim neçə günlük şam imiş,
Unutqanlıq alışdırar hər kəsi,
Gözlərimdə o sevginin kölgəsi.

Məhəbbətdə istəyimə taymı var?
Oda yanan ayım təki aymı var?
Fəğanımtək de bir qəlbdə vaymı var?
Qalxar ərşə içdən fəryad, ah səsi,
Gözlərimdə o sevginin kölgəsi.

Ümidlərim yeddi yerdən didildi,
Yolur saçın gecə-gündüz bir ildi,
Uyğularım həsrətinlə döyüldü,
Keçməz ələ, ayrılığın ilgəsi,
Gözlərimdə o sevginin kölgəsi.

Canım, ruhum inciyibdi, küskündü,
Sabahlardan qopa bilən ağ gündü,
Vaxt uzanır, yeddi yerdən düyündü...
Buludlanıb taleyimin bölgəsi,
Gözlərimdə o sevginin kölgəsi.

***20.06.1992***

## GÖZLƏRİM DƏ İTİRDİ

Nə qədər sağam, inan, alışar odum-közüm,
Düşüb ayaqlarına yalvarar yazıq dözüm,
Günahkardır qarşımda, min il keçsə də, gözüm...
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Ağlamağın faydası varmı olmuşlar üçün?
Sinəsində sevgisi ölüb qalmışlar üçün,
Müqqəsir saymıram mən özümü söylə neçin:-
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Qapılıb xəyallara, salma yadına məni,
Demə, dəli eşqinlə atdın oduna məni,
Çağırma gəlməyəcəm, vallah, dadına məni,
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Nə qədər acı olsa, haqqı danmamalıyam,
Bir alın yazısıtək bunu anmamalıyam,
Sevgini məzarlayıb, bir də yanmamalıyam,
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

Ömür-günüm bir qəfil təsadüfün dustağı,
Könlümün bostanından üzüldü eşqin tağı,
Çıxart at içindəki mənlə dolu o çağı...
Baxışların sevgini ürəyimə yetirdi,
Gözlərim tapdı səni, gözlərim də itirdi.

***05.09.1992***

## SƏN OLMAYANDA

Dünya öz donunu dəyişər tamam,
Gözlərim önündə sən olmayanda.
Dönür həyatımdan yaşamaq meylim,
Mənim bir günümdə sən olmayanda.

Acılı-şirinli anlarım nalan,
Zaman da, həyat da qarşımda yalan,
Qalıram yollarda ağlar, nigaran,
Mənim bir günümdə sən olmayanda.
Hönkürür halıma göylər, fələklər,
Yolur saçlarını azman diləklər,
Ayımı, ilimi hicran ələklər,
Mənim bir günümdə sən olmayanda.

Dağları, daşları sızladır naləm,
Söndürür evimin çırağın ələm,
Ocağı boranda sovrulan küləm,
Mənim bir günümdə sən olmayanda.

Könül sarayımın daşları uçur,
Ürək də sinəmdən çöllərə qaçır,
Könlümün qapısın ayrılıq açır,
Mənim bir günümdə sən olmayanda.

Anların qovğası başımda sınır,
Zamanın nəbizi əsla dayanır,
Həyatın nərdində zərlərim yanır,
Mənim bir günümdə sən olmayanda.

Amandır, gözümdən getmə uzağa,
Sinəmdən düzülür qəmlər varağa,
Bu çılğın ürəyim dözməyir dağa,
Mənim bir günümdə sən olmayanda.

Zaman öz acısın başıma tökür,
Aydın səhərimə qaranlıq çökür,
Ruhum, eşqim çağlar, daşqın dəli Kür,
Mənim bir günümdə sən olmayanda.

***08.11.1992***

## MƏNİMÇİN YOXSAN

Xəyalın yurd salıb yuxularımda,
Gəlib öz gözünlə gecəmə baxsan.
Ümidim dolaşır qorxularımda,
Səninçin varamsa, mənimçin yoxsan.

Əyilməz vüqarlı dağa bənzərəm,
Əlimlə könlümü didib əzərəm,
Min il ömrüm olsa, tənha gəzərəm,
Səninçin varamsa, mənimçin yoxsan.

Götürmərəm bir an ağlın tə'nəsin,
Ömrün ilğımları yolumu kəssin,
Yalanmış, riyamış o eşqin, hissin,
Səninçin varamsa, mənimçin yoxsan.

Gözlərin köksümdə ocaq çatıbdı,
Məni diri-diri oda atıbdı,
Könlümü min illik külə qatıbdı...
Səninçin varamsa, mənimçin yoxsan.

***20.09.1992***

## NİYƏ BİTMƏZ

Sarınmışdı duyğularımız
bahar selləri təki bir-birinə,
Evimə gizli səadət gətirmişdi
tənhalığın yerinə.
Həsrət xaraba sevən bayaquştək
ikimizin arasına qondu,
Gözlərim elə o an soyuqcasına
baxışlarından dondu,
Anladım ki, sevgimizə sondu.
Çarəsi tapılmaz ölüm kimi
ayrılığa aman bulmadım,
Niyə mən səndən
min il qabaq doğulmadım?
Bir-birini axtarıb tapmamaqçın,
Ağrıları ürəyimə yapmamaqçın,
Kaş tuş etməyəydi Tanrı bir-birimizi,
Həsrət yamanca peşiman etdi bizi...

İndi aha, amana kimsə imdad etməz,
Vüsal niyə kədərləri
ayaqlayıb, dadımıza yetməz?!
Bütün bu işgəncələr niyə bitməz?
Niyə bitməz?!..

***06.09.1992***

## NİGARANÇILIQ

Pozulub dünyanın zamanı, günü,
Həyat öz yoluna düşməyir yenə.
Gəl aç, taleyimə düşən düyünü,
Azacıq da olsa dincəlsin sinə.

Titrəyir ürəyim, sanki quşcağaz,
Axtarır yuvanı harda uyuya?
Dedim ki, gələrsən bəlkə ötən yaz...
Arada uçurum, keçilməz qaya.

Kimdi yollarını bağlayan, söylə,
Ya mənim qəlbimi daşmı sayırsan?
Bu qədər iztirab olarmı, böylə
Axı ömür ötür, sən dayanırsan?!

Amansız addımı bir daha düşün,
Hər qəlb ocağında sutək qaynama.
Atdığın zər bəlli, səhvdir gedişin,
İnsan tale ilə belə oynama.

Daimi deyilik onsuz dünyada,
Ömür sürükləyir bizi irəli.
Günahsız könlümü gəl atma oda,
Tutar yaxamızdan qəm ikiəlli.

Demə, yalvarıram yolunda nalan,
Böyük iradəmə qulam, onu bil.
Didib parçalaram könlümü, inan,
Sənin vüsalına dil açarsa dil.

***27.08.1992***

## QƏLƏM ÇƏKDİ

Qəm yaşları ilan təki dolanıb
gözlərimin bulağına,
Yeni bir sərgüzəştini söyləyir
könlümün qulağına.
Düşüb bütün həyatım
həsrətin yarğanına,
inildəyir gecə-gündüz,
Heyhat, ömrün boyu özünü üz,
Eşqinə könlü dildən sarındığın,
xəyalıyla yarındığın,
düşmən kəsilib sənə.
Baxmadı Tanrıya, dinə,
yüklədi səadətini çiynınə,
geydi laqeydliyi əyninə,
Elə bil bir içim su imiş
qarışdı sellərə,
Qələm çəkdi eşqi ilə,
məhəbbəti ilə yarındığım illərə,
Saldı ömrümü ömürlük dillərə,
Allah, nə deyim belə hünərə?

***13.09.1992***

## NƏ ÇƏKDİYİMİ BİLƏRSƏN

Mən elə bildim ki, gələcəksən,
Bir nisgilli gündə qapımızı döyəcəksən,
O sevgili baxışlarla özünü öyəcəksən,
Ağrımı-acımı mənimlə bir yerdə bölmədin,
Yazıqlar ki, qiymətimi bilmədin.

Yenədə həsrətlə çalışmaqdayam,
Mən müsibətə alışmaqdayam,
Bu boyda səmanın altında təkəm,
Kimsə yox, dərdi bir yerdə çəkəm,
Sənə üz tutdum mən taleyi kəm,
Elə bildim gələrsən,
Nə çəkdiyimi bilərsən...

***14.08.1993 Pirallahı***

## NEYLİM?

Tutuşur qussədən sinəmdə ürək,
Sənsiz qara geyən ilimi neylim?
Bizi ayrı saldı yenə də fələk,
Eşqinlə közərən külümü neylim?

Yanır mənim kimi qələm də, söz də,
Yollardan yığılmır könül də, göz də,
İçdə ağlayıram, gülürəm üzdə,
Haqdan nalə çəkən dilimi neylim?

Bağrıma köz basır atəşin, odun,
Həsrətin qismətim, eşqinsə yadın,
Əsiri olmuşam dəli fəryadın,
Dərdlərdən bükülən belimi neylim?

Səadət bəxtimdən uzaqda gəzir,
Üzür iztirablar qəlbimi, üzür,
Haçan tərk edəcək məni bu hüzür,
Sənə bel bağlayan könlümü neylim?

Kədərin qılıncdı, hicranın nizə,
Necə qan uddurur hər ikimizə,
Halını sormaqçın gələrdim sizə...
Kökümü, soyumu, elimi neylim?

Taleyin notları qəm bəstələyir,
Hər cür sevincimi dərd üstələyir,
Könlümün gülzarın eşq dəstələyir,
Bağrımda saralan gülümü neylim?

Onsuz ürəyim də doyub cahandan,
Gündə min rəng çalan hər cürə dondan,
Vallah, can şirindi keçməzdim candan,
Səni unutduran ölümü neylim?!...

***22.08.1992***

## ƏBƏDİ SƏADƏT OLSUN EVİNDƏ

Eşitdim bir qıza nişan apardın,
Ona səadətdi, mənəsə ələm.
İçimdə ömürlük tufan qopartdın,
Ölsəm məzarıma bəs edər naləm.

Niyə inanmışam mən aylar, illər,
Ömrümü geriyə qaytarmaq çətin.
Ox təki sancıldı köksümə dillər,
Mənə qubar oldu lap səadətin.

Qəlblə oynamağı kişilik sayma,
Beşgünlük dünyanın zili, bəmi var.
Fələk də şahiddi ahu-vayıma,
Tanrı hüzurunda axır dəmi var.

Zamanın əqrəbi geriyə dönməz,
Keçsin əllərimə sənli saatlar...
Alım tabutlayım illəri dinməz,
Qoy məzarı olsun ən dərin qatlar!

Bəlkə kimsə yağı, əğyar bu işdə,
Biz onun hökmüylə aralanmışıq.
O qalib, biz isə matıq gedişdə,
Verdiyi fərmanla paralanmışıq.

Sənin ürəyimə bəxşişin kədər,
Xoşbəxt ol deyirəm, sənə bu gün də.
Kişi ocağına ol həqiqi ər,
Əbədi səadət olsun evində..!

***26.09.1992***

## GÖZLƏR

Yaşıl gözlər, ürəyimə zaman-zaman od qalandı,
Məhəbbətim od sinəndə min bir yerə parpçalandı.
Gizli eşqi, ay insafsız, mən bəxtsizdən daldaladın...
Nədir belə içindəki, nalə, sitəm, o hayqırtı,
Üzdü məni illər belə könül didən vay, sızıltı.

Yaşıl gözlər, yet dadıma, soldu bağır, ürək qəmdən,
Xilas eylə həyatımı göz ağladan qəm, ələmdən,

Ayrılmağım çətin böylə qəlb qovuşan eşqli dəmdən,
Titrək əllər uzanıbdı nə müddətdi yollarına,
Son qoy daha acılara, vaxt gözləmir, dön yarına!

Yaşıl gözlər, gəl eyləmə ürəyimi para-para,
Gözlər səni min il belə ili, ayı yora-yora,
Eşqin məni lal eylədi, ofsunuyla saldı tora...
Dözüm qalmıb möhlətlərə ürək, könül əl-amanda,
Nə gözüm yox, nə sevgim yox,
nə arzum yox bu ümmanda.

***05.10.1992***

## SƏN MƏNƏ LAZIMSAN

Dolmuş ürəyimi boşaltmaq üçün,
Qoy könül bağına şehtək tökülüm.
Daşa dönmüş qəlbi yumşaltmaq üçün,
Sən mənə lazımsan, lazımsan, gülüm.

Sabaha ümidim hey çiçəkləsin,
Ünsüz arzularım çox ləçəkləsin,
Eşqin ürəyimdə qoy gerçəkləsin,
Sən mənə lazımsan, lazımsan, gülüm.

Acılar sinəmi didən yalquzaq,
Könlümüz yaxındır, məsafə uzaq,
Qəlbdən çəkilməkçin hər çiskin, sazaq,
Sən mənə lazımsan, lazımsan, gülüm.

Bilmirəm savabmı, günahmı bu iş?
Yaraşmaz könlümlə böyləcə gərdiş,
Dəyiş soyuqluğu, kökündən dəyiş,
Sən mənə lazımsan, lazımsan, gülüm.

Ürəyim hər könlü qoymaz yaxına,
Qaynayıb qarışmaz heç bir axına,
Köç edim əbədi gəlim yuxuna...
Sən mənə lazımsan, lazımsan, gülüm.

***10.10.1992***

## QAYTARA BİLMİRƏM

Saçıma zamanın qarı ələnib,
Necə alım qara telləri geri?!
Ömrün payızına ömrüm bələnib,
Qaytara bilmirəm illəri geri.

Düşüb ovqatından neçə arzu-kam,
Kəsib yollarımı sonsuzluqda tam,
Eşqindən bağrıma gəlsə də ilham,
Qaytara bilmirəm illəri geri.

Sənin gəncliyinin bahar çağıdır,
Könlün diləklərin fidan bağıdır,
Qocalıq qapımı döyən, yağıdır...
Qaytara bilmirəm illəri geri.

Sevgidən söz açıb köksümü ovma,
Bu yolda sən məni günahkar qovma,
Alıb ürəyimi heçliyə sovma,
Qaytara bilmirəm illəri geri.

Ömür son zəngini çalır qarşımda,
Heç sevmək, sevilmək yoxdu başımda,
Eşqidən söz açma sən bu yaşımda,
Qaytara bilmirəm illəri geri.

Demə, gileyliyəm, həyatdan azı,
Coşar taleyimin min il qəlb sazı,
Nə sözüm, Tanrıdan gəlibsə yazı,
Bacarırsan qaytar illəri geri.

***24.09.1992***

## İNANMIRAM YOXLUĞUNA

Gözümdə həsrət damcıları,
Könlümdə ümidsizlik acıları,
Çıxmışam yoluna,
İnanmıram yoxluğuna.

Həsrətin qarasınca deyinirəm,
Yenə də eşqinlə öyünürəm,
O əski günlərə dönürəm,
Çıxmışam yoluna,
İnanmıram yoxluğuna.

Könlümdə bir qəfil görüşə nəş'ə,
Yeri-göyü ram eləyən əndişə,
Gözlərimdə təəccüb bu gedişə,
Çıxmışam yoluna,
İnanmıram yoxluğuna.

Etibarını sınasam da,
Taleyimlə oynasam da,
Ürəyimi qınasam da
Çıxmışam yoluna,
İnanmıram yoxluğuna.

***20.10.1992***

## İTİRDİM SƏNİ

Dayanıb ömrümün zamanı, anı,
Yağır taleyimə həsrət yağışı.
Doydurdu həyatdan hicranın canı,
İtirdim ömürlük, itirdim səni.

Gözümün yaşları qəhərə dönüb,
Ömrün saatları zəhərə dönüb,
Xəyalın ərköyün kəhərə dönüb,
İtirdim ömürlük, itirdim səni.

Ürəyim eşqini unutsun daha,
Gözüm yollarından qayıtsın daha,
Yatmış taleyimi ayıltsın daha,
İtirdim ömürlük, itirdim səni.

Məhəbbət də bitdi, sevgi də bitdi,
O xoş səadətim bir anda itdi,
Əlim əbədilik hicrana yetdi,
İtirdim ömürlük, itirdim səni.

Ey bəxtim, gözündən tökmə yaşları,
Gətirmə ömrünə qarlı qışları,
Dəydi namərdlərin bəd qarqışları,
İtirdim ömürlük, itirdim səni.

***20.10.1992***

## AMANDIR

Hicranın içimdə bir ocaq çatıb,
Amandır.
Bu bəxtim, taleyim yenə də yatıb,
Amandır.

Yorğun gözlərimdə həsrət selləri,
Verirəm yolunda altun illəri,
Söylətmə qarama yaman dilləri,
Amandır.

Gözüm buludlayıb, leysan tökəcək,
Taleyin göyünə bulud çökəcək,
Hicranın sevgimin evin sökəcək,
Amandır.

Kimsə harayıma yetişməyəcək,
Sənsiz bircə anım ötüşməyəcək,
Qəlbdəki yaralar bitişməyəcək,
Amandır.

Allah rizasına, Tanrı eşqinə,
Günahsız başıma qoyma dərd enə,
Bu bəxti, taleyi tapşırdım sənə,
Amandır.

Gözlərim yolunda səni arayır,
Pərişan telləri həsrət darayır,
Ömrüm nisgillərdə ötür, qarıyır,
Amandır.

Sevdamızı atıb, yadları tutma,
Yatan röyalarla könlü ovutma,
Alışan ürəyi əsla unutma,
Amandır.

***10.11.1992***

## YARIM

Bir ürəyi ikiyə,
Sən bölmə, yarım, bölmə.
Söz-sova, səksəkiyə,
Qəlb dəlmə, yarım, dəlmə.

Ayrılan ürəklərə,
Tutmayan diləklərə,
Yol açan kələklərə,
Sən gülmə, yarım, gülmə.

Məhəbbətim ölçüsüz,
Yollarına çiçək düz,
Qapımıza elçisiz,
Sən gəlmə, yarım, gəlmə.

Ürəkdə talanları,
Arada qalanları,
Eşqidə yalanları,
Sən bilmə, yarım, bilmə.

Dilə salma özünü,
Suya atma közümü,
Ağladıb bu gözümü,
Sən silmə, yarım, silmə.

Gələrsə əcəl qansız,
Hököm versə divansız,
Sən allah, Şadimansız,
Sən ölmə, yarım, ölmə.

***27.08.1992***

## GƏL DÖN BU SEVDADAN

Sevgi sarayında alışan şamam,
Gəl sön bu sevdadan, gəl sön bir qədər.
Səhəri tufana düşmüş axşamam,
Gəl dön bu sevdadan, gəl dön bir qədər.

Sənin istəyinlə əfsunlamışam,
Dəli ürəyini ovsunlamışam,
Özüm öz könlümü çox danlamışam,
Gəl dön bu sevdadan, gəl dön bir qədər.

Sönmüş ocağımın külü də közdü,
Onsuz sevgimizə dost-düşmən gözdü,
Buna mən dözmədim, ürəyim dözdü,
Gəl dön bu sevdadan, gəl dön bir qədər.

Mənli səadəti xoşbəxtlik sanma,
Çinartək yolumun üstə dayanma,
Mən yandığım kimi, barı, sən yanma,
Gəl dön bu sevdadan, gəl dön bir qədər.

Varlığım alışan şamdı gecələr,
Vərəqlər üstündə ömrü incələr,
Həsrətə at məni, qoşum incilər...
Gəl dön bu sevdadan, gəl dön bir qədər.

***22.05.1993***

## KÖNLÜNƏ QOVUŞSA

Ataram hər dərdi-qəmi,
Həsrətin candan sovuşsa.
Sevincim tutar aləmi,
Könlünə könlüm qovuşsa.

Gündüzüm zər, şəfəq geyər,
Qaranlıq qəddimi əyər,
Dəqiqəm bir ilə dəyər,
Könlünə könlüm qovuşsa.

Bəxtimin doğar günəşi,
Yandırar eşqi atəşi,
Həsrətin kül olar nə'şi,
Könlünə könlüm qovuşsa.

Bağrımda sevgim pak guşə,
Qəlbimi üzdü əndişə,
Varlığım hey gələr cuşə,
Könlünə könlüm qovuşsa.

***07.06.1993***

## TƏLƏSİRƏM

Baharı xəzana düşmüş lalətək,
Fələyin əlində necə əsirəm.
Dodaqçın darıxmış al piyalətək,
Yenə görüşünə mən tələsirəm.

Yolumun üstünü duman kəssə də,
Qapımın ağzında rüzgar əssə də,
Ürəyim inciyib, səndən küssə də,
Yenə görüşünə mən tələsirəm.

Qovsa da üstümə bulud yelləri,
Bəxtim tuş eləsə qürbət elləri,
Dərib qəlb bağçamdan qönçə gülləri,
Yenə görüşünə mən tələsirəm.

Unudub dünyanın qəmü-möhnətin,
Ağılı bu yoldan döndərmək çətin,
Tutub ətəyindən pak səadətin,
Yenə görüşünə mən tələsirəm.

***07.06.1993***

## AXTARACAĞAM

Kəssə yollarını boran, tufan, qar,
Çətin gedişləri hey yaracağam,
Pozulsa arada ittifaq, ilqar,
Səni ömrüm boyu axtaracağam.

Fələk yazımızı tərsinə yazsa,
Ağıl bu sevgini acıya yozsa,
«Hər bizi istəyən» bir quyu qazsa,
Səni ömrüm boyu axtaracağam.

Tənha vuracağam ömrümü başa,
Döndərəcəm yanan ürəyi daşa,
Çatmasa da pünhan diləyim daşa,
Səni ömrüm boyu axtaracağam.

Dərdimi röyamla bölər də olsam,
Eşqi-biyabanda mələr də olsam,
Mən dəli sevdadan ölər də olsam,
Səni ömrüm boyu axtaracağam.

Qoy tə‘nə eləsin könlümə hamı,
Neynirəm çıraqsız qara axşamı?
Yanıb qutarsa da ömrümün şamı,
Səni ömrüm boyu axtaracağam.

***08.06.1993***

## DÖN YARINA

Sənin üçün könlümün içi göynəyir,
ömrü sazaqlara düşmüş
körpə bir quşcağaztək.
Yenə də sevginlə qalmışam tək,
İsladıram göz yaşımla
gecə-gündüzümü,
Haraya çağırıram mənimlə
keşməkeşlər görmüş dözümü.

Sənin üçün könlümün içi göynəyir,
nisgillər qəddimi əyir,
Hardasan, ey mənim sevincimin pasibanı?
Qoyma sənsiz keçsin belə
ömrün bir anı.
Titrək baxışlarımı dikmişəm yollarına,
Dön yarına...
Dön yarına.

***11.06.1993***

## TİTRƏYİR GÖZ YAŞIM

Titrəyir yanağımda göz yaşım bənövşətək,
Köksümü dağlamayıb heç nə bu əndişətək,
Kim qəlbimi odlayır köksümdəki guşətək,
Gəl alışan sinəmə təsəlli ol bu gecə,
Səninlə qovuşurdum uyğularda indicə.

Bə‘zən duyğularımı çəməndə lalə qədər,
Qon yanan dodağıma büllur piyalə qədər,
Bu hönkürən bəxtimi çatdır vüsalə qədər,
Yuxulu taleyimin ol yaraşıqlı şamı,
Gəl birlikdə alışaq biz bu bahar axşamı.

Zamanın gedişindən başımız çox ağardı,
Hər nisgil, hər göz yaşı sinəm için doğradı,
Ömrümün gəncliyi də acılara uğradı,
Ömrümün payızında sən dönmüsən baxtına,
Gəl onu əbədilik çıxart sevgi taxtına.

***10.06.1993***

## QAYIT YUVAMIZA

Mən eşq tanrısıyam, eşqin şahıyam,
Ayılt pak ağlını, ayılt, sən allah.
Bütün sevgilərin həsrət ahıyam,
Qayıt yuvamıza, qayıt, sən allah.

Dadlı röyalarda alışıb yannam,
Xəyalın önündə illə dayannam,
Leylitək o şirin sevdanı annam,
Qayıt yuvamıza, qayıt sən allah.

Daha hicranına dözüm qalmayıb,
Qəlbə hökm etməyə üzüm qalmayıb,
Ayrılıq şəninə sözüm qalmayıb...
Qayıt yuvamıza, qayıt, sən allah.

İçdə ocaq çatdım, ocağım küldü,
Üstümə dünyanın qəmi töküldü,
Məcnun eşqimizə el-oba güldü,
Qayıt yuvamıza, qayıt sən allah.

Bilmirəm dərdlərə nədən tutulduq?
Odu görə-görə oda atıldıq,
Birümman ağlımız eşqə satıldı,
Qayıt yuvamıza, qayıt sən allah.

Ürəyim qübarı götürən deyil,
Sevgini qəlbindən itirən deyil,
Özgə bağında gül bitirən deyil,
Qayıt yuvamıza, qayıt sən allah.

***22.05.1993***

## YAMAN GÜNƏ QOYMA MƏNİ

Əlim çatmaz, ünüm yetməz,
Ayrılığın niyə bitməz?
Həsrət dağı qəlbdən getməz,
Hicranınla oyma məni,
Yaman günə qoyma məni.

Gözüm yolda, könlüm səsdə,
Yataqdayam bir üz üstə,
Həsrətindən düşdüm xəstə,
Hicranınla oyma məni,
Yaman günə qoyma məni.

Röyamdadır pak xəyalın,
Göz önündə gül camalın,
Yandıracaq səni halım,
Hicranınla oyma məni,
Yaman günə qoyma məni.

Ağlayıram için-için,
Səntək yardan necə keçim?
Könlümə dərd verdin neçin?
Hicranınla oyma məni,
Yaman günə qoyma məni.

***07.06.1993***

## RÖYASINA DALIRAM

Baxışın ürəyimdən asılıb duyğu kimi,
Gecəm də, gündüzüm də əlində əsir olub.
Gəlib getdin ömrümə bir şirin uyğu kimi,
Bu mənim taleyimdə bir əbədi sirr olub.

Ötüb keçən illərə həsrətin qəm çiləyir,
Narın yağışlar təki heç kəsilmək bilməyir.
Zaman ömür qapıma duman, çiskin ələyir,
Nisgillərin içində bir yol üzüm gülməyir.

Hey təsəlli verirəm hər gün özüm-özümə,
Yaş da bir karvan kimi öz köçün sürüb gedir.
Hərdən heyran qalıram içimdəki dözümə,
Hər acı müsibəti mənimlə görüb gedir.

Sarmaşıqtək dolaşıb köksümə məhəbbətin,
İnləyən bağrımdakı sevgini duysan, gülüm.
Dadlı sevdaya dalır ürəyimlə xəlvəti,
Doğrayır könlüm için almatək dilim-dilim.

Beləcə sevdicyim, ömür keçir kədərlə,
Sığınıb taleyimin qoltuğuna qalıram.
Əlimdən nə gəlir ki, barışıram qədərlə,
Sənlə keçən illərin röyasına dalıram.

***08.06.1993***

## UNUT MƏNİ

Acılarım bağrıma yük,
Yandım, Allah, ovut məni.
Qəlb sarayım sökük-sökük,
Unut məni, unut məni.

Gecəm şıltaq çocuq oldu,
Həsrət qəlbə yovuq oldu,
Könlüm ovuq-ovuq oldu,
Unut məni, unut məni.

Ümidlərim parça-parça,
Dərd boynumda haça-haça,
Yandım qəlbdən qaça-qaça,
Unut məni, unut məni.

Sevgim, eşqim xırdalandı,
Yollarıma dərd calandı,
Yazıq ürək çox talandı,
Unut məni, unut məni.

Ocaq çatdım mən odunla,
Qapım döydü qəm adınla,
Yandı ürək fəryadınla,
Unut məni, unut məni.

Zərif vücud qərarsızdı,
Dünya əhdsiz, ilqarsızdı,
Zaman özü də yarsızdı.
Unut məni, unut məni.

Olub mənə dünya zülüm,
Kəsilibdi haqdan əlim,
Ayrılıqlar olsa ölüm...
Unut məni, unut məni.

***07.02.1994***

## BİR DADLI RÖYA

Sənə pak sevdalar, mənə sevgilər,
Dolaş, dünyamızı sən mənsiz dolaş.
Sənə haqq dualar, mənə sazaqlar,
Yeni sevgilərə, eşqlərə ulaş.

Gəl həsrət milini çəkmə gözümə,
Onsuz kor olmuşam mən diləklərə.
Qara geydirmisən al gündüzümə,
Göylərə sancılıb ahım min kərə!

Müddətdi bəbəkdə yaşlar göyərib,
Əkdiyim sevincdi, dərdiyim qəmdi.
Dünyanın bir qürbət quşuyam, qərib,
Qanadımı gərən sirli aləmdi.

Ürəyim zamanın odu, atəşi,
Alışıb yanacaq köksümdən dünya.
Səni itirdiyim sevgimin nə‘şi,
O sənli günlərim bir dadlı röya.

***7-8.02.1994***

## AYRILIĞA SATMA MƏNİ

Qayıt gəl, yar, o yollardan,
Mən dönmərəm səntək yardan.
Keçmə böylə əhd-ilqardan,
Sevgilinəm, atma məni,
Ayrılığa satma məni.

Doldu gözlər yaşla, aman,
Bürüyübdü könlü duman,
Alır ömrü əldən zaman,
Əğyarlara qatma məni,
Ayrılığa satma məni.

Sevgilinin gözündə yaş,
Sinəndəki ürək, ya daş?
Ötdü ömür, qocaldı yaş,
Hicranlara atma məni,
Ayrılığa satma məni.

***06.05.1993. Pirallahı***

## İKİ DAMLA GÖZ YAŞI

Dolaşaraq könlümün içini etiraztək,
Bəbəklərdən süzüldü, iki damla göz yaşı.
Sinəsi parçalanmış, qana dönmüş Araztək,
Çaylağından üzüldü, iki damla göz yaşı.

Vulkan təki püskürdü həsrətin yuvasından,
Ayrılıqla vüsalın o qanlı davasından,
Fələyə üsyan oldu dilimin duasından,
Yanağıma düzüldü, iki damla göz yaşı.

Axdı solmuş çöhrəmə ağappaq mirvaritək,
Dondu bəbəklərimdə Şahdağının qarıtək,
Sazaqdan parçalandı payızın al narıtək,
Kirpik altda əzildi, iki damla göz yaşı.

Bəxtim kimi dünyanın qərib qürbət quşumu?
Zirvəsi buludlamış ürək anlayışımı?
İçimdəki mənimin haqqa elçi daşımı?!
Ömrüm kimi nazildi, iki damla göz yaşı.

***11.02.1994***

## ELƏ İSTƏYİRƏM

Buzlanıb könlüm də otağım kimi,
Həsrətdən, hicrandan inləyir sinə.
Döyür zaman məni son çağım kimi,
Elə istəyirəm gələsən yenə.

Xoş təbəssümünə ehtiyacım var,
Sənə ürək adlı bir möhtacım var,
Bu sınıq könlümə can əlacım var,
Elə istəyirəm gələsən yenə.

Göz yaşım bəbəkdə al qanlı lalə,
Zirvədən-zirvəyə axan şəlalə,
Çata qulağına bu fəğan, nalə,
Elə istəyirəm gələsən yenə.

Ayrılıq imzalı yükdü belimdə,
Həsrətlə köklənmiş qələm əlimdə,
Adın qabar çaldı, vallah, dilimdə,
Elə istəyirəm gələsən yenə.

Köməyə amadə bumbuz ocağım,
Tərsinə çevrilib tale varağım,
Yetişə yuvana acı sorağım,
Elə istəyirəm gələsən yenə.

***11.02.1994***

## BİLMƏYƏ QAYIT

Əvvəlki təşnəylə gəlib ömrümə,
Dərdimi dərdimtək bölməyə qayıt.
Hazıram müntəzir durum əmrinə,
Bir yerdə ağlayıb gülməyə qayıt.

Başının üstünü kəssə də qada,
Səninlə bir yerdə qoy yanaq oda,
Sən allah, sən tanrı, gəl yet imdada,
Hər pünhan sirrimi bilməyə qayıt.

Lap uşaq olmuşam vallah bu yaşda,
Axı heç dayanıb durmayır yaş da,
Sənsiz yanağımdan qurumur yaş da,
Gözümün yaşını silməyə qayıt.

Geciksən ötəcək gənclik çağları,
Qurusa payıztək ömrün bağları,
Sal dönük yadına könlüm ağları,
Onunla bir yerdə ölməyə qayıt.

Kəs bu intizarı, ahı, möhləti,
Ömürlük zindana at bu zilləti,
Gəl bunca alçaltma səlahiyyəti,
Ömürlük ömrümə gəlməyə qayıt.

***10.04.1994***

## ATDI UÇRUMA

Sənə sevgilərim düşüb didərgin,
Buna ki haqqın yox, vəfasız demə.
Baxımsız qalıbdı o sevda sərgin,
Axırda günahkar mənmişəm demə.

Alışan gözlərin çırağında mən,
Xəyalla dolandım dünyanı tamam.
Dərdlə yükləyəndən ürəyimi sən,
Ağırlıq altında uçulan damam.

Nə sənin həsrətin qutarmaz daha,
Nə mənim atəşim soyuyan deyil.
Bizim işlərimiz qalıb allaha,
Könlümüz, eşqimiz, sevgimiz veyil.

Əfv et deyəcəyim günlər qərarsız,
Döyür taleyimin qapılarını.
Sevgi göstər mənə boransız, qarsız,
Bəxtəvər eyləyib sonda yarını.

Gəl dəli hicranı yamanlamayaq,
İkimizin suçu ömrümüzə yük.
Sevgi ki, ürəyə deyildir yamaq,
Duyanlar önündə qüdrəti böyük.

Baxışlar, diləklər, ruhlar ovunmaz,
Kəsib ülfətləri əhdi unutsaq.
Dəli sevgilərdən könlüm eşq ummaz,
Bir daha alışmaq qəlbimə yasaq.

Gedəni yollardan qaytarmaq çətin,
Ürəyi arxanca daha qaçırma.
Əydi taleyimi buz xəyanətin,
Atdı həyatımı, atdı uçruma.

***11.02.1994***

## MƏHƏBBƏTİMİZ

Niyə əhdü-peyman dəydi bəs daşa?
Həsrətə qalandı məhəbbətimiz.
Qurdu kor bəxtimə hər gün tamaşa,
Hökmüylə talandı məhəbbətimiz.

Yandı için-için qəlb dönə-dönə,
Düşdü ayağına hey enə-enə,
Tutuşdu atəşlə sevgiyə sinə,
Odlara qalandı məhəbbətimiz.

Mən ki, öz eşqimi etmədim bəyan,
Oldu cümlə-cahan sirrimdən əyan,
Bumbuz ocaqlara olmadı həyan,
Dünyanı dolandı məhəbbətimiz.

Ürək soyuduqca çox üşüdü can,
Yazıq ürəyimə divan tutdu an,
Qaldı kor bəxtimə səndən ərmağan,
Odunla dağlandı məhəbbətimiz.

***05.12.1994***

## İRADƏ

Ala gözlər süzüləndə,
Yanağa qor düzüləndə,
Büstə dodaq büzüləndə,
Erkən açan gül İradə,
Könlü bəyaz, tül İradə.

Altun saçlar günəşmidir?
Füsnikar od-atəşmidir?
Ürək yıxmaq bir işmidir?
Olmaz sənə tay İradə,
Zülfü üzə yay İradə.

Şəkər dərman badam dilə,
Boy yaraşıq incə belə,
Qismət olsan hansı elə,
Xanım olub qal İradə,
Sözün qaymaq, bal, İradə.

Xınalıdır üzdə xallar,
Kirpiklərin canlar alar,
Sevənlərdə halmı qalar?
Qızıl tellər ay, İradə,
Tök sinənə say, İradə.

Diləklərin ləçək-ləçək,
Baxışın od, üzün göyçək,
Təzə açmış bir tər çiçək,
Soldurmasın il İradə,
Ötməsin pis dil İradə.

Heç axmasın gözdən yaşlar,
Çatılmasın qövsü-qaşlar,
İraq qəlbdən qarlı qışlar,
Yaman gözə mil İradə,
Ürəyincə gül İradə.

Vətənimin sonasısan,
Sabahının anasısan,
Bir sevdaya yanasısan...
Yaman dillər xar İradə,
Qismətinə yar, İradə.

***04.05.1994 Pirallahı***

## BİLMƏDİN

Üzdü ürəyimi bu iztirablar,
Yandı içimdəki güman, bilmədin.
Ömrün qədəhində acı şərablar,
Çəkdin dodağına, yaman bilmədin.

Qaldı qoltuqlarda acı taleyim,
Dəldi asimanı qanlı gileyim,
Hicrindən kəsildi taqətim, heyim,
Ərşi büryan etdi, aman bilmədin.

Nə mənim bəxtimə düşdü diləklər,
Nə imdada yetdi ünsüz fələklər,
Yandı bir-birindən ayrı ürəklər...
Könlüm nalə çəkən, kaman bilmədin.

Ömürün günləri çaş düşüb yenə,
Tilsimin salıbdı bəxti düyünə,

Eyvah, eşq də döndü ərkəsöyünə,
Ələndi başıma duman, bilmədin.

Döyür qapbacamı çox ağrı-acı,
Görünmür çəkdiyim qəmlərin ucu,
Bulmaz dərdlərimə loğman əlacı,
Ahımdan ağladı ümman, bilmədin.

Həyatım tuş gəlib həsrət zalıma,
Ürəyim daş olub qəmli halıma,
Xatirən ağrıdır bu xəyalıma,
Əritdü ömrümü zaman, bilmədin.

***20.12.1994***

## SOLMA MƏHƏBBƏT

Ocağı alışan bir həsrət, giley,
Gecəli-gündüzlü sızlayan bir ney,
Qoymursan sinədə nə taqət, nə hey,
Ürəyi ağrıyla alma, məhəbbət,
Oraya əzablar salma, məhəbbət.

Çəkmə göylərinə duman pərdəsin,
Könül öz sözünü qoy zildən desin,
Həsrətin, hicranın başını yesin,
Qonaqtək gedəri olma məhəbbət,
Gedirsən sinəyə dolma, məhəbbət.

Sənə evtikəntək baxırıq axı,
Qəlbləri atəşlə yaxırıq axı,
Yolunun üstünə çıxırıq axı,
Sən bu həqiqətdən qalma, məhəbbət,
Düşdünsə ürəyə, solma, məhəbbət.

***26.07.1986***

## BU NECƏ SEVGİ, ALLAH?

Düşmüşəm oda vallah,
Baxışları aldadır.
Gah zəhər, gah bal dadır,
Bu necə sevgi, allah?

Bağrıma sözü bıçaq,
Həsrətdə özü qoçaq,
Könüldə közü ocaq,
Bu necə sevgi, allah?

Həsrətin başında tac,
Vüsala verməyir bac,
Nədir eşqinə əlac?
Bu necə sevgi, allah?

Bağrı üzdü fəryadlar,
Yetməz dilə imdadlar,
Qoynunda yatdı yadlar,
Bu necə sevgi, allah?

Eyvah, sormaz halımı,
Heç küskün əhvalımı,
Həbs edib vüsalımı,
Bu necə sevgi, allah?

***20.02.1995***

## ƏLƏM TACI

Bağlı qalıb eşqin yolu,
Vüsalının yox əlacı.
Yağır gözdən leysan, dolu,
Könül küskün, ömür acı.

Müşkülləri de dərdimə,
Hər nisgilə də dərd demə,
Düşsün fələyi dərdimə,
Ovundurmaz heç əlacı.

Ayrılıqda iman hanı,
Batırıbdı qəmə anı,
Araya da salıb qanı,
Verir zülümə xəracı.

Çıxıb eşqi şah dağına,
Qəlbi salıb ayağına,
Dözmür ürək də dağına,
Bir kimsəyə verməz bacı.

Sevda tuşdu nəhs vaxtıma,
Oturubdu qəm taxtıma,
Qismətdi, allah, baxtıma,
Başdan enməz ələm tacı.

***03.03.1995***

## İLHAMƏ

O tuti sözləri dilə yaraşar,
Sinələr yandırıb yaxar, İlhamə.
Qəmzəsi baxışa mehtək dolaşar,
Şimşəkdi alışıb, çaxar, İlhamə.

Kəməri ilantək belə dolanar,
Xumarca gözləri oda qalanar,
Yanağı lalətək öylə allanar,
Buludtək kirpiyin sıxar, İlhamə.

Gözləri yolundan eylər çoxunu,
Sancar ürəklərə işvə oxunu,
Gecələr əlindən alar yuxunu,
Röyatək uyğuna çıxar İlhamə.

O püstə dodaqlar ruhu məst edər,
Alar könlü əldən cana qəsd edər,
Ağlını, huşunu hey sərməst edər,
Qurduğu qovğaya baxar İlhamə.

Belin incəliyi boya yaraşıq,
Odlu baxışları dünyaya işıq,
Aləm bu gözələ olubdu aşiq,
Sellərtək məcrasız axar, İlhamə.

Yəqin ki, çoxları düşüb oduna,
Bir kəs əlac tapmıb eşq fəryadına,
Mələk də göylərdən enər adına...
Könüllər sarayın yıxar, İlhamə.

***17.04.1995***

## BİR ƏLAC ETMƏDİ

İçimdə acı bir vüsal həsrəti,
Dönükcə eşqinlə savaşacağam.
Ürək də başına döyür xəlvəti,
Ömrün hər fəsli qarlı qışdayam.

Acı möhnətinə giriftar canım,
Hey dolur boşalır yaz bulудutək.
Həsrətdən don geydi dəqiqəm, anım,
Ağladı ürəyim elin udutək.

Gəl bağlı qapımı aç bir gün qəfil,
Könlü ilğımların əlindən qurtar.
Arada eşqimiz olubdu səfil,
Hər acı məlalın bir ağrısı var.

Düşübdü çöllərə ürək sərgərdan,
Ağlayır acışan nisgillərinə.
Taleyim eşqinə bəxşiş etdi can,
Sənsə qurban verdin müşküllərinə.

***05.12.1994***

## ƏFV ET

Al könüldən gecəni,
Verdiyin işgəncəni,
Qurduğun əyləncəni,
Yetər daha, apar get,
Bağışla, məni əfv et.

Zəhər qatdın hər ana,
Qaldı qəlb yana-yana,
Bu ürəyi büryana,
Canım, röyalarda yet,
Bağışla, məni əfv et.

Ağlayan zamanımı,
Kəsilmiş amanımı,
Bəbəklərdə qanımı,
Sən də hicrana sərf et,
Bağışla, məni əfv et.

Ürəyim acı çəkən,
Qəmi içinə tökən,
Evimi yıxıb tökən,
Ayrı qəlb bağında bit,
Bağışla, məni əfv et.

***11.09.1994***

## SƏSİM QULAĞINDA DÜŞÜB QALACAQ

Nə doldu araya çiskin, duman, çən.
Deyirlər, hər kəsə olan olacaq,
Dönsən də xəyala, taleyim, bil sən,
Səsim qulağında düşüb qalacaq.

O abad binəni qəm sökəcəkdir,
Həsrətim oraya yaş tökəcəkdir,
Teleqraf xəttitək tel çəkəcəkdir,
Səsim qulağında düşüb qalacaq.

Kərəmtək alışıb yanası olsam,
Kimsəsiz göllərin sonası olsam,
Etdiyin sitəmdən sınası olsam,
Səsim qulağında düşüb qalacaq.

Sən qaça bilməzsən bu harayımdan,
Ömrümə düzdüyün ahu-vayımdan,
Lap qopart bədəni can sarayımdan...
Səsim qulağında düşüb qalacaq.

Olsam da dünyanın lap o başında,
Ömrüm çapalasa gözün yaşında,
Səni görəcəyəm hər an qarşımda,
Səsim qulağında düşüb qalacaq.

Gəlib harayıma çatmasan da sən,
Bu dərdi, möhnəti atmasan da sən,
Ömrümə şirinlik qatmasan da sən,
Səsim qulağında düşüb qalacaq.

***20-21.12.1985 Nasosnu***

## HƏSRƏT YANĞISI

***Tənha qızların göz yaşlarına...***

Sənin gözlərinin həsrətindəyəm,
Həsrətin tufana salıbdı məni,
Sənsiz, ey sevgilim, mən ki, heçneyəm,
Hey artır könlümün dumanı, çəni.

Səni itirəndən tənha qalmışam,
Üzür bu təkliyim könlümü, inan.
Vallah, xəyalına mehr salmışam,
Onunla isinir bu nəfəs, bu can.

Gözlərim ağlardır, ürək pərişan,
Dolub otağıma kədər, qüssə, qəm.
Hara baxıramsa səndən bir nişan
Ğörünür gözümə, inan, dəmadəm.

Səni itirməyim dağ olub mənə,
Alışır anbaan yanır ürəyim.
Bivəfa sevgilim, nə deyim sənə?
Sənsiz bu həyatda nədir gərəyim?

Dumanla, çiskinlə gəldin könlümə,
Gedişin çovğunlu, boranlı oldu.
Kim əlac eyləyər mizrabsız simə?
Çox muğamlar da var, çalan da boldu.

Bəlalı ürəkdə intizar yatır,
Ağlayan ruhuma dərman eylə, gəl.
Gündüzlər günəşim, gecəm ay batır,
Əlindən işi qoy, zaman eylə, gəl.

Qayıt bu köksümə, qayıt yenə gəl,
Əlinlə yıxdığın sarayı ucalt.
Bizlə oynamasın oğru, çirkin əl,
Gəl məni sevindir, əğyarı qocalt.

Səni qədər yazıb bu qismətimə,
Qayıt, açılmayan düyünləri aç.
Hakimi-mütləq ol sədaqətimə,
Məni çaşbaş salan oyunlardan qaç.

Çox xırdaçıl olub, çox qəlb arama,
Özünlə bir dünya səadət gətir.

Həsrətin duz basır, könül yarama,
Gəl ürək bağçamda gül-çiçək bitir.

Həyat gülüstandır, xoş növrağlıdır,
Onun təravətin soldurma heç vaxt.
Sənsiz dilim laldır, gözüm bağlıdır,
Səninlə çağlayır sevinc ilə baxt.

***12.01.1985***

## SEVGİ TƏRANƏSİ

Gəl, ey mənim eşqim, səadətim gəl,
Gəl, çoxdan yolunu gözləyirəm mən,
İlham qəsirinin başında yüksəl,
Gəl, səni hər yerdə izləyirəm mən.

Gəl tutaq qol-qola, çıxaq aləmə,
Gözəl seyrangahda doyunca qalaq,
Son qoyaq kədərə, son qoyaq qəmə,
Vüsal həsrətindən xəyala dalaq.

Gəl, dünya üzünə seyrə çıxaq gəl,
Gəzək addım-addım diyarbadiyar,
Necə ehtiyac var bir şəfqətli əl
Tutsun əllərimdən ömürlük, ey yar.

Sənsən bu təbimə ilk həyat verən,
Mənim nur beşiyim qəlbinə bağlı,
Gələn sabahıma qol-qanad verən,
Neçə qərinəsən bəxtəvər çağlı.

Hicran dolamasın dərdi boynuma,
Acılar içində qalmasın ürək,
Qəm yuva salmasın gəlib qoynuma,
Bizə güc gəlməsin nə tufan, külək.

Xəyallar içində birləşək yenə,
Eşqdən ən uca bir qala quraq,
Coşsun hərarətin odundan sinə,
Səninlə əlçatmaz zirvədə duraq.

Sevgi təranəsi cuş gəlsin bizə
Ötsün tuti dillər eşqin bağında,
Ürəkdə duyğular dönsün dənizə,
Gəl bilək qədrini cavanlığın da.

***19.07.1985. Xəstəxana***

## NİŞAN ÜZÜYÜ

Barmağa taxmısan nişan üzüyün,
Yurdumun, yuvamın mehriban qızı,
Bəxtdə görməyəsən açılmaz düyün,
Ömrünün çıraqban yansın ulduzu.

Sən necə gözəlsən, necə sadədil,
Ürəyi oxşayır tuti sözlərin,
Məni əfsunlayıb cahcalalın bil,
Qoy beləcə keçsin hər ayın, ilin.

Qiymətdə sənə tay yoxdu dünyada,
Zərgər zər qədrini bilər deyiblər,
Alüdə duyğumu qoyma röyada,
Qadınlar paklıqla özün öyüblər.

Bəxtini bağladın öz sevdiyinə,
Yarı əziyyətdir, yarı məhəbbət.
Ağlın qulaq asdı qəlb dediyinə,
Onu poza bilməz heç bir söz-söhbət.

Çöhrəndə ay gülür, üzündə günəş,
Hər iksi ürəyin odundan doğur.
Daim qəlbinizdə yansın od-atəş,
Ocaq alışanda tüstünü boğur.

***11.03.1985***

## OĞLAN

***nəğmə***

Hər ürəyi ələ alma,
Hər qönçəyə bülbül olma,
Su olub hər qaba dolma,
Ay uzaqdan baxan oğlan,
Ürəyimi yaxan oğlan.

Gizli-gizli süzmək nədir?
Hər çatan heç bilməz qədir,
Vurulmağın bahənədir,
Qaş-göz etmə mənə, oğlan,
İnanmıram sənə, oğlan.

Mən sevirəm əhdə düzü,
Qəlbi təmiz, gülər üzü,
Qismət varsa tapar özü,
Seltək coşub axma, oğlan,
Şimşək olub çaxma, oğlan.

Sevən ürək eşqində düz,
Nə, sən allah, bağrımı üz,
Nə də məni gizlincə süz,
Etibarın yoxsa, oğlan,
Gözün yada baxsa, oğlan.

***15.07.1985***

## BƏNÖVŞƏLƏR AÇANDA

Yazda bənövşələr çiçək açanda,
Gözlərin dolanıb yolda qalmasın.
Coşsun duyğuların ürəkdə, canda,
Kədərlər başının üstün almasın.

Kirpiklər tökməsin şikayətini,
Aləm dərdə batar, günlər allanar.
Göndər kağızlarla hekayətini,
Yazdığın diləkçə eşq ilə yanar.

Həsrəti buraxma başlı-başına,
O üzüdönmüşün hiddəti yaman.
Qəfil çıxar olsam əgər qarşına,
Bil ki, bu taleyin verdiyi fərman.

Tuş etmə bəbəyi daşqın sellərə,
Onun sularına batan çıxmayır.
Qul olub, əyilmə çaşqın sellərə,
Onu ram edəni heç vaxt yıxmayır.

Yandırıb alova köksü boylanma,
Göynəyən yaranı sağaltmaq olmur.
Əgər sevməyirsən, alışıb-yanma,
Sevməyən ürəyi ağlatmaq olmur.

Bu dərdi özündən kənar edənlər,
Həsrətin acısın dadmayır heç vaxt.
Eşqə ağılını yanar edənlər,
Bu yolda aldanır, udmayır heç vaxt.

***19.07.1985. Xəstəxana***

## BƏHANƏSİZ GET

Gedirsənsə bahanəsiz get barı,
Olma mənə yağıların yağısı.
Sənin qədər incitməyib yar yarı,
Ürəyimin fəğan edir ağrısı.

Küsməyinlə barışmağın bir olur,
Hər işimə qarışmağın bir olur,
Ürəyimlə yarışmağın bir olur,
Sən olmusan həsrətimin ağası.

Sənin üçün nə edirəm pisəm mən,
Gəl qəlbimi məcbur etmə küsəm mən,
Ömrüm boyu yolundaca əsəm mən,
Zən etmə ki, heç olmaram mən asi.

İnsaf eylə mənimlə düz dolan, dur,
Nə də məni incitməkçin tələ qur,
Nə də sonra qarşımdaca boyun bur,
Alma məndən, ay insafsız, qisası.

Əzəl başdan umu-küsü etmədim,
Arzu-kamım qaçar oldu, yetmədim,
Vəcdə gəlib hər bülbüllə ötmədim,
Əzab vermə mənə sözün qisası.

***18.07.1985. Xəstəxana***

## ƏLLƏRİNİ VER MƏNƏ

Qarşımızda uzun yol,
Neçə cığır, neçə kol,
Bu səfərdə yoldaş ol,
Eşqlə vurur bu sinə,
Əllərini ver mənə.

Diyar-diyar ötərik,
Tufanlarda itərik,
Gül-çiçəktək bitərik,
Eşqlə vurur bu sinə,
Əllərini ver mənə.

Ömrümüzdə sərt qışlar,
Şaxta, sazaq, sərt qışlar,
Qəlb ağrıdan baxışlar,
Eşqlə vurur bu sinə,
Əllərini ver mənə.

Addımlayaq qoşa biz,
Bu sevgimiz pak, təmiz,
Sevdamız qəlbdə əziz,
Eşqlə vurur bu sinə,
Əllərini ver mənə.

Ürək hələ yol gözlər,
Sinədə var od-közlər,
Sevgim coşqun dənizlər,
Eşqlə vurur bu sinə,
Əllərini ver mənə.

***27.12.1985 Nasosnu***

## KƏMƏNDİNƏ SALIBDI

Həsrət kəməndinə salıbdı məni,
Kəsilib amanım, səbrim tükənib,
Ayrılıq evinə salıbdı məni,
Solub ümidimin yaşıl çəməni.

Bədgüman olmuşam özüm-özümdən,
Gül kimi inamım tamam azalıb,
Sanki şübhəlidir gözüm-gözümdən,
Könlüm zidiyyətlər əlində qalıb.

Zahirdə gülürəm, daxildə ağlar,
Qarışan əhvalın bir sonu yoxdur,
Çəkir üstbəüstdən bəxt mənə dağlar,
Bütün çəkdiklərim könlümə oxdur.

Niyə xoş anımı alıb əlimdən?
Əvəzində ələm verirsən mənə,
Qopur xəyalların bir-bir könlümdən,
Dönür gözlərimdə oynaşan çənə.

***21.07.1985. Xəstəxana***

## SİNƏYƏ MƏLHƏMDİ

Bizi bir-birinə bağlayan əziz,
Könüldə məhəbbət, gözdə vüsaldı.
Bu yolda qoyulan hər qədəm, hər iz,
Sinəyə məlhəmdi, ağıza baldı.

Məftun qəlblərimiz gör bir neylədi?
Ürəyin eşqini gözlər söylədi,
Bəs aralıqdakı bu hicran nədi?
Səni də, məni də evinə saldı.

Həsrətə qol qoydu eşqili illər,
Bir susmaz bülbültək çağladı dillər,
Bəs niyə birləşə bilmədi əllər?
Birgə olmalıydı ayrıca qaldı.

Səba yelləritək nə qəfil əsdi,
Dolanıb aləmi yolları kəsdi,
Həsrət qapımızı bağlayan nəhsdi,
Qəfil başımızın üstünü aldı.

Sinənin fəğanı qəlbi dağlayır,
Duyğunun, arzunun dilin bağlayır,
Gözlərim yoluna baxıb ağlayır,
Baxışın bəs niyə köksümü çaldı?

Ürəyin ağrısı saz aldı ələ,
Heç sinə görməyib avazı belə,
Qədri bilinməyən sevginin elə,
Eşqisi, duyğusu xəyala daldı.

***26.12.1985 Nasosnu***

## SEVGİ SÖHBƏTİ

Sənsiz, gülüm, dünya mənə qaradır,
Bu üzümüz eşq yanında qaradır,
Dönüklüyün bir soyuqluq yaradır,
Hardan əsdi ömrümüzdə küləklər,
Sənsiz necə aşıb-daşar diləklər?

Gözlərindən pak məhəbbət oxunur,
Soyuqluğun ürəyimə toxunur,
İztirabın selə dönüb axınır,
Gəlib yenə səsə-ünə ayrılıq,
Salıb bizi yaman günə ayrılıq.

Eşq bağımda gül-çiçəyim bitməyir,
Hicranının sonu olmur, bitməyir,
Heç ağlımla ürək yola getməyir,
O gündən ki, itirmişəm səni mən,
Əlçim-əlçim çökür başa duman, çən.

Ey sevgilim, sən sevincim, sən nəş‘əm,
Ərzə şəfəq saçan odlu günəşəm,
El ağzına qoyma məni səhv düşəm,
Dünya özü sevdalara çox uyur,
Bu həyatı yaşamağı eşq duyur.

Vüsalın evinə salmısan bir qan,
Yox yerdən hicrana könlüm verdi can,
Çıxmayır xəyalın yadımdan bir an,
Elə hey uzanır yolların boyu,
Yorğun gözlərimə qurmusan toyu.

***17.10.1986***

## GİZLİ BAXIŞ

Gizli baxış pünhan-pünhan çağladı,
Öz ovunun sinəsini dağladı,
Bir səyyadtək yol-yamacı bağladı,
İki sevən düşdü eşqin düzünə,
Al qırmızı şəfəq endi üzünə.

Əlçatmayan yoxuşuna çıxış yox,
Məcnun eşqin həsrətindən çıxış yox,
Belə oğrun, ürək üzən baxış yox,
Sən də düşdün, mən də düşdüm fərağa,
Kim xoş deyər ürək üzən bu çağa.

Həsrətimiz sinəmizin dağımı?
Axşam-səhər solan eşqin bağımı?
Ayrılıqlar ömrümüzə yağımı?
Aldı qəfil bəxtimizi araya,
Qəm çilədi bu bəxtəvər il, aya.

Qəfil aldı şaxta, sazaq üstünü,
Aləm duydu bu harayı, bu ünü,
Sinə yandı, gözlər gördü tüstünü,
Ayrı düşmüş iki könlü ara da,
Sən də qaldın, mən də qaldım arada.

Həsrətimiz uzandı bir yol kimi,
Sındı ürək bəd zərbədən qol kimi,
Heç bir sevda olmayıb bu hal kimi,
Can ağrıdı bu haraya, fəryada,
Ötüşmədi başımızdan dərd, qada.

Nələr çəkdik ayrılıqda ikimiz,
Hicranlardan yaman günə qaldıq biz,
Yazıq ürək qarşımızda çökdü diz,
Eşqə sadiq gözlərimiz ağladı,
Vüsal deyən sözlərimiz ağladı.

Belə qubar bağlayan qəlb harda var?
Bu fərağı sinəmizdən kim qovar?
Yolumuzu dəli tufan, qar ovar,
Ayrılıqda qaldı yenə ürəklər,
Eşqimizi xəzan etdi küləklər.

Ey sevdalım, səndən ayrı günüm yox,
Sənsiz hayım, sənsiz sədam, ünüm yox,
Başımızın qeylü-qalı varmış çox,
Gəl çağlayaq baxtəvərcə dövranda,
Pak sevdamız dastan olsun hər yanda.

***26.12.1985. Nasosnu***

## KÖNLƏ ŞİKAYƏT

Eşqinlə gəzmişəm çölü, düzü mən,
Könlə bəxşiş verdin ağlar gözü sən,
Unutdum özümü sözün düzü mən,
Əvvəli bir nəğmə, sonu iztirab,
Necə qəmlərinə qəlb eləsin tab?

Gileylər sinəmdə dönübdü simə,
Yığılır anbaan yanan köksümə,
Özümü salmışam, sanki tilsimə,
İndi gözü yaşlı ağlardır ürək,
Dərdindən çatlamış dağlardır ürək.

Durub baxacağam hər gün yoluna,
Sevgimiz düşmədi heç vaxt yoluna,
Özün qüvvət verdin qəmin qoluna,
Sinəm yanan ocaq, tüstüsü ərşdə,
Niyə dastan olduq de dildə, dişdə?

Sanma ki, şikayət eylədim yenə,
Neyləyim doludur qəminlə sinə,
Heç çıxa bilmirəm qəlbin əksinə,
Gəl, həsrətdən qopub çıxaq sabaha,
Sonsuz iztirabı yükləyək aha.

***17.10.1986***

## GÖZLƏRİNİ SEVİRƏM

Alışıram atəşinə, oduna,
Ocaq çatan közlərini sevirəm.
Bir qərarsız ürək getsə badına,
Aydan nurlu gözlərini sevirəm.

Gah qəzəbli, gah füsnikar tökülən,
Göz önündə dan yeritək sökülən,
Ürəyimə ipək təki çəkilən,
Acı, şəkər sözlərini sevirəm.

Yenə yolu saldın sinə içinə,
Getməz idim heç bir işdə keçinə,
Söylə, indi ürək necə keçinə?
Qəlbə düşən izlərini sevirəm.

Bu ağlımdan izinsiz qəlb alışdı,
Görən qəlbə hardan odun qarışdı?
Aramızda məsafə bir qarışdı,
Əlçatmaz eşq düzlərini sevirəm.

***24.05.1987***

## GÖZLƏRİNDƏ SEVGİM VAR

Sən bu dərya könlümə
Salmısan körpü, ey yar.
Eşqini dillə demə,
Gözlərində sevgim var.

Dikdin gözü gözümə,
Alov tökdün üzümə,
Deməsən də üzümə,
Gözlərində sevgim var.

Ürəkdə məhəbbət bol,
Gəl ömürlük mənim ol,
Çəkək səadətə qol,
Gözlərində sevgim var.

Dodağını büzsən də,
Ürəyimi üzsən də,
Ayrı çiçək üzsən də,
Gözlərində sevgim var.

Qoy eşqimiz saf, təmiz,
Salsın neçə cığır, iz,
Sevda yolu gedək biz,
Gözlərində sevgim var.

***09.02.1987***

## SƏN HARDAN BİLƏSƏN Kİ...

Sinədə duyğularım,
Bundan uzaqsan sanki,
Qəlb dolu qayğılarım,
Sən hardan biləsən ki...

Ürək sevir gizlicə,
Könlümdə incə-incə,
Suallar doğur necə,
Sən hardan biləsən ki...

Leysan sevən buludam,
Yer aşiqi palıdam,
Mən ki, nəğməli udam,
Sən hardan biləsən ki...

Ocaqtək alışıram,
Od olub qarışıram,
Ürəklə vuruşuram,
Sən hardan biləsən ki...

Kəsilib səbir-qərar,
Qəlb telin həsrət darar,
Gözlərim səni arar,
Sən hardan biləsən ki...

***24.05.1987***

## SƏN GƏLƏYDİN

Gözümü yollarda qoyan bəxtəvər,
Bu həsrətli gündə qəm mənə sirdaş.
Könlüm xəyalları oxşayıb sevər,
Qəlbin tağlarından asılıbdı daş.

Yolların sonu yox, yollar uzundu,
Ağrılı, acılı hallar uzundu,
Qapımı bağlayan qollar uzundu,
Hicranın sinəmlə olub məsləkdaş.

Bəxti oyuncaqtək salma əlinə,
Bəbəklər hicranın batıb selinə,
Ürəyim dönübdü sənin dəlinə,
Boğulur gözümdə yenə də qan-yaş.

Gəl ey həyatımın solmaz günəşi,
Gəl ey bu sinəmin odu, atəşi,
Kədərin düzlərdə qalaydı nə‘şi,
O uzun yollardan sən gələydin kaş.

Sənsiz günüm qara, heç ovqatım yox,
Dayanıb zamanım, xoş həyatım yox,
Könlünə çapmağa könül atım yox,
Çöküb qəlbə zülmət, gəl qaralır qaş.

***10.06.1986***

## BƏXTƏVƏR OĞLAN

Adımı soruşma bəxtəvər oğlan,
Sənin hicranındır nəş'əmi boğan,
Başımın üstündə günəştək doğan,
Sənə ömrüm boyu sədaqətimdir.

Sənsiz ayım heçdir, günəşim heçdir,
Gəl könlün evindən kədəri biçdir,
Sevgimi yollardan şərəflə keçdir,
Sənli xəyallarım həqiqətimdir.

Sən mənə əlçatmaz zirvəsən, gülüm,
Könlümə həyat ver, bircə yol gülüm,
Sənsiz ağı deyər, odlanar dilim,
Yoxluğun ən acı hekayətimdir.

Gəl qurtar möhnətdən bir yolluq məni,
Apar göylərindən çiskini, çəni,
Unutmaq çətindir, əzizim, səni,
Sevgin ömür boyu ləyaqətimdir.

Gözləri yollarda qalmışam, neylim?
Tükənir həyatdan, ömürdən meylim,
Rəva bulma qəmə min qat əyilim,
Ürəyi yaşadan məhəbbətindir.

Taleyim əzəldən qəmə düçardır,
Bircə təbəssümün bəxtə açardır,
Başsız xülyalarım bir-bir uçardır,
Onlara can verməak ülviyyətindir.

***10.06.1986***

## ŞİRİN YUXU OLAYDIN

Çox aradım, çox axtardım, çox gəzdim,
Oğrun-oğrun yollarını hey süzdüm,
Hər məlala, hər hicrana mən dözdüm,
Bu sevginin hicranıyla qalaydın,
Gözlərimdə şirin yuxu olaydın.

Sənsiz göylər mənə duman görünür,
Köksüm evi hicranına bürünür,

Səadətim ayaqlarda sürünür,
Bu bağrıma şadlıq olub dolaydın,
Gözlərimdə şirin yuxu olaydın.

Sevincim bol, şadlığım bol, nəş'əm bol,
Əlindədir səadətə gedən yol,
Fərəhlərə, sevinclərə qoyub qol,
Gecə-gündüz ürəyimdə qalaydın,
Gözlərimdə şirin yuxu olaydın.

Sənsiz mənə acı olur hər anım,
Payandazdır yollarında bu canım,
Kədərlərlə qol-qoladır hər yanım,
Ey sevdalım, eşqə layla çalaydın,
Gözlərimdə şirin yuxu olaydın.

***11.06.1986***

## KÖNÜL QAPIMI

Gözlənilməz açdın könül qapımı,
Bu qəfil gəlişin qəlbdə toy-büsat.
Min yerdən düyünlü tale sapımı,
Qır düyünlərini, yolum üstən at.

Hər gün insan üçün ən ali gündür,
Qəlbdə fərəhim var, bir toy-düyündür,
Yatmış duyğuları vədlə öyündür,
Əbədi deyildir ötəri həyat.

Uçaq zirvələrdə bir qartal kimi,
Buluddan yüngül et xəyal çəkimi,
Heç vaxt rəva bulma başa sərkimi,
Zaman bir çeşmədir, ömür bata-bat.

Təlatümlü qəlbi bir az ovundur,
Şirin də, acı da öz söz-sovundur,
Sanma ki, ürəyim sənin ovundur,
İncik baxışına bir az şəkər qat.

***12.06.1986***

## MƏHƏBBƏTİN ALOVSUZ

Sənin məhəbbətin alovsuz, odsuz,
Bir gözsüz çeşmətək qurudu getdi.
Mənim məhəbbətim səhrada sussuz,
Yandı, röyalarda vüsala yetdi.

Ömrüm belə keçdi, həyatım belə,
Eşqi düşünmədən sən verdin yelə,
Həsrətli gözümdə yaş döndü selə,
Ayrılıq köksümdə tufanlar etdi.

Keçən illərimə baxdıqca, baxdım,
Dəli şimşəklərtək köksümdən çaxdım,
Bu günahsız qəlbi ələmlə yaxdım,
Sadəlövh könlümün şadlığı bitdi.

Döydüm ürəyimi çox ağlımla mən,
Özüm də öyündüm xoş nağlımla mən,
Şəkərə bükülmüş noğulumla mən,
Sevincim, şadlığım əllərdə itdi.

Beləcə günlərim sənsiz keçəcək.
Könlüm həsrətindən ələm içəcək,
Bu kor taleyimi dərdlər biçəcək,
Ruhun iztirabı cana öyüddü.

***16.07.1985. Xəstəxana***

## HANSI XİLQƏTDƏN YARANIB

De, hansı xilqətdən yaranıb, söylə?
Məni dərdə salan məsum gözlərin.
Hicran acısına batıbdı böylə,
Gah şirin, gah acı niyə sözlərin?

Gecələr şam oldum, dərdin pərvanə,
Dolandım başına mən sübhə qədər.
Onun sitəmindən gələrkən cana,
Sandım anlarımın ağrısın hədər.

Mən niyə ürəkdən sevdim ağrını?
Onun əzabından sən boylanırsan.
Vüsala heyrətdə qoydun bağrını,
İndi xəyallartək sən haylanırsan.

Gözlər aynasından ürəyin baxır,
Onun acıları tükənən deyil.
Şimşəyin özü də həsrətdən çaxır,
Buludun ahına salıbdı meyil.

***04.07.1985. Xəstəxana***

## SEVGİ HEKAYƏTİ

Oğlan, həsrətlərə hər gün dözərək,
Könlün peymanını itirməyək biz.
Diləyin bağrını ahla üzərək,
Sevgi hekayətin bitirməyək biz.

Demə, niyə gəldik dünya üzünə?
Demə, aldanmasın gözüm gözünə,
Gücün çatmayırsa özün-özünə,
Zamana bu eşqi yetirməyək biz.

Oğlan, vəd verməyək biri-birinə,
Hissləri qatmayaq ürək sirrinə,
Gedib ağlımızla hər gün dərinə,
Qəmi könlümüzə gətirməyək biz.

Qisməti amansız ayrılıq edib,
Avazlı nəğmətək xoşqılıq edib,
Gah buza döndərib, gah ilıq edib,
İlğımlı səhraya ötürməyək biz.

Sevgiyə qovğalı oyuntək baxma,
Ürək tutmayanı yovuq buraxma,
Boş yerə könlünü yandırıb yaxma,
Dərdi üstümüzə götürməyək biz.

***04.07.1985. Yasamal***

## SƏNİ ARZULADIM

Bəlkə də yanğıdı, bəlkə də giley,
Səni arzuladım sərin bir gecə.
Sanki yazıq sinəm sızlayan bir ney,
Bəm üstə segahdan çalır indicə.

Səni arzuladım, həzincə bir eşq,
Çağlar bulaq təki gözü görünməz.
Səninçin bəlkə də sevgiylə bir məşq,
Mənimçin ayaqda, izdə sürünməz.

Səni arzuladım, bu bahar çağı,
Üstümə dünyanın qəmi töküldü.
Söndü gözlərimin həyat çırağı,
Qəlbimin yuvası uçdu, söküldü.

Səni arzuladım, arada uçrum,
Ayrılıq içində keçir günlərim.
Düşdüyüm əzabla mən necə durum?
Kədərin əlindən qaçır günlərim.

Ürəyə həsrətin leysanlar ələr,
Qəm döyən qapıda fərəhlər olmaz.
Bir söz də ağıldan dilimə gələr,
Sındırılan qabda heç vaxt su qalmaz.

***30.04.1986***

## SƏNLƏ BARIŞIB

Bilməzdim taleyim sənlə barışıb,
Bu könlüm xəyalla isinəcəkdir.
Köksümdə yenə də aləm qarışıb,
Yanan duyğularım hey dinəcəkdir.

Bilməzdim ağlımda uçan buludlar,
Bir vaxt öz yerini günəşə verər.
Həsrətdən ağlaşan göynək imdadlar,
Şadlıq süfrəsini qəlbimdə sərər.

Sənə bağlı olan müqəddaratım,
İsinər bir ani təbəssümünlə.
Sənin mükafatın, mənim baratım,
Bağlıdır ürəyi saran siminlə.

Yaxından, uzaqdan eşidim barı,
Xoşbəxt güzaranın, xoşbəxt günün var.
Ömrümüz xəlbirdən tökülən darı,
Orda kədərin var, bəxt düyünün var.

***20.04.1986. Zağulba***

## APARSIN SƏSİMİ

Aparsın səsimi əsən küləklər,
Qəfil pəncərəndən salsın içəri.
Qəlbində gəzməsin heç vaxt göynəklər,
Sevinci, fərəhi alsın içəri.

Dəli şimşəkləri çaxdır sinəmdə,
İnan ki, bu könlüm olmaz gileyli.
Çəkinmə, qan-yaşı axdır sinəmdə,
Hər əzaba dözən Leyliyəm, Leyli.

Ömrümü, günümü aldın özümdən,
Mən gözü yaşlıyam, sənsə bəxtəvər,
Bu bəxti, taleyi saldın gözümdən,
De, ürək ürəyi beləmi sevər?

Varlığımda gəzən qəlbim sənindir,
Nə qədər sinəmdə ürək döyünür,
Köksümü bürüyən hicran çənindir,
Yalnız xəyalınla bağrım öyünür.

***20.04.1986 Zağulba***

## AXTARIR GÖZÜM SƏNİ

Yanırdı ürəyim dərd, qəm içində,
İtirdim qəfildən mən özüm səni.
Sinə alışdıran sitəm içində,
Axtarır hər yerdə bu gözüm səni.

Nələr çəkəcəkmiş bu başım mənim,
Sənsiz sən olmusan sirdaşım mənim,
Dünyanı götürüb göz yaşım mənim,
Köksümdə saxlayır tək dözüm səni.

Uçulub könlümün yurdu, yuvası,
Bizi büryan etdi sevgi havası,
Sürətin könlümün dərdi, dəvası,
Dilimdə gəzdirər hər sözüm səni.

Baxıram yenə də dağlara, düzə,
Mənə duman olan gecə, gündüzə,
Sinəmdə ürəyim baxmayır sözə,
Xəyalla isidər od-közüm səni.

Yorğun yollarında düşüb qalaram,
Çöllər çiçəyitək tənha solaram,
Duyğutək köksünə axıb dollaram,
Gəzər cığırlarda lal izim səni.

***02.07.1986***

## SALIBDI BƏXTİMİ EŞQİN KƏMƏNDƏ

Salıbdı bəxtimi eşqin kəməndə,
Hicranın qoymayır can qalsın məndə.
Ürək fərəhinə olub daməndə,
Çapırsan könlümdə çoxdan sağ-sola,
Ayrılıq tutubdu mənlə qol-qola.

Sərin mehlər təki axıb keçirsən,
Qəlbimi atəşə yaxıb keçirsən,
Elə ayrılıqtək baxıb keçirsən,
Nə ola gözlərin qəlbimtək dola,
Ayrılıq tutubdu mənlə qol-qola.

Bir ay işığısan, göydə süzürsən,
Hicran dənizində yaman üzürsən,

Həm məni, özünü niyə üzürsən?
Ələyib möhnətin tikanlar yola,
Ayrılıq tutubdu mənlə qol-qola.

***30.03.1986 Zağulba***

## QARŞIMA ÇIXARKƏN

Səhər-səhər qarşıma çıxarkən sən qəfildən.
O odlu baxışların əridim sükutunda.
Həsrətdən mən çöhrəndə görərkən çən qəfildən,
Mənə müqəddəs oldu şahanə sükutun da.

Duyğulandı diləyim bu təsadüf görüşdən,
Anlarım da mənimtək oda düşüb alışdı.
Könlümə günəş doğdu həyat dolu gedişdən,
Arzularım zamanın vüsətiylə yarışdı.

Ümidlərim çaxnaşdı göylərdə bulud təki,
Səhərin işığından aləmə nur ələndi.
Ürəyimin telləri sızladı bir ud təki,
Könlüm sabahlar kimi sevdayla təzələndi.

Gəlib bu Şadimana tale imdad eyləsə,
Səni istəyim təki tutacam ömrüm boyu.
Qəmə düşmüş könlümü bir yol abad eyləsə,
Bu zərif vücudumla qəmə quraram toyu.

***10.11.1988***

## QƏFİL ÇIXIB QARŞIMA

Səhər-səhər qəfil çıxdı qarşıma,
Bu bağrımı qana saldı gözlərin.
Ruhun qovub saldı yenə başıma,
Əcəb məni məndən aldı gözlərin.

Öz ovuna rəhmi gəlməz səyyaddı,
Mürgüləyən xəyalları oyatdı,
Qəlbə qirib ora ələm, dərd çatdı,
Köksün için sərrast çaldı gözlərin.

Gətiribdi sevgisindən sorağı,
Məhəbbətdir sönməz şamu-çırağı,
Əlindədir taleyimin varağı,
Harda idi, harda qaldı gözlərin.

***03.04.1987***

## İLQARINDAN DÖNƏN

Pozubdu əhdini xeyli müddətdi,
İlqarından dönən yara, nə deyim?
Elə zənn eylədim bu məhəbbətdi,
Edib ayı, günü qara, nə deyim?

Xəzana düşübdü bəxtimin yolu,
Yağır gözlərimdən hey leysan, dolu,
Min yerdən zəncirli taleyin yolu,
Zalım ovçu salıb yara, nə deyim?

Əhdini danandan imdad gözləmə,
Çarəsiz dərdinə heç dad gözləmə,
Kül olan sinəndən fəryad gözləmə,
Yazan bəxti yazıb qara, nə deyim?

İnsafsız adamdan gəlməz ki fayda,
Çapalar ürəyim nə ahu-vayda,
Mən gör nə haydayam, o gör nə hayda,
Etməyir səhvinə çarə, nə deyim?

Günbəgün könlümə yağar gileylər,
Ürək gecə-gündüz doğar gileylər,
Sinəmin içində həsrət gileylər,
Gəlmişəm baxtımdan zarə, nə deyim?

***18.10.1989***

## TALE MƏNƏ VƏFA QILSA

Tale mənə vəfa qılsa gələrəm,
Könlündəki ahu-qəmi bilərəm,
Səadətin özü təki gülərəm,
Gülüşlərin gur sulartək çağlasın,
Bu sevdadan həsrət, hicran ağlasın.

Əzablıdır məhəbbətin yolları,
Gah hamardır, gah da çətin yolları,
Diləklərlə çəkək mətin yolları,
Ürək odun atəşlərə bağlasın,
Bu sevdadan həsrət, hicran ağlasın.

Zaman qaçır tuta bilməm günləri,
Saatıma çata bilməm günləri,
Ayrılığa qata bilməm günləri,
Diləklərin dəstə çiçək bağlasın,
Bu sevdadan həsrət, hicran ağlasın.

***07.04.1989***

## SƏNDƏN MƏNƏ NƏ QALDI

Səndən mənə nə qaldı?
Quru ürək ağrısı.
Könlümdə məskən saldı,
İztirablar doğrusu.

Niyə tanımadım mən
Ayrılığın üzünü?
Yaman bağladın əhsən,
İdrakımın gözünü.

Ürək yanır xəlvətdə,
Fəryadına yetən yox,
Hicran var məhəbbətdə,
Ona ağrıda tən yox.

Səndən mənə nə qaldı,
Dərya tutmaz göz yaşı?
Sənli dünyam xəyaldı,
Qəlbdən asılıb daşı.

Ürəyim alışan şam,
Pünhan yanar gecələr.
Bəxti, taleyi axşam,
Necə yatıb dincələr?

***20.10.1989***

## İNSANIN YARADAN ƏLİ

Sevgidir insanın yaradan əli,
Odur kainatın böyük əməli,
Həyatda gözəllik özül-təməli,
Onsuz nə hüsnü var qoca dünyanın,
Odur başdan-başa qəlbi dünyanın.

Ondan zövq almışdır uca təbiət,
Yaşamaq, yaşatmaq ondakı niyyət,
Eşq ilə doğulur qəlbdə ülviyyət,
Gözə görünməyən bir мələkdir o,
Hər köksün içində bir ürəkdir o.

Onun öz qanunu, öz yazısı var,
Ona sərt baxanın burnunu ovar,
Ağılı Məcnuntək səhraya qovar,
Səadət bəşərin şaqraq həyatı,
Onunla çağlayır ömür büsatı.

Sevgidir cahana ən parlaq işıq,
Odur cismi-cana, könlə yaraşıq,
O bir möcüzədir, biz zümrüd daşıq,
Haqqın göndərdiyi sirdir dünyada,
De kim yanmayıbdı, atəşə, oda.

***23.03.1989***

## MÜBARƏK OLSUN

Böyük səadətdi arzuya çatmaq,
İki pak sevgini bir yerə qatmaq,
Həsrətin, hicranın daşını atmaq,
Birləşən əliniz mübarək olsun,
Səadət iliniz mübarək olsun.

Heç vaxt ayrılmasın əl-qollarınız,
Daim nurlu olsun qoy yollarınız,
Dərdlə toqquşmasın vüsallarınız,
Birləşən əliniz mübarək olsun,
Səadət iliniz mübarək olsun.

Dil tapın, yaşayın ömrünüz boyu,
Hər cavan bircə yol görsün bəxt toyu,
Qoy artsın, çoxalsın ellərin soyu,

Birləşən əliniz mübarək olsun,
Səadət iliniz mübarək olsun.

Həyat tükətməsin toyu, vüsalı,
Hər yerdə xoş olsun şadlığın halı,
Sevgiyə tay olmaz dünyanın malı,
Birləşən əliniz mübarək olsun,
Səadət iliniz mübarək olsun.

***20.10.1989***

## NİYƏ ÇIXDIN QARŞIMA

Aman gözlər, niyə çıxdın qarşıma?
Bu nə haldı gəldi mənim başıma.
Hicran düşüb bəbəkdə göz yaşıma,
Ürəyimi yaman saldın çöllərə.
Nəğmə etdin ağızlara, dillərə.

Aman gözlər, ovçuluğun bir aləm,
Qalxdı göyə, asimana ah-naləm,
Mükafatın mənə olub dərd, ələm,
Demə mənə ötüb keçən meyildi,
Məcnunluğun ürəyimə əyildi.

Ay insafsız, get uzağa gözümdən,
Keçib daha bu səbirdən, dözümdən,
Dönə-dönə incimişəm özümdən,
Həsrətlərin, hicranların bağısan,
Ürəyimin çalın-çarpaz dağısan.

Aman gözlər, baxışların duruşu,
Başdan-başa dava-dalaş qurluşu,
Hardan buldun gözlərimlə vuruşu?
Alıb saldın ürəyimi qalaya,
Düşdüm tamam bu minvalla bəlaya.

Aman gözlər yandırırsan, yaxırsan,
Şimşəklərtək qəlb göyündə çaxırsan,
Bu nə baxış, mənə elə baxırsan,
Salma məni gözlərinin oduna,
Qoyma sinəm gedə sənin badına.

Əlçatmayan zirvələrdə durursan,
İşvələrlə könlə tələ qurursan,

Üstbəüstdən qəlbə yara vurursan,
Həyat dolu diləklərim var mənim,
Ürəyimdə gizli gəzən yar mənim.

Şirin xanım çox dözübdü nazına,
Bağrım özu dönüb sızlar sazına,
Qoyma həsrət yollarıma uzana...
Aman gözlər, günü qəmlə ələmə,
Alıb könlü çiskinlərə bələmə.

***18.04.1986 Zağulba***

## NƏ SIZLARSAN KAMAN KİMİ

Nə sızlarsan kaman kimi ahəstə,
Qaldırarsan şahə segah, şikəstə,
Canım olub yolundaca bir xəstə,
Məndən uzaq gözlərinə qurbanam,
Könül, şəkər sözlərinə qurbanam.

Ürəyimdə əsir həzin küləklər,
Sinəm yazdı, açılıbdı çiçəklər,
Sevgim, eşqim butalanan ləçəklər,
Mənsiz keçən ay, ilinə qurbanam.
Şirin-şəkər, xoş dilinə qurbanam.

Səndən qopan məhəbbətim bir dünya,
Sən gələndə əriyər min daş, qaya,
Dönüb eşqim dəli-dolu bir çaya,
Coşub-daşan kəmalına qurbanam,
Canla olan xoş halına qurbanam.

Mavi göylər gen sinəmə sığmayır,
Günəş mənsiz üfüqlərdə doğmayır,
Mən dolmasam buludlar da yağmayır,
Canda coşan pak sevginə qurbanam,
Sənlə keçən aya, günə qurbanam.

***09.07.1986 Nasosnu***

## DÜŞDÜM ODUNA

Bu sinəmin coşğunluğu olsa da,
Dəli könül boşalsa da, dolsa da,
Ürək məni dağ, arana salsa da,
Hər yetənin getməsəm də badına,
Gözlərinin yaman düşdüm oduna.

Çox bəlalar varmış hələ başımda,
İldırımlar çaxdıracaq başımda,
Qəm sulanır gözlərimin yaşında,
Ağlımın gör sən nə saldın yadına,
Gözlərinin yaman düşdüm oduna.

Ürəyini köçürmüsən sinəmə,
Bir zəlzələ saldın sakit binəmə,
Ay insafsız, son qoy mənəm-mənəmə,
Dəli könlün heç yaramaz adına,
Gözlərinin yaman düşdüm oduna.

Məğrurluğun bir zirvədir əlçatmaz,
Pak vüsalı niyə bilməm oyatmaz?
Bu sevgidən bağır yatmaz, qəlb yatmaz,
Ayrılığın baxmamışdım dadına,
Gözlərinin yaman düşdüm oduna.

Dəli ürək dağın, daşın səyyadı,
Bilən bilir, hicran daşdı, qayadı,
Bağrı tamam eşqin qəmə boyadı,
Baxmaz daha yaxınına, yadına,
Gözlərinin yaman düşdüm oduna.

***27.06.1986***

## SƏN ÇIXAYDIN QARŞIMA

Dəli könül dağ selitək daşanda,
Qarışaydı diləklər göz yaşıma.
Bağrım, köksüm ilham ilə coşanda,
Məni sevən, sən çıxaydın qarşıma.

Eşq qonanda zirvələrə qar təki,
Könlüm nəğmə oxar kaman, tar təki,
Ürək parça-parça olur nar təki,
Məni sevən, sən çıxaydın qarşıma.

Açılıbdı çöl-çəməndə çiçəklər,
Bağlayıbdı başlarına ləçəklər,
Nə desə də mənə ağzıgöyçəklər,
Məni sevən, sən çıxaydın qarşıma.

Sənsən könlün əzəl-başdan rənası,
Məhəbbəti sanma ömrün fənası,
Olmaz yarsız ömür-günün mənası,
Məni sevən, sən çıxaydın qarşıma.

Darıxıram səsin-sədan gəlməsə,
Gözüm baxmaz, könlüm baxmaz bir kəsə,
Ürəyimin sirin deyim mən kəsə,
Məni sevən, sən çıxaydın qarşıma.

Ömür ötür, zaman qaçır, gün qara,
Çəkir mənim ürəyimi qəm dara,
Ürəklərin ülfətində var çara,
Məni sevən, sən çıxaydın qarşıma.

***29.06.1986***

## EŞQ ODUYLA ALIŞAN

Ey sevgilim, eşq oduyla alışan,
Pak sinənə, gül üzünə həsrətəm.
Hər anımla, dəqiqəmlə alışan,
Eşqlə gələn gündüzünə həsrətəm.

Bu gözlərim yenə qaldı yolunda,
Nələr çəkdi başım sənin yolunda,
Nə güc varmış hicranının qolunda,
Qəlbə düşən od-közünə həsrətəm.

Gələn sabah mənə sənsiz qaradı,
Könül telin ayrılığın daradı,
Həsrətlərin gəlib məni aradı,
Acı-şirin hər sözünə həsrətəm.

Gözüm-könlüm doymaz səndən aralı,
Qoyma məni o könlündən aralı,
Sinəm yenə min bir yerdən yaralı,
Mənə baxan pak gözünə həsrətəm.

Dərd çəkənin bağrı dözməz hicrana,
Gətirmisən, gülüm, məni lap cana,
Aramızda ülfətdən yol yarana,
Bu anlamda lap özünə qurbanam.

***30.06.1986***

## SALDI EŞQİN MƏNİ ƏCƏB KƏMƏNDƏ

Saldı eşqin məni əcəb kəməndə,
Nazu-qəmzən qoymur qalsın can məndə,
Nə minmisən köhlən ata, səməndə,
Dürüst çapdın can evimdə sağ-sola,
Hicranlarla nə girmisən qol-qola.

Bircə kərə danışsana, gülsənə,
Varıb könlə bu dərdimi bilsənə,
Can evimdən qəm-qüssəni silsənə,
Bir gün sinən düşər eşqin oduna,
Onda məni bir salarsan yadına.

Sərin mehtək səhər-axşam əsirsən,
Çiskin olub yollarımı kəsirsən,
Yerli-yersiz qəlbdə doğan nə sirsən?
Duman təki alma başım üstünü,
Yapma, gülüm, qəlbdə hicran büstünü.

Ağlar qoyma mənə sən ay, ilimi,
Zəhər etmə deyib-gülən dilimi,
Eşq bağından dərməmişəm gülümü,
Çəkilməsin istəklərim sərinə,
Könlü salma dərinlərdən dərinə.

***30.06.1986***

## İNDİ DƏ DİKİLİB YOLUNA GÖZLƏR

Onsuz da gedirdin, elə gedəydin,
Bu gediş qəlbimi sındırmayadı.
Sən bu qərarını elə edəydin,
Həsrətin sinəmi yandırmayadı.

Sevgi bağçamızda açan gülləri,
Hicranın yanğısı qurutmayaydı.
Ömürdən aldığım altun illəri,
Biganə yaddaşın unutmayaydı.

Onsuz da ömürün qapısı açıq,
Günlər pərvazlanıb quş təki uçur.
Dərdi-sər baş alır hey açıq-saçıq,
Bizimlə gözünü sabaha açır.

Dünyada nə qədər ayrılıqlar var,
İnsanlıq adına doğulmayaydı.
Həyatın pöhrəsi gözəl arzular,
Həsrətin əlində boğulmayadı.

Qırıldı ürəyim bu gedişinlə,
Gözümdə gilləndi yaş için-için.
Mənim həyatıma bəd gərdişinlə,
Doğradın arzumun qəlbinin için.

İndi də dikilib yoluna gözlər,
Əsən küləklərdən soruram səni.
Bağrımda həsrətin çılğın dənizlər,
Boğur dalğalarda xəyalın məni.

***03-04.07.1986***

## SƏMAYA BƏNZƏR

Gözlərin buludsuz səmaya bənzər,
Orda parlaq günəş od, alov saçır.
Odlu məhəbbətin bağrımı bəzər,
Xəyalın könlümdə eşqə yol açır.

Baxışın sinəmi yandırıb yaxır,
Üstümdən hicranın qəm seli axır,
Çəkdiyim əzaba olmazmı axır?
Kədərim hönkürüb üstümə qaçır.

Gəzir səmalarda xəyalım yenə,
Aləmi ağladır bu halım yenə,
Qəlbimdə gizlənib vüsalım yenə,
Həsrətin sinəmdə qartaltək uçur.

Sinələr döyünür od-atəş ilə,
Ürək öz hökmünü gətirməz dilə,
Verir günlərimi ayrılıq yelə,
Həsrətin könlümə qəlbini açır.

Məhəbbət əzabdı, ağrısı necə?
Ürəyi yandırır hey gündüz, gecə,
Yolunda günlərim dönübdü heçə.
Ayrılıq yenə də od, alov saçır.

Xəyalın qapımda hüzünlü gəzir,
Salıb ayağına şadlığı əzir,
Könlümü düşdüyüm bu həsrət üzür,
Gəl qəmi, qüssəni başımdan qaçırt.

***07.07.1986***

## GÖZLƏRİNİN DƏRİNLİYİNDƏ

Sənin gözlərinin dərinliyində,
Min kama, arzuya çatmaq istərəm.
Ali duyğuların sərinliyində,
Dincəlmək istərəm, yatmaq istərəm.

Yalvaran deyildim namərdə, mərdə,
Ömrümü salsa da həsrətin dərdə,
Axtarıb, arayıb səni hər yerdə,
Arzumu arzuna qatmaq istərəm.

Uçan buludlara qoşulub hər gün,
Başının üstündə qurram toy-düyün,
Gedəri gəncliklə çox öyündüyün,
Hünəri başından atmaq istərəm.

Min bir xəyallara düşsə də ürək,
Gündə doğulsa da min, milyon dilək,
Həyatda ümidlər olsa da dirək,
Könlümü sevincə satmaq istərəm.

Ey ruhun evinə qaranlıq salan,
Dəli şimşəklərtək boşalıb dolan,
Kimdir bu dünyada əbədi qalan?
Sevda göylərində batmaq istərəm.

***07.07. 1986.***

## ŞUX BAXIŞLI MƏLƏYƏM

Qara gözlü, şux baxışlı mələyəm,
Məhəbbətə arzu, istək, diləyəm,
Mülayim meh, dəli əsən küləyəm,
Günəş təki gur işıqlı gözələm,
Sazlı, sözlü yaraşıqlı gözələm.

Yolum keçdi çox enişdən, yoxuşdan,
Göz ayrılmaz bir istəkli baxışdan,
Xalı təki min bir parlaq naxışdan,
Qəlb ovladan, şəfəq saçan gözələm,
Başdan-başa könül açan gözələm.

Məhəbbətlə dolaşaram düzləri,
Ovsunlaram mənə baxan gözləri,
Mən sevirəm təbəssümlü üzləri,
Daxilimdə, çölümdə də gözələm,
Ürəyimdə, dilimdə də gözələm.

Salıbsa da həsrət eşqi düyünə,
Qoyma hicran aralıqda öyünə,
Kaş ürəklər pak duyğuyla öyünə,
Saf baxışda, mən saf gözdə gözələm,
Hər addımda, hər bir sözdə gözələm.

***17.03.1987***

## YABANÇI OLMA

Könlümə gözümə yabançı olma,
Bəxtimin göyündə yan ulduz təki.
Başqa birisinə meylini salma,
Qəlbim yalamasın dərdi duz təki.

Ağlayan gözümə nəş'ələr gətir,
Ağrıyan ürəyim sənlə döyünsün.
Mənə səadəti əlinlə yetir,
Bu günəş həyatım sənlə öyünsün.

***18.10.1989***

## GİZLİ BAXIŞLAR

Hər gün qarşılaşdı gizli baxışlar,
Bircə yol üzümə, əfsus gülmədin.
Saldın bu hicranla ömrə naxışlar,
Səni sevdiyimi niyə bilmədin?

Mənim yüz il oldu sənsiz bir ilim,
İtdi şadlıq sevinc hey ilim-ilim,
Üz-üzə gələndə lal oldu dilim,
Səni sevdiyimi niyə bilmədin?

Qarşında şahiddir dolan gözlərim,
İndi söylədiyim odlu sözlərim,
Sənsiz qara geydi ağ gündüzlərim,
Səni sevdiyimi niyə bilmədin?

Deyirdim gəl birgə toy-büsat quraq,
Bu gedəri ömrü bir başa vuraq,
Təmiz sevgimizlə zirvədə duraq,
Səni sevdiyimi niyə bilmədin?

Alışır köksümdə duyğular yenə,
Eşqinlə çağlayır bulaqtək sinə,
Sığındım ümidin qəmli köksünə,
Səni sevdiyimi niyə bilmədin?

Ürəyim dəryadır, xəyalın gəmi,
Unutmur sakitcə üzdüyü dəmi,
Ömürlük olmusan könlün həmdəmi,
Səni sevdiyimi niyə bilmədin?

***03.04.1987***

## O GÖZLƏRƏ HƏSRƏT QALMIŞAM

O sevgi deyilmi könlümdə çaxan?
Sorağın yenə də qəlbdən almışam.
Hərdən günəş təki yandırıb-yaxan,
Mən ki, o gözlərə həsrət qalmışam.

O qamət deyilmi ürkək yerişli,
Qəlblərə yol tapan ipək gülüşlü,
Qüssəsi bir aləm o sərt duruşlu?
Mən ki, o gözlərə həsrət qalmışam.

O ürək deyilmi eşq ilə coşan,
Sellər, sular kimi kükrəyib daşan,
Küskün röyalarla çox pıçıldaşan?
Mən ki, o gözlərə həsrət qalmışam.

O sevgi deyilmi dünyanı gəzir,
Köksünə güllərdən bir çələng düzür,
Tale gəmisiylə dəryada üzür?
Mən ki, o gözlərə həsrət qalmışam.

***18.03.1980. Yasamal***

# QƏZƏLLƏR

## CANBİR OLAN YARIMDAN

Nə müddətdi ayrılmışam canbir olan gül yarımdan,
Fələk ayrı salıb məni, mənim gözəl baharımdan.

İçim ağlar, gözüm gülər, kimsə bilməz heç ahımı,
Ürək odum ocaq çatar, sinə tutmaz aharımdan.

Hıçqırtılar boğar məni dəli-dolu sellər təki,
Bəbəklərim süfrə açar, kədər doymaz naharımdan.

Arzularım ah-vay ilən çıxar qaçar ürəyimdən,
Öz yuvasın tapmayanda, sanki partlar qəhərimdən.

Şadimana nədir belə vaxtsız gəlib xəzan könlə,
Aralıqda yellər əsir, iraq düş düm vüqarımdan.

***21.08.1991. Tağay***

## GƏLMƏZ OLUB

Yandırıb bağrın evin aləmgahım gəlməz olub,
Bağlayıb qəlb qapısın qibləgahım gəlməz olub.

Qapanıb könlüm evi min ah ilə diləyi var,
Eşqinə qul olalı səcdəgahım gəlməz olub.

Çıxır xəyalı önə bənzəri vardır mələyə,
Zülməti nura salan al sabahım gəlməz olub.

Söndürüb qəlbim evindən ümidin çırağını,
Bəxtimin cahcalalı, tək pənahım gəlməz olub.

Şadimana, bağrını yandıracaq şöləsinə,
Yayılır asimana yenə ahım, gəlməz olub.

***22.08.1991***

## ALIŞIR YANIR ÜRƏK

Alışır yanır ürək həsrət əlindən, kimsəna,
Çəkilir sinəyə dağ acı dilindən, kimsəna.

Mən ki, səni canımın can evi zənn eyləmişəm,
Batmışam göz yaşıma bağrın selindən, kimsəna.

Axtarır şamu-nahar çölü-çəməni ürəyim,
Bir xəbər yoxmu sənin qərib elindən, kimsəna?

Edərəm qəlbi fərağ bir baxışın sehrinə mən,
Asılıb qalar ürək könül telindən, kimsəna.

Şadimanın ahına yanmadı heç ürək odun,
Sormadın əhvalımı əsən yelindən, kimsəna.

***18.09.1993***

## SORAĞIN GƏLDİ MƏNƏ

Sorağın gəldi mənə hali-pərişan olmuşam,
Həsrətin əlində büryan, ürəyi şan olmuşam.

Öylə bir qəm çeşməsi üzür göləndə diləyim,
Aləmi ram eyləyən ahu gözlü an olmuşam.

Deyirlər, könlüm içi yamanca düşüb büsata,
Qəlbi lərzəyə salan yamanca ad-san olmuşam.

Təkcə səndin, Şadiman, qəmimə məlhəm dünyada,
Necə bir öylə sitəm könlə əcəb can olmuşam?

***19.08.1993***

## ALIŞIR YANIR SİNƏM

Alışır yanır sinəm düşmüşəm od-atəşə,
Kimsə dözməz, dözürəm fələk edən gərdişə.

Dəqiqəm əlində dustaq yolur saçını dərd,
Çəkilir ahım özü can ilə birgə ərşə.

Öldürüb-dirildənin canıma hesabı yox,
Nə zaman son qoyular ahla dolu bu işə.

Gələ əzrayıl ala bir yolluq bu canımı,
Bir görüm sonra fələk nə edəcək gəlişə?!

Şadiman, sevdiciyim rəhm etmir canımıza,
Çəkilir bir kənara qəm bizi çəkir dişə.

***19.09.1993***

## DÜŞÜRÜB QƏMƏ CANI

Düşürüb qəmə canı nə bəladı ürəyim,
Yoxdu taqəti-hal, qalmayıb dübarə heyim.

Geyinib qara kədər, pisliyini eyləyir,
Verib mənlə səs-səsə yenə ağlar diləyim.

Varmı qəmi olan bu qəmlə girsin savaşa,
Ələmi məlhəm yazıb kor bəxtimə fələyim.

Qınayır Şadimanı halinə biganələr,
Qapımı kəsib qəm fırlanır göydə ələyim.

***14.09.1993***

## FƏLƏK TUŞ ETDİ ƏCƏB

Fələk tuş etdi əcəb möhləti məlala məni,
Üzü dönmüş qaliba, saldı gör nə hala məni.

Peşiman etdi niyə gəlməyimlə dünyayə?
Doğulandan, xaliqa, vermədi bir yola məni.

Saldi könlü qəfəsə bülbülü-şeyda sayağı,
Selə atdı gözümü, qoydu dola-dola məni.

Yandı içdə harayım, gəlmədi kimsəm sorağa,
Etdi ürcah ah ilə min imzaya, qola məni.

Şadiman bağrı para, qanından min dərya axır,
Yaradan rəhm eliyə qəbr evinə sala məni.

***21.09.1993***

## DAD ƏLİNDƏN FƏLƏYİM

Dad əlindən fələyim, imdad əlindən fələyim,
Gömüldü torpağa tən min ad əlindən, fələyim.

Qəmindən bağrı para azəri övladı mənəm,
Qopdu sinəmdən əcəb fəryad əlindən, fələyim.

Yağı ağ köynəyimi əlvan qanlara boyadı,
Çəkə məntək qəmini min yad əlindən, fələyim.

Məni yurddan ayıran iblisin heç Allahı yox,
Düşmüşəm biyabana səyyad əlindən, fələyim.

Bağrı parə məmləkət gözdən axan yaşa çimir,
Nə zaman yurd olacaq abad əlindən, fələyim.

Şadimana, çəkirsən bir bu qədər müsibəti,
Sinəsində ürəyi bərbad əlindən, fələyim.

***21.09.1993***

## BAĞRI YANAN, AY ŞƏHİDİM

Köksü parə alışan, bağrı yanan, ay, şəhidim,
Düşmüsən torpağa sən qanın axır çay, şəhidim.

Vətən eşqi könlünü saldı yaman bəlalara,
Verdin əsir yurduna qeyrətini pay, şəhidim.

Neçə min qurğuşuna tuş elədin yağıları,
Baxışın düşmənlərə oldu kaman-yay, şəhidim.

Gözümdən yaş tökürəm mən məzarına, neylim,
Min ilin ölüsünə olmayasan tay, şəhidim.

Baş əyib qəbrinə mən, diz çökürəm baş daşuva,
Sənə rəhmət oxuyur, həm o tay, bu tay, şəhidim.

Qaldı nişan üzüyü, sən fələyin işinə bax,
Nə sənə, nə də yara olmadı bir toy, şəhidim.

Şadimana, üzülüb tabı-təvanım yoxdu heç,
Bir yolluq qurulaydı yağına son vay, şəhidim.

***21.09.1993***

## GÖZLƏDİM YOLUNU

Gözlədim yolunu həsrətlə, niyə gəlmədi yar,
Çəkdiyim sitəmləri bircə kərə bilmədi yar.

Qapadım gözlərimi uyğularda yetim ona,
Əcabə, yuxumda da acıları bölmədi yar.

Yandırdı sinəm içün möhnətimin ağrıları,
Ucbatından neyləyim bir yol üzüm gülmədi, yar.

Şadiman bir kimsədən duymadı vəfalığı,
Çeşməyə döndü bəbək, göz yaşımı silmədi yar.

***22.09.1993***

## KAFİRLƏR YAMAN SALIB MİN DƏRDÜ-BƏLAYA ELİ

Kafirlər yaman salıb min dərdü-bəlaya eli,
Göz yaşım dərya olub döndəribdi çayə eli.

Birləşib bir gedəlim yağı üstünə, kişilər,
Birləşə bilməyiriz öldürdü bu qayə eli.

Ya Quran, ya İslam göstərə qüdrəti-əzim,
Dinsizin top-tüfəngi saldı kəlisaya eli.

Gəlinlər göz yaşıyla islatdı örpəyini,
Özü dönmüş fələyim salmayır bir sayə eli.

Əcəb yatıb yuxuya yurduna ər, ərən olan,
Yağı son anda qoyub min cürə ox-yayə eli.

Anaların şüvəni göydə fələyi ağladır,
Bağlanıb bəxt qapısı gətirər bir hayə eli.

Möcüzə göstərə Tanrı oyada Xətayini,
Sıyıra qılıncını döndərə qalayə eli.

Göstərə ovsunu Xudam yurda çarə edə,
Bizimtək günə qala salan bu ah-vayə eli.

Şadiman, fikir eləmə tanrı verər cəzasını,
Qanına qəltan olar, qoyan Kərbəlaya eli.

***21.09.1993***

## YANIRAM

Alışıb eşqin ilə şamu-nahar hey yanıram,
Üzüb içdən canımı min cürə giley, yanıram.

Şahid olsun fələyim mənim acı əhvalıma,
Gecə-gündüz ürəyim sızlayan bir ney, yanıram.

Bütün vücudum ölüb, cansa canın əsiridir,
Donub damarda qanım, olmuşam bir key, yanıram.

Bir şərab atəşitək məst edir dilimi sözü,
Alıb əqlimi tamam sanki şirin mey, yanıram.

Əlac etmə təbimim, yuvam olub dərdü-yataq,
Üzülüb cisimdə tab qalmayıbdı hey, yanıram.

Həsrətin çəkir dara yuxuda bu Şadimanı,
Çalır üstümə özün, sanki dəli ley, yanıram.

***23.09.1993***

## MƏMLƏKƏTİM HARAY

Savaşda bağrı para şəhid məmləkətim haray,
Yağıya qismət olan yuvam, bərəkətim haray.

Ələnib torpağına şəhidlərin qanı, Vətən,
Düşən ellər dilinə vayım, fəlakətim haray.

Atılın meydana, bu bizlərə bir dərsi-əzim,
Düşübdü ayaqlara min şanı-şövkətim haray.

Qalmayıb canı-vücud cümlə-elin sinəsi qan,
Bu müsibətə dözən halı-hərəkətim haray.

Qıyma gəl Şadimana yurdu çəkə böylə sitəm,
Qibleyi Kəbə evim, namazı-rükətim haray.

***28.09.1993***

## MƏN ÇƏKİRƏM

Ulu Tanrım, bu qədər vay-sitəmi mən çəkirəm,
Ərzi nəhrə döndərən gözdə qəmi mən çəkirəm.

Yanır könlümün içi qüssələrin cəfasına,
Cahanı ram eləyən cümlə-qəmi mən çəkirəm.

Qaliba, bu zamanın əlindən ögar olalı,
Bəxtimin əhvalına pak aləmi mən çəkirəm.

Gülüzlü bir yar əlindən könlüm həsrətdə yanır,
Bağrımı qəhr eliyən ahu-dəmi mən çəkirəm.

Şadimanın ömrünü içdi zaman şərab təki,
Başıma zəhər dolu can badəmi mən çəkirəm.

***24.10.1993***

## ELƏYİR

Bivəfa eşqim ki, var könlümü səyyad eləyir,
Qanə dönmüş ürəyim aləmdən fəryad eləyir.

Əcabə, gülüzlülər çəkdilər kamına məni,
Dönüb əhdü-ilqarı eşq evin bərbad eləyir.

Deməyin nalədədi bağrı parə sinəm içi,
Sevilən ürəkləri dərd necə abad eləyir?!

Qəm mənə məcnun olub arxamca gəzməkdə müdam,
Xaliqa Leyli könlüm bu sitəmdən dad eləyir.

Şadiman, nə qədər ki, can cismə səcdədədir,
Düşüb qürbətə könül sevgimizi yad eləyir.

***26.12.1993 Pirallahı***

# TƏBİƏT QOYNUNA ÇAĞIRIR MƏNİ

## BAHAR HAQQINDA NƏĞMƏM

Bahardır! Yaşadıqca zövq alıram hər an ondan,
Uyuram dünyamızın gözəlliyə ram halına.
Təbiət paltar geymiş güllü-çiçəkli bir dondan,
Baxıram Vətənimin öz azadlıq, haqq yoluna.

Deyirəm, ana torpaq, arzuların qanadlansın,
Zəfər çalsın cahanın hər cür namərd insanına.
Deyirəm, ana torpaq, xainlərin qoy odlansın,
Bu gözəl baharımın toxunmasın bir anına.

Zərif bahar dözməyir heç bir insan fəryadına,
Dözmür bəşər övladının pərişan dünyasına.
Eşqlə sevər doğmasını, nifrət edər yadına.
Kövrəklikdən bahar ağlar torpağın qan-yasına.

Deyirəm, azadlığın əksi olan namərd insan,
Toxunmasın dünyanın güllü-çiçəkli yazına.
Təbiətə həyat eşqi gurultu dolu leysan,
Şirinlik qatar göyün şaxtasına, ayazına.

Neçə bahar görsə ellər qəlbdən şad olar inan,
Axı insan arzuları özü bahar dünyasıdır.
Gözəlliyə aşiq olur həyata gələn insan,
Arzular da qovuşan baharların sədasıdır.

Yaşıl yaz əsəblərin dərmanıdır, dəvasıdır,
O eşqi-məhəbbətlə sevindirər qəlbimizi.
Onun yaşıl çəmənləri dünyamızın səfasıdır,
Yaz elə iftixarla döyündürər qəlbimizi.

O sevib-sevənlərin arzusudur, qanadıdır,
Gələndə ömürlərə bir dünyalıq vüqar olur.
Bir həyat simfonyası, həqiqətin öz adıdır,
O, bəşər övladının öz əhdidir, ilqarıdır.

***13.03.1973 Tağay***

## XƏZƏR HAQQINDA NƏĞMƏ

Zümrüd sular aləmində bir dənizdir
mənə doğma, mənə əziz,
Əgər dünya dənizlərini
bir an səyahətə çıxsan,
Tapmazsan Xəzərimtək
gözəl nemətli dəniz.
Gah mirvari sularıyla insanı heyran edir,
Gah da qara qızılına dünyalar səcdə gedir.
Ləpələri elə bil ki, dürlü-dürlü
incilərdən düzülmüşdür,
Namərdə aman verməyən
bu ləpələr qarşısında
düşmənləri üzülmüşdür.
Bir an Xəzərimin sahilinə yolun düşsə,
Bu seyrgah dalğaların pıçıltılar aləminə
qonaq olsan əgər işsə,
Görəcəksən Xəzərimin hər ləpəsi
bir əsrdən söhbət açır,
Görəcəksən ləpələrim
pıçıltılı sözləriylə bir nur saçır.
Elə bil ki, dəli Xəzər xəbər verir
torpağıma ayaq basmış hər yağıdan!..
Hər vəhşəti qəlb ağrıdan...
Elə bil ki, deyir Xəzər əsrləri adlayıb
olmuşları tez-tez xəbər alın məndən,
Nəql edim mən düşməndən.
Mən danışım sizə hələ sularımı çirkablamış,
min bir qəddar yağılardan,
Dalğalarım şahə qalxıb qoparıbdı məni dardan.
Elə bil ki, Xəzər deyir, ey insanlar,
Od yurdunun torpağını
qoruyuram hər xaindən, hər əğyardan.
Elə bil ki, dəli Xəzər pıçıltılı sözləriylə
Qoca şərqin qapısından xainlərə od yağdırır,
düzlükdən bayraq qaldırır.
Elə bil ki, ləpələrin qucağında,
Saysız-saysız göz yaşları,
Ələm-kədər donub qalmış.
Dəli Xəzər zülmətləri yara-yara
ürəklərdə dağlar olmuş faciəli
keşməkeşli keçmişlərin möcüzəsi,
Çox əsrlər yola salan qoca şərqin odlu səsi.
Elə bil ki, Xəzərimin hər ləpəsi

Gurultuyla,
 xışıltıyla,
 mışıltıyla.
Ürəklərə nur çiləyir,
Qəlblərə şadlıq ələyir.
Elə bil ki, dəli Xəzər dil açaraq,
 bir az irəli qaçaraq,
Qızqalasın soraqlayır,
Baxın deyir sahilimdə binə qurmuş,
 özün sularıma vurmuş,
Qızqalası,
Əsrlərin sirr balası!
Zamanları çox haxlayır,
Qaçan vaxtımı saxlayır.
Elə bil ki, Xəzərimin hər ləpəsi
 bir əsrdən söhbət açır.
Məhəbbətlə bu günümün qurucusu,
 diləklərin vurucusu,
 insanlardan danışmaqçın,
 talelərə qarışmaqçın
 bir az irəliyə qaçır.
Ləpələri qanadlanıb dilə gəlir,
Sevinci göyə yüksəlir.
Minnətdaram deyir, sanki
 bu illərə,
 qurub-yaradan əllərə,
Çünki tənha qoymur məni insan oğlu,
Oxur mənə həyat nağılı...
Elə bir şəhər salmış ki,
 qoruyacaq daim məni
 şəhərin gur işığı,
Olub bu gur sularımın
Neft Daşları yaraşığı.
Mənim zümrüd sularımda məskən salıb,
 zirvələrdən hünər alıb.
Xainləri odlandırır,
Sevindirir dostu, yarı.
Elə bil ki, dəli Xəzər deyib bu gün,
Gur sularda Fərhad təki
 külüng çalan, ey insanlar,
 həyat salan, ey insanlar,
 dalğalarım sizlərlə can sirdaşı,
 yar-yoldaşı.
Bu şəhərin gur işığı
 yaraşığı,
Dalğalara məsləkdaşdır,

Sularıma amaldaşdır.
Xəzərimin hər ləpəsi sevinclərlə
Xəyallara dalır bugün,
Xəzərimin hər dalğası
bir xoşbəxtlik zümzüməsi çalır bugün.
Dənizimin xumar-xumar ləpələri,
Səhər-səhər bu günəşli torpağımı salamlayır,
Onun qumaş zərrələri
duyan-düşünən qəlblərə
durmadan sevinc qalayır.
Mən sevirəm Xəzərimin hər damlasın,
hər zərrəsin,
Əsrlərdən xəbər verən nəğmələrin həzin səsin.
Dəli könlüm heyran olub
Şeir qoşur Xəzərimin bu əsrarəngiz sularına,
İnsan oğlu alqış deyir,
dənizimin aşıb-daşan,
bə‘zən coşan,
torpağıma həyat verən, tükənməyən
bu varına...!
Axı hər gün səhər tezdən
salamlayır Xəzər məni,
Dalğaların pıçıltısı
Yerdə, göydə gəzər məni...

***12.08.1974 Tağay***

## BAHAR, SABAHIN XEYİR

Mavi Xəzər, yaşıl meşə, göy çəmən,
Çiçək açır novruzgülü, yasəmən,
Bu torpağın döşlərindən süd əmən,
Qaynar gözlü bulaqların olub şən,
Bahar gəlib, ana torpaq, ey gülşən.

Səma aydın, günəş odlu bir kürə,
Az qalıbdı aranda od püskürə,
Yaylaqlarda qara bulud hönkürə,
Fəsillərin ey gözəllər-gözəli,
Bahar gəlib, təbiətin sağ əli.

Ana Vətən, aşıb-daşır çayların,
Xoş müjdəli, bəxtəvərdir ayların,
Tükənməyən bar-bəhərli sayların,
Hesabını sorur ürək, ucalır,
Kim deyir ki, bu eldə qəlb qocalır.

Nə gözəldir, nə əlvandır bu torpaq,
Yaşıl donlu çətirlidir hər yarpaq,
Odlar yurdu, alnı açıq, üzü ağ,
Bahar adlı bir qonağın gəlibdir,
Qüssələrin ürəyini dəlibdir.

Bu diyara, sanki nurlar ələnir,
Hər addımda bir müsiqi səslənir,
Sinələrdə şeir, nəğmə bəslənir,
Al bayramın libasında qız-oğlan,
Dur «Yallı»nın havasına bir bağlan.

Odlu torpaq yuxusundan oyanıb,
Təbim yaşıl boyalara boyanıb,
Bənövşə də durub koldan boylanıb,
Pıçıltıyla, sevinciylə hey deyir,
«Xoş gəlmisən, bahar, sabahın xeyir!»

***19.03.1978 Yasamal***

## DƏNİZ NİYƏ COŞMUSAN?

Bu nə haray, nə qışqırtı sinəndə,
Hay salırsan dinləndə, dinəndə,
Sıx buludlar sularına enəndə,
Öz məcrandan çıxıb həddi aşırsan,
Anam dəniz, söylə niyə coşursan?!

Nərə çəkən dalğaların güclü fil,
Qasırğalar cövlan edər biqəfil,
Qağayılar gün keçirər lap səfil,
Günəş batar, tutar üzün al səhər,
Sən gözümə görünərsən birtəhər.

Dalğaların bürünəndə qəmlərə,
Sən də dözə bilməyirsən dəmlərə,
Göy gözündə çuxur tutan nəmlərə,
Ləpələrin pıçıldayar laylasın,
Qalır çaşqın ahın kimə paylasın?!

Hərdən ötkəm dəli haray çəkirsən,
Balıqların bağırını sökürsən,
Tufanları ortalığa tökürsən,
Qasırğalar ətrafını bürüyür,
Dalğaları aralıqda sürüyür.

Altun günəş inamsıztək özünə,
Həyasından örtük çəkər üzünə,
Gözlərindən nur tökülər düzünə,
Sənin çılğın tufanların dayanmaz,
Ürəyindən bir mərhəmət oyanmaz.

Hərdən qəfil ölüm-itim olanda,
Həyəcandan çaşqın gözlər dolanda,
Payız gəlib gülüstanlıq solanda,
Anam dəniz, qağayılar qaynaşar,
Ürəyimdə saf duyğular oynaşar.

O gurultun, o kişnərtin yayılar,
Nəriltidən canlıların bayılar,
Yatmış sular yuxusundan ayılar,
Səs-küyünə aləm qulaq kəsilər,
Çox sükutlu anlar üçün əsilər.

Dəniz coşub deyə ellər söz qoşar,
El ağzında dastan olub çox yaşar,
Tufanların yad dillərdə dolaşar,
Bir anlığa adlayarlar sərhədi,
Gözləməzlər nə qanunu, nə həddi.

Dünyamızı götürməyən gözlər var,
Göylərində dolaşan bəd sözlər var,
Qan içində çapalayan düzlər var,
Sən bunları götürməyib coşarsan,
Fırtınayla öz ömrünü yaşarsan.

Xoş çağlarım o köksünlə öyünüb,
Ürəyim də səninlə bir döyünüb,
Uşağlığım gur suyunda yuyunub.
Gah yıxılıb, gah durmuşam sinəndə,
Üşümüşəm küləklərin dinəndə.

Mən bilirəm coşğunluğun nədəndir,
Külək əsdi, sakitliyin gedəndir,
Dalğaları bir-bir əsir edəndir,
Dəli-dolu suların var əzəldən,
Don geyirsən payızlardan, xəzəldən.

Bəzən xəfif ləpələrin uyuyar,
Hirsiləri, hikkələri soyuyar,
Gur sular da yuxulayar, uyuyar,
Sakit-sakit xumarlanıb yatarsan,
Üz-gözündən dərdi-səri atarsan.

Mən də baxıb sənə ilham alaram,
Şirin-şəkər xəyallara dalaram,
Anam dəniz, sənə qonaq olaram,
Qucağında uyuyaram necə də,
Ayrılmaram gur sulardan gecə də.

Şadimanın ürəyində qüssədir,
Sinəsində yara hissə-hissədir,
Hər birisi kədər dolu kisədir,
Aç içini nə nalə var içində,
Günüm sənlə, ömür köçə-köçündə!...

***06.08.1985 Xəstəxana***

## AXŞAMLAR

Qara örtük çəkər açıq üzünə,
Ulduzları oxşar ala gözünə,
Bir parlaqlıq verər ayı özünə,
Oxunmayan bir dastandır axşamlar,
Od-atəşli yanan şamdır axşamlar.

Sükutlara bürünərlər obalar,
Nağıllaşar tüstülənən sobalar,
Yığışarlar ağsaqqallar, babalar,
Xısın-xısın söhbətləşər axşamlar,
Bağ-bağatlar heybətləşər axşamlar.

Məhəbbətli evlərdə od-köz olar,
Sönük qəlbdə qiybət, acı söz olar,
Pak sevgilər bir-birinə göz olar,
Qovuşarlar düz ürəklər axşamlar,
Coşar sevgi, xoş diləklər axşamlar.

Nəcibləşər şüurlarda əməllər,
Saf beyindən müqəddəslik əməllər,
Möhkəm olsa əvvəlindən təməllər,
Bir didişmə, söz-sov olmaz axşamlar,
Əsəbindən üzlər solmaz axşamlar.

Bir ürəyin yaraları qövr edər,
Bir ürəkdə şadlıq qəmi hey didər,
Sevgisinə qonaq təki qəlb gedər,
Ovsunlayar məhəbbəti axşamlar,
Bitməz könlün hekayəti axşamlar.

Payız gəldi, gözlər yuxu qazanar,
Qış gələndə nağılları uzanar,
Yaz, yay gəldi sinələrdə od yanar,
Hər fəsilin öz adı var, axşamlar,
Bir ləzəti, bir dadı var, axşamlar.

Könülləri oxşar həzin küləklər,
Tükənməyən sinələrdə diləklər,
Namərdlərdən əskik olmaz kələklər,
Açılmayan sirli-hallı axşamlar,
Saz-söhbətli qeylü-qallı axşamlar.

Tutqunluğun oxşar dərdli üzlərə,
Yağışların bənzər ağlar gözlərə,
Sis qaranlıq axışanda düzlərə,
Mən də dolub-boşalaram, axşamlar,
Yurd-yuvamdan öc alaram, axşamlar.

Ulduzların sarılanda sinənə,
Sərin mehlər qanad açar binənə,
Ay işığı məlhəm olar dinənə,
Cuşa gələr könül sazım, axşamlar,
Qəlb oxşayar yayım-yazım, axşamlar.

Elə möhtac, dərdə qalan ağrıyar,
Ürəyində həsrət olan ağrıyar,
Dərdi-sərlər sinəsini doğrayar,
Yorğun-yorğun el batıran, axşamlar,
Nalə, fəğan, dərd batıran, axşamlar.

Gecə gəldi qaranlıqlar çəkilməz,
Zülmətlərin qara bağrı sökülməz,
Dərdi-qəmin heç vaxt beli bükülməz,
Fəryad edər açıq-aşkar, axşamlar,
Ev-ev gəzər tapar şikar, axşamlar.

Onda ürək həzin-həzin inləyər,
Öz məlalın, öz ağrısın dinləyər,
Qəm bir oldu yüzdən keçər, minləyər,
Girər ağrı sinəyə ac, axşamlar,
Xəyal qəlbdən alar min bac, axşamlar.

Ürək var ki, həsrətlərdən alışar,
Səhəriylə, gecəsiylə çalışar,
Qismətinə düşən ömrə alışar,
Hicranları qəlbdə sönə, axşamlar,
Ələmlərin çərxi dönə, axşamlar.

Dərdi-sərlər sinədə at oynadar,
Coşdu ki var, demək olmaz, yana dur,
Gecələri pak sevgini oynadır,
Nalə çatar ərşi-aya axşamlar,
Salar könlü min bəlaya axşamlar.

Hər gilə yaş gözlər içrə daş olar,
Gah sevincdən, gah kədərdən yaş olar,
Yerli-yersiz hey ağrıyan baş olar,
Dərd çoxalar, ürək yanar axşamlar,
Öz canından qəlb usanar axşamlar.

Gözlər yatmaz, yuxuları əskilər,
Dolmuş qəlbdən dərdi-qəmi kim silər?
Ürək ömrə xoş güzəran, gün dilər,
Öz halına yanar necə axşamlar?
Nağıllaşar min bir gecə axşamlar.

Dərd əlindən könül fəğan eyləyər,
Gahdan zildən, gahdan bəmdən söyləyər,
Pak sevgisiz biçarə qəlb neyləyər?
Məhəbbətsiz gözlər ağlar axşamlar,
Nəş'ələrin yolun bağlar axşamlar.

Hərdən qəlbdə qüssə, qəmlər çoxalar,
Dəqiqələr köksümüzə ox olar,
Şirin, şəkər xəyallar da yox olar,
Ağrı-acı yola düşər axşamlar,
İnsan min bir hala düşər axşamlar.

Köksün için alar qəfil dumanlar,
Ələm könlü addımbaşı yamanlar,
Can qapısın döyər ahu-amanlar,
Bir gül kimi saralaram axşamlar,
Gah boşalıb, gah dolaram axşamlar.

Gözlərimin yuxuları didərgin,
Dəqiqələr, anlar keçər çox gərgin,
Qatı zülmət, acı xəyal lap ölgün,
Ulduzlara divan tutar axşamlar,
Ay işığı bə'zən batar axşamlar.

Xəyalların ətəyindən tutaram,
Çılğınlığı röyalara ataram,
Səhərədək yuxuları qataram,
Bu sehirə mən uyuram, axşamlar,
Ürəyimi tək qoyuram axşamlar.

***6-7.08.1985. Xəstəxana***

## MAVİ XƏZƏRİM

Tufanların üstündə ruhum gəzir, dolaşır,
Ötmür dalğalar üstdən dəli, çılğın nəzərim.
Gecə-gündüz ürəyim eşqinlə pıçıldadşır,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

O titrək baxışların dikilibdi üzümə,
Hərdən şıltaqlıq edib baxmayırsan sözümə,
Gözlərini süzərək nə dikmisən gözümə,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Pak noyabr günəşi səpilibdi üstünə,
Füsnukar qağayılar yığılıb səsə, ünə,
Coşub qəfil tufanlar lap dururlar qəsdinə,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Ləpələrin sakitcə xumarlanıb yatıblar,
Üstündən kədər-qəmi, dərd-məlalı atıblar,
Sanki sevgililərtək pak vüsala çatıblar,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Mənim mavi cahanım, qoynuna çağır məni,
Ağrılı ürəyimin oduna büküm səni,
Qovlayım sinən üstdən qoy dəli çiskin, çəni,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

«Neft Daşları» mənimçin bir ilham çeşməsidir,
Dalğaların hay-küyü ürəyimin səsidir,
Pak qoynunda yaşamaq bu sinəmin bəsidir,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Aç sinəni, gəlmişəm köksündə pərvazlanım,
Mən qubarlı qəlbimdən dərdi atım, nazlanım,
O Kərəmsiz Əslitək «Kərəm» üstə sazlanım,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Necə coşub-daşmasın sinəm üstə arzular,
Mənim könül beşiyim altuntək qaynar sular,
Qoşun çəkib dalğalar yenə də qəlbə dolar,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Ürəyimin ağrısı, sızıltısı əlində,
Mənim dərmanım-dəvam sənin mavi elində,
Nə şirin ləhcə vardır şux nəğməli dilində,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Qəmimin, məlalımın sonu burda qurtarır,
Lap köksümü qoynunda ünyetməz sevinc sarır,
Fikrim dalğalarını balıqlar təki yarır,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Beləcə gün keçirrəm qoynunda mən neçə il,
Ötər min nəğmə ilə, mahnı ilə dodaq-dil,
Qoynunda könül açan, ürək açan hər fəsil,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Qollarımı açaraq sinən deyib gələrəm,
Həsrətli aşiq kimi vüsalına gülərəm,
Sehirli günəş olub başına nur ələrəm,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Qucaqlaram boynunu səhərədək yataram,
Ürəyimin kədərin, iztirabın ataram,
Səninlə olaramsa hər arzuma çataram,
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

Yenə də sübhü-səhər dalğalar pıçıldaşır,
Fəqət gömgöy sularda xoşbəxtlik başdan aşır,
Şadimanın sinəsi eşq ilə aşıb-daşır...
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.
Ay mənim mavi dünyam, mənim mavi Xəzərim.

***13.11.1985***

## QOY BAXIM ULDUZLARA

Diqqət eylə, göyə bax,
Göy bürünüb nazlara.
Qaranlıqdan nişan yox,
Qoy baxım ulduzlara.

Asimanda ay doğur,
Qatı zülməti boğur,
Göydən yerə nur yağır,
Qoy baxım ulduzlara.

Səmayla nümayişi,
Kainatla sazişi,
Nur ələməkdir işi,
Qoy baxım ulduzlara.

Hər ulduz bir qalaça,
Qaladan düşüb qaça,
Göydən yerə nur saça,
Qoy baxım ulduzlara.

Hərdən də səf düzülür,
Gözləri lap süzülür,
Göydən biri üzülür,
Qoy baxım ulduzlara.

Xəfif-xəfif gülərlər,
Sakitcə hal bilərlər,
Könlə həyat dilərlər,
Qoy baxım ulduzlara.

Şadimanla gözləşir,
Göydən yerə sözləşir,
Ürəyimdə yerləşir,
Qoy baxım ulduzlara.

***24.08.1985 Yasamal***

## BELƏ YAYA YAY DEMƏZLƏR

Nə güclüdür küləklərin sənin, ah,
Gurha-gurla açılır hər gün sabah,
Salırsan səs, haray-həşir, ün sabah,
Buna, vallah, çox isti ay deməzlər,
Belə yaya heç isti yay deməzlər.

Deyişibmi iqlim, fəsil, yay əsir?
Yerli-yersiz acı mehlər gur əsir,
Canı rüzgar, soyuq külək lap kəsir,
Hər fəsilin öz dadı var, deyiblər,
Ata-baba yaya bir bar, deyiblər.

Qızmar günəş, sanki yoxdu binəndə?
Elə bil ki, heç sakitlik yox səndə,
Hay-həşirlə küy salırsan dinəndə,
Gurşad udub isti, təndir ayları?
Qudurdubdu xumarlanan çayları.

Sakit, aylı gecələrin de hanı?
Sayrışardı göydə ulduz tük sanı,
Ey yay ayı, öz yerini gəl tanı,
Candan soyuq çıxardan ay deyil bu,
Qəlb qızdıran ilğımlı yay deyil bu.

Hanı sakit dənizinin durr suyu,
Dalğaların sinəsində gəl uyu,
İsti Bakı bağlarında buz quyu,
Söndürürdü könlümüzün atəşin,
Hara qaçdı göylərindən günəşin?

Dondurmanın həsrətində qalmışıq,
Mehrimizi isti çaya salmışıq,
Hay-həşirə tamamən mat qalmışıq,
Hanı sənin hərarətin söylə bir?
Hekayətin açılmayan gizli sirr.

Çəkişmədi göylər içrə elə bil,
Min bir dona girir gələn hər bir il,
Ey Şadiman, qarışıqdır bu fəsil,
Təbiətin adil hökmü əzəldən,
Odur Xaliq, bu işləri düzəldən.

***28.07.1985 Xəstəxana***

## DUMAN YAĞIŞI

Bürünüb dumana çiskinə, çənə,
Eyləyib özünə sisi ənənə,
Erkən yır-yığışa başlayıb yenə,
Gətirmə könlümə boranı, qışı,
Yuma üz-gözümü, duman yağışı.

Alma öz əlinə dərəni, düzü,
Örtüyə bürümə bəyaz gündüzü,
Qoy aydın görünsün səhərin üzü,
Dolubdu yenə də könlümün başı,
Gəl ağlatma onu, duman yağışı.

Çəkil dağlarımın şiş tağlarından,
Yurdumun növrəstə pak bağlarından,
Qoy şəstlə parlasın göylərdə al dan,
Çiskinin əlində olmasın naşı,
Gətir al günəşi, duman yağışı.

Atını səyirdib çap sola-sağa,
Vücudun evinə şeh yağa-yağa,
Bürünüb göylər də, yerlərdə ağa,
Nə narın tökürsən gözündən yaşı,
Düşdün min bir hala, duman yağışı.

Nə dəniz görünür, nə dağ, nə meşə,
Bir rəssamsan əgər, bu necə peşə?
Qoyma fərağınını düşsün dil-dişə,
Yaman çatılıbdır göylərin qaşı,
Küsdürmə sən onu duman yağışı.

Aydın şəfəqlərə vurğundu könlüm,
Günəşlə çağlayan qurğundu könlüm,
Çənindən yamanca yorğundu könlüm,
Necə də qəmlidir yerin baxışı,
Çəkil get ellərdən, duman yağışı.

Bu yerdə hər fəsil gül çiçəkləyir,
Arzular, amallar hey ləçəkləyir,
Pəncərəmdə hər gün meh dibçəkləyir,
Gəl vurma yüz yerdən qəlbə naxışı,
Yığış oylağımdan duman yağışı.

Gözlərim od olsun parlaq günəşə,
Çoxalsın sinəmdə hey şadlıq, nəş'ə,
Qalxsın səmaların tərkinə, ərşə,
Sən allah, tez eylə sən yır-yığışı,
Çıx get yurd-yuvadan duman yağışı.

Şadimanı salma çəmənə, çölə,
Toxunma dənizə, durnalı gölə,
Qoyma ki, pak təbim, təvanım ölə,
Başlanıbdır yenə çənin axışı,
Uzaqlaş göylərdən duman yağışı.

***27.02.1986***

## GÖZƏL GECƏNİ

Dağları pərişan gözəl gecəni,
Salmışam hicranın ayaqlarına.
Ayı, ulduzları kağız eyləyib,
Çevirdim sinəmin varaqlarına.

Həsrətdən qəmlidi gecə-gündüzüm,
Hey doldu-boşaldı yolunda gözüm.
İnan, hər sinədə hədd gözlər dözüm,
Tufanın nə bənzər dayaqlarına?

Mənim məhəbbətim zərif bir çiçək,
Hər anı sevgiylə dolu bir ürək.
Ağlayar ahımdan asiman, fələk,
Günəşi çevirər mayaklarına.

Əsər həzin-həzin dəli küləklər,
Qapını-bacanı hər gün ələklər,
O şıltaq oynaqlı gözəl mələklər,
Çevrilər saçımın daraqlarına.

Oxuyar eşq ilə bağda bülbüllər,
Şərəfinə çələng toxuyar güllər,
O şirin ləhcəli yorulmaz dillər,
Oxşayar könlümün çıraqlarına.

Tək sənsiz könlümün suyu durulmaz,
Uçulmuş sarayım daha qurulmaz,
Ürəyim, ey gecə, sənə vurulmaz,
Qaçaram ilhamın soraqlarına.

***04.09.1986***

## BAHAR DUYĞULARI

Əsər sərin küləklər,
Yeri, göyü ələklər,
Şahə qalxar diləklər,
İncilərin incisi,
Ah, bu bahar gecəsi.

Təbiətin qız çağı,
Gül eyləyər düz-dağı,
Ətir saçar eşq bağı,
Açar sevgi qönçəsi,
Ah, bu bahar gecəsi.

Duyğularla qəlb coşar,
Neçə dərə, dağ aşar,
Küsənlər də barışar,
Qalxar yazın pak səsi,
Ah, bu bahar gecəsi.

Ay ulduza göz eylər,
Ürəkdə eşq köz eylər,
Bulud çəni söz eylər,
İslanar yar küçəsi,
Ah, bu bahar gecəsi.

Baş götürüb qəm qaçar,
Məram, arzu gül açar,
Ürəkləri əhd qucar,
Qəlb sevginin gecəsi,
Ah, bu bahar gecəsi.

Pərvazlanar saf ilqar,
Avazlanar muğam, tar,
Arzular da boy atar,
Duyğuların necəsi,
Ah, bu bahar gecəsi.

Şirinləşər kainat.
Qaynar, coşar bu həyat,
Qurar qəlbdə min büsat,
Xəalların necəsi,
Ah, bu bahar gecəsi.

Yaz düzlərdə qaynayar,
Qol götürər oynayar,
Ürək necə aynayar,
Şadlıq dərdi biçəsi,
Ah, bu bahar gecəsi.

Şadiman, seltək coşaq,
Biz nəğmələr gəl qoşaq,
Neçə sərhəd, yurd aşaq,
Sinə şadlıq içəsi,
Ah, bu bahar gecəsi.

***30.04.1986***

## NƏ DOLMUSAN, XƏZƏRİM?

Küsüb mavi gözlərin,
Sərt olmusan, Xəzərim.
Qan-qan deyir sözlərin,
Nə dolmusan, Xəzərim?

Dalğaların coşubdu,
Hədd-hüdudu aşıbdı,
Buludla barışıbdı,
Nə dolmusan, Xəzərim?

Saç yolur külək yenə,
Əl etmə tufan dönə,
Sirrini söylə mənə
Nə dolmusan, Xəzərim?

Qapqaradır ləpələr,
Üstünə qəm səpələr,
Dalğaların təpələr,
Nə dolmusan, Xəzərim?

Coşğunluğuna varam,
Lal sükutunu yaram,
Onsuz göynədir yaram,
Nə dolmusan, Xəzərim?

Başla oyunbaz mələk,
Qur Şadimana kələk,
Hirs-hikkəni neylək?
Nə dolmusan, Xəzərim?

***18.09.1987***

## BAHAR GƏLDİ

Bahar gəldi, yenə açdı çiçəklər,
Yeddi rəngli örpək örtdü fələklər,
Od geyindi dəli yellər, küləklər,
Yaz qalandı bir alova, atəşə,
Ehtiyatla baş endirdi günəşə.

Torpaq açdı qucağını bahara,
Verdi odlu ocağını bahara,
Dağ-düzünü bucağını bahara,
Min bir rəngə boyandı yer, çöl-çəmən,
Çiçək açdı novruzgülü, yasəmən.

Ala gözlü bulaqların gözü bol,
Dağlarının dərəsi bol, düzü bol,
İgidlərin sinəsində sözü bol,
Yığışdılar əllər şadlıq etməyə,
Bahar ilə birgə şadlıq etməyə.

Şəlalələr qayalardan süzüldü,
Bağ-bağçaya kəpənəklər düzüldü,
Bülbüllərin gözü yoldan üzüldü,
Gur yağışlar baharla rəqs eylədi,
Pak torpağı gül-çiçəyə bələdi.

***22.03.1987***

## MƏNİM SEVGİLİM XƏZƏR

Nə vaxtdır ki, qoynuna mən pənah gətirmişəm,
Ələmimi, qəmimi köksündə bitirmişəm,
Qayğılı çağlarımı bax sənə yetirmişəm,
Dağımda, aranımda könül bağrını gəzər,
Həzin duyğularımsan, mənim sevgilim Xəzər.

Yuxulu çağlarında dalğaların uyuyar,
Sanki hər hirsin, hikkən bir anlığa soyuyar,
Sükutun da suları maviliyə boyayar,
Qağayılar o həzin sakitliyini üzər,
Odlarsan sinəm için, mənim sevgilim Xəzər.

Qüssəli çağlarımda könlümü alan oldun,
Namərddən dərd udanda qeydimə qalan oldun,
Sinəmi yad çalanda tutulub dolan oldun,

Məhəbbətin ismətli təmiz aşiqə bənzər,
Dalğaların bəstəkar, mənim sevgilim Xəzər.

Bəslə qoynunda məni, ay dənizlər allahı,
Ün yetməyən sularda batırım dərdi, ahı,
Gəl birlikdə bəxtiyar qarşılayaq sabahı,
Şadiman səhər-axşam o bağrına gül düzər,
Qoynunda yer ver ona, mənim sevgilim Xəzər.

***13.09.1987***

## GÖY LƏPƏLƏR

Mələk Xəzər bəʼzən zalım olanda,
Göylərində buludları dolanda,
Başı üstün dəli xəzri alanda,
Qasırğalar gücdən düşsün xar olsun,
Göy ləpələr gur suların var olsun.

Nə hikmət var pıçıldayan sularda,
Qəlb dağlayan, ürək oyan sularda,
Ləpələri yeyib-doyan sularda,
Qopan tufan yalançı ah-zar olsun,
Göy ləpələr, gur suların var olsun.

Tufanlarla başlar qılınc yarışın,
Gedir dibə ipək yosun balışın,
Coşur ləpə, açılmayır qırışın,
Sanki deyir, ağrıların car olsun,
Göy ləpələr, gur suların var olsun.

Coşanda da bizə sayğı edirsən,
Küləklərin üstə özün gedirsən,
Yerin-göyün sağlığını güldür sən,
Saf havadan gələn bizə bar olsun,
Göy ləpələr, gur suların var olsun.

***17.07.1988 Nasosnu***

## BU YERDƏ

Payız gələr, xırmanlıqlar saralar,
Yığın-yığın göyü alar buludlar.
Avqust ayı, günün ömrü daralar,
Səmalarda köçün salar buludlar.

Bu yerlərdən uçar köçəri quşlar,
Hönkürtüylə ağlar qara buludlar.
Gur leysanlar göyün gücün alqışlar,
Gələr ərzi yara-yara buludlar.

Ağacların uca qəddi bükülər,
Fəğan edər yerdə, göydə küləklər.
Sarı yarpaq ayaq altda tökülər,
Qaçıb özün künc-bucağa bələklər.

***31.08.1988 Tağay***

## EY SU

Anamız torpağa gözəllik verən,
Dilsiz səhraların loğmanı, ey Su.
Yamyaşıl bağların əlindən görən,
Çayların dəvası, dərmanı, ey Su.

Sənsiz güney, quzey candan gileyli,
Çöllərin, düzlərin canısan, ey Su.
Sən Məcnun havalı dağların Leyli,
Canlı təbiətin qanısan, ey Su.

Gecəli-gündüzlü sənə möhtacıq,
Yanan bağırların dirəyi, ey Su.
Sənsiz naz-nemətlər içində acıq,
Dərdlərin əlacı, gərəyi, ey Su.

Təbib dərmanından ucasan, uca,
Təşnə dodaqlara diləksən, ey Su.
Yaşın əsrlərin yaşından qoca,
Ən gözəl, ən sirli mələksən, ey Su.

Təbiət baş əyir önündə min yol,
Dünyanın bu günü, sabahı, ey Su.
Sənsiz sağ qalmağa yoxdur iriz, yol,
Təmizlə dünyadan günahı, ey Su.

Dilsiz təbiətin oldun əlacı,
Gələnə, gedənə yaraşıq, ey Su.
Həyat şirin olur, ölümsə acı,
Dünyadan köçənə bir qaşıq, ey Su.

Milyonlar köçürtdün torpaq altına,
Bağçalı- bağların hörməti, ey Su.
Hansı qüvvə çatar şəffaf atına,
Hər bir gözəlliyin şöhrəti, ey Su.

Şadiman bircə an sənsiz qübarlı,
Dadınla ürəyi barlıdır, ey Su.
Müqəddəs torpağım sənlə baharlı,
Məclislərin dostlu, yarlıdır, ey Su.

Sən varsan həyat da varlıdır, ey Su.
Sən varsan həyat da varlıdır, ey Su.

***09.06.1989***

## QIZIL GÜL

Belə bükub boynunu,
Kədər saçma, qızıl gül.
O ətirli qoynunu,
Yada açma, qızıl gül.

Yoxsa ötəri həvəs,
Könlünü etdi qəfəs,
Bəlkə dəyib yad nəfəs,
Haqqdan qaçma, qızıl gül.

Ətir saçır pöhrəndə,
Büllur şehin çöhrəndə,
Tikanlı yön-yörəndə,
Mehdən uçma, qızıl gül.

Qol-budağın çəpərin,
Sozalmasın təpərin,
Sevdanı edib dərin,
Kökdən qaçma, qızıl gül.

Paklıq yaraşıq gülə,
Qoyma sinən sökülə,
Düşüb natəmiz ələ,
Ətir saçma, qızıl gül.

Hər bir rəngə girənsən,
Ürəkdən eşq dərənsən,
Sevgiləri görənsən,
Bu bir açma, qızıl gül.

Bu Şadiman tifili,
Tale edib səfili,
Dərdi səhranın fili,
Yaram açma, qızıl gül.

***26-27.05.1990***

## NOVRUZUM

Ey minillik əsrlərin sirdaşı,
Qoca şərqin müqəddəs qan yaddaşı,
Vətənimin ölməz adı, candaşı,
Yerin odu, göyün şahı, Novruzum,
Qarlı qışın yaz sabahı, Novruzum.

Sərt üzlərə, sərt gözlərə tuş oldun,
Susdurdular, gözümüzdə yaş oldun,
Qəlbimizin evindəcə baş oldun,
Tarixlərin mərd balası, Novruzum,
İnancımın pak qalası, Novruzum.

Hiylə doldu yağıların beyninə,
Hər gün min bir don biçdilər əyninə!
İnam evim, heç gəlməzdi eyninə,
Hey biçilib sovulasan, Novruzum,
Dilimizdən qovulasan, Novruzum.

Anan yerdi, atan göydü, özün yaz,
Hər sinədə cuşə gəlir telli saz,
Bu günü də, dünəni də yaxşı yaz,
Yaz solmayan varaqlara, Novruzum,
Nur ol sönmüş çıraqlara, Novruzum.

Ürəyimin odu, suyu, atəşi,
Başın üstə altun saçan günəşi,
Könlümüzə toy-bayramdır gəlişin,
Əcdadımın od-ocağı, Novruzum,
Gətir yenə güllü çağı, Novruzum.

***10.03.1991***

## SAHİLLƏRİN NƏ OLDU

Artdı, ya Rəbb, Xəzərin gur selləri,
Dalğaların yemi oldu çölləri.
Yalquzaqtək uddu xırda gölləri,
Bulud gözün leysanlarla bir oldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Çocuqluqda heç baxmazdım sözünə,
Sərilərdim sapsarı qum düzünə,
Zaman-zaman uyardım göy gözünə,
Bu halınla qəlbimə dərd, qəm doldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Göy suların öpərdi əl-üzümü,
Dalğaların qucaqlardı dizimi,
Ləpələrin oxşayardı izimi,
Xatiratın o illərdə tez soldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Gur suların şimşək təki çaxanda,
Qum dağların birər-birər yıxanda,
«Türkün baxtı qalxar Xəzər qalxanda»,
Bu məsəllə çeşmələnib yer doldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Göz yaşımız dəryanımı coşdurdu?
Gen dəryanı düzlərinə daşdırdı,
Yurda gələn qəfil bəla qışqırdı,
Dalğaların zəncirlənmiş bir qoldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Parçaladı köksümüzü güllələr,
Mağar qurdu, toy eylədi hiylələr,
Dəli-dolu bağrındanmı haqq dilər?
Sarı qumlar qanımızla oyuldu,
Xəzər, sənin sahillərin nə oldu?!

Qılınc çəkdin yağıylamı üz-üzə?
Qatillərlə böylə gəldin söz-sözə,
Dözmədinmi, zülm etdilər çox bizə?
Kükrədinmi, bağrın qanla yuyundu?
Xəzər, sənin sahillərin nə oldu?!

Şirin xanım dərd əlində naşıdır,
Artan suyun gözlərinin yaşıdır,
Bu gün övlad, sabah yurdun daşıdır,
Ağ telinin həsrətin gör kim yoldu?
Xəzər, sənin sahillərin nə oldu?!
Xəzər, sənin sahillərin nə oldu?!

***09.07.1991 Tağay***

## MƏNİM İNCİK XƏZƏRİM

Bu imkansız könlümü gəlmişəm ovutmağa,
O narahat qoynunda kədəri dağıtmağa,
Sakit ləpələr üstə başım atıb yatmağa,
Sən günəşin fövqündə muncuqtək altun zərim,
Elə pıçıldayırsan mənim incik Xəzərim.

İkimiz də taledən yaralıyıq, yaralı,
İçimiz, bayırımız ələmlərdən saralı,
Sənin də ürəyinə dağ-düyünlər çəkilib,
Köksünə dəmirlərdən bir meşəlik əkilib.
Mənimsə taleyimdə acı tufanlar əsib,
Ömrümün yollarını fəlakət ilə kəsib.
Sənin gömgöy suların mazutla əlbəyaxa,
Bu müsibət könlümü çəkir hər gün çarmıxa.
Mənimsə ürəyimi fələk ikiyə bölüb,
Ağrıları pay tutub, ağır çəkiyə bölüb.
Sən də susub durmusan küləklərin əlində,
Mən də batıb qalmışam diləklərin əlində.
Elə həşir qoparıb könlümü danlayıram,
Dağılır ürək xanəm, hər gün viranlayıram.
Hər saatım, dəqiqəm əlimdən uçan kimi,
Bəxtimin baxçasında həyat gül açan kimi.
Tökürsən göz yaşını, çılğın suların artıb,
Belinə dalğaların azğın tufanlar çatıb.
Mənimsə göz yaşımı yaralı könlüm bağlar,
Hönkürdükcə dərdlərim çeşmələr təki çağlar.
Bəbəklərin yerinə elə ürəyim ağlar...
Hönkürür qəlbimizin hələ də qırıq sazı.
Haçan gələr bizə də həyatın bahar, yazı?
Xəzər, sənin saçını yolur Şimal küləyi,
Xəlbirləyir varını poladlanmış ələyi.

Mənimsə taleyimə yağdı acı yağışlar.
Dikildi yollarıma fitnə-fəsad baxışlar.
Sən qanadları sınmış qartaltək çırpınmada,
Mənsə ünyetməz göyə, Tanrıya tapınmada.
Səni təbiət doğdu, nadanlar puç eylədi,
Özlərinə bir dünya bolluca suç eylədi.
Məni anam gətirdi bu dünyanın üzünə,
Sandım həyatı şirin, ömrümü bol xəzinə.
Hər əzaba qatlaşdım, şükür etdim pis günə,
Kim dünyadan zövq ala, kimsə ahdan döyünə.
İkimiz də ağlayıb dizimizə döyürük,
Hərdən də bəxtimizin qarasına söyürük.
Hər ikimiz zülümdən əyilmişik min kərə,
Qul olmuşuq dünyanı ram edən dərdi-sərə.
Xəzər, kəs şikayəti həzin layla de mənə,
Salma küskün könlümü sən də dumana, çənə.
Al məni pak qoynuna, ud bircə yol şir təki,
Saxla bu müsibəti əbədilik sirr təki.
Şadimanın sinəsin mərhəmətinlə oxşa,
Vur duyğulu ürəyi əbədilik sərt daşa.
Üsülca xəyanətin çap yalavac sinəsin,
Çatdır allah evinə haqqlı qəlbin haqq səsin.

***10.08.1991***

## GÜLLƏR OYNASIN

Ey sabah, şəbnəmin ürkək çağısan,
Könlümün, duyğumun eşq varağısan,
Mübarək baharın can sorağısan,
Ahəstə çiskinin qanda qaynasın,
Laləzar bağlarda güllər oynasın.

Yollara baxıram, çətirlənibdir,
Otlar bənövşətək ətirlənibdir,
Yovşanlar nazlanıb, xətirlənibdir,
Çeşmələr parlatsın büllur aynasın,
Laləzər bağlarda güllər oynasın.

Canım, iztirabdan söyləmə mənə,
Fərəhin yolunu əyləmə mənə,
Hicranı, həsrəti eyləmə mənə,
Leysanlar hay salıb göyü sınasın,
Laləzər bağlarda güllər oynasın.

Yellər ovundurur kəpənəkləri,
Uçur qanadlarda yaz küləkləri,
Arılar oxşayır bal pətəkləri,
Zəhmətdən başları necə aynasın?
Laləzər bağlarda güllər oynasın.

Təbiət möcüzə, həyat nə xoşdu,
Bunu anlamayan ürək, qəlb daşdı,
İnsan gözəlliyə özü sirdaşdı,
Könül Şadimanı necə qınasın?
Laləzər bağlarda güllər oynasın.
Laləzər bağlarda güllər oynasın.

***19.07.1985. Xəstəxna***

## MAVİ-MAVİ SULARDA

Xəzərdə qağayılar,
Tufanlartək ular da,
Yatmış dalğa ayılar,
Mavi-mavi sularda.

Qanadları ağappaq,
Başlarında ağ papaq,
Sanki qopan bir yarpaq,
Mavi-mavi sularda.

Ləpələr pıçıldaşır,
Dəniz qaynayıb daşır,
Xırda balıqlar çaşır,
Mavi-mavi sularda.

Küləklər kəpənəkdi,
Qanad açan diləkdi,
Bir döyünən ürəkdi,
Mavi-mavi sularda.

Pıçıldaşır ləpələr,
Coşub-daşır ləpələr,
Hərdən çaşır ləpələr,
Mavi-mavi sularda.

Yosunlar tumarlanır,
Ətəyi hamarlanır,
Dalğa-dalğanı anır,
Mavi-mavi sularda.

Şadimanı dərd alıb,
Alıb könlünə salıb,
Ürəyi düşüb qalıb
Mavi-mavi sularda.

***04.11.1985 Gəmidə***

## AY PAYIZ YARPAĞI

Ömrünün xəzanı başlayıb yenə,
Ay payız yarpağı, payız yarpağı.
Ayaqlar altında dağılır sinə,
Çatıb qürub çağı, payız yarpağı.

Nə az ömür verib yaradan sənə,
Söylə bu qanunmu, ya da ənənə,
Bəxtinin baharı kaş yenə dönə,
Gülə gülzar bağı, payız yarpağı.

O solğun bənizin ürəyə daşdır,
Az ömrün gözündə kədərli yaşdır,
Bu sirli həyatda bu da bir yaşdır,
Çəkmə nalə, acı, payız yarpağı.

Saralıb solanda yamyaşıl bağlar,
Xəzan küləkləri sinəni dağlar,
Qalarsan arada köməksiz, ağlar,
Bu fəsil bir yağı, payız yarpağı.

Həyat yenə coşar, yenə çağlayar,
Qüssənin, kədərin yolun bağlayar,
Xəzan ürəyinə bir daş bağlayar,
Çəkər sənə dağı, payız yarpağı.

Gözlərim kədərli səni hey süzür,
Məyusluğun necə köksümü üzür,
Təbim elə bil ki, dəryada üzür,
Seçmir qara-ağı, payız yarpağı.

Ayağım toxunur sinənə qəfil,
Ürəyin ağrayır yanır ağız, dil,
Sən allah, çöhrəndən kədərləri sil,
Əriyir qəlb yağı, payız yarpağı.

Payız gələn zaman üzünüz solar,
Üstünüzə qanun kölgələr salar,
Köksünüz alışar, qəlbi dərd alar,
Göz görməz sol-sağı, payız yarpağı.

Hər anın ölçüsü, bir sonu vardır,
Hər canın biçimli bir donu vardır,
Həyat da, ömür də varlığa yardır,
Dürdür canın sağı, payız yarpağı.

Şadimanın dərdə dözümü olmaz,
Gedən saxlanılmaz, boşalan dolmaz,
Belə aralıqda səndə can qalmaz,
Gəzmə yamac, dağı payız yarpağı.

***16.10.1985***

## AY GECƏ TUFANLARI

Gözləri yaşlarsınız,
Üşüdərsiz canları,
Nə güclü başlarsınız,
Ay gecə tufanları.

Necə də yaxın-yaxın,
Dalğalar axın-axın,
Rəhm ilə bizə baxın,
Ay gecə tufanları.

Adada var qar, sazaq,
Qoyma bu yolda azaq,
Ağrıya quyu qazaq,
Ay gecə tufanları.

Sərtliyin bəlli bizə,
Qonaqsan bu dənizə,
Qoy çıxaq bir gündüzə,
Ay gecə tufanları.

Sulara toxunmayın,
Yayılıb yaxılmayın,
Avazla oxumayın,
Ay gecə tufanları.

Sizə yox qanun, hökm,
Yox dərman, dəva, həkim,
Deyirsiz yıxım, söküm,
Ay gecə tufanları.
Ay gecə tufanları.

***26.12.1985 Nasosnu***

## DANIŞAQ, XƏZƏR

Gör necə zərifsən, necə incəsən,
O parlaq suların yaquta bənzər.
Yığıb tufanları basdın küncə sən,
Günəş şəfəqləri qoynunda gəzər.

Qağayılar gedir köksündə yallı,
Sanki lal quzusan, tumarlı, hallı,
Coşanda olursan sən qeylü-qalı,
Kəsməsin sükutu qəfil bədnəzər.

Mənim də könlümdə bir tufan yatır,
Ruhumun içində başını qatır,
Hesab et qəlbimdə qiymətli yatır,
Onun titrəyişin bir kədər üzər.

Gəl birgə oxşayaq pıçıltıları,
Anlara nur sayaq pıçıltıları,
Bilək eşqə dayaq pıçıltıları,
Əhd ilə ilqardan danışaq Xəzər.

***10.09.1986***

## PAYIZ DÜŞÜNCƏLƏRİ

Buludlar göylərin bağrını dəlir,
Dərin səmalardan duman yüksəlir,
İldırım şığıyıb pişvaza gəlir,
Əsir əsim-əsim hər yarpaq, ağac,
Payızın başında al qırmızı tac.

Hərdən pak üzünü göstərir günəş,
Görünməz ondakı əvvəlki atəş,
Ucsuz zəmilərdə qalar ot, küləş,
Qızılı rəngdədir dərələr, düzlər,
Sanki bir qarışdır uzun gündüzlər.

Gör necə sərt əsir sərin küləklər,
Yerlərə, göylərə qurar kələklər,
Yolları, izləri oda bələklər,
Tökər ağaclardan sıx yarpaqları,
Xəzana bürüyər pak torpaqları.

Uzaqlarda durna qatarı uçar,
Göyün sinəsində min cığır açar,
Balası dalınca yuvaya uçar,
Bir isti yuvacıq ona ev olar,
Payızla boşalıb, payızla dolar.

Saralmış yarpağın tökər çinarlar,
Baharın eşqiylə yenə yanarlar,
Başına buludlar tactək qonarlar,
Hər yerdən dikələr tüstü bacadan,
Nağıl arzulayar uşaq qocadan.

O uzun gecəni gün varaqlayar,
Nənələr söz ilə qəlb yaraqlayar,
Əllər əlçim-əlçim yun daraqlayar,
Bir payız gecəsi yol alıb gedər,
Qəm xiffət eləyib sinəni didər.

***22.10.1986 Gəmidə***

## ÇİNARLAR NECƏ DƏ BOYLANIR YOLA

Bəxtlərin bəlkədə qəm ova-ova,
Ən yüksək zirvədə qurublar yuva,
Baxmazlar arada gəzən söz-sova,
Köçkün xəyallarla göz dola-dola,
Çinarlar necə də boylanır yola.

Ulu sevgiləri didərginmidir?
Xəzanı, payızı üzdə kinmidir?
Həsrətli, yanğılı bu da günmüdür?
Başı duman, çiskin, çən ala-ala,
Çinarlar necə də boylanır yola.

Olub keçənlərdən olmubmu agah?
Nisgili sayırsa günahkar, hərgah,
Açılır açılmır hər sübhü-sabah,
Bəbəklər yaş-nəmlə hey dola-dola,
Çinarlar necə də boylanır yola.

Baxmazlar fəsilə, baxmazlar aya,
Bilməzlər sıldırım, bilməzlər qaya,
Gözləri öyrəşər dənizə, çaya,
Sinədə hicranlar iz sala-sala,
Çinarlar necə də boylanır yola.

Nə tufan bilərlər, nə şaxta, boran,
Nə bir çovğunlu dağ, nə isti aran,
Ay ellər, bunlardan yoxmu bir soran?
Onlara müqəddəs yurd ola-ola,
Çinarlar necə də boylanır yola.

Qərib qaranquştək köçəridirmi?
Yolların dərd-qəmin biçəridirmi?
Hali-vəziyyəti keçəridirmi?
Payıztək saralıb üz sola-sola,
Çinarlar necə də boylanır yola.

Bəlkə də yaralı Araza görə,
Haylayıb, izləyib neçə dağ, dərə,
Ömründə bir dəfə baxmazlar yerə,
Həsrəti kamantək tərs çala-çala,
Çinarlar necə də boylanır yola.

Ən yüksək zirvədə necə səkirlər,
Narahat dünyaya keşik çəkirlər,
Yanğılı sinəyə alov tökürlər,
Dərdi-sər əlində can qala-qala,
Çinarlar necə də boylanır yola.

Bəlkə gedənləri gəlib çıxmayıb,
Hansı nisgilləri həsrət yıxmayıb?
Od-alovlu illər sinə sıxmayıb,
Qurub itkininə yas bala-bala,
Çinarlar necə də boylanır yola.

Üzü bahar oldu, üzü qış oldu,
Hər eldə, obada yır-yığış oldu,
Hardasa bir nalə, bir qarqış oldu,
Qəlbi əqrəb, ilan hey çala-çala,
Çinarlar necə də boylanır yola.

Qəfil bir ölümə fəryadmı görüb?
Ova rəhm etməyən səyyadmı görüb?
Torpağa xor baxan bir yadmı görüb?
Uzun saçlarını yel yola-yola,
Çinarlar necə də boylanır yola.

Bəlkə dönük çıxıb ürək ürəyə,
Özülsüz binamı möhtac dirəyə?
Başına sərt şaxta, qar döyə-döyə,
Baxmazlar havalı heç qeylü-qala,
Çinarlar necə də boylanır yola.

Görən, bu qış günü, yazmı gözləyir?
Kərəmli, Dilqəmli sazmı gözləyir?
Yaşılbaşlı ördək, qazmı gözləyir?
Bürünüb qızılı zərli bir şala,
Çinarlar necə də boylanır yola.

Çiskində, dumanda itib-batırlar,
Dünyaya baxmaqçın göyə çatırlar,
Qolların ulduza, aya atırlar,
Düşərək min kərə lap haldan-hala,
Çinarlar necə də boylanır yola.

Bahar bulududək necə də solub,
Hansı izdə eşqi saralıb-solub,
Söylə, ey Şadiman, görən nə olub?
Qurublar zirvədə qalaça, qala,
Çinarlar necə də boylanır yola.
Çinarlar necə də boylanır yola.

***26.12.1985 Nasosnu***

## DUMAN GƏL GET

Duman gəl get, uca dağlar başından,
Nur tökülsün quzeylərin qaşından,
Boylanırsan Qafqazın göz yaşından,
İndi şadlıq, indi büsat vaxtıdır,
Çal-çağırı onun gözəl baxtıdır.

Tükənməyən söhbətim var, sözüm var,
Ulu dağlar hər qayanda gözüm var,
Şəlaləndə, bulağında dözüm var,
Keçilməzlər, şiş qayalar yıxarlar,
Yaz oldumu məcrasından çıxarlar.

Duman gəl get, dağlar aydın görünsün,
Ətəklərdə ağ buludlar sürünsün,
Güney, Qüzey al günəşə bürünsün,
Qol götürüb kəklik, turac oynasın,
Bulaqların sərraf gözü qaynasın.

Ağ qumaşı bürüyərək özünə,
Üz qoymusan dağın yamac, düzünə,
Həyadanmı pərdə çəkdin üzünə?
Duman gəl get, dağların dam-daşından,
Məyusluğu çıxsın onun başından.

Sinəm için çiskinlərə tuşlaram,
Ormanlara uçub qonan quşlaram,
Misra-misra sənə tərif başlaram,
Lalə təki bitmə quzey qaşında,
Dağlar belə duman görmüb yaşından.

Lalə, nərgiz boynu büküb yamacda,
Haray salıb qayalıqda turac da,
Lavaş yayan gəlin üçün od sacda,
Duman gəl get bərəkətli yaylaqdan,
Örpəyini götür apar oylaqdan.

Bərk şimşəklər, ildırımlar çaxsınlar,
Sellər, sular dəli-dolu axsınlar,
Coşğun çaylar bir-birinə baxsınlar,
Dolaşsınlar dərələri, düzləri,
Yuyulsunlar ot-əncərin üzləri.

Duman gəl get, yerlər, göylər bizimdir,
Bulaqların zümzüməsi közümdür,
Qayalıqdan qıvrılan çay gözümdür,
Qoy çobanlar yaysın düzə qoyunu,
Duman gəl get, qurma uşaq oyunu.

Sürülərə qurd-quş düşər bilmərik,
Qapbacanı heç süpürüb silmərik,
Bu çiskindən dodaq qaçmaz, gülmərik,
Əldə kuzə qızlar gəlir bulağa,
Qoyma çiskin yağa düzə, yaylağa.

Ağ çiçəklər ətir saçır talada,
Seyrə çıxıb bülbül Çıraqqalada,
İstəyirsən bu könlümü tala da,
Bu çaxnaşma ağacları süstləyər,
Çiskinini yal-yamaclar pisləyər.

Zümrüd gözlü bulaqların qaynayır,
Əsən mehlər gül-çiçəklə oynayır,
Başım indi işdən-gücdən aynayır,
Duman gəl get mən də baxım Qafqaza,
Bülbüllərin ucaltdığı avaza.

Şəlalələr asılıb sal qayadan,
Yenə lalə qızarıbdır həyadan,
Dərələri yuxusundan oyadan,
Səhərlərin ala gözü oyaqdır,
Duman gəl get, torpaq bizə dayaqdır.

Nələr çəkib başı qoca Qafqazın,
Bayramıdır min çalarlı gül yazın,
Taqətini kəsib günəş ayazın,
Açılıbdı bənövşələr, süsənlər,
Barışıbdır bir-birindən küsənlər.

Burda şeir, burda nəğmə bəslərik,
Dərdi-qəmi bu yerlərdən həslərik,
Göyü sevən, yer sevdalı kəslərik,
Duman gəl get, qoy gün düşsün dağ, düzə,
Qədəm basaq yaraşıqlı gündüzə.

***07.06.1986 Tağay***

## DƏNİZİNDƏ DUMAN GÖRDÜM

Yenə çiskin bürüyübdü üzünü,
Qara bulud doldurubdu gözünü,
Sirli göylər nə göstərir üzünü,
Tutqunluğu yaman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Qağayılar şaqraq-şaqraq gəzərlər,
Yay ayında çən-çisəkdən bezərlər,
Buludlar da özün əzib-büzərlər,
Üz-gözündə aman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Bir əzabmış bulud göyə gələndə,
Dəli şimşək zirvələri dələndə,
Ormanlardan ağ yağışlar güləndə,
Səndə sızlar kaman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Boşaltmaqçın göylər dolu bətini,
Şimşəklərin çaxmaq imiş çətini,
Buludlar da yenə açdı qəddini,
Yağışını ümman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Bağ-bağatın yuyulanda tərtəmiz,
Mirvaritək parıldadı çəmən, düz,
Ləpələrdə buludlardan qaldı iz,
Günəşdən pay uman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Günəş yenə parıldadı dənizdə,
Sevinc gördüm hər çöhrədə, bənizdə,
Bəxtiyarlıq bir dünyadır hər gözdə,
Səndə titrək zaman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

Xəzərinin hərarəti yaysızdı,
Malicəyə gəlib-gedən saysızdı,
Bura gəliş neçə günsüz, aysızdı,
Burda yaşıl orman gördüm, Zağulba,
Dənizində duman gördüm, Zağulba.

***07.07.1986***

## AY PAYIZ GECƏSİ

Əsər pak sinəndə sərin küləklər,
Qoşa pərvazlanar yenə ürəklər,
Uçar zirvələrə min bir diləklər,
Ucalar sevginin divanə səsi,
Ay payız gecəsi, payız gecəsi.

Gör nələr düşünər ürək bir anda,
Qurular toy-büsat dağda, aranda,
Ay işıq seliylə köksü yaranda,
Pak nura boyanar sevgi küçəsi,
Ay payız gecəsi, payız gecəsi.

Yenə qatarlanıb saysız ulduzlar,
Göyün də, yerin də öz calalı var.
Bu səssiz səmaya gəl car çəkək, car,
Coşsun duyğuların safı, incəsi,
Ay payız gecəsi, payız gecəsi.

***05.09.1986 Neft Daşları***

## MƏN HEYRANAM

Mən heyranam səndəki xoş camala,
Həm istəyə, həm arzuya, amala,
Gözəllik də bir zinətdir kamala,
Gözəl dəniz, yaraşığın itməsin,
Gözlərimdən çox uzağa getməsin.

Dalğaların mavi-mavi təpələr,
Cəhd edirlər sahilləri öpələr,
Ürəyimə bir sərinlik səpələr,
Gözəl dəniz, yaraşığın itməsin,
Gözlərimdən çox uzağa getməsin.

Sükutunda tufanların yatıbdı,
Pıçıltısı başımızı qatıbdı,
Gün də keçib, günəş artıq batıbdı,
Gözəl dəniz, yaraşığın itməsin,
Gözlərindən çox uzağa getməsin.

Ürəyimdə həyəcanlar tələsir,
Küləyintək gah sakit, gah bərk əsir,
Nə zamandı olub sənə can əsir...
Gözəl dəniz, yaraşığın itməsin,
Gözlərindən çox uzağa getməsin.

***13.04.1986. Zağulba***

## AY XƏZƏR

Gözümdə günəşsən mənim, ay Xəzər,
Günəş şəfəqlərin səntək yayarmı?
Tökülüb suların üstünə al zər,
Füsnikar hüsnündən ürək doyarmı?

Səni bədnəzərdən saxlasın dünyam,
Ətirli qoynunu qoxlasın dünyam,
Qoy ərzi tufanla yoxlasın dünyam,
Qağayılar səni tənha qoyarmı?

Dalğalar pıçıltı salıb aləmə,
Sular şərqi oxur, ona qəm demə,
Sən də qoşulmusan könül naləmə,
Bir kimsə sənintək ona uyarmı?!

***06.02.1987***

## BAHARIN AĞ YAĞIŞI

Göylər qəfil qarışır,
Qara bulud qaynaşır,
İldırımlar oynaşır,
Gözdən tökür qan-yaşı,
Baharın ağ yağışı.

Dolub-daşır navalça,
Sevinir bostan, bağça,
Yuyunur nar, tut, alça,
Yarpaqlarda naxışı,
Baharın ağ yağışı.

Küçələrdən sel axır,
Külək əsir, yel baxır,
Qəlb atlanır, tel baxır,
Göylər çatıb sərt qaşı,
Baharın ağ yağışı.

Pəncərələr hay salır,
Xəzri dəli vay salır,
Dolu tökür, çay salır,
Guruldamaq alqışı,
Baharın ağ yağışı.

Nə gözəldir leysanı,
Göyün yerə ehsanı,
Coşdurur bu eşq canı,
Əl eyləyir baxışı,
Baharın ağ yağışı.

***22.05.1986***

## YAMAN GÜNƏ SALIBDI

Bu nə kədər, bu nə qüssə, bu nə qəm,
Bəbəyimdə kölgələnib yenə nəm,
Sənə baxdım lap göynədi bu sinəm,
Qara qızıl səndən səni alıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Buludlar da göylər içrə yaş tökür,
Haray salan dalğaların qəlb sökür,
Sularına yeddi rəngli neft çökür,
Yosunların mazutlanıb qalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Ötənlərdən yadigarsan sən bizə,
Balıqları qaçır durur lap üzə,
Sularında çirkabların göz-gözə,
Laqeydilik ürəyindən çalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Çimərliklər üfunətdən boğulur,
Sahillərə zibilliklər yığılır,
Qızıl, nərə, kütüm hara dağılır?
Mavi sular indi qara olubdu,
Xəzər, səni yaman günə salıbdı.

Vətən deyib, haray salan, ey soydaş,
Bizimkidir dərə, dəniz, qaya, daş,
Gələn nəsil qoy deməsin bizə daş,
Dönük olmaq sinəmizdən çalıbdı,
Xəzər, səni yaman günə salıbdı.

Şirin xanım sənə bağlı ürəkdi,
Bol nemətin Vətənimə dirəkdi,
Göy suların hələ arzu, diləkdi,
Laqeydilik bizi bizdən alıbdı,
Xəzər, səni yaman günə salıbdı.

***24.02.1989***

## KÜLƏKLƏRİN DƏLİLİYİ

Fələklərin üzün bulud tutanda,
Şimşəkləri istəyinə çatanda,
Fəzalarda günəş qəfil batanda,
Asimanla bəlkə əhdir, peymandır,
Küləklərin dəliliyi yamandır.

Ovsunlayar yal-yamacı astaca,
Dil-dil ötər yerlə-göylə ustaca,
Açılmayan deyişməsi tapmaca,
Tanrı ilə ülfət quran imandır,
Küləklərin dəliliyi yamandır.

Birdən tökər gur, şıdırğı leysanı,
Hay-küy ilə ovsunlayar insanı,
Təbiətin bağ-bağçaya ehsanı,
İlahidən kürəmizə dərmandır,
Küləklərin dəliliyi yamandır.

***17.05.1986***

## YAYIN KÜLƏYİ

Yerlərin, göylərin sinəsin ovur,
Qatıb qabağına gördüyün qovur,
Lap tozu, torpağı aləmə sovur,
Yolu-izi kəsir yayın küləyi,
Elə dəli əsir yayın küləyi.

Qəfildən Xəzəri coşdurub yenə,
Qılıncını çalır uzuna, enə,
O hay-harayından coşubdu sinə,
Salıb çığır-bağır yayın küləyi,
Gözündən od yağır, yayın küləyi.

Bir ayağın düzdə, biri dərədə,
Çaparsan bostanda, arxda, bərədə,
Dənizdə titrəyir gəmi, bərə də,
Kimdir səni əyən yayın küləyi,
Əlindədir yüyən yayın küləyi.

Titrəyir dirəkdə işıq telləri,
Ayıltdın yuxudan yatmış elləri,
Səsinin sehrinə saldın çölləri,
Götürüb ox, nizə yayın küləyi,
Üz qoyub dənizə yayın küləyi.

Səsindən lərzəyə gəlibdi dağlar,
Coşan dalğalarla tellərin bağlar,
Dolmuş ürəklərtək iç çəkib ağlar,
Dolar baxan gözə yayın küləyi,
Dönər oda, közə yayın küləyi.

Açsan pəncərəni girər içəri,
Sanki öz qoşunun sürər içəri,
Açıb əlin, qolun sərər içəri,
Gəzər otaqları yayın küləyi,
Oxşar yataqları yayın küləyyi.

Başladı əsməyə dərə, düz bilməz,
Hirslə min kərə onu süz bilməz,
İşinin çəmini bir yol düz bilməz,
Hər yerə əl atar yayın küləyi,
Qəfildən də yatar yayın küləyi.

Günəşi özündən aslı eyləyər,
Göyləri hüzünlü, yaslı eyləyər.
Dərənin sözünü düzə söyləyər,
Qaçar ora-bura yayın küləyi,
Söylər qara-qura yayın küləyi.

Göylərin tərkində sərhədsiz yaşar,
Bir gündə qitələr, okyanlar aşar,
Dünyanı ayaqdan salıb dolaşar,
Yaman kələkbazdır yayın küləyi,
Əsəndə lap yazdır yayın küləyi.

İçir eşq qədəhin meyi qalmayır,
Özün elə yorur heyi qalmayır,
Elə gücdən düşür küyü qalmayır,
Əlin başa atır yayın küləyi,
Başın qoyub yatır yayın küləyi.

Elə oba yoxdu ora dolmayıb,
Elə qitə yoxdu əldən salmayıb,
Elə ağac yoxdu saçın yolmayıb,
Günəşin tacıdı yayın küləyi,
Od üstə sacıdı yayın küləyi.

Adam elə bilir yatan deyildi,
Çöllərdə, düzlərdə səfil, veyildi,
Heç nə həvəsinə çatan deyildi,
Gəzər dərə, düzü yayın küləyi,
Gecəbəgündüzü yayın küləyi.

***01.07.1986 Nasosnu***

## DÜNYA GÖZƏL OLUR

Alışır göylərin qoynunda səhər,
Sanki cövlan edir ağ atlı kəhər,
Torpağa bəxş edir yenə bar-bəhər,
Bir hikmət duyuram dağda, aranda,
Dünya gözəl olur gün qızaranda.

Yeni sevdalı gün baş alıb gəlir,
Yerlərdən, göylərdən sevinc yüksəlir,
Ağ topa buludlar zirvəni dəlir,
Səhər ormanlarda yuva quranda,
Dünya gözəl olur gün qızaranda.

Uçur başım üstə bəxtəvər quşlar,
Dərədə, təpədə ağarır daşlar,
Təbiət içində cana sirdaşlar,
Yel olan zülmətdən yer bozaranda,
Dünya gözəl olur gün qızaranda.

Hər təzə gündüzdə bir əzəmət var,
Əlçatmaz göylərdə uca qamət var,
Erkən səhərlərdə yeni nemət var,
Süd təki bir ağlıq yeri saranda,
Dünya gözəl olur gün qızaranda.

Məhəbbət alışır, yanır kürədə,
Hər kiçik cığırda, düzdə, bərədə,
Necə çılğın axır sellər dərədə,
Torpağın əhvalın gündüz soranda,
Dünya gözəl olur gün qızaranda.

Səhər gündoğan da qaranlıq sökür,
Dənizin üstünə mirvari tökür,
Gecənin köksünə al gündüz çökür,
Zülmətin sinəsin səhər yaranda,
Dünya gözəl olur gün qızaranda.

Başlayır yeni bir sərt, çılğın həyat,
Anlamaz tələdə, anlayan səyyad,
Duyğular yatıbsa, ey qafil oyad,
İstər yazda, yayda, qışda, boranda,
Dünya gözəl olur gün qızaranda.

Ey könül, gözünü şəhərdə açsan,
Maşın axınına qoşulub qaçsan,
Ya da ki, göylərin tərkində uçsan,
Al günəş gecənin qəlbin qıranda,
Dünya gözəl olur gün qızaranda.

Ya da ki, bir çevir üzünü kəndə,
Gündüz yaraşıqdı bərəyə, bəndə,
Tələylə gecənin salıbdı bəndə,
Al səhər toranla ara vuranda,
Dünya gözəl olur gün qızaranda.

Mən nə tamaşaçı, nə seyirçiyəm,
Soruşma, ey ürək, kiməm, nəçiyəm?
Bir halda bu yerə mən bələdçiyəm,
Pak günəş yuxudan erkən duranda,
Dünya gözəl olur gün qızaranda.

Şadiman, həyatın yanar kürədir,
Selin qarşısını kəsən bərədir,
Günəş uca dağdır, zülmət dərədir,
Gecənin üzünə gündüz duranda,
Dünya gözəl olur gün qızaranda.

***04-05.07.1986***

## AY NOVRUZ AYI

Tonqallar qalanır hey ağır-ağır,
Göylərə yüksəlir alov dilləri.
Üzlərdən təbəssüm, səadət yağır,
Həyat yola salır bir-bir illəri...

Bəxtiyar torpağın bayram günündə,
Əl-əlvan geyinir qızı, gəlini.
Sinələr oxşayan bu səsdə, ündə,
Od yurdun pak şadlıq sıxır əlini.

Baharın iyini duyur yurd-yuva,
Gəl sülh, dinclik gətir, ay Novruz ayı.
Son qoy bu dünyanı üzən söz-sova,
Qəlblərdə sevincin olmasın sayı.

Səadət istərəm dünyaya yalnız,
Bir eldə, obada axmasın qanlar,
Qoy anam təbiət qalmasın yalqız,
Sevinsin insanlar, gülsün insanlar.

Dünyanın taleyin həll etsin ağıl,
Pislik öz pərdəsin çəksin dünyadan.
Qırğın silahları qoy olsun nağıl,
Qoy nurlar ələnsin ulduzdan, aydan.

***11.03.1986 Nasosnu***

## ZAĞULBA QAYALARI

Bu çılğın hay-harayı,
Səs-sədası yayılar,
Yaradıb təb sarayı,
Zağulbada qayalar.

Üzün haqqa çevirib,
Qılıncını sivirib,
Dalğaları devirib,
Zağulbada qayalar.

Gedənləri çağırır,
Ləpələrə bağırır,
Sevinc, fərəh doğurur,
Zağulbada qayalar.

Gecələri keşikdə,
Dəniz yatar beşikdə,
Qaravulçu eşikdə,
Zağulbada qayalar.

Göy Xəzərə əsərdi,
Gah yol-izi kəsərdi,
Gah sulardan küsərdi,
Zağulbada qayalar.

Gələnlərə sirdaşdı,
Şeh içində göz yaşdı,
Dalğalara qardaşdı,
Zağulbada qayalar.

Qağayını səsləyər,
Sinəsində bəsləyər,
Dərdü-qəmi bəsləyər,
Zağulbada qayalar.

Ləpə bağrın yaranda,
Dənizə toy quranda,
Bir sərhəddir toranda,
Zağulbada qayalar.

Gilavarı uçurdar,
Yuvasından qaçırdar,
Günəşdən nur saçırdar,
Zağulbada qayalar.

İşıldar gündüz-gecə,
Qucar Xəzəri necə,
Bir tapmaca, bilməcə,
Zağulbada qayalar.

***07.04.1986 Zağulba***

## YURDUMUZA QAR ƏLƏNİR

Qış fəsilin əyalıdır,
Gəlin təki həyalıdır,
İlk addımı sayalıdır,
Pak torpağa nur ələnir,
Yurdumuza qar ələnir.

Aşıb dağdan, dərələrdən,
Keçibdi bənd-bərələrdən,
Mirvaritək, sanki dən-dən,
Göydən pambıq səpələnir,
Yurdumuza qar ələnir.

Yaraşıqdır qışımıza,
Dağımıza, daşımıza,
Sərvət tökür başımıza,
Bəyaz mələk göydən enir,
Yurdumuza qar ələnir.

Xəzri gəzir gen düzləri,
Yoxuşları, yol-izləri,
Gülür qışın pak gözləri,
Səkilərdə təpələnir,
Yurdumuza qar ələnir.

Sanki mavi səmada da,
Sıx buludlar düşüb oda,
Göy ağappaq gözəl ada,
Hər andan bir vaxt dilənir,
Yurdumuza qar ələnir.

Yer-göy sazlı bir aşıqdı,
Hər fəsili nur, işıqdı,
Xoşbəxtliklə qarışıqdı,
Dəniz təki ləpələnir,
Yurdumuza qar ələnir.

Qovur ərzdən duman, çəni,
Gəzir dağı. çöl-çəməni,
Bir əlində var səməni,
Yaz-bahara can güvənir,
Yurdumuza qar ələnir.

***15.02.1986***

## GÖYLƏRİN ÜZÜ

Yenə tutulubdu göylərin üzü,
Yenə bürüyübdü duman gündüzü,
Görən niyə dolub səmanın gözü?
Çəkilib günəşin üzünə pərdə,
Bu çılğın bağırım dözməyir dərdə.

Parla səmalarda, şüalı günəş,
Yandırsın sinəmi qoy bu odlu teş,
Mən odlar qızıyam təbibim atəş,
Ağrılı ürəyim çiskinə dözməz,
Min il də yansa da günəşdən bezməz.

Çəkil ormanlardan, ey çiskin, duman,
Söndürmə sinəmin yanğısın aman,
Vurma bu köksümə yenə ox, kaman,
Mən odlar aşiqi, odlar qızıyam,
Bir bayatıya bənd yanıq sazıyam.

Günəşli sabahlar, gündüzlər mənim,
Bu ucsuz-bucaqsız gen düzlər mənim,
Daim nur tökülən ay üzlər mənim,
Bağrıma basmışam ana torpağı,
Qoymaram toxunsun yağı ayağı.

Mən odlar qızıyam, odum, suyum bol,
Təmiz, saf havanı udum, uyum bol,
Torpağın sevgisin candan duyum bol,
Yaşayım bir qədər pak qucağında,
İsinim doyunca qoy ocağında.

Gəz ey könlüm quşu, aranı, dağı,
Bir gün ötəcəkdir o qürub çağı,
Açacaq güllərin o sevgi bağı,
Sən uç səmaların dərinliyinə,
Yol vermə eşqinin sərinliyinə.

Mən bir divanəyəm, od-alovum çox,
Bitib tükənməyən sözüm-sovum çox,
Hicran düzlərində həsrət ovum çox,
Oddan yaranana duman qorxudu,
Həqiqət günəşdi, çiskin yuxudu.

***18.06.1986***

## BULUDLAR KARVANI

Uçur yenə səmaların düzündə,
Niyə görən yaş görünür gözündə?
Bir tutqunluq, qəm, kədər var üzündə,
Kimdir görən bu yolçular sarvanı,
Hara gedir bu buludlar karvanı?

Hey sərsəri külləkləri qovlayır,
Qovur-tutur dərə-düzdə ovlayır,
Şimşəklərin başın qatır, tovlayır,
Pozur göyün əhvalını, havanı,
Hara gedir bu buludlar karvanı?

Neçə-neçə el-obalar dolaşır,
Qatar-qatar dərə aşır, dağ aşır,
Həzin-həzin göyün üzü bulaşır,
Kimdir görən bu yerlərdən qovanı,
Hara gedir bu buludlar karvanı?

Tutubdular yenə göydə qol-qola,
Heç baxmırlar yan-yörəyə, sağ-sola,
Çıxıbdılar yenə uzun bir yola,
Bu tutqunluq bürüyübdü hər yanı,
Hara gedir bu buludlar karvanı?

Gizlədibdi günəşin gül üzünü,
Doldurubdu qan-yaş ilə gözünü,
Qara şala bürüyübdü özünü,
Yenə yəqin dolaşacaq hər yanı,
Hara gedir bu buludlar karvanı?

Mağaradan çıxıb gedir bəs niyə?
Yol alıbdı yenə güney-quzeyə,
Bənzəri var harayıyla bir neyə,
Üşüdərək sızladır can ünvanı,
Hara gedir bu buludlar karvanı?

Qarış-qarış göy üzünü gəzirlər,
Şaqqıltıyla əli göydən üzürlər,
Bir-birini çox acıqlı süzürlər,
Ərşə yayır dildən qopan duanı,
Hara gedir bu buludlar karvanı?

Mən də baxıb qərib-qərib küsürəm,
Üşüyəndə küləklərtək əsirəm,
Öz içimdə öz dərdimə qəsirəm,
Göy tutulub titrər ahdan lap canı,
Hara gedir bu buludlar karvanı?

***29.06.1986***

## YAĞIŞ YAĞIR

Yenə ənginlikdə qışqırtı, haray,
Buludlar qarışıb biri-birinə.
Şimşəklər göylərdə tikibdi saray,
Əyləşib taxtında günəş yerinə.

Yenə yağış yağır sakit, ahəstə,
Səpilir torpağa mirvari kimi.
Göylər öz nəğməsin söyləyir pəstə,
Buludlar göylərin aqil həkimi.

Yenə yağış yağır, quşların səsi,
Bürüyüb ətrafı müğənni sayaq.
Yuyunur sularda həyat nəğməsi,
Ey gəlib-gedənlər saxlayın ayaq.

Bu xoş mənzərədən gəl ilham alaq,
Gəzək ənginliyi buludlar təki.
Həyat zümzüməsin ürəyə salaq,
Ürək də eyləsin həyata ərki.

***18.04.1986***

# BAYATILAR

Əzizim dağlar,
Qəlbimi dağlar,
Gülsəm üzünə
Sevincdən ağlar.
***
Ay aylar, aylar,
Keçəcək aylar,
Qəlbim həsrətlə
Səni haraylar.
***
Əzizim, mənəm,
Sənsiz gülmərəm,
Yanan ürəyin,
Dərdin bilmərəm.
***
Əzizim gülər,
Dərdimi bilər,
Həsrət əlindən
Dərdim yüksələr.
***
Əzizim, aman,
Dağlarda duman,
Həsrət odundan
Yandım, ay aman.
***
Əzizim, ötən
Arzum sənlə tən,
Nə edər könlüm,
Sənsiz, ey Vətən?!
***
Əzizinəm, gülmərəm,
Dərddən gülə bilmərəm,
Getsən məndən uzağa,
Göz yaşını silmərəm.
***
Əzizim, mən yanıram,
Həsrətindən yanıram,
Yarım uzaq ellərdə,
Qüssədən odlanıram.
***

Əzizim, bağlar keçər,
Qəlbimi dağlar keçər,
Bilsə onu sevirəm,
Sevincdən ağlar, keçər.
***
Əzizim, aman gəldi,
Dağlara duman gəldi,
Dönük eşqin əlindən
Dərdlərim yaman gəldi.
***
Ömrüm, günüm, həyatım,
Qəlbim mənim, büsatım,
De, bugünlər hardasan?
Ay mənim kainatım.
***
Həyatım aman oldu,
Varlığım yaman oldu,
Neyləyək ki, bu çağda
Ömrüm mənə man oldu.
***
Zaman mənə dar gəldi,
Pislik mənə ar gəldi,
Düzlüklə ucalsan sən,
El deməz ki, xar gəldi.
***
Yanma ürəyim, yanma,
Qərib könlüm usanma,
Dərd yaranıb çəkməyə,
Gəl bunu bir də danma.
***
Dağlar başı dumandır,
Ürəyim yenə qandır,
Gül, sən xəstə könlüm gül,
Yenə də xoşbəxt andır.
***
Kölgə getmə, bir yan dur,
Bağrımı etmə qan, dur,
Səni dözümlü bildim,
Səndən də yox həyan dur.
***
Səni mən əyan etdim,
Özümə həyan etdim,
Hissim məni aldadıb
Nahaqdan bəyan etdim.
***

Ürək, yan-yaxıl ürək,
Qəlbə deyilsən dirək,
Məni idarə edib,
Yamanca oldun zirək.

***

Bircə an dayan zaman,
İnsan deildir saman,
Biçəsən heçnə üstə,
Ayaq saxla bir aman.

***

Könlü xar etmə, gülüm,
Məni sar etmə, gülüm,
Mənasız əməllərlə,
Eli zar etmə, gülüm.

***

Dar yolun, dar qəlbi var,
Yaxşısı var, qəlbi var,
Hər sözü vicdanla de,
Desinlər ki, qəlbi var.

***

Könül – könül vurğunu,
Gəlir könül vurğunu,
Elə yaşa, ey ürək,
Desinlər, el vurğunu.

***

Günüm o itən oldu,
Pis kolda bitən oldu,
Elə yaşa, desinlər,
Müdriki – Vətən oldu.

***

Sellərtək kükrər könül,
Lazımdır hünər, könül,
Təmiz ol, elin desin,
Hər addımda ər könül.

***

Hanı bəs gülüm, hanı?
Onsuz gəzdim hər yanı,
Bir ömrü qurban verdim,
Axtarma gəl dünyanı.

***

El ürəyi dözümlü,
Mərd namərddən dözümlü,
De hansı sevər, Şirin,
Dözümsüz, ya dözümlü?

***

Ellər bilir vurğunam,
Təmizlərə vurğunam,
Naxələf vicdanlar çox,
Əsil mərdə vurğunam.

***

Yar yarın sorağında,
Qalmışam sorağında,
Vətənin müdrikliyi,
Könlümün varağında.

***

Dağ çiçəyi incidir,
Güllərin sevincidir,
Səni incidən gündən,
Könlüm məni incidir.

***

Günüm yaman ağ oldu,
Ürəyim qanla doldu,
Hər dərd verdikcə mənə,
Çalın-çarpaz dağ oldu.

***

Ürək qan oldu yenə,
Tale neylədim sənə?
Sən zülümkarlığınla,
Sitəmlər etdin mənə.

***

Əyilmərəm yada mən,
Ya əzizim, ya da mən.
Hiyləgəri, hiyləni,
Gətirmərəm yada mən.

***

Yar könlün yar alanda,
Qəlbə hicran qalanda,
Eşq də qiymətdən düşər,
Ömür-gün daralanda!

***

Məhəbbətin özüdür,
Qəlbimdə od-közüdür,
Ürəkdəki çizgilər
Sevgimizin izidir.

***

Əzizim, dağ sinəmdə,
Yox bir yer sağ sinəmdə.
Əridi dərd əlindən,
Qalmadı yağ sinəmdə.

***

Ötən illərə neylim?
Gözdə sellərə neylim?
Bəxtimin ucbatından
Düşdüm dillərə, neylim?

***

Taxtdan düşən eşq tacsız,
Getməməyim əlacsız.
Qəmlə dolu sinəmi
Həsrət alıbdı bacsız.

***06.01.1972 Siyəzən***

# DÖRDLÜKLƏR

***

Ey zaman, atını gəl yavaş səyrit,
Hələ bu dünyadan kam almamışam.
Dünyanı əlimdə çilçıraq edib,
Zülmətin evinə nur salmamışam.

***

Həyat həm şirindi, həm zəhər bir dad,
Ondan baş çıxaran ən aqil ustad,
Körpəykən başını çox tumarlayır,
Hamını aldadır bu təmas, bu dad.

***

İlahi, könlümə cahan sığmayır,
Ruhum baxışların yoldan yığmayır,
Ürəkdə buludlar toqqaşır hərdən,
Çaxdırır şimşəyi, amma yağmayır.

***

Ey şam, yanmağınla öyünmə becə,
Düşün ki, peşədir yamağın öncə.
Sənə alışqansa axşamlar, mənsə
Alışıb yanıram hər gündüz, gecə.

***

Həyat çox gözəldir, yaşamaq çətin,
O imtahanıdır bəşəriyyətin,
Udanlar, dünyanın zərin geyinər,
Uduzan, dünyanın zərbəsin yeyər.

***

Çuğlanıb təlaşım sis bürkü ilə,
Sənin həsrətinin qəm yükü ilə.
Ürəyin harayın eşitməz bəxtim,
Keçirir ömrümü lap mürgü ilə.

***

Qarışıq zamanı anlayan böyük,
Həyatın sonrakı əzabları yük,
Ey ürək, dərinə çox da baş vurma,
Ömürlə ölümü birləşdirir tük.

***

Açılıb-gülmədi üzüm dünyada,
Başımdan çəkilməz qəm, nisgil, qada,
Tale ürəyimə tutduqca divan,
Yetmədi bir kimsə aha, fəryada.

***

Sevinc alıb, sevinc əkib qəm dərdim,
Qismətə bax, qəm uçurdum, qəm sərdim,
Öz kamıyla aləm ömür keçirdi,
Ey Şadiman, qalxdı zilə bəm dərdim.

***

Könlümü könlündən uzaq sanmaram,
Özgə birisinin eşqin anmaram,
Ömrümü səninlə başa vuraram,
Bu dəli sevdadan heç usanmaram.

***

Yoxluğun, könlümdə keçilməz sərhəd,
Ani soyuqluğun fəlakət, min dərd,
Sınağa çəksən də sən Şadimanı,
O hər imtahandan çıxacaqdır mərd.

***

Bizi bir-birinə bağlayan qismət,
Özü bəxş edəcək bizə min vüs'ət,
Qapılıb sıxılma vəfalı yarım,
Tanrının xoşuna gəlir xoş niyyət.

***

Dodağında həsrətin, didərgin zümzüməsi,
Alışan xəyalları yerlərə endirən yox.
Bağrımı qiymə-qiymə edir ümidin səsi,
Kor olmuş taleyimi xoş üzlə dindirən yox.

***21.09.1990***

***

Yenə üzülübdü əlim dünyada,
Yenə mənasızdı mənimçin həyat.
Yenə bu ürəyim qan ağlayır, qan,
Yenə də qəm qurub qəlbdə toy-büsat.

***08.11.1990***

***

Dünya fitnə, dünya feil, dünya yas,
Fani insan bir-birinə qurur yas,
Ey Şadiman, ölüm-itim hər anda,
Haqqa tapın, öz könlünə qulaq as.

***12.11.1990***

# XATIRLAMALAR

## GÖZƏL

***Tələbə yoldaşım Mətanətə***

Bir xoşbəxtlik sonasısan durmusan,
Əzəl başdan gözəl bina qurmusan,
Gözlərinə, gözəl, sürmə vurmusan,
Nə yaxşıdır ötüb keçən hər anın,
Olsun gənclik təmasına şad canın.

Dilindədir pozulmayan şəfqətin,
Heyran edir adamı saf ülfətin,
Düzlüyindən qalmasın heç niyyətin,
Gözəl, sənə nəcibliyin yar olsun,
Bəxtiyarlıq həyatına bar olsun.

Baxışında təbəssümün bir aləm,
Varlığını heç görməsin dərd, ələm,
Gözlər şəhla, kirpik uzun, qaş qələm,
Yerişin də, duruşunda incədir,
Söylə, gözəl, həyat sənə necədir?

Söz-söhbətin bal-şəkərdir bax, ay qız,
Ürəyinin hər nəğməsi bir ulduz,
Qəlb diləkli, könül coşğun, göz yalqız,
Həyat adlı bir həmdəmin varındır,
Bu xoşbəxtlik, bu səadət yarındır.

İllər gözəl, aylar gözəl, an gözəl,
Ömür dadlı, saatlara yan, gözəl,
Sən bunları fərəh ilə an, gözəl,
Könül açıb bizə baxır kainat,
Coşur-daşır gənclik ilə bu həyat.

***21.03.1978. Yasamal***

## ALA GÖZLƏR

***Sevimli könül həmdəmim,***
***tələbə yoldaşım Bahara***

Ala gözlər pərişandır xeyli vaxt,
Sən qəmlisən, elin-günün bax, xoşbaxt,
El-obanın yarı olub gözəl baxt,
Baxışından məğrurluğun oxunur,
Qəmginliyin, amma mənə toxunur.

Söz-söhbətin bal-şəkərdir, dil şirin,
Heç anlamaq olmur qəlbin bir sirin,
Zehinində kamal yatıb lap dərin,
Bu dərinlik kömək olsun anlara,
Yetişəsən uğurlara, şanlara.

Bahar hara, kədər hara, qəm hara,
Qüssələrin çəkir məni lap dara,
Necə dözüm, əziz dostum, ah-zara?
Hər tərəfdən sevinc-şadlıq ucalır,
Sənin qəlbin qəm-qüssədən qocalır.

Gəl uzaqlaş, bacım, acı kədərdən,
Qara saça fikir salır yaman dən,
Gəncliyini asma zalım qədərdən,
Çalış keçsin günlərini mənalı,
Ürək sevmir kədər dolu pis halı.

Günlər gəlir bir-birindən bəxtiyar,
Zaman ötür əldə deyil ixtiyar,
Şirin bilir əzəmətli bu diyar,
Qəlbimizə bir sevdalı olubdu,
İstək ilə könlümüzə dolubdu.

***20.03.1978 Yasamal***

## SƏN BİZİ ŞAHBUZA BELƏ GƏTİRTDİN

***Tələbə yoldaşım Səkinənin ruhuna...***

Bu qəfil ölümün sarsıtdı bizi,
Soyutdu kitabdan lap əlimizi,
Ahlarda çalxatdı qəm dilimizi,
Gənckən tabutunu elə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.

Dodaqda gülüşün ilişdi qaldı,
İncik xəyalına bitişdi qaldı,
Ağrın dərd içində yetişdi qaldı,
Ana, bacı ahın telə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.

Tələbə gözündə diləyin qaldı,
Bumbuz masalarda ürəyin qaldı,
Bu necə xəstəlik, bu necə haldı?
Dərdi gənc yaşında elə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.

Şaqraq gülüşlərlə cingildəyərdin,
Şaqraq arzularla dingildəyərdin,
Sevib-sevilməkdən hər gün deyərdin...
Gözdə yaşımızı selə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.

Biz qızlı-oğlanlı qəmə batmışıq,
Gözü çalxatmışıq – nəmə batmışıq,
Qayğısız günləri hara atmışıq?
Ölmün ağ paltarın elə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.

Tələbə qəlbimiz sındı qəmindən,
Ölmü sərxoş etdin vüsal dəmindən,
Dərd qopartdı canı şən aləmindən,
Şadimanı yaman dilə gətirtdin,
Sən bizi Şahbuza belə gətirtdin.
Sən bizi Şahbuza belə gətirtdin.

***07-21.05.1981. Naxçıvan-Şahbuz***

## ŞƏFQƏT BACISI

Şəfalı əlinlə məlhəmsən mənə,
Könlümə dayaqsan, şəfqət bacısı.
Döyünür səbr ilə qayğıkeş sinə,
Həmişə ayıqsan, şəfqət bacısı.

Şiprisə dərmanlar əlinlə dolur,
Xəstəlik qüvvədən düşərək solur,
Qəfil ağrılardan əsəb də olur,
Sən ömrə işıqsan, şəfqət bacısı.

Ağrı çoxalanda, qəlbə qəsd gəlir,
Müqəddəs barmaqlar dərdə üst gəlir,
Hər gün ürək açan səsin yüksəlir,
Şəfa zirvəsini amalın dəlir,
Həmişə sayıqsan, şəfqət bacısı.

Xəstəyəm, ağrıyla əlləşir canım,
İynəli, dərmanlı keçdi hər anım,
Qoyma dərd içində odlanım, yanım,
Köç edən qəlbə can, şəfqət bacısı.

Əlləri şəfalım, nur var gözündə,
Olmaz təbəssümün əskik üzündə,
Köməksiz qalanda dərya üzündə,
Sən cəsur qayıqsan, şəfqət bacısı.

***19.07.1985. Xəstəxana***

## AY GÖZƏL

***Şəfqət bacısı Naziləyə nişanlısının dilindən...***

Qara gözlər süzüləndə, neyləyim?
Saldın məni min bəlaya, ay gözəl.
Bu halımı denən kimə söyləyim?
Bənzərin var günə, aya, ay gözəl.

Əlacsızam, könlümə bir çara et,
Demədim ki, köksün için qara et,
Yağı kimi vur qəlbimə yara et,
Ahu-naləm gəlməz saya, ay gözəl.

Çox gəzmişəm dağı, düzü, aranı,
Gəl qanatma köz bağlamış yaranı,
Küsmə gülüm, sədlə kəsmə aranı,
Sənsiz günüm dönər vaya, ay gözəl.

Baxışına, duruşuna qurbanam,
Mən ki, sənə qolu bağlı qurbanam,
Segah üstə tar kökləyən Qurbanam,*
Zilim qalxar ərşi-aya, ay gözəl.

Bizi eşqə pak bağlayan qədərdi,
Nazu-qəmzə məhəbbətdə hədərdi,
Çox güvənmə, bu gözəllik gedərdi,
Gözüm yaşı dönüb çaya, ay gözəl.

Həsrətindən bir keçilməz dağ olub,
Ayrı düşmək bu köksümə dağ olub,
Amansızlıq, vallah, gülüm, ağ olub,
Bu zülümdən könlün doya, ay gözəl.

Nə müddətdi sənə vurğun olmuşam,
Bulud təki boşalmışam, dolmuşam,
Hicranından, xəzan olub, solmuşam,
Bax üzümdə qəmdən toya, ay gözəl.

Sevgilinəm, salma, canım, düzlərə,
Bir rəhm eylə qəmdən dolan gözlərə,
Fikir vermə acı-şirin sözlərə,
Həsrətimi eşqin oya, ay gözəl.

***30.09.1985***

***Şeirdə dördüncü bəndin üçüncü misrasında məşhur tarzən Qurban Primova işarə edilir.***

## SİTARƏ

Min-min nəğmə desəm, azdır,
Sən muğamsan neyə, tarə.
Boran, tufan sənə yazdır,
Bir igidsən, ay Sitarə.

Hünərlə yaradıb-qurur,
Əməkdə lap öndə durur,
Buruqlarla qəlbin vurur,
Bir igidsən, ay Sitarə.

Əməkdədir şöhrət-şanın,
Buruqlardır kəhkəşanın,
Hünər-zəhmət hər bir anın,
Bir igidsən, ay Sitarə.

Neft Daşları yurdun-yuvan,
Köksə sığmaz mərdlik havan,
Çətinliklə vardır davan,
Bir igidsən, ay Sitarə.

Dəli Xəzər çırağındır,
Gözəl Vətən dayağındır,
Gələn xoşca sorağındır,
Bir igidsən, ay Sitarə.

Halalıqdan sevin belə,
Od qızısan yurda, elə,
Alın tərin dönüb selə,
Bir igidsən, ay Sitarə.

***22.01.1987***

## AMALYA

***Şamaxılı qızı Amalya Ağayevaya ithaf***

Ana ağrısına sığındı köksün,
Çatdın əzabları yelə, Amalya.
Böyük duyğularla bələndi hissin,
Axdı bal sözlərin dilə, Amalya.

Anan «ah» dedikcə, qəlbin ağladı,
Sinəndə doğmana sevgi çağladı,
Dözüm xəstəliyin yolun bağladı,
Döndü ana eşqi selə, Amalya.

Könlünü gah sevgi, gah ah bələdi,
Kədər tellərinə qarmı ələdi?!
İgid qız, cəsurluq, fəqət belədi,
Oğullar olmayır belə, Amalya.

El qızı, Şadiman səni alqışlar,
Çiçəklər göyərdir yağan yağışlar,
Ruhum nəğməsini sənə bağışlar...
Mərdliyini yayar elə, Amalya

***22.09.1988. Sumqayıt***

## MƏMMƏDBAĞIRIN

***Gözəl səsiylə qəlbləri ovsunlamış***
***Məmmədbağır Bağırzadəyə ithaf***

Sinəsində çağlar nəğməli ürək,
Səsi zirvə aşar Məmmədbağırın.
Ünündən saz tutar asiman, fələk,
Şəninə söz qoşar Məmmədbağırın.

Şirin zənguləsi – dağ şəlaləsi,
Gözəl mahnıları düzlər laləsi,
Hər şərqi dodağın qəlb piyaləsi,
Təb-təvanı coşar Məmmədbağırın.

Nəğməsi dodaqdan çəkilib getməz,
Gözəl şərqiləri könüldən itməz,
Hər sözü sehirdir tükənib-bitməz,
Ürəklərdə yaşar Məmmədbağırın.

Sanki cəh-cəh vuran bülbül, Şadiman,
Riqqətə gətirər ürək, könül, can,
Nəğməsi sellərtək çağlar hər zaman,
Ölkələr dolaşar Məmmədbağırın.

***04.05.1990***

## DƏSTƏ

***Neft Daşlarının əməkçi qadını Dəstəgülə***

Qismətinə düşüb nəğməli dəniz,
Sən bu çətinlikdən qorxmadın, Dəstə.
Fırtına qarşında çökdü min yol diz,
Tufana, xəzriyə baxmadın, Dəstə.

Əyildi önündə neçə yol ölüm,
Günəşi həyatdı, tufanı zülüm,
İtdi çətinliklər hey ilim-ilim,
Arzunun əksinə çıxmadın, Dəstə.

Polad estakada torpağın oldu,
Örpək əvəzinə papağın oldu,
Buruqlar çiçəyin, yarpağın oldu,
Hər zəri-zinəti taxmadın, Dəstə.

Düşdün əzablara yük çəkdi başın?
Xəzərin suları könül sirdaşın,
Ötdü gur suların üstündə yaşın,
Qəlbi ahlar ilə yaxmadın, Dəstə.

***04.05.1990***

## CEYRAN XALA

Neft Daşları bəxtinə yazılandan bir zaman,
Qorxutmadı heç səni nə tufan, nə çən, duman,
Qorxulu estakada, sınıq-salxaq yol yaman,
Ey azəri qadını, qurdun zəhmətdən qala,
Kişitək əməyinlə yaşadın, Ceyran xala.

Bə‘zən sakit, mehriban, bə‘zən də dəli Xəzər,
Həyatın o illərin bahar selinə bənzər,
Sənin halal qazancın sadə ömrünü bəzər,
Bu qayğılı bəxtin də oldu ərköyün bala,
Kişitək əməyinlə yaşadın, Ceyran xala.

Sərasər taleyinin ağrı-acısı oldu,
Qayğılı vaxtlarında çox vaxt gözün də doldu,
Sehirli illərindən bu da keçən bir yoldu,
Dözdün hər sınaqlara, yaxşı-yaman çox hala,
Kişitək əməyinlə yaşadın, Ceyran xala.

Şirin xanım, ömrümüz heç vaxt sınaqsız olmaz,
Hər gördüyün vücudlar könüldə heç yurd salmaz,
Bəxtə düşməyən işıq yollarına nur salmaz,
Sən zəhməti əqlinlə çoxdan gətirdin yola,
Kişitək əməyinlə yaşadın, Ceyran xala.

***16.04.1990***

## GEOFİZİKLƏR

Dənizin dibindən sərvət axtarar,
Enər dərin qata geofiziklər.
Tufanın, boranın bağrını yarar,
Nur verər həyata, geofiziklər.

Gecəsi-gündüzü olmaz dünyada,
Hər buruq, hər quyu bir sirli ada,
Mərdliklə yurduna verəndi fayda,
Yetər hər an dada, geofiziklər.

Sarsıtmaz onları fırtına, külək,
Coşsa da neçə yol asiman, fələk,
Hər ürək içində yanar min dilək,
Atar özün oda, geofiziklər.

Növbədə yuxusu ərşə çəkilər,
Yorğun gözlərində min dan sökülər,
Yoluna zəhmətin nuru tökülər,
Çatar yaxşı ada, geofiziklər.

Dəmir estakada, qorxulu yollar,
Onların ömürlük yoldaşı olar,
Dənizin dibinə bir lərzə salar,
Bilməz qorxu, qada, geofiziklər.

Şadiman, onlarla çiyin-çiyinə,
Dözürsən müddətdi yaxşı-pis günə,
Gərək şükürlərlə könül döyünə...
Düşəcəkdi yada, geofiziklər.

***16.04.1990***

## MEHMAN BALA

***12 yaşlı Mehmana ithaf***

Ovsunlu səsisən ana torpağın,
Nəğməndən qış olur yaz, Mehman bala.
Cəhcəhli bülbülsən şərqilər bağın,
Dil açar tar, kaman, saz, Mehman bala.

Ey azəri oğlu, sev dam-daşını,
Yoxuşlar kəsməsin heç vaxt qarşını,
Uca tut ucadan məğrur başını,
Eylə zənguləyə naz, Mehman bala.

Zili qoyub, bəmi, tellərə vermə,
Gəncliyi boş keçən illərə vermə,
Ömrün günlərini yellərə vermə,
Ağ bəxti illərə yaz, Mehman bala.

O pak nəfəsində min bir ovsun var,
Yerləri, göyləri, sanki ovsunlar,
Səsini küləklər ərzə qovsunlar,
Dolan bu dövranla saz, Mehman bala.

Şadiman çeşmədir çağlar min illər,
Ağlayan gözünü şərqisi silər,
Sənə pak xaliqdən şad ömür dilər,
Eylə kədərini az, Mehman bala.

***29.06.1990***

## ƏLÖVSƏT

***Bir vaxt həzin kamança çalmış kamansız Əliyev Əlövsət Sabir oğluna***

Gəlməsin ilhamın bir dəm zavalə,
Əlində dil açsın kaman, Əlövsət.
Ürək kamanından gül üstə jalə,
Yaman buludlanır, yaman, Əlövsət.

Çalğından alışar, yanar bu aləm,
Silkinər qaradan çıxar qəm, ələm,
Bəmini, zilini oxşayar qələm,
Tanrıdan diləyər aman, Əlövsət.

Əllərin bəzəyir zərif simləri,
Bir anda ram edər hey tilsimləri,
Salar ofsununa söylə, kimləri?
Titrəyər önündə yaman, Əlövsət.

Səni kaman üçün yaratmış allah,
Dil açar əlində «Şikəstə», «Segah»,
Qopar pərdə-pərdə «Zabul»dan min ah,
Əriyər çox yaxşı, yaman, Əlövsət.

Gəlsin kamançanın səsinə Habil,
Kökləsin qələmin Bəxtiyar, Qabil,
Bulud da, şimşək də bu səsə qabil,
Cırar sinəsini duman, Əlövsət.

İnlət kamanınla acı-ağrını,
Ağlat Şadimanın dəli bağrını,
Dünya gec hesaba alar doğrunu,
Verər qiymətini zaman, Əlövsət.

***04.04.1994***

## ROZA XANIM

***Həkim Roza Quluyevaya***

Sən loğman qızısan elin, millətin,
Əlləri şəfalı, ay Roza xanım.
Həkimlik peşəsi müqəddəs, çətin,
Hamıya vəfalı, ay Roza xanım.

Sönən ocaqların ey qəfil közü,
Ölən ümidlərin işıqlı gözü,
Şəfəqlər içində nur ələr üzü,
Hər günü cəfalı, ay Roza xanım.

Neçə ömürlərə verdin əlacı,
Tanrıdan təbiblik başının tacı,
Xəstə bədənlərin havası acı,
Eylədin səfalı, ay Roza xanım.

Hərarət gətirdin neçə ocağa,
Səadət elədin dilə, dodağa,
Döndü fərəhlərdən ürəklər dağa,
Hər sözü dəvalı, ay Roza xanım.

Qəmli ürəklərə sevinc bələyən,
Baxışı günəştək nurlar ələyən,
Allahdan yoluna uğur diləyən,
Dodaqlar dualı, ay Roza xanım

***20.04.1998***

## HƏKİM QƏNİ

***Həkim-şair Həkim Qəniyə***

Çəkilməyən dərdlərimiz sinədə,
Qoymayırlar düz deyəni dinə də,
Dərman eylə, təbib, ağlar günə də,
Həkim Qəni, zaman sərtdi, gün acı,
Ey loğmanım, özün söylə əlacı.

Çox tilsimli, açılmayan düyünlər,
Min bir hava çalar dinsiz beyinlər,

Aralıqda məkan ağlar, yurd inlər,
Həkim Qəni, söz qılıncdan ucada,
Ustad layiq şərəfə də, taca da.

Gözümüzdə yaşlarımız qan oldu,
Yurd dağıldı, ocaq köçdü qan oldu,
Ayaq altda tapdalanan man oldu,
Həkim Qəni, məlhəm dərdə çaradir.
Söz düşmənin sinəsinə yaradir.

Alverdədir, məmləkətin «mərdləri»,
Qız gəlinin əyilibdi qəddləri,
İrəvanda ümman-ümman dərdləri,
Həkim Qəni, ümidimiz sizlərə,
Dilinizdən qopan haqlı sözlərə.

Dünya qaynar, dünya dolu təzadlar,
Ərşə bülənd dodaqlarda fəryadlar,
Şişirdirlər layiqsizlər çox adlar,
Həkim Qəni, addım başı qərəzlər,
Çoxlarında sağalmayan mərəzlər.

Paxıllığın kaş dərmanı tapıla,
Düşdüyü qəlb min bir yerə çapıla,
Dərin-dərin məzarlara yapıla,
Həkim Qəni, ziyalı ah-amanda,
Qarışıbdı, vallah, yaxşı, yaman da.

Şair könül sözü qəlbə yar eylər,
Haqqı arar, ədaləti car eylər,
İlham gələn ürək hər an bar eylər
Həkim qəni sözün ziya, nur ilə,
Qəlblərdəsən yazdığın hər dürr ilə.

Yetmiş beş il nədir şair-loğmana?
Sən lazımsan hər imdadsız pak cana,
Hələ layiq varlığın çox ad-sana,
Həkim Qəni, yüz ilində yığışaq,
Ey ustadım, şərəfinə söz qoşaq.

***26.02.1995 Pirallahı***

## A ZAKİR

***Neçə-neçə xəstənin könlünə ümid toxumu səpən ankoloq-cərrah Zakir İsmayılova***

Loğmanlığın, təbibliyin bir aləm,
Çox yetmisən sən fəryada, a Zakir.
Necə sussun əlimdəki bu qələm,
Söylə çatdın neçə dada, a Zakir.

Zaman zalım, ömür qısa, gün yarı,
Təmiz könlün zirvələrin pak qarı,
Üstümüzdən atdın neçə ah-zarı,
Loğman olub yandın oda, a Zakir.

Bəxtimizdə əsdi tale yelləri,
Sən bəxş etdin neçə ömrə illəri,
Yaşatmısan həyat deyən dilləri,
Min-min qəlbdən ötdü qada, a Zakir.

Hər gülüşün qəlbdə dönür dirəyə,
Söylə neçə həyat verdin ürəyə?!
Qanad oldun, zaman oldun diləyə,
Çox yetmisən sən imdada, a Zakir.

O müqəddəs əllərində əfsun var,
Gözlərinin təbəssümü qəm qovar,
Bu doğmalıq dünyamıza sərvət, var,
El alqışın dada-dada, a Zakir.

Ey Şadiman, təbabətsiz həyat yox,
Dünya şirin, ömür yarı, mərəz çox,
Xəstəliyin tufanından qərəz çox,
Bu şöhrətin getməz bada, a Zakir.

***26.09.1988. Nasosnu***

## MEHRİCAN

***Zağulbalı qıza***

Qəlbləri oxşayır şirin sözlərin,
Alır əqilləri başdan, Mehrican.
Aləmə od səpir qara gözlərin,
Gözün uzaq olsun yaşdan, Mehrican.

Gözəllik gedəri, həyat qalacaq,
Bizi asan-çətin yola salacaq,
Ürək arzularla daşıb dolacaq,
Yoxdur kaman təki qaşdan, Mehrican.

Çox arzu, çox istək gözləyir bizi,
Adlayır neçə min gecə-gündüzü,
Altun səadətin bəxtəvər üzü,
Keçməsin qəlb qıran kaşdan, Mehrican.

Su təki arzunun axarı olsun,
Xoşbəxtlik evinə gur işıq dolsun,
Həsrətin, hicranın gül üzü solsun,
Çıxmasın hər işin daşdan, Mehrican.

Ay üzlü yarı ol sən bir igidin,
Əhdə dildarı ol sən bir igidin,
Meyvəli barı ol sən bir igidin,
Aşsın arzuların başdan, Mehrican.

Ömür bir əmanət, var gurşad, dolu,
Dərə-dağdan keçir həyatın yolu,
Yüngül səadətin heç olma qulu,
Baharın ötməsin qışdan, Mehrican.

***04-05.04.1986. Zağulba***

## RUS GÖZƏLİ

Mavi gözlərinin dərinliyinə
Nə sehirlər doldu, ey rus gözəli.
Şaqraq gülüşünün şirinliyinə,
Aləmlər mat qaldı, ey rus gözəli.

O uca qamətin çinara bənzər.
Köksündə duyğular qol-qola gəzər,
Hər günün arzusu sinəni bəzər,
Təbəssümün boldu, ey rus gözəli.

O göy gözlərinə qaçar göy dəniz,
Diləklər baş-başa, məramlar təmiz,
Salır qumlar üstə ayaqların iz,
Bu sabaha yoldu, ey rus gözəli.

Köksünün bənzəri vardır dəryaya,
Orda günlər çimər bulmaz daş, qaya,
Dönsün arzuların bir coşğun çaya,
Deməyəsən soldu, ey rus gözəli.

Qurdun Şadimanla bu yerdə ülfət,
Tanrı sevən vaxtı yarandın, afət,
Bil ki, öz qədrini, solmasın iffət,
Dilin şəkər, baldı, ey rus gözəli.

***07.04.1986 Zağulba***

## MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyazən (keçmiş Dəvəçi, indiki Şabran) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər 2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə,1975-76-ci illərdə Volodarski adına tikiş fabrikında tikişçi işləyib.1977-ci il-də ADU-nun (indiki BDU) hazırlıq şöbəsində dinləyiçi, 1978-83-cu illərdə Kitabxanaçılıq (indiki informatika fakultəsinin əyani şöbəsini bitirib. 1992-ciildə Azərbaycan jurnalist Sənətkarlığı İnstitutun məzunu olub. 1984-cu ildə Dəvəçi rayonun (indiki Şabran), hal-hazırda Siyəzən rayonun inzibatı ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nın Mədəngeofizik idarəsinin «Neft Daşları» geofizik ekspedisiyasında cizgiçi, texnik, mühəndis peşələrində

çalışıb. 2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan «Neft Daşları», «Ədalət», «Çənlibel», «Azərbaycan müəllimi», «Bütöv Azərbaycan», «Kredo», «Mütərcim», «Məhsəti» və sair qəzet-jurnallarda çap olunub.«Məcməüs-şüəra»(Şairlər məclisi), «Füzuli» ədəbi məclislərin üzvü olub. AYB-nın və CASCFEN(Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi)nin üzvüdür. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. «Modern.az», «Yalquzaq.com», «Davam.az» «Lit.parad», «Dayaq.az» və sair internet portallarla yaradıcılıq əlaqələri saxlayır. «Azpressin» və «Kredo» qəzetinin əməkdaşıdır. Şəxsi saytı aktiv faliyyətdədir.

## Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 300.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.
9. «Ay adamlar, mən burdayam», «Adiloğlu» nəş. Bakı-2012 səhifə 454, sayı 500.
10. «Seçmələr», 2-ci cild, Bakı-2012, «Adiloğlu» nəş., səhifə 326, sayı 1200.

## Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

# MÜNDƏRİCAT

Mən onu belə tanıdım ... 3
Ötən günlərim ... 21

## AMAN ALLAH, EŞİT MƏNİ

Allah ... 24
Dönmüşəm ... 24
Ya Rəbb ... 25
İlahi ... 26
Bir qəzanın eşqinə ... 26
Eşit məni ... 27
Ay Allah ... 28
Verib baş-başa ... 28
Tanrı ... 29
Oyma, İlahi ... 30
Bir qədər səbir ver ... 30
Tanrı saxlasın ... 32

## DÜNYA, NİYƏ QƏMLİSƏN

Şad yaşa insan ... 33
Tarix oxunur ... 35
Tökün yerə silahları, insanlar ... 38
Ay əsrin övladları ... 40
İnsanların taleyini düşünürəm ... 42
Xeyirli olsun ... 46
Qadınlar ... 48
Dünyam niyə qəmlisən ... 48
Analar sülhə yardır ... 50
Dünyaya əl vurmayın ... 52
Ay doğub ... 53
Qoyun azad uçsun göylərdə quşlar ... 54
Qaralıb qanı dünyanın ... 56
Toy-büsatlar gərəkdir ... 58
Qabarlı əllər ... 60
İnsan ... 60
Yuxum çin olaydı kaş ... 62
Bizim dünya adlı vətənimiz var ... 64
Dünya bizim, dünya sizin deyilmi ... 66
Dolaşaydım bu dünyanı ... 67
Dərdləri var dünyanın ... 68
Uymayaq ... 69
Şərq ... 70
Nadanın ... 72
Dağıtmayın, amandır ... 73
Ağlar qoymayın ... 74
Dünyamıza sülh gərək ... 76
Atomsuz, nüvəsiz dünya olaydı ... 77
Bu özü özüynən qalan dünyadır ... 78

Yaşamağa səsləyir ..... 79
İlahitək sanmayın ..... 80

**VƏTƏN, TORPAĞINA QURBAN**

Ucalsın başı ..... 81
Müəllim ..... 82
Yaradır insan ..... 82
Neftçilər ..... 83
Bir şərqi tanıyıram ..... 84
Novruz bayramı ..... 86
Torpaq ..... 86
Hər qarışda ..... 87
Gözəl vətənim ..... 88
Ay Araz ..... 91
Naxçıvan ..... 92
Mömünə xatun türbəsi ..... 94
Böyük gəmilərlə ..... 95
Əsrin kəşfi ..... 96
Yeni ili qarşıla ..... 96
Neft daşlarında gecə ..... 98
Vətən torpağına, daşına qurban ..... 100
Gözəldir ..... 104
Neft daşları ..... 105
Vətənim ..... 106
Sən mənim sevqili yarımsan, vətən ..... 110
Gözəl vətən ..... 111
Ey buruqlar adası ..... 112
Neftçi bacım ..... 113
Azərbaycan qadını ..... 115
Ay Rahib ..... 116
Mənim əsgər oğlum ..... 117
Çıraq qalası ..... 118
Xoş qəlmisiz ..... 120
Qalaaltı ..... 120
Bələ şəhər harda var ..... 122
Ay Neft daşları ..... 123
Sığınmışam qucağına ..... 124
Gözlərinə çıraqdır ..... 126
Torpağım ..... 128
Vətəndir ..... 128
Novruz gəldi ..... 130
İgidlər ..... 131
İnqilabına qurban ..... 132
Əbədi yaşa ..... 133
Analar ..... 134
Haqq işinə qurban olum ..... 135
Eloğlu ..... 136
Ağlama, ay anam ..... 137
Gətirmə qışı payız ..... 138
Vətən oğlu ..... 140

Quzey elin güney elə məktubu ........ 141
Polad körpülər ........ 150
Təbriz ağrıları ........ 152
Neçə-neçə qərinə ........ 154
Ay Tağayın yolları ........ 156
Qonşu, belə qonşuluğa ar olsun ........ 158
Çökməyəydi calalın ........ 159
Doğma Tağayım ........ 160
Mərdəkən ........ 162

## ÖZÜMDƏN KEÇƏ BİLMİRƏM

Könüllər şadlansın ........ 165
Ey həyat aləmi ........ 166
Xatirələr ........ 167
Ürək qınama sən məni ........ 168
Tənnalıq ........ 170
Həzin laylalarla ........ 171
Ayrılıqlar olmayaydı ........ 172
Ehtiyac ........ 173
Qocaldın ana ........ 174
Təkliyim mənim ........ 175
Səadətim ........ 176
Ağlaram ........ 177
Bir zamanlar dünya sənə dar idi ........ 178
Addımlar ........ 179
Günbatan ........ 182
Bəxtim səni çox gözlədim ........ 184
Vicdan itgisi ........ 185
Nəsrətim ........ 186
Xoş baxışlar ........ 187
Yolun azandan ........ 188
Yaxşılıq qalan deyilmi ........ 188
Qərib bir həsrət ........ 190
Niyə gərəkdir ........ 190
Hardaydın ........ 192
Düzlüyü axtarmışam ........ 192
Niyə vaxtsız ağarırsan saçlarım ........ 193
Qurasan gərək ........ 194
Dünyaya gəlmək yaman ........ 195
Öldürdü məni ........ 196
Günahdır ........ 197
Möhtacam ........ 198
Taleyim gedibdi qəfil yuxuya ........ 198
Son zamanlar ........ 199
Darıxıram ........ 200
Göz yaşına buladı ........ 200
Acılar ........ 201
Pəjmürdə ........ 201
Alov ........ 202
Həsrət yağışı yağır ........ 203

Kim yetişər sorağıma ........ 203
Deyəcəm........ 204
İnsanın zaman həyat hekəyəsi ........ 205
Mənsiz günlərim........ 208
Yollara dikilib gözlərim........ 210
Halal zəhmət........ 210
Səndən ötrü ........ 212
Bəxtimə məktub ........ 213
Atama diləkçəm........ 214
Çətinliyə düşəndə ........ 214
Oxusun xoşbəxtlik........ 215
Qaralmayaq bir-birinin qanını ........ 216
Belə yazdı yazımı........ 217
Qaç qurtar........ 218
Əldən gedən cavanlığım ........ 219
Ana laylası ........ 219
İntizar içində ........ 221
Mənəm, mən........ 222
Aldatma ........ 222
Açılmaz........ 223
Həyatdır ........ 224
Məni təkliyə atdın ........ 225
Yaşamaq istəyirəm ........ 226

**TALEYİN KÜLƏKLƏRİ**

Taleyə şikayət........ 229
Ürəyə məsləhət........ 230
Həyat haqqında nəğməm........ 231
Hərdəmxəyal........ 232
Payızlarım belə başlar........ 234
Bu yolların gələni yox ........ 235
Çətin gündə yaxşı-yaman sınanar ........ 236
Ay könül........ 237
Bu yollar nə söylər mənə........ 238
Ürəyimin həsrəti var........ 240
Aləmi var taleyin........ 241
Atam qocalır........ 242
Əziz dost........ 243
A taleyimiz ........ 244
Ocaqtək alışar necə analar ........ 245
Daşa dəyibdi ........ 245
Ağla gözlərim ........ 246
Təmizliyi qoruyaq........ 246
Yaşa ürəyim, yaşa ........ 248
Həzin laylaların........ 248
Ay illər........ 250
Anam, acıma mənə........ 251
Asimana düşübdü........ 252
Uşağlığım ........ 253
Hisslər ilə oynama........ 254

Neyləsin ... 254
Taleyimin ağıları ... 255
Yanar şam kimi ... 256
Könül ... 256
Yıxmağa nə var ... 257
Bənddi günlərim ... 258
Varmı dünyada ... 258
Əlim çatmır ... 259
Gəzdirirəm mən ... 259
Ana, ay ana ... 260
Ömür adlı gəmiyə ... 261
Yarpaq təki illərim ... 261
Gülməyir ki, gülməyir ... 262
Kəsdi yollarımı ... 263
Mənə də həyat ... 264
Gilələndi üzümtək ... 265
Həsrət yağışı ... 266
Nilufər ... 267
Yarımçıq ömürlər ... 268
Taleyimiz var ... 270
Düşdü ... 270
Ağla məhəbbətim ... 271
Könül gileyi ... 272
Anamdı ... 272
Qaytar illəi geri ... 273
Bəxti gəzdi gözüm ... 274
Ayrılıq nə uzun çəkdi ... 274
Ayrılıq nə vaxt bitər ... 275
Qara baxtım sən yat hələ ... 276
Qayıt ümidgahım ... 276
Qapı açardım ... 277
Qayıtmaz ... 278
Həkim ... 278
Gördüm ... 279
Körpələr ... 280
Gözləyirəm mən ... 280
Anamız ... 282
Bir ananın hekayəti ... 283
Sən mənim səsimi eşidəcəksən ... 285
Başımızın üstün gizli alır dərd ... 286
Ey bəxt ... 287
Xəstənin ümidləri ... 288
Mən sənə dost dedim ... 290
Bu dünyaya gələndə ... 295

**İLHAM QANADLARINDA**

Xəyalım ... 298
Sevirəm – bu sözdə həzin bir layla ... 300
Dərdli ürəyim ... 303
Ürək döyüntüm ... 304

Səni arzuladım 305
Tükənməzdir bulağı 306
Mənim duyğularım 306
Ürək çırpıntılarım 308
Oxunmayan şeirlər 309
Gəlmisən 310
Sinə dolu, gözü ağlar şairəm 311
Həyat bizə layla çalar 312
Yaxşılığın ünvanı 313
Açıq məktub 314
Ömür 315
Könlümə məktub 316
Həsrət qalmışam kəndə 317
Könlümə yağış yağır 318
Payız axşamı 319
Bu gecə yuxum qaçıb 320
Əksimi kağıza köçürən oğlan 321
Bahar soraqlı 322
Mən necə yaşayım 322
İlhamla addımlar qoşa ürəyim 323
Çadır qurmuşam 324
Xəyallar sinəni didir 325
Mən səndən ötrü 326
Yaxa qurtara bilməz 326
Uçan röyalar 327
Gəzir duyğularım 328
Ay ürəyim, gəl dilləşək 329
Yazma deyirlər mənə 331
Bahar gəlib düzünə 332
Od-Atəş sığmayır 333
Sənin yadigarın məndə qalıbdı 334
Gecəm, xoş gəldin 334
Od-atəşə atırsan, könül 336
Bu axşam 337
Ağlın, düşüncənin dərinliyində 338

**MƏHƏBBƏTİN İŞIĞINDA**

Məni məftun eyləyən 339
Qovla bu çiskini 340
Lallığa qapılma 340
Vurğun olmuşam 341
Dilsiz sevgi 342
Həsrətli gözlər 343
Hardasan 344
Hicrində yanır 345
Belə istəyiəm 345
Qara gözlər 346
Soyuq payızlarım 346
Göndərsən evimə karvanla qəmi 348
Bu görüş oxşamır 349

Həsrət qalmışam ... 350
Dinləyən ürək ... 351
Şirin kəlmələrin ... 352
Həsrət qalıbdı ... 352
Dünən qarşılaşdıq ... 353
Gözəl qız ... 354
O gözlər kimi ... 354
Mehriban baxışların ... 357
Yolunu gözləyirəm ... 357
Haralarda qalmısan ... 359
Ay gözümün işığı ... 360
Sənsiz günlərim ... 361
Yarım gəlib çıxmadı ... 361
Qəmimnən yox heç kəsdə ... 362
Sevgi demə ... 363
Nə gəlməz oldun ... 363
İndi yola baxıram ... 364
İnciyən yar ... 365
Ay ürəyimin sirdaşı ... 365
Hərdəmxəyal sevən ... 366
Sənə nə deyim ... 368
Kölgə salmısan ... 369
Sevgi olsaydı ... 369
Niyə qıydın ... 370
Sonalar ... 370
Ay etibarsız ... 371
Kim yolundan etdi səni ... 372
Mən daha gözləmirəm ... 373
Məhəbətdə söz olarmı ... 374
Məni həsrət səsləyir ... 375
Dumanlar alar ... 376
Sənsiz gecəm uzanır ... 377
Çöküb sinəmə ... 378
Həsrət yandırır məni ... 378
Ürək səni gözləyir ... 380
Gözlərinə baxaydı ... 380
Səninlədir ürəyim ... 382
Kaş yanımda olaydın ... 383
Mən vurulmuşam ... 384
Soyuq küləklər əsir ... 385
Gəlişinlə ... 385
Gözlərimin oduna ... 386
Bəxtəvər elə ... 387
Yenə girdi aramıza ayrılıq ... 388
Yuxu oldu xəyalın ... 389
Dözməyən gülüm ... 390
Ayrılığı danaydın ... 390
Getdiyin yola ... 391
Gözlərinin hekayəti ... 392
Könlümə od qaladı ... 393
Qəlbləri atəşə salandı sevgi ... 393

Sən bax özünə ... 394
Deyirsən ki, sevmirəm ... 395
Çata bilmirəm ... 396
Gəlib çıxmırsan ... 397
Dağlı gözəli ... 397
Gözlərin ... 398
Ürəyim oldu ... 398
Ala gözlərin ... 399
Əlini üzmərəm səndən ... 400
Gileyliyəm ... 400
Sən ola-ola ... 401
Həyatıma gələndən ... 402
Könlü didib-parçalar ... 402
Məndən uzaq dolan dur ... 403
Keçə bilmirəm ... 404
İztirabda qoyma məni ... 405
Usanmışam mən daha ... 406
Qadan alım ... 407
Sönməz işığı ... 407
İnsaf eylə ... 408
Qaladı keçdi ... 408
Hicran bulağından içirtmə gülüm ... 409
Ayrılmalıyıq ... 409
Düşəcəksən yadıma ... 410
Mənim məhəbbətim ... 410
Heç zaman ovunmayacaq ... 411
Necə gedirsən ... 411
Zalım ... 412
Pünhan getmə ... 413
Dözmürəm sənsizliyə ... 413
Üzülüb əllərim ... 414
Tükənən deyil ... 414
Niyə dəyməyir gözə ... 415
Gələsən bu gün ... 416
Sevginin oduyla ... 416
Özün gəlməsən ... 417
Könlümün asimanında ... 417
Əlçatmaz asiman ... 418
Vida ... 418
Nə tez belə unutdun ... 419
Ürəyim qulaqdadı ... 419
Getmisən ... 420
Talayıb məhəbbətin ... 420
Ovunmaz gülüm ... 421
Qapımı döyür xəyalın ... 421
Sənsizlik ... 422
Ürək sevə-sevə ... 422
Bəlalı məhəbbətim ... 423
Gəl eşit ... 424
Könlümü ovladı, neylim ... 424
Dikməsin yollara ... 425

Saldı gur işıq ... 425
Sənsizləmişəm ... 426
Həsrət mənimdi ... 426
Kəsilib yolların ... 427
Sordum səni ... 427
Gülüzlü sevgilim ... 428
Qırıb əhdi haqdan qaçan ... 428
Nalan qalan ürəyi ... 429
Gücsüz bəndəyik ... 430
Məktubu gözümün yaşıyla yudum ... 430
Eşitdim gəlmisən ... 431
Talan eyləmə ... 432
Bir daha ... 432
Dünyaya işıq doğdu ... 433
Sən belə ... 433
Açdı qəlbdə həsrət ... 434
Könlümün dilin bilib ... 434
Ürəyimdə sel kimi ... 435
Gülə-gülə ... 436
Müdhiş ələm ... 436
Qarşıdan keçirsən ... 437
Həyatım var ... 437
Qəlbdə dağlar qalıbdı ... 438
Yollarında şam kimi ... 438
Ürək baxmayır sözə ... 439
Gizlətmisən gözümdə ... 440
Cırar yaxasını ... 440
Üzüldü əlim əlindən ... 441
Yaraladı sinəmi ... 442
İncimə ... 442
Niyə belə ... 443
Baxa-baxa ... 444
Ağla, gözlərim, ağla ... 445
Sevgilər körpü salandan ... 446
Gəlmə bu yerə ... 446
Sən allah ... 447
Yetər bu ayrılıq ... 448
Dilim dilinə çata ... 448
Gəl əzizim ... 449
Mat qalıb ... 450
Unuda bilmirəm ... 450
Özün bil ... 451
Darıxıram ... 452
Qəfil ayrılıq ... 452
Əlimiz yetsin ... 453
Gəlsən də, gəlməsən də ... 453
Sən oldun ... 454
Nədir sözün ... 454
Yazıla hünərimiz ... 455
Hardan yol tapmısan ... 456
Sən gəlməsən ... 456

Könlümə gəlmə yaxın ... 457
Möhnətinlə qalmışam ... 458
Üzdü ürəyimi, üzdü bu həsrət ... 459
Əlim əlinə yetə ... 460
Bir səhər ... 461
Gəlmədin ... 462
Səndən keçə bilmirəm ... 462
Keçmiş ola o günlər ... 463
Apardı ... 464
Bu görüş ... 465
Baxışlar ... 466
Könül gileyi ... 466
Bacarmadım ... 467
Səni unutmaq çətin ... 468
Sənsiz bu həyat ... 468
Unudan deyil ... 469
Könlümə munis ... 470
Ürək, o ürək deyil ... 470
Qayıtmaz daha ... 471
Ayrıldıq ... 472
O sevginin kölgəsi ... 473
Gözlərim də itirdi ... 474
Sən olmayanda ... 475
Mənimçin yoxsan ... 476
Niyə bitməz ... 476
Nigarançılıq ... 477
Qələm çəkdi ... 478
Nə çəkdiyimi bilərsən ... 478
Neylim ... 479
Əbədi səadət olsun evində ... 480
Gözlər ... 480
Sən mənə lazımsan ... 481
Qaytara bilmirəm ... 482
İnanmıram yoxluğuna ... 482
İtirdim səni ... 483
Amandır ... 484
Yarım ... 485
Gəl dön bu sevdadan ... 486
Könlünə qovuşsa ... 487
Tələsirəm ... 487
Axtaracağam ... 488
Dön yarına ... 488
Titrəyir göz yaşım ... 489
Qayıt yuvamıza ... 489
Yaman günə qoyma məni ... 490
Röyasına dalıram ... 491
Unut məni ... 492
Bir dadlı röya ... 493
Ayrılığa satma məni ... 493
İki damla göz yaşı ... 494
Elə istəyirəm ... 494

Bilməyə qayıt ... 495
Atdı uçruma ... 496
Məhəbbətimiz ... 497
İradə ... 497
Bilmədin ... 498
Solma məhəbbət ... 499
Bu necə sevgi, Allah ... 500
Ələm tacı ... 500
İlhamə ... 501
Bir əlac etmədi ... 502
Əfv et ... 502
Səsim qulağında düşüb qalacaq ... 503
Həsrət yangısı ... 504
Sevgi təranəsi ... 505
Nişan üzüyü ... 506
Oğlan ... 506
Bənövşələr açanda ... 507
Bəhanəsiz get ... 508
Əllərini ver mənə ... 508
Kəməndinə salıbdı ... 509
Sinəyə məlhəmdi ... 510
Sevgi söhbəti ... 510
Gizli baxış ... 511
Könlə şikyət ... 512
Gözlərini sevirəm ... 513
Gözlərində sevgim var ... 514
Sən hardan biləsən ki ... 514
Sən gələydin ... 515
Bəxtəvər oğlan ... 516
Şirin yuxu olaydın ... 516
Könül qapımı ... 517
Məhəbbətin alovsuz ... 518
Hansı xilqətdən yaranıb ... 518
Sevgi hekayəti ... 519
Səni arzuladım ... 520
Sənlə barışıb ... 520
Aparsın səsimi ... 521
Axtarır gözüm səni ... 522
Salıbdı bəxtimi eşqin kəməndə ... 522
Qarşıma çıxarkən ... 523
Qəfil çıxıb qarşıma ... 523
İlqarından dönən ... 524
Tale mənə vəfa qılsa ... 524
Səndən mənə nə qaldı ... 525
İnsanın yaradan əli ... 526
Mübarək olsun ... 526
Niyə çıxdın qarşıma ... 527
Nə sızlarsan kəman kimi ... 528
Düşdüm oduna ... 529
Sən çıxaydın qarşıma ... 530
Eşq oduyla alışan ... 530

Saldı eşqin məni əcəb kəməndə ........ 531
İndi də dikilib yoluna gözlər ........ 532
Səmaya bənzər ........ 532
Gözlərinin dərinliyində ........ 534
Şux baxışlı mələyəm ........ 534
Yabançı olma ........ 535
Gizli baxışlar ........ 536
O gözlərə həsrət qalmışam ........ 537

## QƏZƏLLƏR

Canbir olan yarımdan ........ 538
Gəlməz olub ........ 538
Alışır yanır ürək ........ 539
Sorağın gəldi mənə ........ 539
Alışır yanır sinəm ........ 539
Düşürüb qəmə canı ........ 540
Fələk tuş etdi əcəb ........ 540
Dad əlindən fələyim ........ 541
Bağrı yanan, ay şəhidim ........ 541
Gözlədim yolunu ........ 542
Kafirlər yaman salıb min dərdü-bəlaya eli ........ 542
Yanıram ........ 543
Məmləkətim haray ........ 543
Mən çəkirəm ........ 544
Eləyir ........ 544

## TƏBİƏT QOYNUNA ÇAĞIRIR MƏNİ

Bahar haqqında nəğməm ........ 545
Xəzər haqqında nəğmə ........ 546
Bahar sabahın xeyir ........ 548
Dəniz niyə coşmusan ........ 549
Axşamlar ........ 551
Mavi Xəzərim ........ 554
Qoy baxım ulduzlara ........ 556
Belə yaya yay deməzlər ........ 557
Duman yağışı ........ 558
Gözəl gecəni ........ 559
Bahar duyğuları ........ 560
Nə dolmusan, Xəzərim ........ 561
Bahar gəldi ........ 562
Mənim sevqilim Xəzər ........ 562
Göy ləpələr ........ 563
Bu yerdə ........ 564
Ey su ........ 564
Qızıl gül ........ 565
Novruzum ........ 566
Sahillərin nə oldu ........ 567
Mənim incik Xəzərim ........ 568
Güllər oynasın ........ 570

Mavi-mavi sularda ... 571
Ay payız yarpağı ... 572
Ay gecə tufanları ... 573
Danışaq, Xəzər ... 574
Payız düşüncələri ... 574
Çinarlar necə də boylanır yola ... 575
Duman gəl get ... 577
Dənizində duman gördüm ... 579
Ay payız gecəsi ... 580
Mən heyranam ... 580
Ay Xəzər ... 581
Baharın ağ yağışı ... 582
Yaman günə salıbdı ... 582
Küləklərin dəliliyi ... 583
Yayın küləyi ... 584
Dünya gözəl olur ... 586
Ay Novruz ayı ... 588
Zağulba qayaları ... 588
Yurdumuza qar ələnir ... 590
Göylərin üzü ... 591
Buludlar karvanı ... 592
Yağış yağır ... 593

**BAYATILAR** ... 594
**DÖRDLÜKLƏR** ... 599

**XATIRLAMALAR**

Gözəl ... 601
Ala gözlər ... 602
Sən bizi Şahbuza belə gətirdin ... 603
Şəfgət bacısı ... 604
Ay gözəl ... 604
Sitarə ... 606
Amalya ... 606
Məmmədbağırın ... 607
Dəstə ... 608
Ceyran xala ... 608
Qeofiziklər ... 609
Mehman bala ... 610
Əlövsət ... 611
Roza xanım ... 612
Həkim Gəni ... 612
A Zakir ... 614
Mehrican ... 615
Rus gözəli ... 616

**MÜƏLLİF HAQQINDA ... 617**
**MÜNDƏRİCAT ... 619**

**Şirin Xanım**
**Kərimbəyli Şadiman**

# ÖTƏNLƏRDƏN
## GƏLƏN SƏSLƏR

Kağız formatı: 60x84 1/16
Həcmi: 39,5 ç.v.
Sayı: 500

QANUN NƏŞRLƏR EVİ

Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az